Milli neft strategiyasının müəllifi

Ümummilli lider **HEYDƏR ƏLİYEVİN**

işıqlı xatirəsinə

**ƏRƏSTUN MEHDİYEV**

# AZƏRBAYCAN RESPUBLİKASININ NEFT STRATEGİYASI: FORMALAŞMASI VƏ HƏYATA KEÇİRİLMƏSİ (1991-2023)

**Bakı-2025**

ISBN 9789952479010

*ADPU Elmi Şurasının 24 aprel 2025-ci il tarixli*
*6 saylı qərarı ilə çap olunur*

**Elmi redaktor və ön sözün müəllifi:**
*Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü,*
*Dövlət mükafatı laureatı*
**Yaqub Mahmudov**

**Rəyçilər:** *tarix elmləri doktoru, professor*
**İsmayıl Məmmədov**
*tarix elmləri doktoru, professor*
**Vəkil Həsənov**
*tarix elmləri doktoru, professor*
**Xəqani Məmmədov**

**Ərəstun Mehdiyev. Azərbaycan Respublikasının neft strategiyası: formalaşması və həyata keçirilməsi (1991-2023).**
Bakı, "Ocaq" Nəşriyyat-poliqrafiya MMC, 2025, - 344 s.

Monoqrafiyada müstəqillik illərində Azərbaycanın yeni neft strategiyasının hazırlanıb həyata keçirilməsi məsələləri, o cümlədən xarici kapitalın neft-qaz sənayesinə cəlb edilməsinin səbəbləri, dünyanın nüfuzlu neft şirkətləri ilə aparılmış danışıqlar prosesi, "Əsrin müqaviləsi"nin əsas müddəaları və sonrakı dövrdə imzalanmış digər sazişlərin başlıca cəhətləri geniş təhlil edilir.

Əsərdə, eyni zamanda, neft strategiyasının reallaşdırılması nəticəsində Azərbaycan neft-qaz sənayesinin inkişaf yoluna çıxması, şaxələndirilmiş ixrac boru kəmərləri sisteminin qurulması, "Cənub Qaz Dəhlizi" layihəsinin meydana gəlməsi və həyata keçirilməsi, Dövlət Neft Fondunun yaradılması və onun fəaliyyətinin ölkənin sosial-iqtisadi inkişafına töhfəsinin əsas aspektləri sistemli şəkildə araşdırılır və qiymətləndirilir.

Kitab Azərbaycanın müasir tarixi üzrə elmi tədqiqat aparan mütəxəssislər, ali məktəb tələbələri və Vətən tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 9789952479010

© Ərəstun Mehdiyev, 2025

# KİTABIN İÇİNDƏKİLƏR

**Ön söz** .................................................................. 7
**Giriş** .................................................................... 16
**I Fəsil. Xarici neft şirkətləri ilə əməkdaşlığın başlanması. Milli neft strategiyasının formalaşması** ........................................................ 39
1.1.Xarici kapitalın neft-qaz sənayesinə cəlb olunmasını şərtləndirən amillər ............................... 39
1.2.Qərb şirkətləri ilə danışıqların başlanması. "Əsrin müqaviləsi"nin imzalanması ........................ 45
1.3.Neft-qaz sənayesinə xarici sərmayə axınının güclənməsi. Milli neft strategiyasının təşəkkül tapması ........................................................... 67

**II Fəsil. İlk neft müqaviləsinin yerinə yetirilməsi. Azərbaycan neftinin dünya bazarlarına çıxarılması** ........................................................ 102
2.1."Əsrin müqaviləsi" və neft sənayesinin dirçəliş yoluna qədəm qoyması. ............................. 102
2.2.Şimal ixrac marşrutunun seçilməsi və reallaşdırılması ..................................................... 131
2.3.Neft ixracı marşrutlarının şaxələndirilməsi. Qərb neft boru ........................................................ 145
2.4.Bakı-Tbilisi-Ceyhan ixrac marşrutunun gerçəkləşməsi uğrunda mübarizə: geosiyasi və iqtisadi aspektlər ..................................................... 156

**III Fəsil. "Şahdəniz" müqaviləsi. Azərbaycanın qaz ixrac edən ölkəyə çevrilməsi** .................... 194
3.1.Cənubi Qafqaz Boru Kəmərinin fəaliyyətə başlaması ........................................................ 194
3.2."Cənub Qaz Dəhlizi" layihəsinin formalaşması və həyata keçirilməsi..................... 203

**IV Fəsil. Dövlət Neft Fondunun yaradılması və fəaliyyətinin əsas istiqamətləri**.......................... 246
4.1. Suveren fondların fəaliyyəti ilə bağlı beynəlxalq təcrübə və Azərbaycan qanunvericiliyi .................................................... 246
4.2. ARDNF-in fəaliyyətinin əsas istiqamətləri ....................................................... 263

**Nəticə** ........................................................................... 286
**Резюме**.......................................................................... 302
**Abstract** ........................................................................ 304
**İstifadə edilmiş ədəbiyyat siyahısı** .................................. 306
**İxtisarlar** ...................................................................... 341

# VƏTƏN TARİXŞÜNASLIĞIMIZA QİYMƏTLİ TÖHFƏ

## Ərəstun Mehdiyevin "Azərbaycan Respublikasının neft strategiyası: formalaşması və həyata keçirilməsi (1991–2023)" monoqrafiyasına

## ÖN SÖZ

Azərbaycan neft sənayesi tarixinin tanınmış tədqiqatçısı Ərəstun Mehdiyevin **"Azərbaycan Respublikasının neft strategiyası: formalaşması və həyata keçirilməsi (1991–2023)"** monoqrafiyası müstəqillik dövrü tarixşünaslığımızın ən mühüm uğurlarından biridir.

Azərbaycanın qədim tarixə malik olan zəngin neft sərvətləri uzun dövr ərzində yurdumuzun şöhrətini bütün dünyaya yaymaqla yanaşı, həm də tarixin ayrı-ayrı məqamlarında ölkəmizi böyük fəlakətlərə düçar etmiş, çətin sınaqlarla üz-üzə qoymuşdur. Daim aparıcı dövlətlərin hərbi-siyasi planlarında xüsusi yer tutan, hər iki cahan savaşında müharibə tərəflərinin əsas işgal hədəfi olan Bakı nefti istər bolşevik Rusiyasının dövlət kimi dirçəlişində, istərsə də 1941–1945-ci illər müharibəsində Sovet İttifaqı xalqlarının faşizm üzərində qələbəsində və dünyanın digər xalqlarının faşizm əsarətindən xilas olmasında həlledici rol oynamışdır. Bütün bunlara baxmayaraq, Azərbaycan neftçilərinin əməyinə layiq olduqları qiymət verilməmişdir. Əksinə, yurdumuzu imperiya caynaqlarından buraxmaq istəməyən kommunist rejimin çirkin maraqlarına uyğun olaraq Bakıda qanlı 20 Yanvar qırğını törədilmiş və erməni-faşist işgalının baş tutmasına hərtərəfli kömək göstərilmişdir.

1993-cü ildə xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan və Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə

seçilən Ulu Öndər Heydər Əliyev neftin böyük hikmətinə dərindən bələd olduğuna görə Vətən naminə *"olum ya ölüm"* mübarizə meydanında çarpışan gənc dövlətimizin ümdə mənafelərini əsas tutaraq, milli neft strategiyasını formalaşdırıb uğurla həyata keçirməyə başladı. Ölkəmiz neft sənayesinə xarici investisiyanı cəlb etməklə iqtisadi inkişaf və sosial rifah yoluna qədəm qoydu. Məsələyə Azərbaycanın keşməkeşli müstəqillik dövrü tarixinin öyrənilməsi və yurdumuzun tarixi müqəddəratı baxımından yanaşdıqda, Ərəstun Mehdiyevin oxuculara təqdim olunan yeni monoqrafiyasının böyük aktuallıq kəsb etdiyini xüsusi olaraq vurğulamaq lazımdır.

Monoqrafiyada qələmə aldığı problemin peşəkar tədqiqatçısı olan Ərəstun Mehdiyevin oxuculara təqdim etdiyi geniş əsərində apardığı araşdırmanın gedişində əldə edilmiş elmi yenilikləri müəllifin böyük uğuru kimi qiymətləndirmək olar. Çünki bu problem ilk dəfə olaraq belə sistemli və kompleks şəkildə xüsusi tədqiqat mövzusu kimi məhz onun tərəfindən araşdırılır. Təqdirəlayiq haldır ki, bu sahədə uzun illərdir tədqiqat aparan müəllif qarşısına qoyduğu vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün çoxsaylı mənbələrdən, ilk növbədə Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin nitq, məruzə və müsahibələrindən, digər rəsmi dövlət sənədlərindən, SOCAR-ın cari arxiv materiallarından, Dövlət Neft Fondunun statistik toplularından, dövri mətbuatdan və başqa materiallardan geniş istifadə etmiş, həm də onların böyük hissəsini ilk dəfə elmi dövriyyəyə gətirmişdir.

Bu baxımdan diqqətçəkən əsas məsələlərdən biri tədqiqatçının "Əsrin müqaviləsi" ətrafında danışıqlar getdiyi dövrdə Ümummilli lider Heydər Əliyevin neft diplomatiyasının mühüm məqamlarını, çətin maneələri dəf etmək naminə siyasi gedişlərini, çevik manevrlərini, danışıqlar prosesinin mərhələlərini çox maraqlı və gerçək tarixi faktlarla düzgün qiymətləndirməsi və bu siyasətin mahiyyətini tam dolğunluğu ilə açıb göstərə bilməsidir.

Müəllifin bu qiymətli tədqiqatında xarici şirkətlərlə danışıqların gərgin dövrlərində Ulu Öndərin ən məsul siyasi tapşırıqlarının uğurla yerinə yetirilməsində, xüsusən Hyustonda aparılan müzakirələrdə Xəzər dənizinin hüquqi statusu ilə bağlı Rusiyanın təzyiqləri nəticəsində yaranmış əngəllərin aradan qaldırılmasında Heydər Əliyevin ən yaxın silahdaşı, o zaman Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyevin çox böyük rol oynamasını konkret dəlillərlə vurğulaması elmi araşdırmanın dərinliyini göstərən faktlardan biridir.

Monoqrafiyada həm də milli neft strategiyasının ardıcıllıqla və qətiyyətlə həyata keçirilməsi sahəsində Ümummilli lider Heydər Əliyevin, bütövlükdə Azərbaycan hökumətinin siyasəti ətraflı işıqlandırılmış, Ulu Öndərin gündəlik nəzarəti altında müasir texnologiyalara əsaslanan yeni neft infrastrukturunun qurulmasına xüsusi diqqət yetirilmişdir. Bu baxımdan ixrac boru kəmərləri sisteminin yaradılması, xarici ölkələrin və Azərbaycanın regiondakı geosiyasi maraqlarının uzlaşdırılması ilə bağlı görülən tədbirlər, onların nəticələri, iqtisadi-siyasi aspektləri zəngin faktik material əsasında araşdırılmış və elmi cəhətdən tamamilə düzgün qiymətləndirilmişdir. Bununla belə, Bakı–Supsa, Bakı–Novorossiysk və Bakı–Tbilisi–Ceyhan ixrac boru kəmərlərinin inşasının iqtisadi, texniki-maliyyə məsələləri geosiyasi mübarizə müstəvisində ilk dəfə olaraq ətraflı nəzərdən keçirilmiş, dərindən təhlil edilmişdir.

Ərəstun Mehdiyevin yeni monoqrafiyasında əldə etdiyi ən mühüm uğurlardan biri "Şahdəniz" müqaviləsinin yerinə yetirilməsi, Azərbaycanın qaz ixrac edən ölkəyə çevrilməsi, "Cənub qaz dəhlizi" kimi nəhəng layihənin təşəbbüskarı olması və onun həyata keçirilməsində xarici investolarla səmərəli əməkdaşlığı, regionun və Avropanın enerji təhlükəsizliyində rolunun artması məsələlərini elmi əsaslarla ilk dəfə dərindən araşdırmasıdır.

Yeni tədqiqatın çox gərəkli elmi yeniliklərindən biri də milli neft strategiyasının uğurla icrasının bariz təzahürü olan Dövlət Neft Fondunun fəaliyyətinin, qısa şəkildə olsa da, təhlil

edilib qiymətləndirilməsidir. Fondun yaradılması və fəaliyyətinin əsas istiqamətləri ilk dəfə olaraq Ərəstun Mehdiyevin bu monoqrafiyasında zəngin mənbələr əsasında elmi şəkildə tədqiq olunmuşdur.

Monoqrafiyanın I fəsli **“Xarici neft şirkətləri ilə əməkdaşlığın başlanması və milli neft strategiyasının formalaşması”** adllanır və üç paraqrafa bölünür. Bu fəsildə müəllifin elmi təhlilləri çox aydın sübut edir ki, Sovet İttifaqının iflasını sürətləndirən tənəzzül prosesləri Azərbaycana da, xüsusən onun neft sənayesinə dağıdıcı təsir göstərmişdir. Buna görə də müəllif haqlı olaraq belə qənaətə gəlir ki, çox mürəkkəb sosial-iqtisadi burulğana düşmüş gənc Azərbaycan Respublikasının iqtisadi dirçəlişi və siyasi cəhətdən möhkəmlənməsi üçün xarici sərmayələrə yol açılması, əcnəbi şirkətlərlə sıx əməkdaşlıq yaradılması zəruri idi.

Tədqiqat bir daha təsdiq edir ki, “Əsrin müqaviləsi” neft diplomatiyası tarixində Azərbaycanın böyük qələbəsidir. Müqavilənin mahiyyətini təhlil edən müəllif bu qələbənin Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyinin parlaq təcəssümü olduğunu konkret dəlillərlə açıqlayır. “Əsrin müqaviləsi” nin imzalanması ilə dünyanın böyük dövlətlərinin diqqəti Azərbaycana yönəldi, milli neft strategiyası formalaşdı, dövlətimizin beynəlxalq mövqeləri möhkəmləndi, ölkəmizin və regionumuzun dünya meydanında önəmi daha da artdı.

Əsərin müəllifi Ərəstun Mehdiyev apardığı tədqiqat nəticəsində belə doğru qənaətə gəlir ki, Ümummilli lider Heydər Əliyev Azərbaycanın milli maraqlarını əsas tutaraq ölçülübbiçilmiş qərar qəbul etmiş, ölkəmizi sürətli inkişaf yoluna çıxarmışdır.

Monoqrafiyanın II fəsli **ilk neft müqaviləsinin yerinə yetirilməsi və Azərbaycan neftinin dünya bazarlarına çıxarılması məsələsinə** həsr olunub. Tədqiqatçı əsərin bu fəslində əsas diqqəti xarici neft şirkətləri ilə imzalanmış ilk sazişin – “Əsrin müqaviləsi”nin icrasına dair görülən tədbirlərə yönəldir,

texnoloji yeniliklərin tətbiq edilməsi, çətin durumda olan neft sənayesinin böhrandan çıxarılması sahəsində Azərbaycanın xarici kapital ilə sıx əməkdaşlıq məsələlərini dərindən araşdırır. Ulu Öndər Heydər Əliyevin neft siyasətinin ən incə məqamları, bu sahəyə daimi diqqəti, peşəkar müzakirələri, operativ qərarları və tapşırıqları, onların müsbət nəticələri geniş materiallar əsasında dolğun işıqlandırılır.

Müəllifin həm bu, həm də digər fəsillərdə ilkin mənbələrə söykənərək tərtib etdiyi cədvəllər tədqiq olunan məsələnin aydın mənzərəsini yaradır, gəldiyi nəticələrin əsaslandırılmasına xidmət edir. Azərbaycanın xarici kapital ilə əməkdaşlığı, tanınmış şirkətlərin müasir texnologiyalarını tətbiq etməsi sayəsində neft sənayesinin tədricən yüksəliş yoluna qədəm qoymasına dair tədqiqatçının qənaətini onun apardığı elmi təhlillərin konkret faktlara əsaslanan nəticəsi kimi qiymətləndirmək olar.

Bu fəsildə həm də zəngin material əsasında Azərbaycanın şaxələndirilmiş ixrac boru kəmərləri sisteminin yaradılması ilə bağlı mürəkkəb geosiyasi şəraitdə uğurlu fəaliyyəti araşdırılır və həyata keçirilən siyasətin Ulu Öndər Heydər Əliyevin neft diplomatiyasının böyük qələbəsi olduğu göstərilir. Ölkəmizə və regionumuza özlərinin xüsusi nüfuz dairəsi kimi baxan bir sıra dövlətlərin güclü təziyqlərinə tab gətirərək milli maraqlarını müdafiə edən Azərbaycan Bakı–Novorossiysk (Rusiya), Bakı–Supsa (Gürcüstan) və Bakı–Tbilisi–Ceyhan (Türkiyə) ixrac boru kəmərlərinə üstünlük verdi, onların reallaşmasında böyük qətiyyət və iradə nümayiş etdirdi. Əsərdə bu məsələlər müəllif tərəfindən xırda detallarına qədər dəqiqliklə, çox geniş təhlil olunmuşdur. Tədqiqatçının haqlı qənaətinə görə, göstərilən neft ixrac boru kəmərlərinin istifadəyə verilməsi ölkəmizin sosial-iqtisadi inkişafında, beynəlxalq münasibətlərdə geosiyasi çəkisinin artmasında mühüm rol oynadı.

Ərəstun Mehdiyevin oxuculara təqdim olunan yeni monoqrafiyasının III fəsli **“Şahdəniz” müqaviləsi və Azərbaycanın qaz ixrac edən ölkəyə çevrilməsi”** adlanır. Bu fəsildə xarici

kapitalın cəlb olunduğu “Şahdəniz” yatağında müqavilə üzrə işlərin yerinə yetirilməsi, Azərbaycanın böyük qaz potensialının aşkar olunması, mavi yanacağın ixracı üçün ölkəmizi Türkiyə və Gürcüstanla bağlayan Cənubi Qafqaz Boru Kəmərinin tikintisi, qərb dövlətlərinin “Nabukko” qaz boru kəməri təşəbbüsünün iflasa uğraması, TANAP və TAP kimi strateji qaz ixracı layihələrinin meydana çıxmasında Azərbaycanın mühüm rolu, “Cənub qaz dəhlizi” ideyasının irəli sürülməsi və xarici kapital ilə sıx əməkdaşlıq əsasında uğurla həyata keçirilməsi məsələləri dərindən araşdırılıb.

Tədqiqatçının böyük uğurudur ki, Azərbaycanın qaz ixrac edən ölkəyə çevrilməsi sahəsində Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət bu fəsildə zəngin faktlar əsasında geniş işıqlandırılmışdır. Əsərin müəllifi tamamilə haqlı nəticəyə gəlir ki, təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş milli neft strategiyasını böyük qətiyyətlə davam etdirən Prezident İlham Əliyev Azərbaycanın yalnız neft ölkəsi kimi deyil, həm də qaz ixracatçısı kimi Avropa bazarında öz yerini tutması üçün ardıcıl olaraq prinsipial fəaliyyət göstərmişdir. Prezident İlham Əliyevin müdrik daxili və xarici siyasəti sayəsində xarici sərmayədarlara əlverişli mühit yaradılmaqla ölkəmizin iqtisadi və geosiyasi mənafeləri daha geniş təmin edilmişdir. Müəllif obyektiv olaraq göstərir ki, “Cənub qaz dəhlizi” layihəsi “Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, İtaliya və Balkan ölkələri arasında iqtisadi əməkdaşlığın inkişafına və həmin ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edir, Avropa enerji bazarlarında Azərbaycanın mövqelərinin möhkəmlənməsinə əlverişli şərait yaradır”.

Nəhayət, müəllif monoqrafiyanın **“Dövlət Neft Fondunun yaradılması və fəaliyyətinin əsas istiqamətləri”** adlanan IV fəslində tədqiqatlarını yekunlaşdırır, milli neft strategiyasının uğurlu nəticələrini əyani şəkildə təsdiq edən tədqiqat materiallarını oxuculara təqdim edir. Ərəstun Mehdiyev bu fəsildə dünya praktikasına nəzər salır, Norveç və Küveytin məşhur neft

fondlarının, xüsusilə postsovet məkanında oxşar sosial-iqtisadi inkişaf xüsusiyyətlərinə malik Qazaxıstanın təcrübəsini qısa şəkildə təhlil edir və müvafiq müqayisələr aparır.

Tədqiqat işində bu gün də ölkəmiz üçün aktuallıq kəsb edən neft gəlirlərinin toplanması, idarə edilməsi və istifadə olunması məsələlərinə ayrıca diqqət yetirilir. Göstərilir ki, Azərbaycan bu sahədə başqa ölkələrin, xüsusilə Norveçin təcrübəsini dərindən öyrənmiş və mürəkkəb sosial-iqtisadi inkişaf problemlərinin, hərbi-siyasi məsələlərin həllinə zəmin yaradan öz nümunəvi qurumunu – Dövlət Neft Fondunu təsis etmişdir. Ümummilli lider Heydər Əliyevin tövsiyəsi ilə Fond ölkəmizin neft sərvətlərinin daha məqsədyönlü istifadəsi üçün indiki və gələcək nəsillərin maraqlarının təmin olunması prinsipini əsas götürmüşdür. Monoqrafiyada müxtəlif mənbələrin, başlıca olaraq Dövlət Neft Fondunun illik hesabatlarının ətraflı araşdırılması sayəsində onun şəffaf və səmərəli fəaliyyəti işıqlandırılmışdır.

Tədqiqatda zəngin statistik faktlar əsasında aydın göstərilir ki, Neft Fondu dövlət büdcəsinin formalaşmasında, ölkənin iqtisadi problemlərinin, xüsusilə qaçqın və məcburi köçkünlərin sosial-məişət məsələlərinin həll olunmasında, mühüm infrastruktur layihələrinin uğurla icrasında, gənclərimizin xarici ölkələrin ən qabaqcıl universitetlərində təhsil xərclərinin maliyyələşdirilməsində və dövlət əhəmiyyətli başqa proqramların yerinə yetirilməsində fəal rol oynamışdır.

Müəllif apardığı geniş və hərtərəfli araşdırmalar əsasında tamamilə düzgün olaraq vurğulayır ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən neft strategiyası ölkəmizin sosial-iqtisadi inkişafına, beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə, müdafiə qabiliyyətinin gücləndirilməsinə, ordu quruculuğu ilə bağlı çox gərəkli işlərin səmərəli aparılmasına və nəhayət, Vətən müharibəsində təcavüzkar Ermənistana qalib gələrək Qarabağ torpaqlarının işğaldan azad edilməsinə, Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam

təmin olunmasına çox mühüm töhfə vermişdir. Fikrimcə, müəllifin bu mühüm elmi nəticəsi dərin təhlilə və zəngin faktik materiallara əsaslanır. Tədqiqatçı haqlı olaraq belə bir fikir irəli sürür ki, Neft Fondunun fəaliyyəti ilə bağlı gələcəkdə daha geniş tədqiqatlar aparılmalıdır.

Monoqrafiyanın **"Nəticə"** hissəsində müəllif öz elmi araşdırmasının yekunlarını geniş və sistemli şəkildə, müəyyən etdiyi vəzifələrə uyğun surətdə ümumiləşdirmişdir. Xüsusi olaraq vurğulamaq istərdik ki, tədqiqatın gedişində məntiqi olaraq meydana çıxan və ölkənin aidiyyəti qurumlarının gələcək fəaliyyəti dövründə əhəmiyyətli sayıla biləcək bir sıra dəyərli tövsiyələr verilir. Bunun özü də tədqiqatın səmərəli nəticələrindən biri kimi qiymətləndirilməlidir.

Fikrimcə, monoqrafiyanın uğurlu alınmasında alimin bu sahədə peşəkar tədqiqatçı olması mühüm rol oynayıb. Belə ki, Ərəstun Mehdiyev Ulu Öndər Heydər Əliyevin müdrik, uzaqgörən siyasətinə müvafiq olaraq və təhsildəki nailiyyətləri nəzərə alınaraq, vaxtilə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinə göndərilmiş gənclərimizdən biri olmuşdur. O, Moskva Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirmiş, Elmi Şuranın qərarı ilə aspiranturada saxlanılmış və 1990-cı ildə Moskva Dövlət Universiteti Tarix fakültəsinin Elmi Şurasında tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün **"XIX əsrin son rübündə Azərbaycan neft sənayesinin yaranmasında Rusiya kapitalının rolu"** mövzusunda dissertasiyasını uğurla müdafiə etmişdir. Azərbaycanda neft tarixinin mühüm və maraqlı dövrünü əhatə edən həmin elmi araşdırma geniş ədəbiyyat və zəngin mənbələr, xüsusilə Rusiya Dövlət Tarix Arxivi (Sankt-Peterburq) və Azərbaycan Respublikası Dövlət Tarix Arxivində saxlanılan qiymətli materiallar əsasında yazılmışdır. Bu tədqiqatın nəticələri müəllif tərəfindən dərs vəsaiti kimi çap olunmuş **"Azərbaycan neft sənayesi XIX yüzilin son rübündə"** kitabında əksini tapmışdır.

Bundan başqa, 2014-cü ildə Ərəstun Mehdiyevin

müstəqillik dövründə neft sənayesinin inkişafı tarixinə həsr olunmuş **“Əsrin müqaviləsi”:Azərbaycan neft strategiyasının təməl daşı”** monoqrafiyası nəşr edilmişdir.

Göründüyü kimi, yenicə işıq üzü görən növbəti əsər – **“Azərbaycan Respublikasının neft strategiyası: formalaşması və həyata keçirilməsi (1991–2023)”** monoqrafiyası Azərbaycanın neft-qaz sənayesi tarixinə dair qiymətli tədqiqatların müəllifi olan, bundan əvvəl həmin problemlə bağlı fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiya araşdırmaları aparmış təcrübəli alimimizin qələmindən çıxmışdır. Bu baxımdan səriştəli tədqiqatçı Ərəstun Mehdiyevin yeni elmi əsəri mühüm nəzəri və praktiki əhəmiyyətə malikdir. Şübhə etmirəm ki, Azərbaycanın müstəqillik dövrü tarixinin sosial-iqtisadi, siyasi və beynəlxalq əlaqələrinin aktual məsələlərinin öyrənilməsinə mühüm töhfə olan bu monoqrafiya, həm də ölkəmizin tarixinə, habelə regional proseslərə dair müxtəlif tədqiqat əsərlərinin, dərsliklərin, proqramların və digər tədris vəsaitlərinin yazılması üçün də çox gərəklidir. İstedadlı tədqiqatçımıza elmi fəaliyyətində yeni yaradıcılıq uğurları arzulayıram.

**Yaqub Mahmudov**
*Əməkdar elm xadimi,*
*Dövlət mükafatı laureatı,*
*AMEA-nın həqiqi üzvü*

*Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyinin bərpası uğrunda şəhidləri minnətdarlıqla anırıq*

# GİRİŞ

Zəngin təbii sərvətlərə və mədəni irsə malik Azərbaycan siyasi-iqtisadi inkişaf baxımından mürəkkəb və uzun tarixi yol keçib. Azərbaycan xalqı XX əsrdə ikinci dəfə əlinə düşən tarixi fürsətdən yararlanaraq 1991-ci ildə ən ümdə arzusunu həyata keçirdi – dövlət müstəqilliyini bərpa etdi. Kommunist ideologiyasının və iqtisadi-siyasi sisteminin ağır mirasını yenidən qiymətləndirən gənc müstəqil dövlət tarixin müasir mərhələsində demokratik cəmiyyət və liberal iqtisadiyyat quruculuğu yolunu seçdi.

Böyük imperiyanın süqutu ilə həmin dövrdə ölkə həyatının bütün sahələrini bürümüş böhranın aradan qaldırılması istiqamətində qarşıya çıxan mürəkkəb vəzifələr hərtərəfli köklü islahatların aparılmasını zəruri edirdi. Lakin qabaqcıl texnologiyanın çatışmazlığı və kəskin maliyyə qıtlığı vacib dəyişikliklərin həyata keçirilməsinə, qlobal sosial-iqtisadi problemlərin həllinə mane olurdu. Buna görə də dünyanın nüfuzlu şirkətlərinin və xarici sərmayənin Azərbaycana cəlb edilməsi məsələsi zamanın aktual vəzifəsinə çevrilmişdi. Bu baxımdan ölkə iqtisadiyyatının aparıcı sahəsini təşkil edən neft sənayesi böyük potensiala malik idi. Belə ki, hələ SSRİ-nin süqutu ərəfəsində tanınmış xarici şirkətlər Azərbaycan neftinə xüsusi maraq göstərirdilər. Həmin kompaniyalarla əməkdaşlığın qurulmasına dair danışıqlar isə müstəqillik əldə olunandan sonra daha intensiv xarakter almışdı. Bununla belə, neft sənayesinə xarici kapitalın yönəldilməsi ilə bağlı müxtəlif fikirlər irəli sürülürdü. Bu sahədə dünya şirkətləri ilə əməkdaşlığın siyasi əhəmiyyətinə və iqtisadi səmərəsinə şübhə ilə yanaşanlar daha ehtiyatlı davranmağı və müstəqil fəaliyyət göstərməyi təklif edirdilər.

Qeyd etmək lazımdır ki, Azərbaycan o vaxta qədər iqtisadiyyatın başqa sahələrindən fərqli olaraq, neft sənayesində xarici kapitalın iştirakına dair böyük tarixi təcrübəyə malik idi. Müasir dövrdə əcnəbi sərmayəçilərlə tərəfdaşlıq münasibətlərinin yaradılması prosesində keçmiş təcrübəyə istinad edərək, onun müsbət cəhətlərindən və çağdaş beynəlxalq praktikadan yararlanmaq olardı.

Məlumdur ki, Azərbaycan qədim neft ölkəsi kimi tanınsa da, karbohidrogen ehtiyatları yalnız XIX əsrin son rübündən etibarən Bakı və ətraf bölgələrin, habelə bütün Rusiya imperiyasının sosial-iqtisadi və siyasi həyatında mühüm rol oynamağa başlamışdır. 1872-ci ildə mühafizəkar iltizam sisteminin ləğv edilməsi ilə neft çıxarılmasında inhisarçılığın aradan qaldırılması yerli sərmayəçilərlə yanaşı, xarici kapitalın da bu sahəyə güclü axını üçün əlverişli imkanlar açdı. Sahibkarlığın inkişafı yeni texnikanın tətbiqini sürətləndirərək, XIX əsrin son rübündə neft mədənlərində sənaye çevrilişinin baş verməsi ilə nəticələndi [221, s.95- 99; 448, s.18].

Neft sənayesində sürətlə baş verən texniki təkmilləşmələr hasilat prosesinin və neft infrastrukturunun inkişafına təkan verdi. Yeni ideyaların praktikada tətbiqində xarici sərmayəçilərin təşəbbüskarlığı xüsusi əhəmiyyət kəsb edirdi. Həyata keçirilən bir sıra yeniliklər, o cümlədən mədən, zavod və dəniz limanını birləşdirən boru kəməri çəkilişinin geniş miqyas alması, vaqonçənlərin (sisternlərin) və tankerlərin istifadə edilməsi bilavasitə həmin dövrdə neft sənayesinə qədəm qoymuş Nobel qardaşlarının adı ilə bağlıdır. Bununla da neftin araba və gəmi vasitəsilə çəlləklərdə daşınması dövrü arxada qaldı. Hasilatın ardıcıl yüksəlməsi nəticəsində Azərbaycan nefti qısa müddət ərzində Rusiyanın daxili bazarında hakim mövqe tutaraq, imperiya sərhədlərini aşmağa başladı. Ticarət şəbəkəsini səmərəli quraraq, Bakı zavodlarının istehsal gücü ilə 1883-cü ildə Amerikanın ağ neftini (kerosini) Rusiya bazarından sıxışdırıb çıxaran Nobellər artıq bir neçə ildən sonra Rotşild ilə birlikdə Azərbaycandan

ixrac edilən bu yanacaq növünün Avropa və Asiya bazarlarında tədricən geniş yer tutması istiqamətində ardıcıl fəaliyyət göstərirdilər [251, s.38; s.61-63; s.94].

Həm dünya bazarında, həm də imperiya daxilində neft məhsullarına tələbatın dinamik şəkildə artması, habelə ucuz işçi qüvvəsi və zəngin neft ehtiyatları XIX əsrin sonlarında Bakı mədənlərinə xarici kapitalın, xüsusilə ingilis şirkətlərinin daha geniş nüfuz etməsini şərtləndirirdi [251, s.96-100].

Sürətlə istehsal prosesinə daxil edilən yeni sənaye texnikası və üsullarının tətbiqi ilə yanaşı, hələ məhsuldar yataqların amansızcasına istismarı neft hasilatının ardıcıl yüksəlməsinə səbəb olurdu. Təsadüfi deyil ki, hasilatın səviyyəsinə görə 1894-cü ildə Amerika Birləşmiş Ştatlarına (ABŞ-a) çatan Bakı ətrafında formalaşmış Azərbaycan neft sənayesi tezliklə onu ötüb keçərək, 1901-ci ilə qədər dünya liderliyini qoruyub saxladı [448, s.18].

Məhz həmin vaxt o dövr üçün rekord həcmdə – 12,2 milyon ton neft çıxarılan Bakıda sonrakı illərdə hökm sürən dərin iqtisadi tənəzzül və Birinci rus inqilabının dağıdıcı təsiri nəticəsində hasilatın kəskin azalması müşahidə olunur.

XX əsrin əvvəllərində dünya iqtisadi böhranının Rusiyada daha uzunsürən, ağır forma almasına və neft sənayesinə ciddi zərbə vurmasına baxmayaraq, beynəlxalq aləmdə neftin yanacaq-enerji əhəmiyyəti dönmədən artırdı. O, dünya iqtisadiyyatında mühüm strateji rol oynamağa başlamışdı. Tədqiqatçıların da qeyd etdiyi kimi, *"neft-güc" düsturu artıq özünü Birinci Dünya müharibəsinin döyüş meydanlarında təsdiq etmişdi. Müharibədən sonra neft şirkətləri və dövlətlər arasında münasibətlərdə yeni dövr başlandı... Əgər neft bir tərəfdən gücün təzahürü idisə, digər tərəfdən suverenliyin simvolu idi. Bu isə labüd olaraq neft şirkətlərinin məqsədləri ilə dövlətlərin milli maraqları arasında ziddiyyətlərə, beynəlxalq siyasətin daimi xüsusiyyətinə çevrilən münaqişəyə gətirib çıxarırdı"* [419, s.247].

Bəşəriyyətin keçdiyi tarixi yola nəzər saldıqda, neft amilinin Birinci və İkinci Dünya müharibələrini doğuran səbəb-

lərdən biri olmaqla yanaşı, həm də hərb meydanlarında qələbənin əldə edilməsində, müharibədən sonrakı illərdə iqtisadiyyatın bərpası və inkişafında mühüm rol oynadığını inkar etmək mümkün deyil. Uzun müddət Rusiya imperiyası və Sovet İttifaqının iqtisadiyyatında aparıcı sahələrdən biri kimi, Azərbaycan neft sənayesinin bu proseslərdə özünəməxsus yeri və həlledici əhəmiyyəti olmuşdur. Lakin 1950-ci illərin ortalarından etibarən SSRİ hökumətinin Azərbaycan neft sənayesinə münasibətində kəskin dəyişiklik baş verdi. Abşeronda neft hasilatının maya dəyərinin yüksək olmasını və yataqların tükənməsini əsas gətirən sovet rəhbərliyi diqqəti ölkənin şərq vilayətlərinə – Tatarıstan, Başqırdıstan, Qərbi Sibir və s. yeni neft rayonlarına yönəltməyə başladı. Bununla da o vaxta qədər Azərbaycanın amansızcasına istismar edilən neft yataqlarına ayrılan vəsait xeyli azaldı. Belə ki, SSRİ hökumətinin 1954-cü il 9 iyul tarixli "Neft sənayesinin daha da inkişaf etdirilməsinə dair tədbirlər haqqında" qərarı ilə Azərbaycan neft sənayesi qeyri-səmərəli istehsal sahəsinə aid edildi və onun ehtiyacları üçün zəruri olan kapital qoyuluşu iki dəfə ixtisar olundu [381, s.100-101].

SSRİ mərkəzi hakimiyyətinin neft siyasətində kəskin dəyişikliyə baxmayaraq, Azərbaycan neftçiləri yeni yataqların açılması və istifadəyə verilməsi sahəsində fəaliyyəti davam etdirirdilər. 1950–1960-cı illərdə Azərbaycanda neft hasilatının ağırlıq mərkəzi dəniz yataqlarına keçməyə başlayır. Bunun əsas səbəbi 1949-cu ilin noyabr ayında Xəzər dənizinin dərinliklərində – Neft Daşlarında hasilatın başlanması və getdikcə artması idi. Tezliklə burada neftçilər şəhəri salındı. Artıq 1965-ci ildə Xəzər dənizində 10,9 mln ton, 1970-ci ildə isə 12,9 mln ton neft çıxarılmışdı. Sonrakı dövrdə hasilat tədricən aşağı düşərək, 1987–1989-cu illərdə 10 mln tondan artıq olmuşdur [381, s.104].

Artıq o dövrdə tükənməkdə olan quru neft yataqlarından fərqli olaraq, dəniz mədənlərinin istismar müddətinin daha az olması və perspektivli sahə kimi kapital qoyuluşunun əsas

hissəsinin həmin yataqlara yönəldilməsi burada hasilatın hələlik sabit qalmasını təmin edirdi. Lakin SSRİ-də vüsət almış sosial-iqtisadi və siyasi böhran neft sənayesinə də ağır zərbə vurdu. Belə şəraitdə hasilatı əvvəlki səviyyədə saxlamaq mümkün deyildi. Sovet iqtisadiyyatının neftdən asılılığı ABŞ ilə "soyuq müharibə"nin taleyini Ağ evin xeyrinə həll etdi. "Soyuq müharibə" dövründə strateji əhəmiyyət kəsb etmiş neft amilinin rolu iki siyasi blokun qarşıdurmasının başa çatmasından sonra daha da artdı. Çünki tarixin növbəti inkişaf mərhələsində də neft strateji xarakterli xammal kimi yenə müxtəlif regionlarda siyasi və hərbi münaqişələr doğuran, dövlətlərin iqtisadi potensialının artırılması, geosiyasi mövqelərinin möhkəmlənməsinə təsir göstərən ən əhəmiyyətli enerji mənbəyi olaraq qalmaqda davam edirdi.

Müasir dünyada mürəkkəb və dinamik geosiyasi proseslərin gedişi aydın göstərir ki, həqiqətən də, neft hər bir ölkənin enerji təhlükəsizliyinin təmin olunmasında və sosial-iqtisadi tərəqqisində mühüm yer tutur. Müstəqil dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycanda isə neft iqtisadiyyatın dirçəldilməsi, sabitliyin bərpası, sosial rifahın bərqərar olması, yeni tipli güclü ordunun yaradılması, siyasi müstəqilliyin və beynəlxalq mövqelərin möhkəmlənməsi sahəsində lokomotiv rolunu oynadı. Qeyd etmək lazımdır ki, Azərbaycan neft amilindən milli mənafeləri naminə faydalanmaq üçün ölkədaxili gərgin siyasi proseslərin və genişmiqyaslı, ağır geosiyasi təzyiqlərin məngənəsindən keçməli oldu. Mürəkkəb vəzifələri həll edən gənc dövlətin bu sərt sınaqlardan çıxması Prezident Heydər Əliyevin qətiyyətli və ardıcıl siyasi xəttinin məntiqi nəticəsi idi [180; 194; 248].

Dünyanın fövqəlgüclərinin geosiyasi mübarizəsinin kəskinləşdiyi həmin dövrdə müstəqil dövlətçiliyi qorumaq uğrunda bütün imkanlarından istifadə etməyə çalışan Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarına xarici şirkətlərin və Qərb ölkələrinin xüsusi marağı beynəlxalq aləmlə qarşılıqlı siyasi və iqtisadi əlaqələrin qurulmasına mühüm əhəmiyyət verən Prezi-

dent Heydər Əliyev tərəfindən obyektiv və müdrikliklə qiymətləndirildi, bacarıqla istifadə olundu [188]. 1990-cı illərin əvvəllərində siyasi, iqtisadi və hərbi baxımdan təlatümlü və riskli məkan kimi tanınan Azərbaycanda xarici sərmayə yatırımına geniş yol açan "Əsrin müqaviləsi"nin imzalanması ilə neft amili ölkənin strateji maraqlarının xidmətinə yönəldildi.

Beləliklə, "Əsrin müqaviləsi"nin imzalanması və həyata keçirilməsi Azərbaycanın müstəqil dövlətçiliyinin taleyində mühüm rol oynamış milli neft strategiyasının formalaşmasının əsasını qoydu. Elmi ədəbiyyatda da qeyd olunduğu kimi, neft strategiyasının imperativləri siyasi, iqtisadi, sosial və texniki aspektləri əhatə edir [178, s.166].

Dövlətin siyasi müstəqilliyinin möhkəmlənməsi, qabaqcıl dünya təcrübəsinə söykənən liberal iqtisadiyyatın qurulması, sosial rifahın təmin olunması, xarici kapitalın geniş cəlb edilməsilə müasir sənaye və enerji-kommunikasiya infrastrukturunun yaradılması kimi çoxşaxəli fəaliyyət sahəsini birləşdirən və bünövrəsi "Əsrin müqaviləsi" ilə qoyulmuş neft strategiyasının hazırlanması və gerçəkləşdirilməsi prosesinin dərindən araşdırılması aktual elmi maraq kəsb edir.

Mürəkkəbliyi ilə xarakterizə olunan bu problemin öyrənilməsi Azərbaycanın iqtisadi həyatında ənənəvi olaraq mühüm rol oynayan neft sənayesinin müstəqillik ərəfəsindəki vəziyyətini səciyyələndirməyə, xarici şirkətlərlə geniş əməkdaşlığı şərtləndirən amilləri üzə çıxarmağa, əcnəbi sərmayəçilərlə tərəfdaşlığın əsas prinsiplərini müəyyənləşdirməyə imkan verir. Eyni zamanda tədqiqat həmin dövrdə Azərbaycanın bölgədə müxtəlif geosiyasi və geoiqtisadi maraqların tarazlaşdırılması, güclü təzyiqlərə baxmayaraq, milli mənafelərin qorunması üçün həyata keçirdiyi siyasəti və konkret tədbirləri təhlil edib qiymətləndirmək baxımından əhəmiyyət daşıyır.

Eyni zamanda, "Əsrin müqaviləsi"ndən sonra çoxsaylı sazişlərin imzalanmasının siyasi və iqtisadi cəhətdən təhlili, müasir texnologiyaların tətbiqi və şaxələndirilmiş ixrac sistemi-

nin yaradılması sahəsində hökumətin siyasətinin araşdırılması fövqəlmilli şirkətlərlə əməkdaşlığın Azərbaycanda neft-qaz sənayesinin yenidən qurulmasına, ölkənin sosial-iqtisadi inkişafına təsirini dəyərləndirmək üçün zəngin material verir.

Bununla yanaşı, bəhs olunan mövzunun tədqiqi region və Avropa dövlətlərinin enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolunu, habelə ölkənin beynəlxalq mövqelərinin möhkəmlənməsində neft amilinin və xarici şirkətlərlə əməkdaşlığın əhəmiyyətini dolğun səciyyələndirməyə töhfə verə bilər.

Yuxarıda qeyd edilən məsələlərin öyrənilməsi həm də XX əsrin 90-cı illərindən formalaşan neft strategiyasının başlıca aspektlərinin daha dərindən dərk olunması və həlledici məqamlarda mürəkkəb seçim qarşısında qalan Azərbaycan Respublikasının strateji mənafeləri ilə uyğunluğunu müəyyənləşdirmək üçün daha əlverişli zəmin yaradır.

Azərbaycanın müasir dövr tarixşünaslığında neft-qaz sənayesinin inkişafı, xarici şirkətlərlə əməkdaşlıq, neft kapitalının ölkənin sosial-iqtisadi vəziyyətinə, geosiyasi durumuna, beynəlxalq mövqelərinə və s. təsiri ilə bağlı məsələlər getdikcə daha çox elmi maraq kəsb etməyə başlamışdır. Bununla belə, öyrənilən mövzu, görünür, qısa zaman çərçivəsində obyektiv tarixi qiymətləndirmənin çətinliyinə görə hələ iqtisadi tarix müstəvisində kompleks şəkildə müstəqil elmi tədqiqat obyekti olmamışdır. Problemin müəyyən aspektləri indiyədək yalnız müxtəlif təhlil bucağında, əsasən geosiyasi və politoloji cəhətdən araşdırmaya cəlb olunmuşdur.

Azərbaycanda neft tarixinin öyrənilməsinə həsr edilmiş əsərlər sırasında mövzunun fundamental qoyuluşuna, əhatə dairəsinə və zəngin material bazasına görə İlham Əliyevin 2003-cü ildə Moskvada nəşr olunmuş monoqrafiyasını xüsusi qeyd etmək lazımdır [381].

Əsərdə Xəzər neftinin siyasi, iqtisadi, geostrateji cəhətdən əhəmiyyəti göstərilir, Azərbaycanın müasir geosiyasi möv-

qeyinin formalaşmasında mühüm rol oynayan amillər təhlil edilir. Eyni zamanda müstəqilliyin ilk onilliyi dövründə neft sənayesinin vəziyyəti səciyyələndirilir, "Əsrin müqaviləsi"nin hazırlanması və imzalanması prosesi araşdırılır. Bu müqavilənin siyasi və iqtisadi əhəmiyyəti qiymətləndirilir, neft strategiyasının formalaşmasına onun təsiri qeyd olunur.

Bəhs edilən dövrdə Azərbaycanın neft siyasətinin həyata keçirilməsində, regionda geosiyasi proseslərin gedişində ciddi problem kimi özünü göstərən Xəzərin hüquqi statusu məsələsinin müəllif tərəfindən dərindən araşdırılması cərəyan edən hadisələrin mahiyyətini aydın qavramağa kömək edir.

Əsərdə həmçinin Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına nəqli marşrutları nəzərdən keçirilir, onların iqtisadi və geosiyasi xarakteristikası verilir, iddialı dövlətlərin strateji maraqları qiymətləndirilir.

Qeyd etmək lazımdır ki, tədqiqatın xronoloji çərçivəsinin son hüdudu 2001–2002-ci illərlə məhdudlaşır. Buna görə də neft strategiyasının sonrakı dövrdə reallaşdırılması ilə bağlı bir sıra vacib məsələlər araşdırma obyekti olmamışdır.

Öyrənilən mövzu ilə bağlı nəşr olunan ilk əsərlərdən biri kimi E.X.Nəsirovun 1999-cu ildə işıq üzü görmüş kitabını qeyd etmək olar [291]. Əsərdə xarici neft şirkətləri ilə ilk müqavilə üzrə aparılan danışıqlar prosesi izlənilir. Tədqiqatın xronoloji çərçivəsində imzalanmış 16 müqavilənin iqtisadi və siyasi cəhətdən xarakteristikası verilir, əhəmiyyəti vurğulanır. Eyni zamanda, Xəzərin hüquqi statusu və neft ixracının əsas marşrutları qısa səciyyələndirilir. Müəllif əsas ixrac boru kəməri kimi Bakı–Ceyhan variantının üstünlüklərini qeyd edir və onun reallaşma ehtimalının böyük olduğunu bildirir.

Ç.Sultanovun dünya neft biznesinə həsr edilmiş fundamental əsərində Azərbaycanın neft sənayesinin tarixi inkişaf yolu və potensial imkanları geniş təhlil olunur [478]. Beynəlxalq neft aləmindəki proseslər geosiyasi və daxili siyasi amillərin sıx vəhdəti çərçivəsində öyrənilir. "Əsrin müqaviləsi"nin hazırlan-

ması və imzalanmasını qlobal və lokal miqyasda cərəyan edən hadisələrin təsiri prizmasından nəzərdən keçirən müəllif ilk növbədə geosiyasi elementləri xüsusi vurğulayır. Bu baxımdan əsərdə daha çox Rusiyanın Azərbaycana müxtəlif təzyiq vasitələrinə əl atması ilə bağlı məsələlər ətraflı şərh olunur. Eyni zamanda, ölkənin üzləşdiyi iqtisadi və siyasi böhrana diqqət yetirilir, Heydər Əliyevin məqsədyönlü və səriştəli fəaliyyətinə yüksək qiymət verilir.

Neft strategiyasının mühüm tərkib hissəsi olan Əsas ixrac boru kəmərinin marşrutu haqqında qərarın qəbul olunmasına dair məsələlər N.Əliyev, M.Mirzəyev və E.Şahbazovun həmmüəllifliyi ilə nəşr edilmiş kitabda ətraflı araşdırılmışdır [382]. Müəlliflər ixrac boru kəmərinin on bir mümkün marşrutunu nəzərdən keçirərək siyasi, texniki, kommersiya və ekoloji meyarların kompleks öyrənilməsi nəticəsində Azərbaycan neftinin dünya bazarına çıxarılmasının ən əlverişli yolunun Bakı–Tbilisi–Ceyhan (BTC) variantından ibarət olduğunu əsaslandırırlar. Əsərin 2000-ci ilə qədər əhatə etdiyi xronoloji çərçivədə boru kəmərinin inşası ilə bağlı qərarın qəbul edilməsi prosesi ardıcıl və geniş şərh olunur.

Əsas ixrac boru kəmərinin təməlinin qoyulması və inşasının başa çatdırılması sahəsində meydana çıxan problemlər və onların aradan qaldırılması üçün görülən tədbirlər sonrakı dövrü əhatə etdiyinə görə tədqiqatın obyekti olmamışdır.

N.Əliyev, X.Yusifzadə və E.Şahbazovun birgə yazdıqları kitab isə Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə neft və qaz sənayesinin inkişaf yoluna həsr olunub. Müəlliflər Azərbaycanda dəniz neft sənayesinin tarixini şərti olaraq üç mərhələyə bölür və müstəqillik illərində reallaşdırılan neft strategiyasını qısa şəkildə nəzərdən keçirirlər. Kitabda 1999-cu ilədək imzalanmış neft-qaz müqavilələri haqqında yığcam məlumat da verilir [162].

Ə.Həsənovun Azərbaycan Respublikasının xarici siyasət məsələlərinin və geosiyasət problemlərinin tədqiqinə həsr edil-

miş əsərlərində öyrənilən mövzunun beynəlxalq münasibətlər, geoiqtisadi və geosiyasi aspektləri hərtərəfli təhlil olunur. Müəllif müasir dövrdə beynəlxalq münasibətlər sistemini, Azərbaycanın xarici siyasətinin əsas prinsip və istiqamətlərini səciyyələndirməklə yanaşı, enerji ehtiyatlarının dünya geosiyasətində yeri, Xəzər neftinin Azərbaycanın xarici əlaqələrinin qurulmasında rolu, yanacaq-enerji daşıyıcılarının beynəlxalq bazarlara çıxarılması problemlərini, onların milli təhlükəsizliyin təmin olunmasına təsiri və s. məsələləri geniş araşdırır [188; 190; 404].

Ə.Həsənovun 2016-cı ildə nəşr olunmuş digər monoqrafiyasında dünyanın aparıcı dövlətlərinin Xəzər hövzəsi və Cənubi Qafqazda geoiqtisadi maraqlarını gerçəkləşdirmək üçün yeritdikləri siyasi xətt və Azərbaycan Respublikasının çağdaş və perspektiv iqtisadi inkişaf məsələləri təhlil olunur, Xəzərin karbohidrogen ehtiyatlarının işlənilməsi və ixracı sahəsində həyata keçirdiyi siyasət və onun bölgənin geoiqtisadi durumuna təsiri xüsusi olaraq hərtərəfli tədqiq edilir [191].

E.Poluxovun "Əsrin müqaviləsi"nə həsr olunmuş məqaləsi danışıqlar prosesinin öyrənilməsi və sazişin ölkə hayatında rolunun qiymətləndirilməsi baxımından maraq doğurur [463, s.190-231]. Müəllif xarici şirkətlərlə aparılan danışıqların dinamikasını izləyir, iştirakçıların mövqelərini, müqavilənin siyasi və iqtisadi əhəmiyyətini şərh edir.

Mövzu ilə bağlı E.Hacızadənin milli neft strategiyasının konseptual aspektləri və perspektiv hədəflərinə dair araşdırmasını da qeyd etmək lazımdır. Tədqiqatçının qənaətinə görə, strategiya hazırlanarkən həm lokal, həm də regional və qlobal miqyasda vacib məqsədləri qarşıya qoymuşdur. Bunlar siyasi, iqtisadi, sosial və texniki kontekstdə nəzərdən keçirilir və vəhdət təşkil edən bu vəzifələrin Heydər Əliyev tərəfindən əsasən reallaşdırıldığı qeyd olunur [178, s.163-175].

G.Rzayevanın Azərbaycan dövlətinin enerji siyasətinə həsr edilmiş məqaləsində həmin istiqamətdə irəli sürülmüş vəzifələrin tam gerçəkləşdiyi göstərilir. Bakıdan Türkiyənin

Ceyhan limanına qədər uzanan əsas ixrac boru kəmərinin nəinki ölkənin, həm də regionun təhlükəsizlik təminatçısına çevrildiyi, habelə "Cənub Qaz Dəhlizi" layihəsi vasitəsilə Azərbaycanın Avropa ölkələrinin enerji balansında mühüm yer tutmaq potensialına malik olduğu nəzərə çatdırılır [323, s.199-214].

Müstəqillik illərində Azərbaycanın neft və qaz sənayesinin inkişaf yolunu öz məqaləsində qısa şərh edən E.M.Nəsirov ölkənin enerji daşıyıcılarının hasilatında 2010-cu ilə qədər əldə etdiyi nailiyyətləri və şaxələndirilmiş ixrac sisteminin yaradılması ilə bağlı görülən tədbirləri qiymətləndirir. O, enerji siyasətinin Azərbaycanın region ölkələri ilə əməkdaşlığının dərinləşməsində mühüm rol oynadığını göstərir və perspektiv imkanlardan bəhs edir [292, s.75-84].

Problemin öyrənilməsində AMEA Tarix İnstitutu ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birgə layihəsi kimi çap edilmiş əsər də mühüm yer tutur [27]. Ən qədim zamanlardan 2010-cu ilə qədər Azərbaycan neftinin tarixinə həsr olunmuş kitab zəngin faktiki materiallar əsasında yazılmış və maraqlı foto-şəkillərlə təchiz edilmişdir. Milli mənafelərə cavab verən neft strategiyasının hazırlanıb həyata keçirilməsində Heydər Əliyevin ardıcıl və qətiyyətli fəaliyyəti, ölkənin sosial-iqtisadi inkişafında, beynəlxalq mövqelərinin möhkəmlənməsində xarici şirkətlərlə əməkdaşlığın rolu təhlil olunur və yüksək qiymətləndirilir.

Mövzunun araşdırılması ilə bağlı ilk tədqiqat işlərindən biri də M.Rəhimovun məqaləsidir [466, s.83-94]. Müəllif "Əsrin müqaviləsi"nin iqtisadi, siyasi və sosial aspektlərini qısa təhlil edir, 1998-ci ilə qədər imzalanmış doqquz müqavilə barədə yığcam məlumat verir. Məqalədə neft sazişlərinin "məhsulun pay bölgüsü" prinsipinə əsaslanan modelinin ümumi xarakteristikası açılır.

Tədqiq olunan problemin bəzi məqamlarına Azərbaycan Respublikasının müstəqilliyinin 10 illik yubileyinə həsr olunmuş kitabda da toxunulur [49]. Yubiley nəşrində neft strategiyası

ümumi şəkildə nəzərdən keçirilir, dövlət müstəqilliyinin möhkəmlənməsində və gələcək inkişafında onun rolu qeyd edilir.

M.Atakişiyevin xarici neft şirkətləri ilə əməkdaşlığın yaranması və həyata keçirilməsi məsələlərinə həsr edilmiş əsərində yeni neft strategiyası Azərbaycanda müstəqil dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi öyrənilir [15].

"Əsrin müqaviləsi"ni ölkənin siyasi və sosial-iqtisadi inkişafında tarixi hadisə adlandıran müəllif xarici şirkətlərlə danışıqların çətinliyini və problemlərin həll olunmasında Heydər Əliyevin xidmətlərini qeyd edir.

Əsərdə Azərbaycan neftinin dünya bazarlarına çatdırılması sahəsində yeridilən siyasət, o cümlədən BTC Əsas ixrac boru kəmərinin inşası barədə qərarın qəbul olunması və onun gerçəkləşməsi istiqamətində atılan ilk addımlar təhlil olunur.

Eyni zamanda, müəllif neft strategiyasının hazırlanıb həyata keçirilməsində İlham Əliyevin fəaliyyətinə xüsusi fəsil həsr etmişdir. Burada həm də göstərilən sahə ilə bağlı mühüm qərarların qəbul olunmasında geosiyasi reallıqların obyektiv qiymətləndirilməsi və xarici siyasətin əsas prinsiplərinin formalaşmasında neft strategiyasının təsiri məsələləri araşdırılır.

Öyrənilən problemin müəyyən aspektləri Q.Əliyevin elmi tədqiqatının obyekti olmuşdur. Azərbaycanın karbohidrogen ehtiyatlarının müasir beynəlxalq münasibətlərdə yeri, neft strategiyasının ölkənin xarici siyasətinin formalaşmasında və dünya ölkələri ilə əlaqələrinin möhkəmlənməsində rolu məsələləri müəllif tərəfindən nəzərdən keçirilmişdir [160].

S.Quliyevin əsərində isə Azərbaycanın neft strategiyası və Qafqazda təhlükəsizlik problemləri araşdırma mövzusu olmuşdur [241].

Müəllif 1991–2008-ci illərdə bu bölgədə təhlükəsizlik məsələlərini dünyanın aparıcı güc mərkəzlərinin, habelə qonşu dövlətlərin Qafqaz regionunda strateji maraqları və Azərbaycanın həyata keçirdiyi neft strategiyası kontekstində tədqiq etmişdir.

R.Qonaqovun 2018-ci ildə nəşr olunmuş kitabında Xəzər hövzəsi ölkələrinin enerji ehtiyatları və təhlükəsizliyi problemləri araşdırılır, Azərbaycanın hövzədəki geosiyasi və iqtisadi rolu, enerji siyasətini şaxələndirməsi, Xəzərin hüquqi statusu məsələlərinə xüsusi diqqət yetirilir [240].

Azərbaycanın müasir dövrdəki enerji siyasətinin tədqiqinə həsr edilmiş əsərlər sırasında İ.Şabanın 2023-cü ildə çapdan çıxmış kitabı mühüm yer tutur. Müəllif qaz hasilatı və ixracı sahəsində həyata keçirilən fəaliyyəti, xüsusilə "Cənub Qaz Dəhlizi" kimi nəhəng layihənin formalaşması və icrası ilə bağlı məsələləri zəngin fakt və sənədlər əsasında araşdırıb. Əsərdə "Cənub Qaz Dəhlizi"nin meydana gəlməsi və reallaşmasına yol açan siyasi qərarlar, layihənin texniki-iqtisadi göstəriciləri, həyata keçirilməsi mərhələləri yığcam şəkildə əksini tapmışdır [339].

Kitabda verilmiş fakt və ilkin mənbələr, o cümlədən bir bölmədə toplanmış "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası iclaslarının materialları məsələlərin öyrənilməsi üçün daha əlverişli imkanın yaradılması baxımından əhəmiyyətlidir. Araşdırmanın gedişində müəllif haqlı olaraq qeyd edir ki, 2011-ci il oktyabrın 25-də qaz alqı-satqısı və tranzitnə dair sənədlərin imzalanması sahəsində *"Azərbaycan və Türkiyənin bu addımı "Nabucco" layihəsinin faktiki olaraq gündəmdən çıxarılması üçün zəmin yaradırdı"* [339, s.42].

Tədqiq olunan mövzunun bəzi məsələləri İ.Zeynalovun 2024-cü ildə işıq üzü görmüş monoqrafiyasında da qısa şəkildə nəzərdən keçirilmişdir. Zəngin arxiv materialları və digər geniş mənbələr əsasında görkəmli dövlət xadimi Heydər Əliyevin fəaliyyətinin bütün dövrlərini ardıcıl şəkildə araşdıran müəllif 1993-2003-cü illərdə Azərbaycan Respublikası Prezidentinin qətiyyətlə həyata keçirdiyi sosial-iqtisadi kursu təhlil edərək, bu sahədə neft amilinin mühüm rol oynadığını göstərmişdir. Tədqiqatçı diqqəti Heydər Əliyevin neft siyasətinin çoxspektrli mahiyyətinə yönəldərək qeyd edir ki, *"Ulu Öndərin neft strate-*

*giyası Azərbaycan Respublikasında demokratiyanın inkişafı, ictimai-siyasi sabitliyin təmin edilməsi, milli dövlət quruculuğunun möhkəmləndirilməsi, onun dünya iqtisadiyyatına qovuşması üçün möhkəm baza yaratdı"* [370, s.373].

İ.Lyutı və R.Quliyevin müştərək yazdıqları məqalədə təbii sərvətlərdən əldə edilən gəlirlər əsasında müxtəlif ölkələrdə fəaliyyət göstərən yığım fondlarının ümumi xarakteristikası verilir və iş prinsipləri nəzərdən keçirilir, karbohidrogen ehtiyatlarının satışından toplanan vəsaitlərin istifadə olunması sahəsində beynəlxalq təcrübə qısa təhlil edilir. Müəlliflər bir sıra dövlətlərin iqtisadiyyatına ağır zərbə vurmuş "Holland sindromu"nun mahiyyətini göstərir, onun təsirindən qorunmaq üçün bəzi ölkələrin gördüyü tədbirlərə diqqət yetirirlər. Bununla bağlı Azərbaycan Respublikası Dövlət Neft Fondunun fəaliyyəti öyrənilir və yığılmış vəsaitlərin şəffaf prinsiplər əsasında istifadəsinin səmərəliliyi qiymətləndirilir [434, s.378-387].

Öyrənilən mövzu aktuallığı ilə xarici ölkələrin ekspert və mütəxəssislərinin də diqqətini daim cəlb etmişdir. Təsadüfi deyil ki, həm Qərb, həm də Türkiyə və Rusiya mətbuatında, habelə elmi ədəbiyyatında Azərbaycanın enerji siyasətinin müxtəlif aspektləri, o cümlədən ölkənin karbohidrogen ehtiyatlarının həcmi, Xəzərin hüquqi statusu, hövzənin neft-qaz sərvətlərinin Avropa bazarlarına çıxarılması marşrutları və s. məsələlər müntəzəm surətdə təhlil olunmuş və fərqli prinsiplər əsasında müvafiq nəticələr çıxarılmışdır. Bu məqalə və analitik yazıların böyük qrupu Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi tərəfindən nəşr olunmuş kitabda toplanmışdır [96]. Müxtəlif siyasi, iqtisadi və geosiyasi meyarlar, habelə çoxsaylı faktlar əsasında yazılmış həmin araşdırmalar problemin öyrənilməsi üçün zəngin material verir.

Türkiyəli iqtisadçı-alim O.Nuri Arasın müstəqillik illərində (2005-ci ilədək) Azərbaycanın iqtisadi inkişafı məsələlərinə həsr olunmuş kitabında xarici neft şirkətləri ilə imzalanmış sazişlərin ölkəyə müasir texnologiyaların gətirilməsi və

neft-qaz sənayesinin yenidən qurulmasında, iqtisadiyyatın digər sahələrinə sərmayə qoyulması və yeni iş yerlərinin açılmasında, büdcə gəlirlərinin artmasında, dünya ölkələri ilə əməkdaşlığın genişlənməsində mühüm rol oynadığı qeyd edilir. Eyni zamanda, neft müqavilələrinin yerinə yetirilməsi üçün zəruri təchizat və xidmətlərin böyük hissəsinin xaricdən gətirildiyi, bu sifarişlərdə yerli mütəxəssislərin payının çox aşağı olduğu göstərilir [372, s.210-211].

M.Ögütçü [297] və O.Okumuşun da [292] problemə həsr olunmuş məqalələrində Azərbaycandan Avropaya qaz ixracı marşrutlarına dair məsələlər nəzərdən keçirilmişdir.

Rusiyalı tədqiqatçı İ.Zaslavskinin 2005-ci ildə nəşr edilmiş əsərində Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin istifadəyə verilməsilə Qazaxıstandan neft ixracı marşrutlarının seçilməsini şərtləndirən iqtisadi və siyasi amillər, onların Rusiyanın maraqları və bu ölkədəki vəziyyətlə bağlılığı məsələləri araşdırılır [423].

Müəllifin fikrincə, Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin işə düşməsi "*böyük mərhələnin başa çatması deməkdir. Bundan sonra Xəzər hövzəsi ölkələri qəti olaraq və birbaşa dünya iqtisadiyyatına qoşulublar*" [423, s.171]. Bununla belə, BTC-ni Rusiyanın maraqlarına hələ ciddi maneə yox, yalnız alternativ marşrut kimi qiymətləndirən İ.Zaslavski vurğulayır ki, Qazaxıstan rəhbərliyi "*Bakı–Ceyhanı heç də hökmən "Rusiyadan yan keçən boru" kimi deyil, "Bosfordan yan keçən boru" kimi qəbul edir*" [423, s.173].

Vaxtilə Rusiyanın Bakıdakı diplomatik missiyasında işləmiş S.Çernyavskinin Azərbaycanın müasir tarixinə həsr edilmiş əsərində neft strategiyasına da xüsusi yer ayrılmışdır. "Əsrin müqaviləsi" və Xəzərin sektor bölgüsü məsələlərini, neft-qaz nəqli infrastrukturunun yaradılması problemlərini təhlil edən müəllif ölkədə həyata keçirilən yeni enerji strategiyasını Azərbaycanın sosial-iqtisadi inkişafında və xarici əlaqələrin güclənməsində mühüm amil kimi dəyərləndirir [497].

Öyrənilən mövzunun müəyyən aspektləri İ.Ağakişiyevin Moskvada və Sankt-Peterburqda çapdan çıxmış və Bakı neft sənayesinin tarixinə həsr edilmiş monoqrafiyalarında tədqiq olunmuşdur [375; 376]. Müəllif sovet hakimiyyətinin süqutu ərəfəsində Azərbaycn neft sənayesinin durumunu səciyyələndirir, xarici neft şirkətləri ilə əməkdaşlığın Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmış və iqtisadi böhran yaşayan ölkə üçün mühüm siyasi və iqtisadi əhəmiyyət kəsb etdiyini vurğulayır. Qeyd edir ki, xarici kapital nəinki Azərbaycan neft sənayesinin, həm də iqtisadiyyatın digər sahələrinin inkişafına təkan verdi.

Xəzər dənizinin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarlarına çıxarılması, Kremlin bu bölgədə geosiyasi və geoiqtisadi maraqları ilə bağlı problemlərin araşdırılması Rusiyada başqa tədqiqatçıların da diqqət mərkəzində durur. Bu baxımdan V.Şoroxov [499], D.Bukin [397], S.Jiltsov, İ.Zonn, A.Uşkov [420] və S.Petrovun [462] əsərlərini qeyd etmək olar. Müəlliflər Xəzər dənizinin enerji ehtiyatlarını dərindən təhlil edir, bölgənin geosiyasi və geoiqtisadi durumuna təsir göstərən amilləri, Rusiyanın bu proseslərdə rolu məsələlərini geniş işıqlandırırlar.

B.Şapaqatovanın Qazaxıstanda neft gəlirlərinin toplanması və istifadə olunması təcrübəsinə həsr edilmiş əsəri Azərbaycan Respublikası Dövlət Neft Fondunun fəaliyyətinin müqayisəli şəkildə qiymətləndirilməsi baxımından maraq doğurur. Müəllif Qazaxıstan Milli Fondunun formalaşması və idarə olunması sahəsində həyata keçirilən siyasəti təhlil edir, qurumun fəaliyyətini araşdırır [498].

Amerika tədqiqatçısı V.Sokorun məqaləsində Azərbaycanın qaz ixracı sahəsində siyasəti təhlil olunur. Müəllif Avropa ölkələri, qonşu Türkiyə və Rusiya ilə mavi yanacağın nəqli üzrə əlaqələrin inkişafını nəzərdən keçirir, “Nabukko” layihəsinin reallaşmasına əngəl yaradan Türkiyənin tranzit tarifi ilə bağlı inadkarlığını tənqid edir, Azərbaycanın öz mənafelərini ardıcıl qoruyaraq Rusiya, İran və s. istiqamətlərdə qaz ixracı variantlarını gerçəkləşdirmək cəhdlərini araşdırır və onların perspektivli oldu-

ğunu vurğulayır [334, s.149-155].

Öyrənilən problemlə bağlı bəzi məsələlər İ.Overlənd, H.Kjarnet və A.Kendall-Teylorun redaktorluğu ilə 2010-cu ildə London və Nyu-Yorkda çapdan çıxmış və Xəzəryanı üç dövlətin enerji siyasətinə həsr olunmuş kitabda nəzərdən keçirilir. Müəlliflər Azərbaycan, Qazaxıstan və Türkmənistanın enerji mənbələrinin işlənilməsi sahəsindəki kursunu tədqiq edərək, onu əsasən öz qeyri-obyektiv siyasi prizmalarından – həmin ölkələrdə "*avtoritar hakimiyyətin möhkəmləndirilməsinə*" yönəlməsi aspektindən qiymətləndirirlər. Bununla yanaşı, Azərbaycanda neft sənayesinə yatırılan investisiyaların əhalinin məşğulluğuna, digər sosial problemlərin həllinə təsirini təhlil edir, habelə Rusiya ilə münasibətlərdə neft amilinin rolunu xüsusi vurğulayaraq, rəsmi Bakının ixrac boru kəmərləri şəbəkəsi yaratmaqla dövlət maraqlarını qorumaq və daha müstəqil siyasət yeritmək imkanı qazandığını göstərirlər [505].

Monoqrafiya mövzusunun nəzəri aspektlərinin konseptual baxımdan daha dolğun dərk olunmasında neft tarixi ilə bağlı tədqiqatların tanınmış müəllifi D.Yerqinin fundamental əsəri mühüm əhəmiyyət kəsb edir. Kitabda neftin beynəlxalq siyasətdə həlledici amilə çevrilməsi, müasir dünyanın iqtisadi və siyasi inkişafında aparıcı rol oynaması zəngin faktiki material əsasında ardıcıllıqla təhlil edilir [419].

Beləliklə, problemə dair əsərlərin öyrənilməsi göstərir ki, tədqiq olunan mövzunun müxtəlif aspektləri elmi ədəbiyyatda bu və digər şəkildə öz əksini tapmışdır. Bununla belə, məsələnin çoxşaxəli olması, ötən dövr ərzində enerji siyasətinin fasiləsiz və çevik davam etdirilməsi, neft strategiyasının yeni fakt və amillərin təsiri altında dəyişikliyə məruz qalması, zənginləşməsi mövzunun kompleks şəkildə və daha geniş xronoloji çərçivədə araşdırılmasını şərtləndirir. Xüsusilə ölkənin yeni neft infrastrukturunun yaradılması və inkişafı, Dövlət Neft Fondunun fəaliyyəti və sosial-iqtisadi problemlərin həllində onun rolu sistemli surətdə öyrənilməlidir.

Mövzunun araşdırılması müxtəlif tipli mənbələrin tədqiqata cəlb edilərək dərindən təhlil olunması əsasında aparılıb. Onların əksəriyyəti (əsasən Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF-in) hesabatları, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR-ın) cari arxiv sənədləri, müxtəlif statistik toplular və dövri mətbuat materialları) elmi dövriyyəyə ilk dəfə gətirilir və ya yeni təhlil bucağında nəzərdən keçirilir. Bu mənbələri mənşəyinə və xarakterinə görə bir neçə qrupa bölmək olar. Əvvəla, Azərbaycan Respublikasının dövlət rəhbərlərinin – neft strategiyasının hazırlanması və həyata keçirilməsinə bilavasitə başçılıq etmiş Prezident Heydər Əliyevin, habelə ilk dövrdə Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti kimi bu strategiyanın formalaşmasına xüsusi töhfə vermiş, 2003-cü ildən isə Azərbaycanın Prezidenti vəzifəsində enerji siyasətinin ardıcıl reallaşdırılması sahəsində məqsədyönlü fəaliyyət göstərən İlham Əliyevin fərman və sərəncamları, çıxış, nitq, məruzə, məktub və müsahibələrindən ibarət çoxcildli külliyyatları mühüm mənbə rolunu oynayır [158; 159].

Bununla yanaşı, 1997-ci ildə çapdan çıxmış "Heydər Əliyev. Azərbaycan nefti dünya siyasətində" kitabında neft strategiyasının formalaşması və icra olunması ilə bağlı Azərbaycanın siyasi xəttinin ardıcıllığını izləməyə imkan verən materiallar toplanmışdır [181].

Yuxarıda qeyd olunan nəşrlər xarici şirkətlərlə aparılan danışıqların gedişini, müzakirələrdə tərəflərin mövqeyini, geosiyasi maraqları, iqtisadi, siyasi, maliyyə və s. problemləri, onların həlli yollarını, qərarların qəbul olunmasını şərtləndirən amilləri təhlil etməyə imkan yaradır.

Neft strategiyasının başlanğıc mərhələsini öyrənmək üçün "Əsrin müqaviləsi" kitabında toplanmış materiallar da ilkin mənbə kimi mühüm əhəmiyyətə malikdir [169].

Topluda "Əsrin müqaviləsi"nin hazırlanması və imzalanması prosesi ilə bağlı Prezident Heydər Əliyevin fərman və sərəncamları, nitqləri, mətbuat konfransının materialları, habelə xarici neft şirkətləri rəhbərlərinin və iştirakçı ölkələrin nazirləri-

nin çıxışları, Şimal və Qərb ixrac marşrutlarına dair sənədlər sistemli şəkildə verilmişdir. Həmçinin ABŞ Prezidenti B.Klintonun və Böyük Britaniyanın Baş naziri C.Meycorun "Əsrin müqaviləsi"nin imzalanması münasibətilə Prezident Heydər Əliyevə ünvanlanmış təbrik məktubları həmin sazişin siyasi, iqtisadi və beynəlxalq əhəmiyyətini qiymətləndirmək baxımından xüsusi maraq doğurur.

Neft müqavilələri haqqında ümumi səciyyəli məlumat-soraq kitabçaları və statistik toplular mənbələrin digər qrupunu təşkil edir.

İlk böyük sazişin beşillik yubileyi münasibətilə nəşr olunmuş məlumat kitabçası "Əsrin müqaviləsi" haqqında ən zəruri və yığcam materiallardan ibarətdir. Kitabça müqavilənin texniki-iqtisadi xarakteristikası, yerinə yetirilməsinin əsas mərhələləri ilə bağlı qısa məlumat verir, beş il ərzində görülmüş işlər, o cümlədən Səngəçal və Supsa terminalı, Şimal və Qərb ixrac boru kəmərləri barədə oxuculara əsas statistikanı çatdırır [170].

Yeni neft-qaz infrastrukturunun tərkib hissəsi kimi ixrac boru kəmərlərinin tikintisi enerji siyasətinin olduqca vacib istiqamətlərindən biri hesab edilir. Bu baxımdan Bakı–Tbilisi–Ceyhan Əsas ixrac boru kəməri (BTC ƏİBK) layihəsinin reallaşdırılması ilə bağlı məsələlər mövzunun öyrənilməsində diqqət mərkəzində olmuşdur. "İki dəniz arasında. Bakı–Tbilisi–Ceyhan boru kəməri layihəsi" məlumat kitabçası da strateji əhəmiyyətə malik olan bu ixrac marşrutunun texniki-iqtisadi xarakteristikası, maliyyə xərcləri, ətraf mühitə təsiri, sosial rolu və s. haqqında geniş təsəvvürlərin formalaşmasına xidmət edir [212].

Araşdırılan mövzunun xüsusiyyəti müxtəlif səpkili statistik materialların elmi təhlilə cəlb olunmasını şərtləndirir. Bu baxımdan ilk növbədə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin hər il çap etdiyi topluları qeyd etmək lazımdır [102-107]. Rəsmi nəşr statusuna malik bu məcmuələr Azərbaycanda neft və qaz hasilatının illik vəziyyətini obyektiv

qiymətləndirməyə imkan yaradır. Materialların əvvəlki illərlə müqayisəli şəkildə verilməsi hasilatın dinamikasını izləməyə kömək edir.

Statistik mənbələr sırasında "BP" şirkətinin illik hesabatlarını da göstərmək olar [139; 140; 503; 507]. Şirkətin Azərbaycanda fəaliyyəti ilə bağlı hər il çap etdiyi hesabatlar neft-qaz layihələrinin reallaşdırılması mərhələlərini nəzərdən keçirmək, əldə olunmuş mühüm nəticələri qiymətləndirmək üçün zəngin material verir. Bu nəşrlər şirkətin Azərbaycanda karbohidrogen hasilatı, maliyyə xərcləri, əməyin təhlükəsizliyi və ətraf mühitin qorunması üzrə gördüyü işlər, kadr siyasəti və azərbaycanlı əməkdaşların say dinamikası, o cümlədən yüksək vəzifəli menecerlər arasında yerli mütəxəssislər barədə geniş və maraqlı məlumatları əhatə edir.

Mövzu ilə bağlı nəzərdən keçirilən bu tipli mənbələr qrupuna Dövlət Neft Fondunun fəaliyyətinə dair materialları da daxil etmək olar. Belə mənbələrdən biri Neft Fondunun 10 illiyi münasibətilə işıq üzü görmüş yubiley nəşridir [108]. Kitabda qurumun yaradılması, fəaliyyətinin əsas məqsədi və prinsipləri, göstərilən dövrün ən mühüm hadisələrinin xronologiyası əks olunmuşdur. Eyni zamanda, Fondun idarə edilməsi və strukturu, formalaşma mənbələri, vəsaitlərin istifadəsi, maliyyələşdirilən əsas layihələr barədə məlumat xüsusi fəsildə verilmişdir. Qurumun fəaliyyətini səciyyələndirən şəffaflıq prinsipinə dair məlumatlar isə digər fəsildə toplanmışdır.

Qeyd etmək lazımdır ki, göstərilən materiallar bu təşkilatın fəaliyyət dairəsini müəyyən etmək və qiymətləndirmək üçün mühüm baza rolunu oynaya bilər.

Bununla belə, Dövlət Neft Fondunun çoxşaxəli fəaliyyətinin daha dərindən öyrənilməsi baxımından onun illik hesabatları zəngin mənbə kimi əvəzedilməzdir. 2001-ci ildən etibarən ardıcıl olaraq bütün sonrakı dövrü əhatə edən bu məcmuələr Fondun fəaliyyətinin müxtəlif istiqamətləri üzrə geniş statistik faktlar, maraqlı təhlillər və ekspert rəyləri ilə diqqəti cəlb edir [51-70].

Hesabatlarda dünya neft bazarında ümumi vəziyyət, neft qiymətlərinin dinamikası, Fondun gəlir və xərcləri barədə geniş məlumatlar əksini tapmışdır. Eyni zamanda illik gəlirlərin formalaşdığı ayrı-ayrı mənbələrin təsnifatı, yəni mənfəət neftinin satışı, bonus ödənişləri, tranzit haqları, toplanmış vəsaitlərin idarə olunması və s. üzrə daxilolmalar haqqında dolğun statistikanın verilməsi müqayisəli təhlilin aparılmasına və ümumi mənzərənin təsvirinə əlverişli şərait yaradır. Digər tərəfdən, Fondun illik xərclərinin də konkret istiqamətlər üzrə ətraflı göstərilməsi, maliyyələşdirilən sosial və infrastruktur layihələri barədə məlumatlar təşkilatın fəaliyyətinin araşdırılması üçün ilkin mənbə kimi qiymətlidir.

Əsərin mövzusunun tədqiqi ilə bağlı Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin cari arxivində saxlanılan sənədlərdən də mənbə kimi istifadə olunmuşdur. Azərbaycanın neft və qaz sektoruna xarici və yerli kapitalın cəlb edilməsi, sazişlərin bağlanması üzrə danışıqların aparılması, müqavilələrin hazırlanması və imzalanması, sonrakı dövrdə icrasına nəzarətin həyata keçirilməsi vəzifələrini yerinə yetirən SOCAR-ın Sərmayələr idarəsinin materialları bu baxımdan əhəmiyyətlidir [120; 315].

Həmin sənədlər imzalanmış müqavilələr haqqında məlumatları genişləndirməyə, onların reallaşdırılması sahəsində görülən işlər, o cümlədən ixrac boru kəmərlərinin (Bakı–Supsa neft kəməri və BTC) tikintisi ilə bağlı bəzi məsələləri daha dolğun işıqlandırmağa şərait yaradır.

Azərbaycan neft strategiyasının formalaşması və reallaşdırılması məsələlərinin öyrənilməsində neft-qaz sənayesinin inkişafına böyük töhfələr vermiş görkəmli geoloq, neftçi-alim X.Yusifzadənin xatirələrindən ibarət kitabı özünəməxsus yer tutur [369].

Xarici şirkətlərlə aparılan danışıqların ilk mərhələsindən başlayaraq bilavasitə iştirakçısı olmuş və imzalanmış müqavilələrin yerinə yetirilməsində təcrübəli mütəxəssis kimi sanballı rol oynamış müəllif Xəzərin karbohidrogen ehtiyatlarının birgə işlənilməsi ilə bağlı tarixi dövrün çətin və uğurlu məqamlarını ətraflı qələmə almaqla dolğun və obyektiv mənzərənin yaradılmasına çalışmışdır.

Kitabda Azərbaycan nümayəndə heyətinin xarici şirkətlərlə danışıqlarının ayrı-ayrı dövrləri faktlar əsasında işıqlandırılır, meydana çıxan problemlərin həlli sahəsində atılan addımlardan bəhs olunur. “Əsrin müqaviləsi”ni “*Azərbaycan neftinin tacı*” adlandıran müəllif [369, s.155] neft siyasətinin həyata keçirilməsində Heydər Əliyevin xidmətlərini xüsusi qeyd edir, səmərəli nəticələrin qazanılmasında İlham Əliyevin fəaliyyətinin mühüm əhəmiyyətə malik olduğunu konkret dəlillərlə göstərir.

Mövzu ilə bağlı mənbələrin böyük və mühüm qrupunu dövri mətbuat təşkil edir. Öyrənilən illərdə dövlət təşkilatlarının rəsmi orqanı kimi müntəzəm nəşr olunan “Xalq qəzeti”, “Azərbaycan”, “Respublika”, “Бакинский рабочий” qəzetlərində Azərbaycan prezidentlərinin xarici ölkə başçıları və şirkət rəhbərləri ilə görüşləri, neft-qaz sazişlərinin imzalanması və həyata keçirilməsi ilə bağlı müxtəlif tədbirlərdə rəsmi şəxslərin, o cümlədən əcnəbi ölkə nümayəndələrinin çıxışları, müsahibələri, enerji siyasətinə dair təhlil və hesabat xarakterli çoxsaylı materiallar dərc edilmişdir.

Bununla yanaşı, “Mülkiyyət”, “Yeni Azərbaycan”, “525-ci qəzet”, “İki sahil”, “Kaspi”, “Ayna”, “Вышка”, “Азербайджанские известия”, “Зеркало”, “Эхо” və s. müstəqil nəşrlərdə, o cümlədən hökumətin siyasi xəttinə münasibətdə, bir qayda olaraq, yalnız tənqidi mövqedən çıxış edən “Azadlıq”, “Yeni Müsavat”, “Hürriyyət” qəzetlərində, habelə Rusiyanın “Правда”, “Известия”, “Российская газета”, “Независимая газета” kimi mətbuat orqanlarında tədqiq olunan problemlə bağlı geniş məqalə və məlumatlar öz əksini tapmışdır. Eyni zamanda, qərbin mətbuat səhifələrində işıq üzü görmüş məqalələrdən də (onların böyük qrupu “Azərbaycanın enerji siyasəti Qərb mətbuatında” kitabında [96] toplanmışdır) istifadə olunmuşdur.

Tədqiqatın gedişində elmi dövriyyəyə ilk dəfə həm də ARDNF-in və SOCAR-ın rəsmi saytlarının, informasiya agentliklərinin (AZƏRTAC, APA, Trend və s.) internet səhifələrinin materialları daxil edilmişdir. Bu isə proseslərin dinamik inkişa-

fını izləməyə, daha dolğun və çevik məlumatlar əsasında müqayisəli təhlillər aparmağa şərait yaratmışdır. Belə ki, neft və qaz sənayesinə dair iqtisadi və statistik göstəricilər, Neft Fondunun fəaliyyətini tənzimləyən hüquqi-normativ aktlar (Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Neft Fondunun Əsasnaməsi və s.) yuxarıda qeyd olunan cəhətdən əhəmiyyətli sayılmalıdır.

Ümumiyyətlə, tədqiqata cəlb edilmiş materiallar məzmun və əhatə dairəsinə görə sanballı və sistemli mənbəşünaslıq bazası formalaşdırmağa imkan vermişdir. İstifadə olunmuş mənbələr problemin siyasi, iqtisadi, geostrateji aspektlərini kompleks şəkildə təhlil edib, qarşıya qoyulan vəzifələr üzrə müvafiq nəticələr əldə etmək üçün əsaslı rol oynamışdır.

Monoqrafiyanın xronoloji çərçivəsi Azərbaycan Respublikasının keçdiyi tarixi yol ilə üst-üstə düşür. Belə ki, müstəqillik illərində daha qabarıq siyasi və iqtisadi çalarlar kəsb edən neft amili özünü çox açıq şəkildə büruzə verir. Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi həyatına, neft strategiyasının formalaşmasına təsir göstərən hadisələr və tarixi proseslər araşdırmanın xronoloji çərçivəsinin müəyyən olunmasını şərtləndirmişdir. Lakin xarici neft şirkətləri ilə əməkdaşlığın zəruriliyini və inkişaf dinamikasını aydın dərk etmək üçün 1991-ci ilədək – SSRİ-nin süqutu ərəfəsində neft-qaz sənayesinin vəziyyətinə və xarici kapitalın cəlb edilməsi ilə bağlı danışıqların başlanğıc mərhələsinə də qısa nəzər salınır.

Müstəqillik illərində neft strategiyasının həyata keçirilməsinin fasiləsiz proses kimi səciyyələndirilməsi, əcnəbi sərmayənin neft-qaz sənayesinin və bütövlükdə ölkə iqtisadiyyatının inkişafında təsirli mövqeyini hələ də saxlaması tədqiqatın xronoloji çərçivəsinin imkan dairəsində son illərədək (2023-cü ilə qədər) genişlənməsinə zəmin yaratmışdır.

# I FƏSİL
# XARİCİ NEFT ŞİRKƏTLƏRİ İLƏ ƏMƏKDAŞLIĞIN BAŞLANMASI. MİLLİ NEFT STRATEGİYASININ FORMALAŞMASI

## 1.1. Xarici kapitalın neft-qaz sənayesinə cəlb olunmasını şərtləndirən amillər

Azərbaycanın iqtisadi həyatında tarixən mühüm rol oynamış neft sənayesi həm Rusiya imperiyası dövründə, həm də sovet hakimiyyəti illərində ölkə miqyasında əhəmiyyətli sənaye sahəsi kimi aparıcı mövqelərə malik olmuşdur. Lakin XX əsrin 80-ci illərindən etibarən getdikcə dərinləşən iqtisadi böhran SSRİ-nin bütün sosial-iqtisadi həyatını bürüyərək Azərbaycan iqtisadiyyatına, o cümlədən neft-qaz sənayesinə də ağır zərbə vurdu. SSRİ-nin dağılması ərəfəsində vüsət alan tənəzzül prosesləri 1991-ci ildə müstəqillik qazanmış Azərbaycanda özünü daha kəskin şəkildə göstərdi. Azərbaycanın müstəqil dövlətçiliyini ciddi sınaq qarşısında qoymuş siyasi, sosial-iqtisadi və hərbi problemlər bir sıra amillərlə bağlı idi.

Əvvəla, qeyd etmək lazımdır ki, Sovet İttifaqı tərkibində digər respublikalarla sıx qarşılıqlı iqtisadi əlaqələrə malik olan Azərbaycan vahid siyasi-iqtisadi sistemin sürətlə dağılması ilə uzun illər ərzində formalaşmış ənənəvi satış bazarlarından və öz istehsal sahələri üçün zəruri olan təchizat bazalarından məhrum oldu. Azərbaycanın SSRİ məkanında qarşılıqlı inteqrasiya səviyyəsini səciyyələndirən bir sıra faktlar respublikanın iqtisadi potensialına dəymiş ziyanın miqyasını aydın göstərir. Belə ki, həmin dövrdə onun ümumi idxalının 73 faizi, ixracının isə 94 faizi sovet respublikaları ilə mövcud olan iqtisadi əlaqələrin payına düşürdü [276].

Xarici ölkələrlə həyata keçirilən ticarət əlaqələri də müstəqil yox, SSRİ-nin ümumi iqtisadi əməkdaşlığı çərçivəsində

qurulurdu. Bu əlaqələrin sürətlə itirilməsi istehsalın dərin tənəzzülə uğramasına, sənaye müəssisələrinin işinin iflic olmasına, sosial gərginliyin artmasına gətirib çıxardı.

Digər tərəfdən, Dağlıq Qarabağda separatizmə rəvac verən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, respublika ərazisinin 20 faizinin işğal olunması, bir milyon nəfərdən çox azərbaycanlının öz doğma torpaqlarından didərgin düşməsi müstəqillik yoluna yenicə qədəm qoymuş dövlətin iqtisadi potensialına sarsıdıcı zərbə vurmuşdu.

Eyni zamanda, respublikada hökm sürən qeyri-sabit siyasi vəziyyət, dövlət idarəetmə strukturlarının səmərəsiz fəaliyyəti sosialist iqtisadi sisteminin iflası şəraitində yeni – bazar iqtisadiyyatına keçidi şərtləndirən zəruri islahatların aparılmasını ləngidir, iqtisadi böhranın daha da dərinləşməsinə, makroiqtisadi vəziyyətin getdikcə ağırlaşmasına stimul verirdi. Qeyd edilən amillərin təsiri altında ölkə iqtisadiyyatının ardıcıl surətdə zəifləməsi özünü Ümumi Daxili Məhsul (ÜDM) istehsalının ildən-ilə kəskin azalmasında qabarıq şəkildə büruzə verirdi. Belə ki, keçən yüzilliyin 90-cı illərinin başlanğıcında ÜDM həcmi ildə 20 faizdən çox azalırdı. Əgər 1991-ci ildə bu mühüm göstərici 1990-cı ilin səviyyəsinə nisbətən 99,3% təşkil etmişdisə, sonrakı illərdə azalma tempi sürətlənmiş və artıq 1992-ci ildə ÜDM əvvəlki illə müqayisədə 77,4%, 1993-cü ildə 76,9%, 1994-cü ildə isə 80,3% həddinə düşmüşdü [102, s.26].

Davamlı iqtisadi tənəzzül ölkənin sənaye potensialına ağır zərbə vurmuşdu. Buna görə də sənaye istehsalı daha sürətlə aşağı düşürdü. Əgər sənaye məhsullarının həcmi 1991-ci ildə əvvəlki ilin səviyyəsi ilə müqayisədə 91% təşkil etmişdisə, bu rəqəm 1992-ci ildə 1990-cı il səviyyəsinin 63%-i, 1993-cü ildə 51%-i və 1994-cü ildə isə 38%-inə bərabər olmuşdu. Yəni bütövlükdə dörd il ərzində sənaye istehsalı 62% azalmışdı [272, s.390].

Göründüyü kimi, ölkə iqtisadiyyatını, o cümlədən sənaye istehsalı sahəsini bürümüş böhran prosesləri ildən-ilə genişlə-

nərək kəskin xarakter almışdı. Nəticədə iqtisadiyyatın bütün sahələri ilə yanaşı, ənənəvi olaraq aparıcı mövqelərə malik olan neft-qaz sənayesi çox ağır vəziyyətlə üzləşmişdi.

Əlbəttə ki, bütün ölkə iqtisadiyyatında olduğu kimi, neft-qaz sənayesində də gerilələmənin mühüm səbəblərindən biri əsaslı kapital qoyuluşunun ildən-ilə kəskin azalması ilə bağlı idi. Məlumdur ki, 1980–90-cı illərdə neft və qaz hasilatında aparıcı yeri dəniz mədənləri tuturdu. Çünki uzunmüddətli istismar nəticəsində qurudakı yataqlarda karbohidrogen ehtiyatları əsasən çıxarılmışdır. Burada hətta *"ikinci metodla"* hasilat da faydalı nəticə vermirdi [176, s.24-25]. Buna görə də tükənməkdə olan quru yataqlarından fərqli olaraq, dənizdəki yataqların istismarının müasir tələblərə uyğun şəkildə səmərəli təşkili həlledici əhəmiyyət kəsb edirdi. Lakin maliyyə çatışmazlığı qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə mane olurdu.

Əgər 1990-cı ildə dəniz mədənlərinə 572,6 milyon ABŞ dolları həcmində maliyyə vəsaiti yönəldilmişdisə, növbəti illərdə bu məbləğ getdikcə azalaraq 1993-cü ildə 72,6 milyon dollar, 1994-cü ildə isə 17,6 milyon dollar təşkil etmişdir [286].

Beləliklə, 1990–1994-cü illərdə perspektivli dəniz yataqlarının işlənməsinə sərf olunmuş maliyyə vəsaiti 32,5 dəfə azalmışdır.

Təbii ki, eyni vəziyyət neft-qaz sənayesinin əsas sahəsi olan qazma işlərində də müşahidə olunurdu. Belə ki, 1990-cı ildə bu sahəyə qoyulmuş sərmayənin həcmi 219,2 milyon dollara bərabər idisə, 1991-ci ildə 155 milyon dollar, 1992-ci ildə 119 milyon dollar, 1993-cü ildə 31,4 milyon dollar və 1994-cü ildə 5,7 milyon dollara qədər azalmışdı [286]. Yəni həmin dövrdə neft və qaz quyularının qazılmasına maliyyə vəsaiti qoyuluşu daha çox – 38,4 dəfə aşağı düşmüşdü.

Şübhəsiz, sərmayə qoyuluşunun kəskin azalması neft-qaz sənayesinin bütün sahələrinə ağır təsir göstərmədən ötüşə bilməzdi. Maliyyə və texniki təchizat imkanlarının xeyli dərəcədə məhdudlaşması nəticəsində kəşfiyyat və istismar-qazma işlərinin

həcmi nəzərəçarpacaq surətdə azalmışdı. Bu isə, öz növbəsində, neft və qaz hasilatının durmadan aşağı düşməsinə səbəb olmuşdu. Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda qazma işlərinin dinamikasına nəzər saldıqda, 1994-cü ildə kəşfiyyat qazmasının 1990-cı il səviyyəsinin cəmi 6,5%-ni, istismar qazmasının isə 38%-ni təşkil etdiyini görmək olar [381, s.137]. Sonrakı bir neçə il ərzində də vəziyyət qeyri-sabit olaraq qalırdı.

Qeyd edilən amillərin təsiri altında istismarda olan quyuların sayı ildən-ilə azalaraq 1991-ci ildəki 9290-dan 1995-ci ilin əvvəlinə 5424-ə düşmüşdü. Fəaliyyətsiz quyuların sayı isə həmin müddətdə 501-dən 4170-ə çatmışdı [174].

Yaranmış vəziyyətdə neft hasilatının da getdikcə aşağı düşməsi qanunauyğun hesab edilməlidir. Statistik göstəricilər də bu qanunauyğunluğu müşahidə etməyə imkan verir [381, s.138]. Həmin rəqəmlərə əsasən tərtib olunmuş aşağıdakı cədvəldən (bu və növbəti cədvəldə faiz göstəriciləri tədqiqatın gedişində hesablanmışdır–Ə.M.) neft sənayesindəki tənəzzülün mənzərəsini aydın görmək mümkündür:

**Cədvəl 1.1.1**

**Neft hasilatı 1987–1994-cü illərdə**

| **İllər** | **Neft hasilatı (min t.)** | **Hasilatın müqayisəli həcmi (%)** | |
|---|---|---|---|
| | | **əvvəlki ilə nisbətən** | **1987-ci ilə nisbətən** |
| 1987 | 14280,0 | - | - |
| 1988 | 13740,8 | 96,2 | 96,2 |
| 1989 | 13159,1 | 95,8 | 92,2 |
| 1990 | 12512,6 | 95,1 | 87,6 |
| 1991 | 11941,8 | 95,4 | 83,6 |
| 1992 | 11084,2 | 92,8 | 77,6 |
| 1993 | 10295,0 | 92,9 | 72,1 |
| 1994 | 9562,5 | 92,9 | 67,0 |

Göründüyü kimi, 1987-ci ildə – Azərbaycanda erməni separatizminin baş qaldırdığı və ictimai-siyasi sabitliyin pozulduğu ərəfədə neft hasilatı 14,3 mln ton təşkil etmişdisə, 1990-cı ildə 2 mln tona yaxın aşağı düşərək 12,5 mln ton, 1994-cü ildə isə daha 3 mln ton azalaraq 9,6 mln ton olmuşdur. Yəni hasilat 1990-cı ildə 1987-ci ilə nisbətən 12,4% azalmışdısa, 1994-cü ildə 33% azalaraq 7 il əvvəlki səviyyənin 67%-ni təşkil etmişdir.

Yuxarıda qeyd olunan rəqəmlər bəhs edilən dövrdə neft sənayesinin ciddi böhran yaşadığını göstərir. Kapital qoyuluşunun ardıcıl şəkildə azalması şəraitində hasilatın gerilməsi kəskin xarakter almışdı. Azərbaycanın müstəqilliyinin ilk illərində bu neqativ meyillər davam edirdi. Cədvəldən də göründüyü kimi, 1990–1991-ci illərdə illik azalma tempi 5%-ə yaxın idisə, 1992–1994-cü illərdə geriləmənin sürəti bir qədər də artaraq, ildə 7%-dən çox olmuşdur.

Eyni vəziyyət qaz hasilatı sahəsində də özünü göstərirdi. Rəsmi məlumatlara istinad edərək [272, s.403; 381, s.139], ötən əsrin 90-cı illərinin əvvəllərində qaz hasilatının azalma dinamikasını aşağıdakı cədvəldə əks etdirmək olar:

**Cədvəl 1.1.2**

**Qaz hasilatı 1990–1994-cü illərdə**

| **İllər** | **Qaz hasilatı (mln $m^3$)** | **Hasilatın müqayisəli həcmi (%)** | |
|---|---|---|---|
| | | **əvvəlki ilə nisbətən** | **1990-cı ilə nisbətən** |
| 1990 | 9926 | - | - |
| 1991 | 8621 | 86,9 | 86,9 |
| 1992 | 7872 | 91,3 | 79,3 |
| 1993 | 6805 | 86,5 | 68,6 |
| 1994 | 6379 | 93,7 | 64,3 |

Beləliklə, qaz hasilatı 4 il ərzində 3,5 mlrd $m^3$ azalaraq (35,7%) 1994-cü ildə 6,4 mlrd $m^3$ təşkil etmişdir. Yəni 1990-cı il səviyyəsinin 64,3%-i həddinə düşmüşdür. İllik azalma tempi qeyri-sabit olmuş və 1993-cü ildə 13,5%-ə qədər artsa da, 1994-cü ildə 6,3%-dək səngimişdir. Bununla belə, ölkədə hasil olunan qazın həcmi daxili tələbatı ödəməyə kifayət etmirdi.

Eyni zamanda qeyd etmək lazımdır ki, 1980-ci illərin ikinci yarısında Xəzər dənizinin dərinlikdə yerləşən hissəsində zəngin "Çıraq", "Azəri" və "Kəpəz" yataqlarının kəşf edilməsi Azərbaycanın neft-qaz ehtiyatlarının hələ tükənmədiyini göstərirdi. Amma vüsət almaqda olan tənəzzül həmin yataqların istismarına başlamağa imkan vermirdi. Çünki bunun üçün böyük məbləğdə investisiya qoyuluşu və daha müasir texnologiyalara ehtiyac var idi [369, s.116]. Azərbaycan isə o zaman bu ehtiyacı ödəmək iqtidarında deyildi.

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, 1980-ci illərin sonunda Azərbaycanın siyasi və sosial-iqtisadi həyatını bürümüş böhran meyilləri 1990-cı illərin əvvəllərində daha da dərinləşmişdir. Ölkə iqtisadiyyatının bütün sahələrinə geniş sirayət etmiş bu böhran ənənəvi olaraq sosial-iqtisadi sistemdə aparıcı rol oynayan neft-qaz sənayesinə də güclü təsir göstərmişdir. Maliyyə resurslarının çatışmazlığı, texniki gerilik və sovet iqtisadi sisteminin dağılması neft-qaz sənayesinin tənəzzülünü sürətləndirmişdir. Bunun nəticəsi olaraq neft və qaz hasilatı kəskin aşağı düşmüşdür. Vəziyyətin belə davam etməsi ağır iqtisadi, siyasi və hərbi problemlərlə üzləşmiş gənc dövləti fəlakətə sürükləyirdi. Yaranmış çətin şəraitdə müstəqilliyin qorunması və sosial-iqtisadi böhranın aradan qaldırılması üçün yeganə iqtisadi baza (eyni zamanda vacib siyasi amil) rolunu yenidən dirçəldilmiş neft-qaz sənayesi oynaya bilərdi. Azərbaycan öz gücü hesabına bu ağır vəzifənin öhdəsindən gəlmək üçün lazımi maliyyə vəsaitinə və texnologiyalara malik deyildi. Buna görə də həmin dövrdə Xəzər neftinə böyük maraq göstərən, bu sahəyə tələb olunan həcmdə sərmayə yatırmağa və

müasir texnologiyalar gətirməyə qadir olan fövqəlmilli neft şirkətləri ilə əməkdaşlıq aktuallıq kəsb edirdi. Bu baxımdan xarici ölkələrin tanınmış neft kompaniyaları ilə hələ 1990-cı ildən davam edən danışıqlar müstəqilliyin ilk aylarından yenidən diqqət mərkəzində idi.

## 1.2. Qərb şirkətləri ilə danışıqların başlanması. "Əsrin müqaviləsi"nin imzalanması

1980-ci illərin ikinci yarısında sovet hökumətinin sosial-iqtisadi sahədə yeritdiyi siyasi kurs vətəndaşların müxtəlif sahibkarlıq təşəbbüslərinin reallaşdırılmasına, olkədə iqtisadi inkişafı stimullaşdıran kapital toplanmasına əlverişli imkanlar açmaqla bərabər, əcnəbi sərmayələrin də ayrı-ayrı sahələrə yönəldilməsinə şərait yaradırdı. Həmin dövrdə böyük həcmli investisiyalara və tərəqqiyə təkan verən müasir texnologiyalara möhtac olan SSRİ iqtisadiyyatının xarici ölkə şirkətlərinin kommersiya maraqları dairəsinə düşməsi təbii idi.

Bu baxımdan uzun tarixi zaman ərzində böyük imperiyanın iqtisadiyyatında öncül mövqe tutmuş Azərbaycanın əsasən Abşeronda cəmləşən neft sənayesi də özünün iqtisadi əhəmiyyətini saxlayırdı. Bəhs olunan illərdə ağır böhranın təsiri ilə dərin tənəzzülə məruz qalsa da, bu qədim sənaye sahəsi yenidən Qərbin iri kompaniyalarının nəzərini cəlb edirdi.

1989-cu ildə "Remko" kompaniyasının (Böyük Britaniya) Bakıya gəlmiş təmsilçisi S.Remp respublikanın neft sənayesində hökm sürən müasir durumu, onun gələcək potensialı haqqında geniş məlumat topladı. Bundan sonra Qərb investorları Azərbaycan neftinə daha çox diqqət göstərməyə başladılar. S.Remp Bakıda aldığı təəssüratlarını bölüşərkən xüsusi olaraq vurğulayırdı: *"1989-cu ildə "dəmir pərdənin" çökməsi ərəfəsində neft kompaniyalarının əksəriyyəti öz səylərini Qərbi Sibirə yönəltmişdi. Belə fikir gəzirdi ki, Azərbaycanın sərvətləri çoxdan tükənib. Azərbaycanlı mütəxəssislərlə görüşlərdə özüm üçün*

*kəşf etdim ki, Xəzər dənizində işlənməmiş nəhəng ehtiyatlar mövcuddur”* [381, s.145].

Göstərilən illərdə Azərbaycan hələ Sovet İttifaqının əyaləti kimi əcnəbi kapitalın gətirilməsi ilə bağlı investorlarla birbaşa müzakirələr aparmaq və qərarlar vermək hüququna malik deyildi. Həmin dövrdə sosial-iqtisadi həyatı geniş əhatə etmiş böhranın qarşısını almaq və siyasi hakimiyyəti qorumaq niyyəti güdən respublika rəhbərliyi Kremli Qərb firmaları ilə danışıqlar aparmağa razı sala bildi. Xəzər dənizindəki neft resurslarının müştərək işlənməsi ilə bağlı danışıqlarda “Britiş Petroleum” (Böyük Britaniya), “Amoko” və “Yunokal” (ABŞ), “Statoyl” (Norveç) kimi tanınmış neft şirkətləri iştirak edirdi.

Danışıqların ilkin mərhələsinə 1991-ci ilin başlanğıcında yekun vuruldu. 1991-ci il yanvarın 18-də Sovet İttifaqının Neft və Qaz Sənayesi Nazirliyi ilə Azərbaycanın Nazirlər Sovetinin birgə çıxardığı qərar əsasında Xəzər dənizində yerləşən “Azəri” yatağının kəşfiyyatı və istismarı üçün “Xəzərdənizneft” İstehsalat Birliyi ilə birgə müəssisənin təşkilinə dair tender keçirilməli idi [463, s.194]. “BP”, “Amoko” və “Yunokal” bu tenderə öz təkliflərini təqdim etdilər. İyunda başa çatan tenderdə “Amoko” qalib gəldi.

Bununla belə, Azərbaycanda fəaliyyət göstərmək niyyətində olan başqa firmalara da müvafiq şərait yaradılırdı. Müsabiqə komissiyasının yekun sənədinə görə, “Amoko” Azərbaycan hökumətinin razılığı ilə digər şirkətləri də “Azəri” yatağında birgə işləməyə dəvət etmək hüququna malik idi. Buna görə də qarşılıqlı razılıq əsasında “BP/Statoyl” alyansı, habelə “Remko”, “MakDermott” və “Yunokal” şirkətləri tərəfdaş kimi “Azəri” layihəsinə qoşuldular. “Amoko” bu əməkdaşlıqda 45 faizlik pay ilə liderliyini saxlayırdı [463, s.195; 369, s.132].

Yuxarıda göstərilənlərdən aydın olur ki, Azərbaycan Qərb ölkələri ilə iqtisadi əlaqələrin inkişafı ilə bərabər, həm də özünün siyasi mənafelərini də reallaşdırmağa çalışırdı. Təsadüfi deyildi ki, neft sənayesi sahəsində işbirliyinə dair danışıqlarda

Amerika kompaniyalarının üstün mövqeyi davam etsə də, dünyada söz sahibi olan Böyük Britaniyanın, eləcə də Norveçin şirkətlərinə geniş yer verilirdi. Bununla da Qərb dövlətləri ilə hərtərəfli siyasi-iqtisadi münasibətlərin inkişafına əlverişli yol açılırdı. Amma istiqlaliyyətin ilk dövründə Azərbaycanda cərəyan edən gərgin siyasi proseslər hökumətə xarici investorlarla aparılan danışıqları sona çatdırmağa imkan vermədi.

Belə ki, 1992-ci ilin mart ayında Bakıda hakimiyyət başına yeni siyasi dairələrin gəlməsi ilə bu prosesdə qısa fasilə yarandı. Buna baxmayaraq, tərəflər əməkdaşlığın qurulması üçün maraq göstərirdilər.

Həmin ilin iyununda Azərbaycanda Ə.Elçibəyin Prezident vəzifəsinə seçilməsindən sonra neft danışıqları təzədən aktuallaşdı. İyul ayının 17-də Azərbaycan paytaxtında ölkə rəhbərliyi ilə “BP” şirkətinin prezidenti C.Braun arasında sazişin hazırlanması və gələcək əməkdaşlığa dair geniş fikir mübadiləsi aparıldı [85].

Məhz bu danışıqlardan az sonra, yəni sentyabrın 7-də “BP/Statoyl” ilə “Dostluq” blokunun (sonralar – “Çıraq”) və “Şahdəniz” strukturunun işlənməsi üzrə saziş imzalandı. Xarici şirkətlər alyansı qeyd olunan neft sahələrində fəaliyyət üçün üstün hüquqlar əldə etdiyinə görə, Azərbaycana 30 milyon ABŞ dolları həcmində bonus ödəməli idi [381, s.147].

Sənədin imzalanması mərasimində Birləşmiş Krallığın sabiq Baş naziri M.Tetçerin iştirakı ciddi siyasi hadisə idi [138]. Onun xüsusi missiya ilə Azərbaycana ilk səfəri neft müqavilələrinə İngiltərədə böyük siyasi marağın əyani göstəricisi kimi qiymətləndirilirdi.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ, daha sonra – SOCAR) neft sənayesində əməkdaşlıqda maraqlı olan ABŞ-ın “Pennzoyl” kompaniyası ilə də 1992-ci ilin oktyabrında saziş bağladı. Həmin sazişə görə, ABŞ şirkəti Xəzərdə neft ehtiyatları ilə seçilən “Günəşli” yatağında birgə işləmək hüququ qazanırdı [381, s.148].

Bundan sonra artıq məlum olurdu ki, xarici şirkətlərlə danışıqların əsas predmeti dörd yataqda – "Azəri", "Günəşli", "Çıraq" və "Şahdəniz"də müştərək fəaliyyətin qurulmasından ibarət olacaq.

"Yunokal" kompaniyası yatırılacaq sərmayənin daha effektiv istifadə olunması, işlərin çevik və keyfiyyətlə yerinə yetirilməsi məqsədilə "Azəri", "Günəşli" və "Çıraq" neft yataqlarında aparılacaq tədqiqatların vahid şəkildə həyata keçirilməsi təşəbbüsünü irəli sürdü. ARDNŞ (SOCAR) bu təklifi dəstəklədi. Bununla da 1992-ci ilin noyabrında SOCAR və həmin əcnəbi şirkətlər birgə infrastruktur sisteminin (mərkəzləşmiş təchizat bazası, boru kəmərləri, terminallar) yaradılmasına dair memorandum imzaladılar.

Bununla belə, layihə çərçivəsində bütün işlərin birləşdirilməsi haqqında müzakirələr 1993-cü ilin iyun ayında başa çatdı. SOCAR iyunun 5-də layihələrin birləşdirilməsi ilə bağlı yekun sənədi əcnəbi şirkətlərə təqdim etdi. Bəyannamə formasında tərtib olunmuş həmin sənəddə iştirakçı firmaların layihədə malik olduğu pay nisbəti əksini tapmışdı. Birləşmiş müqavilə layihəsinin iyun ayının axırına qədər hazırlanması nəzərdə tutulurdu [477].

SOCAR müqavilədə 30%, xarici şirkətlər isə ümumən 70% pay alırdı [463, s.199]. Bununla belə, sənədin müddəalarına əsasən, Azərbaycan karbohidrogen resurslarının sahibi kimi, sazişdən daxil olan bütün gəlirlərin 80%-dən artıq hissəsini əldə etməli idi [198; 284]. Yəni ölkənin ümumi gəlirləri yalnız Neft Şirkətinin sazişdəki payından asılı deyildi.

Lakin göstərilən gəlir səviyyəsinə görə müqavilə şərtlərinin hələ Azərbaycanın mənafelərinə tam uyğun gəldiyini iddia etmək düzgün olmazdı. Həmin vaxtdan az sonra SOCAR-a rəhbərlik etməyə başlamış N.Əliyevin sözlərinə görə, sazişin Azərbaycan üçün sərfəli olmaması ondan doğurdu ki, *"layihənin səmərəliliyinə onun dəyərinə və pul göstəricilərinə görə qiymət verilirdi. Bu isə belə kapitaltutumlu və uzunmüddətli layihələrdə real mənzərəni xeyli təhrif edir"* [136].

Nəzərə almaq lazım idi ki, saziş böyük dövr – 25-30 il müddətinə imzalanırdı. Həmin illərdə qaçılmaz olan inflyasiya, bunun dünyada neft, texnika və avadanlığın qiymətinə təsiri layihənin gəlirlərindən də yan ötməyəcəkdi. Bu isə o dövr ərzində layihə iştirakçıları arasında gəlirlərin hansı nisbətdə bölüşdürülməsi məsələsinin əhəmiyyətini artırırdı. Yəni Azərbaycan müqavilədə payına düşən gəlirlərin çox hissəsini birgə fəaliyyətin ilk dövründə yox, sonrakı illərdə alardısa, bu müddətdəki inflyasiya qazancın gerçək həcmini ciddi şəkildə azaldardı. Ona görə də sazişdə gəlirlərin pul əvəzinə neftin həcmi ilə göstərilməsi və həm də onun daha tez alınmasını müəyyənləşdirən qrafik ölkə üçün məqsədəuyğun hesab edilə bilərdi. Amma sazişin 1993-cü ilin iyun ayına olan layihəsində Azərbaycan gəlirli neftin 62,7%-ni əldə etməli idi. Bununla bərabər, sazişin qüvvədə olduğu ilk illərdə gəlirin çox hissəsini xarici tərəfdaşlar almalı idilər [136]. Bu baxımdan müqavilə şərtləri Azərbaycanın maraqlarını tam ifadə etmirdi.

Azərbaycanda gedən siyasi proseslər 1993-cü ilin iyun ayında yenidən hakimiyyət dəyişikliyi ilə nəticələndi. Bu isə neft müqaviləsinin hazırlanaraq başa çatdırılmasına və imzalanmasına əngəl törətdi. Ozamankı Baş nazir P.Hüseynovun istefaya getdikdən bir neçə gün sonra, yəni iyunun 11-də müqavilənin bağlanması haqqında razılıq sənədini imzalamasına baxmayaraq, həmin ayın 21-nə nəzərdə tutulmuş imzalanma mərasimi təxirə salındı. Az sonra – iyunun 24-dən Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərini həyata keçirən Heydər Əliyev əcnəbi şirkətlərlə aparılan danışıqların dayandırılması barədə göstəriş verdi [185; 314, s.2; 430].

Hazırlanmış layihədə Azərbaycanın maraqlarına uyğun olmayan müddəaların əksini tapması və bəzi məsələlərin əlavə dəqiqləşdirilməsi zərurəti haqqında məlumatlar belə ciddi qərarın qəbuluna səbəb olmuşdu. Bu məlumatları yoxlamaq və müqavilə layihəsini yenidən qiymətləndirmək üçün isə müəyyən vaxt lazım idi.

Eyni zamanda, Ermənistanın fürsətdən istifadə edərək Qarabağda öz qəsbkar hücumlarını gücləndirməsi Azərbaycanda hərbi-siyasi durumu ağırlaşdırmışdı. Belə mürəkkəb şəraitdə Heydər Əliyev vəziyyəti doğru qiymətləndirərək, təcavüzkarın dayandırılması üçün Xəzər neftindən böyük pay almaq istəyən bəzi Qərb ölkələrinin siyasi nüfuzundan istifadə etməyə çalışırdı.

Sazişlə bağlı müzakirələrin kəsilməsi həm xarici kompaniyaları, həm də Qərb ölkələrinin rəsmi dairələrini narahat etməyə başlamışdı. Təsadüfi deyil ki, Heydər Əliyev həmin dövrdə tez-tez keçirdiyi bütün görüşlərdə onların təmsilçilərinə danışıqlardakı fasilənin səbəblərini ətraflı çatdıraraq *"köhnə rəhbərliyin bu sahədə səriştəsizliyə və tələskənliyə yol verdiyini"* göstərir, təbii resurslardan *"ağılla istifadə edilməsinin"* vacibliyini vurğulayırdı [158, c.1, s.62].

Qərbin hökumət rəhbərləri siyasi və iqtisadi maraqlarını əsas tutaraq, neft sazişlərinin qısa zamanda imzalanmasına can atırdılar. Bakıda Heydər Əliyevlə görüşən Ağ evin yüksək vəzifəli nümayəndəsi U.Uayt *"müqaviləyə tezliklə qol çəkilməsi üçün xüsusi protokol gətirdiyini"* və Birləşmiş Ştatların Azərbaycanda *"strateji marağının olduğunu"* xüsusi qeyd etdi. Heydər Əliyev isə cavabında sazişin bağlanmasına qarşı olmadığını bildirərək, məsələyə münasibətini prinsipial və aydın surətdə açıqladı: *"Azərbaycanın da Amerikada strateji marağı vardır. Bizi daha çox strateji maraqların nə dərəcədə bir-birinə uyğun gəlməsi düşündürür"* [29].

Bir daha məlum olur ki, neft amili dünyada strateji xarakterli vəzifələrin həlli üçün olduqca vacib əhəmiyyət daşıyırdı. Buna görə də Azərbaycan Respublikasının istər siyasi, istərsə də sosial-iqtisadi maraqlarının tam qorunması məqsədilə bu mühüm amildən mümkün qədər faydalanmağa çalışması təbii hesab olunmalıdır.

Azərbaycan xarici şirkətlərlə danışıqların aparılması üçün beynəlxalq səviyyədə tanınmış mütəxəssislərdən ibarət

qrup formalaşdırdı. Bu qrupa Amerika və Avropanın müxtəlif ölkələrindən ekspertlər cəlb edildi. Noyabrda Londonda başa çatan növbəti müzakirələrdən sonra ekspert qrupu və əcnəbi neft kompaniyaları sazişin hüquqi və kommersiya prinsiplərinə dair protokol imzaladılar. Bu sənədə görə, "Günəşli" yatağı layihədən çıxarılmışdı. Danışıqlar iki yataq – "Azəri" və "Çıraq" üzrə davam etdirilmişdi.

Ekspert qrupunun rəhbəri M.Manafovun fikrincə, yeni sazişin şərtləri Azərbaycan üçün əlverişli sayılmalı idi. Belə ki, gəlirlərin 80:20 faiz nisbətində Azərbaycanın xeyrinə bölüşdürülməsi nəzərdə tutulurdu. Yəni pulla ifadə edilərsə, Azərbaycan 118 milyard dollarlıq ümumi gəlirin 94 milyard dollarını, neft şirkətləri isə 24 milyard dollarını almalı idilər [284].

Xarici kompaniyalar Azərbaycana təzyiq etməyə çalışaraq, bu sənədin də qəbul olunmayacağı təqdirdə, bir daha danışıqlar aparmayacaqlarını bəyan etdilər.

Layihənin yeni variantının öyrənilməsi göstərdi ki, ekspertlərin verdiyi müsbət rəyə baxmayaraq, bu sənəd də Azərbaycanın milli maraqlarına uyğun deyil. Belə ki, layihənin sərfəliliyi, əvvəlki kimi, iştirakçıların gəlirinin maliyyə həcmi ilə qiymətləndirilirdi. Bundan başqa, gəlirli neft yenə də əcnəbi firmaların mənafelərinə uyğun rejimdə bölüşdürülməli idi.

Xarici şirkətlərlə neft sazişinin 1993-cü ilin noyabr, yəni London versiyasından bəhs edən SOCAR-ın prezidenti N.Əliyevin sözlərinə görə, Azərbaycanın neftlə ölçülən payı daha da azalaraq 53,42 faizə düşmüşdü. Həm də xarici kompaniyalar yenə də ilk illərdə gəlirin bölüşdürülməsində üstün mövqe qazanırdılar. Bu özünü onda göstərirdi ki, Azərbaycan əvvəlki 10 il ərzində hasil olunacaq 98 milyon ton neftin az miqdarını – cəmi 16 milyon tonunu (16,3%-ni), yəni ümumi gəlirli neftin 39%-ni almalı idi [136].

Prezident Heydər Əliyev Londonda hazırlanmış müqavilə layihəsini öyrəndikdən sonra sənəddə əksini tapmış müddəaları da Azərbaycan üçün məqbul saymadı [169, s.12]. Ona

görə də Prezidentin tapşırığı ilə SOCAR problemi dərindən araşdırmaq məqsədilə yerli mütəxəssislərdən ibarət işçi qrupu formalaşdırdı. Xarici şirkətlərlə danışıqların əsas prinsipləri bir daha dəqiqləşdirildi. Dövlət Neft Şirkətinin yeni təklifləri qəbul olunduqdan sonra 1994-cü il fevralın 4-də *"Azərbaycan Respublikasında dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında"* Prezident sərəncamı imzalandı [169, s.8]. Bununla da həmin təkliflər əsasında "Azəri" və "Çıraq" yataqlarının xarici investorlarla birgə işlənməsi haqqında sazişin hazırlanması və bağlanması səlahiyyəti SOCAR-a verildi.

Beləliklə, xarici kompaniyalarla danışıqlar prosesi yeni mərhələyə keçirdi. 1994-cü ilin mart ayında Dövlət Neft Şirkətinin rəhbərlərindən biri (birinci vitse-prezidenti) təyin edlmiş İlham Əliyev sonralar xatırlayırdı: *"Bu zaman bizim qarşımızda bir neçə əsas vəzifə dayanmışdı: birincisi, müqavilənin imzalanmasına nail olmaq. İkincisi, müqavilədə Azərbaycan üçün ən əlverişli şərtlər – həm hüquqi, həm də iqtisadi – yaratmaq. Üçüncüsü isə, müqavilənin işləməsinə nail olmaq"* [27, s.246].

Əcnəbi investorlarla danışıqlar heç də asan getmirdi. Belə ki, Qərb firmaları daha sərfəli şərtlərə nail olmağa, Türkiyə şirkəti isə layihədəki payını bir az da artırmağa səy göstərirdi. Yəni xarici tərəfdaşlar müqavilədə daha güclü mövqe qazanmağa çalışırdılar.

Qərb dövlətlərinin neft şirkətləri vasitəsilə Azərbaycanda və Xəzər hövzəsində geoiqtisadi mənafelərini reallaşdırmaq siyasəti region ölkələrinin – Rusiya, Türkiyə və İranın da strateji əhəmiyyətli bu bölgədə fəallığının artmasına təkan verirdi. Onlar da Xəzər dənizinin karbohidrogen mənbələrinin işlənilməsində pay almaq üçün rəqabət aparırdılar. Məhz 1990-cı illərin sonunda Z.Bjezinski Azərbaycanı *"Xəzər hövzəsi və Orta Asiyanın sərvətlərinin olduğu "butulkaya" girişə nəzarət edən həyati əhəmiyyətə malik "tıxac"* adlandırmışdı [504, s.129].

Təsadüfi deyil ki, bütün maraqlı tərəflər burada üstün mövqelərini təmin etmək uğrunda gərgin mübarizəyə başlamışdılar. Digər dövlətlər kimi, qonşu İran da bu layihədə iştirak

etmək üçün böyük səy göstərirdi. Amma Vaşinqtonla gərgin münasibətlər iki ölkənin hər hansı işbirliyinə ciddi əngəl yaradırdı. İran və ABŞ şirkətlərinin eyni müqavilədə iştirakı mümkün sayılmadığına görə, Azərbaycan sərhəd qonşusu ilə əməkdaşlığın başqa variantlarını nəzərdən keçirirdi. Əlaqələrin normal səviyyədə inkişafına maraq göstərən rəsmi Bakı İran şirkətlərinin başqa sazişlərdə yer almasının mümkünlüyünü bəyan etdi.

Regionda böyük marağı olan Rusiya da bu sazişlərdə pay əldə etməyə çalışırdı. SOCAR-ın "LUKoyl" şirkəti ilə bu sahədə əməkdaşlığının təməli 1993-cü ilin noyabr ayında qoyuldu [381, s.154]. Həmin ilin aprelində yaradılmış "LUKoyl"un payına Rusiyada neft hasilatının 15%-i düşürdü [376, s.189]. Cənubi Qafqazda və Xəzər hövzəsində öz geosiyasi maraqlarını reallaşdırmaq üçün Kreml təsir vasitəsi kimi Xəzər dənizinin hələ də açıq qalmış hüquqi statusu məsələsindən yararlanmağa səy göstərirdi.

Dövlət Neft Şirkəti Rusiya ilə müzakirələri başa vurduqdan sonra 1994-cü il martın 22-də konsorsium üzvlərinin nəzərinə çatdırdı ki, "LUKoyl" kompaniyası 10% iştirak payı əldə edərək layihəyə qoşulmuşdur [321].

Xarici sərmayədarlarla danışıqlar sonrakı dövrdə Bakı və İstanbul şəhərlərində aparılmışdır. 1994-cü ilin iyununda yayılan məlumatlardan aydın oldu ki, Türkiyədəki müzakirələr nəticəsiz başa çatmışdır. Azərbaycan Dövlət Neft Şirkətinin nümayəndəsi İlham Əliyev tərəflərin ciddi fikir ayrılığı olduğunu bildirmişdir. Göstərilirdi ki, layihənin kommersiya şərtlərinə dair məsələlərdə mövqelər kəskin şəkildə fərqlidir. Bu, əsasən, sazişin ilk mərhələsində gəlirlərin tərəflər arasında bölüşdürülməsi qrafiki ilə bağlıdır.

Əcnəbi investorlar müqavilə çərçivəsində qoyuluşu nəzərdə tutulan 9 milyard ABŞ dolları həcmində sərmayənin əvəzini götürdükdən sonra Azərbaycanın gəlir əldə etməsi təklifinin üzərində israrla dayanırdılar. Lakin sosial və iqtisadi sahədə ağır problemlərlə üzləşən Azərbaycan onların həlli üçün neft

gəlirlərini daha erkən əldə etməkdə maraqlı idi. Buna görə də İlham Əliyev müzakirələrin gedişində tərəfdaşların nəzərinə çatdırırdı ki, *"onun hökuməti Azərbaycanın payına düşən gəlirin tezliklə alınmasını təmin etməyən sazişi öz ölkəsində müdafiə edə bilməz"* [239].

Göründüyü kimi, iştirakçılar müqavilədə öz maraqlarının maksimum təmin olunmasına yönəlmiş şərtlərin əksini tapmasına çalışırdılar. Bu isə danışıqların gərgin keçərək uzanmasına səbəb olurdu. Yaranmış vəziyyət Ermənistanın hərbi təcavüzü şəraitində beynəlxalq aləmdə mövqelərinin gücləndirilməsində və dərinləşən iqtisadi tənəzzülün qarşısının alınmasında xarici şirkətlərlə əməkdaşlığa xüsusi əhəmiyyət verən Azərbaycan Respublikasının mənafelərinə cavab vermirdi. Bununla belə, respublika hökuməti neft sazişində milli maraqların gerçək şəkildə qorunması üçün bütün imkanlardan istifadə edirdi.

Təsadüfi deyil ki, müqavilənin kommersiya şərtlərinin daha sərfəli variantını hazırlamaq məqsədilə yeni-yeni təkliflər dərindən öyrənilirdi. Müzakirələr zamanı müqavilə potensialının 50 milyon tona qədər artırılması həm Azərbaycan, həm də əcnəbi investorlar üçün ən məqbul variant kimi gündəliyə çıxarıldı. Buna nail olmaq üçün "Günəşli" yatağının daha dərin sahəsinin layihəyə daxil edilməsi zəruri hesab olundu. O zaman Azərbaycan hələ "Günəşli" yatağının suyun 200 metrdən çox dərinlikdəki hissəsinin müstəqil işlənməsinə imkan verən texniki avadanlıqlara malik deyildi. Bu çətinliyi və əlverişli əməkdaşlığın sürətləndirilməsinin faydalarını əsas götürən Azərbaycan hökuməti "Azəri" və "Çıraq" yataqları ilə yanaşı, dərinsulu "Günəşli"nin də müqavilə sahəsinə birləşdirilməsini məqsədəuyğun hesab etdi.

Bu dəyişikliklə Azərbaycanın müqavilədən neftlə gəliri 210 milyon tondan (75%-dən) 253 milyon tona (80%-ə) çatacaqdı [136].

Beləliklə, müqavilə sahəsinin genişlənməsi onun ümumi iqtisadi səmərəsini yüksəldirdi. Belə ki, Azərbaycanın ümumi

gəliri çoxaldığına görə layihənin icra olunduğu ilk 15 il ərzində ona çatan neftin həcmi əvvəlki kimi 106 milyon ton yox, artaraq 128 milyon ton (gəlirli neftin 50,5%-ni) təşkil edəcəkdi. Bu, sazişin kommersiya baxımından tərəflər üçün daha əlverişli olduğunu göstərirdi. Təsadüfi deyil ki, layihənin İstanbulda qəbul olunmuş kommersiya prinsipləri hamının maraqlarına uyğun gəldiyinə görə sonrakı dövrdə yenidən müzakirə predmeti olmadı [169, s.67].

İstanbul danışıqları gərgin keçsə də, iştirakçıların pozitiv yanaşması sayəsində 1994-cü ilin iyulunda uğurla yekunlaşdı. Nəticələr Prezident Heydər Əliyev tərəfindən qəbul edildikdən sonra iyul ayında tərəflər bilavasitə saziş mətninin hazırlanmasına dair sənədə imza atdılar [169, s.13-14].

Artıq, demək olar ki, müzakirələr finiş mərhələsinə daxil olurdu. Azərbaycan xarici investorların danışıqları Hyuston şəhərində (ABŞ) davam etdirməklə bağlı təşəbbüsünə müsbət yanaşdı. İyulun 21-dən bu şəhərdə aparılan danışıqlar 45 gündən sonra başa çatdı [169, s.14].

Hyustonda gedən müzakirələr bölgədə cərəyan edən geosiyasi çəkişmələrin təsiri altında keçdi. "LUKoyl"un konsorsiuma daxil olmasına baxmayaraq, Rusiyanın Xəzər dənizinin hüquqi statusu problemini öz maraqları naminə alətə çevirmək cəhdi digər xarici sərmayəçiləri daha sayıq hərəkətə məcbur edirdi.

Eyni zamanda, bu məsələ həm də investorlara Azərbaycandan güzəşt qoparmaq üçün əlavə meydan verirdi. Bu baxımdan Hyuston danışıqları neft kompaniyalarının hazırlanan sənədə Xəzərin hüquqi statusu haqqında bəndin salınmasına təkid göstərmələri ilə yadda qaldı. Əgər bu təklif reallaşsaydı, imzalanmış müqavilə yalnız Xəzəryanı ölkələrin statusla bağlı razılaşmasından sonra hüquqi qüvvəyə malik olacaqdı [314, s.2].

Aydındır ki, tərəfdaşların bu yanaşması Azərbaycanın mənafelərinə heç cür uyğun deyildi. Belə olan təqdirdə, sazişin icra olunmasını uzun illər gözləmək lazım gələrdi. Çünki tarixin

də göstərdiyi kimi, bu acı proqnoz özünü tamamilə doğruldardı. Məlumdur ki, üç dövlət – Rusiya, Azərbaycan və Qazaxıstan Xəzər dənizinin dibinin bölüşdürülməsi haqqında yekun razılığa 2002–2003-cü illərdə gəlsələr də [497, s.70-72], bütövlükdə bu problem ətrafında müzakirələr bundan sonra hələ 15 il də davam etdi.

Nəhayət, Xəzərətrafı ölkə prezidentlərinin 2018-ci il avqust ayının 12-də Aktau şəhərində (Qazaxıstan) keçirilmiş 5-ci zirvə görüşündə *"Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya"* imzalandı [9].

Deməli, Azərbaycan danışıqların nəticəsini və ümumi razılığı əks etdirən sənədin təsdiq olunmasını hələ 24 il də gözləməli olsaydı, nəinki neft strategiyasının, hətta onun özünün müstəqil dövlət kimi taleyi böyük risklərə məruz qalardı. Buna görə də təcili olaraq vəziyyətdən çıxış yolları tapılmalı, danışıqlar konstruktiv məcraya yönəldilməli idi. Bunun üçün Azərbaycan tərəfindən danışıqlarda iştirak edən Dövlət Neft Şirkətinin I vitse-prezidenti İ.Əliyev ABŞ-ın paytaxtı Vaşinqtona gedərək bu ölkənin energetika nazirinin müavini U.Uayt ilə görüşdü. Aparılmış müzakirələr nəticəsində Azərbaycanın arqumentləri əsaslı hesab edildi. ABŞ hökumətinin hələlik mübahisəli olan Xəzər dənizinin hüquqi statusu ilə bağlı bəndin müqaviləyə salınmamasına dair rəyi xarici kompaniyalar tərəfindən nəzərə alındı. Onlar bu təklifdən çəkildilər [369, s.145-146; 497, s.70-72].

Beləliklə, Hyustonda aparılmış müzakirələrlə dörd ildən çox davam edən gərgin danışıqları başa vurmaq mümkün oldu. ABŞ hökumətinin siyasi dəstəyi Xəzər dənizinin hüquqi rejiminə dair geosiyasi xarakterli problemlərdən yan keçməyə yol açdı. (Ağ evin bu sahədə dəyişməz qətiyyətli mövqeyi sonrakı dövrdə neft sazişlərinin həyata keçirilməsində vacib rol oynadı.) Nümayəndə heyətləri əsas məsələlər barədə ortaq məxrəcə gələrək saziş layihəsini işləyib hazırladılar. Azərbaycan Prezidentinə verilən məlumatda bu sənədin ölkənin iqtisadi maraqlarına uyğun olması vurğulanırdı.

Prezident Heydər Əliyev SOCAR-ın həmin məruzəsini əsas götürərək “Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində” 14 sentyabr 1994-cü il tarixli Fərman imzaladı. Bununla da “Azəri”, “Çıraq” və dərinsulu “Günəşli” yataqlarının əcnəbi investorlarla birgə işlənilməsinə dair müqavilə layihəsi müsbət qiymətləndirilir, onu imzalamaq səlahiyyəti Dövlət Neft Şirkətinin prezidenti N.Əliyevə verilirdi [169, s.9-11]. Bu fərmanın ardınca – sentyabr ayının 16-da brifinq keçirən Azərbaycan Prezidenti Heydər Əliyev xarici şirkətlərlə çoxdan gözlənilən neft sazişinin sentyabrın 20-də imzalanacağını bütün dünyaya elan etdi [169, s.14].

Yalnız Azərbaycanda deyil, həm də beynəlxalq arenada yaxından izlənilən müzakirələrin nəticəsi olan həmin qərar geniş miqyasda maraq doğurdu. Təqdim olunmuş layihəyə münasibət bildirən Heydər Əliyev sənədin Azərbaycan tərəfinin arzu və istəklərini tam ifadə etmədiyini vurğuladı. Lakin bu işbirliyinin bütün iştirakçıların ortaq mənafelərinə söykəndiyini, layihənin həm əcnəbi sərmayəçilərin, həm də Azərbaycan Respublikasının iqtisadi maraqlarını əsasən əks etdirdiyini nəzərə çatdırdı.

Xüsusi qeyd olunmalıdır ki, Azərbaycan hökuməti neft sənayesində xarici kapitalla əməkdaşlıq məsələlərini müzakirə edərkən özünün iqtisadi-maliyyə maraqları ilə yanaşı, ölkənin siyasi mənafelərini də güdmüş və beynəlxalq əlaqələrini genişləndirməyə çalışmışdır. Məhz ona görə də layihədə ABŞ və Avropa dövlətləri ilə bərabər, region ölkələrini – Türkiyə və Rusiyanı təmsil edən kompaniyaların iştirakı bölgədə müxtəlif geosiyasi maraqların uzlaşdırılması səylərinin təzahürüdür. Reallıqda daha çox ölkənin şirkəti Azərbaycan neftinə böyük diqqət göstərir və müqaviləyə qoşulmağa can atırdı. Təsadüfi deyil ki, Azərbaycan Prezidentinin əcnəbi firmalarla danışıqların yekunlarına dair 1994-cü il sentyabrın 14-də imzaladığı Fərmandan bir neçə gün sonra İslam aləminin nüfuzlu dövlətlərindən sayılan Səudiyyə Ərəbistanı Krallığının “Delta-Nimir” kompa-

niyası konsorsiumdakı beş xarici ölkənin şirkətləri sırasına daxil oldu. Krallığın təmsilçisi müqavilənin imzalanması ərəfəsində 1,68%-lik paya sahib olaraq layihəyə qoşuldu [169, s.11; 381, s.159].

Yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, Azərbaycan geniş xarici iqtisadi əlaqələrin qurulmasına səy göstərirdi. Hələ konsorsiumla gərgin danışıqlar getdiyi vaxtda Dövlət Neft Şirkətinin Amerikanın daha bir firması ilə neft sənayesinə investisiya qoyuluşu haqqında başqa sazişi imzalaması bu fikri təsdiq edir. Belə ki, İlham Əliyev 1994-cü il avqustun 10-da Neft Şirkətinin birinci vitse-prezidenti kimi ABŞ-ın "Yunayted BMB Qrupp" kompaniyası ilə Azərbaycanın qurudakı neft yatağında əməkdaşlıq barədə sənədi imzaladı [21]. İyirmi illik dövrü əhatə edən həmin saziş neft sahəsində ABŞ şirkətləri ilə Azərbaycanın bağladığı birinci müqavilə kimi tarixə düşdü. Bununla Azərbaycan xarici investorlarla əməkdaşlığa can atdığını və iri neft kapitalının cəlb edilməsinə maraqlı olduğunu əyani surətdə göstərirdi.

Xarici investorlarla danışıqları uğurla başa çatdırdıqdan sonra 1994-cü il sentyabrın 20-də SOCAR Bakıda dünyanın altı dövlətinin (Amerika Birləşmiş Ştatları, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Norveç Krallığı, Türkiyə Respublikası, Rusiya Federasiyası və Səudiyyə Ərəbistanı Krallığı) "Yunokal", "Pennzoyl", "Amoko", "MakDermott", "BP", "Remko", "Statoyl", "Türkiyə Petrolleri" ("TPAO"), "LUKoyl" və "Delta-Nimir" kimi məşhur on neft kompaniyası ilə Xəzər dənizindəki "Azəri", "Çıraq" və dərinsulu "Günəşli" yataqlarının birgə işlənilməsi və hasilatın pay bölgüsünə dair müqavilə imzaladı [169, s.30-43].

Sazişə əsasən, SOCAR(ARDNŞ) layihədə 20% iştirak payı alırdı. Qalan 80% isə xarici neft kompaniyaları arasında belə bölüşdürülürdü: 17,13%–"BP", 17,01%–"Amoko", 10%–"LUKoyl", 9,82%–"Pennzoyl", 9,52%–"Yunokal", 8,56%–"Statoyl", 2,45%–"MakDermott", 2,08%–"Remko", 1,75%–

"TPAO", 1,68%–"Delta-Nimir" [381, s.176].

Neft sazişi 1994-cü il dekabrın 12-də Milli Məclisdə təsdiq olundu. Bununla da qüvvəyə minən müqavilənin yerinə yetirilməsi istiqamətində gərgin fəaliyyət dövrü başladı.

Müqavilə yüksək iqtisadi parametrləri ilə seçilirdi. Əvvəla, yataqlarda hələ təmkinli hesablamalara əsasən, 511 milyon ton neft resurslarının olması göstərilirdi. Sazişə görə, Azərbaycan çıxarılacaq neftin 253 milyon tonunu, əcnəbi tərəfdaşlar isə 64 milyon tonunu əldə etməli idilər. Qalan 194 milyon ton neftin də şirkətlərin layihədəki istismar və s. xərclərinin bağlanmasına yönəldilməsi nəzərdə tutulurdu. Deməli, Azərbaycanın payına mənfəət neftinin mütləq əksəriyyəti – 80%-i, bütün investorlara isə 20%-i düşürdü [169, s.78-79; 381, s.175].

Layihədə Azərbaycanın ümumi gəlirlərinin əsasən üç mənbədən daxil olduğunu qeyd etmək olar: 1) Təbii resursların sahibi kimi gəlirin müəyyən hissəsini alır; 2) Yataqların istismarına kapital qoyuluşunun həcminə münasib gəlir əldə edir (SOCAR özünün 20%-lik iştirak payına uyğun olaraq sərmayə qoymalı idi); 3) Konsorsiumun əldə etdiyi gəlirlərin 25%-i vergi kimi Azərbaycanın dövlət büdcəsinə ödənilir [169, s.9-10].

Eyni zamanda, Azərbaycan layihənin icrası dövründə neftlə bərabər hasil ediləcək səmt qazını (həcmi 55 mlrd kubmetr proqnozlaşdırılırdı) ödənişsiz almalı idi. Bundan başqa, Azərbaycan həm də sazişin əhatə dairəsindəki təbii qaz ehtiyatlarının işlənməsi üçün investorlarla ayrı müqavilə bağlamaq hüququna malik olurdu.

Sazişin mavi yanacaqla bağlı bəndləri də Azərbaycanın iqtisadi maraqları baxımından əhəmiyyətli idi. Belə ki, həmin sənədin əvvəlki – 1993-cü ilin iyun versiyasında ölkənin çıxarılan səmt qazını konsorsiumdan satın alması nəzərdə tutulurdu.

Əcnəbi kompaniyaların yataqların sahibinə ödəməli mükafatın – bonusun həcmi yenə də 300 mln ABŞ dolları məbləğində qalırdı. Amma bu malyyənin Azərbaycana ödənilməsi qrafiki daha əlverişli surətdə təsdiq olunmuşdu. Şərtə görə,

bonusun yarısı sənəd hüquqi qüvvəyə mindikdən 30 gün sonra, daha 25 faizi orta sutkalıq neft hasilatı 40 min barel səviyyəsinə çatdıqda, axırıncı 25 faizi isə neftin ixracat boru kəməri ilə ötürülməsinə başladıqda verilməli idi [136; 169, s.79].

Layihəyə həmin dövrün məzənnəsi ilə 7,5 milyard ABŞ dolları həcmində sərmayə qoyuluşu gözlənilirdi. Bu məbləğin 80%-i əcnəbi investorların, 20%-i isə konsorsiumdakı iştirak payına uyğun olaraq SOCAR-ın öhdəsinə düşürdü.

Aparılmış hesablamalara əsasən, bu əməkdaşlıqdan Azərbaycan ozamankı məzənnə ilə 34 milyard ABŞ dolları, əcnəbi tərəfdaşlar isə 8 milyard ABŞ dolları məbləğində qazanc götürməli idilər [381, s.175]. Lakin Dövlət Neft Şirkətinin prezidenti N.Əliyevin fikrincə, 30 illik zaman ərzində inflyasiyanın təsiri ilə müqavilədən daxil olan gəlirlər 157 milyard ABŞ dolları təşkil edə bilərdi. Həmin məbləğdən layihəyə sərf olunan xərcləri çıxdıqda, Azərbaycan 81,7 milyard ABŞ dolları, əcnəbi kompaniyalar isə 19,5 milyard ABŞ dolları mənfəət əldə etməli idilər [136].

İcrası 30 illik dövr üçün nəzərdə tutulmuş layihənin üç mərhələdə yerinə yetirilməsi planlaşdırılırdı. 18 aya hesablanmış ilk mərhələdə minimum proqrama daxil olan məcburi tədbirlər (üç quyunun qazılması, ilkin neftin çıxarılması və s.) görülməli idi. Müqavilənin qüvvəyə minməsindən keçən 48 ay ikinci mərhələni təşkil edirdi. Bu dövrdə neft yataqlarının tammiqyaslı işlənməsinin başlanması gözlənilirdi. Üçüncü mərhələ layihənin parlamentdə təsdiq olunmasından ötən 54 ayı əhatə edirdi. Bu müddətin tamamında müqavilə üzrə hasil edilmiş neftin o vaxtadək inşa olunmuş əsas ixrac kəməri vasitəsilə xarici bazarlara daşınması başlanmalı idi [169, s.78].

Tərtib olunmuş icra planı müqavilənin vaxtında həyata keçirilməsinə inam aşılayırdı. Sazişin yerinə yetirilməsinə lazımi nəzarətin təmin olunması məqsədilə yaradılmış Rəhbər Komitənin sədri və katibi vəzifələrinə müvafiq olaraq Azərbaycanın və podratçı şirkətin nümayəndələri təsdiq edildilər.

Müqavilənin müddəalarında əcnəbi kompaniyaların öz paylarının hər hansı hissəsini ortaq şirkətlərinə ötürmək hüququ tanınır. Lakin SOCAR-ın razılığı olmadan onlar malik olduqları payı kənar şirkətə sata bilməzlər. Məhz bu şərt Azərbaycana strateji xarakterli layihəyə onun üçün məqbul sayılmayan iştirakçının qoşulmasını əngəlləmək imkanı yaradır.

Sazişin imzalanması dünyada ona marağın artmasına səbəb oldu. Tanınmış neft kompaniyalarının diqqəti Bakı neftinə yönəlmişdi. Məhz buna görə də Azərbaycan müqavilədəki 20 faizlik iştirak payını maliyyələşdirmək problemi ilə üzləşəndə bir sıra əcnəbi neft firmaları layihəyə qoşulmaq üçün cəlbedici təkliflər irəli sürdülər. 1995-ci ilin aprelində SOCAR öz payının 5 faizini "Türkiyə Petrolleri"nə və 5 faizini "Eksson" kompaniyasına (ABŞ) satması ilə bağlı məlumat yaydı. Azərbaycan bu addımı atarkən məsələnin iqtisadi tərəfi ilə yanaşı, siyasi amilləri də nəzərə almışdı. Çünki Heydər Əliyev həmin şirkətlərin rəhbər şəxsləri ilə görüşündə ABŞ və Türkiyənin rəsmi nümayəndələrinin Azərbaycana müraciətində onların səmərəli fəaliyyətinə zəmanət verdiklərini ayrıca olaraq diqqətə çatdırmışdır [155].

Beləliklə, 1995-ci il aprelin 12-də SOCAR laylhədəki payının 5 faizini TPAO şirkətinə satması haqqında sonuncu ilə saziş imzaladı. Prezident Heydər Əliyevin və Baş nazir T.Çillərin bu mərasimdə iştirak etmələri neft amilinin siyasi çəkisinin təzahürü idi. Bundan sonra türk şirkəti konsorsiumdakı payını 6,75 faizədək artırdı [175].

Azərbaycan bu sövdələşmə ilə layihədəki 10 faizlik payının yarısının TPAO tərəfindən maliyyələşdirilməsinə təminat aldı. SOCAR türk şirkətinin bu borcunu sonrakı illərdə ödəyəcəkdi [181, c.4, s.54-55].

Bundan bir həftə sonra – aprelin 19-da SOCAR və "Eksson" arasında imzalanmış sazişə görə, Azərbaycan layihədəki payının 5 faizini də ABŞ-ın tanınmış kompaniyasına verdi. İmzalanma mərasimində ABŞ-ın yüksək statuslu nümayəndələri

– U.Uaytın (energetika nazirinin birinci müavini) və Q.Laflinin (konqresmen) iştirakı məsələnin həm də siyasi əhəmiyyət kəsb etdiyini göstərir [20].

Bu sənədi imzalamaqla Azərbaycan daha bir ciddi vəzifəni həll etdi. Belə ki, SOCAR-ın layihədəki payının qalan 5 faizlik hissəsinin maliyyə məsrəflərinin “Eksson” tərəfindən ödənilməsinə nail oldu [169, s. 88-89].

Deməli, Azərbaycan müqavilədə malik olduğu payın (10 faiz) xərclərinin ödənilməsi ilə bağlı məsələni xarici tərəfdaşların hesabına həll etdi. Bundan başqa, layihədə Amerika kompaniyalarının sayı da 5-ədək artdı.

Müqavilənin icrası dövründə əcnəbi investorların ona diqqəti azalmırdı. Belə ki, 1996-cı ildə “İtoçu” kompaniyası (Yaponiya) “MakDermot” şirkətinin səhmlərini satın alaraq layihəyə qoşuldu [181, c.4, s.311; 224]. Bununla da konsorsium üzvlərinin təmsil etdiyi dövlətlər daha geniş coğrafi məkanı əhatə etdi. Bundan dörd il sonra “Remko” firmasının 2,08 faizlik iştirak payını ABŞ-ın üç kompaniyası satın aldı. Onlardan “Amerada Hess” “Delta” şirkəti ilə “Delta Hess” alyansı yaradaraq konsorsiuma daxil oldu. “Remko” şirkətinin qalan payına “Devon Enerji” və “Yunokal” kompaniyaları yiyələndilər [313].

Göründüyü kimi, layihə iştirakçılarının tərkibində dəyişiklik baş verirdi. Bu, neft şirkətlərinin sırf kommersiya maraqlarının təbii təzahürü olmaqla yanaşı, həm də bir sıra dövlətlərin geosiyasi məqsədlərinin gerçəkləşdirilməsinin ifadəsi idi. Ona görə də sonrakı dövrdə müəyyən fasilələrlə ardıcıl davam edən belə yerdəyişmələrdə qeyri-adi səbəb axtarmaq doğru olmazdı.

Azərbaycan isə bu prosesdə öz mənafelərini qorumaq imkanına malikdir. Çünki digər şirkətlərin pay alaraq konsorsiuma üzv olmasına dair qərarlar, yuxarıda göstərildiyi kimi, Azərbaycanla razılaşdırılmalıdır.

Müqavilədə şirkətlərin maliyyə-kommersiya maraqlarından asılı olaraq, iştirak payları üzrə sövdələşmələr və konso-

rsium tərkibinin yenilənməsi prosesi sonralar da davam edirdi. Həmin dəyişikliklərin bəzisi hətta müəyyən rezonans doğururdu. Məsələn, 2002-ci ildə Rusiyanın "LUKoyl" şirkəti 10%-lik payını Yaponiyanın "İnpeks" korporasiyasına sataraq konsorsiumdan çıxdı [95]. Rusiyanın aparıcı neft şirkətinin bu qərarının siyasi motivlərlə bağlı olmasına dair fikirlər səslənsə də, həmin sövdələşməni onun perspektiv kommersiya maraqları ilə əlaqələndirmək doğru olardı. Çünki "LUKoyl" öz payını 1,2 milyard dollara satmaqla ilkin yatırdığı sərmayədən bir neçə dəfə çox maliyyə vəsaiti əldə etdi. Digər tərəfdən, Rusiya şirkəti Azərbaycanda başqa layihələrdə, o cümlədən nəhəng "Şahdəniz" qaz yatağının işlənməsi üzrə müqavilədə iştirakını davam etdirirdi.

Maliyyə resurslarına güvənən SOCAR da 2011-ci ildə "BP" ilə razılığa gələrək onun "Devon Enerji"dən əldə etdiyi səhmlərin bir qismini almaqla layihədəki payını 11,65 faizə çatdırdı. "Devon Enerji" müqavilədəki payını 2010-cu ildə konsorsiumun digər üzvləri – "BP", "Şevron", "İnpeks" və "İtoçu" şirkətlərinə satmışdı. Yəni 2010–2011-ci illərdəki sonuncu sövdələşmələrdən sonra ilk neft konsorsiumunun tərkibi belə formalaşmışdı: "BP"–35,83%, SOCAR –11,65%, "Şevron"–11,27%, "Statoyl"–8,56%, "İnpeks"–10,96%, "İtoçu"–4,3%, TPAO–6,75%, "Eksson"–8% və "Hess"–2,72% [468; 491]. (2017-ci ildə "Əsrin müqaviləsi"nin uzadılmasına dair yeni saziş imzalandıqdan sonra pay bölgüsü dəyişdi. Bölgünün son vəziyyəti Cədvəl 1.3.1-də verilib).

Azərbaycanın tərəfdaşlıq etdiyi xarici neft şirkətləri maliyyə-texniki potensialına görə ya öz ölkələrində və regionda, ya da beynəlxalq miqyasda nüfuzlu yer tuturdu. Həmin şirkətlərin çoxu böyük inkişaf yolu keçərək dünyada nəhəng neft-qaz layihələrinin işlənilməsində aparıcı mövqe qazanmışdı [291, s.18-28]. Buna görə də Bakıda bu əməkdaşlığın perspektivlərinə xüsusi ümid bəsləyirdilər.

İlk böyük neft müqaviləsi Azərbaycanın neft sənayesi sahəsində qətiyyətlə reallaşdırdığı strategiyanın əsasını qoydu.

Bu saziş ağır sosial-iqtisadi, hərbi-siyasi problemlərlə üzləşmiş ölkənin həyatında dərin transformasiyalara zəmin yaratması və beynəlxalq münasibətlərinin inkişafına təsiri baxımından ciddi rol oynaya bilərdi. Məsələn, Prezident B.Klinton imzalanma ərəfəsində Azərbaycan Prezidentinə ünvanladığı məktubda göstərirdi ki, *"Birləşmiş Ştatlar tarixdə bu növ sazişlər arasında ən böyüyü olan bu müqaviləni alqışlayır"* [169, s.68].

Qeyd etmək olar ki, nüfuzlu dövlətlərin tanınmış neft kompaniyalarının iştirakı, yatırılacaq investisiyanın və neft ehtiyatlarının həcmi, eləcə də əhəmiyyətli geosiyasi roluna görə saziş qısa zamanda dünyada "Əsrin müqaviləsi" adı ilə tanındı. Görünür, sənədin belə adlandırılmasında B.Klintonun təbrik məktubunda yuxarıda qeyd olunan fikir də müəyyən rol oynamışdır. Çünki ABŞ Prezidentinin bir neçə il sonra BTC ixrac boru xəttinin çəkilməsinə dair son sazişlərin imzalanması münasibətilə göndərdiyi təbrik məktubuna Prezident Heydər Əliyevin 2000-ci il 6 noyabr tarixli cavabı bu qənaətə gəlməyə imkan verir. Həmin cavab məktubunda Heydər Əliyev *"əsası bizim tərəfimizdən 1994-cü ilin sentyabrında Sizin "Əsrin müqaviləsi" adlandırdığınız müqavilənin imzalanması ilə qoyulmuş müstəqil Azərbaycanın yeni neft strategiyası"* ifadəsini xüsusi olaraq vurğulayır [158, c.31, s.13].

Bununla yanaşı, bəzi müəlliflər sazişin Azərbaycanın tam suverenliyini əks etdirən ilk beynəlxalq iqtisadi akt olduğunu nəzərə alaraq, onu *"müstəqillik müqaviləsi"* adlandırırdılar [478, s.303]. Bu isə həmin sənədin məhz geosiyasi və geoiqtisadi əhəmiyyəti ilə bağlı idi.

Saziş Azərbaycan iqtisadiyyatında xüsusi çəkiyə malik olan neft-qaz sənayesinin yenidən qurulmasına və ardıcıl inkişaf yoluna çıxmasına münbit şərait yaradırdı. Eyni zamanda, layihə neft sənayesinə yaxın olan başqa sahələrə, eləcə də mühüm infrastrukturun inkişafına sərmayə yönəldilməsinə ciddi təkan verməli idi. Belə ki, beynəlxalq praktikadan məlum olduğu kimi, neft sənayesinə yatırılan hər bir dollar iqtisadi həyatın digər

sahələrinə əlavə olaraq üç dollara qədər kapital qoyuluşuna yol açır.

Əcnəbi sərmayənin yaxından iştirakı ilə dirçəliş yoluna çıxan Azərbaycanın neft sənayesi ölkənin liberal iqtisadi sistemə keçməsinə və dünya iqtisadiyatına inteqrasiyasına təsir göstərən güclü amillərdən biri oldu.

Layihənin icrası prosesində respublikaya qabaqcıl texniki avadanlıqların, yeni texnologiyanın daxil olması ayrı-ayrı sahələrin işinin təkmilləşdirilməsində vacib rol oynayırdı.

İqtisadiyyat üçün zəruri olan böyük kapital qoyuluşuna şərait yaradan neft sazişi ölkənin sosial mənzərəsinin də ciddi surətdə yenilənməsinə dərin təsir göstərmək baxımından əhəmiyyətli sayılırdı. Belə ki, neft-qaz sənayesi ilə yanaşı, həm də iqtisadiyyatın başqa bölmələrində yeni iş yerlərinin açılmasını çox gözləmək lazım gəlməyəcəkdi. Məşğulluğun artması iqtisadi tənəzzüldən doğan genişmiqyaslı işsizlik probleminin kəskinliyini getdikcə zəiflətməyə kömək edərdi. Bu isə əhalinin sosial rifahını tədricən yaxşılaşdırmaqla cəmiyyətdə hökm sürən sosial münasibətlərin arzuolunmaz gərginliyinin azaldılmasına zəmin yaradardı [262].

Azərbaycan hökuməti ölkənin inkişafına mühüm töhfə verən böyük neft sazişini imzalamaqla həlledici məqamlarda qətiyyətli siyasi iradəyə sahib olduğunu bir daha göstərdi. Bu, respublikada siyasi və iqtisadi sabitliyin gücləndirilməsi baxımından əhəmiyyətli idi. Eyni zamanda, layihə ilə bağlı ümidlər bütün ictimai fikri dövlətin iqtisadi təməlinin və siyasi müstəqilliyinin möhkəmləndirilməsi naminə pozitiv fəaliyyətə kökləyirdi. Tərəqqi və sosial rifah arzularının tezliklə gerçəkləşməsi gözləntiləri respublikada gərgin siyasi və ictimai mühitin durulmasına, qütbləşmə düşüncələrinin, ağır psixoloji ab-havanın getdikcə dəf olunmasına və beləliklə, insanların sabitliyə və quruculuğa inamının yüksəlməsinə kömək edirdi.

Azərbaycan Respublikası xarici investorlarla sıx əməkdaşlığa başlamaqla müstəqil dövlət kimi təbii sərvətlərinin

tamhüquqlu sahibi olmasını nümayiş etdirdi. Bununla yanaşı, onun əcnəbi sərmayələrə açıq olduğunu göstərməsi xarici dövlətlərlə qarşılıqlı əlaqələrin inkişafına can atmasının təzahürü idi. Həmin dövrdə belə ardıcıl siyasət istiqlaliyyətini yeni qazanmış Azərbaycan dövlətinin beynəlxalq aləmdə geniş tanınmasına və münasibətlərinin möhkəmlənməsinə töhfə verirdi.

Azərbaycanın dövlət müstəqilliyini qazanması ərəfəsində Ermənistanın hərbi təcavüzü və işğalçılıq siyasəti ilə üzləşməsi onun qarşısında münaqişə haqqında obyektiv beynəlxalq fikrin formalaşdırılması kimi çox böyük vəzifə qoyurdu. Bunu nəzərə alaraq, sazişin imzalandığı şirkətlərin təmsil etdiyi qərb və şərq dövlətləri ilə (ABŞ-dan Yaponiyaya qədər) qarşılıqlı faydalı münasibətlərin qurulmasına əlverişli yol açırdı [506].

Proseslər göstərirdi ki, həmin dövlətlər də Azərbaycanla əlaqələrin inkişafında maraqlıdırlar. Məsələ ilə bağlı onların mövqeyi dövlət və hökumət başçılarından daxil olan məktublarda əksini tapırdı. Məsələn, Prezident B.Klintonun sazişin imzalanması münasibəti ilə göndərdiyi təbrikində sənədin ABŞ-Azərbaycan iqtisadi əməkdaşlığının genişlənməsi baxımından əhəmiyyəti qeyd olunur və xüsusi vurğulanırdı ki, *"Azərbaycan neftinin işlənməsi Dağlıq Qarabağ regionunun daxilində və onun ətrafında uzun müddət sürən münaqişənin həll olunması ilə yanaşı, Azərbaycan xalqı üçün sabitlik, iqtisadi inkişaf və firavanlıq gətirilməsində mühüm rol oynaya bilər"* [169, s.68].

Konsorsiumda öz şirkətləri ilə təmsil olunan Böyük Britaniyanın Baş naziri C.Meycor isə Azərbaycan Prezidentinə ünvanladığı məktubunda neft sazişinin dövlətlərarası münasibətlərin yeni dövrə qədəm qoymasının təzahürü olduğunu bildirirdi. O, qeyd edirdi ki, Böyük Britaniya Dağlıq Qarabağ probleminin tənzimlənməsində, *"bölgənin bütün xalqlarının təhlükəsizlik və tərəqqinin bəhrəsini görməsi şərti ilə ədalətli və möhkəm sülhün bərqərar olmasında fəal rol oynamağa hazırdır"* [169, s.69].

Yuxarıda deyilənlərdən belə qənaətə gəlmək olar ki,

”Əsrin müqaviləsi” dünyanın aparıcı olkələrini geniş əməkdaşlığa yönəldərək, Azərbaycan Respublikasına sərmayə qoyuluşunun stimullaşması, onun sosial-iqtisadi yüksəlişi, müxtəlif dövlətlərlə qarşılıqlı faydalı münasibətlərinin təşəkkül tapması, beynəlxalq mövqelərinin gücləndirilməsi sahəsində mühüm faktor rolunu oynayır.

Ermənistanın işğalçılıq siyasətinin davam etdiyi, ölkədə dərin sosial-iqdisadi böhran, gərgin siyasi proseslər və regionda kəskin geosiyasi nüfuz çəkişməsi şəraitində əcnəbi kompaniyalarla dörd ildən çox aparılmış danışıqlar Azərbaycanın milli mənafelərinə və iddialı ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslanan müqavilənin bağlanması ilə yekunlaşdı. Ağır sosial-iqtisadi sarsıntılar məngənəsində sıxılan Azərbaycan, nəhayət, çoxdan arzuladığı tərəqqi və rifah yolu ilə irəliləmək fürsəti əldə etdi. Yaranmış imkandan maksimum faydalanmaq üçün sonrakı dövrdə ardıcıl şəkildə yorulmadan fəaliyyət göstərmək lazım idi.

## 1.3. Neft-qaz sənayesinə xarici sərmayə axınının güclənməsi. Milli neft strategiyasının təşəkkül tapması

“Əsrin müqaviləsi”ni Azərbaycan ilə dünyanın tanınmış neft kompaniyaları arasında uzunmüddətli səmərəli tərəfdaşlığın bünövrəsi kimi qiymətləndirmək olar. Nəhəng xarici investorların Xəzərdə genişmiqyaslı işbirliyinə qərar verməsi  o dövrdə Azərbaycan iqtisadiyyatına kapital yatırılmasının böyük risklə müşayiət olunmasına dair yayılmış fikirlərin tədricən dəyişməsinə zəmin yaradırdı. Həmin illərdə ilk konsorsiumun üzvləri ilə bərabər, başqa kompaniyaların da Xəzər neftinə daha çox diqqət göstərdiyi müşahidə olunurdu. Azərbaycan tərəfi həm irihəcmli investisiyaların cəlb olunmasına, həm də öz maraqlarının təmin edilməsinə çalışırdı. Belə ki, beynəlxalq aləmdə *“neft təkcə yanacaq, enerji vasitəsi deyil, həm də siyasi, strateji komponentə çevrilir”* [341, s.189], dövlətlərin iqtisadi və

geosiyasi maraqlarının tənzimlənməsində mühüm rol oynayırdı.

"Əsrin müqaviləsi" vaxtilə yerli geoloqlar tərəfindən açılmış yataqları əhatə edirdisə, investorlarla danışıqların aparıldığı başqa sahələrdə təbii resursların olması proqnozlaşdırılırdı. Yalnız həyata keçiriləcək kəşfiyyat-axtarış işləri həmin strukturlarda neft-qaz ehtiyatlarının mövcudluğunu təsdiqləyə bilərdi.

"Azəri", "Çıraq", "Günəşli" ("AÇG") yataqlarına dair müqavilənin ardınca daha iki blokun – "Qarabağ" və "Şahdəniz" sahələrinin əcnəbi sərmayəçilərlə birgə işlənməsi haqqında müzakirələr sürətləndi. SOCAR-ın ilk sazişlə bağlı qazandığı təcrübəsi növbəti müqavilələrə dair danışıqların gedişində öz əhəmiyyətini göstərirdi. Ümumiyyətlə, SOCAR əcnəbi investorlarla əməkdaşlığı dünyada geniş tətbiq olunan hasilatın pay bölgüsü haqqında saziş (HPBHS) imzalamaqla həyata keçirməyi məqbul hesab edirdi. Bununla belə, 1990-cı illərin əvvəllərində bir neçə birgə müəssisənin yaradılmasına baxmayaraq, kiçik quru yataqlarındakı həmin mədənlərdə sərmayə həcmi böyük deyildi [267].

Məhz iri məbləğli kapitalın yönəldildiyi dənizdəki mədənlərdə HPBHS əsasında fəaliyyətin təşkili daha faydalı sayılırdı. Belə ki, bu tipli sazişlərin başlıca cəhəti ondan ibarət idi ki, kəşfiyyatın gedişində mümkün kommersiya riskləri əcnəbi sərmayəçilərin öhdəsinə düşür. Eyni zamanda, axtarış işləri dövründə SOCAR-ın layihədəki maliyyə payı xarici investorlar tərəfindən yatırılır. Azərbaycan həm də razılaşdırılmış məbləğdə bonuslar alır.

Həmin sazişə əsasən, aparılan kəşfiyyat işləri müsbət nəticələr vermədikdə, investorların xərcləri qaytarılmır. Lakin işlər neft və ya qaz yatağının aşkar olunması ilə başa çatarsa, Azərbaycan layihədən gələn qazancın 70-80 faizini və habelə ödənişsiz olaraq bütün səmt qazını mülkiyyətçi hüququnda alır.

HPBHS-nin əsas müddəaları sırasında Azərbaycan vətəndaşlarının kompaniyalarda işlə təminatı məsələləri də əksini tapır. Sənədə əsasən, yerli kadrlar layihələri həyata

keçirən həmin şirkətlərdə müəyyən vaxtdan sonra tədricən işçi heyətinin yarısından çox hissəsini (90%-ə qədərini) təşkil etməlidir [474].

Qeyd etmək lazımdır ki, Azərbaycan layihənin tərəfdaşı kimi iki əsas mənbə üzrə gəlir əldə edir: həm təbii resursların mülkiyyətçisi qismində  əcnəbi investorlarla saziş imzalamaqla (SOCAR-ın adından), həm də Dövlət Neft Şirkətinin layihədəki payına uyğun sərmayə qoymaqla.

“AÇG” yataqlarından sonra Xəzərin Azərbaycana aid sularında yerləşən “Qarabağ” bloku üzrə danışıqlar diqqət mərkəzində idi. Layihə şərtləri razılaşdırıldıqdan sonra 1995-ci ilin noyabr ayının 10-da “Gülüstan” sarayında SOCAR ilə “LUKoyl”, “Acip”, “LUK-Acip”, “Pennzoyl” və SOCAR Ortaq Kommersiya Şirkəti arasında həmin strukturda birgə axtarış-kəşfiyyat işlərinin həyata keçirilməsi və pay bölgüsü haqqında saziş imzalandı  [181, c.4, s.192].

“Qarabağ” sahəsini əhatə edən müqavilədə “Pennzoyl” şirkəti 30%, Rusiya və İtaliyanın “LUK-Acip” alyansı 45%, “LUKoyl” 12,5%, İtaliyanın “Acip” kompaniyası 5%, nəhayət, SOCAR 7,5% iştirak payı aldı  [181, c.4, s.217].

Həmin strukturda neft resurslarının həcmi 85-150 milyon ton qiymətləndirilirdi. Proqnozlara görə, Azərbaycan ümumi gəlirin 65-80%-ni ala bilərdi. Saziş 25 illik dövrə nəzərdə tutulurdu. Layihənin icrasına 1,7 mlrd ABŞ dollarından çox sərmayə yatırılması gözlənilirdi  [181, c.4, s.192; 209].

“Pennzoyl” və “LUKoyl” birinci konsorsiumda iştirak edirdilərsə, “Acip” Azərbaycanın neft sənayesində əməkdaşlığa bu layihə ilə qədəm qoyurdu. Onun “Qarabağ” bloku üzrə sazişə qoşulması  İtaliya-Azərbaycan əlaqələrinin həm iqtisadi, həm də siyasi müstəvidə inkişafında öz rolunu oynamalı idi. Bununla da Azərbaycan neft sazişləri hesabına münasibət qurduğu Avropa dövlətlərinin əhatə dairəsini daha da genişləndirirdi.

SOCAR “Əsrin müqaviləsi” ilə müqayisədə “Qarabağ” layihəsində daha kiçik iştirak payına (7,5%) malik idi. Buna

görə də müqaviləyə dair parlament müzakirələrində sənədin ölkənin maraqlarına uyğun olmadığı barədə iradlar bildirildi. SOCAR-ın prezidenti N.Əliyev buna cavab olaraq ölkənin əldə edəcəyi gəlirlərin yalnız iştirak payı ilə ölçülmədiyini xatırladaraq, Azərbaycanın bu sazişdən bütövlükdə 12 mlrd dollar qazanc götürəcəyini nəzərə çatdırdı [269].

Milli Məclisdə müzakirələrdən sonra 1996-cı ilin fevral ayının 13-də “Qarabağ” neft layihəsi təsdiq edildi [181, c.4, s.211-215].

İkinci müqavilə ilə paralel olaraq xarici kompaniyalarla “Şahdəniz” adlı daha bir dəniz bloku üzrə danışıqlar gedirdi. Həmin sahəyə ciddi maraq göstərən “BP-Statoyl” cütlüyü hələ 1992-ci il sentyabrın 7-də SOCAR-la sazişə imza ataraq, onun işlənməsi ilə bağlı danışıqlar üçün xüsusi hüquqlar almışdı [347]. 1994-cü ildə TPAO firması da onların sırasına daxil oldu.

SOCAR-ın həmin şirkətlərlə apardığı danışıqlar 1996-cı ilin may ayında yekunlaşdı [347]. Bundan az sonra – 4 iyun 1996-cı il tarixində “Gülüstan” sarayında SOCAR ilə “BP”, “Elf Akiten”, “Statoyl”, “LUKoyl”, TPAO və “OİEK” (İran) kompaniyaları arasında “Şahdəniz” perspektivli strukturu üzrə HPBHS imzalandı [181, c.4, s. 254-255].

Maraqlıdır ki, ilk saziş imzalanarkən, “BP”, “Statoyl” və TPAO müqavilədə 60%, SOCAR isə 40% payla iştirak edirdi. Amma çox keçməmiş Azərbaycan hökuməti Fransa, Rusiya və İran tərəfindən daxil olmuş müraciətlərə əsasən onları təmsil edən “Elf Akiten”, “LUKoyl” və “OİEK” kompaniyalarına layihədə iştirak etməyə şərait yaratdı. Beləliklə, həm də özünün siyasi və iqtisadi maraqlarından çıxış edən Azərbaycan SOCAR-ın malik olduğu payın bir hissəsini onlara güzəştə getdi. Bununla da “Şahdəniz” layihəsində tərəflərin payı belə bölüşdürüldü: “BP”–25,5%, “Statoyl”–25,5%, SOCAR–10%, “Elf Akiten”–10%, “LUKoyl”–10%, “OİEK”–10%, TPAO–9% [347].

Aydındır ki, Azərbaycanın yuxarıda göstərilən kompaniyalara layihədə pay ayırmasının əsas səbəbi ayrı-ayrı dövlət-

lərin bölgədəki maraqlarını tarazlaşdırmaq, habelə öz mənafelərini qorumaq cəhdləri ilə bağlı idi. Belə ki, Cənubi Qafqaz tarixən Rusiyanın geosiyasi maraq dairəsində olub. Gündəlikdə duran Xəzər dənizinin statusu, Kremlin dəstəyinə arxalanan Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti ilə bağlı problemlərin, bölgənin perspektivlərini müəyyən edən başqa məsələlərin nizamlanması zərurəti Moskva ilə səmərəli, praqmatik, qarşılıqlı faydalı münasibətlərin qurulmasını tələb edirdi.

Beynəlxalq aləmdə söz sahibi olan Fransa həm də Minsk qrupunda həmsədr postunu tutaraq Azərbaycana böyük təsir imkanlarına malik idi. Buna görə də "Elf Akiten"in timsalında onun iqtisadi maraqlarının Azərbaycanda qismən gerçəkləşməsinə şərait yaradılması və ikitərəfli münasibətlərin genişləndirilməsi zamanın diqtəsindən doğurdu.

İrana gəldikdə isə, cənub qonşusu Xəzər hövzəsində strateji iddiasını gizlətmirdi və vaxtilə "AÇG" üzrə ilk layihədə iştirak etmək arzusunda idi. Amma münasibətlərinin gərgin olduğu ABŞ kompaniyaları ilə onun eyni layihələrdə əməkdaşlığı istisna edilirdi. Məhz bu səbəbdən Azərbaycan qonşuluq əlaqələrini inkişaf etdirməyə çalışdığı İranın neft firmasına yalnız üçüncü sazişdə pay ayıra bildi. Yəni "OİEK" şirkəti ABŞ kompaniyalarının daxil olmadığı "Şahdəniz" layihəsində yer tutdu. 2001-ci ilin dekabrında isə o, müqavilədəki payını İranın başqa şirkətinə – "NİCO"ya verdi [353].

Sazişin imzalandığı vaxt "Şahdəniz" strukturunun potensialı 400 milyard kubmetr qaz, 100 milyon ton neft həcmində proqnozlaşdırılırdı [181, c.4, s. 272].

Razılaşmaya əsasən, layihənin icrasına 4 milyard ABŞ dolları kapital yönəldilməsi nəzərdə tutulurdu. Onun 90%-ni əcnəbi investorlar, 10%-ni isə SOCAR yatırmalı idi. Sonuncunun sərmayəsi müqaviləyə görə, "Elf Akiten"in törəmə şirkəti tərəfindən ödəniləcəkdi. Gözlənilən səmt qazı (34 milyard kubmetr) təmənnasız Azərbaycana çatırdı. Müqavilə 30 il müddətində qüvvədə olmalı idi.

"Şahdəniz" layihəsinin parlamentdə müzakirəsi zamanı, habelə onun hüquqi qüvvəyə minməsindən sonra da sənədin Azərbaycanın iqtisadi və siyasi maraqlarına nə qədər cavab verməsi haqqında qızğın müzakirələr aparıldı, bir-birinə zidd fikirlər səsləndirildi. Mübahisələr hətta "Şahdəniz" çərçivəsini aşaraq, o zaman barəsində danışıqların getdiyi bəzi başqa müqavilələri də öz dairəsinə aldı.

Proqnozlara görə, "Şahdəniz" perspektiv strukturunun neft yox, əsasən qaz ehtiyatları ilə zəngin olması ehtimal edilirdi. Təbii qaza illik tələbatı 12 milyard kubmetr olan Azərbaycanda həmin dövrdə qaz hasilatının ilbəil kəskin azalması ölkənin sosial-iqtisadi problemlərini ağırlaşdırırdı. SOCAR-ın hesablamalarına görə, əgər yeni yataqlar istifadəyə verilməzdisə, qaz hasilatının 1996-cı ildəki 6,6 milyard kubmetrdən 2010-cu ildə 4,2 milyard kubmetrə qədər azalması gözlənilirdi [347]. Buna görə də "Şahdəniz"in xarici şirkətlərlə müqavilə əsasında işlənməsi ölkənin qaz ehtiyaclarını yaxın perspektivdə ödəməklə yanaşı, digər problemlərin həllinə böyük töhfə verə bilərdi.

Bununla belə, müqavilənin tənqidçiləri SOCAR-ın layihədəki payının 10 faizədək azaldılmasını, əvvəl imzalanmış sazişlərin nəticəsini gözləmədən bir-birinin ardınca yeni layihələrin hazırlanıb təsdiq edilməsini ölkə üçün riskli sayırdılar. Onların fikrincə, bu, dövlətin marağına uyğun deyildi və sonrakı nəsillərin təbii sərvətlərdən məhrum olunmasına aparır. Belə fikrin daşıyıcıları SOCAR-ın sazişlərdə payının az olmasını ölkənin təbii sərvətinin asanlıqla xaricilərin əlinə keçməsi kimi qiymətləndirirdilər. Həmin mövqeyə görə, artıq imzalanmış sazişlərdən gələn qazancla kifayətlənmək, sonrakı dövrdə bu vəsaitlə digər neft yataqlarını müstəqil surətdə öz gücümüzlə işlətmək daha məqsədəuyğun idi [134; 281; 282; 303].

Problemin yuxarıda göstərildiyi kimi təqdim olunması ilk baxışdan gerçəkliyə uyğun mənzərə yaradırdı. Amma məsələnin daha yaxından öyrənilməsi bu yanaşmanın reallığı əks etdirmədiyini deməyə əsas verirdi. Belə ki, məlum olduğu

kimi, layihənin gəlirlərinin bölüşdürülməsi HPBHS-in şərtlərinə uyğun şəkildə aparılır. Bu baxımdan "Şahdəniz" müqaviləsi haqqında fikirlərə münasibət bildirən SOCAR qeyd edirdi ki, Azərbaycanın bu sazişdən gəlirləri 65-70 faiz təşkil etməlidir. Bundan əlavə, şirkətin özünün də malik olduğu paya görə gəliri nəzərə alınmalıdır [14]. Eyni zamanda, karbohidrogen resurslarının gözlənildiyindən artıq olacağı təqdirdə, Azərbaycanın da payı buna adekvat olaraq dəyişməlidir. Yəni ölkənin ümumi gəliri neft şirkətinin layihədəki payından güclü formada asılı deyil. Həm də nəzərə almaq lazımdır ki, o dövrdə respublikada hökm sürən dərin iqtisadi və sosial böhran, maliyyə çatışmazlığı Azərbaycanın sazişlərdə daha böyük payla iştirakına mane olurdu. Həmin payın müqabilində sərmayə yatırmaq imkanı olmadığına görə, SOCAR ilk layihələrə nisbətən az səhm paketi ilə qoşulurdu.

Məhz ölkənin maliyyə ehtiyacları nəzərə alınaraq müqavilələrdə belə bir müddəa əksini tapırdı ki, əcnəbi investorlar kəşfiyyat dövründə Azərbaycanın payını maliyyələşdirməyi öhdələrinə götürürlər. Aparılan axtarış-kəşfiyyat işləri nəticəsində karbohidrogen yatağı aşkar olunardısa, layihənin icrası dövründə SOCAR konsorsiumdakı öz payını maliyyələşdirmək üçün sərmayə yatırmalıdır. Amma mövcud praktika göstərir ki, bu tipli layihələrdən böyükhəcmli gerçək gəlir götürmək üçün demək olar ki, 10 ilə qədər gözləmək lazımdır. Bəhs olunan illərdə zəruri kapitalı cəlb etməkdə çətinlik çəkən Azərbaycan imzaladığı sazişlərdə, qeyd edildiyi kimi, daha böyük pay paketini maliyyələşdirmək gücündə deyildi. [181, c.4, s. 285].

Deməli, xarici şirkətlərlə əməkdaşlığı yalnız bir-iki neft sazişi şərçivəsində məhdudlaşdırmaqla, əldə edilən gəlirlər hesabına eyni zamanda həm bu qəbildən olan başqa layihələrin müstəqil icrasına, həm də ölkənin üzləşdiyi ağır sosial-iqtisadi problemlərin tezliklə həllinə nail olmaq real deyildi. Belə ki, karbohidrogen resurslarının aşkarlanması və hasilat işlərinin təşkilinə irihəcmli sərmayə yatırılması lazımdır. Ona görə də həmin müqavilədən qazanılan vəsait yenə də təzə yataqlarda

fəaliyyətin qurulmasına sərf edilməli idi.

Bununla yanaşı, neft sənayesində ciddi maliyyə-iqtisadi zərər vura biləcək geoloji risklərin də böyük olduğunu nəzərə almaq vacibdir. Belə olan təqdirdə, ölkənin əsas iqtisadi sahələrinin bərpa və inkişaf etdirilməsi, əhalinin sosial durumunun yaxşılaşdırılması məsələlərinin maliyyə çatışmazlığına görə bir az da arxa plana keçirilməsi qaçılmaz olardı. Bu isə dövlətin ümdə mənafelərinə uyğun deyildi. Çünki o illərdə milli dövlətçilik maraqları iqtisadiyyatın mümkün potensialının tezliklə maksimum şəkildə səfərbər olunmasını zəruri edirdi. Neft sənayesində əcnəbi investorlarla sıx əməkdaşlıq isə ölkənin iqtisadi dirçəliş yoluna çıxmasında lokomotiv rolunu oynaya bilərdi. Bu baxımdan Azərbaycan üçün son dərəcə zəruri sayılan sərmayənin o zaman yeganə mənbəyi kimi neft şirkətlərinin təkliflərindən lazımınca istifadə edilməzdisə, ölkə daha ağır iqtisadi və siyasi fəlakətə sürüklənərdi. Ona görə də dərinləşən iqtisadi tənəzzülün dəf edilməsi və ardıcıl tərəqqi cığırına qədəm qoymaq üçün lazımi sərmayələrə yol açan neft layihələrindən ağılla yararlanmaq zəruri idi. Ölkənin məhz o dövrdə ehtiyacını təmin edəcək sayda, israfçılığa getmədən, milli maraqlara uyğun müqavilələrin bağlanması təqdir olunmalıdır. Siyasi populizmə qapanaraq karbohidrogen ehtiyatlarını guya "gələcək nəsillərə qayğı" şüarları altında "qoruyub saxlamaq" təşəbbüsü ilə neft müqavilələrinə qarşı çıxmaq əslində nə indiki, nə də gələcək nəsillərin maraqlarına cavab vermirdi.

Tarixdən məlumdur ki, XIX əsrin sonu–XX əsrin əvvəllərində neft sənayesinin sürətlə inkişafı o zaman yanacaq kimi istifadə olunan daş kömürün tətbiq sahəsini xeyli məhdudlaşdıraraq, neft məhsullarının əsas enerji mənbəyi və yanacaq vasitəsi kimi istifadəsinə səbəb oldu. Hazırkı dövrdə elm və texnikanın inkişaf templəri, alternativ enerji mənbələrinin axtarışı sahəsində intensiv işlər 50-100 il sonra neftin indiki strateji enerjidaşıyıcısı rolunu saxlayacağına təminat vermir. Belə dəyişiklik baş verərsə, hazırda Azərbaycan üçün həyati əhəmiyyətə malik "qara qı-

zıl" ehtiyatları çox da uzaq olmayan perspektivdə həmin rolunu itirə bilər. Buna görə də çəkinmədən mövcud neft-qaz ehtiyatlarından kifayət qədər səmərəli surətdə istifadə edilməsi daha məqsədəuyğun hesab olunmalıdır.

"Açıq qapı" siyasətinə üstünlük verən Azərbaycanın əcnəbi kompaniyalarla bağladığı sazişlər qarşılıqlı faydalı və davamlı tərəfdaşlığın inkişafını stimullaşdırmaqla respublikanın həm siyasi, həm də iqtisadi mənafelərinə uyğun idi. Tanınmış mütəxəssislər o dövrdə qeyd edirdilər ki, ölkənin neft resurslarının tükənməsi barədə fikirlərin əsası yoxdur. Akademik A.Mirzəcanzadə bununla bağlı suala cavabında bildirirdi: *"Azərbaycanın neft ehtiyatı barədə narahat olmağa dəyməz. Əgər biz ildə 40 milyon ton neft çıxarsaq, bu təxminən 50 il üçün bəs edər. Həm də hələ işlənməmiş kifayət qədər yataqlar var. Məsələn, dünya ölkələrinin əksəriyyətində qurudan neft mezozoy qatlarından çıxarılır. Bizdəsə bu qatlar hələlik işlənməmiş qalır"* [261].

1996-cı ildə SOCAR-ın yaydığı məlumatlara əsasən, Azərbaycan ərazisində sübut edilmiş neft ehtiyatlarının həcmi 2 mlrd tona çatırdı [134; 282]. Bundan hələlik ehtiyatları 511 milyon ton qiymətləndirilən "AÇG" yataqlarında əcnəbi kompaniyalarla müqavilə əsasında iş aparılırdı. "Qarabağ" və "Şahdəniz" üzrə daha iki sazişin əhatə etdiyi sahələrdə isə ehtimal edilən resurslar barədə danışmaq olardı. Həmin layihələrdə axtarışlar müsbət nəticə verəcəyi halda, o neft həcmlərini ölkənin ehtiyatları üzərinə gəlmək doğru olardı. Yəni ardıcıl bir neçə müqavilənin imzalanması hələ bütün neft ehtiyatlarının xarici investorların əlinə keçməsi haqqında fikirlər yürütmək üçün əsas vermir.

Bununla belə, Azərbaycanda karbohidrogen resurslarına dair daha dolğun mənzərəni yaratmaq üçün SOCAR-ın son dövrdə verdiyi rəsmi rəqəmlərə diqqət yetirmək lazımdır. 2012-ci ilin statistik məlumatına gorə, respublikanın təsdiq edilmiş resursları 4,5 mlrd ton şərti yanacaq (2 mlrd ton neft, 2,5 trln

kubmetr qaz), proqnozlaşdırılan ehtiyatları isə 2 mlrd ton neft, 3,5 trln kubmetr qaz, yəni ümumilikdə 10 mlrd ton şərti yanacaq kimi qiymətləndirilir [365]. 2018-ci ilin məlumatları da demək olar ki, bu rəqəmlərlə üst-üstə düşür [97; 365].

Deməli, bu rəsmi rəqəmlərdən çıxış edərək, Azərbaycan Respublikasının neft-qaz ehtiyatlarının onun yanacaq-enerji ehtiyaclarının ödənilməsinə, habelə əcnəbi kompaniyalarla davamlı və səmərəli tərəfdaşlıq əlaqələrinin həyata keçirilməsinə imkan verdiyini göstərmək olar.

Eyni zamanda, Xəzər dənizinin zəngin enerji resursları Azərbaycanın aktual geosiyasi problemlərinin tənzimlənməsində vacib faktor kimi nəzərdən keçirilirdi. Çünki bu region beynəlxalq aləmdə mühüm rol oynayan dövlətlərin maraq dairəsində idi. Buna görə də ilk neft sazişlərində bölgədə güclü təsirə malik dövlətlərin şirkətlərinə yer verməklə, Azərbaycanın həm də siyasi maraqlarının gerçəkləşməsi, beynəlxalq arenada nüfuzunun gücləndirilməsi niyyəti güdülürdü. 1996-cı ilin axırlarında imzalanmış sayca dördüncü neft sazişi də məhz bu baxımdan qiymətləndirilə bilər. Dekabr ayının 14-də “Gülüstan” sarayında Xəzər dənizinin Azərbaycana aid hissəsində yerləşən “Dan ulduzu” və “Əşrəfi” bloklarında əməkdaşlıq haqqında ABŞ, Yaponiya və Səudiyyə Ərəbistanını təmsil edən “Amoko”, “Yunokal”, “İtoçu” və “Delta” kompaniyaları ilə SOCAR arasında müqavilənin imzalanması mərasimi keçirilmişdir [181, c.4, s. 305].

Layihədə ABŞ şirkətləri “Amoko” və “Yunokal” daha çox pay almışdı – müvafiq olaraq 30 və 25,5%. Digər iştirakçılardan “İtoçu” 20%, SOCAR 20% və “Delta” 4,5%-ə sahib olmuşdu [432].

25 ilə imzalanmış müqavilənin icrasına 2 mlrd ABŞ dollarına yaxın kapital qoyuluşu planlaşdırılırdı. Gözlənilirdi ki, neftin çıxarılmasına 2003-cü ildə başlamaq mümkün olacaq. Yataqların potensialı, investisiyanın həcmi və başqa amillərin sayəsində Azərbaycana çatan gəlir 80%-ə qədər və ya hətta çox

ola bilərdi [181, c.4, s.312; 330].

Bu layihə Amerika kompaniyalarının səhm paketinin yarısından çoxuna (55,5%-ə) sahib olması ilə diqqəti çəkirdi. Onların üstünlüyünü Ağ ev də razılıqla qarşılamışdı. Belə ki, ABŞ-ı təmsil edən Y.Kalitski müqavilənin imzalanması ilə bağlı tədbirdə həmin faktı xüsusi qeyd etmişdir [181, c.4, s.320-321].

Onu da vurğulamaq olar ki, Yaponiyanın tanınmış "İto-çu" kompaniyası 20%-lik iştirak payı ilə konsorsiuma təsisçi kimi qoşuldu. Əlbəttə, buna şəraitin yaradılması Azərbaycanın iqtisadi və siyasi baxımdan dünyada aparıcı rol oynayan dövlətlərlə sıx əməkdaşlığa yönəlmiş xarici siyasət kursuna uyğun idi. Yaponiya ilə münasibətlərdə də iqtisadi təməlin yaradılması bu əlaqələrin coğrafiyasını genişləndirən milli neft strategiyasının səciyyəvi xüsusiyyətlərindən biri idi.

Eyni zamanda, *"ilk üç müqavilədə iştirak edən Rusiya şirkətlərinin bu sazişdə yer almamasını da, yuxarıda göstərildiyi kimi, xarici siyasət xəttinin mahiyyəti ilə əlaqələndirmək olar. Artıq Rusiyanın maraqlarının əvvəlki müqavilələrlə əsasən təmin olunduğunu hesab edən Azərbaycan hökuməti digər dövlətlərlə əlaqələrin çərçivəsini genişləndirirdi"* [257, s.9].

Bununla yanaşı, "Dan ulduzu"-"Əşrəfi" yataqları üzrə sazişdə SOCAR-ın daha çox pay almasını da qeyd etmək lazımdır. Əgər o vaxta qədər imzalanmış müqavilələrdə onun payı 10% çərçivəsində məhdudlaşırdısa, bu sazişdə SOCAR 20% iştirak payına yiyələnmişdi. Müşahidə olunan bu cəhət də *"neft strategiyasında Azərbaycanın mövqelərinin güclənməsi ilə bağlı baş verən dəyişikliyin göstəricisi idi"* [257, s.9].

Yuxarıda göstərilənləri SOCAR-ın rəhbəri N.Əliyevin fikirləri də təsdiq edir. Onun sözlərinə görə, *"müqavilə Dövlət Neft Şirkəti tərəfindən irəli sürülmüş prinsiplər əsasında imzalanmış və bu prinsiplər növbəti müqavilələrdə də gözləniləcəkdir"* [242]. Deməli, Azərbaycan tərəfi bundan sonra əcnəbi investorlarla danışıqlarda özünün formalaşdırdığı konkret təməl prinsiplərini əsas götürürdü. Yəni əvvəlki dövrdən fərqli olaraq,

müzakirələr artıq SOCAR-ın təqdim etdiyi layihə üzrə gedirdi. Bu qənaəti Xəzər dənizindəki "Z.Tağıyev" (sonralar – "Abşeron") blokunun işlənilməsi ilə bağlı "Şevron" kompaniyasının (ABŞ) irəli sürdüyü təkliflərin cavabsız qalmasına dair informasiyalar da gücləndirir. Həmin məlumatlara əsasən, SOCAR 1996-cı ilin noyabr ayında "Şevron"la danışıqları Azərbaycanın hazırladığı şərtlər ətrafında apara biləcəyini bəyan etmişdi [243].

Aydındır ki, ekspertlərin də göstərdiyi kimi, *"SOCAR-ın oyun qaydalarını müəyyən etməsi"* [243] həmin illər ərzində Azərbaycanın dövlət olaraq güclənməsinin nəticəsi idi. Belə ki, ölkədə sabit ictimai-siyasi durum bərqərar olmuş, xarici əlaqələr intensivləşmiş, görülən tədbirlər sayəsində investisiya mühiti yaxşılaşmış, əvvəlki risklər geridə qalmışdı. Həm də Azərbaycan nəhəng neft kompaniyalarının nəzərini Xəzər dənizindəki karbohidrogen resurslarına cəlb etməklə rəqabət şəraiti formalaşdırmış, özü üçün vacib olan manevr dairəsini genişləndirmişdi. Bununla bərabər qeyd edilməlidir ki, SOCAR da layihələrin işlənməsi ilə bağlı artıq yaxşı təcrübə qazanmışdı.

Beləliklə, *"göstərilən amillər Azərbaycanın neft strategiyasına müəyyən dəyişikliklərin edilməsini, xarici investorlarla əməkdaşlığın növbəti mərhələsində daha da möhkəmlənmiş mövqelərdən çıxış etməsini şərtləndirirdi"* [257, s.9].

Eyni zamanda, sirr deyildi ki, neft strategiyası qarşısında yalnız iqtisadi deyil, eləcə də siyasi məqsədlər durur. Xəzər dənizindəki daha iki blok – "Lənkəran-dəniz" və "Talış-dəniz" üzrə danışıqların gedişində məhz məsələnin siyasi aspekti diqqəti çəkirdi. Çünki bu danışıqlarda tərəf kimi əsas iştirakçılar – "Elf Akiten" və "Total" kompaniyaları Fransanı təmsil edirdi. Sayca beşinci olan həmin neft müqaviləsi Azərbaycan Prezidentinin 1997-ci ilin yanvar ayında bu ölkəyə səfəri zamanı imzalandı. Tədbirin Yelisey sarayında hər iki dövlətin prezidentlərinin iştirakı ilə keçirilməsi sazişin siyasi çalarını da qabarıq büruzə verirdi [181, c.4, s.349-350].

Fransa Prezidenti J.Şirak öz çıxışında həmkarı Heydər Əliyevin bu sazişi Paris şəhərində imzalamaq qərarını iki ölkənin dostluğunun təzahürü kimi qiymətləndirdi. J.Şirakın fikrincə, *"bu, iki ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələrin möhkəmləndirilməsi istiqamətində atılmış addımdır"* [181, c.4, s.351].

Bununla belə, layihənin, əlbəttə, iqtisadi baxımdan çox böyük əhəmiyyəti var idi. Potensialı 50-60 milyon ton neft həcmində ehtimal olunan strukturların işlənməsinə 1,5 mlrd ABŞ dolları yatırılması gözlənilirdi. Layihədə ilkin pay bölgüsü belə idi: SOCAR–25%, "Elf Akiten"–25% və "Total"–10%. Yerdə qalan hissənin alınmasına isə Amerika, Almaniya, Cənubi Koreya kompaniyaları maraq göstərirdilər [8].

Müzakirələr başa çatdıqdan sonra Almaniyanın "Demineks", Belçikanın "Fina Neftqaz" və İranın "OİEK" kompaniyaları bu sazişə qoşuldular. Sənəd 1997-ci ilin 13 iyun tarixində ölkə parlamentində təsdiq olundu və onun həyata keçirilməsinə icazə verildi [181, c.4, s.354-358].

Fransa və Belçika kompaniyalarının sonradan birləşərək yaratdıqları "Totalfinaelf" layihədə 35% pay aldı. Digər tərəfdaşlardan "Vinterşal" ("Demineks") 30%, SOCAR 25%, "OİEK" isə 10%-ə sahib oldu [381].

Göründüyü kimi, Fransa investorlarının əsas yer tutduğu layihəyə Almaniya şirkətinin daxil olması Azərbaycanın daha bir Avropa dövləti ilə əməkdaşlıq əlaqələrinin inkişafına zəmin yarada bilərdi. Bununla həm də layihənin maliyyə-iqtisadi potensialının və siyasi çəkisinin artması barədə fikir yürütmək olardı.

Prezident Heydər Əliyevin Fransadan sonra 1997-ci ilin ikinci yarısında Moskva və Vaşinqtona səfərləri də neft sənayesində əməkdaşlıq haqqında sazişlərin imzalanması ilə yadda qaldı. Həyata keçirilən səfərlərin marşrutu da ölkə qarşısında duran vəzifələrdən irəli gəlirdi. Məlumdur ki, hər üç dövlətin Cənubi Qafqaz regionunda ciddi geostrateji maraqları var.

Eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə məşğul olan Minsk qrupunda həmsədr kimi mühüm mövqe tutan həmin dövlətlərlə münasibətlərin genişləndirilməsi Azərbaycanın da mənafelərinə uyğun idi. Bu məqsədlə ölkə rəhbərliyi neft siyasətindən səmərəli şəkildə istifadə etməyə çalışırdı.

Məhz bu baxımdan 1997-ci ilin 3 iyul tarixində Kremldə “LUKoyl” şirkətinin SOCAR ilə “D-222” (“Yalama”) strukturunda əməkdaşlığa dair HPBHS imzalaması təsadüfi deyildi. İmzalanma mərasimində Rusiya Prezidenti Boris Yeltsinin və Prezident Heydər Əliyevin iştirakı da sazişin əhəmiyyətini göstərirdi [181, c.5, s.197].

Çox keçməmiş “LUKoyl” və “ARKO” kompaniyasının (ABŞ) yaratdığı ortaq şirkət – “LUK-ARKO” müqavilədə 60%, SOCAR isə 40% səhm paketi ilə fəaliyyətə başladılar. Layihəyə 1,5-2 mlrd dollar kapital yatırılması planlaşdırılırdı [433].

İyulun 4-də isə Moskvada SOCAR ilə “LUKoyl” və “Rosneft” kompaniyaları arasında Xəzərin Azərbaycan sektorundakı “Kəpəz” yatağında əməkdaşlığın kommersiya şərtləri haqqında müqavilə imzalandı [181, c.5, s.213]. Bu sənəd hələ 1988-ci ildə Azərbaycan geoloqları tərəfindən açılmış yatağın birgə işlənməsi və pay bölgüsü barədə əsas sazişin başlıca müddəalarının hazırlanması üçün çərçivəni müəyyənləşdirirdi.

Kreml ilə yanaşı, Vaşinqtonla da hərtərəfli əlaqələrin inkişafında neft amilinə xüsusi yer ayrılırdı. Təsadüfi deyil ki, Heydər Əliyevin Amerika səfəri 1997-ci ilin avqust ayının 1-də neft müqavilələrinin bağlanması ilə başlandı. Ağ evdə SOCAR ilə ABŞ-ın “Şevron”, “Eksson” və “Mobil” kompaniyaları arasında müvafiq olaraq Xəzər dənizində yerləşən “Abşeron”, “Naxçıvan” və “Oğuz” perspektivli sahələri üzrə ayrı-ayrı üç HPBHS imzalandı [27, s.258; 181, c.5, s.79].

Bununla bərabər, elə eyni gündə SOCAR və “Amoko” daha bir saziş imzaladı. Həmin sənədə görə, Amerika kompaniyası Azərbaycanın Xəzər dənizi sektorunda yerləşən perspek-

tivli "İnam" bloku üzrə danışıqlarla bağlı üstün hüquq əldə edirdi. Vaşinqtonda imzalanmış sazişlərdə SOCAR-ın tərəfdaşlarının yalnız ABŞ firmalarının olmasını xüsusi vurğulamaq lazımdır. Diqqəti çəkən mühüm cəhət həm də o idi ki, müqavilədə SOCAR və digər şirkətlər paritet əsasda (50%:50%) iştirak edirdilər [381, s.258]. Bu isə SOCAR-ın o vaxta qədər imzaladığı sazişlərlə müqayisədə özünü daha inamlı hiss etdiyini göstərirdi.

1997-ci ilin sentyabrında "Abşeron" layihəsindəki payın 20%-ni "Total" (Fransa) əldə etdi. SOCAR-a 50%, "Şevron"a isə 30% məxsus idi [359].

O dövrdə yayılmış informasiyaya əsasən, "Abşeron" müqaviləsindəki payın 20 faizinə məşhur "Royal Datç Şell", TPAO, "LUKoyl" və digər investorlar da iddialı idilər. Amma maliyyə potensialına və başqa cəhətlərinə görə fərqlənən həmin şirkətlərin əvəzinə Minsk qrupunda söz sahibi olan ölkənin (Fransanın) "Total" kompaniyasının seçilməsi bu layihələrdə təkcə iqtisadi yox, eləcə də siyasi amillərin əhəmiyyətli olduğunu göstərir [480].

Qeyd etmək lazımdır ki, 1998-ci ildə dünyanın neft birjalarında qiymətin çox ciddi şəkildə enməsi (bir barel neftin qiyməti 10-11 dollara düşmüşdü) fövqəlmilli kompaniyaları qüvvələrini birləşdirməyə sövq etdi. "BP" və "Amoko", "Mobil" və "Eksson" birləşmək qərarına gəldilər [135; 226; 285]. Bundan sonra onların həmin vaxtadək Azərbaycan layihələrdəki payına müvafiq surətdə "BP" və "EkssonMobil" kompaniyaları sahib oldular.

Bəzilərinin o zaman qeyd etdiyinin əksinə olaraq, "Amoko"nun "BP" ilə birləşməsinin ABŞ-ın Xəzər hövzəsindəki geosiyasətinə mənfi təsirindən danışmağın heç bir əsası yox idi. Çünki onun başqa kompaniyaları bu dövlətin maraqlarına uyğun olaraq regionda fəaliyyətlərini davam etdirirdilər.

Azərbaycan da öz növbəsində ABŞ kompaniyalarının imkanlarından mühüm siyasi vəzifələrin həlli məqsədilə istifadə etməyə çalışırdı. Gözlənilirdi ki, Xəzərin neft yataqlarının işlən-

məsinə qoşulmuş həmin şirkətlərin nüfuzu okeanın o tayından Azərbaycana yönəlmiş ardıcıl təsir və təzyiqlərin qarşısının alınmasında, habelə bölgədə gedən hərbi-siyasi proseslərin ədalətli nizamlanmasında öz sözünü deyə bilər. Ona görə də ABŞ qəzetlərinin göstərdiyi kimi, Heydər Əliyevin bu ölkəyə səfərinə az qalmış *"Vaşinqtonda, Ağ evdə neft şirkətləri ilə erməni lobbisi arasında şiddətli mübarizə baş vermişdir"* [197].

Amerikadakı güclü erməni diasporunun Azərbaycan Prezidentinin bu ölkəyə səfərini əngəlləmək və Ağ evdəki görüşlərinin qarşısını almaq niyyətləri puça çıxdı. "Financial times"ın ("Faynenşl tayms") yazdığına görə, Prezident Heydər Əliyevin *"Prezident B.Klinton ilə görüşü və Azərbaycan tərəfindən 10 milyard dollar məbləğində qiymətləndirilən bir sıra neft müqavilələrinin imzalanması Birləşmiş Ştatların ən yaxın və hörmətli tərəfdaşlarından biri kimi Azərbaycanın xüsusi statusunu təsdiqləmiş səfərin zirvəsi oldu"* [288].

Moskva qəzetləri də Azərbaycanın dövlət rəhbərinin Amerika görüşlərinə, orada bağlanmış neft sazişlərinə xüsusi diqqət yetirirdi. Bu səfərin iqtisadi əhəmiyyəti arxa plana keçirilir, onun geosiyasi aspektləri daha çox qabardılırdı. «Известия» ("İzvestiya") nəzərə çatdırırdı ki, Azərbaycan Prezidenti Heydər Əliyev Vaşinqtondakı görüşləri, oraya apardığı cəlbedici təklifləri ilə *"Amerikanın korporasiyalarını Azərbaycanın neft layihələrinə bağlamağa nail oldu. Bu isə Qarabağ münaqişəsinin sərfəli həlli üçün mühüm rol oynayırdı"* [417].

Lakin burada onları təkcə Dağlıq Qarabağ probleminin nizamlanması deyil, eləcə də Ağ evin Xəzər hövzəsindəki geosiyasi mövqelərinin daha da güclənməsi təhlükəsi narahat edirdi. Rusiyanın kütləvi informasiya vasitələri neft kompaniyalarında nüfuzlu yer tutan Z.Bjezinski, C.Beyker, B.Skoukroft kimi tanınmış sabiq yüksək statuslu məmurların Birləşmiş Ştatlarda Azərbaycanın getdikcə güclənən lobbisinin yaradılmasında rolunu xüsusi göstərirdi. Bildirilirdi ki, məhz onların fəaliyyəti sayəsində *"ABŞ-ın nüfuzlu erməni lobbisi ilk dəfə itkilər verir"*,

Vaşinqton tədricən Cənubi Qafqaz regionunda Kremlin sıxışdırılması ilə öz mövqelərini möhkəmləndirir [405].

Doğrudan da, Xəzərin zəngin karbohidrogen resurslarının dünyada güc mərkəzlərinin geosiyasi mənafeləri baxımından mübarizə obyektinə çevrilməsini elə 1997-ci ilin iyul ayında Rusiya paytaxtında imzalanmış sazişin cəmi bir ay sonra – Heydər Əliyevin həmin Vaşinqton səfəri günlərində bölgədə doğurduğu mübahisələr əyani şəkildə göstərdi.

Moskva qəzetlərinin verdiyi məlumata əsasən, "Rosneft" şirkəti "Kəpəz" yatağı ilə bağlı SOCAR-la imzaladığı sazişdən avqust ayının 1-də çıxdığını bildirmişdir. Sazişin pozulmasının səbəbı Aşqabadın "Sərdar" adlandırdığı eyni yatağa iddialı olan Türkmənistanın bu sənədə etirazını ifadə etməsi idi. Etirazı qəbul edən Rusiya tərəfi sazişin qüvvədən düşməsi barədə Aşqabada məlumat vermişdi. Mətbuat orqanının şərhinə görə, bu proseslərdə fərqli mövqeyə malik Azərbaycanın vahid cəbhədən çıxış edən Rusiya Federasiyası, İran, Türkmənistan və Qazaxıstan aylansına güzəştə getməyə məcbur olacağı gözlənilirdi [396].

Beləliklə, hələ də müzakirə mövzusu olan Xəzər dənizinin hüquqi rejimi problemi bəzi dövlətlərin bölgədə öz geosiyasi mövqelərini möhkəmləndirmək üçün təzyiq vasitəsinə çevrilmişdi.

Bununla belə, beynəlxalq hüquq normalarına əsaslanan Azərbaycan hökuməti bu məsələdə haqlı mövqeyini israrla müdafiə edirdi. Təsadüfi deyil ki, SOCAR 1997-ci ildə ardıcıl olaraq verdiyi iki bəyanatında (20 avqust və 12 sentyabr tarixli) "Kəpəz" yatağını hələ ötən əsrin 50-ci illərində məhz Azərbaycan mütəxəssislərinin kəşf etdiyini vurğulamışdır. Həmin struktur keçmiş SSRİ hökumətinin Xəzərin bölgüsü ilə bağlı 1970-ci ildə qəbul etdiyi qərara görə, dənizin Azərbaycan sektoruna aid olunmuşdur. Bu dəlilləri xatırladan SOCAR bütün işgüzar dairələrin nəzərinə çatdırırdı ki, *"xarici şirkətlər "Kəpəz" yatağına və Xəzər dənizinin Azərbaycan sektorunda yerlə-*

*şən digər perspektivli bloklara dair Türkmənistanın elan etdiyi tenderdə iştirak edəcəyi təqdirdə, müvafiq tədbirlər görmək və addımlar atmaq hüququnu özündə saxlayır”* [78; 79].

Qeyd edilməlidir ki, “Kəpəz” yatağının üzə çıxardığı yeni ziddiyyətlər Xəzərin sektor bölgüsü ilə bağlı Azərbaycanın irəli sürdüyü arqumentlərin əsaslı olduğunu aydın göstərdi. O vaxta qədər Xəzərdə sektor bölgüsünü qəbul etməyən Moskva və Aşqabad son dövrdə “Kəpəz”in Türkmənistana məxsusluğunu təsdiqləməklə dənizin sektor prinsipi ilə bölüşdürülməsinin vacibliyini istəmədən aktuallaşdırdılar. İki ölkə prezidentlərinin 7 avqust 1997-ci ildə keçirilən görüşündə B.Yeltsin və S.Niyazov Xəzərin sektor bölgüsünə dair ilk dəfə razılığa gəlmişdilər [376, s.220]. (Mübahisəli “Kəpəz” yatağı ilə bağlı yalnız 2021-ci ildə razılıq əldə edildi. Həmin ilin yanvar ayının 21-də Azərbaycan və Türkmənistan hökumətləri arasında “Dostluq” adlandırılmış sözügedən yatağın birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsinə dair Anlaşma Memorandumu imzalandı [199] ).

Azərbaycanda bəzi qrupların karbohidrogen ehtiyatlarının əcnəbi investorlarla birgə işlənməsinə dair yeni sazişlərin bağlanması əleyhinə çıxmasına, habelə müəyyən xarici təzyiqlərə rəğmən, hökumət milli mənafeləri rəhbər tutaraq neft siyasətini davam etdirirdi.

Tədqiqatın gedişində müxtəlif mənbələrin məlumatlarının öyrənilməsi əsasında tərtib olunmuş aşağıdakı cədvəl xarici kompaniyalar ilə neft-qaz müqavilələri üzrə əməkdaşlığın dinamikasını xronoloji ardıcıllıqla əks etdirir. Cədvəldə şirkətlərin dəniz və quru yataqlarına dair sazişlərdəki pay bölgüsü və müqavilələrin yerinə yetirilməsi ilə bağlı vəziyyəti izləmək mümkündür [6; 101; 141; 200; 201; 230; 247; 328; 330; 331; 379, s.4; 381, s.258.]:

**Cədvəl 1.3.1**

**Azərbaycanın imzaladığı beynəlxalq neft-qaz müqavilələri (2023-cü ilin sonunadək olan vəziyyət) Xəzər dənizinin Azərbaycan sektorundakı yataqlar**

| № | Müqavilənin adı, imzalanma tarixi və yeri | İştirakçıların pay bölgüsü %-lə | İcra vəziyyəti |
|---|---|---|---|
| 1. | "Azəri", "Çıraq", "Günəşli" 20.09.1994, Bakı, (14.09.2017-ci ildə 2050-ci ilədək uzadılıb) | "BP" – 30,37<br>SOCAR – 25,0<br>"MOL" – 9,57<br>"İnpeks" – 9,31<br>"Equinor" – 7,27<br>"EkssonMobil"– 6,79<br>TPAO – 5,73<br>"İtoçu" – 3,65<br>"ONGC Videş" – 2,31 | Həyata keçirilir |
| 2. | "Qarabağ" 10.11.1995, Bakı | "LUK-Acip" – 45<br>"Pennzoyl" – 30<br>"LUKoyl" – 12,5<br>SOCAR – 7,5<br>"Acip" – 5 | Xitam verilib 23.02.1999 |
| 3. | "Şahdəniz" 04.06.1996, Bakı (17.12.2013-cü ildə 2048-ci ilədək uzadılıb) | "BP" – 29,99<br>SOCAR – 14,35<br>"LUKoyl" – 19,99<br>TPAO – 19<br>"NİKO" – 10<br>"SGC"- 6,67 | Həyata keçirilir |
| 4. | "Dan ulduzu", "Əşrəfi" 14.12.1996, Bakı | "BP" ("Amoko") – 30<br>"Yunokal" – 25,5<br>SOCAR – 20<br>"İtoçu" – 20<br>"Delta Hess" – 4,5 | Xitam verilib mart, 2000 |

| | | | |
|---|---|---|---|
| 5. | "Lənkəran-dəniz," "Talış-dəniz" 13.01.1997, Paris | "Totalfinaelf" – 35<br>"Vinterşal" ("Demineks") – 30<br>SOCAR – 25<br>"OİEK" – 10 | Xitam verilib dekabr, 2001 |
| 6. | "Yalama-Samur" ("D-222") 03.07.1997, Moskva | "LUK-ARKO" – 60<br>SOCAR – 40 | Xitam verilib 15.05.2009 |
| 7. | "Naxçıvan" 01.08.1997, Vaşinqton | SOCAR – 50<br>"EkssonMobil" – 50 | Xitam verilib yanvar, 2006 |
| 8. | "Abşeron" 01.08.1997, Vaşinqton | SOCAR – 50<br>"Şevron" – 30<br>"Totalfinaelf" – 20 | Xitam verilib 2005 |
| 9. | "Oğuz" 01.08.1997, Vaşinqton | SOCAR – 50<br>"EkssonMobil" – 50 | Xitam verilib 21.10.2003 |
| 10. | "Kürdaşı" 02.06.1998, Bakı | SOCAR – 50<br>"Acip" – 25<br>"Mitsui" – 15<br>TPAO – 5<br>"Repsoyl" – 5 | Xitam verilib 30.12.2001 |
| 11. | "İnam" 21.07.1998 London | SOCAR – 50<br>"BP" – 25<br>"Şell" – 25 | Xitam verilib 21.12.2008 |
| 12. | "Araz", "Alov", "Şərq" 21.07.1998, London | "ENCANA" – 40<br>SOCAR – 15<br>"BP" – 15<br>TPAO – 15<br>"Statoyl"–10<br>"EkssonMobil" – 5 | Qüvvədədir İcrası başlanmayıb |
| 13. | "Yanan Tava", "Atəşgah", "Muğan-dəniz" 25.12.1998, Bakı | SOCAR – 50<br>"CAPEKS" – 22,5<br>"İnpeks" – 12,5<br>"TEYKOKU" – 7,5<br>"İtoçu" – 7,5 | Xitam verilib 2003 |

| | | | |
|---|---|---|---|
| 14. | "Zəfər", "Məşəl"<br>27.04.1999,<br>Vaşinqton | SOCAR – 50<br>"EkssonMobil" – 30<br>"Konoko-Fillips" – 20 | Xitam verilib yanvar, 2006 |
| 15. | "Savalan",<br>"Dalğa",<br>"Lerik-dəniz",<br>"Cənub"<br>27.04.1999,<br>Vaşinqton | SOCAR – 50<br>"EkssonMobil" – 30<br>Vakant pay – 20 | Qüvvəyə minməyib |
| 16. | "Abşeron",<br>27.02.2009, Bakı | SOCAR –35<br>"Total" – 35<br>ADNOC – 30 | Həyata keçirilir |
| 17. | "Bahar", "Qum Dəniz"<br>02.12.2009, Bakı | "Bahar Enerji" – 80<br>SOCAR – 20 | Həyata keçirilir |
| 18. | "Şəfəq",<br>"Asiman"<br>07.10.2010, Bakı | SOCAR – 50<br>"BP" – 50 | Həyata keçirilir |
| 19. | Abşeron yarımadası ətrafında dayazsulu sahə<br>22.12.2014, Bakı | SOCAR – 50<br>"BP" – 25<br>"LUKoyl" – 25 | Həyata keçirilir |
| 20. | D 230 perspektiv bloku,<br>26.04.2018,<br>London | SOCAR - 50<br>"BP" – 50 | Həyata keçirilir |
| 21. | "Əşrəfi", "Dan ulduzu", "Aypara"<br>30.05.2018, Bakı | SOCAR – 50<br>"Statoyl" ("Equinor") – 50<br>2023-cü il dekabrdan:<br>SOCAR – 100 | Həyata keçirilir |
| 22. | "Qarabağ"<br>30.05.2018<br>Bakı (Risk xidmət sazişi) | SOCAR – 50<br>"Statoyl" ("Equinor") – 50<br>2023-cü il dekabrdan:<br>SOCAR– 100 | Həyata keçirilir |

## Qurudakı yataqlar

| № | Müqavilənin adı, imzalanma tarixi və yeri | İştirakçıların pay bölgüsü %-lə | İcra vəziyyəti |
|---|---|---|---|
| 1. | "Qərbi Abşeron" 10.08.1994, Vaşinqton | "BMB oyl ink" – 100 | Xitam verilib 2000 |
| 2. | "Cənub-Qərbi Qobus-tan", 02.06.1998, Bakı | "Komonvels" – 40<br>"Yunion Teksas" – 40<br>SOCAR – 20 | Həyata keçirilir |
| 3. | "Kürsəngi", "Qarabağlı" 02.06.1998, Bakı | SOCAR – 50<br>"SiEn ODiSi" – 25<br>"Forçunmayt" – 25 | Həyata keçirilir |
| 4. | "Muradxanlı", "Cəfərli", "Zərdab" 21.07.1998, London | SOCAR – 50<br>"Remko" – 50 | Xitam verilib dekabr, 2001 |
| 5. | "Padar" ("Haramı") 27.04.1999, Vaşinqton | SOCAR – 20<br>"Qlobal Enerji" – 80 | Həyata keçirilir |
| 6. | "Mişovdağ", "Kələməddin" 12.09.2000, Vaşinqton | SOCAR – 15<br>"Qlobal Enerji" – 85 | Həyata keçirilir |
| 7. | "Zığ", "Hövsan" 09.01.2001, Bakı | "LUKoyl" – 50<br>SOCAR – 50 | 2005-ci ildə "LUKoyl" müqavilədən çıxıb |
| 8. | "Pirsaat", 04.06.2003, Bakı | SOCAR – 20<br>"Şenqli oyl" – 50<br>"Midl ist" – 30 | Həyata keçirilir |

| | | | |
|---|---|---|---|
| 9. | "Qaraçuxur", 18.06.2004, Bakı | "Noble Skai Ltd" – 75, SOCAR – 25 | Həyata keçirilir |
| 10. | "Binəqədi", "Qırməki", "Çax-naqlar", "Sulu-təpə", "Masazır", "Fatmayı", "Şabandağ", "Sianşor" 29.09.2004, Bakı | "AZEN" – 75 SOCAR – 25 | Həyata keçirilir |
| 11. | "Suraxanı" 19.11.2005, Bakı | "Rafi oyl" – 75 SOCAR – 25 | Həyata keçirilir |
| 12. | "Zığ", "Hövsan" 03.11.2006, Bakı | "Rusneft" – 75 SOCAR – 25 | Həyata keçirilir |
| 13. | "Kürovdağ" 03.02.2009, Bakı | "AZEN" – 75 SOCAR – 25 | Həyata keçirilir |
| 14. | "Neftçala", "Xıllı", "Dürovdağ-Babazanan" 03.02.2009, Bakı | "Qlobal Enerji" – 85, SOCAR – 15 | Həyata keçirilir |
| 15. | "Balaxanı", "Sabunçu", "Ramana", "Kürdəxanı", 03.06.2010, Bakı | "UQE Lanser PTİ. Ltd" – 75, SOCAR – 25 | Həyata keçirilir |
| 16. | "Muradxanlı", "Cəfərli", "Zərdab" 16.03.2016, Bakı | "Zenit Aran" – 80 SOCAR – 20 | Həyata keçirilir |

Cədvəldən göründüyü kimi, sayca ən çox müqavilə (yeddi saziş) 1998-ci ilin payına düşür. Həmin razılaşmalara görə, işlər həm dəniz strukturlarında, həm də quru yataqlarında aparılmalı idi. İmzalanmış sazişlərin beşində, əvvəlki layihələrdən fərqli

olaraq, SOCAR-ın 50 faiz paya malik olması diqqəti cəlb edirdi. Bu fakt əcnəbi investorlarla işbirliyində Azərbaycanın potensialının artmasını və mövqelərinin gücləndiyini göstərirdi. Bununla yanaşı, Azərbaycanın layihələrə yeni kompaniyalar cəlb edərək, onların təmsil olunduğu ölkələrin sırasını və coğrafi dairəsini daha da genişləndirdiyi müşahidə olunurdu. Məsələn, bəzi sazişlərə İspaniya və Kanadanın çox da böyük olmayan kompaniyaları ("Repsoyl", "Komonvels oyl ənd qaz", "Albert Enerji"), habelə digər tərəfdaşların iştirak payını alan Çin şirkətləri ("SiEnODiSi", "Forçunmayt") qoşulmuşdur.

Üç dəniz blokunu – "Yanan Tava", "Muğan-dəniz" və "Atəşgah"ı əhatə edən layihədə isə SOCAR pay paketini ancaq Yaponiya kompaniyaları ilə yarıbayarı bölüşmüşdü. Gündoğan ölkənin sərmayədarları – "CAPEKS", "TEYKOKU", "İtoçu", "İnpeks" 50 faizlik iştirak payına sahib olmuşdular. Əlbəttə, yapon investorlarının Azərbaycanın neft sənayesinə maraq göstərməsi iki ölkə arasında əlaqələrin inkişafına əlverişli şərait yaradırdı.

Yuxarıdakı cədvəli nəzərdən keçirərkən aydın olur ki, bağlanmış beynəlxalq müqavilələrin 13-nə (onlardan 11-i dəniz, 2-si isə quru yataqları üzrə) xitam verilib. Bunun səbəbi həmin müqavilə sahələrindəki axtarış işlərinin yekununda kifayət qədər ehtiyatların aşkar edilməməsidir. Bununla belə, əcnəbi sərmayəçilərin işlənilməsinə xitam verilmiş bir neçə saziş sahəsinə ("Abşeron", "Qarabağ", "Dan ulduzu", "Əşrəfi", "Muradxanlı", "Cəfərli" və "Zərdab") yenidən böyük maraq göstərməsi xüsusi qeyd edilməlidir. Yəni xarici şirkətlərin əksəriyyəti Azərbaycanda fəaliyyətini davam etdirməyə üstünlük verirdi. Belə ki, SOCAR-ın "Total" və "Şevron" kompaniyaları ilə 1997-ci ildə "Abşeron" bloku üzrə imzaladığı müqavilə ilk kəşfiyyat işləri lazımi karbohidrogen ehtiyatlarını üzə çıxarmadığına görə 2005-ci ildə pozulmuşdu [204]. Amma sonra "Total" rəhbərliyi əldə olunmuş məlumatları təkrar qiymətləndirərək, həmin blokda fəaliyyətinin bərpası ilə bağlı SOCAR-a müraciət etdi. Danışıqları uğurla yekunlaşdıran tərəflər 27 fevral 2009-cu il tarixində *"Xəzər*

*dənizinin Azərbaycan sektorunda Abşeron Dəniz Blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında"* müqavilə imzaladılar [301].

Sənədə görə, SOCAR 40%, "Total" isə 60% iştirak payı aldı. Müqavilə may ayının 22-də parlamentdə təsdiq olunaraq Prezident İlham Əliyev tərəfindən imzalanmış və hüquqi qüvvəyə minmişdir [202].

Yeni qiymətləndirmələrə əsasən, təbii resurslarına görə "Abşeron"da iri qaz yatağının açılacağı gözlənilirdi. Bu yatağın öz potensialına görə, hətta "Şahdəniz"i də geridə qoya biləcəyi ehtimal olunurdu. Yeni məlumatlar, təbii olaraq, digər investorların layihəyə marağını artırırdı. Belə şəraitdə Fransanın daha bir şirkəti – "Qaz de Frans" 2009-cu ilin yayında "Total"dan aldığı payla "Abşeron" layihəsinə üzv oldu [479]. Amma sonrakı dövrdə bu müqavilənin iştirakçıları tərkibində yenə dəyişiklik oldu. Belə ki, "Qaz de Frans" sazişdən çıxdı və 2023-cü ildə Birləşmiş Ərəb Əmirliyinin Əbu-Dabi Milli Neft Şirkəti (ADNOC) 30% iştirak payı ilə müqaviləyə qoşuldu. SOCAR və "Total" isə əldə hərəyə 35% iştirak payı saxladı [6].

Bundan başqa, yuxarıda cədvəldə əksini tapdığı kimi, "Qarabağ", "Dan ulduzu", "Əşrəfi", "Muradxanlı", "Cəfərli" və "Zərdab" yataqları üzrə də 2016–2018-ci illərdə xarici şirkətlərlə yeni sazişlər imzalanmış və hazırda onlar yerinə yetirilir. Amma ötən əsrin 90-cı illərindən Azərbaycanda fəaliyyət göstərən Norveçin "Statoyl" ("Equinor") şirkəti kommersiya planlarının dəyişməsi ilə 30 ildən sonra bir sıra iri layihələrdə iştirak payını satmaq qərarına gəldi. 2023-cü ilin dekabr ayında "Equinor" şirkətinin "AÇG" və "Qarabağ" yataqları üzrə müqavilələrdə (müvafiq olaraq 7,27% və 50%), habelə BTC boru kəməri layihəsində (8,71%) payını SOCAR aldı [330]. Bununla yanaşı, Norveç şirkəti "Dan ulduzu", "Əşrəfi" və "Aypara" yataqlarında 50%-lik payla fəaliyyətini davam etdirirdi.

Təhlillər göstərir ki, əcnəbi kompaniyalarla birgə iş, bir qayda olaraq, dəniz strukturları üzrə və HPBHS çərçivəsində

həyata keçirilir. Xarici tərəfdaşları ilə işbirliyində Azərbaycanın üstünlük verdiyi bu müqavilə modeli ilk dəfə hələ "Əsrin müqaviləsi"ndən əvvəl qurudakı neft yataqlarının işlənməsinə dair razılaşmada tətbiq olunmuşdu. Belə ki, 1994-cü il avqustun 10-da Vaşinqtonda SOCAR ilə ABŞ-ın "BMB oyl ink" şirkəti arasında "Qaradağ", "Korgöz" və "Umbakı" yataqları (Qərbi Abşeron) üzrə imzalanmış müqavilə hasilatın pay bölgüsü prinsipinə əsaslanırdı. Bununla belə, dənizdəki bloklar haqqında müqavilələrdən fərqli olaraq, bu saziş daha az kapitaltutumlu olması ilə səciyyələndiyindən Milli Məclisin təsdiqi prosedurundan keçməyərək qüvvəyə minən hasilatın pay bölgüsü haqqında yeganə sənəd oldu [21; 101; 408].

1959-cu ildən istismar olunan müqavilə sahəsinin neft ehtiyatları böyük deyildi və hesablamalara görə 21 milyon ton həcmində qiymətləndirilirdi. Sazişə görə, bütün iştirak payına sahib olan "BMB oyl ink" şirkətinə çıxarılacaq neftin 49%-i, Azərbaycana isə 51%-i çatmalı idi [245; 379, s.4].

İlk gündən maliyyə məsələlərini həll etməkdə çətinlik çəkən şirkət nəzərdə tutulan kəşfiyyat işlərini tam miqyasda yerinə yetirə bilmədi. Artıq 1999-cu ilin əvvəllərində şirkətin fəaliyyətinin dondurulması ilə bağlı xəbərlər dolaşırdı [137]. Sonrakı dövrdə öz işini səmərəli qura bilməyən "BMB oyl ink" 2000-ci ildə fəaliyyətini dayandırdı [181, s.103].

Beləliklə, xarici neft şirkətləri ilə əməkdaşlıq sahəsində ilk addım olsa da, bu müqavilə özünün iqtisadi göstəricilərinə və siyasi əhəmiyyətinə görə nəzərə çarpan çəkiyə malik deyildi. Bu baxımdan, əlbəttə, birincilik "Əsrin müqaviləsi"nə məxsus idi.

Bununla belə, həmin illərdə, yəni ötən yüzilin 90-cı illərində əcnəbi investorlar quruda fəaliyyət göstərən köhnə neft mədənlərinə də diqqət göstərirdilər. Amma müştərək müəssisələr çərçivəsində yerinə yetirilən bu sazişlər yatırılan sərmayənin az olmasına görə nəzəri çox çəkmirdi.

İlk belə müəssisələrdən biri 1993-cü ildə SOCAR ilə Türkiyənin "Atilla Doğan Petrol" şirkəti arasında keçmiş "Neft-

çalaneft" NQÇİ-nin bazasında yaradılmışdı. "Anşad Petrol" adı ilə təsis olunmuş müştərək müəssisə "Neftçala", "Xıllı", "Durovdağ" və "Babazanan" neft yataqlarının istismarı sahəsində fəaliyyət göstərməli idi. Müəssisə fəaliyyətə başladıqdan bir neçə il sonra iştirakçıların sayı artdı. Belə ki, 1995-ci ildə Malayziyanın "Land and General Berhard" şirkəti "Atilla Doğan Petrol"un layihədəki iştirak payının 17,15%-ni alaraq "Anşad Petrol"un tərkibinə daxil oldu [12; 101]. Bundan sonra "Atilla Doğan Petrol" şirkəti öz əlində 31,85%-lik pay saxlayırdı. SOCAR-ın payı isə əvvəlki kimi 51% idi [230].

1994-cü ildə "Kəlaməddin" yatağı üzrə Türkiyənin "Petroldinq" şirkəti ilə müştərək "Azpetoyl" müəssisəsi (SOCAR–49%, "Petroldinq"–51%) və "Ramana" yatağının işlənməsi məqsədilə Almaniyanın "Qrünvald" şirkəti ilə "Azgeroyl" müştərək müəssisəsi (SOCAR–40%, "Qrünvald"–60%) yaradıldı [230; 267].

Quru yataqlarının birgə müəssisələr vasitəsilə Türkiyə və Almaniya şirkətləri ilə işlənməsi prosesinə həmin dövrdə İngiltərə şirkətləri də qoşulmağa başladı. İngiltərənin "Vaytholl interneşnl treyders" şirkəti ilə aparılmış danışıqlar nəticəsində 1995-ci ildə "Şirvanneft" NQÇİ-nin bazasında müştərək müəssisə yaradıldı. Neft ehtiyatları 120 mln tondan çox qiymətləndirilən "Kürovdağ" yatağında fəaliyyət göstərəcək "Şirvanoyl" müştərək müəssisəsində SOCAR 49%, "Vaytholl" isə 51% iştirak payı aldı [230; 464].

1997-ci ildə fəaliyyətə başlayan "Şirvanoyl" 30 il müddətinə yaradılmışdı. Şirkətin vəzifəsi 100-dək köhnə quyunu tezliklə bərpa etmək, gündəlik neft hasilatını 600 tondan 1000 tona çatdırmaq üçün yeni quyular qazmaqdan ibarət idi. Plan üzrə hasil olunmuş neft SOCAR-a təhvil verilməli idi. Plandan artıq istehsal edilən karbohidrogen xammalının əvvəlcə İngiltərə şirkətinin xeyrinə 60:40 nisbətində, sonra isə Azərbaycan tərəfinin xeyrinə 70:30 nisbətində bölünməsi nəzərdə tutulurdu [464].

“Şirvanoyl”un fəaliyyətə başlaması ilə quru yataqlarının işlənməsi üzrə SOCAR-ın xarici neft şirkətlərilə yaratdığı müştərək müəssisələrin sayı dördə çatdı. Bu müəssisələr, bir qayda olaraq, səmərəsiz istismar olunan yataqlarda kiçik kapitala malik xarici şirkətlərlə birgə qurulurdu. O dövrdə həmin yataqlarda hasil olunan neftin həcmi ölkə üzrə ümumi neft istehsalının 3%-dən az idi [267].

Müəyyən vaxtdan sonra aydın oldu ki, birgə müəssisələr çərçivəsində təşkil olunan fəaliyyət lazımi qədər faydalı deyil. Belə müəssisələrin təsis olunmasına dair qanunvericilik bazası, onların fəaliyyətinin kommersiya-hüquqi rejimi müəssisələr üçün zəruri olan ixrac və idxal azadlığına təminat yaratmır, istehsalın inkişafına, sərmayə qoyuluşunun artırılmasına stimul vermirdi.

Hətta ilk illərdə SOCAR ilə müştərək şirkətlər arasında yaranmış borc problemi sonuncuların fəaliyyətinin uğurlu təşkilinə ciddi əngəllər törədirdi. Çünki müqaviləyə görə, bütün müştərək müəssisələr aylıq plan üzrə hasil olunan nefti Azərbaycanın daxili bazarındakı qiymətlərlə SOCAR-a satmalı idi. Plandan artıq çıxarılan nefti isə üçüncü tərəfə daha sərfəli qiymətə satmaq olardı. Lakin SOCAR aldığı neftin əvəzini ödəmədiyinə görə borc ildən-ilə artırdı. Bu isə müəssisələrin fəaliyyətinə böyük problemlər yaradırdı.

Nəhayət, uzun müzakirələrdən sonra 1999-cu ilin əvvəllərində SOCAR ilə müştərək şirkətlər hasil olunmuş neftin satışı üzrə tərəfləri qane edən qərar qəbul etdi. Bu müəssisələr hasil olunan bütün xammalı sərbəst satmaq hüququ aldı. Yaranmış borcların isə müştərək müəssisələrin elektrik enerjisi və yanacaq xərclərinin, habelə vergilərin dövlət büdcəsinə tədricən SOCAR tərəfindən ödənilməsi yolu ilə silinməsi barədə razılıq əldə edildi [450].

Qəbul olunmuş qərarlar vəziyyətdən səmərəli çıxış yolu sayılmırdı. Artıq həmin dövrdə müştərək müəssisələrin hüquqi-kommersiya rejiminin dəyişdirilməsi və tərəfdaşlıq münasibətlərinin hasilatın pay bölgüsü sazişi əsasında qurulması barədə qəti

mövqe formalaşmışdı. "Kəlaməddin" və "Mişovdağ" neft yataqları üzrə saziş qurudakı yataqlarda fəaliyyət göstərən müştərək müəssisənin yeni kommersiya-hüquq rejiminə keçirilməsi sahəsində atılan ilk addım idi [267].

Beləliklə, aparılan danışıqların nəticəsi olaraq, 2000-ci il sentyabrın 12-də Vaşinqtonda SOCAR "Monkrif oyl" (ABŞ) və "Petoyl" (Türkiyə) şirkətləri ilə "Kəlaməddin"-"Mişovdağ" yataqlarının istismarı üzrə HPBHS imzaladı. İmzalanma mərasimində Prezident Heydər Əliyevlə yanaşı, senator K.B.Hadçison və hökumət nümayəndələri iştirak edirdilər [229].

Sazişə görə, iştirak payı aşağıdakı kimi bölüşdürüldü: SOCAR – 15%, "Monkrif oyl"–49,7%, "Petoyl"–35,3%. ABŞ-ın "Monkrif oyl" şirkəti layihədə "Qarasu Development Kompani" şirkəti vasitəsilə təmsil olunacaqdı [449].

İlk mərhələdə layihəyə 60-80 milyon dollar vəsaitin yönəldilməsi ehtimal olunurdu. Yeni quyuların qazılması və s. işlərin yerinə yetirilməsi zərurəti yaranacağı təqdirdə, xərclərin 200-300 milyon dollara çatacağı proqnozlaşdırılırdı.

Gündəlik neft hasilatı 400 ton təşkil edən "Kəlaməddin"-"Mişovdağ" yatağının neft ehtiyatları 20-30 milyon ton həcmində qiymətləndirilirdi [449]. 25 il müddətinə imzalanmış layihədə Azərbaycanın mənfəəti artaraq 91,5%-ə çatmışdı. Müştərək müəssisədə işləyən 882 nəfərlik heyət saziş qüvvəyə minəndən sonra yeni yaradılmış əməliyyat şirkətində işlə təmin edilirdi. Sazişdə investisiya qoyuluşunu və istehsalın genişləndirilməsini stimullaşdıran mexanizm müəyyənləşdirilmişdi. Belə ki, müştərək müəssisədən fərqli olaraq, əməliyyat şirkəti iki ildən gec olmayaraq hasilatı 50% artırmaq və hasilatın səviyyəsi iki dəfə yüksələnədək SOCAR-ın iştirak payını maliyyələşdirmək öhdəliyi götürmüşdü [267].

Şərtə görə, əməliyyat şirkəti hasil etdiyi nefti yerli qiymətə uyğun surətdə SOCAR-a təhvil verməli idi. Onlar apardığı yeni qazma işləri nəticəsində hasil olunan nefti isə sərbəst şəkildə ixrac etmək hüququ alırdı. Saziş Milli Məclisdə müza-

kirə olunduqdan sonra 25 oktyabr 2000-ci il tarixində təsdiq edildi [267].

Qeyd etmək lazımdır ki, həmin dövrdə dünya bazarında neftin qiymətində ciddi artımın baş verməsi nisbətən kiçik neft layihələrinə də investorların diqqətini cəlb edirdi. 2000-ci ilin sentyabr ayında London və Nyu-York birjalarında xam neftin hər bareli 1998-ci ildəki 10 dollardan 37 dollara çatmışdı. Bu, son on il ərzində ən yüksək qiymət idi. ABŞ-ın işə qarışması ilə OPEC-in neft hasilatını və ixracını bir qədər artırması qiymətin 4 dollar azalaraq 33 dollara düşməsinə gətirib çıxardı [18].

Neftin belə bahalaşması ABŞ və Avropa ölkələrinin iqtisadiyyatına ciddi problemlər yaradırdı. Həmin ölkələr ağır iqtisadi böhranın astanasında idi. Bu ölkələrdən fərqli olaraq, neft qiymətlərinin sıçrayışı Azərbaycan üçün əlavə gəlir imkanları açmışdı. 1999-cu ilin dekabrından başlayaraq "Əsrin müqaviləsi"ndən mənfəət nefti alan Azərbaycan onun satışından qazandığı valyutanı Dövlət Neft Fondunda toplayırdı. Artıq 2000-ci ilin sentyabr ayında bu fondda yığılan maliyyə vəsaitinin həcmi 205 milyon ABŞ dollarından çox idi [18].

2009-cu ildə Azərbaycanda fəaliyyət göstərən daha iki müştərək müəssisə- "Anşad Petrol" və "Şirvanoyl" ləğv edilərək yeni əməliyyat şirkətləri yaradıldı. Həmin müştərək müəssisələrin işlədiyi yataqların yeni kommersiya-hüquqi prinsiplər əsasında istismarı ilə bağlı aparılan danışıqlara yekun vurulduqdan sonra 2009-cu ilin fevral ayında *"Azərbaycan Respublikasında Kürovdağ yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında SOCAR, Qlobal Enerji Azərbaycan Limited və SOCAR-ın Ortaq Neft Şirkəti arasında saziş"* və *"Azərbaycan Respublikasında Neftçala, Xıllı, Durovdağ – Babazanan neft yataqlarının və Muğan monoklinalın cənub-qərb qanadının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında SOCAR, Neftçala İnvestments Limited və SOCAR-ın Ortaq Neft Şirkəti arasında saziş"* imzalandı [301]. Hər iki saziş parlamentdə müzakirə edildikdən sonra

mayın 22-də təsdiq olundu [83].

Milli Məclis 6 may 2011-ci il tarixində quru yataqlarına dair daha bir müqaviləni – "*Azərbaycan Respublikasında Balaxanı–Sabunçu–Ramana və Kürdəxanı neft yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında SOCAR, UQE-LANSER PTİ LTD və SOCAR-ın Ortaq Neft Şirkəti arasında sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə*" qanun layihəsini müzakirə olunduqdan sonra təsdiq etdi [300]. Bununla da "Azgeroyl" müştərək müəssisəsinin fəaliyyət göstərdiyi Ramana neft yatağı yeni yaradılmış əməliyyat şirkətinin ixtiyarına keçdi.

Eyni gündə parlamentdə başqa layihə – "Şəfəq-Asiman" qaz yatağında əməkdaşlığa dair saziş təsdiq olundu [300].

SOCAR və "BP"-nin 2010-cu il 7 oktyabr tarixində imzaladığı yuxarıdakı müqavilə axır illərdə Azərbaycanda "Abşeron" sazişindən sonra ən iri layihə sayılırdı. Onun təkində 500 mlrd kubmetr qaz, 65 mln ton kondensat olması ehtimal edilirdi. Bu layihədə də SOCAR payın 50 faizini öz əlində saxlamışdı. Bir o qədər pay da "BP"-yə məxsus idi [487].

İmzalanmış saziş əcnəbi investorların dəniz yataqlarına diqqətinin azalmadığını təsdiq etməklə bərabər, "BP"-nin SOCAR-la tərəfdaşlığını davam etdirmək məqsədini açıq göstərirdi.

Göründüyü kimi, dəniz yataqlarında Qərbin fövqəlmilli kompaniyaları hakim mövqe tuturdular. Quru yataqlarına isə Qərb şirkətləri ilə yanaşı bir sıra Şərq ölkələrinin, o cümlədən Çinin neft kompaniyaları da diqqət yetirirdi. Xüsusilə bu ölkənin ikinci böyük neft şirkəti olan "Şenqli oyl" "Pirsaat" yatağında və Birləşmiş Ərəb Əmirliyinin "Midl ist" kompaniyası ilə birlikdə yaratdığı "Noble Skai Ltd"nin tərkibində "Qaraçuxur" yatağında iştirak payının çox hissəsinə sahib olmaqla SOCAR-la tərəfdaşlıq edirdi [92; 368].

SOCAR-ın imzaladığı beynəlxalq sazişlərə görə, Azərbaycanın neft-qaz sənayesinə qoyulacaq sərmayənin həcmi də

ölkə iqtisadiyyatının inkişafına təsiri baxımından diqqəti cəlb edirdi. Hesablamalara əsasən, bütün müqavilələrin uğurla həyata keçiriləcəyi təqdirdə, ölkənin neft-qaz sənayesinə 60 milyard ABŞ dolları həcmində xarici sərmayənin yatırılacağı proqnozlaşdırılırdı [340, s.165]. Bu isə Azərbaycana müasir texnologiyaların gətirilməsinə, iqtisadiyyatın qabaqcıl sahəsi olan neft-qaz sənayesinin və bütün infrastrukturun yenidən qurulmasına geniş perspektivlər açırdı.

Beləliklə, SOCAR-ın əcnəbi neft kompaniyaları ilə bağladığı sazişləri təhlil edərkən Azərbaycan Respublikasının həyata keçirdiyi neft strategiyasının bəzi mühüm xüsusiyyətlərini görmək olar [257; 440].

İlk növbədə qeyd edilməlidir ki, ötən illərdə davamlı olaraq imzalanmış sazişlərin coğrafiyası getdikcə genişlənərək, qərbdə Kanada və ABŞ-dan başlamış şərqdə Çin, Yaponiya və Malayziyayadək, şimalda Böyük Britaniya və Norveçdən tutmuş cənubda Türkiyə, İran və Səudiyyə Ərəbistanı Krallığınadək ayrı-ayrı nüfuzlu dövlətləri və müxtəlif geosiyasi güc mərkəzlərini əhatə etmişdir. Buna görə də ekspertlərin fikrincə, Azərbaycanın həmin ölkələrlə əməkdaşlıq təşəbbüsü, *"enerji təhlükəsizliyi sahəsində yaratdığı möhkəm tərəfdaşlıq münasibətləri həm də bölgənin geosiyasi və geoiqtisadi vəziyyətini kökündən dəyişdi"* [191, s.98].

Bundan başqa, layihələrdə dünyanın bir çox ölkəsindən həm kiçik və orta, həm də nəhəng – transmilli kompaniyaların fəal iştirakı Azərbaycanda irihəcmli kapital qoyuluşuna və ən yeni texnologiyaların tətbiqinə daha əlverişli zəmin yaradırdı.

Eyni zamanda, ilk dövrdə bağlanmış sazişlərdə əlində nisbətən kiçik pay saxlayan Azərbaycan strateji xarakterli vəzifələri həll etmək niyyəti güdürdü. Belə ki, dünyada öz potensialına görə seçilən tanınmış kompaniyalarla bərabər, həm də nüfuzlu dövlətləri Xəzərdəki karbohidrogen resurslarının işlənməsinə yönəldərək, qarşıya qoyquğu vacib geosiyasi məqsədlərini gerçəkləşdirirdi. Azərbaycan neftinə beynəlxalq marağı

artıran hökumət layihələrdə özünə məxsus pay paketini qısa zaman ərzində getdikcə 50%-dək qaldırdı. Təqdirəlayiqdir ki, investorlarla danışıqlarda və beynəlxalq sazişlərin hazırlanması sahəsində toplanmış böyük təcrübə, habelə aydınlaşan perspektivlər artıq 1990-cı illərin ortalarından sonra SOCAR-a danışıqlarda öz şərtlərini diqtə etmək imkanı verirdi.

Müqavilələrdə ABŞ şirkətləri və "BP" böyük paya sahib olmaqla aparıcı yer tuturdular. Amma müəyyən dövrdən sonra neft layihələrinə marağı artan fransız və yapon firmaları da bəzi sazişlərdə əsas tərəfdaş oldular. Hətta 1998-ci ilin dekabrında imzalanmış müqavilədə iştirak payı yalnız SOCAR və Yaponiya şirkətləri arasında bölüşdürüldü. Eyni zamanda, "BP" və qərbin digər tanınmış kompaniyalarının Azərbaycanın neft layihələrində iri kapitalla ardıcıl iştirakı ölkədə sərmayə mühitinin onlar üçün əlverişli olmasının təzahürü idi.

Azərbaycanın neft layihələri Rusiyanın diqqət mərkəzində olsa da, "LUKoyl" "Əsrin müqaviləsi"ndə və 1995–1997-ci illərdə daha üç sazişdə pay aldıqdan sonra növbəti dörd il ərzində (2001-ci ilə qədər) hər hansı müqavilədə iştirak etmir. Belə düşünmək olardı ki, Rusiya hələlik Azərbaycanda iqtisadi mənafelərini reallaşdırıb. Amma bununla Kremlin geosiyasi məqsədlərinin təmin olunduğunu demək düzgün deyildi. Təsadüfi deyil ki, "LUKoyl" 2021-ci ildə həm "Şahdəniz" konsorsiumunda payını 10%-dən 19,99%-dək artıraraq, həm də "BP"-nin "Dayazsulu Abşeron" layihəsindəki payının 25%-ni alaraq Azərbaycanın neft-qaz yataqlarının işlənilməsində iştirakını genişləndirdi [141; 247].

Neft siyasətinin mühüm yekunlarından biri də ondan ibarət idi ki, həm fövqəlmilli kompaniyaları, həm də Rusiya və İran kimi region dövlətləri ilə yanaşı, dünyada mühüm rol oynayan ölkələri Xəzər dənizinin karbohidrogen resurslarının birgə işlənməsi sahəsində əməkdaşlığa yönəldən Azərbaycan bu nəhəng su hövzəsinin hüquqi statusu ilə bağlı uzun illər ərzində ciddi mübahisə və müzakirələrə səbəb olmuş problemin əslində

de-fakto həllinə nail oldu. Bəhs olunan dövrdə Azərbaycan tərəfindən ardıcıl və qətiyyətlə həyata keçirilən neft strategiyası zəngin yanacaq-enerji resurslarına malik Xəzər dənizində neft-qaz yataqlarının istismarına süni əngəl yaradan hüquqi rejimlə bağlı məsələni qapalı dairədən çıxardı. Bu səylər sayəsində Xəzər hövzəsi dövlətləri dəniz dibinin milli sektorlara bölünməsi prinsipini tədricən qəbul etdilər (əvvəlcə Azərbaycan, Rusiya və Qazaxıstan öz aralarında razılığa gələrək müqavilə bağladılar, 15 il sonra isə – 2018-ci ildə Xəzəryanı dövlətlər arasında "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiya imzalandı. Türkmənistan və İran ilə sektor bölgüsünün koordinatlarına dair danışıqlar hələ davam etdirilir).

Araşdırmalardan aydın olur ki, işlənməsinə böyük kapital yatırılması zəruri olan iri dəniz strukturlarını əhatə edən sazişlər əsasən keçən yüzilin 90-cı illərində bağlanıb. Belə qənaətə gəlmək olar ki, o dövrdə təbii ehtiyatların sahibi Azərbaycan da daxil olmaqla bütün tərəflərin geosiyasi və iqtisadi maraqlarının dairəsi, habelə onların ortaq məxrəci müəyyən edilib. Növbəti onilliyin əvvəllərindən az sərmayə qoyuluşu tələb olunan və daha kiçik resurslara malik köhnə quru yataqlarının işlənməsinə dair layihələr reallaşdırılıb. Nəhayət, 2009-cu ildən başlayaraq əcnəbi investorlar məhsuldar sayılan iri dəniz bloklarına yenidən xüsusi diqqət yetirirlər. Həmin il "Abşeron" yatağı üzrə yeni müqavilə imzalanır. Bundan sonra da xarici şirkətlərin Azərbaycanın enerji ehtiyatlarına diqqəti azalmır. Bunun təzahürü kimi, 2010–2014-cü illərdə iki və 2018-ci ildə daha üç sazişin imzalanmasını göstərmək olar. Bu mərhələdə də "BP" tərəfdaşlar arasında fəallığı ilə seçilirdi. Bütün müqavilələr üzrə yatırılması nəzərdə tutulan sərmayənin həcmi neft-qaz sənayesinin ölkə iqtisadiyyatında lokomotiv rolunu stimullaşdıracağına əminlik yaradırdı. Bu isə ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi.

Məsələnin öyrənilməsi həm də onu göstərir ki, neft və qaz layihələrinin *"iqtisadi əhəmiyyəti onların siyasi rolunu şərt-*

*ləndirirdi. Təsadüfi deyil ki, sazişlərin imzalanma mərasimində, bir qayda olaraq, ölkə prezidentləri və ya hökumət nümayəndələri iştirak edirdilər, ya da ki, dövlət və hökumət başçıları təbrik məktubları göndərirdilər"* [257, s.14]. Bəzi sazişlərin bilavasitə dövlət rəhbərlərinin ofis və iqamətgahlarında (məsələn, Vaşinqtonda Ağ ev, Parisdə Yelisey sarayı, Moskvada Kreml) təntənəli şəkildə imzalanması, şübhəsiz, sənədlərin daşıdığı siyasi yükün təzahürü kimi qiymətləndirilə bilər. Sadalanan faktlar isə bütövlükdə həm də Azərbaycanın beynəlxalq mövqelərinin güclənməsinə xidmət edirdi.

Ümumiyyətlə, aparılmış tədqiqatdan belə nəticəyə gəlmək olar ki, 1990-cı illərin əvvəllərində xarici kapitalın Azərbaycanın neft-qaz sənayesinə cəlb olunmasını şərtləndirən sosial-iqtisadi və hərbi-siyasi amillər adekvat qiymətləndirilmiş, Qərbin nüfuzlu şirkətləri ilə danışıqlara başlanmış və xüsusilə Heydər Əliyevin Prezident kimi yeritdiyi məqsədyönlü siyasət sayəsində ölkənin maraqlarına cavab verən "Əsrin müqaviləsi" imzalanmışdır. Bununla da həm neft-qaz sənayesinə irihəcmli xarici sərmayənin qoyuluşuna yol açıldı, yeni sazişlər bağlandı, həm də ölkənin milli mənafelərini əks etdirən və hərtərəfli inkişaf perspektivlərinə güclü təsir göstərən neft strategiyası formalaşdı.

# II FƏSİL
# İLK NEFT MÜQAVİLƏSİNİN YERİNƏ YETİRİLMƏSİ. AZƏRBAYCAN NEFTİNİN DÜNYA BAZARLARINA ÇIXARILMASI

## 2.1. "Əsrin müqaviləsi" və neft sənayesinin dirçəliş yoluna qədəm qoyması

Müqavilə qanuni qüvvəyə mindikdən dərhal sonra onun yerinə yetirilməsi sahəsində intensiv işlər başlandı. Layihənin icra olunmasına başçılıq etmək məqsədilə yaradılmış Rəhbər Komitə 1995-ci il yanvarın 24-də ilk iclasını keçirdi. Həmin iclasda cari il üçün iş proqramı və 105 milyon dollar həcmində büdcə təsdiq edildi [181, c.4, s.104].

Sazişin şərtlərinin icrasına dair işlər bir neçə mərhələdə aparılmalı idi. İlk mərhələdə məcburi işlərin minimum proqramında əksini tapmış tədbirlərin gerçəkləşdirilməsi planlaşdırılırdı. Ümumilikdə məcburi işlərin minimum proqramının yerinə yetirilməsinə sazişin qüvvəyə mindiyi gündən etibarən 30 ay vaxt ayrılırdı [181, c.4, s.118-119].

Həmin proqrama uyğun olaraq, 1995-ci ildə müqavilə ərazisində üçölçülü seysmik kəşfiyyatın və geotexniki tədqiqatların aparılması, kəşfiyyat quyularının qazılması, ekoloji vəziyyətin öyrənilməsi və "Çıraq-1" platformasının ilkin neft hasilatında istifadəyə yararlığı baxımından qiymətləndirilməsi nəzərdə tutulurdu.

Müqavilənin həyata keçirilməsi üçün xarici neft şirkətlərinin və Azərbaycanın mütəxəssislərindən ibarət icraedici orqan – Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradılmışdı.

ABƏŞ proqrama əsasən müəyyənləşdirilmiş vəzifələri ardıcıl surətdə yerinə yetirirdi. Bu prosesə xarici mütəxəssislər geniş cəlb olunmuşdular. Seysmik kəşfiyyat işləri tenderdə qalib gəlmiş "Kaspian Geofizikal" Azərbaycan-Amerika müştərək

müəssisəsi tərəfindən görülürdü. Eyni zamanda, həmin işlərdə ABŞ və İngiltərədə təcrübə keçmiş Azərbaycan mütəxəssisləri fəal iştirak edirdilər.

Dəniz dibinin öyrənilməsi üçün aparılan geotexniki tədqiqatlarda SOCAR-ın müəssisələrinin və ölkəmizin digər təşkilatlarının potensialından istifadə olunurdu.

Ətraf mühitin öyrənilməsi nəticəsində müqavilə sahəsində ekoloji durumun təmiz olması müəyyənləşdirildi. Bu isə müqavilənin həyata keçiriləcəyi dövrdə ekoloji vəziyyətin qorunması baxımından mühüm əhəmiyyət kəsb edirdi.

Məcburi işlərin minimum proqramı çərçivəsində qarşıda duran əsas vəzifələrdən biri "Çıraq-1" platformasının qiymətləndirilməsi idi. SOCAR və ABƏŞ mütəxəssislərinin ətraflı tədqiqatlarının yekunu olaraq, "Çıraq-1" platformasının *"beynəlxalq standartlara uyğun təmir edilməsinin texniki cəhətdən mümkünlüyü haqqında rəy"* verildi. Rəhbər Komitə bu rəyi 1995-ci ilin iyun ayında müzakirə edərək təsdiqlədi [181, c.4, s.112].

İyunun 8-də konsorsiumun Rəhbər Komitə üzvlərinin Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşündə "Çıraq-1" platformasının istifadəyə yararlığı barədə məlumat verildi və bununla da ilkin neftin 1996-cı ildə çıxarılmasının mümkünlüyü qeyd olundu. Lakin bu məqsədə çatmaq üçün qarşıda duran əsas vəzifənin neftin ixrac marşrutunun müəyyənləşdirilməsi və məsələnin həlli sahəsində lazımi tədbirlərin görülməsindən ibarət olduğu bildirildi [46].

1995-ci ilin oktyabr ayında Rəhbər Komitənin ilkin neftin ixracı üçün Rusiya və Gürcüstan ərazilərindən istifadə olunması barədə qərar qəbul etməsi həm də ilkin neftin hasilatı layihəsinin həyata keçirilməsinə başlamağa imkan yaratdı [181, c.4, s.114-115].

Müqavilə üzrə nəzərdə tutulan məcburi işlərin yerinə yetirilməsi və ilkin neftin hasilatının təmin olunması üçün zəruri infrastrukturun qurulması, o cümlədən müasir dəniz qazma qur-

ğularının tikilməsi vacib idi. Bu məqsədlə ABƏŞ müəyyən etdiyi proqrama uyğun olaraq müvafiq tədbirlər görürdü.

Neft-qaz hasilatı sahəsində yeni infrastrukturun yaradılmasında Azərbaycan neft sənayesinin əvvəlki dövrdə malik olduğu maddi-texniki baza mühüm rol oynayırdı. Bu baxımdan 1981-ci ildə Xəzər dənizinin Azərbaycan sektorunda fəaliyyətə başlamış “Xəzərdənizneft” yarımdalma qazma qurğusunun ABƏŞ-ə icarəyə verilməsi mövcud texniki potensialın səmərəli istifadəsi kimi qiymətləndirilməlidir.

ABƏŞ həmin qurğunu müasir tələblərə uyğun əsaslı təmir edərək, modernləşdirmə işlərini başa çatdırdıqdan sonra 1996-cı il avqustun 24-də istifadəyə verdi. Müqavilənin yerinə yetirilməsi ilə bağlı bütün işləri daim nəzarətdə saxlayan Prezident Heydər Əliyev qazma qurğusunun istifadəyə verilməsi mərasimində iştirak etdi. Azərbaycan Prezidentinin təşəbbüsü ilə üzən qazma qurğuya yeni – “Dədə Qorqud” adı verildi [181, c.4, s.72-73].

ABŞ-ın “Santa-fe” şirkətinin Azərbaycan mütəxəssisləri ilə birgə apardığı yenidənqurma işlərindən sonra “Dədə Qorqud” qazma qurğusu texniki cəhətdən müasir dünya standartlarına uyğunlaşdırıldı. Əgər qurğu əvvəllər dənizin 200 metrədək dərinliyində 6 min metrlik quyu qazmaq imkanına malik idisə, modernləşmədən sonra bu göstəricilər müvafiq olaraq 475 metr və 7600 metrə qədər artmışdı [181, c.4, s.76-78].

“Xəzərdənizneft” üzən qazma qurğusunun 40 milyon dollar sərf olunmuş əsaslı təmiri və modernləşdirilməsində iştirak edən mütəxəssislərin böyük əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Bu işlərə cəlb olunmuş 356 nəfərin 50 nəfəri xarici vətəndaş, digərləri isə Azərbaycan mütəxəssisləri idilər. Onlar ABŞ, Böyük Britaniya və başqa ölkələrdə təlimlər keçərək qabaqcıl təcrübəyə yiyələnmiş, sonralar neft sənayesində yeni texnologiyaların tətbiqində yaxından iştirak etmişlər [181, c.4, s.78].

“Dədə Qorqud” qazma qurğusunun həm “Əsrin müqaviləsi”nin, həm də digər neft-qaz müqavilələrinin həyata keçiril-

məsində yaxından istifadə olunması nəzərdə tutulurdu. Lakin sonrakı dövrdə aydın oldu ki, yalnız bu qurğunun köməyi ilə Azərbaycanın xarici tərəfdaşlarla imzaladığı müqavilələr çərçivəsindəki qazma işlərini vaxtında yerinə yetirmək mümkün olmayacaq. Müxtəlif neft konsorsiumlarının qazma qurğusundan növbəlilik prinsipi əsasında ardıcıllıqla istifadə etmək barədə qərarı müqavilələrin icrasını ciddi nəzarətdə saxlayan Prezident Heydər Əliyevin kəskin etirazına səbəb oldu. Belə ki, 1997-ci il aprelin 5-də “Qarabağ” neft strukturu üzrə müqavilənin yerinə yetirilməsi gedişinə həsr olunmuş müşavirədə Heydər Əliyev qazma işlərinin sürətləndirilməsi və vaxtında aparılması üçün yeni qurğuların tikilməsinin zəruriliyini təkidlə qeyd etmişdir. O, SOCAR-ın prezidentinə ləngimələrlə bağlı öz iradlarını bildirərək, bu sahədə təcili tədbirlərin görülməsi üçün Baş nazirə konkret tapşırıqlar vermişdir [181, c.4, s.240-241].

Məhz həmin tapşırıqdan sonra xarici neft şirkətləri də müqavilələrin həyata keçirilməsinin sürətləndirilməsi məqsədilə maddi-texniki bazanın gücləndirilməsinə diqqəti artırdılar. “Şahdəniz” perspektiv strukturu üzrə konsorsium Xəzərdəki köhnəlmiş “Şelf-5” qazma qurğusunu təmir edərək modernləşdirdi. Smeta dəyəri 194 milyon dollar olan “İstiqlal” adlandırılmış üzən yarımdalma qazma qurğusunun istismara verilməsi mərasimi 1998-ci il sentyabrın 2-də keçirildi. SOCAR-ın gəmi təmiri zavodunda yenidən qurulmuş “İstiqlal” qazma qurğusu dənizin dərinliyi 700 metrə çatan sahələrdə 7620 metr dərinlikdə quyular qazmağa imkan verir [210].

Bunun ardınca Azərbaycanda fəaliyyət göstərən digər neft şirkətlərinin sifarişi ilə tikilmiş üçüncü qazma qurğusu istismara buraxıldı. 2000-ci il avqustun 29-da Prezident Heydər Əliyevin iştirakı ilə “Qurtuluş” qurğusunun açılış mərasimi keçirildi. Onun tikintisinə 175 milyon dollar vəsait qoyulmuşdu. İlk dəfə olaraq bütövlükdə Bakıda quraşdırılmış qazma qurğusu dənizin 105 metrədək dərinliyində işləyərək 7620 metrdən artıq dərinliyi olan quyular qaza bilir [244].

Neft şirkətlərinin arsenalında müasir standartlara uyğun üç qazma qurğusunun olmasına baxmayaraq, Xəzərin daha dərin hissələrində yerləşən perspektiv strukturlarda (“Alov”, “Şərq”, “Zəfər”, “Məşəl” və s.) kəşfiyyat-qazma işlərini aparmaq üçün onlardan da təkmil qazma qurğusu tələb olunurdu. Bu məqsədlə tikilmiş “Lider” üzən qazma qurğusu 2003-cü il iyulun 24-də istismara verildi [246]. Ümumi dəyəri 250 milyon dollar olan və ən müasir texnologiyalar əsasında qurulmuş “Lider” yarımdalma üzən qazma qurğusu əvvəlkilərdən daha böyük və texniki göstəricilərinə görə üstün idi. Xəzərin istənilən dərinliyində işləməyə qadir olan bu qurğu dənizin 75-1025 metr dərinliyinə malik hissələrində 9144 metrədək kəşfiyyat quyuları qazmağa hesablanmışdır.

“Lider” üzən qazma qurğusu istifadəyə verildikdən sonra da neft infrastrukturunun texniki təkmilləşdirilməsi sahəsində tədbirlər davam etdirilirdi. Azərbaycanın inkişaf edən potensialı daha yüksək texnoloji göstəricilərə malik qazma qurğularını inşa etməyə imkan verirdi. 2017-ci il mayın 18-də Bakıda “Heydər Əliyev” yarımdalma qazma qurğusu istismara buraxıldı. İndiyədək Xəzərdə tikilmiş ən böyük qazma qurğusu olan bu platforma Azərbaycanın öz maliyyə hesabına inşa olunmuşdur. Dövlət Neft Fondundan və SOCAR-dan bu məqsədlə bir milyard dollara yaxın vəsait yönəldilmişdir [209].

Ən müasir texniki avadanlıqlarla təchiz olunmuş qurğu dənizin 1000 metrə qədər dərinliyində 12,2 min metr dərinliyədək quyuların qazılmasını təmin edir.

Beləliklə, “Əsrin müqaviləsi” çərçivəsində görülən işlər neft-qaz sənayesində yeni və qabaqcıl standartlara uyğun infrastrukturun yaradılmasına təkan verdi. Ardıcıl olaraq beş üzən qazma qurğusu Azərbaycan mütəxəssislərinin yaxından iştirakı ilə dəniz neftçilərinin istifadəsinə verildi. Müasir texnologiyaların tətbiqi kəşfiyyat-qazma işlərinin sürətlə və səmərəli şəkildə aparılmasına şərait yaratdı.

“Əsrin müqaviləsi”nin dönmədən həyata keçirilməsi neft-

qaz sənayesinin mövcud potensialının dirçəldilməsinə, yenidən qurulmasına və daha da güclənməsinə yol açdı. Nəhəng layihənin ilk mərhələsi olan məcburi işlərin minimum proqramının reallaşması dövründə 10-dan artıq gəmi, o cümlədən "Azərbaycan" kran gəmisi, "İsrafil Hüseynov" boruduzən gəmisi, "Neft-qaz-62", "Neft-qaz-64", "Təbriz Xəlilbəyli", "Nərçə", "Aura" və s. təmir edilmişdir. Eyni zamanda, Zığ dəmir-beton boru örtüyü zavodu, xarici mütəxəssislər üçün yaşayış binaları, ABƏŞ-in ofisi və s. tikilmiş və ya yenidən qurulmuşdur [166, s.16].

Məcburi işlərin minimum proqramının uğurla icra edilməsi paralel olaraq ilkin neftin hasilatı layihəsinin həyata keçirilməsinə əlverişli şərait yaradırdı. Həmin layihə aşağıdakı işlərin görülməsini nəzərdə tuturdu: "Çıraq-1" platformasının yeni avadanlıqlarla təchiz edilərək, neft-qaz hasilatı üçün hazır vəziyyətə gətirilməsi; platformadan sahilə 185 km uzunluğunda neft və "Neft Daşları"nadək 50 km məsafədə qaz kəmərlərinin çəkilməsi; neftin texnoloji emalı və saxlanması üçün Səngəçal terminalının tikilməsi; xam neftin ixracı məqsədilə Rusiya və Gürcüstan ərazilərindən keçən iki ixrac neft kəmərinin çəkilməsi [181, c.4, s.115].

"Əsrin müqaviləsi"nə görə, ilkin neftin hasilatı sazişin qüvvəyə minməsindən keçən 18 ay ərzində, yəni 1996-cı ilin ikinci yarısınadək təmin olunmalı idi [169, s.78]. Qarşıda belə vəzifənin durduğunu konsorsiumun fəaliyyətinin başlanğıcında ABƏŞ-in prezidenti T.Adams da təsdiq edirdi [3; 187]. Lakin işlərin gedişində həmin tarix bir neçə dəfə dəyişdirilərək təxirə salındı. Bunun bir sıra səbəbləri var idi. Başlıca səbəb neftin ixrac marşrutunun seçilməsi və tranzit ölkələrlə razılığın əldə olunmasının ləngiməsi idi.

Bununla əlaqədar konsorsium üzvlərinin ilkin neft hasilatı layihəsinin icrası qrafikinə yanaşmaları da dəyişmişdi. Onlar işlərin sürətinin ixrac boru kəmərinin hazırlığı ilə bağlı olduğunu bəyan edirdilər. ABƏŞ-in prezidenti T.Adams 1996-cı ilin dekabrında bildirirdi ki, neftin nəqlinə dair Rusiya ilə hökumət-

lərarası sənədlərin 1995-ci il iyulun 1-dək imzalanacağı güman olunurdu. İlkin neft layihəsi isə həmin tarixdən etibarən 18 ay ərzində yerinə yetirilməli idi [411].

Göründüyü kimi, T.Adamsın yuxarıdakı fikri ilə məsələyə 1994–1995-ci illərdəki yanaşması arasında ciddi fərq var. Bunu layihənin gerçəkləşməsi prosesində meydana çıxan müxtəlif siyasi, təşkilati və texniki problemlərlə izah etmək olar.

Həmin dövrdə T.Adams etiraf edirdi ki, ABƏŞ-in ixrac marşrutları barədə qərar qəbul etdiyi 1995-ci ilin oktyabrından Rusiya ilə hökumətlərarası sazişin imzalandığı 1996-cı ilin fevralınadək ilkin neft layihəsi ilə bağlı bütün işlər dayandırılmışdı [411].

Belə ki, ixrac marşrutunun qeyri-müəyyənliyi layihənin dolğun şəkildə işlənməsinə mane olurdu. Buna görə də hökumətlərarası sazişlərin imzalanmasına qədər ilkin neftin hasilatı layihəsi sənəd kimi mövcud deyildi.

Rusiya ilə aparılan danışıqlar 1996-cı ilin əvvəllərində, nəhayət, Azərbaycan neftinin bu ölkə ərazisi ilə ixrac olunması barədə yekun qərarın qəbul olunması ilə nəticələndi. 1996-cı il fevralın 16-da Bakıda Azərbaycanda çıxarılacaq neftin Rusiya ərazisindən keçən şimal marşrutu ilə nəqlinə dair sənədlər imzalandı [169, s.94-97].

Bununla da ilkin neftin hasilatı layihəsinin və bütövlükdə "Əsrin müqaviləsi"nin həyata keçirilməsində mühüm dövr başlandı. Belə ki, "Çıraq-1" platformasında hasil ediləcək ilkin neft layihəsi üzrə işlər daha konkret plan əsasında sürətləndi. Neftin ixracı haqqında müvafiq sənədlər imzalandıqdan sonra konsorsium ilkin neftin hasilatı layihəsini tam təsdiq edərək, onu icraya yönəltdi.

İlkin neftin hasilatı üçün nəzərdə tutulan 18 aylıq qrafiki ABƏŞ-in məhz ixraca dair yekun sənədlərin imzalanması günündən hesablamasını 1997-ci ilin fevralında Prezident Heydər Əliyevin yanında keçirilmiş toplantıda konsorsiumun vitse-prezidenti V.Voltsun dediyi sözlər bir daha təsdiq edir. Layihə

üzrə neftin 1997-ci il avqustun 28-də hasil olunacağını bildirən konsorsiumun nümayəndəsi öz çıxışında göstərdi: *“Biz ilkin neft hasilatı layihəsinin tam təsdiqini yalnız ötən il fevralın 19-da almışıq, buna görə də 18 ay ərzində elə bir səviyyəyə nail olmağa çalışırıq ki, bu işlər dünyanın ənənəvi neftli hövzələrində adətən üç ildə yerinə yetirilir”* [181, c.4, s.177].

Beləliklə, ilkin neftin hasilatı qrafikində gecikmənin əsas səbəbi aydın olur. Buna baxmayaraq, məcburi işlərin minimum proqramı nəzərdə tutulan rejimdə yerinə yetirilirdi. Yuxarıda qeyd olunan toplantıda ABƏŞ nümayəndələri həmin proqram çərçivəsindəki öhdəliklərin böyük əksəriyyətinin icra olunduğunu bildirərək, qalan işlərin müəyyən edilmiş vaxtda, yəni 1997-ci ilin iyun ayında başa çatdırılacağını bir daha əminliklə vurğuladılar [181, c.4, s.173].

Eyni zamanda, həmin toplantıda ilkin neft layihəsi üzrə qazılan sınaq quyularının yüksək göstəriciləri barədə məlumat verildi. ABƏŞ rəhbərləri qazılmış iki sınaq quyusunun nəticələrinə görə, yataqda əvvəllər nəzərdə tutulduğundan çox ehtiyatların olduğunu təsdiqlədilər [181, c.4, s.173].

Bir qədər sonra konsorsium üzvləri bildirdilər ki, aparılmış kəşfiyyat işləri müqavilə sahəsində neft ehtiyatlarının 511 milyon ton yox, ən azı 640 milyon ton olmasını sübut edib [171].

ABƏŞ “Əsrin müqaviləsi”nin ilkin mərhələsində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi sahəsində tədbirləri davam etdirirdi. İlkin neftin hasilatı layihəsi üzrə planlaşdırılmış işlər əsasən 1997-ci ilin sentyabrında başa çatdırılmışdı. Səngəçal terminalı xam nefti qəbul etməyə hazır idi [184].

Şimal ixrac boru kəmərinin Azərbaycan hissəsi istifadəyə verilsə də, kəmərə doldurulmuş neft (hələlik Dövlət Neft Şirkətinin hasil etdiyi) 1997-ci ilin fevral ayında Rusiya sərhədinə çataraq dayanmışdı. Yalnız boru kəmərinin Rusiya hissəsindəki işlər yekunlaşandan sonra 1997-ci il oktyabrın 25-də Azərbaycan nefti iki ölkə sərhədini aşaraq Novorossiysk limanı-

na doğru irəlilədi [181, c.5, s.258]. Gürcüstan ərazisi ilə boru kəmərinin tikintisi hələ davam edirdi.

Həm Şimal ixrac marşrutunun istifadəyə verilməsinin ləngiməsi, həm də Xəzər dənizində hava şəraitinin kəskin əlverişsiz keçməsi ilkin neftin hasilatı ilə bağlı işləri yenə iki aydan artıq müddətə təxirə saldı.

Meydana çıxan çətinliklər və görülən işlərin yekunları barədə 1997-ci il sentyabrın 4-də Prezident Heydər Əliyevə məlumat verən T.Adams "Çıraq-1" platformasında ilk istismar quyusunun qazılmasını həmin ayın sonuna qədər başa çatdıracaqlarını bildirdi. O, buna əminliyini ifadə edərək, konsorsium tərəfindən ilkin neftin hasilatı gününü Heydər Əliyevin seçməsini xahiş etdi.

Azərbaycanda neftin dənizdən çıxarılmasının 50 illik yubileyinə hazırlığı nəzərə alan Heydər Əliyev 1949-cu il noyabrın 7-də Neft Daşlarında ilk neftin çıxarılması münasibətilə konsorsiumun "Çıraq-1"-də istismara başlamasını simvolik olaraq həmin günə təyin etdi [184].

Bununla da son qərar qəbul olundu və bütün səylər işlərin uğurla yekunlaşmasına yönəldi. Nəhayət, çətinliklər dəf olunaraq, 7 noyabr 1997-ci il tarixində "Çıraq-1" dəniz platformasında çoxdan gözlənilən ilkin neftin çıxarılması və sahilə çəkilmiş sualtı boru kəmərinə ötürülməsi kimi vacib vəzifə yerinə yetirildi [181, c.5, s.311].

Beləliklə, Azərbaycanın xarici neft şirkətləri ilə əməkdaşlığının ilk mərhələsi uğurla başa çatdı. Çoxsaylı siyasi, iqtisadi və texniki problemləri ardıcıllıqla aradan qaldıran Azərbaycan hökuməti xarici tərəfdaşları ilə birlikdə müasir dövrün ən nəhəng neft layihələrindən birinin gerçəkləşməsinə nail oldu.

Bundan bir neçə gün sonra Azərbaycan Respublikasının Konstitusiya günündə (12 noyabr 1997-ci il) "Əsrin müqaviləsi" çərçivəsində ilkin neftin hasilatına həsr olunmuş təntənəli tədbir təşkil edildi [181, c.5, s.245-246]. Mərasimdə Prezident Heydər Əliyevlə yanaşı, Gürcüstan və Türkiyənin dövlət və hökumət

başçıları, ABŞ, Rusiya, Böyük Britaniya, Norveç, Ukrayna və başqa ölkələrin yüksək səviyyəli nümayəndələri iştirak edirdilər.

Müxtəlif dövlətlərin, habelə Avropa Komissiyası və Avropa Birliyi nümayəndələrinin bu mərasimdə iştirakı "Əsrin müqaviləsi"nin həyata keçirilməsinin beynəlxalq aləmdə mühüm iqtisadi və siyasi əhəmiyyət daşıdığını təsdiq edirdi. Həmin gün 100 min tonluq neft çənləri, avtomatlaşdırılmış idarəetmə sistemi və s. ibarət Səngəçal terminalının da açılışı transmilli şirkətlərlə uğurlu əməkdaşlığın təzahürü kimi qiymətləndirilməlidir [181, c.5, s.326-327].

"Əsrin müqaviləsi"nin həyata keçirildiyi 3 il müddətində Azərbaycana qoyulmuş xarici sərmayənin həcmi artmış, ölkədə fəaliyyətə başlamış əcnəbi şirkətlərin sırası genişlənmişdi. Bu isə Azərbaycanın iqtisadiyyatına müsbət təsir göstərmiş, yerli müəssisələrin fəaliyyətini canlandırmışdı. ABƏŞ-in verdiyi məlumata görə, üç il ərzində konsorsium Azərbaycanda 1 milyard dollar sərmayə yatırmışdı [181, c.5, s.312].

Həmin dövrdə "Əsrin müqaviləsi"nin həyata keçirilməsi prosesinə dünyanın müxtəlif ölkələrindən 400-dən artıq şirkət qoşulmuşdur. Neft müqaviləsi ilə bağlı sifarişlərin yerinə yetirilməsində Azərbaycanın 72 müəssisəsi də iştirak etmişdir. Onlar ümumilikdə 163 milyon dollar həcmində qiymətləndirilən iş görmüşdülər [181, c.5, s. 259].

Konsorsiuma məxsus ilk neft Şimal boru kəməri ilə ixrac edilməli idi. "Çıraq" platformasından hasil olunan ilkin neft 1998-ci il fevralın 28-də Azərbaycan – Rusiya sərhədini keçərək Novorossiysk limanına çatmış, martın sonlarında isə tankerə yüklənərək dünya bazarına çıxarılmışdır [208].

"Çıraq-1" platformasından neft hasilatı başlanmasına baxmayaraq, ilkin neft layihəsi çərçivəsində nəzərdə tutulan bütün vəzifələr hələ tam yerinə yetirilməmişdi. Yalnız 1999-cu ilin aprelində Qərb ixrac boru kəmərinin və Gürcüstanın Qara dəniz sahilindəki Supsa terminalının istifadəyə verilməsilə ilkin neft hasilatı layihəsi başa çatdırıldı [338].

Beləliklə, "Əsrin müqaviləsi"nin ilkin mərhələsi bütün çətinlikləri dəf edərək uğurla sona yetdi. İndi qarşıda layihənin tammiqyaslı işlənməsi ilə bağlı geniş vəzifələr dururdu. Lakin 1998-ci ildə dünya bazarında neftin qiymətinin aşağı düşməsi konsorsiumun planlarına ciddi təsir göstərərək, yataqların tammiqyaslı işlənməsi ilə bağlı qərarın təxirə salınmasına səbəb oldu [413].

Neftin qiymətinin azalması meyilləri növbəti ildə də davam edirdi. 1999-cu ilin fevral ayında dünya bazarında bir barel neftin qiyməti son 25 il ərzində ən aşağı həddə – 10 dollara düşmüşdü [152]. Bu isə şirkətləri irihəcmli sərmayə qoyuluşundan çəkindirirdi.

Qiymət böhranı Əsas ixrac boru kəməri (ƏİBK) ilə bağlı qərar qəbulunun ləngiməsinə də rəvac verirdi. İxrac imkanlarının məhdudluğu isə neft hasilatının ciddi artırılmasını nəzərdə tutan yataqların tammiqyaslı işlənməsi layihəsinin icrasına başlamağa mane olurdu. Dünya bazarında qiymətin hələ uzun müddət aşağı səviyyədə qalacağı proqnozlaşdırılsa da, 1999-cu ilin mart-aprel aylarından etibarən neftin fyuçers müqavilələrinin qiymətlərində artım meyilləri müşahidə olunmağa başladı. Bir barel neftin qiymətinin böhrandan əvvəlki 17,18 dollar həddinə çatmadığına baxmayaraq, həmin meyillərin davam etməsi nəticəsində aprel ayında Brent markalı neftin qiyməti 14,68 dollara yüksəlmişdi [207]. Artım dinamikası sonrakı dövrdə davam etmiş və ilin sonunda bir barel neftin qiyməti 25 dollara qədər qalxmışdı [407].

Qiymətlərin yüksəlmə meyilləri neft şirkətlərinin fəaliyyətində müəyyən canlanma yaradırdı. Artıq 1999-cu ilin mart ayında ABƏŞ prezidenti D.Vudvord "AÇG" yatağının tammiqyaslı işlənməsi üzrə "Faza-1" layihəsinin konsepsiyasının hazırlandığı barədə məlumat vermişdi.

Konsorsium "Faza-1" layihəsinin həyata keçirilməsi ilə 2003–2004-cü illərdə gündəlik hasilatın 250-300 min barelə çatdırılmasını planlaşdırırdı. Bununla belə, konsorsiumun prezidenti "Faza-1" çərçivəsində hasil ediləcək neftin nəqli üçün Əsas ixrac boru kəmərinin tikilməsinə zərurətin olmadığını bildirirdi.

Onun fikrincə, hələlik mövcud olan Şimal və Qərb boru kəmərlərinin ötürmə imkanlarını artırmaqla həmin dövrdə hasil olunan neftin dünya bazarlarına daşınmasını təmin etmək mümkün olardı. Sonrakı mərhələlərdə neft hasilatının daha da artacağı təqdirdə, ƏİBK-nın tikintisi tələb olunacaqdı [390].

Bu mərhələdə hasilatın artırılması əsasən "Azəri" yatağında qazılan quyular hesabına əldə olunmalı idi. Burada istifadəyə veriləcək 48 quyunun istismarı sayəsində illik hasilatı 12-15 milyon ton artırmaqla "Çıraq" yatağından çıxarılan neftlə birlikdə ümumi hasilatı ildə 17-20 milyon tona çatdırmaq planlaşdırılırdı. "Azəri" platformasından Səngəçal terminalına yeni sualtı boru kəmərinin çəkilməsi və Səngəçal terminalının genişləndirilməsi də nəzərdə tutulurdu. Diqqəti çəkən məqamlardan biri də "Faza-1"-in icrası nəticəsində layihənin iqtisadi səmərəliliyinin artmasının gözlənilməsi ilə bağlı idi. Belə ki, görüləcək bütün tədbirlərin yekunu kimi, "Azəri" yatağından hasilatın maya dəyəri bir barelə görə 2 dollar həddində olacaqdı [488].

"Faza-1" layihəsi üzrə neft hasilatına 2002-ci ilin sonuna qədər başlanılması gözlənilirdi. Bununla belə, ilkin neftin çıxarılması ilə əlaqədar olaraq Azərbaycanda neft hasilatı ildənilə artırdı. Lakin qaz hasilatında gerilik davam edirdi. Rəsmi statistikaya əsasən hazırlanmış aşağıdakı cədvəldən hasilatın dinamikasını müşahidə etmək olar [103, s.358; 106, s.477-478]:

**Cədvəl 2.1.1**

**Neft-qaz hasilatı (1995 – 2000)**

| **İllər** | **Neft, mln ton** | **Qaz, mlrd $m^3$** |
|---|---|---|
| 1995 | 9,2 | 6,6 |
| 1996 | 9,1 | 6,3 |
| 1997 | 9,1 | 6,0 |
| 1998 | 11,4 | 6,0 |
| 1999 | 13,8 | 6,0 |
| 2000 | 14,0 | 5,6 |

Göründüyü kimi, neft hasilatında 1998-ci il dönüş ili olmuş və sonrakı illərdə bu yüksəliş davam etmişdir. Artım ABƏŞ-in hasilatı hesabına baş vermişdir. İlkin neftin çıxarıldığı 1997-ci ilin noyabrından 1998-ci ilin sonuna qədər “Çıraq” yatağından 2,4 milyon ton, 1999-cu ildə isə 5 milyon tondan artıq neft hasil olunmuşdu [390; 487].

Qaz hasilatı sahəsində tənəzzülün davam etməsini SOCAR-ın prezidenti N.Əliyev *“yataqların köhnəlməsi, qazılan quyuların başa çatdırılmaması, mövcud kompressor stansiyalarının güc imkanlarının lazımi səviyyədə olmaması”* ilə izah edirdi [35].

1998-ci ildə “Çıraq -1” yatağından çıxan səmt qazının həcmi gündə 1 milyon 350 min kubmetrə çatırdı. Bu gözləniləndən çox olduğu üçün SOCAR özünün mövcud texniki imkanları hesabına onun hamısını sahilə nəql edə bilmirdi. Ona görə də gündə 350 min kubmetr səmt qazı havaya buraxılırdı [35]. Bu isə ildə 126 milyon kubmetr qaz itkisi demək idi. Sonrakı illərdə yeni boru kəmərinin çəkilməsi və kompressorların quraşdırılması nəticəsində həmin itkilərin qarşısını almaq mümkün oldu.

“Əsrin müqaviləsi” çərçivəsində görülən işlərin gedişinə əsasən, Azərbaycanın ilk mənfəət neftini 2000-ci ilin əvvəllərində alacağı gözlənilirdi. Lakin layihənin uğurla icrası və dünya bazarında neftin qiymətinin tədricən yüksələrək 1999-cu ilin sonunda bir barelə görə 25 dollara çatması konsorsiuma daxil olan şirkətlərin əməliyyat və kapital xərclərinin daha tez ödənilməsinə imkan verirdi. Bununla da 1999-cu ilin dekabrında Azərbaycanın payına 135 min ton həcmində ilk mənfəət neftinin ayrılması üçün şərait yarandı [310]. Ölkənin ilk mənfəət nefti həmin il dekabr ayının 22-də “Totalfina” şirkəti tərəfindən alınaraq Supsa limanından dünya bazarına çıxarıldı [461].

Bu, Azərbaycan neft strategiyasının icrasında mühüm nailiyyət idi. Ölkə xəzinəsi neft müqaviləsindən artıq ilk real gəlirini əldə etməyə başlamışdı. Xarici neft şirkətləri ilə səmərəli əməkdaşlıq öz bəhrəsini verirdi. İlk mənfəət neftindən Azərbay-

canın qazancı 25 milyon dollar təşkil etmişdir. Lakin neftin qiymətinin 25-26 dollar səviyyəsində qalacağı təqdirdə, 2000-ci ildə mənfəət neftinin satışından ölkənin 100-150 milyon dollar əldə edəcəyi proqnozlaşdırılırdı [474]. Bütövlükdə isə 1999-cu ilin sonuna qədər "Əsrin müqaviləsi"nin icrası nəticəsində Azərbaycanın gəliri daha çox olmuşdur. ABƏŞ prezidenti D.Vudvordun qeyd etdiyi kimi, həmin vaxtadək xarici şirkətlər layihəyə 2 milyard dollardan artıq kapital yönəltmişdi. Bonus, yerli işçilərin əmək haqqı, vergilər, ölkə şirkətlərinin müqavilə gəlirləri və s. daxil olmaqla Azərbaycanın ümumi qazancı 1999-cu ilin sonunadək 900 milyon dollara çatmışdır [268].

Bundan əlavə, Azərbaycanda müasir texnologiyalarla iş təcrübəsinə yiyələnmiş peşəkar yerli kadrların formalaşması xüsusi qeyd olunmalıdır. Mühüm əhəmiyyət kəsb edən yeni təcrübə amili yalnız bilavasitə neftçi mütəxəssislərə deyil, eləcə də layihənin həyata keçirilməsi ilə müəyyən bağlılığı olan müxtəlif dövlət orqanlarına və sahibkarlıq subyektlərinə şamil edilə bilər. Belə ki, qərbin biznes dairələri ilə birgə iş vərdişlərinin qazanılması həm hökumət strukturlarının, həm də yerli mütəxəssislərin fəaliyyətinin dünya standartlarına uyğun şəkildə qurulmasına kömək edirdi.

"AÇG" layihəsi çərçivəsində ilk mənfəət nefti əldə edildikdən sonra yataqların tammiqyaslı işlənməsinə hazırlığa diqqət daha da artmışdı. 2000-ci ilin sentyabrında ABƏŞ prezidenti bildirirdi ki, gələn ilin ortalarınadək "Faza-1" layihəsinin icrası üçün qərar verilə bilər. Onun konsepsiyasının əsas müddəaları təsdiq olunaraq şirkətlərin rəyini almaq üçün müzakirəyə verilmişdi. Lakin D.Vudvordun da etiraf etdiyi kimi, *"tammiqyaslı işlənmənin sürəti düzgün hesablanmamışdı"*[115]. İntensiv müzakirələrin getməsinə baxmayaraq, texniki və təchizat məsələlərinin, ixrac problemlərinin həll olunmaması qərarın qəbulunu ləngidirdi.

"Faza-1" üzrə çıxarılan neftin yalnız Qərb və Şimal boru kəmərlərinin ötürmə gücünün artırılması hesabına ixrac edilmə-

sinə dair konsorsiumun mövqeyini qəbul etməyən Azərbaycan hökuməti Bakı–Tbilisi–Ceyhan Əsas ixrac boru kəmərinin (BTC ƏİBK) tikintisində israrlı idi. Buna görə də BTC-nin inşası ilə bağlı işlərin gecikməsi tammiqyaslı işlərin birinci mərhələsinin təxirə salınmasına təsir göstərirdi. Çünki BTC-nin istifadəyə verilməsi vaxtı ilə bu mərhələdə gözlənilən hasilatın qrafikinin uzlaşdırılması lazım gəlirdi. Bu isə həmin dövrdəki planlaşdırmaya görə, 2004-cü ilin sonuna nəzərdə tutulurdu [36, s.2; 221].

Tammiqyaslı işlənmə üzrə hasilata başlanılması həm səhmdarlar, həm də Azərbaycan üçün gəlirlərin ciddi artımını vəd edirdi. Layihə ilə bağlı məsələlər razılaşdırıldıqdan sonra 2001-ci il avqustun 30-da yataqların tammiqyaslı işlənməsinin birinci mərhələsinin başlanmasına dair sazişin imzalanması mərasimi keçirildi. Sənədi ABƏŞ-in prezidenti D.Vudvord və SOCAR-ın prezidenti N.Əliyev imzaladılar [26].

Mərasimdə çıxış edən Prezident Heydər Əliyev sazişin imzalanmasını *"neft strategiyasında yeni eranın başlanğıcı"* kimi qiymətləndirdi. O, indiyədək görülən işlərin əhəmiyyətini qeyd edərək, bu sənədin "Əsrin müqaviləsi"nin həyata keçirilməsində həlledici xarakter daşıdığını bildirdi [158, c.35, s.199].

Layihənin icrasının ləngiməsi səbəblərindən bəhs edən Heydər Əliyev bunun ixrac məsələlərinə dair razılığın gec əldə olunması ilə bağlı olduğunu vurğuladı. Onun fikrincə, BTC ixrac neft kəməri barədə şirkətlərin tərəddüdünün aradan qalxması və tikinti işlərinə başlanması haqqında sazişlərin imzalanması "Faza-1" layihəsinin icrasına imkan yaratdı.

Layihə üzrə neftin çıxarılması vaxtı 2004-cü ilin sonundan 2005-ci ilin ilk rübünə keçirilirdi. Bu isə planlaşdırılan neft həcmini ixrac edə biləcək BTC boru kəmərinin həmin vaxt istifadəyə veriləcəyi ilə əlaqələndirilirdi [26].

Beləliklə, indiki mərhələdə yatırılacaq xarici sərmayə 3000-dən artıq yeni iş yerinin açılmasına, habelə neft avadanlıqları istehsal edən yerli müəssisələrdən, SOCAR-ın gəmilərindən, digər dəniz obyektlərindən istifadə olunmasına şərait yara-

daraq, ölkənin sosial-iqtisadi inkişafına ciddi təsir göstərməli idi.

Xarici neft şirkətləri ilə əməkdaşlıq Azərbaycan neft sənayesinin texniki cəhətdən yenidən qurulmasına və hasilatın yüksəlməsinə əlverişli imkanlar açırdı. Aparılan kəşfiyyat işləri "Azəri-Çıraq-Günəşli" yataqlarının daha böyük potensiala malik olduğunu göstərirdi. "Faza-1" layihəsinin icrasına başladıqdan sonra həmin yataqlarda sübut olunmuş neft ehtiyatlarının 640 milyon tondan 730 milyon tona qədər artdığı təsdiq edildi [165]. Mütəxəssislərin fikrincə, bu, son hədd deyildi.

Tammiqyaslı işlənmənin birinci mərhələsi ilə eyni zamanda ikinci mərhələnin də hazırlıq işləri görülürdü. Birinci mərhələdə "Azəri" yatağının mərkəz hissəsində neft hasilatı aparılmalı idisə, "Faza-2" həmin yatağın şərq və qərb hissələrinin də istismara cəlb edilməsini nəzərdə tuturdu. Dünya neft bazarında əlverişli şəraitin davam etməsi "AÇG" yataqlarının tammiqyaslı işlənməsi proqramını ardıcıl həyata keçirməyə imkan verirdi. Məhz bunun sayəsində 2002-ci il sentyabr ayının 18-də Bakı yaxınlığındakı Səngəçal terminalında BTC ƏİBK-nın təməlqoyma mərasimi ilə eyni vaxtda "Əsrin müqaviləsi"nin tammiqyaslı işlənməsinin ikinci mərhələsi haqqında saziş imzalandı[165].

"Faza-2" layihəsinə sanksiya verilməsi işlərin miqyasının genişlənməsini, sərmayə qoyuluşu və hasilatın artırılmasını şərtləndirirdi. Bu mərhələdə iki platformanın tikilməsi, yeni istismar quyularının qazılması, Səngəçal terminalına qədər 30 düymlük neft kəmərinin çəkilməsi, terminalın genişləndirilməsi və s. nəzərdə tutulurdu [412].

Proqrama uyğun olaraq qərbi və şərqi "Azəri"də neft hasilatı müvafiq surətdə 2006-cı və 2007-ci illərdə başlanmalı idi. Bununla da hasilatın həcminin ildə 20 milyon ton artaraq 40 milyon tona çatacağı gözlənilirdi [122, s.4; 158].

Beləliklə, neft strategiyası sürətli inkişaf dövrünə qədəm qoymuşdu. Yataqların tammiqyaslı işlənməsinin 1-ci və 2-ci mərhələsi çərçivəsində dünyanın qabaqcıl texnologiyasının

Azərbaycana gətirilməsi, neft-qaz sənayesində müasir infrastrukturun yaradılması və bu prosesdə Azərbaycanın sənaye potensialından (Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu, SOCAR-ın Gəmi Təmiri Zavodu, neft donanması və s.) istifadə olunması tədricən geniş xarakter alırdı.

"Əsrin müqaviləsi"nin həyata keçirildiyi on il ərzində Azərbaycanın neft-qaz sənayesinə qoyulmuş xarici sərmayənin həcmi görülmüş işlərin miqyası haqqında aydın təsəvvür yarada bilər. Həmin dövrdə bu sahəyə 9 milyard dollar məbləğində xarici investisiya yönəldilmişdir [183]. Bununla da ölkədə neft-qaz sənayesinin dinamik inkişafı təmin olunmuş, xarici neft şirkətləri ilə uzunmüddətli səmərəli əməkdaşlığın möhkəm təməli yaradılmışdır.

Məhz qarşılıqlı etimada və faydalı əməkdaşlıq prinsipinə söykənən işbirliyi nəticəsində mürəkkəb geosiyasi, maliyyə-iqtisadi, texniki problemlər ardıcıl şəkildə həll edilir, layihənin icrası sahəsində davamlı tədbirlər görülürdü. "AÇG" yataqlarının tammiqyaslı işlənməsinin ilk iki mərhələsinin planlı şəkildə gerçəkləşdirilməsi onun yekun mərhələsinə keçməyə imkan yaradırdı. Buna görə də 20 sentyabr 2004-cü il tarixində "Faza-3" layihəsinin icrasına başlanılmasına dair saziş imzalandı [183].

Əlbəttə, yataqların tammiqyaslı işlənməsinin ardıcıl olaraq həyata keçirilməsi, o cümlədən "Faza-3"-ə dair həlledici qərarın qəbul olunması neftin dünya bazarlarına çatdırılmasını təmin edən ixrac infrastrukturu ilə bilavasitə bağlı idi. Bu işlər paralel şəkildə aparılırdı. Təsadüfi deyil ki, ABƏŞ-in prezidenti D.Vudvord sazişin imzalandığı gün BTC ixrac boru kəmərinin tikintisindəki irəliləyiş haqqında məlumat verərək, layihənin 85 faizinin başa çatdırıldığını xüsusi qeyd etmişdir [183].

"Faza-3" layihəsi "Günəşli" yatağının dərinlikdə yerləşən sahəsinin və "Çıraq" yatağının qərb hissəsinin işlənməsini nəzərdə tuturdu. "Günəşli" yatağında ilk neftin çıxarılması 2008-ci ilin ortalarına planlaşdırılırdı. Bununla 2009-cu ilədək

“Əsrin müqaviləsi” çərçivəsində gündəlik hasilatın bir milyon bareldən çox, yəni ildə 50 milyon ton səviyyəsinə çatdırılacağı gözlənilirdi [183].

Eyni zamanda, Səngəçal terminalının da genişləndirilməsi istiqamətində əlavə işlər görülməli idi. Burada üçüncü xam neft çəni və ikinci qaz texnoloji emal qurğusu quraşdırılacaqdı. Bununla da dünyanın ən böyük terminallarından birinə çevrilən bu obyektin gündəlik tutumu 1,2 milyon barelə çatacaqdı. Həm də əldə edilən səmt qazının bütünlüklə SOCAR-a təhvil verilməsi üçün lazımi şərait yaradılacaqdı.

Ümumiyyətlə, ”Əsrin müqaviləsi”nin həyata keçirilməsi ilə bağlı məsələlərin vaxtında həll olunması üçün zəruri tədbirlərin görülməsi Azərbaycan hökumətinin prioritet vəzifələrindən biri hesab edilirdi. Konsorsiumun fəaliyyətinə hərtərəfli kömək göstərən hökumət, həm də işlərin gedişini ciddi nəzarət altında saxlayırdı. Bu baxımdan Prezident İlham Əliyevin “Mərkəzi Azəri” yatağından ilk neftin hasilatına başlanması mərasimində iştirakı da neft layihəsinin ölkə həyatındakı mühüm əhəmiyyətinin və bu sahədə görülən işlərə hökumətin xüsusi diqqətinin təzahürü idi.

İcrasına 2001-ci ilin avqustunda qərar verilmiş “Faza-1” layihəsinin nəzərdə tutulan qrafik üzrə yerinə yetirilməsi 2005-ci il fevralın 18-də “Mərkəzi Azəri” platformasında ilk neftin hasil olunmasına imkan yaratdı. Bununla da “AÇG” yataqlarının tammiqyaslı işlənməsinin birinci mərhələsinə başlanıldı [366].

On ildən artıq müddətdə gərgin fəaliyyət hesabına həyata keçirilən neft strategiyası yeni və mühüm inkişaf dövrünə qədəm qoyurdu. Görülən işlərə nəzər salan ABƏŞ-in prezidenti V.Vudvord “Mərkəzi Azəri”də istismara verilən neft quyusunu *“BP-nin dünyada işlətdiyi ən məhsuldar quyu”* kimi [366] xarakterizə etmişdi. Bu, konsorsiumun Azərbaycanda səmərəli fəaliyyətinin göstəricilərindən biri idi.

Xarici tərəfdaşlarla birgə işi yüksək qiymətləndirən Prezident İlham Əliyev isə bildirmişdi ki, *“bütün çətinliklərə,*

*maneələrə baxmayaraq, çətin geosiyasi vəziyyətdə Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda uğurlu işləyibdir, qarşıda duran bütün vəzifələr həyatda öz əksini tapıbdır”* [159, c.8, s.94].

Beləliklə, neft strategiyası dönmədən həyata keçirilir, öz praktiki nəticələrini verirdi. Yataqların geniş istismarı mərhələsinin başlanması müasir infrastrukturun qurulmasını və neft hasilatının artmasını stimullaşdırırdı.

Statistik göstəricilər neft-qaz hasilatı sahəsində vəziyyəti daha dolğun canlandırmağa kömək edir [106, s.477-478]:

**Cədvəl 2.1.2**

**Neft-qaz hasilatı (2001 – 2005)**

| **İllər** | **Neft, mln ton** | **Qaz, mlrd $m^3$** |
|---|---|---|
| 2001 | 14,9 | 5,5 |
| 2002 | 15,3 | 5,1 |
| 2003 | 15,4 | 5,1 |
| 2004 | 15,5 | 5,0 |
| 2005 | 22,2 | 5,7 |

Göründüyü kimi, neft hasilatı 2001–2004-cü illərdə az da olsa, tədricən artmış, 2005-ci ildə isə sıçrayış baş vermişdir. Belə kəskin artım 2005-ci ildə tammiqyaslı işlənmənin başlanması ilə izah olunur. Sonrakı dövrdə bu dinamika daha yüksək templə davam edir. Neft hasilatının yüksəlişi dənizdəki yataqların istismarı hesabına əldə edilirdi. Çünki qurudakı yataqlardan illik hasilat 1,6-1,7 mln ton səviyyəsində bərqərar olmuşdu.

Qaz hasilatı sahəsində isə vəziyyət ağır olaraq qalırdı. Burada yalnız 2005-ci ildə cüzi artım müşahidə olunur.

Neft hasilatının artması ilə yanaşı, ixrac problemlərinin həlli üçün zəruri tədbirlər davam etdirilirdi. Bu baxımdan 2005-ci il xarici neft şirkətləri ilə əməkdaşlıqda daha bir nailiyyətin əldə olunması ilə yadda qaldı. Belə ki, həmin ilin may ayının 25-

də BTC ƏİBK-nın Azərbaycan ərazisində tikintisi başa çatmış hissəsinin neftlə doldurulmasına başlanıldı [110].

Sonrakı dövrdə yataqların tammiqyaslı işlənməsi artan sürətlə davam etdirilmiş və qarşıya qoyulan vəzifələr qabaqlayıcı qrafiklə yerinə yetirilmişdir. Buna görə də “Faza-2” layihəsi üzrə işlər vaxtından əvvəl yekunlaşdırılmış və qurulan platformalar istifadəyə hazır vəziyyətə gətirilmişdir. 2006-cı il yanvarın 5-də “Qərbi Azəri”də, noyabrın 14-də isə “Şərqi Azəri”də neft hasilatına başlanıldı [503; 507]. Bu, qrafikin nəzərdə tutulduğundan 6-7 ay tez yerinə yetirilməsi demək idi.

Dünya bazarlarında neftin əlverişli qiymətinin formalaşdığı şəraitdə layihənin ardıcıl həyata keçirilməsi həm Azərbaycanın, həm də onun xarici tərəfdaşlarının maraqlarına cavab verirdi. O zaman müxtəlif hesablamalara görə, əgər beynəlxalq bazarda neftin bir barelinin qiyməti orta hesabla 50 dollar səviyyəsində qalardısa, 20 il ərzində neft layihəsindən Azərbaycanın gəliri 140 milyard dollar təşkil edəcəkdi [126].

Həmin dövrdə neftin qiymətinin artan sürəti verilən proqnozların özünü daha dolğun doğruldacağına əminlik yaradırdı. Belə ki, 2006-cı ilin ikinci yarısında bir barel neftin qiyməti 70 dolları ötmüşdü [386].

Mövcud vəziyyət neft şirkətlərinin fəaliyyətinə əlavə stimul verirdi. Təsadüfi deyil ki, “AÇG” yataqlarının tammiqyaslı işlənməsinin üçüncü mərhələsi (“Faza-3” layihəsi) çərçivəsində tikinti işləri vaxtından əvvəl yerinə yetirildi. Nəhayət, 2008-ci il aprelin 22-də “Dərinsulu Günəşli”də neft hasilatına başlanıldı [503; 507].

Bununla da “Əsrin müqaviləsi”nin tammiqyaslı işlənməsi üzrə aparılan işlər yekun mərhələsinə qədəm qoydu. Bu isə, öz növbəsində, neft və qaz hasilatının ardıcıl olaraq yüksəlməsi ilə müşayiət olunurdu.

SOCAR-ın təqdim etdiyi statistik göstəricilər hasilatın artım dinamikasını əyani şəkildə izləməyə imkan verir [328]:

**Cədvəl 2.1.3**

**Neft-qaz hasilatı (2006 – 2010)**

| İllər | Neft, mln ton | Qaz, mlrd $m^3$ |
|---|---|---|
| 2006 | 32,3 | 9,1 |
| 2007 | 42,6 | 17,0 |
| 2008 | 44,5 | 23,4 |
| 2009 | 50,4 | 23,7 |
| 2010 | 50,8 | 26,4 |

Göründüyü kimi, "Faza-2" və "Faza-3" layihələri çərçivəsində hasilatın başlanması neft-qaz çıxarılmasına nəzərəçarpacaq surətdə təkan verdi. Neft hasilatı, demək olar ki, 2009–2010-cu illərdə pik səviyyəsinə çatdı. Qaz hasilatının çoxalması qismən texniki təkmilləşmələrlə bağlı olsa da, əsasən "Şahdəniz" yatağında istismarın başlanması ilə əlaqədar idi.

Həmin dövrdə SOCAR üzrə neft hasilatının səviyyəsi ildən-ilə tədricən azalırdı. Əgər 2006-cı ildə təxminən 9 milyon ton neft çıxarılmışdısa, 2007-ci ildə bu göstərici 8,8 milyon ton, 2008-ci ildə isə 8,7 milyon ton təşkil etmişdir. 2009-cu ildə hasilat qismən artaraq 9,5 milyon tona çatsa da, 2010-cu ildə yenidən azalaraq 8,5 milyon tona düşmüşdür [328].

SOCAR-ın qaz hasilatı nisbətən artsa da, bu inkişaf elə də çox deyildi. Belə ki, 2006-cı ildə 4,5 mlrd $m^3$ təşkil edən qaz hasilatının həcmi 2009-cu ildə 6,9 mlrd $m^3$-ə, 2010-cu ildə 7,2 mlrd $m^3$-ə çatmışdır [328].

Beləliklə, SOCAR neft və qaz hasilatının müəyyən səviyyədə sabitləşməsinə nail olsa da, ciddi irəliləyiş baş vermirdi. Bu sahədəki əsaslı yüksəliş xarici neft şirkətlərilə müqavilələrin icrası ilə bağlı idi.

Xarici tərəfdaşlarla davam etdirilən əməkdaşlıq səmərəli nəticələr verirdi. "Əsrin müqaviləsi" çərçivəsində aparılan axtarış-kəşfiyyat işləri həmin yataqlardakı ehtiyatları yenidən qiymətləndirərək, 1 milyard ton neft və 350 milyard $m^3$ qaz həc-

mində olduğunu təsdiq etdi [1].

Yataqlarda neft ehtiyatlarının gözlənildiyindən çox olması, habelə illik neft hasilatının və dünya bazarında neftin qiymətinin ardıcıl yüksəlməsi müqavilədən əldə edilən gəlirin həcmini artırırdı. Bu amillər həm də Azərbaycanın mənfəət neftini daha tez, yəni 1999-cu ilin dekabr ayından almasını şərtləndirmişdir.

Müqavilənin həyata keçirildiyi ilk dövrdə mənfəət nefti təxminən 75:25 faiz nisbətində xarici şirkətlərin xeyrinə bölünürdü. Bu da layihənin kapital və əməliyyat məsrəflərinin həmin şirkətlərin öhdəsinə düşməsi ilə bağlı idi. Lakin müqavilənin uğurla icrası nəticəsində xarici tərəfdaşların investisiya yatırımlarının daha erkən qaytarılması ilə əlaqədar olaraq, mənfəət neftinin bölüşdürülməsi nisbəti gözlənilən vaxtdan daha əvvəl tədricən Azərbaycanın xeyrinə dəyişməyə başladı. Artıq 2008-ci ilin ortalarından etibarən "AÇG" yataqları üzrə mənfəət neftinin pay bölgüsü 75:25 faiz nisbətində Azərbaycan hökumətinin xeyrinə dəyişmişdir [42].

Göstərilən faktlar neft strategiyasının real nəticələrinin təzahürü kimi qiymətləndirilə bilər. Bu özünü ölkə həyatının sosial-iqtisadi, ictimai-siyasi, humanitar, maliyyə-texniki sahələrində aydın şəkildə əks etdirirdi.

Bununla belə, 2010-cu ildə pik həddinə çatan neft hasilatı 2011-ci ildən kəskin olaraq azalmağa başlamışdır. Belə ki, ölkə üzrə neft hasilatı birdən-birə 5,1 milyon ton azalaraq 45,6 milyon tona düşmüş, 2012-ci ildə isə bu geriləmənin davam etməsi nəticəsində çıxarılan neftin həcmi 43,4 milyon ton təşkil etmişdir [328].

Neft hasilatındakı tənəzzül ümumilikdə ölkənin iqtisadi inkişafına mənfi təsir göstərirdi. Buna görə də yaranmış vəziyyət Azərbaycan hökumətini ciddi narahat edirdi. Məsələyə münasibət bildirən Prezident İlham Əliyev bu geriləmənin əsas səbəblərini "AÇG" yataqlarının istismarını həyata keçirən konsorsiumun operatoru "BP" şirkətinin kobud səhvləri ilə əlaqələndir-

mişdir [42].

Ölkə üzrə neft hasilatında azalma meyilləri 2011-ci ildən müşahidə olunsa da, "AÇG" yataqlarında işləyən ABƏŞ-in fəaliyyətində tənəzzül əlamətləri özünü 2009-cu ildən göstərməyə başlamışdı. Yəni mənfəət neftinin bölüşdürülməsində pay nisbəti Azərbaycanın xeyrinə dəyişdikdən sonra müqavilə sahəsində hasilatın sabit saxlanılması üçün lazımi tədbirlər görülməmiş, "BP"-nin rəhbərlik etdiyi konsorsiumun fəaliyyətinin səmərəliliyi aşağı düşmüşdü.

ABƏŞ-in fəaliyyətindəki neqativ təzahürlərə diqqət yönəldən Prezident İlham Əliyev verilən proqnozların özünü doğrultmadığını vurğulayaraq, fikirlərini konkret rəqəmlərlə əsaslandırırdı. Belə ki, 2009-cu ildə "Əsrin müqaviləsi" çərçivəsində 46,8 milyon ton neft hasilatı proqnozlaşdırıldığı halda, faktiki hasilat 40,3 milyon ton təşkil etmişdir. Eyni vəziyyət sonrakı illərdə də müşahidə olunmuşdur. 2010-cu ildə gözlənilən 42,1 milyon ton əvəzinə 40,6 milyon ton, 2011-ci ildə isə 40,2 milyon ton əvəzinə daha az – 36 milyon ton neft çıxarılmışdır. 2012-ci ilin proqnozu bundan da aşağı, yəni 35,6 milyon ton həcmində verilsə də, yerinə yetirilməmiş və həmin ilin hasilat səviyyəsi 33 milyon tona çatmamışdır [42].

Əlbəttə, neft sənayesində yaranmış böhranlı vəziyyət Azərbaycan hökumətini qane edə bilməzdi. Çünki xarici şirkətlərlə qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə sadiq olan Azərbaycan onların səhvi nəticəsində ciddi maliyyə itkiləri ilə üzləşmişdi. Əgər həmin dövrdə neftin bir barelinin 100 dollardan baha olduğu nəzərə alınarsa, Azərbaycanın ən azı 8,1 milyard dollar ziyan çəkdiyini qeyd etmək olar [42].

Prezident İlham Əliyev xarici neft şirkətləri ilə uzunmüddətli əməkdaşlığı yüksək qiymətləndirərək, davam edən işbirliyinin bütün iştirakçıların maraqlarına uyğun olduğunu vurğulamışdır. Uğurlu biznes layihəsi kimi həyata keçirilən "Əsrin müqaviləsi"nə 2012-ci ilə qədər xarici şirkətlər tərəfindən 28,7 milyard dollar investisiya yatırılmışdır. Görülən işlərin əvəzində

isə həmin dövrdə konsorsium 73 milyard dollar gəlir əldə etmişdir [42].

İlham Əliyev əməkdaşlığın şərtlərinə və əsas prinsiplərinə söykənərək, buraxılmış səhvlərin aradan qaldırılmasının zəruriliyini qeyd edirdi: *"Bizə verilən səhv proqnozlar qəbuledilməzdir. Dövlət Neft Şirkətinə verilən yalan vədlər qəbuledilməzdir. Dünya biznesində, biznesin bu səviyyəsində belə münasibətlərə yer yoxdur... Mən hesab edirəm ki, bu məsələ ilə bağlı çox ciddi dəyişikliklər edilməlidir"* [42].

Böyük səylər hesabına uğurla həyata keçirilən "Əsrin müqaviləsi"nin potensial imkanlarından tam istifadə olunmaması Azərbaycan hökumətinin narahatlığına səbəb olmuşdu. Çünki ölkənin sosial-iqtisadi inkişafına güclü təkan vermiş bu layihə qüvvədə olacağı 30 illik müddətin ikinci yarısına yenicə qədəm qoymuşdu. Onun belə tezliklə öz səmərəsini itirməsi Azərbaycanın maraqlarına uyğun deyildi.

Prezident İlham Əliyevin kəskin tənqidi öz təsirini göstərdi. Belə ki, 2012-ci ilin oktyabr ayında "BP" və SOCAR nümayəndələrinin London və Bakıda keçirdiyi iki görüşdə "AÇG" yataqlarında hasilatın artırılması ilə bağlı məsələlər müzakirə olunmuş və işlərin intensivləşdirilməsi üçün tədbirlər müəyyənləşdirilmişdir [143]. Nəzərdə tutulan texniki-təşkilati tədbirlər layihənin səmərəliliyinin artırılmasına və hasilatın optimallaşdırılmasına yönəlmişdir.

Noyabrın 2-də "BP-Azərbaycan" şirkətinin regional prezidenti vəzifəsini tutan R.Cavanşirin yerinə Q.Birell təyin olundu [476]. Bu addım konsorsiumun işinin yenidən təşkil olunması sahəsində göstərilən təşəbbüs kimi qiymətləndirilməlidir.

Eyni zamanda, "Əsrin müqaviləsi" çərçivəsində hasilatın sabitləşməsinə və yataqlardakı layların neft verimini maksimuma çatdırmağa yönəlmiş tədbirlərin həyata keçirilməsi sürətləndirilmişdi. İcrasına 2010-cu ilin martında başlanılmış "Çıraq neft layihəsi" üzrə tikinti işləri daha intensiv xarakter almışdı. Layihəyə

görə, "Qərbi Çıraq" platformasının quraşdırılması planlaşdırılırdı.

Ümumi dəyəri 6 milyard dollar qiymətləndirilən "Çıraq neft layihəsi"nin 4 milyard dolları platformadakı qurğuların inşasına və ilkin qazma proqramına sərf olunmalı idi. Qalan maliyyə vəsaiti isə sonrakı dövrdə hasilat quyularının qazılması üçün nəzərdə tutulurdu [306].

Neft hasilatına başlanması 2013-cü ilin dekabr ayına gözlənilirdi. İşlər, demək olar ki, qrafik üzrə yerinə yetirilirdi. Nəhayət, "Qərbi Çıraq"da ilk neft 2014-cü ilin yanvar ayında hasil olundu [172]. Bununla da "AÇG" yataqlarında neft hasilatının sabitləşdirilməsi və daha uzun müddətə yüksək səviyyədə saxlanılması proqnozlaşdırılırdı.

Platformanın tikintisi bütünlüklə Azərbaycanda – Bakı Dərin Özüllər Zavodunda və Bibiheybətdəki tikinti-quraşdırma sahəsində həyata keçirilmişdi. Tikinti işlərinə cəlb edilmiş 4 min nəfərin 90 faizə qədərini yerli işçilər təşkil etmişdir.

"AÇG" yataqlarının işlənməsinə sərmayə qoyuluşunun artırılması və yeni texnologiyaların istifadə olunması neft hasilatının sabitləşməsinə müsbət təsir göstərdi. Belə ki, 2013-cü ildə "Əsrin müqaviləsi" üzrə gözlənilən 30,6 milyon ton əvəzinə 32,7 milyon ton neft hasil olunmuşdur. Bu isə nəzərdə tutulandan 2,1 milyon ton çox idi [164].

Beləliklə, neft hasilatında geriləmənin qarşısı alınmış və 2013-cü ildə ölkə üzrə çıxarılan neftin həcmi 43,5 milyon ton təşkil etmişdir [179]. Yəni 2012-ci ilə nisbətən 0,1 milyon ton artıq neft hasil olunmuşdur.

Bununla belə, sonrakı illərdə hasilatın aşağı düşməsini dayandırmaq mümkün olmadı. Bu əsasən "AÇG" yataqlarında neftçıxarmaya təsir göstərən texnoloji amillərlə bağlı idi. Eyni zamanda, 2014-cü ildən etibarən dünya neft bazarında böhranın yaşanması və qiymətlərin ciddi şəkildə enməsi neft ölkələrini çıxış yolu kimi hasilatın ixtisarı ilə bağlı birgə tədbirlər görməyə vadar edirdi. Bu sahədə müştərək qərar əsasən "OPEC+" platformasında hasilatın azaldılması barədə razılaşmaya uyğun

qəbul olunurdu. Ümumiyyətlə isə, əsasən uzun müddət istismar olunması və neftvermə potensialının zəifləməsi nəticəsində “AÇG” yataqlarında hasilatın səviyyəsi 2018-ci ildə 29 milyon tona [214], 2023-cü ildə isə 17,8 milyon tona düşmüşdü [213].

Rəsmi mənbələrin aşağıdakı rəqəmləri neft və qaz hasilatında vəziyyəti izləməyə etməyə imkan verir [179]:

**Cədvəl 2.1.4**

**Neft-qaz hasilatı (2014 – 2023)**

| **İllər** | **Neft, mln ton** | **Qaz, mlrd $m^3$** |
|---|---|---|
| 2014 | 42,0 | 29,6 |
| 2015 | 41,6 | 29,0 |
| 2016 | 41,0 | 29,4 |
| 2017 | 38,7 | 28,6 |
| 2018 | 38,8 | 30,5 |
| 2019 | 37,5 | 35,6 |
| 2020 | 34,5 | 37,1 |
| 2021 | 34,6 | 43,9 |
| 2022 | 32,7 | 46,7 |
| 2023 | 30,2 | 48,3 |

Göründüyü kimi, neft hasilatı azalsa da, qazçıxarmada ardıcıl artım müşahidə olunur. Bu da “Şahdəniz”in işlənməsi sayəsində təmin edilmişdi. Belə ki, 2023-cü ildə “Abşeron” yatağında qaz hasilatına başlanılsa da, həmin il cəmi 0,8 milyard kubmetr mavi yanacaq çıxarılmışdı [213].

İnfrastrukturun qurulmasıyla müəyyən xərclər azaldığına görə, layihə iştirakçıları tədricən daha çox mənfəət nefti əldə edirlər. Belə ki, 2019-cu ildə 25 illik yubileyi keçirilən “Əsrin müqaviləsi”nə həsr olunmuş mərasimdə bildirilmişdir ki, o vaxta qədər hasil edilmiş 492 milyon ton neftin 287 milyon tonu mənfəət kimi Azərbaycana çatmışdır. Bu da ümumi hasilatın 58,3 faizini təşkil edir [216].

Beləliklə, ilk illərdə "AÇG" yataqlarının işlənilməsinə dair layihəyə maliyyə vəsaiti sərf etməyən Azərbaycan bu öhdəliyi üzərinə götürmüş xarici tərəfdaşları ilə əməkdaşlığı qarşılıqlı maraqlara söykənən prinsiplər əsasında qurmuşdur. İlk neft müqaviləsinin yerinə yetirilməsi sahəsindəki səmərəli fəaliyyət digər neft-qaz layihələrinə də sərmayə qoyuluşuna stimul vermişdir.

Azərbaycanın xarici şirkətlərlə imzaladığı 30-dan artıq müqavilə üzrə kapital qoyuluşunun məbləği ilkin olaraq 60 milyard dollar həcmində qiymətləndirilirdi. Lakin investorlar üçün əlverişli sərmayə mühitinin yaradılması, fəaliyyət dairəsinin genişlənməsi, texnologiyaların inkişafı və s. amillər nəticəsində 1995–2019-cu illərdə Azərbaycanın neft-qaz sənayesinə yönəldilmiş 106 milyard dollardan çox maliyyə vəsaitinin 85 milyard dolları xarici investisiyaların payına düşür [278].

"Əsrin müqaviləsi"ndən Azərbaycanın qazancı da ildənilə dinamik surətdə artmışdır. Həmin gəlirlərin xüsusi olaraq yaradılmış Dövlət Neft Fondunda toplandığı vaxtdan, yəni 2001-ci ildən 2022-ci il yanvarın 1-dək "AÇG" yataqlarının işlənməsindən bu fonda 155,4 milyard ABŞ dolları məbləğində maliyyə vəsaiti daxil olmuşdur [113]. Bu isə ötən dövrdə neft-qaz layihələrindən əldə olunan ümumi gəlirin mütləq əksəriyyətini təşkil etmişdir.

"Əsrin müqaviləsi"nin başa çatmasına səkkiz il qalmış onun müddətinin uzadılmasına dair ilkin razılığın əldə olunması xarici tərəfdaşlarla indiyədək qurulmuş qarşılıqlı əməkdaşlığın səmərəli olduğunu göstərir. Belə ki, 2016-cı il dekabrın 23-də SOCAR və ABƏŞ konsorsiumu "AÇG" yataqlarının 2050-ci ilədək birgə işlənməsi haqqında niyyət məktubu imzaladılar [332].

Bununla da tərəflər müqavilənin kommersiya şərtlərinin tam hazırlanması üçün danışıqların aparılmasına dair prinsipial mövqe ifadə etdilər.

Uzunmüddətli səmərəli əməkdaşlıq və "AÇG"-nin böyük potensialı danışıqların uğurla başa çatdırılmasına stimul verdi. Nəhayət, 14 sentyabr 2017-ci il tarixində "AÇG" üzrə HPBHS-

in yeni variantı iştirakçılar tərəfindən imzalandı [112].

Razılaşmaya görə, "Əsrin müqviləsi"nin müddəti 2024-cü ildən 2050-ci ilədək artırıldı. İlk müqavilənin imzalandığı 1990-cı illərin birinci yarısından fərqli olaraq, Azərbaycan artıq siyasi cəhətdən daha yetkin və sabit, iqtisadi baxımdan daha güclü dövlət kimi özünü təsdiq etməyə nail olmuşdu. Buna görə də yeni müqavilədə Azərbaycanın mənafeləri daha əlverişli şərtlərlə əksini tapmışdır. Belə ki, xarici tərəfdaşlar müəyyən tranşlarla Azərbaycana 3,6 milyard dolar bonus ödəməlidirlər. SOCAR-ın müqavilədəki iştirak payı isə iki dəfədən çox artırılaraq 11,6 faizdən 25 faizə çatdırılıb. Bununla yanaşı, Azərbaycanın mənfəət neftindəki payı da 75 faiz həcmində müəyyən olunub. Həm də şərtə görə, bu bölgü nisbəti müqavilənin qüvvədə olduğu bütün dövr ərzində dəyişməyəcək.

Yeni sazişin belə bir cəhətini də göstərmək lazımdır ki, SOCAR-ın iştirak payının 25 faizə çatdırılması üçün digər tərəfdaş şirkətlərin hamısı müəyyən güzəştə getməyə razılıq verib. Bu isə Azərbaycanla əməkdaşlığın xarici sərmayəçilər üçün də faydalı olduğunu bir daha təsdiq edir. Müqavilə şərtlərinə düzəliş edildikdən sonra iştirakçıların tərkibi dəyişməsə də, xarici şirkətlərin payında azalma müşahidə olunur: "BP"–30,37% (əvvəl–35,78%,), SOCAR–25% (11,65%), "Şevron"–9,57% (11,27%), "EkssonMobil"–6,79% (8%), "İnpeks"–9,31% (10,96%), "İtoçu"–3,65% (4,3%), "Statoyl"–7,27% (8,56%), TPAO–5,73% (6,75%), "ONGC Videş"–2,31% (2,72%) [475].

Mühüm məqamlardan biri də ondan ibarətdir ki, yeni müqavilə 2024-cü ildən deyil, məhz imzalandığı 2017-ci ildən qüvvəyə minirdi [316]. Yəni sazişin daha tez hüquqi qüvvə kəsb etməsi ilə Azərbaycanın bu layihədəki maraqları daha da geniş təmin olunur.

İmzalanma mərasimində qeyd edildi ki, ötən dövrdə "AÇG" yataqlarının işlənməsinə 33 milyard dollar sərmayə yatırılaraq 436 milyon ton neft hasil olunmuşdur. Qarşıdakı 32 il ərzində isə layihəyə 40 milyard dollardan artıq investisiya yönəl-

diləræk 500 milyon tondan çox neft çıxarılması nəzərdə tutulur [112]. Onu da qeyd etmək lazımdır ki, illik hasilat tədricən azalsa da, istismarın başlandığı 1997-ci ildən 01yanvar 2024-cü il tarixinədək "AÇG" yataqlarından 584,7 milyon ton neft çıxarılmışdır. Bu isə 1994-cü ildə imzalanmış müqavilədə göstərilən həcmdən (511 milyon ton) çoxdur [213].

Beləliklə, "Əsrin müqaviləsi"nin müddətinin vaxtından əvvəl uzadılması Azərbaycanda ictimai-siyasi sabitliyə və əlverişli investisiya mühitinə olan inamın, qarşılıqlı faydalı əməkdaşlığa bəslənən etimadın təzahürü kimi qiymətləndirilməlidir.

Eyni zamanda, yeni saziş xarici şirkətlərlə uzunmüddətli dövr ərzində fəaliyyət üçün daha əlverişli şərait yaradaraq, 40 milyard dollardan artıq böyük həcmli kapital qoyuluşuna əlavə stimul verir. Azərbaycan iqtisadiyyatına yatırılacaq həmin investisiyalar ölkənin iqtisadi inkişafına, yeni iş yerlərinin açılmasına, sosial rifahın yüksəlməsinə təkan verəcək.

Azərbaycanın mənfəət neftinin və SOCAR-ın müqavilədəki iştirak payının artması həm ölkənin, həm də Dövlət Neft Şirkətinin maliyyə imkanlarının, iqtisadi potensialının daha da genişlənməsinə yeni perspektivlər açır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın maliyyə-iqtisadi faydası həm də neft-qaz ixrac boru kəmərlərinin daha davamlı müddətdə səmərəli fəaliyyət göstərməsinə yaranan əlavə şəraitlə şərtlənəcək.

Nəhayət, "Əsrin müqaviləsi" Azərbaycanın daha uzun dövrdə – 2050-ci ilədək beynəlxalq neft bazarında öz mövqelərini möhkəmləndirməyə, Avropanın enerji təhlükəsizliyində rolunu gücləndirməyə təsir göstərəcək.

Göründüyü kimi, milli neft strategiyasının əsasını qoymuş "Əsrin müqaviləsi"nin yerinə yetirilməsi bir sıra mərhələlərdən keçmişdir. İlkin neftin çıxarılması, yataqların tammiqyaslı işlənməsi sahəsində görülən işlər müasir neft-qaz infrastrukturunun yaradılması, Azərbaycan neftinin beynəlxalq bazarlara daha əlverişli marşrutlarla çatdırılmasına imkan verən ixrac

boru kəmərləri sisteminin qurulması ilə bilavasitə bağlı idi. Burada qarşıda duran vəzifələrin həlli isə geosiyasi və geoiqtisadi reallıqların nəzərə alınmasını tələb edirdi. Bu sahədə Azərbaycan çevik və səmərəli addımlar atmışdır.

Eyni zamanda, meydana çıxan müxtəlif texniki-iqtisadi məsələlərin vaxtında həll olunması üçün Azərbaycan hökumətinin operativ və sistemli tədbirlər görməsi mühüm əhəmiyyət daşıyırdı. Ümumi işlərə nəzarətin Azərbaycan Respublikasının Prezidenti tərəfindən şəxsən həyata keçirilməsi özünü tam doğruldurdu. Hesabat işlərinin ali siyasi səviyyədə qurulması layihə ilə bağlı fəaliyyətin səmərəli təşkilinə, iqtisadi və geosiyasi məsələlərin ardıcıl və daha sürətli tənzimlənməsinə imkan verirdi.

Azərbaycan hökuməti ilə xarici neft şirkətlərinin qarşılıqlı etimada söykənən uzunmüddətli əməkdaşlığı "Azəri-Çıraq-Günəşli" yataqlarının tammiqyaslı işlənməsi üzrə proqramın uğurla icrasına şərait yaratdı. Azərbaycanın neft sənayesi müasir texnologiyaların tətbiqi sayəsində inkişaf yoluna qədəm qoydu. Neft hasilatı rekord həddə çatdı. Ölkənin dünya neft-qaz bazarına inteqrasiyasına yol açıldı. Səmərəli əməkdaşlıq "Əsrin müqaviləsi"nin müddətinin artırılması məsələsini aktuallaşdırdı. Bu isə əlavə sərmayələrin qoyulmasını və qarşılıqlı faydalı əməkdaşlığın yeni dövrünün başlanmasını şərtləndirir. Fövqəlmilli şirkətlərin Azərbaycanın karbohidrogen ehtiyatlarının işlənməsinə həvəslə sərmayə qoyması və ötən dövr ərzində investisiya yatırımının bütün gözləntiləri üstələməsi nəinki neft-qaz sənayesinin, habelə ölkənin ümumi sosial-iqtisadi inkişafına dinamizm gətirdi.

## 2.2. Şimal ixrac marşrutunun seçilməsi və reallaşdırılması

Azərbaycanın imzaladığı neft sazişlərinin yerinə yetirilməsi ilə bağlı həlli tələb olunan ən vacib məsələlərdən biri xammalın dəniz yataqlarından beynəlxalq satış bazarlarına münasib

yolla daşınmasının həyata keçirilməsi idi. Xəzər hövzəsinin həmin bazarlara bilavasitə çıxışı olmadığı üçün yeni ixrac nəql infrastrukturunun qurulması aktuallaşırdı. Aydın idi ki, bu vəzifənin gerçəkləşdirilməsi investorların əlavə sərmayə yatırmasını zəruri edirdi.

Bundan başqa, geniş və əlverişli ixrac sisteminin yaradılması yalnız iqtisadi yox, həm də ciddi geosiyasi problemlərin çevik tənzimlənməsini gündəliyə çıxarırdı. Belə ki, *"ABŞ, Türkiyə, Rusiya və İranın regiondakı maraqları enerji ehtiyatlarının nəqletmə infrastrukturu ilə əlaqədar qərarların qəbuluna güclü təsir göstərirdi. Buna görə də layihələrin iqtisadi cəhətdən əsaslandırılması ilə bərabər, Azərbaycanın siyasi mənafelərinin regionda kəsişən geostrateji maraqlarla uzlaşdırılması böyük əhəmiyyət kəsb edirdi. Bu məsələlərin həlli isə uzunsürən gərgin və hərtərəfli müzakirələrdən asılı idi"* [253, s.12].

"AÇG"-nin birgə işlənməsi haqqında sazişdə onun təsdiq edilməsindən 18 ay başa çatana qədər ilkin neftin çıxarılması nəzərdə tutulurdu. Əgər müqavilənin hüquqi qüvvəyə minməsi 12 dekabr 1994-cü il tarixinə təsadüf edirdisə, onda həmin qrafikə görə, ilkin neftin hasilatı 1996-cı ilin iyun-iyul aylarında mümkün ola bilərdi [169, s.78]. Yəni "Çıraq-1" platformasından çıxarılacaq həmin neftin dünya bazarına ötürülməsi üçün o vaxta qədər ixrac boru xəttinin də inşası sona çatdırılmalı idi.

Məsələnin əhəmiyyəti nəzərə alınaraq, hələ əcnəbi investorlarla danışıqların getdiyi eyni vaxtda Xəzər neftinin ixracı marşrutları ilə bağlı müzakirələr aparılırdı. Azərbaycan neftinə maraq göstərən xarici şirkətlər, ayrı-ayrı mütəxəssislər və hətta müəyyən siyasi qruplar bu məsələyə böyük diqqət yetirirdilər.

Təsadüfi deyil ki, bütün investorlar, xüsusilə Azərbaycan tərəfi üçün çox mühüm əhəmiyyətə malik olan ixrac infrastrukturu ilə bağlı problemin dərindən öyrənilməsi məqsədilə işçi qrupu yaradılmışdı. SOCAR, konsorsiumin xarici üzvləri və "Botaş" kompaniyasının (Türkiyə) nümayəndələrindən ibarət həmin işçi qrupu 1993-cü ilin oktyabrında neftin nəqli marşrutu-

nun və ixrac boru xəttinin iqtisadi və texniki göstəricilərinə dair öz hesablamalarını işləyib hazırlamışdı [161].

Təqdim olunmuş bu təkliflərdə Qara dəniz və Aralıq dənizinə çıxması nəzərdə tutulan yeddi marşrut öyrənilmiş və qiymətləndirmələr aparılmışdı. Onlardan üçü Naxçıvan ərazisindən keçərək Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına, üçü Gürcüstan üzərindən yenə həmin Ceyhan terminalına və nəhayət, biri isə bu ölkə ərazisi ilə Egey dənizindəki İbrikbana terminalına qədər uzanırdı.

Eyni zamanda, göstərilən yeddi istiqamətdən başqa, Bakıdan Rusiyanın Novorossiysk limanınadək marşrut da hər iki ölkədə ekspertlər tərəfindən geniş müzakirə olunurdu. SOCAR-ın prezidenti N.Əliyev sonuncu marşrutla bağlı bildirirdi ki, Rusiya üzərindən Novorossiysk terminalına neftin kiçik partiyasının nəqli məsələsinin nəzərdən keçirilməsi mümkündür. Lakin şimal istiqaməti heç bir halda Bakıdan bilavasitə Aralıq dənizinə çıxan neft kəmərinin inşasına mane olmamalıdır [161]. Belə ki, həm şimal, həm də qərb marşrutu Azərbaycanın geosiyasi maraqlarına uyğun olub, milli neft strategiyasının reallaşdırılmasına lazımi şəraiti yaradırdı.

Göründüyü kimi, hələ əcnəbi şirkətlərlə əməkdaşlıq haqqında danışıqların getdiyi illərdə diqqət mərkəzində olan ixrac marşrutları məsələsi sazişin bağlanması ilə daha ciddi şəkildə müzakirə mövzusuna çevrildi.

Azərbaycan bu vacib məsələnin həllində dövlət mənafelərindən çıxış edirdi. Problemə böyük diqqət yetirən Prezident Heydər Əliyev ixrac marşrutlarının seçimində qonşu Rusiya və İran tərəfindən davamlı təsir göstərildiyini gizlətmirdi. Tarixən bölgədə möhkəm mövqeləri ilə fərqlənən Rusiya Azərbaycanın Xəzər neftinin ixracını tamamilə öz nəzarətində saxlamağa çalışırdı [33].

1995-ci ilin əvvəllərindən ixrac marşrutlarının qiymətləndirilməsi sahəsində başlanmış intensiv araşdırmalar nəticəsində müəyyən təkliflər hazırlandı. Həmin ilin iyununda beynəlxalq konsorsium irəli sürülmüş üç ixrac marşrutu variantını

geniş müzakirə etdi [181, c.4, s.112-113].

Gündəlikdə "Əsrin müqaviləsi" çərçivəsində çıxarılacaq ilkin neftin boru xətti ilə şimal istiqamətində – Rusiyadan, həm neft borusu, həm də dəmir yolu vasitəsilə qərb marşrutu üzrə – Gürcüstandan nəqli, habelə müəyyən partiyalarla İran ilə mübadilə əsasında ixracı məsələsi dururdu.

Geosiyasi problemlər İran variantının gerçəkləşməsinə mane olurdu. Buna görə də müzakrə masasında yalnız Rusiya ərazisindən və Gürcüstandan keçən iki marşrut qaldı. Hər iki ölkənin səlahiyyətli qurumları ilə danışıqlara başlanıldı.

İlk növbədə Rusiya tərəfi ilə danışıqlar aparan SOCAR və ABƏŞ bu ölkənin "Transneft" kompaniyası və müvafiq nazirliyi ilə ilkin neftin tranzit daşınmasına dair sənəd imzaladı. Bununla belə, Azərbaycan strateji mənafelərini yalnız Rusiyadan keçən neft boru xəttindən asılı vəziyyətə sala bilməzdi. Ona görə də alternativ marşrutların öyrənilməsi diqqət mərkəzində idi. Çünki ixracın artırılması ilə bağlı istənilən cəhd Rusiya rəhbərliyinin həmin həcmdə neftin Novorossiysk limanına nəqlinə *"razılıq vermək arzusundan və eləcə də təyin etdiyi inhisarçı tranzit qiymətindən asılı olacaqdı"* [497, s.53].

İxrac problemlərinin həllində Ağ ev də Azərbaycana öz yardımını göstərirdi. Təsadüfi deyil ki, Amerika Prezidenti B.Klintonun israrla verdiyi tövsiyələr nəticəsində ilkin neftin nəqli üçün iki boru kəmərinin inşası məqsədəmüvafiq sayıldı [33]. Bununla bağlı hər iki dövlətin mövqeyini əks etdirən son təkliflər əcnəbi kompaniyaların konsorsiumuna təqdim edildi.

Konsorsium tərəfindən yaradılmış ABƏŞ təklifləri diqqətlə öyrəndikdən sonra 9 oktyabr 1995-ci il tarixində məsələyə dair qərar verdi. ABƏŞ-in rəhbəri T.Adams Azərbaycan Prezidentinə verdiyi məlumatda ilkin neftin tövsiyə olunduğu kimi, iki – şimal (Rusiya) və qərb (Gürcüstan) istiqamətindən Qara dəniz terminallarına ötürülməsi barədə qərar çıxarıldığını bildirdi. O, qeyd etdi ki, *"neftin ixracına dair iki marşrut texniki baxımdan sərfəli, real, iqtisadi baxımdan faydalıdır və bunların*

*hər ikisindən istifadə olunacaqdır”* [181, c.4, s.57].

İxrac marşrutlarını səciyyələndirən ABƏŞ-in rəhbəri bildirdi ki, Gürcüstandan keçən mövcud boru xəttinin bərpa edilməsinə 200 mln, Bakı-Novorossiysk kəmərinin Rusiya ilə sərhədə qədər uzanan hissəsinin yenilənməsinə isə xeyli az – 50 mln dollar maliyyə vəsaiti sərf olunmalıdır. Amma Gürcüstandan keçən boru kəmərinin təmiri üçün böyük məbləğ lazım olsa da, onun kiçik nəql tarifləri hər iki marşrutla neftin tranzit xərclərini, demək olar ki, bərabər səviyyədə saxlamağa imkan verir [220].

Neft kompaniyalarının bu qərarı həm iqtisadi, həm siyasi baxımdan Azərbaycanın maraqlarına cavab verirdi. Bunu nəzərə alan Heydər Əliyev konsorsiumun iki marşrut haqqında qərarının bu layihənin həyata keçirilməsində böyük əhəmiyyət daşıdığını bildirdi [181, c.4, s.60].

Əcnəbi investorların ixrac kəmərləri ilə bağlı mövqeyi Ağ evi də qane etmişdi. Belə ki, Dövlət Departamentinin təmsilçisi N.Berns vurğulamışdı ki, *“ABŞ beynəlxalq neft konsorsiumunun öz neftinin nəqli üçün 10 il ərzində iki neft kəməri çəkmək barədə qərar qəbul etməsindən çox razı qalmışdır”* [4].

Beynəlxalq konsorsiumun seçimi Kreml və Gürcüstan hökuməti tərəfindən də təqdir olunurdu. Çünki ilkin neftin daşınması ilə bağlı görüləcək işlərin əsas neft boru kəmərinin gələcəkdə həmin ölkələrdən çəkilməsində tutarlı arqument rolu oynayacağına ümid bəslənirdi.

Artıq qarşıda boru kəmərlərinin inşası sahəsində həm Rusiya, həm də Gürcüstan tərəfi ilə konkret qərarların qəbul olunması, tikinti işlərinin yerinə yetirilməsi kimi vacib vəzifələr dururdu. Sazişə görə, ilkin neftin hasilatı 1996-cı ildə gözlənildiyi üçün [181, c.4, s.59] bütün tərəflərin çox sıx qrafiklə işləməsi zəruri idi.

Bakı–Novorossiysk neft kəmərini az sərmayə yatırılması ilə daha sürətlə təmir etməyin mümkünlüyü ilə əlaqədar əvvəlcə Rusiya marşrutunun istifadəyə hazırlanması məqsədəuyğun

sayıldı. Bu məqsədlə Moskva ilə aparılan danışıqlar daha intensiv xarakter aldı. Nəhayət, 18 yanvar 1996-cı il tarixində Moskva şəhərində *"Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Azərbaycan neftinin Rusiya ərazisindən tranziti haqqında"* saziş imzalandı [32; 169, s.94].

Bundan sonra lazımi sənədlərin hazırlanması prosesi sürətləndi. Bir ay keçməmiş, yəni fevral ayının 16-da Azərbaycan hökuməti və ABƏŞ nəqletməyə dair müqavilə, eləcə də bir tərəfdən "Transneft" (Rusiya), digər tərəfdən ABƏŞ və SOCAR Azərbaycanda hasil olunan neftin Rusiya ərazisi ilə daşınması haqqında sənəd imzaladılar [169, s.94-97].

Bu razılaşmalar "AÇG" layihəsinin icrası sahəsində ciddi addım hesab olunmalıdır. Bununla Şimal (Bakı–Novorossiysk) neft boru kəmərinin inşası işləri praktik müstəviyə keçirdi.

Başlanğıcını Bakı yaxınlığında Səngəçal terminalından götürərək Rusiyanın Novorossiysk şəhər-limanınadək 1411 km məsafədə uzanan Şimal boru xəttinin Azərbaycan hissəsi 224 km idi. Onun 26 km-lik sahəsinin yenidən inşası nəzərdə tuturdu. Xəttin buraxılış qabiliyyəti il ərzində 5 mln ton həcmində planlaşdırılırdı. Azərbaycandan keçən hissənin 1996-cı ilin axırınadək istifadəyə verilməsi gözlənilirdi [181, c.4, s.117-118].

Şimal boru xəttinin əhəmiyyətini nəzərə alan Azərbaycan hökuməti onun tikinti işlərinə ciddi diqqət yetirirdi. Belə ki, ilkin neftin müqavilə üzrə planlaşdırılan vaxtda çıxarılması ixrac boru kəmərinin istismara hazır olması ilə bilavasitə bağlı idi. Məhz ona görə inşa işlərinin sürətlə aparılması nəticəsində kəmərin Azərbaycan ərazisində tikintisi 1996-cı ilin sonunda yekunlaşdı. Onun illik buraxılış gücü 6 mln tona qədər idi. Zərurət yarandığı təqdirdə, bu həcmi 17 mln tonadək artırmaq olardı. Kəmərin yenidən qurulması və inşa işlərinə 51 mln dollar vəsait xərclənmişdi. Rusiya ərazisində nəql tarifi yüksək idi: bir ton xam neftə görə 15,67 ABŞ dolları. Azərbaycanda isə bu

rəqəm 1,013 dollar həddində müəyyən olunmuşdu [381, s.426].

Beləliklə, kəmərin Azərbaycan seqmenti 1996-cı il dekabr ayının 28-də istismara buraxıldı. "Əsrin müqaviləsi" üzrə neft hasilatı başlamadığı üçün boru xəttinə Azərbaycanın öz neftinin vurulması qərara alındı [181, c.4, s.176-177]. Kəmərə doldurulmuş neft tezliklə – 1997-ci ilin fevralında şimalda keçid məntəqəsinə (Rusiya sərhədinə) yetişdi. Amma qarşı tərəf onun qəbuluna hələ hazır olmadığına görə, bu xətlə neftin ötürülməsi həmin ilin may ayınadək dayandırıldı [181, c.4, s.179]. Məsələnin mahiyyəti ondan ibarət idi ki, Rusiya boru kəmərinin Çeçenistan ərazisində təmir edilməsinə dair öhdəliyini vaxtında yerinə yetirməmişdi. Çünki Çeçenistanda hərbi-siyasi durumun qeyri-sabit olması, habelə Kreml ilə tranzit tariflərinə görə fərqli mövqelər Şimal neft kəmərinin o ərazidəki hissəsinin bərpası işlərinin aparılmasına əngəl törədirdi. Əgər Moskva bir ton neftə görə 0,43 dollar tranzit haqqı təklif edirdisə, Çeçenistan hökuməti daha çox – 4,27 dollar almaqda israr göstərirdi [381, s.442].

Rusiya tərəfi sazişlə təsdiqlənən öhdəliyinin pozulduğunu açıq etiraf edə bilmirdi. Buna görə də SOCAR-a ünvanlanmış məktubda işlərin ləngiməsini əsaslandırmağa çalışan "Transneft" hökumətlərarası sazişdə guya SOCAR neftinin yox, konsorsiumun hasil etdiyi neftin daşınmasının əks olunduğunu göstərirdi [410].

Amma "Transneft"in bu dəlili heç də əsaslı deyildi. Belə ki, 18 yanvar 1996-cı il tarixli hökumətlərarası sazişdə məhz *"Azərbaycan neftinin"* Rusiya ərazisi ilə tranzit daşınması nəzərdə tutulurdu [169, s.94-97].

Göründüyü kimi, Azərbaycan neftinin Rusiya üzərindən daşınması naminə ciddi şəkildə davamlı səylər göstərən Kreml tranzit haqqında sazişin şərtlərini yerinə yetirmirdi. Buna görə "Əsrin müqaviləsi" üzrə işlərin təsdiqlənmiş planı pozula bilər və ilkin neftin çıxarılması təxirə salınardı.

"AÇG" yataqları üzrə müqavilədə ilkin neftin hasilatı

üçün 18 ay nəzərdə tutulmuşdu. Lakin ixrac marşrutuna dair qərarın gec qəbul edilməsi, habelə Rusiya ilə neftin tranzit daşınması barədə sazişin imzalanmasına bir ildən də artıq müddət tələb olunması konsorsiumu ilkin neftin hasilatı vaxtını dəyişdirməyə məcbur etmişdi. Bununla da 1996-cı ilin ortalarına planlaşdırılan hasilat növbəti ilin 3-cü rübünə keçirilmişdi [410]. Bundan sonra Çeçenistandakı hərbi-siyasi gərginliyə görə də Bakı–Novorossiysk boru kəmərinin istismara buraxılmasının ləngiməsi ilkin neftin çıxarılmasını yenidən gecikdirirdi [381, s.443]. Çünki beynəlxalq bazarlara çatdırılması təmin edilmədən neft hasil oluna bilməzdi.

Bunu nəzərə alan Azərbaycan meydana çıxmış problemin tezliklə aradan qaldırılmasına çalışırdı. SOCAR-ın bu məqsədlə “Transneft” şirkəti ilə 1997-ci ilin mart ayında apardığı müzakirədə hökumətlərarası sazişin icrası məsələləri diqqət mərkəzində oldu. Rusiya kompaniyası Azərbaycandan neftin daşınması üçün bütün tədbirlərin görüldüyünü vurğulasa da, boru xəttinin Çeçenistan hissəsinin bərpa olunmadığını təsdiq etdi.

Əldə olunan razılaşmaya əsasən, Azərbaycan 1997-ci ilin oktyabr ayının 1-dən kəmərlə neftin göndərilməsinə başlayaraq, 1998-ci ildə onun həcmini ən azı 1,5 mln tona çatdırmalı idi. 2002-ci ildə isə Rusiya marşrutu ilə ötürülən neftin həcmi, sazişin şərtinə uyğun olaraq, 5 mln ton təşkil etməli idi [457].

Bununla belə, Şimal boru xəttinin ləng bərpa olunması Azərbaycanda haqlı narazılığa səbəb olurdu. Hətta SOCAR və ABƏŞ 1997-ci ilin iyununda bəyan etdilər ki, neftin daşınmasına həmin ilin oktyabr ayında başlanmayacağı halda, onlar məsələni beynəlxalq arbitraja çıxaracaqlar.

Yalnız bundan sonra Rusiya tərəfi problemlərin həlli ilə bağlı işləri sürətləndirdi. Artıq iyulda üç kompaniya – SOCAR, “Transneft” və “Yunko” (Çeçenistan) neftin tranzitinə dair müqavilə imzaladı. Mübahisə doğuran məsələlər həll olundu. Çeçenistan tərəfi neft kəmərinin təhlükəsizliyinə təminat verdi. Moskva bir ton neftin ötürülməsinə görə Çeçenistana 0,43 dollar

tranzit haqqı ödəyəcəkdi [320; 378].

Əldə olunmuş razılıq Çeçenistanda təmir-bərpa işlərinin sürətlə başa çatdırılmasına imkan yaratdı. Lakin tariflə bağlı mübahisələr bununla bitmədi. Nəhayət, il yarımdan sonra Moskva Çeçenistana ayrılan tarifi 3,58 dollara qaldırdı [481].

Şimal ixrac kəmərinin Çeçenistan da daxil olmaqla Rusiya ərazisindən keçməsi Kremlə iqtisadi dividentlər qazandırmaqla yanaşı, həm də mühüm geosiyasi əhəmiyyət kəsb edirdi. Çünki bir tərəfdən Rusiya tranzit daşımalarından maliyyə mənbəyi qazanırdı. Bununla bərabər, Rusiyanın rəsmi dairələrinin etiraf etdikləri kimi, həmin ərazidən keçən boru kəməri Moskvanın Çeçenistanda və Cənubi Qafqazda mövqelərini möhkəmləndirməsinə zəmin yaradırdı [ 150; 283].

Dəfələrlə vaxtın dəyişdirilməsinə baxmayaraq, nəhayət, təmir yekunlaşdıqdan sonra 25 oktyabr 1997-ci il tarixində Azərbaycan neftinin Şimal boru xətti ilə ixracına başlanıldı [28].

Yəni Azərbaycan Bakı–Novorossiysk kəməri ilə Rusiya üzərindən yenidən neft ixracı imkanı əldə etdi. Bununla da əcnəbi sərmayəçilərlə birgə reallaşdırılan layihələrin önündəki ciddi maneələrdən biri olan ixrac problemi həllini tapmağa başladı.

Beynəlxalq konsorsium tərəfindən "Çıraq-1" dəniz platformasında hasil olunan ilkin neft 1998-ci ilin ilk mart günlərində şimalda Rusiya sərhədini aşdı [151]. Bu hadisə Azərbaycanın əcnəbi investorlarla həyata keçirdiyi neft müqaviləsinin icrasında yeni mərhələnin başlanması idi.

Şimal marşrutunun istifadəyə verilməsi ABƏŞ-in ixrac fəaliyyətini canlandırmışdı. 1998-ci ildə bu kəmərlə ötürülən xam neftin həcmini 1,5 mln tona çatdırmaq nəzərdə tutulurdu. Eyni zamanda, 1998-ci ilin əvvəllərində neftin qiymətinin kəskin enməsi SOCAR-ı sərfəli olmadığı üçün ixracı dayandırmağa sövq etdi. Bakı–Novorossiysk boru kəməri bütünlüklə ABƏŞ-in istifadəsinə keçdi. SOCAR yalnız 1998-ci ilin sentyabr ayında bu xətlə ixracı qismən bərpa edə bildi. Amma

kəmərdə daha az yüklənmə dövründə onun nəql imkanlarından istifadə etmək mümkün idi [381, s.445; 395].

Həmin illərdə Çeçenistanda hökm sürən gərgin hərbi-siyasi vəziyyətə görə Bakı–Novorossiysk boru xəttindəki boşdayanmalar ABƏŞ-ə neft daşınmasını öz potensialına uyğun şəkildə təşkil etməyə mane olurdu. Xüsusilə 1999-cu ildən başlayaraq marşrutun fəaliyyətində intensivliyi artan daha uzunmüddətli fasilələr ciddi problemlər yaradırdı.

Konsorsiumun yaydığı məlumata əsasən, Şimal marşrutunun Çeçenistandan keçən hissəsindəki yanğınla əlaqədar bu istiqamətdə neftin ixracı 4 fevral 1999-cu il tarixindən tam dayandırılmışdır. Buna görə də şirkətlər gündəlik hasilatı kəskin azaltmağa məcbur olmuşdular. Hətta Səngəçal terminalının potensialından maksimum istifadə etməklə bu kritik vəziyyətdən çıxmaq mümkün olmamışdır. Bu isə "Çıraq-1" platformasında, müvəqqəti də olsa, hasilatın dayandırılması ilə nəticələnmişdir [81].

Bununla əlaqədar SOCAR da özünün neft ixracını azaltmış, həm də "Çıraq-1"-dən hər gün aldığı 2,5 mln kubmetrlik səmt qazını itirmişdir.

Verilmiş məlumata görə, 1998-ci ilin yayından başlayaraq (avqust ayından) *"Şimal boru kəmərində boşdayanma halları onun istismar vaxtının 25 faizini təşkil etmişdir"* [81]. Növbəti – 1999-cu ildə də vəziyyətin belə davam etməsi boşdayanma hadisələrinin 30 faizə çatması və neft ixracı həcminin 130 min ton azalması ilə nəticələnmişdir. Həmin vaxt durumun bu qədər gərginləşməsinə orada hökm sürən qeyri-sabit vəziyyət və 1999-cu ilin avqustunda başlanmış II Çeçenistan müharibəsi təsir göstərmişdir.

Görülən tədbirlər sayəsində fevralın 9-da boru kəmərinin işi bərpa edildi. Amma sonrakı günlərdə təkrarlanan qəza halları ixracın tez-tez dayandırılmasına səbəb olmuşdu [232; 319]. Bu isə beynəlxalq konsorsiumun ahəngdar fəaliyyətini pozur, ciddi maddi ziyan vurur, habelə işgüzar nüfuzuna xələl gətirirdi.

Gürcüstanın Supsa terminalına çəkilmiş boru kəmərinin istifadəyə verilməsi Azərbaycandan neft daşınmasında problemlərin həllinə kömək edə bilərdi. Bu marşrutun rəsmi açılışı 1999-cu ilin aprel ayına nəzərdə tutulurdu [380]. Bakı–Supsa kəməri konsorsiumu Rusiya marşrutunun tam asılılığından xilas edəcəkdi. Eyni zamanda, nəzərə almaq lazımdır ki, Azərbaycan neftinin Şimal xəttndə Rusiyanın özünün "Urals" sortu ilə qarışması onun keyfiyyətini aşağı salırdı. Buna görə Novorossiyskdə neftin hər barelinin 1-1,5 dollar ucuz satılması Supsa marşrutunun rəqabət qabiliyyətini və Azərbaycan üçün əhəmiyyətini artırırdı.

Qərb boru xəttinin fəaliyyətə başlaması ilə Bakı neftinin daşınmasında inhisarçılığını itirən Şimal kəmərinin işində yaxşılığa doğru dəyişiklik olmadı. Bunun əksinə olaraq, 1999-cu ildə bu istiqamətdə neftin ötürülməsində daha çox fasilələr yarandı.

Azərbaycanın mənafelərinə xələl gətirən vəziyyətlə bağlı həmin ilin iyulunda bəyanat yayan SOCAR göstərirdi ki, *"ilin əvvəllərindən 95 gün boşdayanmalara yol verilmiş, nəticədə Azərbaycan neftinin dünya bazarına çıxarılması məhdudlaşmışdır ki, bu da Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə valyuta vəsaitinin daxil olmasına ciddi təsir göstərmiş, ümumən respublika iqtisadiyyatına xeyli ziyan vurmuşdur"* [80].

Bəyanatda həm də vurğulanırdı ki, Şimal kəmərindəki bu problemlərin müntəzəm surətdə Rusiya tərəfinin diqqətinə çatdırılmasına baxmayaraq, durum dəyişməmiş, Azərbaycan bu istiqamətdə neft göndərilməsini tam dayandırmışdır. Bu isə gələcəkdə Rusiya üzərindən neft daşımalarının xeyli ixtisar olunması ilə nəticələnə bilər.

SOCAR Rusiyadan keçən kəmərdəki problemləri qeyd edərək, həm də 1999-cu ilin aprel ayında istismara buraxılmış *"Bakı–Supsa Qərb neft boru kəmərinin Azərbaycan neftinin dünya bazarına çıxarılmasında mühüm əhəmiyyətini"* vurğulayır və Şimal marşrutundan o vaxtadək olan asılılığın başa çatdığını göstərirdi.

O dövrdə SOCAR-ın 1-ci vitse-prezidenti kimi Rusiya marşrutunun fəaliyyətindən narazılığını ifadə edən İlham Əliyev bildirirdi ki, *"Şimal kəmərinin hazırkı istismarı sadəcə fəaliyyətin imitasiyasıdır"* və bu durum hökumətlərarası sazişin müddəalarına uyğun gəlmir [470].

Bakı–Supsa kəmərinin ahəngdar fəaliyyətinə baxmayaraq, Azərbaycan Rusiya marşrutundan imtina etmək fikrində deyildi. Çünki qərb boru kəməri bütünlüklə ABƏŞ nefti ilə doldurulduğuna görə, SOCAR öz ixracını yalnız Novorossiysk terminalı vasitəsi ilə həyata keçirə bilərdi.

Beləliklə, Şimal kəmərində ABƏŞ-in operatorluğu 2007-ci ilin axırında başa çatdı. Növbəti ildən bu funksiya SOCAR-a keçdi. Bundan sonra SOCAR Rusiya marşrutu ilə özünün və müştərək müəssisələrin hasil etdiyi neftin ixracına başladı.

Lakin Azərbaycanın kəmərlə sazişdə nəzərdə tutulduğudan – 5 mln tondan az neft nəql etməsi "Transneft" şirkətinin narazılığına səbəb olurdu. 2011-ci ildə Rusiya tərəfi tranzit haqqında sazişin yenilənməsi təşəbbüsü ilə çıxış etdi. "Transneft"in arqumenti ondan ibarət idi ki, kəmərlə nəql olunan neftin az həcminə görə, şirkət hər il 50 mln ABŞ dolları itirirdi [426].

Statistikaya görə, Azərbaycan Novorossiysk limanına ildə ən azı 2 mln ton xam neft göndərirdi. 2010-cu ildə bu rəqəm 2,2 mln tona bərabər olmuşdur. Məsələyə münasibətini ifadə edən SOCAR bildirirdi ki, ixracın 5 mln tona qaldırılacağı halda, bu kəmərlə ötürülən neftin qiymətləndirilməsi üçün *"keyfiyyət bankı"*na ehtyac yaranacaqdır. Belə ki, Azərbaycan nefti Şimal boru kəmərində Sibirin aşağı sortlu xammalı ilə qarışdırıldığına görə alıcılara yüksək keyfiyyətli SOCAR neftini çatdırmaq mümkün olmur. Halbuki Bakı–Supsa kəməri ilə daşınan "Azeri Light" sortu beynəlxalq bazarda Novorossiysk terminalına çatdırılan "Urals" markasından 3-4 ABŞ dolları baha satılırdı. Belə olan təqdirdə, Azərbaycanın maliyyə itkiləri haqqında fikir yürütmək o qədər də çətin deyil. [426].

Xammalın öz keyfiyyətini itirməsinə və tranzit haqqının

xeyli yüksək olmasına baxmayaraq, Azərbaycan Şimal marşrutu ilə neft ixracının həcmini sabit səviyyədə saxlayırdı. 2011–2012-ci illərdə SOCAR Rusiya ərazisi ilə xarici alıcılara ildə, demək olar ki, 2 mln ton xam neft çıxarmışdır [383; 425].

Rusiya ilə tranzıtə dair mübahisəli məsələlərlə bağlı razılığın əldə olunmaması, nəhayət, Moskvanın hökumətlərarası müqavilə barədə qəti qərar verməsi ilə nəticələndi. Belə ki, Baş nazir D.Medvedevin 5 may 2013-cü il tarixli sərəncamı ilə Azərbaycan neftinin Bakı–Novorossiysk kəməri ilə daşınmasını tənzimləyən 1996-cı ildə imzalanmış müqavilə 2014-cü il yanvarın 1-dən qüvvədən düşürdü [490].

Beləliklə, Şimal boru kəmərinin fəaliyyətini dayandırması ilə Azərbaycanın özünün hasil etdiyi bütün neftin Bakı–Supsa və Bakı–Ceyhan marşrutları ilə dünya bazarına çatdıracağını gözləmək olardı. Lakin Şimal xəttindən imtina Azərbaycanın ixrac marşrutlarının şaxələndirilməsi prinsiplərinə uyğun deyildi. Bu həm də Rusiya ilə qarşılıqlı iqtisadi və siyasi əlaqələrin inkişafı strategiyası ilə uzlaşmırdı.

Təsadüfi deyil ki, Azərbaycan tərəfi Rusiya hökumətinin bu qərarını təmkinlə və anlaşıqlı qarşıladı. SOCAR-ın mayın 15-də yaydığı məlumatda göstərilirdi ki, Şimal marşrutu ilə neftin nəqlinə dair Rusiya-Azərbaycan hökumətlərarası müqavilənin ləğvi *“kütləvi informasiya vasitələrində qeyd olunduğu kimi, siyasi motivli bir qərar deyil, sırf iqtisadi xarakter daşıyır”* [82]. Bakı–Novorossiysk neft kəmərinin fəaliyyətini yüksək qiymətləndirən SOCAR Rusiya ərazisi ilə neftin tranzitini tamamilə dayandırmaq niyyətində olmadığını bildirir və “Transneft” şirkəti ilə kommersiya danışıqlarının aparılmasına tərəfdar olduğunu bəyan edirdi.

Rusiya tərəfi də yeni prinsiplər əsasında əməkdaşlığın davam etdirilməsində maraqlı idi. Buna görə də aparılan müzakirələr qarşılıqlı razılığa gəlməyə imkan verdi. 2014-cü ilin fevralında SOCAR ilə “Transneft” Azərbaycan neftinin Şimal marşrutu ilə daşınmasına dair birillik kommersiya sazişi imzaladı [445].

Sazişin detalları açıqlanmasa da, tranzit tarifinin əvvəlkindən (15,67 dollardan) bir qədər yüksək olacağı şübhə doğurmurdu. SOCAR Şimal marşrutu ilə özünün çıxardığı və digər şirkətlərin quruda hasil etdiyi neftin böyük hissəsini daşımağı nəzərdə tuturdu. Şirkətin nümayəndəsinin məlumatına görə, il ərzində bu istiqamətdə 1,02 milyon ton, BTC ilə isə 530 min ton neft nəql olunması planlaşdırılırdı [445].

Qeyd etmək olar ki, yeni müqavilə qarşılıqlı maraqlara cavab verirdi. Rusiya tərəfi kəmərin kommersiya prinsipləri əsasında fəaliyyət göstərməsinə görə əlavə gəlir əldə edəcəkdi. Azərbaycan isə enerji təhlükəsizliyinin təmin olunması məqsədilə yaradılan şaxələndirilmiş ixrac marşrutları sistemini qoruyub saxlayırdı. Bu həm də Rusiya ilə iqtisadi və siyasi münasibətlərin inkişafına öz töhfəsini verirdi.

İki ölkə arasında tranzit məsələlərinin tənzimlənməsi Şimal ixrac boru kəmərinin fəaliyyətinin davam etdirilməsi üçün şərait yaratdı. Düzdür, müəyyən fasilələrə görə, nəql olunan neftin həcmi nisbətən aşağı düşmüşdü. Belə ki, 2013-cü ildə bu marşrutla 1,75 mln ton, 2014-cü ildə isə daha az – 0,93 mln ton neft ixrac edilmişdi [465]. Bununla belə, 2015-ci ildə Novorossiysk limanına nəql olunan Azərbaycan neftinin həcmi artaraq 1,27 mln ton, 2016-cı ildə 1,22 mln ton, 2018-ci ildə isə 1,3 mln ton təşkil etmişdir [196; 298; 500]. Lakin sonrakı illərdə kəmərin fəaliyyəində texniki fasilələr olduğuna görə neft ixracı azalaraq 2019–2020-ci illərdə müvafiq olaraq 824 min və 613 min tona bərabər olmuşdur [482].

Araşdırmadan belə nəticəyə gəlmək olar ki, "Əsrin müqaviləsi"nin həyata keçirilməsinin mühüm şərtlərindən biri olan Azərbaycan neftinin ixracı məsələlərinin həlli mürəkkəb texniki, maliyyə-iqtisadi və siyasi problemlərin aradan qaldırılması ilə müşayiət olundu. Vaxt və maliyyə qıtlığı, gərgin geosiyasi mübarizə şəraitində Azərbaycanın ümumi maraqlarına uyğun və strateji baxımdan əhəmiyyətli, düzgün seçim aparıldı. İxrac boru kəmərləri sisteminin şaxələndirilməsi strategiyasının yerinə yetirilməsi çərçivəsində Bakı–Novorossiysk boru xəttinin

inşası haqqında qərar qəbul edildi və uğurla reallaşdırıldı. Hazırda fəaliyyət göstərən ilk neft boru kəməri Azərbaycanın milli neft strategiyasının həyata keçirilməsinə mühüm töhfəsini verdi.

### 2.3. Neft ixracı marşrutlarının şaxələndirilməsi. Qərb neft boru kəməri

ABƏŞ-in Rəhbər komitəsinin müqavilə üzrə ilkin neftin dünya bazarlarına çıxarılması üçün iki variant – Gürcüstan və Rusiya marşrutu barədə 1995-ci ilin oktyabrında qəbul etdiyi qərar ixrac boru kəmərlərinin inşası işlərini sürətləndirdi. Tranzit ölkələrin müvafiq hökumət qurumları ilə danışıqlar eyni zamanda aparılırdı. Azərbaycanın Rusiya ilə rəsmi sənədləri imzalamasından heç bir ay ötməmiş, 8 mart 1996-cı il tarixində Gürcüstanla da ilkin neftin bu olkə ərazisindən tranzit daşınması haqqında hökumətlərarası saziş bağlandı [169, s.99-110].

Sənədin imzalanması Gürcüstanın Qara dəniz sahilindəki Supsa limanına çəkiləcək ixrac boru xəttinin texniki və iqtisadi cəhətdən əsaslandırılmasına, habelə onun layihələndirilməsi prosesinə təkan verdi. Boru kəməri ilə il ərzində 5 mln ton neft ötürülməsi planlaşdırılırdı. Aparılmış ilkin hesablamalara əsasən, 926 km uzunluğunda olan Bakı–Supsa marşrutunun böyük hissəsi istismara yararlı idi. Onun yalnız 138 kilometrində yeni neft kəmərinin tikilməsi gözlənilirdi [181, c.4, s.118].

1996-cı il oktyabrın 10-da ABƏŞ-in keçirdiyi müşavirədə bildirildi ki, Qərb ixrac kəmərinin inşa işlərinin 1997-ci ilin martından 1998-ci ilin axırınadək aparılması nəzərdə tutulur [181, c.4, s.133].

Həmin iclasda Prezident Heydər Əliyev Qərb boru kəmərinin tikintisinə Gürcüstanla müqavilə imzalandıqdan bir il sonra başlanmasından narahatlığını ifadə edərək, ləngimənin səbəbləri ilə maraqlanmışdı. ABƏŞ nümayəndələrinin işlərin gecikməsi səbəblərini Supsa limanı ərazisinin mürəkkəb və əlverişsiz geo-

loji süxurları ilə bağlı arqumentlərini əsaslı hesab etməyən Heydər Əliyev boru kəməri tikintisinin başa çatdırılmasının qrafiklə müəyyən olunmuş vaxtdan sonra da (1998-ci ilin sonu) gecikdirilməsinin yolverilməz olduğunu bildirmişdi [181, c.4, s.140-141; 174].

Bakı–Supsa boru kəmərinin tikintisi üçün ABƏŞ-in elan etdiyi müsabiqəyə dünyanın müxtəlif yerlərindən – ABŞ, Avstraliya, Azərbaycan, Böyük Britaniya, Fransa, Türkiyə və başqa ölkələrdən kompaniyalar qoşulmuşdu [235].

1997-ci ilin aprel ayında tenderin elan olunmuş yekunlarına görə, Qərb boru kəmərinin Gürcüstandan keçən hissəsini tikmək hüququnu Avstraliyanın "Makkonnell Douell midl ist" kompaniyası, Azərbaycan ərazisindəki sahəsini isə – Azərbaycan və Türkiyənin birgə müəssisəsi olan "Tekfen-Azfen" qazanmışdı. Layihəyə əsasən, Azərbaycanda 47 km, Gürcüstanda isə 39 km uzunluğunda yeni boru xətti tikilməli idi. Kəmərin qalan hissəsində müəyyən bərpa işlərinin aparılması planlaşdırılırdı [2].

ABƏŞ-dən verilən məlumata əsasən, Bakı–Supsa boru kəmərinin inşa işlərinə ayrılan büdcə 315 mln ABŞ dolları təşkil edirdi [2].

Bundan sonra ixrac boru kəmərinin bilavasitə tikinti işlərinə başlamaq mümkün oldu. Təməlqoymanın ləngiməsi inşanın daha intensiv şəkildə həyata keçirilməsini zəruri edirdi. Eyni zamanda, Şimal marşrutunun nəzərdə tutulduğu vaxtda istifadəyə verilməsi ilə bağlı gözləntilər doğrulmadığına görə Qərb kəmərinin tikintisinin sürətləndirilməsi vacib idi. Çünki Azərbaycanın Şimal boru kəməri ilə ötürdüyü xam neft 1997-ci ilin fevralında Rusiya sərhədində ilişib qalmışdı. Moskva Azərbaycan neftinin Novorossiysk limanına tranzitinə dair öhdəliyini yerinə yetirməyə hazır deyildi. Rusiya tərəfi neftin nəqlinə uzun süründürmələrdən sonra yalnız oktyabr ayının 25-də başlaya bildi. Məhz ona görə Bakı-Supsa neft kəmərinin vaxtında istismara buraxılması həm Azərbaycanın, həm də əcnəbi investorların

maraqlarına cavab verirdi.

Əvvəlcə tikinti qrafikə uyğun getsə də, kəmərin yararlı sayılan hissəsində aparılmış sınaq işləri köhnə boruların təzyiqə dözmədiyini aşkar etdi. Bununla əlaqədar olaraq ABƏŞ həmin yerdə yeni boruların quraşdırılmasının zəruriliyini bildirdi. 1998-ci ilin martında bəyan edildi ki, Bakı–Supsa boru kəmərinin tikintisini, gözlənildiyi kimi, ilin axırında yekunlaşdırmaq mümkün olmayacaq [381, s.447-448].

Məlum oldu ki, təmir-bərpa ərəfəsində Qərb neft kəmərinin ümumi vəziyyətini araşdıran podratçı "Fluor Daniel" şirkəti apardığı qiymətləndirmədə səhv buraxmışdır. Sınaq işlərinin nəticələri isə layihənin büdcə xərclərinin artırılmasını labüd edirdi.

Yuxarıda göstərilənləri əsas götürən ABƏŞ 1998-ci ilin aprel ayında Bakı–Supsa boru kəmərinin inşası üçün ayrılmış 315 mln dollarlıq büdcənin 590 mln dollaradək artırılması barədə qərar qəbul etdi. Layihə əvvəlki texniki göstəricilərinə uyğun – 24 düym ölçülü borularla həyata keçirilməli idi [418].

SOCAR kəmərin ötürücülük imkanlarının yenə də 5 mln ton səviyyəsində qalmaqla büdcəsinin artırılmasını məqbul saymadı. Əvvəlki texniki parametrləri ilə Qərb marşrutunun rentabelli olmayacağını əsas gətirən SOCAR tikintiyə əlavə ayrılan 275 mln ABŞ dollarının ABƏŞ-ə ödənilməyəcəyini bəyan etdi.

Beləliklə, SOCAR ilə əcnəbi tərəfdaşları arasında Qərb kəməri ilə bağlı fikir ayrılığı meydana çıxdı. Azərbaycan öz mənafelərindən çıxış edərək, ayrılmış əlavə vəsaitin işində səhv etmiş podratçı kompaniyanın ödəməli olduğunu təkidlə əsaslandırırdı. Əcnəbi investorlar isə bu arqumenti qəbul etmirdilər. Yaranmış ziddiyyətlər layihənin həyata keçirilməsinə əngəl törədə bilərdi.

Azərbaycan bu durumdan çıxış yolunu neft kəmərinin ötürücülük qabiliyyətinin artırılmasında görürdü. Həmin təklifə əsasən, kəmərin tikintisinin diametri 24 düym olan borularla

yox, 42 düymlük borularla aparılması daha məqsədəuyğun sayılırdı. Doğrudur, belə halda layihənin büdcəsi artaraq 1 mlrd ABŞ dolları həddinə çata bilərdi. Lakin SOCAR-ın mövqeyinə görə, Qərb marşrutunun yeni parametrlərlə inşa edilməsi gələcəkdə bu kəmərin BTC ƏİBK-nın tərkib hissəsi olaraq istifadəsinə şərait yaratdığı üçün tələb olunan əlavə xərclər özünü doğruldar.

Amma SOCAR-ın bu təklifi əcnəbi neft kompaniyaları tərəfindən məqbul sayılmadı. Rəhbər komitənin mayın 27-də keçirilmiş iclasında Bakı–Supsa boru kəmərinin inşa işlərini ABƏŞ-in ayırdığı vəsait hesabına tamamlamaq barədə qərar qəbul edildi [414; 418].

Beləliklə, SOCAR və ABƏŞ-in fərqli mövqeləri Qərb marşrutu üzrə tikintini dayandırmadı. Çünki Şimal boru kəmərinin fəaliyyətində tez-tez yaranan uzunmüddətli fasilələr alternativ neft kəmərinin tikilməsi zəruriliyini artırırdı. Düzdür, artıq tikinti işlərinin başa çatma müddətinin uzanacağı məlum idi. Bununla belə, Azərbaycan neftinin Qərb boru kəməri ilə təmiz şəkildə, Rusiyanın aşağı keyfiyyətli Urals sortu ilə qarışmadan dünya bazarına çatdırılaraq, hər barelin ən azı 1-2 dollar baha satılmasını təmin etdiyinə görə bu layihənin tezliklə reallaşdırılmasına maraq yüksək idi.

Azərbaycan Bakı–Supsa boru kəmərinin inşasında yaranmış maliyyə problemləri ilə bağlı məsələdə qətiyyətli mövqe tuturdu. Layihənin qiymətləndirilməsində xarici şirkətlərin səhvə yol verdiyini vurğulayan SOCAR-ın birinci vitse-prezidenti İlham Əliyev Qərb marşrutunun tikintisi başa çatanadək ABƏŞ və Azərbaycanın əlavə xərclərin ödənilməsi üzrə razılığa gəlməyəcəyi təqdirdə, məsələnin beynəlxalq arbitraj məhkəməsində həll ediləcəyini bildirirdi [415; 418].

İlham Əliyev qeyd edirdi ki, Qərb marşrutunun bərpası Şimal boru kəməri ilə müqayisədə daha çox xərc tələb etsə də, Gürcüstan ərazisi ilə neftin nəqletmə tarifləri aşağı olduğuna görə hər iki boru kəməri iqtisadi baxımdan eyni dərəcədə sərfəli

idi. Lakin Qərb marşrutu üzrə xərclərin iki dəfəyə qədər artması vəziyyəti əsaslı şəkildə dəyişirdi [415; 418]. Bu isə Azərbaycanı qane etmirdi. Çünki belə halda boru kəmərinin iqtisadi səmərəliliyi aşağı düşür və Azərbaycanın gəliri azalırdı.

Əlavə xərclərin ödənilməsi məsələsində SOCAR ilə xarici şirkətlər razılığa gəlməsələr də, ABƏŞ Qərb boru kəmərinin inşa olunmasında məsuliyyəti öz üzərinə götürdü və nəhayət, 1998-ci ilin axırında tikintini, demək olar ki, sona çatdırdı. Məhz buna görə dekabrın 10-da Qərb kəmərinə "AÇG" layihəsi çərçivəsində hasil edilmiş ilkin neftin vurulmasına başlandı [237].

Boru xəttinin doldurulması uzun vaxt tələb edirdi. Həmin dövrdə Qara dəniz sahilində neftin qəbul olunması üçün Supsa terminalının tikintisi tamamlanmalı idi. Bu işlərin başa çatdırılması 1999-cu ilin aprel ayına planlaşdırılırdı. Həmin ilin fevral ayının 20-də verilən məlumata görə, Supsada terminalın tikintisi sona yetdi [337].

Xəzər sahilində Səngəçal terminalından ötürülməsinə 1998-ci ilin dekabr ayında başlanmış neft üç aydan sonra – 1999-cu ilin mart ayının 11-də Qara dəniz sahilində Supsa terminalına gəlib çatdı [219].

Nəhayət, aprel ayının 17-də Qərb neft boru kəməri ilə Supsa terminalının təntənəli rəsmi açılışı keçirildi. Bu mərasimdə Azərbaycan və Gürcüstanın dövlət başçıları ilə yanaşı, Ukrayna Prezidentinin və ABŞ Prezidenti nümayəndəsinin iştirakı hadisənin beynəlxalq əhəmiyyətini göstərirdi [238].

Beləliklə, nəinki Azərbaycanın, bütün Xəzər dənizi regionunun neft ehtiyatlarının dünya bazarına çıxarılması üçün böyük əhəmiyyət kəsb edən mühüm layihənin icra olunması uğurla başa çatdırıldı. Qərb (Bakı–Supsa) ixrac boru kəmərinin istifadəyə verilməsi "Əsrin müqaviləsi"nin həyata keçirilməsində ciddi addım idi. Bu, ixrac marşrutlarının şaxələndirilməsinə və enerji təhlükəsizliyinin təmin olunmasına daha möhkəm əsas yaradırdı.

Çəkilişi başa çatdıqdan sonra dəqiq uzunluğu 827 km təşkil edən neft kəmərinin 772 km-lik hissəsi polad borulardan yenidən qurulmuşdur. Qalan 55 km-lik hissəni isə əsaslı təmir etmək lazım gəlmişdir [236].

İllik ötürücülük qabiliyyəti 5,1 mln ton neft həcmində olan boru kəməri ilə daşınan xammalın Supsa terminalında qəbulu üçün ümumi tutumu 400 min tona çatan 4 böyük çən tikilmişdir [117].

Qərb boru kəməri Azərbaycanla yanaşı, Gürcüstanın da iqtisadi inkişafına və siyasi həyatına mühüm təsir göstərir. Belə ki, regionda sərmayə yatırılmasının artmasında, əhalinin sosial rifah halının yaxşılaşmasında, sabit siyasi durumun bərqərar olmasında Bakı–Supsa ixrac kəmərinin rolu qeyd edilməlidir. Bir faktı nəzərə almaq lazımdır ki, yalnız boru xəttinin tikinti işlərində 4 min nəfərdən çox işçi çalışmışdır. Onların 70 faizi kəmərin keçdiyi ölkələrin – Azərbaycan və Gürcüstanın vətəndaşı olmuşdur [117].

Neft kəmərinin sərmayəçi kompaniyaların maliyyə maraqlarını təmin etməsi tranzit tarifləri ilə bilavasitə bağlıdır. Bu baxımdan Bakı–Supsa marşrutu daha sərfəli şərtlərlə fəaliyyətə başladı. Belə ki, Şimal neft kəməri vasitəsilə bir ton neftin nəqli üçün 15,67 ABŞ dolları məbləğində tarif müəyyən olunmuşdusa, Bakıdan Supsa terminalına qədər tarif bir tona görə 3,14 dollar (bir barel üçün 0,43 dollar) təşkil edirdi. Bu məbləğin 1,20 ABŞ dolları Gürcüstana, qalan hissəsi isə Azərbaycana çatmalı idi [117; 409; 455].

Faktlar göstərir ki, *“Şimal marşrutu ilə müqayisədə daşınma tariflərinin xeyli aşağı olması Qərb boru kəmərinin rəqabət qabiliyyətini ciddi şəkildə artırırdı. Buna görə də Bak–-Supsa ixrac boru kəmərinin istifadə olunması həm xarici neft şirkətləri, həm də Azərbaycan üçün iqtisadi baxımdan sərfəli idi”* [263, s.28]. Aparılmış hesablamalar da təsdiq edirdi ki, neftin Gürcüstan marşrutu ilə xarici bazarlara çıxarılması o dövrdəki qiymətlər nəzərə alınmaqla Azərbaycana bir ildə

böyük məbləğdə qənaət etməyə şərait yarada bilərdi [455].

Aydın idi ki, Bakı–Supsa marşrutu üzrə tariflər neft ixracatçıları üçün sərfəli olduğu kimi, tranzit ölkələrinin də mənafelərinə uyğun gəlirdi. Belə ki, SOCAR-ın prezidenti N.Əliyevin fikrincə, bu boru kəməri ilə ildə 5 milyon ton neftin nəql olunması *"Azərbaycana 10 milyon, Gürcüstana isə 7 milyon ABŞ dolları iqtisadi mənfəət gətirəcəkdi"* [117].

Neft boru kəmərinin iqtisadi əhəmiyyəti, əlbəttə ki, yalnız onun tranzit gəlirləri ilə məhdudlaşmırdı. Layihənin uğurla gerçəkləşdirilməsi daha çox "Əsrin müqaviləsi"nin sürətlə həyata keçirilməsinə əlverişli şərait yaradırdı. Bununla yanaşı, ikinci ixrac boru kəmərinin istifadəyə verilməsi Xəzər dənizi hövzəsində karbohidrogen ehtiyatlarının kəşfiyyatı və mənimsənilməsinə dair imzalanmış digər müqavilələrin yerinə yetirilməsinə əlavə stimul verirdi. Çünki dünya bazarına çıxış imkanlarının genişlənməsi yeni investisiya qoyuluşunu təşviq edir, habelə iqtisadi inkişafın sürətlənməsinə və sosial rifahın yüksəlməsinə yol açırdı.

Qərb boru kəmərinin iqtisadi əhəmiyyəti ilə siyasi və geostrateji rolu bir-birini tamamlayırdı. Onun reallaşdırılmasına böyük diqqət yetirən ABŞ Prezidenti Bill Klinton Bakı–Supsa neft boru xəttinin rəsmi açılış mərasiminin iştirakçılarına göndərdiyi təbrik məktubunda qeyd edirdi: *"Bakı–Supsa xəttinin açılışı çoxdan gözlənilən məqsədi – Xəzər regionunun neft və qazını dünya bazarlarına çatdırmaq üçün neft kəmərləri şəbəkəsi yaradılması məqsədini həyata keçirir. Bununla bərabər, həmin boru kəmərlərinin faydası enerji sektorunun çərçivəsindən çox-çox kənara çıxır. Bu xətt Şərq-Qərb dəhlizinin təməl daşı olacaq və bütün Qafqaz və Mərkəzi Asiya ölkələrinin inkişafına kömək edəcəkdir"* [116].

Göründüyü kimi, Azərbaycan və Gürcüstan ərazilərindən keçməklə Xəzər dənizi ilə Qara dəniz hövzələrini birləşdirən Qərb boru kəməri hər iki ölkənin iqtisadi inkişafı və regionda siyasi mövqelərinin möhkəmlənməsində, habelə Mərkəzi Asiya dövlətlərinin Avropa ilə əlaqələrinin genişlənməsində Cənubi Qafqazın

rolunu artırması baxımından mühüm amil kimi çıxış edirdi.

Bakı–Supsa neft ixrac marşrutunun Azərbaycan iqtisadiyyatının sürətli inkişafında mühüm rol oynayacağını göstərən dövlət başçısı Heydər Əliyev boru kəmərinin həm də bölgənin geosiyasi əhəmiyyətinin artmasında ciddi faktor olacağını vurğulayırdı. Azərbaycan rəhbəri bu boru xəttini əminliklə *"Gürcüstan ilə Azərbaycan arasında dostluq və əməkdaşlığın parlaq misalı", "Qafqazda sabitliyin və sülhün möhkəmlənməsinə mühüm töhfə"* olaraq səciyyələndirirdi [158, c.20, s.16].

Gürcüstan Prezidenti Eduard Şevardnadze də eyni mövqedən çıxış edirdi. O, Supsada keçirilmiş açılış mərasimindəki nitqində bildirmişdir: *"Gürcüstan Bakı–Supsa layihəsini heç də təkcə iqtisadi fayda baxımından qiymətləndirmir, hərçənd bu layihə minlərlə iş yeri və milyonlarla dollar sərmayə deməkdir. Bu layihə onun həyata keçirilməsi gedişində yaranmış geniş regional kooperasiyanın və əməkdaşlığın parlaq nümunəsi kimi daha əhəmiyyətlidir"* [117].

Beləliklə, ixrac boru kəməri layihəsinin uğurla icra olunması region ölkələrinin sosial-iqtisadi və siyasi həyatına, geostrateji mövqelərinə mühüm təsir göstərirdi. Boru kəmərinin istifadəyə verilməsi bütün tərəflərin, o cümlədən xarici şirkətlərin ümumi nailiyyəti kimi qiymətləndirilsə də, tikinti ilə bağlı mübahisəli maliyyə məsələləri hələ öz həllini tapmamışdı. İnşa işlərinin gedişində ABƏŞ ixrac boru kəmərinin büdcəsini 590 milyon dollara qaldırmışdısa, Qərb marşrutunun açılış mərasimində SOCAR-ın prezidenti N.Əliyev layihənin dəyərinin 565 milyon dollar olduğunu bildirdi [117]. Xarici neft şirkətləri konsorsiumu nümayəndələrinin verdiyi məlumata görə isə, büdcənin daha 30 milyon dollar azaldılaraq 535 milyon dollara endirilməsinə baxmayaraq, yekun məbləğ yenə də Azərbaycan tərəfini qane etmirdi [390]. Buna görə də əlavə xərclərin ödənilməsi ilə bağlı məsələ açıq qalırdı.

Müzakirələrin gedişində SOCAR problemin həlli variantlarından biri kimi, əlavə xərclərin üçüncü tərəfin neftinin

nəql olunması hesabına ödənilməsini təklif edirdi [391]. Lakin Qərb marşrutunun üstünlüklərindən tam yararlanmaq niyyətində olan ABƏŞ onun bütün gücündən istifadə etmək haqqında qərarını nəzərə çatdıraraq, digər tərəflərin, yəni SOCAR, quruda fəaliyyət göstərən müştərək müəssisələr, Qazaxıstan və Türkmənistanın bu kəmərlə neft tranziti imkanlarını istisna etdi [390].

Eyni zamanda, Çeçenistandan keçən Şimal ixrac kəmərində müntəzəm törədilən terror əməlləri, habelə qəzalar onun işində böyük fasilələr yaratdığına görə Qərb neft kəmərinin rolu daha da artırdı. 1999-cu ilin aprel-iyul aylarında Şimal boru kəmərinin fəaliyyətindəki boşdayanmalar xarici neft şirkətləri konsorsiumunu hasil olunan bütün nefti Qərb marşrutuna yönəltməyə sövq edən əlavə təkan oldu. Artıq həmin müddət ərzində ABƏŞ Bakı–Supsa boru kəməri ilə 1 milyon 220 min ton neft ixrac etmişdi. İlin sonuna qədər ixracın həcminin üç dəfədən çox artması gözlənilirdi [80]. Buna görə də SOCAR özünün və konsorsiumdan kənar digər tərəflərin neftini Şimal marşrutu ilə Novorossiysk limanına göndərməyi daha məqbul hesab edirdi [367].

Neftin qiymətinin davamlı olaraq qalxması və Qərb boru kəmərinin səmərəli fəaliyyəti bu marşrutun tikintisinə sərf olunmuş maliyyə vəsaitinin ödənilməsi ilə bağlı fikir ayrılığının aradan qaldırılmasına münbit şərait yaradırdı. Aparılan müzakirələr nəticəsində, nəhayət, 2001-ci il iyunun 25-də SOCAR ilə ABƏŞ arasında protokol imzalandı. Həmin protokola görə, tərəflər Bakı–Supsa ixrac boru kəmərinə 540 milyon ABŞ dolları məbləğində xərcin çəkildiyi və onun ödənilməli məsrəflər kimi qəbul olunduğu barədə razılığa gəldilər [315].

Sənəd həmçinin razılaşdırılmış hesablama qaydasını və xərclərin ödənilməsi rejimini müəyyən edirdi. Bununla da SOCAR ilə xarici tərəfdaşları arasında 1998-ci ildə yaranmış mübahisə həllini tapdı və qarşılıqlı etimad bərpa olundu.

Qərb boru kəmərinin maliyyə və texniki cəhətdən üstünlüklərinə görə konsorsium onun potensialından maksimum

istifadə olunmasına çalışırdı. Bununla belə, 2005-ci ildə BTC-nin istismara verilməsi, habelə "Əsrin müqaviləsi" üzrə hasilatın tədricən azalması Supsa terminalına göndərilən neftin həcminin aşağı düşməsi ilə nəticələndi. Təsadüfi deyil ki, 2012-ci ildə Gürcüstan limanına 4 mln ton xam neftin çatdırılması gözlənildiyi halda, nəql olunan neftin həcmi 2,8 mln ton təşkil etdi [383; 425]. 2016-cı ildə Supsa limanından dünya bazarlarına 2,4 mln ton, 2017-ci və 2018-ci illərdə demək olar ki, eyni həcmdə – ildə 3,8 mln ton Azərbaycan nefti çıxarılmışdır [196; 215].

Qərb boru kəmərinin fəaliyyətə başlaması Azərbaycan neftinin ixrac infrastrukturunun inkişafında mühüm addım idi. Şimal boru kəməri ilə paralel fəaliyyət göstərən Qərb marşrutu böyük uğurla onunla rəqabət aparırdı. Çünki Azərbaycan özünün yüksək keyfiyyətli "Azeri Light" markalı neftini təmiz şəkildə birbaşa dünya bazarına çıxarırdı. Bu, iqtisadi cəhətdən də sərfəli idi.

Bakı–Supsa boru xəttinin kommersiya üstünlükləri Rusiya mətbuatı tərəfindən də vurğulanırdı. Ənənəvi olaraq Rusiyanın maraqlarını ifadə edərək, bu ölkənin ərazisindən keçən ixrac boru kəmərlərinin məqsədəuyğunluğunu əsaslandıran Moskva qəzetləri həmin günlərdə Bakı–Supsa marşrutunun işə düşməsinə böyük diqqət yetirirdilər. "Независимая газета", "Коммерсант" və sair qəzetlər Bakı–Supsa neft kəmərinin iqtisadi baxımdan səmərəli olduğunu qeyd edirdilər. "Независимая газета" yeni neft boru xəttinin *"Azərbaycanda neftçıxaran şirkətlər üçün çox cazibədar"* olmasını göstərir, "Коммерсант" qəzeti isə *"neft vurulmasının daha qısa olan yeni yolla qiyməti 5-7 dəfə aşağı olacağından Rusiyanın ildə 30 milyon dollardan çox qazanmaq imkanını itirəcəyini"* oxucuların nəzərinə çatdırırdı [48].

Bakı–Supsa boru kəmərinin potensialından hələlik tam istifadə olunmadığına baxmayaraq, Azərbaycanın dünya bazarına əlverişli çıxış imkanı əldə etməsində onun əhəmiyyəti böyükdür. İstismara verildiyi gündən 2018-ci ilədək Bakı–Supsa marşrutu

ilə 80 milyon tona yaxın neft nəql olunmuşdur. Bu isə fasilələrilə işləyən Şimal boru kəməri ilə ixrac edilən neftdən dəfələrlə çoxdur [211; 215]. Bununla belə, neft ixracı əsasən BTC ilə həyata keçirildiyinə görə son illər Bakı–Supsa kəməri müntəzəm istifadə edilməyib. Lakin müəyyən fasilələrə baxmayaraq, fəaliyyətə tam yararlı olan bu neft kəmərinə Qazaxıstan böyük maraq göstərməyə başlamışdır. 2023-cü ildə Azərbaycanla aparılan danışıqlarda Qərb boru kəməri ilə ildə 3 milyon ton Qazaxıstan neftinin nəqli barədə məsələ müzakirə olunmuşdur [233].

Beləliklə, 1996-cı ildə Azərbaycan ilə Gürcüstan arasında ilkin neftin ixracına dair imzalanmış müqavilə üç ilə yerinə yetirildi. Bakı–Supsa ixrac boru kəməri həm investorların, həm də tranzit ölkələrin maliyyə-iqtisadi maraqlarını təmin edən marşrut kimi fəaliyyətə başladı. Azərbaycan neftinin Rusiyanın aşağı sort nefti ilə qarışmadan təmiz şəkildə birbaşa dünya bazarına çıxarılması fürsəti yarandı. Eyni zamanda, Azərbaycanın Şimal boru kəmərindən tam asılılığı qismən aradan qalxdı.

Boru xətti iqtisadi-maliyyə dividentləri ilə bərabər, regiondakı dövlətlərin geosiyasi mövqeyinin güclənməsinə, sülh və sabitliyin qorunmasına öz təsirini göstərdi. Bakı–Supsa boru kəmərinin istifadəyə verilməsi *"Şərq-Qərb enerji və nəqliyyat-kommunikasiya dəhlizi"*nin formalaşmasına sanballı töhfə verdi [263, s.30].

Nəhayət, xüsusi qeyd etmək olar ki, Qərb boru xətti Şimal marşrutu ilə yanaşı, əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsi yolunda model rolunu oynadı. Bu marşrutların istismarı prosesində texniki, iqtisadi, təhlükəsizlik və s. sahələrdə əldə olunan təcrübə gələcəkdə böyük neftin ixracı ilə bağlı müxtəlif məsələlərin həllində mühüm əhəmiyyət kəsb edirdi.

## 2.4. Bakı–Tbilisi–Ceyhan ixrac marşrutunun gerçəkləşməsi uğrunda mübarizə: geosiyasi və iqtisadi aspektlər

Azərbaycanın neft strategiyasının həyata keçirilməsində etibarlı ixrac sisteminin yaradılması mühüm əhəmiyyət kəsb edirdi. İlkin neftin dünya bazarlarına Şimal və Qərb marşrutları ilə çıxarılması barədə qərar qəbul olunsa da, müqavilədə sonrakı dövrdə hasil ediləcək böyük neftin ixracı üçün əsas ixrac boru kəmərinin tikilməsi nəzərdə tutulurdu. Yəni şərtə görə, xarici neft şirkətləri ilə imzalanmış sazişin qüvvəyə minmə tarixindən 54 ay sonra xam neftin Əsas ixrac boru kəməri ilə nəqlinə başlanması planlaşdırılırdı [169, s.65; 81]. "Əsrin müqaviləsi"nin 1994-cü il dekabrın 12-də qüvvəyə mindiyini nəzərə alaraq, Əsas ixrac boru kəmərinin (ƏİBK) 1999-cu ilin ortalarında istifadəyə veriləcəyini gözləmək olardı. Lakin müqavilənin bu mühüm müddəasının yerinə yetirilməsi üçün Azərbaycan hökumətinin, xüsusilə Prezident Heydər Əliyevin ardıcıl fəaliyyəti, böyük qətiyyətlə səy göstərməsi tələb olundu.

1997–1999-cu illərdə ilkin neftin ixracı məqsədilə Rusiya və Gürcüstan ərazilərindən keçən iki boru xəttinin işə düşməsi, habelə Xəzərin neft yataqlarının gözlənilən potensialının hələ tam üzə çıxarılmaması xarici neft şirkətlərini maliyyə risklərindən yayınmağa və öz kommersiya ehtiyaclarını mövcud boru kəmərləri hesabına ödəməyə sövq edirdi. Amma məsələnin aktuallığını nəzərə alan ABƏŞ-in prezidenti T.Adams 1996-cı ilin oktyabr ayında ƏİBK marşrutları ilə bağlı mülahizələrini bildirərək, yaxın perspektivdə onun inşasının vacibliyinə dair şübhələrini ifadə etdi. ABƏŞ rəhbərinin fikrincə, məsələnin mahiyyəti *"boru kəməri sistemi ilə nəql üçün kifayət edəcək hasilatdan asılı olaraq ixrac marşrutunu yaratmağın nə vaxt zəruri olması"* ilə bağlı idi [181, c.4, s.147].

T.Adamsın məsələyə fərqli yanaşmasına etiraz edən Prezident Heydər Əliyev *"54 aylıq müddət"* barədə müqavilə

şərtini təkidlə onun nəzərinə çatdırdıqda, ABƏŞ rəhbəri öz mövqeyini *"boru kəməri çəkmək haqqında qərarın əsası kommersiya zəminində olmalıdır"* fikri ilə əsaslandırdı [181, c.4, s.148]. Yəni xarici neft şirkətləri daha böyük həcmli neft ehtiyatlarının təsdiqlənməsindən sonra yeni boru kəmərinin çəkilməsinə tərəfdar idilər.

Beləliklə, Əsas ixrac boru kəmərinin inşası məsələsi xarici neft şirkətlərinin kommersiya maraqları ilə Azərbaycanın siyasi-iqtisadi və geosiyasi mənafelərinin uzlaşdırılmasının çətinliklərindən doğan gərgin mübarizə ilə müşayiət olunmağa başladı.

ƏİBK-nın marşrutu ilə bağlı ideyalar hələ neft müqaviləsinə dair danışıqlar aparıldığı dövrdə irəli sürülsə də, bütövlükdə onun konsepsiyasının hazırlanmasına 1996-cı ildə başlanıldı. Bu işlər çərçivəsində Azərbaycanın Xəzər hövzəsində çıxarılan neftin dünya bazarlarına çatdırılması üçün ixrac marşrutunun 11 variantı nəzərdən keçirilirdi [382, s.24]. Həmin variantlar Gürcüstanın Supsa və Rusiyanın Novorossiysk limanlarına çıxışı, onların davamı olaraq Bosfor və Dardanel boğazlarından yan keçməklə Burqas (Bolqarıstan)–Aleksandropolis (Yunanıstan), Odessa–Brodı (Ukrayna)–Mərkəzi Avropa, Konstansa (Rumıniya)–Mərkəzi Avropa, Türkiyə ərazisi ilə Qarasu–İzmit və ya Samsun–Ceyhan boru xəttini, habelə Bakı–Ceyhan (Gürcüstandan keçməklə) marşrutunu əhatə edirdi.

Bundan başqa, İran variantı müzakirə olunsa da, o, xarici şirkətlərin təmsil etdiyi Qərb ölkələri ilə İran münasibətlərindəki ziddiyyətlərə görə, ciddi diqqət mərkəzində olmamışdır. Azərbaycan hökuməti neft ixracı marşrutlarının seçilməsi məsələsinə xüsusi əhəmiyyət verir, özünün və tərəfdaşlarının maraqlarını, siyasi, iqtisadi, kommersiya, təhlükəsizlik və geostrateji amilləri nəzərə alırdı. Qeyd edilənləri əsas götürərək, Prezident Heydər Əliyev *"Əsas ixrac neft kəməri marşrutunun seçilməsi ilə əlaqədar işçi qrupunun yaradılması haqqında"* 1997-ci il 5 sentyabr tarixli sərəncam imzaladı [168]. Bununla da Baş nazirin müavini

A.Şərifov işçi qrupunun sədri təyin edildi. Qrupun tərkibinə 3 nəfər SOCAR-ın (N.Əliyev – SOCAR-ın prezidenti, İ.Əliyev – birinci vitse-prezidenti, V.Ələsgərov – Xarici sərmayələr idarəsinin rəisi), 3 nəfər isə ABƏŞ-in nümayəndəsi (T.Adams – ABƏŞ-in prezidenti, Q.Riç – vitse-prezidenti, C.Pirson – ixrac üzrə baş menecer) daxil oldu.

İşçi qrupunun sədrinə ixrac marşrutları ilə bağlı danışıqların aparılması və sazişlərin hazırlanması sahəsində geniş səlahiyyətlər verilirdi. ƏİBK-ya dair sənədin layihəsi baxılmaq üçün ölkə prezidentinə təqdim olunmalı idi.

ABŞ-ın tətbiq etdiyi embarqoya görə İran marşrutu yenə də real variant kimi nəzərdən keçirilə bilməzdi. Buna görə də aparılmış texniki və iqtisadi hesablamalar əsasında kommersiya cəhətdən əlverişli sayıla biləcək üç marşrut seçilərək, baxılmaq üçün ABƏŞ üzvü olan şirkətlərə təqdim olundu. Mütəxəssislərin rəyinə görə, ƏİBK-nın çəkilməsi məqsədilə Bakı–Supsa, Bakı–Novorossiysk və Bakı–Ceyhan variantlarından birinə üstünlük verilə bilərdi [382, s.35].

İlk günlərdən Türkiyə və Rusiya ƏİBK-nın öz ərazilərindən keçməsi uğrunda gərgin fəaliyyətə başlamışdı. Çünki bu boru kəməri tranzit ölkələr üçün böyük siyasi, iqtisadi və geostrateji dividentlər vəd edirdi.

Bakıda "Əsrin müqaviləsi" imzalandığı gün (20 sentyabr 1994-cü il) keçirilən mətbuat konfransında Türkiyənin dövlət naziri Nəcməddin Cövhəri ixrac marşrutu kimi Bakı–Ceyhan variantına tərəfdar olduqlarını birmənalı şəkildə bəyan etdi. Onun sözlərinə görə, 1936-cı ildə *"Montrö müqaviləsi imzalandığı dövrdə dünyanın ən böyük tankerlərinin subasımı 20-30 min ton idi. Bu gün 200-300 min tonluq tankerlərin İstanbuldan keçməsi mümkün deyildir. Çünki boğazların sahilində 12 milyon əhalisi olan bir şəhər yerləşir. Buna görə də Anadoludan keçəcək neft kəmərlərinə ehtiyac var"* [169, s.65-66].

Beləliklə, Türkiyə strateji neft kəmərinin Anadoludan çəkilməsinin zəruriliyini Bosfor boğazındakı hərəkət təhlükəsizli-

yi və ekoloji təmizliyin qorunması vacibliyi ilə əsaslandırırdı. Boru kəməri ilə bağlı müzakirələrin sonrakı gedişində də Türkiyə bu amildən öz mövqeyinin müdafiəsi üçün qətiyyətlə istifadə edirdi.

İxrac boru kəmərinin əsas üç marşrutunun öyrənilməsi prosesinin davam etdiyi dövrdə Azərbaycan hökuməti də Bakı–Ceyhan variantını prioritet saydığını açıq şəkildə bildirirdi. Hələ 1997-ci ilin iyulunda ABŞ-a rəsmi səfəri zamanı keçirdiyi görüşlərdə Prezident Heydər Əliyev qeyd etmişdi ki, *"biz şəxsən belə neft borusunun Gürcüstan–Türkiyə–Aralıq dənizi–Ceyhan limanı marşrutu ilə çəkilməsini nəzərdə tuturuq"* [86].

Azərbaycan Bakı–Ceyhan marşrutuna tərəfdar çıxmaqla nəinki iqtisadi maraqlarını, həm də siyasi və geostrateji mənafelərini güdürdü. Bu baxımdan Azərbaycan hökuməti ümumi maraqlarının uzlaşdığı Türkiyə və ABŞ-ın dəstəyinə arxalanırdı.

ABŞ Rusiyadan yan keçməklə çəkilən neft kəməri vasitəsilə Cənubi Qafqazda geosiyasi maraqlarını təmin etməyə çalışırdı. Buna görə də Ağ ev özünün Azərbaycanda işləyən neft şirkətlərinə hərtərəfli dəstək verməklə yanaşı, həm də müəyyən vasitələrdən istifadə etməklə təsir göstərərək, Bakı–Ceyhan marşrutunun seçilməsi üçün addımlar atırdı [381, s.486-503].

ABŞ-ın yüksək rütbəli məmurlarının Cənubi Qafqaza, Qazaxıstana və Türkmənistana səfərləri, neft kəmərlərinin çəkilməsinə dair danışıqları intensiv xarakter almışdı. 1997-ci ilin noyabrında Xəzər hövzəsi ölkələrinə səfərdən sonra ABŞ-ın energetika naziri F.Penya neftin Bakı–Ceyhan marşrutu ilə nəql olunmasına Vaşinqtonun xüsusi əhəmiyyət verdiyini bildirmiş və bu təklifin Azərbaycan, Türkiyə, Gürcüstan, Türkmənistan və Qazaxıstan tərəfindən bəyənildiyini qeyd etmişdi [173; 206].

Əsas ixrac boru kəmərinin marşrutu barədə qərar 1998-ci ilin oktyabrında qəbul olunmalı idi. Həmin vaxta qədər işçi qrupu bütün variantları ətraflı öyrənməli və konkret təkliflərini verməli idi. Bununla belə, artıq Bakı–Ceyhan variantına tərəfdar olduğunu bildirən Prezident Heydər Əliyev 1997-ci il dekabrın

28-də Türkiyənin Baş naziri M.Yılmazı qəbul edərkən öz mövqeyini bir daha təkrarladı və bu məsələ ilə bağlı *"ikinci fikrin ola bilməyəcəyini"* vurğuladı [158, c.14, s.18].

ƏİBK marşrutlarının ilkin qiymətləndirilməsi siyasi, ekoloji, texniki, kommersiya amilləri nəzərə alınmaqla həyata keçirilmişdi. Araşdırmalar Bakı–Ceyhan marşrutunun digər iki variantdan – Bakı–Supsa və Bakı–Novorossiysk istiqamətlərindən daha çox üstünlüyə malik olduğunu göstərirdi [381, s.481-493; 382, s.26-32]. Belə ki, bu marşrut Bosfor boğazından yan keçərək birbaşa Aralıq dənizi bazarlarına çıxır və neftin digər regionlara daşınmasını asanlaşdırırdı. Qara dənizdəki Supsa və Novorossiysk limanlarına qədər uzanan boru xəttindən sonra isə neftin dünya bazarlarına çatdırılması məqsədilə əlavə nəqletmə problemlərinin həlli tələb olunurdu. Ceyhan limanı supertankerlərin ilboyu sərbəst hərəkəti üçün daha əlverişli imkanlara malik idi.

Eyni zamanda, strateji tərəfdaşı Türkiyə ilə birbaşa dünya bazarlarına etibarlı çıxış əldə edən Azərbaycan Respublikası geosiyasi mövqelərini, siyasi müstəqilliyini daha da möhkəmləndirməyə nail olurdu və s. Amma məsafəsinə görə daha uzun və kapitaltutumlu olan Bakı–Ceyhan marşrutu neft şirkətlərinə əlverişli kommersiya şəraiti yaradılması ilə cəlbediciliyini artıra bilərdi. Buna görə də Türkiyə ilə danışıqlar prosesində məhz bu məsələlər uzun müddət ətraflı və ciddi müzakirə mövzusu oldu.

Danışıqların davam etdiyi dövrdə Rusiya ƏİBK-nın öz ərazisindən keçməsi üçün yeni təşəbbüslərlə çıxış edirdi. 1998-ci il martın 27-də Rusiya hökuməti Bakı–Novorossiysk boru kəmərinin illik buraxılış qabiliyyətinin 5 milyon tondan 17 milyon tonadək çatdırılması ilə bağlı təkliflərini Bakıda Azərbaycan rəhbərliyinə təqdim etdi. Bundan başqa, boru kəmərinin tam doldurulacağına dair təminat veriləcəyi halda, Rusiya ikinci xətti də çəkib kəmərin ümumi buraxılış imkanlarını 30 milyon tona qədər artırmağa hazır olduğunu bildirdi. Bu işlərin həyata keçirilməsi üçün 800 milyon ABŞ dolları tələb olunurdu. Eyni

zamanda, 500 milyon dollar sərf etməklə Bakı–Supsa kəmərinin buraxılış qabiliyyətini 10 milyon tona çatdırmağın mümkünlüyünü göstərən Rusiya təxminən 3,3 milyard dollar qiymətləndirilən Bakı–Ceyhan marşrutunun Şimal və Qərb variantları ilə müqayisədə iqtisadi cəhətdən sərfəli olmayacağına dair mövqeyinə istinad edirdi [205; 427].

Rusiyanın Azərbaycandakı səfiri A.Bloxinin sözlərinə görə, Azərbaycan daha çox Qərb ölkələrinə meyillənərək onları yalnız sərmayə mənbəyi deyil, həm də dünya iqtisadiyyatına inteqrasiyasının geosiyasi vasitəsi kimi nəzərdən keçirirdi. Bakı–Ceyhan neft kəmərinə də bu vasitələrdən biri kimi baxılırdı. Onun fikrincə, *"böyük səkkizliyin"* enerji nazirlərinin Moskvada keçirilmiş görüşündə Rusiya və ABŞ Xəzərdən çəkiləcək əsas ixrac boru kəmərilə bağlı qərarın siyasi deyil, iqtisadi amillərə söykənəcəyi haqda razılığa gəldiklərinə görə, daha bahalı Bakı–Ceyhan marşrutuna üstünlük veriləcəyini gözləməyə dəyməzdi [427].

Lakin bu fikirlərə və habelə işçi qrupunun ixrac neft kəməri marşrutunun müxtəlif variantlarını öyrənməklə bağlı fəaliyyətini davam etdirdiyinə baxmayaraq, Azərbaycan Respublikası bütün nəzərlərini Bakı–Ceyhan variantına yönəltmişdi. [249].

ƏİBK marşrutunun müəyyən olunması ilə bağlı qərarın 1998-ci ilin oktyabr ayında veriləcəyi gözlənilsə də, xarici neft şirkətləri konsorsiumunun bu məsələ ətrafında danışıqları uzatması onun boru kəmərinin tikilməsinə maraq göstərmədiyini və gözləmə mövqeyi tutduğunu söyləməyə tam əsas verirdi. SOCAR-ın birinci vitse-prezidenti İlham Əliyev 1998-ci ilin iyun ayında bununla bağlı narazılığını ifadə edərək bildirmişdi ki, o, ABƏŞ-in fəaliyyətinə baxaraq cari ilin oktyabrına qədər ƏİBK-nın marşrutu haqqında qərarın qəbul olunacağına inanmır. Onun sözlərinə görə, *"tam başa düşülməyən oyun gedir, bu davam etdikcə, narahatlıq doğurur"*. İlham Əliyevin fikrincə, *"Qərb neft şirkətlərinin Əsas ixrac boru kəmərini tikmək istəmədikləri və məsələni təxirə salmaları çoxdan aydın olmuşdu. La-*

*kin hazırda onların bu işdən boyun qaçırmaları elə forma alır ki, bizi belə təzahürlərə qarşı mübarizə aparmağa məcbur edir"* [418].

ABƏŞ-in kəmərin tikintisindən tamamilə imtina edə biləcəyini istisna etməyən SOCAR-ın birinci vitse-prezidenti Azərbaycanın xarici şirkətlərə təsir vasitələrinin olduğunu vurğulamışdı. Hansı təsir imkanlarının nəzərdə tutulduğunu açıqlamayan İlham Əliyev bildirmişdi: *"Məhz bu vasitələr sayəsində biz ƏİBK-nın marşrutu barədə qərarın 1998-ci ilin oktyabrında qəbul olunmasına təkid etdik"* [418].

Elan edilən müddətin başa çatması ərəfəsində regionun bu məsələyə maraq göstərən ölkələri əsas ixrac boru kəmərinin marşrutu ilə bağlı səylərini artırdılar. Kəmərin geosiyasi və iqtisadi faydasını qiymətləndirən Rusiya oktyabrın 12-də Bakı–Novorossiysk marşrutuna dair təkliflərini rəsmi olaraq Azərbaycan hökumətinə təqdim etdi. Bu marşrutun iqtisadi cəhətdən daha sərfəli olduğunu bildirən Kreml Çeçenistandan yan keçməklə, dəyəri 1,2-1,5 milyard dollar qiymətləndirilən boru kəmərinin tikilməsini təklif edirdi. Eyni zamanda, Novorossiyskdə yeni terminalın inşası planlaşdırılırdı. İllik buraxılış qabiliyyəti 30-50 milyon ton neft həcmində nəzərdə tutulan boru kəməri ilə 1 ton neftin nəqli üçün 20 dollarlıq tarif müəyyənləşdirilirdi. Azərbaycan isə boru kəməri ilə ildə ən azı 30 milyon ton neft nəql etməyə təminat verməli idi [472].

Rusiya məqsədinə çatmaq üçün iqtisadi metodlarla yanaşı, siyasi təzyiqlərdən də istifadə edirdi. Gürcüstan Prezidenti E.Şevardnadze sonralar müsahibələrinin birində xatırlayırdı ki, Bakı–Supsa boru kəməri işə düşdükdən sonra Rusiya Prezidenti B.Yeltsin ona zəng edərək demişdi: *"Xahiş edirəm, Xəzər neftinin Gürcüstandan keçməsinə razılıq verməyəsiniz. Bu, Gürcüstanlıq məsələ deyil, burada Rusiyanın marağı var".* Lakin E.Şevardnadze bunun Gürcüstan üçün böyük əhəmiyyətə malik olduğunu vurğulayaraq, *"belə layihədən yalnız axmaq imtina edər"* – cavabını verdiyini bildirir [157].

İşçi qrupu digər marşrutlar üzrə Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan və Yunanıstanla danışıqlar aparırdı. Azərbaycanla Türkiyə və Gürcüstan arasında hökumətlərarası sazişlər imzalanmışdı. Lakin müəyyən müddəaların dəqiqləşdirilməsi üçün işçi qrupu bu ölkələrin nümayəndələri ilə də görüşlər keçirməli idi.

ƏİBK marşrutu ilə bağlı qərarın qəbul olunmasında xarici neft şirkətlərinin tərəddüdünü artıran bir sıra amillər vardı. 1998-ci ildə dünya bazarında neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi və bu meyillərin ilin sonuna qədər davam etməsi neft şirkətlərini iri həcmli maliyyə qoyuluşundan çəkindirirdi. Həmin ilin noyabrında Brent neftinin qiyməti 11,86 dollara (1 bareli), Urals sortunun qiyməti isə 11,25 dollara qədər ucuzlaşmışdı.

Mütəxəssislərin fikrincə, dünya bazarında eyni meyillərin davam edəcəyi təqdirdə, bir il sonra neftin qiyməti 5 dollara düşə bilərdi. Bu durğunluğun hələ 10 ilə qədər hökm sürəcəyi proqnozlaşdırılırdı [454].

Digər tərəfdən, konsorsium üzvlərini narahat edən məsələ Azərbaycanın Xəzər sektorunda başqa neft müqavilələri üzrə aparılan kəşfiyyat işlərinin gözlənilən ümidləri doğrultmaması idi. Belə ki, "Qarabağ" və "Dan ulduzu"- "Əşrəfi" müqavilə sahələrində qazılmış 4 kəşfiyyat quyusu kommersiya əhəmiyyətli neft ehtiyatlarını aşkar etməmişdi. Buna görə də kifayət qədər neft mənbələri üzə çıxarılmadan dəyəri 3,5 milyard dollar qiymətləndirilən Bakı–Ceyhan Əsas ixrac boru kəmərinin neftlə tam doldurulması və rentabelliyin təmin olunması onlarda böyük şübhə yaradırdı.

Beləliklə, həmin dövrdə meydana çıxmış gerçəkliklər Bakı–Ceyhan marşrutunun xeyrinə işləmirdi. Maliyyə riskini əsas gətirən neft şirkətləri hər vəchlə bu ideyanın həyata keçirilməsinə müqavimət göstərirdilər. Onların bu dəlilləri 1998-ci il oktyabrın 22-də Ağ evdə ABŞ administrasiyası nümayəndələrinin və iri neft şirkətləri rəhbərlərinin iştirakı ilə keçirilmiş müzakirələrdə həlledici rol oynadı. Görüşdə qərara alındı ki, hazırkı

dövrdə Bakı–Ceyhan marşrutu kommersiya cəhətdən sərfəli hesab edilmir [416]. Çünki bunun üçün kəmərlə ildə azı 50 milyon ton neft axıdılmalıdır. Marşrutun kommersiya sərfəliliyinin təmin olunması üçün tədbirlər görüldükdən sonra Bakı–Ceyhan boru kəmərinin tikilməsinin mümkünlüyü qeyd edildi. ABŞ administrasiyasının nümayəndələri bu şərtlər daxilində layihəyə gələcəkdə də dəstək verəcəklərini bildirdilər.

Bununla belə, Azərbaycan hökuməti öz mövqeyində qətiyyət göstərərək, geri çəkilmək fikrində deyildi. Baş nazir A.Rasizadə Bakı–Ceyhan boru kəmərinin tikiləcəyini vurğulayaraq, layihənin iqtisadi göstəricilərinə dair intensiv danışıqların aparıldığını qeyd edirdi. Onun sözlərinə görə, Azərbaycan yenə də ixrac boru kəmərinin *"sahibi"* olmağı planlaşdırırdı. Bunun üçün isə kəmərin tikintisinin ən azı 50%-dən çoxunu maliyyələşdirmək məqsədilə zəruri vəsait mənbələri tapmaq lazım idi [416].

Vaşinqtonda neft şirkətlərinin iştirakı ilə qəbul olunmuş qərar Türkiyənin də ciddi etirazına səbəb oldu. Qonşu ölkənin xarici işlər naziri İsmayıl Cem oktyabrın 24-də yaydığı bəyanatında bildirirdi ki, *"Qara dəniz boğazlarını Xəzər neftinin daşınması hesabına neft borusuna çevirməyin qarşısını almaq üçün Türkiyə beynəlxalq və milli qanunlar çərçivəsində bütün zəruri tədbirləri görəcəkdir"* [416].

Onun sözlərinə görə, hər il Bosfor və Dardanel boğazlarından 60 milyon ton neft daşıyan 4,5 min tankerin keçməsi İstanbul əhalisi və şəhər ekologiyasına böyük təhlükə törədirdi. Belə şəraitdə əlavə olaraq Xəzər neftinin həmin boğazlar vasitəsilə daşınması problemləri kəskin şəkildə artıracağına görə Türkiyə hökuməti sərt texniki təhlükəsizlik tədbirləri həyata keçirəcəyini vəd edirdi. Bu isə nəinki əlavə daşınmalara, həm də onların mövcud səviyyədə saxlanmasına çətinliklər yarada bilərdi.

Beləliklə, Türkiyə bu məsələdə ilk günlərdən ifadə etdiyi mövqeyini ardıcıl şəkildə qoruyurdu. Türkiyənin qətiyyətli mövqe tutması Azərbaycanın maraqları ilə uzlaşırdı. Birgə səylər

ümumi mənafelərin gerçəkləşməsinə yol açırdı. Bu baxımdan Ağ evdəki müzakirələrdən bir həftə sonra Ankarada imzalanmış sənəd mühüm rol oynadı.

1998-ci il oktyabrın 29-da Ankarada Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Özbəkistan Prezidenti İslam Kərimov və Amerika hökumətinin energetika naziri B.Riçardson Xəzər hövzəsi neftinin dünya bazarına BTC boru kəməri vasitəsilə nəql olunmasını nəzərdə tutan *"Ankara bəyannaməsi"*ni imzaladılar. Bu, əsas ixrac neft boru kəmərinin marşrutu ilə bağlı gərgin müzakirələrin getdiyi dövrdə ciddi siyasi iradənin nümayişi idi. Məsələyə münasibət bildirən Türkiyə Prezidenti S.Dəmirəl vurğuladı ki, *"tarixi sənəd olan bu bəyannamə Bakı–Tbilisi–Ceyhan magistral boru xəttini çəkmək əzmimizi bütün dünyaya bəyan edir"* [30].

*"Ankara bəyannaməsi"*ni yüksək qiymətləndirən Prezident Heydər Əliyev bildirdi ki, iqtisadi maraqlar mühüm əhəmiyyət kəsb etsə də, sənədi imzalamış dövlət başçılarının siyasi iradəsi layihənin reallaşmasında vacib rol oynayır [158, c.18, s.123].

"Ankara bəyannaməsi"nin imzalanması ƏİBK marşrutunun seçilməsində Bakı–Ceyhan variantına verilən ciddi siyasi dəstəyin ifadəsi idi. Sənədə imza atmış dövlətlər, xüsusilə Azərbaycan, Türkiyə və Gürcüstan səylərini birləşdirərək iqtisadi və geosiyasi maraqlarının qorunması sahəsində mühüm addım atdılar. Onların bu istiqamətdəki siyasəti ABŞ-ın güclü dəstəyi ilə müşayiət olunurdu.

Bununla belə, dünya bazarlarında neftin qiymətinin azalması meyillərinin davam etməsi neft şirkətlərini Bakı–Ceyhan boru kəmərinin tikintisinə qarşı çıxmağa sövq edirdi. Buna görə də həmin şirkətlər sırasında aparıcı rol oynayan "BP" Azərbaycan hökumətinə ƏİBK marşrutu barədə qərarın çıxarılması vaxtının təxirə salınmasını tövsiyə etmişdi. Şirkətlərin mövqeyi

ilə əlaqədar olaraq boru kəməri marşrutu haqqında qərarın 1998-ci ilin dekabrındakı iclasda qəbul olunacağı artıq gözlənilmirdi [391].

ABƏŞ prezidentinin sözlərinə görə, bu, tranzit ölkələrlə – Türkiyə, Gürcüstan və Rusiya ilə danışıqların başa çatmaması ilə bağlı idi. Hələ də tranzit ölkələrdə vergiqoyma, tarif, hər üç marşrutun yekun qiyməti, habelə Əsas ixrac boru kəməri kompaniyasının yaradılması və fəaliyyətinə dair məsələlər öz həllini tapmamışdı.

Fikir ayrılıqlarının aradan qaldırılması üçün Azərbaycan hökuməti gərgin fəaliyyət göstərirdi. Noyabr ayında SOCAR-ın birinci vitse-prezidenti İlham Əliyev ABŞ-a səfər edərək bu ölkə prezidentinin Xəzər hövzəsinin enerji ehtiyatları məsələləri üzrə müşaviri R.Morninqstar və Ticarət Nazirliyinin xüsusi müşaviri Y.Kalitski ilə görüşlər keçirdi. Müzakirələr nəticəsində şirkətlərin hazırda 3,5-3,7 milyard dollar qiymətləndirdiyi Bakı–Ceyhan boru kəməri xərclərinin aşağı salınması üçün yaxşı imkanların olması barədə yekdil fikrə gəlindi. ABŞ administrasiyası layihənin texniki məsələlərini qısa müddət ərzində həll etmək niyyətini bir daha təsdiqlədi [395].

Boru kəmərinin çəkilməsi ilə bağlı əsas maneələrdən biri onun xarici neft şirkətləri tərəfindən çox baha qiymətləndirilməsi idi. Konsorsium üzvlərinin fikrincə, xərcləri 3,7 milyard dollara çatan boru kəməri kommersiya baxımından özünü doğrulda bilməzdi. Məsələyə münasibət bildirən SOCAR-ın birinci vitse-prezidenti İlham Əliyev qeyd edirdi ki, konsorsiumun qiymətlə bağlı bəyanatı gözlənilməz idi. Onun fikrincə, rəqəmlər çox şişirdilmişdi: "*Hesablamalarımıza görə bu, təxminən 2,5 milyard dollar təşkil edirdi. Biz ABŞ hökuməti nümayəndələri ilə əlaqə yaratdıq və qərara gəldik ki, gerçək vəziyyəti görmək üçün Azərbaycan və ABŞ hökumətinin hesablamaları tutuşdurulmalıdır. Çox şad olduq ki, onların hesablamalarından sonra da bu rəqəm 2,4 milyard dollara bərabər oldu. Xərclərin 3,7 milyard dollar təşkil edəcəyini bildirən şirkətlərin nümayəndələrinə*

*hesablamalarının səhv olduğunu göstərdik. Onlar bizimlə razılaşmağa məcbur oldular"* [381, s.491].

Beləliklə, ƏİBK marşrutuna dair qərarın qəbul olunması gərgin müzakirələrlə müşayiət olunurdu. Tərəflər öz mövqelərini qorumağa çalışır, onu əsaslandırmaq üçün tutarlı dəlillər irəli sürürdülər. Azərbaycan və Türkiyənin Bakı–Ceyhan marşrutu ilə bağlı mövqeyi yenə də ABŞ hökuməti tərəfindən dəstəklənirdi. Lakin bütün tərəflərin geostrateji maraqlarına cavab verən bu marşrutun iqtisadi sərfəliliyini artırmaq üçün həm konsorsium üzvləri, həm Azərbaycan və Qazaxıstanda fəaliyyət göstərən digər neft şirkətləri, həm də Türkiyə ilə ardıcıl danışıqlar aparılırdı.

Bakı–Ceyhan marşrutuna böyük maraq göstərən Türkiyənin rolu həlledici əhəmiyyət kəsb edirdi. Ankara əlverişli tranzit tarifləri təklif etməklə xarici neft şirkətlərini bu xəttin üstünlüyünə inandıra bilərdi. Digər tərəfdən, konsorsiuma daxil olmayan şirkətlərin, o cümlədən Qazaxıstanda sərmayə yatıran iri kompaniyaların maliyyə və hasilat potensialının Bakı–Ceyhan marşrutuna yönəldilməsi həmin variantın iqtisadi sərfəliliyini ciddi şəkildə artırardı. Buna görə də danışıqların gedişində bu məsələlərə xüsusi diqqət yetirilirdi.

Qeyd etmək lazımdır ki, ABŞ hökuməti həm neft şirkətləri, həm də Türkiyə və Azərbaycan ilə intensiv müzakirələr aparır, tərəflərin ortaq məxrəcə gəlməsi üçün böyük diplomatik səylər göstərirdi. 1998-ci ilin dekabrında Türkiyə və Azərbaycana növbəti səfərindən sonra ABŞ Prezidentinin və dövlət katibinin xüsusi müşaviri R.Morninqstar *"Bakı–Ceyhan layihəsinin bölgə üçün geosiyasi cəhətdən çox vacib olmasının"* şirkət rəhbərlərinə izah edildiyini vurğulamış və onların bu layihənin *"arxasında duran siyasi reallıqları artıq duymağa, dərk etməyə başladıqlarını"* nəzərə çatdırmışdı [354].

Layihənin gerçəkləşməsində kommersiya maraqlarının təmin olunması üçün Türkiyənin neft şirkətləri ilə müzakirələrin faydalı olacağını qeyd edən R.Morninqstar boru kəməri tikintisi-

nin maliyyələşdirilməsinə ABŞ-ın maliyyə qurumlarının, o cümlədən "Eksimbank", Xaricdə İnvestisiyalar Qoyuluşu üzrə Korporasiya, Ticarət və İnkişaf Agentliyinin kredit ayırmağı planlaşdırdıqlarını bildirdi. Səfirin öz fikrini *"geriyə yol yoxdur"* – deyə tamamlaması ABŞ hökumətinin məsələ ilə bağlı qəti mövqeyini ifadə edirdi [354].

Bu mövqe ABŞ Prezidenti B. Klintonun Bakı–Supsa neft boru kəmərinin açılışı münasibətilə göndərdiyi təbrik məktubunda birmənalı şəkildə əks olunurdu: *"İlkin neftdən sonra, indi bizim iştirakımız Azərbaycandan başlayıb Gürcüstan vasitəsi ilə Türkiyənin Ceyhandakı Aralıq dənizi sahilinə gedəcək böyük boru kəmərinə yönəldiləcəkdir. Bu əsas ixrac boru kəməri Qərb-Şərq dəhlizinin əsl iqtisadi potensialını açmaq üçün açardır"* [116].

Türkiyə ilə aparılan danışıqlarda da irəliləyişlər əldə edilirdi. 1999-cu ilin aprel ayında SOCAR-dan verilən məlumatlara görə, Qərb şirkətlərinin irəli sürdüyü tələbləri nəzərə alan Türkiyə hökuməti Bakı–Ceyhan boru kəmərinin tikintisinə 2,4 milyard dollardan artıq vəsaitin sərf olunacağı təqdirdə, əlavə xərclərin ödənilməsinə dair təminatın verilməsi şərti ilə razılaşmışdır [389].

Bununla yanaşı, Türkiyə ilə daha əlverişli tranzit tariflərinin müəyyənləşdirilməsi üzrə gərgin danışıqlar davam etdirilirdi. 1999-cu ilin ortalarında işçi qrupu bütün Bakı–Ceyhan marşrutu boyunca bir barel neftin nəqli üçün 2,5-2,6 dollar həddində tarifin tətbiqinə dair müzakirələr aparırdı. Sərmayədarları razı salmağa çalışan Türkiyə danışıqlar zamanı güzəştə gedərək tranzit tarifini tədricən 3,5-4 dollardan 2,6 dollaradək endirməyə razılıq vermişdi [429].

Türkiyənin güzəştlərinə baxmayaraq, ABƏŞ üzvləri tarifin daha da aşağı salınması üçün təzyiqlərini davam etdirirdilər. Konsorsiumun prezidenti D.Vudvordun fikrincə, dünya bazarında 1 barel neftin qiyməti 11-16 dollar çərçivəsində qalarkən, tranzit tarifinin 2 dolları aşmaması Əsas ixrac boru

kəmərinin kommersiya cəhətdən sərfəli olmasını şərtləndirirdi [429].

Göründüyü kimi, xarici neft şirkətləri bir-birinin ardınca yeni tələblər irəli sürür, boru kəməri marşrutunun seçilməsi ilə bağlı qərarın qəbul olunmasını ləngidirdi. Bununla da ƏİBK-nın tikintisinə kapital ayırmaqdan çəkinən neft şirkətləri artan ixrac tələbatlarını ödəmək üçün Bakı–Supsa boru kəmərinin buraxılış qabiliyyətinin genişləndirilməsi təklifi ilə çıxış edirdi. Qərb marşrutunun texniki təkmilləşdirilməsinə sərf olunan vəsait isə Azərbaycan tərəfindən ödənilməli idi. Buna görə də ABƏŞ-in bu təklifləri məqbul hesab edilmirdi. SOCAR-ın birinci vitse-prezidenti İlham Əliyevin fikrincə, mövcud boru kəmərlərinin gücünün artırılması *"Bakı–Ceyhan layihəsi ilə bağlı danışıqlar prosesini poza bilərdi"* [470].

Beləliklə, xarici neft şirkətlərinin müqavimətinə baxmayaraq, Azərbaycan hökuməti bütün diqqətini Bakı–Ceyhan marşrutuna yönəltmişdi. Bu layihənin həyata keçirilməsi üçün Türkiyə və neft konsorsiumunun üzvləri ilə mövqelərin uzlaşdırılması istiqamətində səylər davam etdirilirdi.

1999-cu il noyabrın əvvəllərində Ankarada başa çatmış danışıqların növbəti mərhələsindən sonra aydın oldu ki, Türkiyə yalnız boru kəmərinin öz ərazisindən keçən hissəsinin büdcədən artıq xərclərinin ödənilməsi ilə bağlı öhdəlik götürməyə razıdır. Kəmərin Türkiyə hissəsinin tikintisi 1,4 milyard dollar həcmində qiymətləndirilirdi. Boru xəttinin Azərbaycan və Gürcüstandan keçən hissəsinin inşasına sərf olunacaq 1 milyard dollarlıq məbləğdən artıq vəsaitə təminatın verilməsi məsələsi açıq qalırdı [460].

Bir sıra ciddi fikir ayrılıqlarının olmasına baxmayaraq, danışıqlar prosesi irəliləyirdi. ABŞ-ın dəstəyinə arxalanan Azərbaycan və Türkiyənin böyük səyləri ilə danışıqları uğurla yekunlaşdırmaq mümkün oldu. Nəhayət, İstanbul şəhərində keçirilən ATƏT-in sammiti tədbirlərinin gedişində – 1999-cu il noyabr ayının 18-də üç dövlətin prezidentlərinin imzası ilə *"Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyə-*

*tinin ərazisi ilə Bakı–Tbilisi–Ceyhan Əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair saziş"* bağlandı [34].

Bu sənəd əsas ixrac neft boru kəmərinin keçəcəyi marşrutla bağlı uzunmüddətli müzakirə və mübahisələrə son qoydu.

Eyni zamanda, həmin mərasimdə ABŞ, Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan prezidentlərinin imzaladığı "İstanbul bəyannaməsi" BTC neft boru kəmərinin inşası və fəaliyyətinə siyasi dəstəyin yeni ifadəsi oldu.

Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin imzaladığı hökumətlərarası saziş BTC-nin tikintisi və istismarı sahəsində ölkələrin əməkdaşlığı prinsiplərini, habelə sərmayədarlara verilən hüquqları müəyyənləşdirir.

Əsas sazişə əlavə olunmuş sənədlər sırasında Türkiyənin podratçı "Botaş" şirkəti ilə sərmayədarlar arasında imzalanmış sazişi qeyd etmək lazımdır. Həmin sənədə əsasən, "Botaş" şirkəti boru kəmərinin Türkiyə ərazisindən keçən hissəsini 1,4 milyard dollara tikərək, 15 may 2004-cü ilə kimi təhvil verməyi öhdəsinə götürürdü. Xərclərin göstərilən məbləğdən artıq olacağı təqdirdə, əlavə məsrəflər Türkiyə hökuməti tərəfindən ödənilməli idi [382, s.42].

BTC-nin tikintisi haqqında imzalanmış saziş neftin Azərbaycandan beynəlxalq satış bazarlarına çatdırılması perspektivlərini genişləndirdi və neft strategiyasının gerçəkləşməsində mühüm addım oldu. Bu sənəd "Əsrin müqaviləsi"nin və onun ardınca imzalanmış başqa neft sazişlərinin daha intensiv şəkildə yerinə yetirilməsinə təkan verdi. Çünki karbohidrogen ehtiyatlarının dünya bazarlarına daha əlverişli şərtlərlə və təhlükəsiz şəraitdə nəql olunması Xəzər hövzəsindəki layihələrin icrası üçün böyük əhəmiyyət kəsb edirdi. Əgər Qazaxıstan neftinin Rusiyanın Novorossiysk limanı vasitəsilə Aralıq dənizinə çatdırılmasında bir barelə görə nəql xərcləri 4,16 dollar təşkil edirdisə, BTC ilə bir barel neftin daşınma tarifi 2,58 ABŞ dolları hesablanmışdı [310].

Bundan başqa, BTC-nin inşa edilməsi, ABŞ Prezidenti

B.Klintonun dediyi kimi, Avropa və Asiya arasında körpü yaradılmasında, regional əməkdaşlığın inkişafında və bölgə ölkələrinin müstəqilliyinin möhkəmləndirilməsi sahəsində yeni imkanlar açırdı [382, s.44].

İstanbuldakı razılaşmalardan sonra layihənin həyata keçirilməsi üçün konkret məsələlərin həlli ilə bağlı danışıqlar prosesi sürətləndi. 2000-ci ilin fevralında Azərbaycan, Türkiyə, Gürcüstan və ABŞ nümayəndələrinin iştirakı ilə İstanbulda başa çatmış danışıqlarda Gürcüstan ilə sərmayədar şirkətlər arasında sazişin mətni razılaşdırıldı. Lakin Gürcüstan ərazisi ilə neftin tranzit tarifi haqqında məsələ həllini tapmamışdı [382, s.48-49].

1999-cu ildə İstanbulda BTC haqqında saziş imzalandıqdan sonra əsas ixrac marşrutunun öz əraziləri ilə keçəcəyinə əmin olan Gürcüstan danışıqların növbəti mərhələsində mövqelərini sərtləşdirərək bir sıra təkliflər irəli sürdü. Bu təkliflər boru kəmərinin təhlükəsizliyi, ekologiya məsələləri, marşrut boyu ərazilərdə torpağın satın alınması və tranzit tariflərini əhatə edirdi [158, c.26, s.37].

Azərbaycan, Türkiyə və Gürcüstan işçi qruplarının apardığı müzakirələr nəticəsində Gürcüstan digər tərəflərlə razılaşaraq ilk üç təklifini geri götürdü. Lakin ölkənin iqtisadi cəhətdən zəifliyinə və tranzit imkanlarından daha çox yararlanmaq istəyinə əsaslanan Gürcüstan tranzit tariflərinin artırılmasında israr edirdi. Bu isə ƏİBK layihəsinin reallaşdırılması prosesini ləngidən yeni maneəyə çevrilmişdi.

Azərbaycan Respublikası boru xəttinin tikintisinə dair kommersiya sazişlərinin 2000-ci ilin aprel-may aylarında imzalanaraq parlamentlər tərəfindən ratifikasiya olunmasına çalışırdı. Əks təqdirdə, bu gecikmə tikinti işlərinə başlanmasını bir ilə qədər ləngidə bilər və beləliklə, layihənin həyata keçirilməsi işlərinə daha böyük zərər vurardı.

Prezident Heydər Əliyevin 2000-ci il martın 22-23-də Gürcüstana səfəri gedişində tranzit tarifləri məsələsi ətraflı müzakirə olundu. Azərbaycan öz payına düşən tarifin bir hissəsini

güzəştə getsə də, bu, Gürcüstanı qane etmədi. Buna görə də tikinti işlərinə başlanılmasının sürətləndirilməsi və ləngimənin vura biləcəyi daha böyük zərərin qarşısının alınması məqsədilə Prezident Heydər Əliyev qətiyyətli addım ataraq, Azərbaycanın 40 illik tariflərini Gürcüstana bağışladı. Məsələyə münasibət bildirən Heydər Əliyev qeyd edirdi ki, *"xahişləri nəzərə alaraq ölçdüm-biçdim, fikirləşdim və qərar qəbul etdim ki, Azərbaycan öz tariflərini Gürcüstana verir və beləliklə də Gürcüstana yenidən yardım edir. ...Bununla da məsələ həll olundu"* [158, c.26, s.37].

Heydər Əliyevin bu qərarı ilk baxışda Azərbaycanın iqtisadi mənafelərinə zidd mövqe kimi təsir bağışlasa da, əslində, uzaqgörən, ölkənin və bütövlükdə regionun siyasi və iqtisadi inkişafı baxımından gələcəyə hesablanmış və həmin anda vəziyyətdən çıxış üçün cəsarətli və müdrik addım idi.

Azərbaycanın güzəşti sayəsində Gürcüstan 40 il ərzində neftin nəqlindən ən azı 2,1 milyard dollar gəlir əldə edəcəkdi. Yəni Gürcüstan büdcəsinə ildə 52,5 milyon dollar və yaxud ovaxtkı ölkə büdcəsinin 10%-ni təşkil edən vəsait daxil olacaqdı [382, s.58]. Bu, Gürcüstanın iqtisadi inkişafına Azərbaycanın mühüm töhfəsi idi.

Eyni zamanda, Azərbaycan özünün iqtisadi və geosiyasi maraqlarının qorunması baxımından strateji əhəmiyyətli qərar qəbul etmişdi. Əvvəla, Azərbaycanın tranzitdən ildə 30 milyon dollar qiymətləndirilən gəlirdən məhrum olmasına baxmayaraq, layihənin sürətlə həyata keçirilməsi nəticəsində 40 ildə hasilatçı ölkə kimi dəfələrlə çox gəlir əldə edəcəkdi. Digər tərəfdən, Gürcüstan Azərbaycanın Qərbə çıxışı üçün mühüm geosiyasi əhəmiyyət kəsb edirdi. İqtisadi cəhətdən inkişaf edən Gürcüstanla strateji tərəfdaşlıq Azərbaycanın mənafelərinə uyğun idi. Azərbaycan neftinin Gürcüstan ərazisi ilə dünya bazarına daha əlverişli marşrutla daşınması və bu layihənin hər iki ölkənin iqtisadi inkişafına ciddi təsiri nəticə etibarı ilə onların geosiyasi mövqeyinin güclənməsinə və siyasi müstəqilliklərinin möhkəm-

lənməsinə xidmət edirdi.

Buna görə də təsadüfi deyil ki, həmin dövrdə müxtəlif siyasi yönümlü ekspertlər tərəfindən Azərbaycanın tranzit tarifləri ilə bağlı qərarı ümumən ölkənin və regionun maraqları baxımından müsbət qiymətləndirilirdi [47; 133; 192].

Məhz bu razılaşmadan sonra BTC ilə bağlı danışıqlar prosesi daha dinamik xarakter aldı. Nəzərdə tutulduğu kimi, sənədlər paketi hazırlanaraq may ayının axırlarında ölkə parlamentlərinin təsdiqinə təqdim olundu. Bu sənədlər ardıcıllıqla 2000-ci il mayın 26-da Azərbaycanda, mayın 31-də Gürcüstanda və iyunun 21-də Türkiyədə parlamentlər tərəfindən ratifikasiya edildi [31; 382, s.50-53].

Əsas ixrac boru kəmərinin reallaşmasını praktiki istiqamətə yönəldən və uzunsürən gərgin danışıqların yekunu olaraq meydana çıxan həmin sənədlər paketinə İstanbulda imzalanmış 18 noyabr 1999-cu il tarixli *“Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı–Tbilisi–Ceyhan Əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında saziş”*, bu sənədə əlavə olunmuş Azərbaycan, Gürcüstan, Türkiyə hökumətləri və ixrac neft boru kəməri sərmayəçiləri arasında tranzit ölkə hökuməti ilə bağlanmış üç saziş və s. daxil idi [195].

Layihəyə maraq göstərən şirkətləri zəruri məlumatlarla təmin etmək və onun həyata keçirilməsinə əlverişli şəraitin yaradılması məqsədilə 2000-ci il mayın 29-da SOCAR tərəfindən yerli və xarici şirkətlər üçün təqdimat mərasimi keçirildi. Layihənin təqdimatında iştirak edən 31 xarici kompaniyanın 27-si Azərbaycanın irəli sürdüyü şərtlərlə boru kəmərinin tikintisi işlərinə qoşulmaq niyyətlərini bildirdilər [382, s.51].

Bununla belə, danışıqların sonrakı mərhələsində ABƏŞ-ə daxil olan neft şirkətləri arasında bir sıra məsələlər üzrə fikir ayrılığı meydana çıxdı. İşlərin ləngiməsinə səbəb ola biləcək həmin ziddiyyətli məqamlar Prezident Heydər Əliyevin 2000-ci

ilin sentyabrında ABŞ-a səfəri zamanı Prezident Bill Klinton, dövlət katibi M.Olbrayt, Energetika Nazirliyi və Azərbaycanda fəaliyyət göstərən xarici neft şirkətlərinin prezidentləri ilə görüşlərdə ətraflı müzakirə olundu və aradan qaldırıldı [31, s.1].

SOCAR ilə neft şirkətləri konsorsiumunun üzvləri arasında bütün şərtlərə dair razılıq əldə edildikdən sonra sponsor qrupu yaradıldı. Bu isə layihənin daha sürətlə həyata keçirilməsi üçün mühüm qərar idi.

Aparılmış gərgin müzakirələr BTC-nin tikintisinə dair texniki-kommersiya sənədlərinin oktyabr ayına qədər hazırlanmasına imkan verdi. Sənədlərin imzalanmasının ilk mərasimi 2000-ci il oktyabr ayının 17-də Bakıda keçirildi. Həmin gün Prezident Sarayında iki mühüm sənəd – *"Azərbaycan Respublikası hökuməti ilə Əsas ixrac boru kəməri iştirakçıları arasında tranzit ərazisinə malik ölkənin hökuməti ilə saziş"* və *"Azərbaycan Respublikası hökuməti, SOCAR və Əsas ixrac boru kəmərinin digər iştirakçıları arasında Bakı–Tbilisi–Ceyhan xam neft kəməri layihəsinin mühəndis işləri və layihələşdirilməsi üçün maliyyələşdirmə və əməkdaşlıq sazişi"* imzalandı [31, s.2].

40 il müddətinə qüvvədə olması nəzərdə tutulan ilk sənəd tranzit ərazidə torpaqların istifadəsi, lisenziyaların verilməsi və s. texniki-təşkilati məsələlərin həlli qaydalarını tənzimləyirdi.

Layihənin həyata keçirilməsində kommersiya-hüquqi məsələləri nizamlayan ikinci saziş tariflərin müəyyən olunması, qoyulmuş vəsaitlərin qaytarılması, iştirakçıların neft kəmərinin ötürmə imkanlarından istifadə etmək ardıcıllığı və yeni şirkətlərin gələcəkdə BTC-yə qoşulması mexanizmini, habelə səhmdarların iştirak payının bölgüsü və s. müddəaları əhatə edirdi.

Sazişə görə, sərmayəçilərin kəmərin tikintisinə sərf etdiyi kapitalın əvəzi tam ödənildikdən sonra BTC ƏİBK bütövlükdə Azərbaycanın mülkiyyətinə verilir. Tikinti işlərinin yerinə yetirilməsi üçün Azərbaycan Respublikası nümayəndəsinin sədrliyi ilə rəhbər komitə yaradılırdı. Layihədə şirkətlərin iştirak payı aşağıdakı kimi bölünürdü: SOCAR–50%, "BP"–25,41%,

"Yunokal"–7,48%, "Statoyl"–6,37%, TPAO–5,02%, "İtoçu"–2,92%, "Remko"–1,55%, "Delta Hess"–1,25% [31, s.2; 382, s.53-55].

Beləliklə, qeyd olunan sənədlərin imzalanması ilə ağır danışıqlar prosesinə yekun vurulur və ƏİBK-nın tikintisinə başlamaq üçün hüquqi baza yaradılırdı.

Eyni məzmunlu sənədlər Azərbaycandan sonra ardıcıl olaraq oktyabrın 18-də Tbilisidə Gürcüstan hökuməti ilə, oktyabrın 19-da Ankarada Türkiyə hökuməti ilə imzalandı. Ankarada imzalanan sənədlər sırasına əlavə olaraq *"Türkiyə hökumətinin maliyyə və iş icrası təminatı"* və *"Botaş" şirkəti ilə dəyişməz qiymətlə "açar təhvili" əsasında kəmərin Türkiyə hissəsinin mühəndis-layihə işləri və tikintisini həyata keçirmək barədə saziş"* daxil idi [227; 228].

Prezident Heydər Əliyev sənədlərin imzalanmasını tarixi hadisə hesab edərək xüsusi vurğulayırdı: *"Bakı–Tbilisi–Ceyhan neft kəmərinin yaradılması dövlət neft strategiyamızın əsas hissəsini təşkil edir. Bütün təxribatlar, xaricdən bizə qarşı olan təzyiqlər heç bir nəticə vermədi. Son illər isə Bakı–Tbilisi–Ceyhan Əsas ixrac neft kəmərinin çəkilməsinə qarşı müxtəlif təbliğatlar aparıldı, təxribat hərəkətləri edildi. Amma bizim iradəmiz, müstəqil demokratik Azərbaycanın iqtisadi, xarici siyasəti və dünyanın böyük dövlətləri, onların neft şirkətləri ilə əməkdaşlığı – bütün bunlar bizi bugünkü günə gətirib çıxardı"* [158, c.30, s.109].

Qeyd olunanlardan görünür ki, Əsas ixrac boru kəmərinin Bakı–Tbilisi–Ceyhan marşrutu barədə qərarın qəbul olunması ziddiyyətli mövqelərin üzləşdiyi çətin danışıqlar prosesi ilə müşayiət olunub. Danışıqlar gedişində xarici neft şirkətlərinin, o cümlədən "BP"-nin mövqeyi böyük təkamül yolu keçib. Bu marşrutun seçilməsinə qarşı ciddi müqavimət göstərən "BP" şirkəti Azərbaycanın əzmkar fəaliyyəti və tərəfdaşları ilə səmərəli əməkdaşlığı nəticəsində geri çəkilərək, qarşılıqlı razılıqlar əsasında layihəni dəstəkləmək barədə qərar qəbul etdi. Bu baxım-

dan “BP”-nin nümayəndəsi və ABƏŞ-in prezidenti D.Vudvordun sənədlərin Bakıdakı imzalanma mərasimində çıxışı diqqəti cəlb edir. O deyirdi: *“Bu, bir həqiqətdir ki, boru kəməri marşrutunun özü kimi uzun və enişli-yoxuşlu bir yolda bizim müvəffəqiyyət qazana biləcəyimizə çoxları şübhə ilə yanaşmışdır... Bu gün buraya ona görə yığışmışıq ki, Bakı–Tbilisi–Ceyhan layihəsinin kommersiya baxımından həyat qabiliyyətli layihə olduğuna inanırıq. Biz hesab edirik ki, ...bu layihə Cənubi Xəzərdən əsas neft ixracı marşrutu kimi cəlbedici olacaqdır”* [31, s.2].

D.Vudvord layihənin gerçəkləşməsi yolunda Azərbaycan hökumətinin, xüsusilə Prezident Heydər Əliyevin rolunu yüksək qiymətləndirdi. O, Heydər Əliyevə müraciət edərək bildirdi: *“Bu layihənin reallığa çevrilməsi üçün sarsılmaz əzminizə və bizim inamla sərmayə qoya biləcəyimiz demokratik, təhlükəsiz və sabit Azərbaycan yaradılmasına rəhbərliyinizə görə biz xüsusi təbriklərimizi Sizə ünvanlamışıq. Bugünkü hadisələr Sizin neft strategiyanızın daha bir uğurudur və bu strategiya müstəqil Azərbaycan Respublikasının bundan sonra da inkişaf etməsinə və çiçəklənməsinə səbəb olacaqdır”* [31, s.2].

Göründüyü kimi, Azərbaycan Respublikasının qətiyyətli mövqeyi və konstruktiv təklifləri tərəfdaşlarını inandırmış və kəmərin BTC marşrutu ilə çəkilməsinə dair qərarın qəbul olunmasına sövq etmişdi.

Yuxarıda göstərilən sənədlərin imzalanması boru kəmərinin tikintisi ilə bağlı işlərin sürətlənməsinə yol açırdı. SOCAR-ın prezidenti N.Əliyevin sözlərinə görə, BTC-nin 2004-cü ilin sonunda istifadəyə verilməsi ehtimal olunurdu [31, s.1].

Tikintisi 2,4 milyard dollar qiymətləndirilən boru kəmərinin Türkiyə hissəsinə 1,4 milyard dollar, Azərbaycan və Gürcüstan ərazilərindən keçən hissələrə isə müvafiq olaraq 600 milyon və 400 milyon dollar xərclənməsi nəzərdə tutulurdu.

BTC ilə 1 barel neftin nəqlinə görə müəyyən olunmuş 2,58 dollar tranzit tarifindən Gürcüstan ilk 5 il ərzində hər barelə 0,12 dollar, sonrakı 11 il müddətində 0,14 dollar və nəhayət,

axırıncı 24 illik dövrdə 0,17 dollar almalı idi. Üçüncü mərhələdə tarifin dəyişdirilməsi istisna olunmurdu. Türkiyə isə öz növbəsində birinci mərhələdə bir barelə görə 0,20 dollar, ikinci mərhələdə 0,30 dollar və üçüncü mərhələdə daha çox – 0,37 dollar əldə etməli idi [382, s.58].

Tranzit tariflərindən əldə olunacaq gəlirin qalan hissəsinin boru kəmərinin saxlanması, təmiri, kapital məsrəflərinin ödənilməsinə və s. sərf edilməsi planlaşdırılırdı.

Əsas ixrac boru kəmərinin idarəçiliyində həlledici səsə malik olmaq üçün Azərbaycan danışıqlar prosesinin ilk günlərindən 50%+1 səhmdən ibarət iştirak payına sahib olmağı əsas şərt kimi irəli sürmüşdü [382, s.59].

Bu prinsipə əsaslanaraq 50%-lik paya yiyələnən Azərbaycan kəmərin tikintisi üçün nəzərdə tutulan 2,4 milyard dolların yarısını ödəməli olacaqdı. Lakin bunun üçün lazımi maliyyə vəsaiti olmadığına görə Azərbaycan SOCAR-a malik payın bir hissəsini sponsor qrupuna daxil olmaq istəyən şirkətlərə satmağa hazır olduğunu bildirmişdi. Əvəzində həmin şirkətlər Azərbaycanın da payını maliyyələşdirməyi öhdələrinə götürməli idilər [381, s.497].

Azərbaycan bu məqsədlə Fransanın “TotalFinaElf”, ABŞ-ın “Şevron” və layihəyə maraq göstərən bir sıra digər neft şirkətləri ilə danışıqlar aparırdı. Eyni zamanda, həmin dövrdə boru kəmərinin tikintisini həyata keçirmək üçün xüsusi kompaniyanın formalaşdırılması istiqamətində işlər görülürdü. Nəhayət, 2002-ci il avqust ayının 1-də BTC ƏİBK-nın tikintisini yerinə yetirən “BTC Ko” kompaniyası yaradıldı [381, s.513].

Qısa müddət ərzində “BTC Ko” sponsorlar qrupuna bir sıra iri şirkətlər qoşuldu. Bilavasitə tikinti işlərinin başlanması ərəfəsində İtaliyanın “Eni” (“Acip”in törəmə şirkəti), Fransanın “TotalFinaElf” və Yaponiyanın “İnpeks” şirkətləri “BTC Ko” kompaniyasına daxil oldu. Bununla da sponsorlar qrupunda iştirak payı aşağıdakı kimi bölüşdürüldü: “BP”–32,6%, SOCAR–25%, “Yunokal”–8,9%, “Statoyl”–8,71%, TPAO–6,53%,

"Eni"–5%, "TotalFinaElf"–5%, "İtoçu"–3,4%, "İnpeks"–2,5%, "Delta Hess"–2,36% [148].

Göründüyü kimi, BTC-nin sponsorlar qrupunda yalnız Azərbaycanda fəaliyyət göstərən şirkətlər yox, həm də Qazaxıstanın "Kaşaqan" yatağında işləyən üç iri şirkət – "Eni", "İnpeks" və "TotalFinaElf" təmsil olunurdu. İştirakçıların sırasının genişlənməsi və bu sıraya Azərbaycandan kənarda neft hasilatı ilə məşğul olan kompaniyaların qoşulması BTC ƏİBK-nın iqtisadi baxımdan səmərəliliyinə və təhlükəsiz fəaliyyətinə inamın artmasını təsdiq edirdi. Eyni zamanda, "BTC Ko"-ya üzv şirkətlərin öz neftini bu kəmərlə nəql etmək üçün müvafiq güzəştlər əldə etməsi digər kompaniyaların həmin marşrutu seçməsinə stimul verirdi.

Bununla belə, diqqəti cəlb edən əsas məqamlardan biri bu idi ki, "Əsrin müqaviləsi"ndəki şirkətlərlə yanaşı, Xəzər hövzəsində neft hasilatına dair digər müqavilələrin iştirakçısı olan başqa firmaların "BTC Ko" kompaniyasına qoşulmasına baxmayaraq, Azərbaycanda ilk beynəlxalq dəniz neft müqaviləsinin üzvü olan Rusiyanın "LUKoyl" şirkəti BTC boru kəmərinin sponsorlar qrupuna daxil olmaqdan imtina etdi. Əlbəttə, "LUKoyl"un bu qərarı iqtisadi amillərlə deyil, Rusiyanın enerji siyasəti və geosiyasi maraqları ilə izah edilməlidir. Çünki əsas neft ixracı kəmərinin öz ərazilərindən keçməsinə çalışan Rusiya hökuməti başqa marşruta iqtisadi və siyasi dəstək vermək niyyətində deyildi. Buna görə də "LUKoyl"un BTC-yə qoşulmasının qarşısı alındı.

Sponsorlar qrupunun yeni tərkibinə nəzər salarkən, SOCAR-ın iştirak payının 50%-dən 25%-ə qədər azalması diqqəti cəlb edir. Bunun səbəbi, qeyd edildiyi kimi, boru kəmərinin tikintisi üçün iştirak payına mütənasib şəkildə maliyyə vəsaiti ayrılmasının çətinliyi ilə bağlı idi. Azərbaycan öz payının bir hissəsini başqa şirkətlərə satmaqla əlində saxladığı iştirak payının maliyyələşdirilməsi məsələlərini həll etmək məqsədi güdürdü.

Əsas ixrac boru kəmərində SOCAR-ın iştirakının maliy-

yə təminatı mexanizmi Azərbaycan Respublikası Prezidentinin *"Bakı–Tbilisi–Ceyhan Əsas ixrac boru kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında"* 2002-ci il 30 iyul tarixli Fərmanında öz əksini tapdı. Fərmanda qeyd olunurdu ki, SOCAR-ın BTC-də *"25 faiz həcmində iştirak payının 70 faizinə yaxın hissəsinin layihənin digər iştirakçıları ilə birgə xarici maliyyə-bank qurumlarından kreditin cəlb edilməsi yolu ilə, qalan hissəsinin isə dövlətin daxili imkanları hesabına maliyyələşdirilməsi"* məqbul hesab edilsin [119].

Eyni zamanda, sənəddə xarici maliyyə-bank qurumlarından alınacaq kreditin müqabilində SOCAR-ın əvəzinə həmin kredit vəsaiti üzrə zəmanət təqdim etdiklərinə görə "BP", "Statoyl" və "Yunokal" şirkətlərinə BTC-nin fəaliyyətə başlamasından sonra Azərbaycanın mənfəət neftinin 2 milyon barelinin verilməsi qərara alınırdı.

Digər tərəfdən, Fərmanda Azərbaycanın daxili imkanları hesabına maliyyələşməni həyata keçirmək məqsədilə Milli Bankda neft müqavilələri üzrə ödənilmiş bonusların yığıldığı hesabdan 118 milyon dolların Dövlət Neft Fonduna köçürülməsi və SOCAR-ın BTC-dəki 25 faizlik iştirak payının 30 faizə yaxın hissəsinin bütünlüklə Dövlət Neft Fondu tərəfindən maliyyələşdirilməsi barədə tapşırıq verilirdi.

Qeyd etmək lazımdır ki, ötən dövr ərzindəki inflyasiya və tikinti işləri ilə bağlı dəqiqləşdirmələr nəticəsində 2002-ci ildə BTC-nin inşası 2,95 milyard dollar, kredit şəklində alınacaq bank faizləri ilə birlikdə isə 3,3 milyard dollar həcmində qiymətləndirilirdi [381, s.513].

Yeni hesablamalara əsasən, Azərbaycanın BTC-dəki 25 faizlik payına uyğun olaraq ödəyəcəyi 750 milyon dolların 250 milyon dolları (təxminən 30%-i) dövlətin daxili imkanları, 500 milyon dolları isə (70%-ə yaxını) beynəlxalq banklardan alınmış kreditlər hesabına təmin olunmalı idi [381, s.513].

Sponsorlar qrupunun formalaşması və maliyyə mənbə-

yinin müəyyənləşdirilməsi ƏİBK-nın tikintisinə başlanılmasını sürətləndirməyə imkan verirdi. Eyni zamanda, dünya bazarlarında neftin qiymətinin artması neft şirkətlərini ruhlandırır, layihənin həyata keçirilməsinə əlverişli zəmin yaradırdı. Belə ki, 2000-ci ilin payızında neftin bir barelinin qiyməti 35 dollara qədər artaraq son on ildə ən yüksək həddə çatmışdı [289]. Sonrakı dövrdə qiymətlər aşağı düşsə də, 2001-ci ilin yayında 25 dollar ətrafında sabitləşmişdi və tədricən bahalaşma müşahidə olunurdu [290].

Belə şəraitdə müzakirələrin başa çatması və zəruri sənədlərin imzalanmasından sonra 2002-ci il sentyabrın 18-də Bakının yaxınlığındakı Səngəçal qəsəbəsində BTC ƏİBK-nın özülünün qoyulmasına həsr olunmuş geniş tədbir keçirildi. Həmin mərasimdə Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri iştirak edirdilər [381, s.509]. Kəmərin Azərbaycan ərazisindəki hissəsini Yunanıstanın CCİC kompaniyası, Gürcüstan hissəsini isə fransız-amerikan alyansı SPİE/Petrofac inşa edəcəkdi.

Beləliklə, səkkizillik müzakirələrdən və hazırlıq işlərindən sonra Azərbaycan neftini dünya bazarına çatdırmaq üçün mühüm iqtisadi və geosiyasi əhəmiyyətə malik olan BTC ƏİBK-nın tikintisinə başlanıldı.

BTC-nin inşası üçün tələb olunan maliyyə vəsaitinin 30%-ni səhmdar şirkətlərin, 70%-ni isə beynəlxalq maliyyə-bank təşkilatlarından cəlb ediləcək kreditlər hesabına ödənilməsi nəzərdə tutulurdu. Sponsorlar qrupuna daxil olan səhmdar şirkətlər 2003-cü ilin may ayına qədər ƏİBK-nın tikintisini öz vəsaitləri hesabına maliyyələşdirdi [132]. Xarici neft şirkətləri və tranzit ölkələrlə bütün razılaşmalar əldə edildikdən sonra gözlənilmədən kəmərin maliyyə mənbələri ilə bağlı yeni maneələr ortaya çıxdı. Beynəlxalq maliyyə qurumları ilə aparılan danışıqlar nəticə vermədiyinə görə nəzərdə tutulan kreditlərin alınması ləngiyirdi. Bu isə tikintinin dayandırılmasına səbəb ola bilərdi.

Həmin dövrdə bir sıra qeyri-hökumət təşkilatları (QHT) şəbəkəsinin BTC əleyhinə kampaniyaya başlaması da xarici

bank və kredit qurumlarının qərar qəbulunda tərəddüd göstərməsinə təsir etmişdi. Türkiyə, Gürcüstan və Azərbaycanda *"yaşıllar hərəkatı"* adı ilə çıxış edən bəzi qruplar və qeyri-hökumət təşkilatları BTC layihəsinin ətraf mühitə ziyan vuracağını iddia edərək, Əsas ixrac boru kəmərinin tikintisinə mane olmağa çalışırdılar. Boru kəmərinin Borjomi mineral su mənbələrinə yaxın ərazilərdən keçdiyini əsas götürən Gürcüstanın bəzi QHT-lərinə Azərbaycandakı müəyyən həmkarları da dəstək verirdilər. Lakin layihə ekoloji təhlükəsizliyə dair bütün tələblərə uyğun şəkildə hazırlandığı üçün irəli sürülən iddiaların əsası yox idi. Məsələnin mahiyyəti daha çox beynəlxalq və regional dairələrin iqtisadi və geosiyasi maraqları ilə bağlı idi.

Eyni zamanda, bu prosesdə erməni lobbisinin təsiri altında olan xarici QHT-lərin fəallığı özünü göstərirdi. Təsadüfi deyil ki, həmin dövrdə "BTC Ko"-nun baş meneceri M.Tausend bildirirdi ki, bu QHT-lərin böyük əksəriyyətinin boru kəmərinin keçdiyi ölkələrə aidiyyəti yoxdur. O, qeyd edirdi: *"Buna görə də belə bir sual yarana bilər: Onlar regionda legitim əsaslarla kimi təmsil edirlər, yəni yerli ictimai fikrə onların aidiyyəti varmı?"* [484, s.11].

Beynəlxalq sponsor qrupunun nümayəndəsi M.Tausendin bu sualının meydana çıxması əsaslı səbəblərlə bağlı idi. Regionun iqtisadi və geosiyasi mənzərəsini dəyişməyə yönəlmiş layihəyə qarşı davamlı mübarizə aparan dairələr, o cümlədən Azərbaycanın iqtisadi inkişafından təşviş keçirən Ermənistan və erməni lobbisi artıq tikintisi vüsət almış BTC-nin inşasını dayandırmaq yolunda son cəhdlərini edirdilər. Bunun üçün ekoloji təhlükəsizlik pərdəsi altında QHT-lərin fəaliyyətindən istifadə olunur və beynəlxalq ictimai fikri çaşdıraraq, maliyyə korporasiyalarına təzyiqi artırmaqla layihəyə kredit ayırmaqdan çəkindirməyə çalışırdılar.

Lakin bankların gözləmə mövqeyini yalnız QHT-lərin etirazı ilə əlaqələndirmək doğru olmazdı. Həmin dövrdə Qərb ekspertlərinin qeyd etdiyi kimi, beynəlxalq maliyyə-bank dairə-

ləri də dünya neft bazarındakı proseslərə öz təsir imkanlarını artırmaq, "BP" və s. transmilli şirkətlərdən müəyyən güzəştlər qoparmaq məqsədilə QHT-lərin hay-küyündən istifadə edir, danışıqları uzadır və özləri üçün daha əlverişli şərtlərə nail olmağa səy göstərirdilər.

Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası BTC layihəsinin ətraf mühitə və sosial sferaya təsirinin qiymətləndirilməsi üzrə sənədi 2003-cü il iyunun 12-də 120 gün müddətinə ictimai müzakirəyə təqdim etdi. Oktyabrın 12-də müzakirələr başa çatdıqdan sonra həmin maliyyə qurumları layihəyə kreditin ayrılması ilə bağlı qərar qəbul etməli idi [484, s.11].

Bütün maneələrə və təzyiqlərə baxmayaraq, "BTC Ko" layihənin həyata keçirilməsində qətiyyətli mövqe tuturdu. "BP"-nin Azərbaycandakı ofisinin rəhbəri D.Vudvord 2003-cü ilin yayında bəyan etdi ki, əgər beynəlxalq maliyyə qurumları həmin ilin sonuna qədər layihə üçün nəzərdə tutulan xərclərin 70%-ni təşkil edən 2 milyard dollar həcmində krediti verməsə, səhmdar şirkətlər tikintinin davam etdirilməsi məqsədilə öz maliyyə vəsaitlərini sərf edəcəklər. Onun sözlərinə görə, şirkətlər cari ildə işlərin davam etdirilməsi üçün 700-800 milyon dollar ayırmağı qərara almışdılar [484, s.9].

Beləliklə, maliyyə çətinlikləri ilə üzləşməsinə baxmayaraq, BTC-nin tikintisi dayandırılmamışdı. Bütün imkanlarını toplayaraq işlərini davam etdirən şirkətlər maliyyə təşkilatlarının oktyabr-noyabr aylarında qəbul olunacaq qərarını səbirsizliklə gözləyirdilər.

Beynəlxalq Maliyyə Korporasiyası müstəqil ekspertlərlə birgə BTC layihəsinin ekologiyaya təsiri məsələlərini, xüsusilə Borjomi (Gürcüstan) sahəsi ilə əlaqədar irəli sürülən ittihamları dərindən araşdıraraq, Əsas ixrac boru kəməri marşrutunun bütün ekoloji standartlara cavab verən *"ən əlverişli"* variant olduğunu təsdiqlədi [131].

Bütün araşdırmalar yekunlaşdıqdan sonra beynəlxalq maliyyə qurumlarının BTC-nin tikintisini maliyyələşdirməsi

yolunda son maneələr aradan qaldırıldı. Noyabrın 4-də Beynəlxalq Maliyyə Korporasiyası, bir həftə sonra isə Avropa Yenidənqurma və İnkişaf Bankı BTC ƏİBK-nın maliyyələşdirilməsi üçün hər biri 250 milyon dollar, yəni birlikdə 500 milyon dollar məbləğində kredit ayrılması haqqında qərar qəbul etdi [132].

Bununla da layihənin həyata keçirilməsinin daha da sürətlənməsi sahəsində yeni imkanlar açılırdı. Dünyanın iki nəhəng maliyyə-bank təşkilatının BTC-ni dəstəkləməsi digər maliyyə-kredit qurumlarının da mövqeyinə müsbət təsir göstərdi. Boru kəməri layihəsinə kredit ayıran təşkilatların sırası sürətlə genişləndi. Maliyyələşmə sazişlərinin hazırlanması ilə bağlı işlər gərgin qrafik çərçivəsində yerinə yetirildi və bir neçə aya başa çatdırıldı. Nəhayət, 2004-cü il fevralın 3-də Bakıda BTC ƏİBK-nın maliyyələşdirilməsinə dair sazişlərin imzalanma mərasimi keçirildi. Saziş toplusuna Azərbaycan, Gürcüstan, Türkiyə hökumətləri və maliyyə-kredit qurumlarından ibarət 78 tərəfin imzaladığı 208 müxtəlif sənəd daxil idi [121]. Bu sənədlərin imzalanması ilə BTC-nin maliyyələşmə məsələləri tamamilə həll olundu.

Tikintisi 2,95 milyard dollar qiymətləndirilən ƏİBK-nın doldurulması üçün lazım olan neftin qiyməti və alınan borcların faizi də daxil olmaqla ümumi xərcləri 3,6 milyard dollar təşkil edirdi. Həmin vəsaitin 30 faizi (təxminən 1 milyard dollar) səhmdarların öz hesabına, 70 faizi isə (təxminən 2,6 milyard dollar) üçüncü tərəfin kreditləri hesabına maliyyələşdirilirdi [121].

Artıq qeyd edildiyi kimi, cəlb olunan kreditin 500 milyon dollarını Avropa Yenidənqurma və İnkişaf Bankı ilə Beynəlxalq Maliyyə Korporasiyası birlikdə ayırırdı. Bundan başqa, 1 milyard 166 milyon dollar ABŞ, Yaponiya, İtaliya, Belçika və Hollandiyanın bank və ixrac kredit agentlikləri tərəfindən verilirdi. Nəhayət, 923 milyon dollar həcmində qalan vəsait isə boru kəmərinin səhmdarları olan "BP", "Statoyl", "Konoko-Fillips" və "Total" şirkətlərinin hesabına təmin olunurdu.

Uzun müddət ərzində müxtəlif təzyiqlərə və maliyyə risklərinə məruz qalan BTC-nin maliyyələşdirilməsi ilə bağlı aparılan işlərə yekun vurulması tikintinin daha da sürətlənməsi üçün böyük əhəmiyyət daşıyırdı. İmzalanma mərasimində qeyd edildi ki, layihə üzrə işlərin 50 faizindən çoxu yerinə yetirilmişdir və boru kəmərinin tikintisi 2005-ci ilin əvvəllərində istismara hazır olmaq qrafikinə uyğun şəkildə davam etdirilir.

İmzalanma mərasimində çıxış edən SOCAR-ın prezidenti N.Əliyev Bakı–Tbilisi–Ceyhan layihəsinin iştirakçıları adından xüsusi təklif irəli sürdü. O, bu layihənin işlənib hazırlanmasında və həyata keçirilməsində müstəsna xidmətlərini nəzərə alaraq, Əsas ixrac neft boru kəmərinə Heydər Əliyevin adının verilməsi haqqında qərarın qəbul edildiyini bildirdi və həmin təşəbbüsə dəstək verilməsini xahiş etdi [122, s.5].

Beləliklə, iki ildən artıq müddətdə aparılmış geniş monitorinq, boru kəmərinin ekologiyaya və sosial mühitə təsirinin dərindən araşdırılması, bəzi xarici dairələrin, o cümlədən erməni lobbisinin ardıcıl təzyiqinin aradan qaldırılması ilə müşayiət olunan intensiv danışıqlar nəticəsində BTC-nin maliyyələşdirilməsi üzrə sənədlər hazırlanaraq imzalandı. Bununla da region üçün xüsusi strateji və iqtisadı əhəmiyyət kəsb edən ƏİBK layihəsinin gerçəkləşməsi prosesi yekun mərhələsinə qədəm qoydu.

Tikinti işlərinin gedişində meydana çıxan müəyyən texniki məsələlər layihənin qrafiklə nəzərdə tutulan müddətinin uzanmasına səbəb olsa da, 2005-ci ilin may ayında boru kəmərinin Azərbaycan hissəsində inşa işləri başa çatdırıldı. Nəhayət, 2005-ci ilin may ayının 25-də Səngəçal neft terminalında BTC ƏİBK-nın Azərbaycan ərazisindən çəkilən hissəsinin açılış mərasimi keçirildi [109].

Mərasimdə Prezident İlham Əliyev, Türkiyə Prezidenti Ə.Necdət Sezər, Gürcüstan Prezidenti M.Saakaşvili, Qazaxıstan Prezidenti N.Nazarbayev, ABŞ, Böyük Britaniya, Fransa, Ukrayna, Yaponiya, Norveç və başqa ölkələrin nümayəndələri iştirak edirdilər.

Beynəlxalq əhəmiyyətli boru kəmərinin tikintisində meydana çıxan maneələrin dəf olunduğunu vurğulayan Azərbaycan Prezidenti İlham Əliyev qeyd etdi: *"Türkiyə-Gürcüstan-Azərbaycan birliyi, ABŞ-ın bu layihəyə və ümumiyyətlə, bütün enerji layihələrinə verdiyi dəstək, "BP" şirkəti başda olmaqla xarici şirkətlərin çox səmərəli fəaliyyəti, Azərbaycan Dövlət Neft Şirkətinin fəaliyyəti imkan verdi ki, biz bu əfsanəni reallığa, gerçəkliyə çevirək"* [159, c.10, s.116].

ABŞ, Fransa, Ukrayna prezidentlərinin, Böyük Britaniya, İtaliya, Yaponiya və Norveçin baş nazirlərinin BTC-nin istifadəyə verilməsi münasibətilə Azərbaycan Prezidentinə təbrik məktubları göndərmələri bu hadisənin regional çərçivədən çıxaraq daha böyük qlobal əhəmiyyət kəsb etdiyini göstərirdi. ABŞ Prezidenti C.Buş öz məktubunda qeyd edirdi: *"Birləşmiş Ştatlar BTC boru kəmərini davamlı şəkildə dəstəkləmişdir, çünki biz inanırıq ki, layihə qlobal enerji təhlükəsizliyini möhkəmləndirəcək, iştirakçı ölkələrin enerji müxtəlifliyini gücləndirəcək, regional əməkdaşlığı təşviq edəcək və beynəlxalq sərmayə imkanlarını genişləndirəcəkdir"* [87].

BTC-nin fəaliyyətə başlaması Azərbaycanın neft ixracı imkanlarını artırmaqla yanaşı, tranzit ölkə kimi də regionda mövqelərinin möhkəmlənməsinə şərait yaradırdı. Qazaxıstan və Türkmənistan neftinin Avropaya nəql olunmasında Azərbaycan marşrutu əhəmiyyətli rol oynaya bilərdi. Mərasimdə çıxış edən Prezident N.Nazarbayev həmin dövrdə Azərbaycan ərazisi ilə 3 milyon tondan çox Qazaxıstan neftinin daşındığını qeyd edərək, Bakı–Tbilisi–Ceyhan boru kəmərinin bu ölkənin ixrac potensialının artırılmasına xidmət edəcəyini bildirdi [111]. O, BTC-ni Qazaxıstan neftinin ixracı üçün *"çox mühüm variantlardan biri"* kimi qiymətləndirdi [93].

Bakı–Tbilisi–Ceyhan boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi layihənin reallaşması yolunda ciddi addım oldu. Ceyhanadək bütün kəmərin doldurulması üçün boru xəttinə 10 milyon barel neft vurulmalı idi. Hesablamalara görə,

bu prosesin 6 aydan sonra başa çatması nəzərdə tutulurdu. Beləliklə, Azərbaycan neftinin Ceyhan limanında tankerlərə doldurulması 2005-ci ilin dördüncü rübündə gözlənilirdi [109].

Boru kəmərinin neftlə doldurulmasının başlanılmasına baxmayaraq, Türkiyə ərazisində onun tikintisi ləngiyirdi. Bu isə tikinti xərclərinin artmasına səbəb olmuşdu. Təsadüfi deyil ki, Türkiyənin "Botaş" şirkəti əlavə xərclərin ödənilməsi tələbi ilə səhmdarlara qarşı 400 milyon dollar həcmində iddia irəli sürmüşdü [431].

BTC-nin istifadəyə verilməsinin ləngiməsi səhmdarlara daha çox ziyan vururdu. Çünki bahalı dəmiryolu daşımaları ilə yanaşı, Şimal ixrac boru kəmərində Azərbaycan neftinin Rusiya nefti ilə qarışması nəticəsində ABƏŞ üzvlərinin maliyyə itkilərinə məruz qalması labüd idi. Belə ki, 2006-cı ilin aprel ayında dünya bazarında Azeri Light neftinin bir barelinin qiyməti 69,29 dollar idisə, Azərbaycan və Rusiyanın qarışıq Urals sortu 63,82 dollara satılırdı [431].

Göründüyü kimi, bir bareldə qiymət fərqi 5 dollardan çox idi. Buna görə də marşrutun bütün hissələrinin tezliklə istifadəyə verilməsi səhmdarların və hər üç ölkənin maraqlarına uyğun idi.

Nəhayət, "Əsrin müqaviləsi" çərçivəsində hasil edilən Azərbaycan nefti 2006-cı il mayın 28-də BTC ƏİBK ilə Ceyhan terminalına çatdı. Bu münasibətlə Azərbaycan xalqına müraciətində Prezident İlham Əliyev qeyd edirdi: *"Vaxtilə əfsanə kimi görünən bu layihə artıq gerçəklikdir... Çox əlamətdar hadisədir ki, Azərbaycan neftinin Ceyhan terminalına daxil olması Respublika Gününə təsadüf etdi. Bu hadisə də böyük rəmzi xarakter daşıyır. Çünki Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində Bakı–Tbilisi–Ceyhan neft kəmərinin rolu danılmazdır və çox əhəmiyyətlidir"* [159, c.17, s.173].

Beləliklə, tikintisi uğrunda Azərbaycanın gərgin mübarizə apardığı və neft strategiyasının mühüm tərkib hissəsi olan BTC ƏİBK fəaliyyətə başladı. "Mərkəzi Azəri" platformasından

çıxarılmış neftlə yüklənmiş ilk tanker iyunun 4-də Ceyhan limanından yola düşdü.

İyulun 13-də Ceyhanda BTC-nin istifadəyə verilməsinə həsr edilmiş mərasim təşkil olundu. Açılış mərasimində Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri və başqa qonaqlar iştirak edirdilər. Tədbirdə çıxış edən "BP" şirkətinin prezidenti C.Braun bildirdi ki, *"4 milyard dollarlıq sərmayənin qoyulması nəticəsində başa çatan"* bu layihə *"12 illik işin nəticəsidir"* [182].

İştirakçılar tərəfindən tarixi əhəmiyyətli hadisə kimi qiymətləndirilən BTC-nin inşası və idarə olunması məqsədilə yaradılmış "BTC Ko" şirkətinin tərkibində həmin dövr ərzində nəzərəçarpacaq dəyişikliklər baş vermişdir. Boru kəməri istifadəyə verildiyi vaxtda onun səhmdarları sırasına aşağıdakı şirkətlər daxil idi: "BP" (30,1%), SOCAR (25%), "Şevron" (8,9%), "Statoyl" (8,71%), TPAO (6,53%), "Eni" (5%), "Total" (5%), "İtoçu" (3,4%), "İnpeks" (2,5%), "Konoko-Fillips" (2.5%), "Amerada Hess" (2.36%) [182].

Göründüyü kimi, həmin vaxta qədər səhm paylarını sərfəli qiymətə satan "Yunokal" və "Remko" şirkətləri "BTC Ko"-nun səhmdarları sırasından çıxmışdı. Lakin Əsas ixrac boru kəmərinin kommersiya əhəmiyyətini qiymətləndirərək, onun səhmlərini əldə edən şirkətlərin sayı daha çox və təmsil etdikləri coğrafiyanın məkanı daha geniş idi. Müxtəlif şirkətlərin kommersiya maraqlarına uyğun olaraq səhmdarların tərkibində dəyişikliklər sonrakı dövrdə də baş verirdi. Belə ki, Hindistanın ONGC şirkəti 2012-ci ilin sonunda "Amerada Hess" şirkətinin payını alaraq səhmdarlar qrupuna daxil oldu [383]. 2023-cü ilin sonunda isə "Statoyl"un ("Equinor") 8,71%-lik payını SOCAR əldə etdi [330].

Yuxarıda qeyd edilən şirkətlərdən beşi – "Şevron", "Eni", "Total", "İnpeks" və "Konoko-Fillips" Xəzər dənizinin Qazaxıstan sektorunda fəaliyyət göstərirdi. Bu isə Qazaxıstan neftinin də BTC ilə daşınması perspektivlərini daha da artırırdı.

Xarici şirkətlərlə Qazaxıstan hökumətinin BTC-nin nəqletmə imkanlarından istifadə olunması ilə bağlı maraqlarının üst-üstə düşməsi gələcəkdə bu ölkə neftinin tranzitinə dair Azərbaycan-Qazaxıstan danışıqlarının uğurla nəticələnməsini şərtləndirirdi.

İki ölkə nümayəndələrinin apardığı danışıqların yekunu olaraq, 2006-cı il iyun ayının 16-da Almatıda Azərbaycan və Qazaxıstan arasında *"Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisi ilə Bakı–Tbilisi–Ceyhan sistemi vasitəsilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında"* saziş imzalandı [234].

Müqavilə hər iki dövlətin geosiyasi və geoiqtisadi mənafelərinə uyğun idi. Qazaxıstan hasil etdiyi neftin dünya bazarlarına ixracı üçün marşrutların şaxələnməsinə nail olur, Rusiya və Çin istiqamətləri ilə yanaşı, Azərbaycan əraziləri ilə üçüncü yola çıxış imkanı qazanırdı. Azərbaycan isə Avropa ilə Mərkəzi Asiya arasında tranzit ölkə mövqelərini möhkəmləndirir, BTC-nin potensialından daha uzun müddətə və səmərəli istifadə olunması imkanlarını genişləndirirdi. Bu, eyni zamanda, regional əməkdaşlığın güclənməsinə müsbət təsir göstərən addım idi.

Azərbaycan parlamenti müqaviləni 2006-cı ilin oktyabrında təsdiq etsə də, Qazaxıstanda bunun üçün iki ilə yaxın vaxt tələb olundu. Nəhayət, 2008-ci ilin aprel ayında Qazaxıstan parlamenti müqavilənin təsdiq olunması haqqında qərar qəbul etdi [441].

Beləliklə, əsası 2002-ci ilin sentyabrında qoyulmuş BTC ƏİBK nəinki Azərbaycan, eləcə də Xəzər hövzəsi ölkələri neftinin dünya bazarlarına çatdırılmasında böyük rol oynamaq imkanı qazandı. Texniki göstəricilərə görə, bu tipli layihələr sırasında fərqlənən BTC-nin uzunluğu 1768 km-dir (443 km Azərbaycan, 249 km Gürcüstan və 1076 km Türkiyə ərazisindən keçir). Kəmər ildə 50 milyon ton və ya sutkada 1 milyon barel xam neft nəql etmək qabiliyyətinə malikdir [122, s.5; 372].

Boru kəməri istifadəyə verilsə də, podratçı “Botaş” şirkətinin smetadan artıq tikinti xərclərinin ödənilməsi ilə bağlı səhmdarlar qarşısında qaldırdığı məsələ açıq qalırdı. 2006-cı ildə mətbuat orqanlarında Türkiyə şirkətinin 400 milyon dollar həcmində kompensasiyanın ödənilməsi tələbi haqqında məlumat verilməsinə baxmayaraq, 2007-ci ilin dekabrında “Botaş” şirkəti kəmərin səhmdarlarına qarşı rəsmi surətdə 16,5 milyon dollarlıq iddia ilə bağlı müraciət göndərmişdi. İddiaya görə, “BTC Ko”-dan işin təhvili haqqında müqaviləyə əsasən 9,8 milyon dollar və işin gecikdirilməsi nəticəsində dəyən ziyanla bağlı 6,7 milyon dollar ödənilməsi tələb olunurdu. “Botaş” 2011-ci ilə qədər bir neçə dəfə məsələ ilə bağlı arbitraj məhkəməsinə müraciət edəcəyini bildirsə də, bu addımı atmamışdı [120, v.6].

Nəhayət, 2012-ci il iyulun 17-də “Botaş” ilə “BTC Ko” arasında mübahisəli məsələnin həllinə dair müqavilə imzalandı. Müqaviləyə görə, “BTC Ko”-dan “Botaş” şirkətinə 9,8 milyon dolların ödənilməsi, hər iki tərəfin bütün iddialarından şərtsiz imtinası və “Botaş”ın Türkiyə hökumətini *“zəmanət”* öhdəliyindən azad etməsi barədə razılıq əldə olundu [120, v.7].

Beləliklə, 5 ildən artıq davam edən mübahisə qarşılıqlı razılaşma əsasında məhkəməsiz həll edildi. Podratçıya ödənilən məbləğin həcmi isə ilkin səsləndirilən rəqəmdən dəfələrlə kiçik idi.

BTC Əsas ixrac boru kəmərinin fəaliyyətə başlaması ilə Azərbaycan neft strategiyası yeni mərhələyə qədəm qoydu. Xəzər dənizində hasil olunan böyük neftin daha əlverişli marşrutla birbaşa dünya bazarına çatdırılması üçün geniş imkanlar açıldı. Bu isə ölkənin iqtisadi potensialının stimullaşdırılması və sürətli inkişafın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edirdi. Eyni zamanda, uzun illər ərzində kəskin xarakter almış sosial problemlərin həlli sahəsində ciddi addımlar atmaq üçün tamamilə yeni şərait yarandı.

BTC həm də regional iqtisadi əməkdaşlığın dərinləşməsinə, siyasi əlaqələrin genişlənməsinə və təhlükəsizliyin

möhkəmlənməsinə ciddi təsir göstərən amil kimi qiymətləndirilir. Şərq-Qərb enerji-nəqliyyat dəhlizinin inkişafında mühüm yer tutan BTC-yə yalnız Azərbaycan neftinin deyil, eləcə də Mərkəzi Asiya ölkələrinin – Qazaxıstan və Türkmənistan neftinin də Qərb bazarlarına çıxarılmasında əhəmiyyətli tranzit rolu ayrılır.

Bununla da BTC Əsas ixrac boru kəməri həm Azərbaycanın, həm də layihənin əhatə etdiyi region ölkələrinin dünya iqtisadiyyatına inteqrasiya olunmasında güclü vasitəyə çevrilib. Göstərilən amillər Azərbaycanın sosial-iqtisadi inkişafını və geostrateji mövqelərinin güclənməsini şərtləndirərək, ölkənin siyasi müstəqilliyinin möhkəmlənməsinə əlavə stimul verdi. Bununla yanaşı, Əsas ixrac boru kəmərinin tədricən öz fəaliyyətini genişləndirməsi ilə Xəzər regionu ölkələrindən neft idxal edən dövlətlərin enerji təhlükəsizliyinə töhfəsini də qeyd etmək lazımdır.

2006-cı ilin yayında istifadəyə verilən BTC indiyədək "Əsrin müqaviləsi"nin həyata keçirilməsində və Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasında mühüm rol oynayıb. Amma kəmərlə ixrac olunan neftin həcmi tədricən artsa da, onun nəqletmə imkanlarından tam istifadə olunmayıb. 2012-ci ildə BTC boru kəməri ilə təxminən 28 milyon ton, 2013-cü ildə isə 33 milyon ton neft ixrac edilib [114; 453]. 2014-cü ildə bu marşrutla 34,8 milyon ton, 2016-cı ildə 28,9 milyon ton, 2018-ci ildə 34 milyon ton, 2023-cü ildə isə 30,2 milyon ton neft daşınıb [140; 146; 279; 146]. Bütövlükdə isə BTC fəaliyyətə başladığı vaxtdan 2023-cü ilin sonunadək kəmərlə 561 milyon ton neft nəql olunub [147]. Bu isə orta hesabla ildə 31,2 milyon ton xam neftin ixrac edilməsi deməkdir.

Göründüyü kimi, BTC ilə ötürülən neftin həcmi boru xəttinin ixrac potensialından çox aşağıdır. Ona görə də kəmərə Mərkəzi Asiya ölkələrindən gətirilən neftin vurulması onun buraxılış qabiliyyətindən maksimum yararlanmağa imkan verərdi. Baxmayaraq ki, 2010-cu ildən etibarən BTC ilə türkmən nefti ixrac edilir, onun həcmi elə də böyük deyil. 2010–2013-cü

illərdə bu kəmərlə cəmi 8,6 milyon ton Türkmənistan nefti nəql olunub [394; 496]. 2016-cı ilin dekabr ayında da kəmərə cəmi 441,3 min ton türkmən nefti vurulub [145]. Buna görə də BTC-nin doldurulmasında Azərbaycanla tranzit haqqında müqaviləsi olan Qazaxıstan neftinin daşınması mühüm rol oynaya bilər.

2008-ci ilin oktyabrından etibarən BTC ilə Qazaxıstanın "Tengiz" yatağından çıxarılan neft ötürülürdü. 2009-cu ildə bu kəmərlə daşınan "Tengiz" neftinin həcmi 1,9 milyon ton təşkil etmişdir. Lakin sonra tarifin yüksək olması ilə əlaqədar qazax neftinin nəqli dayandırıldı [496].

2013-cü ilin sentyabrında Qazaxıstanın nəhəng neft yatağı "Kaşaqan"da hasilatın başlanması Azərbaycan ərazisi ilə neft ixracı məsələsini yenidən aktuallaşdırdı. Rusiya və Çin marşrutları ilə yanaşı, BTC boru kəmərindən istifadə olunması gündəliyə gəldi. Azərbaycan marşrutu ilə hələlik təxminən 10-12 milyon ton neftin daşınması nəzərdə tutulurdu [383; 428].

Amma texniki səbəblərə görə, bir aydan sonra "Kaşaqan"da hasilat dayandırıldı. Onun bərpası sahəsində işlər davam edir [385]. Bununla belə, Mərkəzi Asiyadan Azərbaycan ərazisi ilə neftin nəqli dayanmamışdır. 2023-cü ildə BTC boru kəməri ilə 5,2 milyon ton Qazaxıstan və Türkmənistan nefti daşınmışdır ki, bu da əvvəlki ilə nisbətən 2,7% çox olub, həmin marşrutla nəql edilən neftin 17,4%-ni təşkil etmişdir[146]. Amma BTC-nin potensialı hələ ki, tam istifadə olunmur.

Bu baxımdan bir neçə il əvvəl "LUKoyl"un BTC-yə xüsusi diqqət yetirməsi maraq doğurmuşdu. Rusiya mətbuatının şirkətə istinadən yaydığı məlumata görə, 2014-cü ilin mayında "LUKoyl" BTC marşrutu ilə 30 min ton xam neftin sınaq nəqlini həyata keçirmişdir [322].

Görünür, şirkət Xəzərdə istismarına başladığı Korçaqin yatağından hasil olunan neftin bu marşrutla ixracı variantını öyrənirmiş. Əgər "LUKoyl" niyyətini reallaşdırarsa, bu qərar BTC-nin iqtisadi səmərəliliyinin daha da artmasına, regional əməkdaşlığın inkişafına və siyasi təhlükəsizliyin möhkəm-

lənməsinə gerçək təsiri baxımından əhəmiyyətli addım sayıla bilər.

Ümumiyyətlə, mövzu ilə bağlı geniş materialın tədqiqi göstərir ki, BTC ƏİBK layihəsinin hazırlanması və reallaşdırılması prosesi üzünmüddətli gərgin müzakirələr və danışıqlar mərhələsindən keçmişdir. Boru kəməri marşrutunun seçilməsi, texniki-iqtisadi əsaslandırılmasının hazırlanması, tranzit ölkələrlə maraqların uzlaşdırılması və müvafiq sazişlərin imzalanması Azərbaycan hökumətinin böyük diplomatik məharət, siyasi uzaqgörənlik və qətiyyət, ardıcıl səylər göstərməsi sayəsində mümkün olmuşdur.

Regionda kəsişən geoiqtisadi və geosiyasi maraqlar müxtəlif ekologiya problemlərinin şişirdilməsi, vətəndaş cəmiyyəti institutlarının layihə əleyhinə çıxışlara səfərbər olunması, bank-maliyyə qurumları vasitəsilə təzyiqlərin gücləndirilməsi və başqa maneələr formasında təzahür edərək, Əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsinin bütün mərhələlərini müşayiət etmişdir. Bu amillər BTC boru kəmərinin gerçəkləşdirilməsi prosesinin gərgin və mürəkkəb xarakter almasını, uzun müddəti əhatə etməsini şərtləndirsə də, Azərbaycan və onun tərəfdaşlarının səmərəli və məqsədyönlü əməkdaşlığı qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi ilə nəticələndi. Azərbaycanın Xəzər sektorunda hasil olunan böyük nefti Aralıq dənizindəki Ceyhan limanına daşıyan BTC ƏİBK regionun həyatında mühüm strateji əhəmiyyət kəsb edən marşrut kimi fəaliyyətə başladı [258].

Azərbaycan neftinin əsas hissəsi bu kəmərlə daşınır. Eyni zamanda, BTC Mərkəzi Asiya ölkələrindən neftin dünya bazarlarına çatdırılmasında tranzit marşrut kimi böyük potensiala malikdir. Bu baxımdan o, Azərbaycanda və daha geniş coğrafi məkanda sosial-iqtisadi inkişafa, siyasi və strateji təhlükəsizliyə hələ uzun illər sanballı töhfə verə bilər.

Beləliklə, müxtəlif mənbə və materialların müqayisəli və tənqidi təhlili nəticəsində belə qənaətə gəlmək olar ki, “Əsrin

müqaviləsi" neft sənayesinin müasir texnologiyalar əsasında yenidən qurulmasının və dirçəldilməsinin əsasını qoydu. Saziş həm də dünya neft bazarında Azərbaycanın yerinin tədricən genişlənməsində, xarici dövlətlərlə iqtisadi-siyasi əlaqələrinin inkişafında, beynəlxalq mövqelərinin möhkəmlənməsində öz rolunu oynadı.

Bu baxımdan "Əsrin müqaviləsi"nin yerinə yetirilməsi prosesində ixrac boru kəmərləri şəbəkəsinin yaradılması böyük əhəmiyyət kəsb edirdi. Aparılan dürüst və məqsədyönlü siyasət sayəsində neft ixracı marşrutları şaxələndirildi. Bu məsələlərin həllində başqa dövlətlərin regiondakı siyasi və iqtisadi maraqları balanslaşdırıldı. Eyni zamanda, Azərbaycanın milli mənafeləri qorundu. Reallıqlar dolğun şəkildə nəzərə alınaraq, şimal və qərb ixrac marşrutları seçildi və boru kəmərləri tikilib istifadəyə verildi. Bununla da Rusiya və Gürcüstanla qarşılıqlı faydalı qonşuluq münasibətlərinin perspektiv təməli daha da möhkəmləndi. Eləcə də BTC marşrutunun müəyyənləşməsi və həyata keçirilməsinə üstünlük qazandıran geosiyasi, iqtisadi-maliyyə və texniki əsaslar özünü daha aydın göstərdi. Çox gərgin mübarizə şəraitində gerçəkləşən BTC boru kəməri digər marşrutlarla birgə həm Azərbaycanın iqtisadi potensialının güclənməsində, həm də bölgədə geosiyasi çəkisinin artmasında mühüm amil kimi çıxış etdi.

# III FƏSİL
# "ŞAHDƏNİZ" MÜQAVİLƏSİ. AZƏRBAYCANIN QAZ İXRAC EDƏN ÖLKƏYƏ ÇEVRİLMƏSİ

## 3.1. Cənubi Qafqaz Boru Kəmərinin fəaliyyətə başlaması

Azərbaycanda xarici şirkətlərlə imzalanmış neft müqavilələrinin həyata keçirilməsi sahəsində ardıcıl tədbirlər görülürdü. "Əsrin müqaviləsi" ilə yanaşı, böyük qaz resurslarının olması gözlənilən "Şahdəniz" blokunda kəşfiyyat işləri diqqət mərkəzində idi. Bu strukturun karbohidrogen ehtiyatları haqqında birmənalı fikir bildirilmirdi. Layihə üzrə operator kimi fəaliyyət göstərən "BP Eksploreyşn ("Şahdəniz") LTD" kompaniyasının rəhbəri M.Şerman axtarış işlərinin başlandığı 1996-cı ilin payızında qeyd edirdi ki, "Şahdəniz" onda ehtimal olunduğu kimi, *"qaz-kondensat yatağı deyil, başlıca olaraq neft yatağıdır"* [349].

Aparılan kəşfiyyat prosesində də mütəxəssislər onun gələcəyi ilə bağlı fərqli mövqe tuturdular. 1997-ci ilin mart ayının 5-də Heydər Əliyevin yanında keçirilmiş iclasda "Şahdəniz" layihəsinin icrası barədə geniş məlumat verən şirkət rəhbəri M.Şerman bildirdi ki, *"indiki halda böyük mübahisə gedir və heç kim əmin deyil ki, bu, qaz, yoxsa neft yatağı olacaqdır"* [181, c.4, s.285]. Bununla belə, bütün hallarda orada zəngin karbohidrogen resurslarına malik yatağın aşkar olunacağına dərin inam var idi.

"Şahdəniz"də kəşfiyyatın ilkin nəticələrinə dair Prezident Heydər Əliyevə 1999-cu ilin iyul ayının 12-də məlumat verən konsorsiumun başçısı E.Hopvud qeyd etdi ki, *"müqavilə sahəsində iri, dünya əhəmiyyətli qaz-kondensat yatağı tapılmışdır"*. Şirkət rəhbəri konkret rəqəm deməkdə tərəddüd etsə də,

əminliklə bildirdi ki, yataq 700 mlrd kubmetrdən çox karbohidrogen resurslarına malikdir. Onun fikrincə, yatağın potensialı *"Azərbaycandan qaz ixracı məsələsinə ciddi yanaşmaq lazım gəldiyini bir daha sübut edirdi"* [350, s.1].

Əcnəbi investorlardan fərqli olaraq Azərbaycan geoloqları "Şahdəniz" yatağının ehtiyatlarına dair daha optimist fikirdə idilər. SOCAR-ın vitse-prezidenti, təcrübəli mütəxəssis X.Yusifzadə bu yataqda 1 trln kubmetrdən çox təbii qaz resurslarının olduğunu bildirirdi [350, s.2].

Beləliklə, Azərbaycanda zəngin qaz-kondensat potensialına malik yatağın açılması onun neft və qaz sənayesi tarixində yeni inkişaf dövrünün başlanğıcı oldu. O vaxta qədər yalnız neft ölkəsi olaraq tanınan Azərbaycan artıq qaz ixracatçısı kimi də özünü təqdim etməyə başlayırdı.

Məhz ölkənin üzə çıxarılmış qaz resurslarına əsaslanan "Şahdəniz" yatağı üzrə konsorsiumun rəhbəri ixrac üçün ən əlverişli bazar kimi, həm coğrafi yaxınlığına, həm də mavi yanacağa artan ehtiyacına görə, qonşu Türkiyəni ön sıraya çəkirdi. Həmin yataqda hasilatın sürətləndirilməsi isə təbii qazın ixracı ilə bağlı məkan, tarif və s. zəruri məsələlərin həllindən asılı idi.

Azərbaycanın böyük qaz potensialının meydana çıxdığını nəzərə alan dövlət başçısı Heydər Əliyev yuxarıda qeyd edilən iclasın gedişində Nazirlər Kabinetinə "Şahdəniz" qazının ixrac olunması sahəsində zəruri məsələlərin həllinə dair təkliflərin hazırlanmasını tapşırdı. Eyni zamanda, ölkə Prezidenti ixrac qaz kəmərinin ən münasib marşrutunun Gürcüstan və Türkiyədən keçməsi ilə bağlı öz mövqeyini də açıqladı. Bundan sonra Azərbaycandan təbii qaz ixracının gerçəkləşməsi üçün ardıcıl addımların atılmasına başlanıldı.

Artıq "Şahdəniz" layihəsi yerinə yetirildiyi ilk illərdə ölkənin sosial-iqtisadi həyatında müəyyən rol oynamışdı. İki il yarım ərzində əcnəbi kompaniyaların müqavilənin icrasına yatırdıqları 367 mln dolların 105 mln dolları yerli Azərbaycan müəssisələri və şirkətlərinə yönəldilmişdi [350, s.1]. Beləliklə, həmin

sərmayələrdən dövlət büdcəsinə ödənmiş vergi, vətəndaşlara verilmiş əmək haqqı sosial rifahın təmin olunmasına öz təsirini göstərmişdir.

"Şahdəniz" qazının dünya bazarına çıxarılması məsələlərinin həll edilməsi məqsədilə operativ olaraq işçi qrupu formalaşdırılmışdı. Azərbaycan hökumətinin, SOCAR və əcnəbi neft şirkətlərinin təmsil olunduğu işçi qrupuna ixrac marşrutunun müəyyənləşdirilməsi, tranzit ölkələrin müvafiq orqanları ilə danışıqların aparılması və zəruri təkliflərin hazırlanması kimi mühüm vəzifələr həvalə olunmuşdu [314, s.3].

Ozamankı plana görə, "Şahdəniz"də mavi yanacaq hasilatının başlanması 2002–2003-cü illərdə gözlənilirdi [310]. Lakin bu vəzifələri nəzərdə tutulan vaxtda yerinə yetirmək mümkün olmadı. Belə ki, ixrac bazarı və infrastrukturla bağlı problemlər həll edilmədən bilavasitə qaz hasilatı işlərinə başlamaq olmazdı. Bu sahədə isə ciddi çətinliklər var idi. Çünki ixrac üçün münasib bazar kimi nəzərdə tutulan Türkiyə ilə aparılan danışıqlar ağır gedirdi. Məsələnin çətinliyi ondan irəli gəlirdi ki, bu ölkə ildə 16 mlrd kubmetr həcmində qazın alınması haqqında Türkmənistanla saziş imzalamışdı. Həmin mavi yanacağın Türkiyəyə nəqli üçün trans-Xəzər qaz boru kəmərinin tikintisi nəzərdə tutulurdu. Amma "Şahdəniz"də nəhəng qaz yatağının üzə çıxmasından sonra Azərbaycan sadəcə tranzit ərazi rolu ilə kifayətlənə bilməzdi. Öz mənafelərindən çıxış edən Azərbaycan həmin boru xəttinin buraxılış gücünün yarısından istifadə etməyə iddiasını gizlətmirdi [345; 403; 470].

Amma Aşqabad bu təkliflərə razılq vermədi. Belə olan halda, milli maraqlarını üstün tutan Azərbaycan özü üçün ən əlverişli ixrac bazarı sayılan Türkiyəni asanlıqla güzəştə getməzdi. Məhz buna görə Azərbaycan trans-Xəzər qaz boru kəmərinin tikilməsi fikrinə müsbət yanaşmadı [279, s.4]. Beləliklə, türkmən qazının Xəzərdən keçən boru xətti ilə Azərbaycan ərazisindən Türkiyə və sonra başqa Avropa ölkələrinə nəql olunması ideyasının reallaşması uzaq perspektivə təxirə salındı.

Bununla belə, Azərbaycanın davamlı səyləri Türkiyə tərəfi ilə müzakirələrdə pozitiv nəticələrin əldə olunmasına imkan verdi. Danışıqlar uğurla yekunlaşdı və 12 mart 2001-ci il tarixində Ankarada "Şahdəniz" müqaviləsi üzrə hasil olunacaq mavi yanacağın Türkiyəyə ixracı haqqında sənəd imzalandı [279, s.7].

SOCAR və "Botaş" arasında bağlanmış müqavilənin müddəalarına əsasən, min kubmetr təbii qazın qiymətinin 70-120 ABŞ dolları arasında dəyişməsi mümkün sayılırdı. Müqaviləyə görə, 2004-cü ildə Türkiyəyə başlanan ixracın həcmi 2 mlrd kubmetrdən 2007–2018-ci illərdə illik 6,6 mlrd kubmetrə qədər artmalı idi. Şərtə əsasən, nəql edilən qaz göstəriləndən çox olardısa, SOCAR onu başqa ölkələrə sata bilərdi [279, s.8].

"Şahdəniz"də aparılan axtarış-kəşfiyyat işlərinin gedişi yatağın daha zəngin resurslara malik olduğunu göstərirdi. Belə ki, 2000-ci ilin aprelində "BP/AMOKO" kompaniyasının məlumatı yataqda gözləniləndən artıq ehtiyatların aşkarlandığını təsdiq edirdi [348]. Əcnəbi investorlar konkret rəqəm deməsələr də, Prezident Heydər Əliyev yerli mütəxəssislərin rəyinə əsaslanaraq, "Şahdəniz"in resurslarının bir trilyon kubmetrdən artıq təbii qaz hasil etməyə imkan yaratdığını vurğulamışdı [158, c.28, s.20].

Beləliklə, yataqda hasilat işlərinin başlanması üçün ilk növbədə ixrac kəmərinin inşası, qaz tranzitnə dair başqa məsələlərin həll edilməsi tələb olunurdu. Türkiyə ilə sazişin imzalanmasından sonra ikinci tranzit ölkə – Gürcüstanla danışıqlar başlanmışdı. Bu danışıqların uğurla başa çatacağı təqdirdə, "Şahdəniz" qazının Türkiyəyə 2004-cü ilin axırında çatdırılması gözlənilirdi [36, s.1].

Amma Gürcüstan yenə də danışıqlarda sərt mövqe tuturdu. Vaxtilə BTC ixrac kəməri ilə bağlı məsələlərin müzakirəsində nümayiş etdrdiyi taktikaya qaz tranziti tariflərinin müyyən olunması gedişində də sadiq qalırdı. Gürcüstan hökuməti bu ölkə ərazisindən keçən Bakı–Ərzurum ixrac kəməri üzrə (sonra-

lar Cənubi Qafqaz Boru Kəməri adlandırıldı) maksimum tarif qoyulmasında israr edirdi. Bu məsələdə bir sıra beynəlxalq maliyyə orqanlarının da rolu olmuşdur. Belə ki, onlar Gürcüstana tövsiyə edirdilər ki, min kubmetr təbii qazın nəqlinə görə ən azı 5 ABŞ dolları tranzit haqqı tətbiq olunsun [345].

Lakin Gürcüstan danışıqlar prosesinə əngəl yaradan bu mövqeyini əsaslandıran arqument irəli sürə bilmirdi. Çünki boru xətti tranzit ölkənin yox, Azərbaycanın maliyyəsi hesabına inşa olunacaqdı. Bu kəmər Gürcüstanın mülkiyyəti hesab edilmədiyi üçün tranzit tarifi də dünya təcrübəsinə uyğun müəyyənləşdirilməli idi.

Bununla yanaşı, bəzi dairələr öz maraqları naminə Azərbaycana təzyiq edərək  Rusiyadan Türkiyəyə çəkilməkdə olan "Mavi axın" layihəsinin rolunu daha da şişirdirdilər. Amma Azərbaycan milli mənafelərini qorumaq məqsədilə lazımi tədbirləri görürdü. Həmin vaxt SOCAR vəziyyətdən çıxmaq üçün Azərbaycanın daxili tələbatını "Şahdəniz"in mavi yanacağı hesabına ödəməklə xaricdən alınan təbii qazın (4 mlrd kubmetr) idxalını dayandırmağı təklif etdi [345].

Qaz boru kəmərinin tikintisi ilə bağlı məsələlərin razılaşdırılmasının ləngiməsi yalnız Azərbaycanın deyil, həm də Gürcüstanın maraqlarına xələl gətirirdi. Amma layihə iqtisadi cəhətdən səmərəli olmalı idi. Bu prinsipdən çıxış edən Azərbaycan son təklifini irəli sürdü: min kubmetr təbii qazın nəqlinə görə 2,5 ABŞ dolları və sonrakı dövrdə hər beşillik inflyasiyaya əsasən, tarifə müəyyən korrektələrin olunması [345].

Danışıqlar prosesi çox vaxt alsa da, arqumentlər öz rolunu oynadı. Beləliklə də, 29 sentyabr 2001-ci il tarixində Azərbaycan və Gürcüstan arasında qazın tranzit nəqli və satışına dair saziş imzalandı [23]. Həmin sənədə görə, Azərbaycanın tranzit haqqına dair təklifi qəbul edildi. Gürcüstan həm də ildə 0,5 mlrd kubmetr həcmini aşmayan əlavə qaz almaq hüququ qazandı [345].

Nəhayət, uzunsürən ağır danışıqlar sona çatdı. Azərbay-

can çoxsaylı maneələri dəf edərək, milli mənafelərini qorumağa nail oldu. Ölkədən qazın tranzit nəqlinin hüquqi bazası formalaşdırıldı. Bağlanmış sazişlərin bilavasitə yerinə yetirilməsi üçün konkret fəaliyyət mərhələsi başlanırdı.

Qeyd olunmalıdır ki, Azərbaycanın bütün enerji layihələrinə Vaşinqtonun verdiyi siyasi dəstək mühüm əhəmiyyət daşıyırdı. Bu cəhətdən Ağ evin 2001-ci ildə qəbul etdiyi *"Milli enerji siyasətinə dair doktrina"* xüsusi rol oynayırdı. ABŞ Prezidenti C.Buşun tapşırığına əsasən hazırlanmış bu sənəddə Azərbaycan da daxil olmaqla bütün Xəzər hövzəsinin neft-qaz resurslarının işlənilməsi məsələlərinə böyük diqqət yetirilirdi.

Sənəddə göstərilirdi ki, Azərbaycan və Qazaxıstanın sübut edilmiş neft resursları 20 milyard barelə yaxındır və bu ölkələrin karbohidrogen ehtiyatları Şimal dənizinin potensialını üstələyir. Aparılan kəşfiyyat işləri həmin resursların daha da artacağını təsdiq edir. Doktrinada Amerika Prezidentinə tövsiyə olunurdu ki, BTC neft boru kəməri ilə bərabər, Gürcüstanla Türkiyənin ayrı-ayrı mənbələr hesabına təbii qazla təmin edilməsini, eləcə də *"Azərbaycana öz qazını ixrac etməkdə kömək göstərilməsi üçün "Şahdəniz" qaz kəmərinin inkişafına dair özəl investorların və hökumətlərin səylərini dəstəkləsin"* [302].

Sənəddə Xəzər bölgəsi Avropanın qaz təchizatında alternativ mənbə olaraq nəzərdən keçirilirdi.

Deməli, *"Azərbaycanın zəngin karbohidrogen ehtiyatları və onların işlənilməsində Qərb şirkətləri ilə qarşılıqlı faydalı əməkdaşlığı, habelə Avropanın enerji təhlükəsizliyində getdikcə artan rolu onun tərəfdaşları, xüsusən ABŞ tərəfindən yüksək qiymətləndirilir, hərtərəfli dəstəyin verilməsini şərtləndirirdi"* [265, s.5].

"Şahdəniz" layihəsi üzrə qaz hasilatı və xarici ölkələrə ixracı mərhələsinə keçmək üçün zəruri olan hüquqi bazanın yaradılması, maliyyə təminatı və s. məsələlərin həlli gözlənildiyindən də artıq vaxt apardı. Bu, bir daha göstərdi ki, beynəlxalq layihələrin həyata keçirilməsi çoxsaylı obyektiv və subyektiv faktorlar-

dan asılı olan uzunsürən mürəkkəb prosesdir.

Nəhayət, 2003-cü il fevral ayının 27-də "Şahdəniz" konsorsiumu yatağın işlənməsinin ilk mərhələsinə başlamaq haqqında qərar verdi. Bu mərhələdə yataqdan illik qaz hasilatının 8,4 mlrd kubmetrə çatacağı gözlənilirdi [346].

"Şahdəniz" qazının Türkiyəyə ixracı üçün Gürcüstandan keçən Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) inşası planlaşdırılırdı. Sərmayə qoyuluşuna qənaət etmək və ətraf mühitə təsiri minimuma endirmək üçün bu kəmərin BTC ƏİBK ilə paralel eyni dəhlizdə tikilməsinə qərar verilmişdi. İnşa işləri 2004–2006-cı illərdə aparılmalı idi. Tikintinin maliyyə xərclərini "Şahdəniz" konsorsiumuna daxil olan investorlar ödəyəcəkdi [346].

Qaz kəmərinin 2004-cü ilin axırında başlanan tikintisi 2006-cı ilin mayında tamamlandı. Dərhal CQBK-ya sınaq məqsədilə təbii qazın vurulmasına başlanıldı. Azərbaycandan xarici bazarlara qazın ixracı isə həmin ilin sentyabr ayında nəzərdə tutulurdu [386].

Amma Türkiyədə inşa işləri ləngidiyi üçün boru xəttinin istismara buraxılması gecikirdi. Buna baxmayaraq, SOCAR-ın 2006-cı ilin noyabrında yaydığı məlumatda göstərilirdi ki, CQBK artıq "Şahdəniz"dən hasil edilən qazla doldurulur. SOCAR həm də nəzərə çatdırırdı ki, qaz kəmərinin inşasına, gözlənildiyi kimi, 2,9 mlrd ABŞ dolları yox, 4 mlrd dollardan çox vəsait xərclənmişdir [351]. Xərclərin artmasına təsir göstərən əsas amilin qonşu ölkələrdə tikintinin ləngiməsi və eləcə də materialların bahalaşmasının olduğu bildirilirdi.

Qaz kəmərinin buraxılış gücü 20 mlrd kubmetr idi. Xəzər sahilindəki Səngəçal terminalından başlayan və 971 km uzunluğunda olan CQBK Gürcüstan ərazisindən keçərək, Türkiyənin şərqindəki Ərzurumda "Botaş" firmasının qaz kəmərləri şəbəkəsinə birləşir [186].

Kəmərlə nəql edilən "Şahdəniz" qazı, nəhayət, 2007-ci ilin iyul ayının 3-də Türkiyə ərazisinə daxil oldu. Yəni inşası bir il bundan əvvəl yekunlaşmış CQBK tam istifadəyə verildi [186].

"Şahdəniz" layihəsi üzrə qaz çıxarılmasına və onun ixracına başlanması Azərbaycan və Gürcüstanın iqtisadi-siyasi həyatında, enerji təhlükəsizliyinin möhkəmlənməsidə mühüm rol oynayırdı. Məhz o dövrdə – 2006-cı ilin sonunda Rusiyadan ixrac olunan qazın qiymətinin birdən-birə xeyli artırılması istehlakçı ölkələr üçün ciddi maliyyə-iqtisadi çətinliklər doğurmuşdu. Rusiyadan idxal edilən mavi yanacağı elektrik stansiyalarına yönəldən Azərbaycan qiymət artımından sonra enerji siyasətini dəyişməyə qərar verdi. "Şahdəniz"in potensialına güvənən Azərbaycan elə növbəti 2007-ci ildən idxal qazını yerli resurslarla əvəzləməyi məqsədəuyğun hesab etdi. Artan hasilat sayəsində Azərbaycan həmin ildən qaz ixracatçıları sırasına qoşuldu [127; 163].

Xəzər dənizində açılmış nəhəng qaz yatağı və ixrac infrastrukturu artıq bölgədə enerji balansının formalaşmasına öz təsirini göstərməyə başlayırdı. Azərbaycan Prezidenti İlham Əliyev ilk dövrdə Bakı–Tbilisi–Ərzurum kəməri kimi tanınan CQBK-nın rolunu xüsusi vurğulayaraq qeyd edirdi: *"Bu layihə, bir növ, Bakı–Tbilisi–Ceyhanın kölgəsində idi. Ancaq bu gün hamı görür ki, onun nə qədər böyük strateji əhəmiyyəti var. Nəzərə alsaq ki, xüsusilə indi dünyada və Avropada enerji təhlükəsizliyi məsələləri çox önəm daşıyır, onda görərik ki, Azərbaycan qazının Gürcüstana və Türkiyəyə gətirilməsinin çox böyük strateji əhəmiyyəti var"* [159, c.18, s.261].

Beləliklə, yeni yataq Azərbaycanın böyük qaz potensialını üzə çıxartdı. Araşdırmalar "Şahdəniz"də ən azı 1 trln 200 mlrd kubmetr qaz resurslarının olduğunu sübut edirdi. Bununla belə, davam etdirilən kəşfiyyat işləri ölkənin ümumi qaz resurslarının artacağı ilə bağlı dərin inam aşılayırdı. Bu proqnozlar tezliklə özünü doğrultdu. 2017-ci ildə Azərbaycanın təbii qaz ehtiyatları artıq 2,6 trilyon kubmetr həcmində qiymətləndirilirdi [100].

Azərbaycanın artan qaz ehtiyatları Avropa dövlətlərinin ona daha böyük maraq göstərməsini şərtləndirirdi. Artıq o za-

man Azərbaycan Gürcüstanın qazla təchizatının 75 faizini həyata keçirir, Türkiyə bazarında isə getdikcə öz yerini genişləndirməyə başlayırdı. Məhz belə şəraitdə 2006-cı il noyabrın 6-da Brüsseldə *"Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu"*nun imzalanması təsadüfi deyildi [163]. Bunun ardınca Azərbaycanda hasil olunan qazın Avropa bazarına çatdırılmasına imkan verən daha bir addım atıldı: 2007-ci ildə iki qonşu olkə – Türkiyə və Yunanıstan öz qazpaylayıcı sistemlərini birləşdirdi. Bununla da Azərbaycanın təbii qazının Yunanıstana ixracı başlandı [163].

Qeyd olunan tədbirlər mavi yanacağın Xəzər sahillərindən Avropa məkanına ötürülməsi imkanlarını xeyli genişləndirdi. Sonrakı dövrdə Azərbaycan Gürcüstanın əsas qaz təchizatçısına çevrilərək, Türkiyə bazarında da öz mövqelərini möhkəmləndirirdi [270]. 2018-ci ildə bu kəmərlə Türkiyəyə ixrac edilən qazın həcmi artaraq 7,2 mlrd $m^3$-ə çatmışdır [90]. 2019-cu ildə Türkiyəyə qaz ixracı 9 mlrd $m^3$-dən çox olmuşdur. Beləliklə, 2018-ci ildə bu ölkənin qaz bazarında Azərbaycanın payı 15% idisə, 2019-cu ildə həmin rəqəm 20%-ə çatmışdır. Gürcüstanın təbii qaza tələbatının ödənilməsində isə Azərbaycanın payı daha yüksək idi – 97% [277; 364].

Göründüyü kimi, sazişin imzalanmasından keçən ilk illərdə işlənmə şərtlərinə və potensialına görə ciddi mübahisələrə səbəb olan "Şahdəniz" yatağının verilən proqnozları bir neçə dəfə üstələməsi Azərbaycanın yalnız daxili ehtiyaclarının ödənilməsinə deyil, hətta onun qaz ixrac edən ölkəyə çevrilməsinə imkan yaratdı. *"Xarici neft şirkətləri ilə səmərəli əməkdaşlıq, qonşu dövlətlərlə qaz ixrac boru kəmərinin tikintisinə dair qarşılıqlı maraqlara söykənən sazişlərin imzalanması, meydana çıxan problemlərin qətiyyətlə ardıcıl şəkildə həll olunması Bakı–Tbilisi–Ərzurum ixrac boru kəməri kimi strateji layihənin uğurla həyata keçirilməsi ilə nəticələndi"* [265, s.6].

BTC ƏİBK-nın keçdiyi dəhlizdə ona paralel şəkildə

tikilməsi Bakıdan Ərzuruma qədər uzanan CQBK-nın inşasına həm hüquqi və texniki, həm də maliyyə cəhətdən daha münbit zəmin yaratdı. Region olkələrinin maraqlarına uyğun olan bu layihənin uğurla reallaşdırılması Azərbaycanla yanaşı, Türkiyə ilə Gürcüstan üçün də enerji təhlükəsizliyinin daha da güclənməsi, qarşılıqlı siyasi-iqtisadi əlaqələrin möhkəmlənməsi baxımından olduqca əhəmiyyətli idi. CQBK-nın fəaliyyətə başlaması həm də "Şahdəniz" yatağında hasilat işlərinin genişləndirilməsinə yol açdı, gələcəkdə Azərbaycandan mavi yanacağın Avropa ölkələrinə ixracını təmin edən "Trans-Anadolu Boru Kəməri" (TANAP) və onun davamı olaraq İtaliyaya qədər uzanan "Trans-Adriatik Boru Kəməri" (TAP) kimi mühüm strateji xarakterli layihələrin yaranmasına və həyata keçirilməsinə ciddi təkan verdi.

### 3.2. "Cənub Qaz Dəhlizi" layihəsinin formalaşması və həyata keçirilməsi

Cənubi Qafqaz Boru Kəmərinin istifadəyə verilməsi gələcəkdə Azərbaycanın Avropa bazarlarına qaz ixracı üçün əlverişli imkanlar açırdı. Böyük qaz resurslarının aşkarlanması ixracın həcmini getdikcə daha da artırmağa şərait yaradırdı. Həm də alternativ yanacaq mənbələri axtaran Qərb dövlətləri Azərbaycanla enerji daşıyıcılarının alınması sahəsində əməkdaşlığı genişləndirməkdə maraqlı idilər. Belə ki, Avropa ölkələri Rusiyadan güclü enerji asılılığının aradan qaldırılması üçün təbii qaz təminatı mənbələrinin diversifikasiyasını qarşıda duran vacib məsələlərdən biri hesab edirdilər. Bu vəzifələrin həlli ilə bağlı təşəbbüslər isə enerji təchizatı sahəsində yeni ideyaların və layihələrin ərsəyə gəlməsini şərtləndirirdi.

Qeyd etmək lazımdır ki, 2002-ci ildə Avropanın bir neçə ölkəsinin – Avstriya, Bolqarıstan, Türkiyə və Rumıniyanın qaz kompaniyaları birgə enerji təhlükəsizliyinin möhkəmləndirilməsi ilə bağlı "Nabukko" kimi tanınmış layihə təklif etmişdilər

[274; 339, s.27]. Avropanı təbii qazla təmin etməsi gözlənilən bu layihənin əsas yanacaq mənbəyi olaraq Yaxın Şərqdən İran, İraq və s. ölkələr nəzərdən keçirilirdi. Təbii qaz resursları ilə hələ tanınmayan Azərbaycan o dövrdə bu ölkələr sırasında xatırlanmırdı. Bir neçə il sonra "Şahdəniz" yatağından qaz hasilatının və CQBK ilə ixracın başlanması diqqəti həm də Azərbaycana yönəltdi.

Eyni zamanda, İraqın mürəkkəb daxili hərbi-siyasi durumu, İranın isə Qərbin əsas ölkələri ilə ziddiyyətli qarşılıqlı münasibətləri onların "Nabukko"ya qoşulmasına ciddi maneə törədirdi.

Avropa şirkətlərinin layihənin zəruri maliyyə, texniki və s. məsələlərinin həlli üçün qətiyyət göstərməməsi onun gerçəkləşməsini təxirə salırdı. Çox çəkən müzakirələrdən sonra, nəhayət, 2007-ci ildə layihənin icrası məqsədilə beynəlxalq konsorsium formalaşdırıldı. Onun tərkibinə eyni paya (16,67%) sahib olan altı şirkət, yəni "RWE" (Almaniya), "OMV" (Avstriya), "Transqaz" (Rumıniya), "Bulqarqaz" (Bolqarıstan), "MOL" (Macarıstan), "Botaş" (Türkiyə) daxil oldu [296].

Qərb ölkələrində Azərbaycanın da "Nabukko"da iştirakına maraq göstərilsə də, Bakıda bununla bağlı hələ aydın mövqe olmadığı üçün SOCAR-ın bu layihəyə qoşulması inandırıcı görünmürdü.

Lakin Xəzəryanı hövzədə qlobal geosiyasi maraqlarını güdən Ağ ev yalnız Azərbaycanın deyil, eləcə də Türkmənistanın həmin layihədə iştirakına xüsusi əhəmiyyət verirdi. Bu baxımdan Prezident Corc Buşun 2008-ci ildə Azərbaycanın dövlət başçısı İlham Əliyevə ünvanladığı məktub diqqəti çəkir. ABŞ Prezidenti yazırdı: *"Azərbaycan dünya bazarlarının neft təchizatının artırılmasına başladığından, Amerika Birləşmiş Ştatları və onun avropalı tərəfdaşları Azərbaycanda həm də qaz hasilatının genişləndiriləcəyinə ümid edir. İnanırıq ki, bu, Azərbaycanın strateji əhəmiyyətini artıracaq və Türkiyə–Yunanıstan–İtaliya və "Nabukko" qaz boru kəmərinin reallaşması ilə*

*Avratlantik Birliyi ilə əlaqələrini dərinləşdirəcəkdir. Azərbaycan Mərkəzi Asiya qazının gələcəkdə Avropa bazarlarına ixracatında da mühüm rol oynaya bilər"* [88].

Müşahidələr göstərirdi ki, Şərq-Qərb nəqliyyat-enerji dəhlizində mühüm coğrafi mövqeyə malik olan Azərbaycanın istər bölgədə, istərsə də Avropa ölkələri ilə səmərəli əməkdaşlığa can atması ona olan marağı artırırdı. Təsadüfi deyil ki, hələ 2007-ci ilin mart ayında Azərbaycan və ABŞ hökumətləri arasında imzalanmış Anlaşma memorandumuna görə "Trans-Xəzər nəqliyyat dəhlizi"nin texniki-iqtisadi əsaslanmasının hazırlanması məqsədilə Azərbaycan Dövlət Neft Şirkətinə 1,7 milyon ABŞ dolları məbləğində qrant verilmişdi [167].

Xəzər hövzəsinin enerji ehtiyatlarına Avropa ölkələrinin təchizatında mühüm və alternativ mənbə kimi baxan ABŞ Dövlət Departamenti bu sahədə layihələrin həyata keçirilməsinə böyük diqqət yetirirdi. Dövlət Departamentinin Avrasiya məsələləri üzrə nümayəndəsi S.Mənn 2008-ci ildə bildirirdi: *"Birləşmiş Ştatlar heç zaman Xəzərdə hasil olan mavi yanacağın bir molekulunu belə öz ehtiyacı üçün almayacaq, amma Amerikanın uzunmüddətli siyasəti Xəzər regionunun yeni suverenlik əldə etmiş ölkələrinin müstəqilliyini dəstəkləməkdir... Qaz ABŞ-ın Avropadakı tərəfdaşlarına lazımdır. Hazırda "Nabukko" layihəsi üzərində fəal iş gedir"* [295].

Əlbəttə, burada əsas məqsəd Xəzər hövzəsi ölkələrinin müstəqilliyinin möhkəmləndirilməsindən daha çox bölgədə Rusiyanın təsir gücünün zəiflədilməsi və ABŞ-ın geosiyasi mövqelərinin gücləndirilməsindən ibarət idi.

Qərb ilə Rusiya arasında bölgədə gedən geosiyasi və geoiqtisadi mübarizənin gərginliyi xarici mətbuatın da diqqət mərkəzində dururdu. Müəlliflərdən biri yazırdı: *"Ortada Rusiya təzyiqinin mövcudluğunu anlamaq üçün neft mütəxəssisi olmağa ehtiyac yox idi. Lakin Türkmənistanı təklifdən imtinaya təhrik edən əsas məsələ qonşu Özbəkistanın öz qapılarını Qərbə açdıqdan sonra orada qeyri-sabitliyin kəskin artması oldu. Türkmən-*

*lər belə bir müdrik qərara gəldilər ki, hətta dünyanın bütün neft dollarları belə, Qərbin bu ölkənin daxili işlərinə qarışmasına dəyməz"* [312, s. 136].

Türkmənistanla səmərəsiz danışıqlar fonunda bütün diqqəti Azərbaycan qazına yönəldən Qərb Mərkəzi Asiya qazı uğrunda mübarizəni davam etdirirdi. Bunun üçün, eyni zamanda, Avropa ölkələrinin ortaq məxrəcə gəlməsi vacib idi. Təsadüfi deyil ki, ABŞ-ın dövlət katibi H.Klinton məsələyə münasibət bildirərkən qeyd edirdi: *"Mən və komandam avropalı müttəfiqlərimizi təkidlə inandıracağıq ki, Avropaya qaz nəqlinin diversifikasiyası məqsədilə "Nabukko" və yaxud digər boru xəttinin inşası üçün siyasi razılaşma əldə etsinlər. "Nabukko" boru kəməri Avropa enerji təhlükəsizliyinin təminatında kritik önəmə sahib ola bilər. Lakin belə bahalı, çətin və çoxmillətli layihə kommersiya və hökumət dairələri tərəfindən mükəmməl razılaşma tələb edir"* [193].

Həqiqətən də, layihə mürəkkəb texniki göstəriciləri və maliyyə tutumu ilə fərqlənirdi. Türkiyənin Ərzurum şəhərindən Avstriya sərhədlərinədək 3,3 min km məsafədə uzanan boru kəmərinin 2013-cü ildə istifadəyə verilməsi planlaşdırılırdı. İlk mərhələdə boru xətti ilə 8 mlrd kubmetr, 2018-ci ildən isə 31 mlrd kubmetr qaz nəql olunması gözlənilirdi [399]. Layihənin tikintisi ilə bağlı müzakirələrin ildən-ilə uzanması isə onun dəyərinin artmasına gətirib çıxarmışdı. Belə ki, 2009-cu ildə 7,9 mlrd avro qiymətləndirilən "Nabukko" ilkin dövrə nisbətən 1,5 dəfə bahalaşmışdı [197].

Eyni zamanda, Moskva və Kiyev arasında 2009-cu ilin başlanğıcında kəskin formada özünü göstərən "qaz böhranı" Ukrayna vasitəsilə təmin olunan Avropa ölkələrinə Rusiyadan mavi yanacağın ötürülməsini dayandırdı. Bu isə "Nabukko" layihəsinin Qərb üçün əhəmiyyətini bir daha qabarıq nəzərə çarpdırdı. Çünki o dövrdə Rusiyadan, bir qayda olaraq, hər il 150 milyard kubmetrdən artıq təbii qaz alan Avropa ölkələri həmin ilin daha soyuq keçən qışında ciddi yanacaq qıtlığı

problemi ilə qarşılaşdılar. Belə ki, Rusiya Avropanın idxal etdiyi təbii qazın yarıdan çox hissəsini verirdi. Bu isə Qərb dövlətlərinin ümumi ehtiyacının 30%-nə bərabər idi [456].

Beləliklə, "Qaz böhranı" Avropanın əsas təchizatçısı olan Rusiyadan kənar keçməsi planlaşdırılan "Nabukko" layihəsi ilə bağlı danışıqların intensivləşməsinə stimul verdi. Təsadüfi deyil ki, Bolqarıstan Prezidenti G.Pırvanovun 2009-cu ilin əvvəlində Azərbaycana işgüzar səfəri zamanı əsas müzakirə mövzusu enerji sahəsində əməkdaşlığın genişləndirilməsi oldu. Mətbuata sızan məlumatlara görə, Bolqarıstana 1 mlrd kubmetr Azərbaycan qazının ixracı haqqında razılıq əldə edilmişdi [39; 400].

Bunun ardınca isə 26-27 yanvar 2009-cu il tarixində Budapeşt şəhərində "Nabukko" layihəsinə həsr olunmuş zirvə görüşü keçirildi. Toplantıda Azərbaycanın, Macarıstanın, Çexiyanın, Bolqarıstanın dövlət və hökumət başçıları, Gürcüstanın, Avstriyanın, Rumıniyanın, Misirin, Türkiyənin, Türkmənistanın nazirləri, habelə Almaniyanın, İraqın, ABŞ-ın, Avropa Komissiyasının nümayəndələri və Avropa İnvestisiya Bankının prezidenti iştirak edirdilər [40].

Göründüyü kimi, zirvə görüşündə qaz idxal edən Avropa dövlətlərinin, hasilatçı ölkələrin və layihəni maliyyələşdirməyə maraq göstərən bankların nümayəndələri təmsil olunurdular.

Avropa ölkələri üçün yalnız enerji təhlükəsizliyi deyil, həm də milli təhlükəsizlik baxımından mühüm əhəmiyyət kəsb edən məsələnin müzakirə edildiyi bu toplantıda iki əsas suala cavab tapılmalı idi: "Nabukko" layihəsinin reallaşdırılması üçün zəruri qaz mənbəyinin müəyyənləşdirilməsi və boru kəmərinin tikintisinə imkan verən maliyyə vəsaitlərinin təmin edilməsi.

Sammit iştirakçıları yeni qaz mənbəyi kimi Azərbaycan və Mərkəzi Asiya ölkələri ilə, ilk növbədə Türkmənistanla əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayırdılar. Azərbaycan həm qaz təchizatçısı, həm də tranzit ölkə kimi "Nabukko" layihəsinə dəstək verirdi. Lakin boru kəmərinin dol-

durulması üçün yalnız Azərbaycanın mövcud ehtiyatları kifayət etmədiyinə görə digər təchizatçılarla, xüsusilə Türkmənistanla intensiv danışıqların aparılması zəruri idi.

Azərbaycan bütün qaz ehtiyatlarının Rusiyaya satılması ilə bağlı 2008-ci ilin ortalarında Moskvadan təklif alsa da, "Nabukko" layihəsinə dair mövqeyini dəyişmək fikrində deyildi. Çünki nəqletmə marşrutlarının şaxələndirilməsi prinsipi Azərbaycanın iqtisadi və siyasi maraqlarının qorunması baxımından böyük əhəmiyyət kəsb edirdi [44].

Boru xəttinin doldurulması üçün lazım olan həcmdə qaz ehtiyatlarının cəlb edilməməsi onun tikintisinə maliyyə vəsaitinin tapılmasını çətinləşdirirdi. Azərbaycan Prezidenti İlham Əliyev bununla bağlı qeyd edirdi: *"Nabukko" ölkələri və bu layihəni dəstəkləyən təşkilatlar daha cəsarətli olmalı, onlar bu layihəyə təkcə gəlir mənbəyi kimi baxmalı deyillər. Bu, enerji təhlükəsizliyidir. Enerji təhlükəsizliyi ümumi təhlükəsizliyə və uzunmüddətli müstəqilliyə aparır. Bu səbəbdən hesab edirəm ki, daha güclü siyasi iradə, daha aydın maliyyə dəstəyi olmalıdır"* [159, c.34, s.299].

Eyni zamanda, "Nabukko" layihəsinə dəstək verən Azərbaycan ona qoşulmuş tərəflərin hamısının, həm ixracatçı və tranzit ölkələrin, həm də istehlakçıların maraqlarının bərabər şəkildə etibarlı qorunmasının tərəfdarı idi. Sammitdə iştirak edən bank rəhbərləri də Avropa ölkələri üçün strateji əhəmiyyət daşıyan layihənin maliyyələşdirilməsinə zəruri vəsaitin ayrılacağını bildirdilər.

Müzakirələr layihə iştirakçılarının öhdəliklərini əks etdirən bəyannamənin qəbul olunması ilə başa çatdı [40].

Həmin dövrdə çoxşaxəli müzakirələrlə yanaşı, bəzi Avropa ölkələri Azərbaycanla enerji təchizatı sahəsində ikitərəfli əməkdaşlığa xüsusi maraq göstərirdi. Bu, enerji təhlükəsizliyi məsələlərinin həmin dövlətlər üçün nə qədər aktual olduğunu təsdiq edirdi.

Bolqarıstan Prezidentinin Bakıya işgüzar səfərinin ardınca Yunanıstan Azərbaycan Prezidentini Afinaya dövlət səfərinə

dəvət etdi. 2009-cu il fevralın 16-da həyata keçirilən səfər zamanı enerji təchizatı məsələləri diqqət mərkəzində oldu. Yunanıstan Prezidenti K.Papulyas Azərbaycanı Türkiyə və Yunanıstan vasitəsilə İtaliya ilə birləşdirəcək qaz boru kəmərinin çəkilməsi sahəsində əməkdaşlıq təklifi ilə çıxış etdi. Azərbaycan bu təklifə dəstək verməyə hazır olduğunu təsdiqlədi [45].

Beləliklə, Azərbaycan qazının Cənubi Avropaya ixracı marşrutunun yeni konturları üzə çıxırdı.

Enerji sahəsində ikitərəfli əməkdaşlığa dair danışıqların aparılmasına baxmayaraq, Budapeşt sammitindən sonra "Nabukko" layihəsinin reallaşdırılması istiqamətində səylər davam etdirilirdi. Qeyd etmək lazımdır ki, praktikaya görə, qaz alqı-satqısı haqqında uzunmüddətli müqavilə imzalamadan həmin layihənin maliyyələşdirilməsi barədə razılıq əldə olunması qeyri-mümkündür. Eyni zamanda, boru kəmərinin keçəcəyi ölkələr arasında tranzit, vergi, maliyyə, gömrük, ekologiya və s. məsələlərin həll olunması layihənin həyata keçirilməsinə əlverişli şərait yarada bilərdi. Buna görə də layihə iştirakçıları mühüm qərarların qəbulu üçün ciddi siyasi iradə nümayiş etdirməli idilər.

Bununla belə, "Nabukko" layihəsinin həyata keçirilməsi üçün BTC-nin inşası dövründə olduğu kimi, ABŞ-ın siyasi dəstəyi mühüm əhəmiyyət kəsb edirdi. Ağ ev isə bu sahədə öz geosiyasi maraqlarını açıq bildirir, yuxarıda göstərildiyi kimi, Xəzər regionu və Mərkəzi Asiyadakı strategiyası çərçivəsində Azərbaycanın roluna xüsusi yer ayırırdı.

Amma "Nabukko"da hər bir dövlət öz mənafelərini güdürdü. Müxtəlif maraqlardan doğan ziddiyyətlər isə danışıqların gedişinin uzanmasına səbəb olurdu.

Əlverişli coğrafi mövqeyi ilə boru kəməri marşrutunda mühüm rol oynayan Türkiyə layihənin həyata keçirilməsinə böyük maraq göstərsə də, irəli sürdüyü ilkin şərtlər danışıqlarda razılığın tezliklə əldə olunmasına imkan vermirdi. Belə ki, Türkiyə özünün əhəmiyyətli tranzit rolundan Avropa İttifaqına

üzvlük məsələsində təsir vasitəsi kimi istifadə etməyə çalışırdı. Digər tərəfdən, R.Ərdoğan hökuməti kəmərlə nəql olunacaq Azərbaycan qazının 15%-ni güzəştli şərtlərlə almaq və Avropaya ixrac etmək hüququna sahib olmaq məqsədi güdürdü [293].

Hasilatçı, tranzit və istehlakçı ölkələrin maraqlarının eyni prinsiplər əsasında qorunmasına tərəfdar olan Azərbaycanı Ankaranın bu mövqeyi qane etmirdi. Sonralar mətbuata sızan məlumatlara görə, Azərbaycan Prezidenti İlham Əliyev hələ 2007-ci ilin oktyabr ayında qaz danışıqlarında Türkiyənin irəli sürdüyü şərtlərin qəbuledilməzliyini bildirərək, Azərbaycanın beynəlxalq praktikaya uyğun tranzit tariflərini ödəməyə hazır olduğunu qeyd etmişdi [371].

Beləliklə, Avropa dövlətlərinin kəsərli əməli addımlar atmaması və Azərbaycanla Türkiyə arasında qaz danışıqlarında mübahisəli məsələlərin uzun müddət həllini tapmaması "Nabukko" layihəsinin gerçəkləşməsini ləngidirdi.

2010-cu ilin sentyabrında SOCAR-ın verdiyi məlumata görə, Azərbaycanın Türkiyəyə qaz satışı və bu ölkə ərazisi ilə tranzit haqqında bütün sənədlərin yalnız 2011-ci ilin mart ayında imzalanacağı gözlənilirdi [387]. Aydın olurdu ki, Türkiyə hələ də "Nabukko" vasitəsilə qaz nəqli tariflərində kəskin mövqe tutaraq Avropa ölkələrinə və Azərbaycana öz şərtlərini diktə etməyə çalışır [191, s.120-121; 334, s.151].

Buna görə də Azərbaycan öz qazının Avropa bazarlarına çatdırılması üçün başqa variantları da nəzərdən keçirirdi. Bakının bu addımı həm də digər tranzit ölkələrin mövqelərinə təsir göstərmək və danışıqlar prosesini stimullaşdırmaq üçün manevr hesab oluna bilərdi. Azərbaycanın Rumıniya və Gürcüstanla müzakirə etdiyi *"AGRİ" ("Azerbaijan–Georgia–Romania İnterconnector")* layihəsi məhz belə təşəbbüslərdən biri idi. Müəyyən müzakirələrdən sonra 2010-cu ilin aprel ayının 13-də Buxarestdə bu layihə üzrə üç ölkə arasında anlaşma memorandumu imzalanmışdı [123].

"AGRİ" layihəsi Azərbaycan qazının Gürcüstan üzərindən

Qara dəniz sahilinə (Kulevi limanına), burada sıxılaraq tankerlərlə Rumıniyanın Konstansa limanına çatdırılmasını təmin etməyi nəzərdə tuturdu. Həmin limanda xüsusi terminalda yenidən təbii qaz halına salınan mavi yanacaq Rumıniyanın qaz şəbəkəsi vasitəsilə onun digər məntəqələrinə və Avropa ölkələrinə ötürülməli idi.

Beləliklə, bu layihə Türkiyə və Rusiyadan yan keçməklə Azərbaycan qazının birbaşa Avropaya nəqli marşrutlarını şaxələndirməyə şərait yaradır, qaz ixracı sisteminin inkişafına və regionun enerji təhlükəsizliyinin möhkəmlənməsinə xidmət edirdi.

2010-cu il sentyabrın 14-də Bakıda Azərbaycan, Gürcüstan, Rumıniya prezidentləri və layihəyə qoşulmağa böyük maraq göstərən Macarıstanın Baş nazirinin iştirakı ilə "AGRİ" qaz ixracı marşrutuna həsr olunmuş zirvə görüşü keçirildi. Müzakirələrin yekunu olaraq Bakı Bəyannaməsi imzalandı [7].

Tərəflər mərkəzi ofisi Buxarestdə yerləşən birgə enerji şirkəti yaradılması barədə razılığa gəldilər. Birgə müəssisə "AGRİ" layihəsi ilə bağlı texniki-iqtisadi əsaslandırılmanı hazırlamaq və maliyyə mənbələrini axtarmaqla məşğul olmalı idi.

Qeyd etmək lazımdır ki, "AGRİ" layihəsinin iştirakçıları hələ də əsas boru kəməri olan "Nabukko" variantını dəstəkləməkdə davam edəcəklərini bildirirdilər. Bununla yanaşı, Azərbaycan "Cənub Qaz Dəhlizi" çərçivəsində nəzərdən keçirilən digər layihələrə – Türkiyə–Yunanıstan–İtaliya (İTGİ), Trans-Adriatik (TAP) ixrac boru kəmərlərinə dəstək göstərməyi davam edirdi [154].

Bir az sonra Ukraynanın təklifi ilə bu sıraya "Ağ axın" adlı yeni layihə də əlavə olundu. Bu layihəyə görə, Azərbaycan qazı Supsa limanından (Gürcüstan) Qara dənizin dibi ilə Ukraynaya (Krım yarımadası) və ya Rumıniya üzərindən Avropaya çatdırılmalı idi [452].

Həmin dövrdə Türkmənistan da "Cənub Qaz Dəhlizi"nə marağını gizlətmirdi. Çünki 2010-cu ilin oktyabrında Rusiyanın Avropa bazarlarında qaza tələbatın azalmasına əsaslanaraq, Türkmənistanla Xəzəryanı boru kəmərinin tikintisini təxirə sal-

ması Aşqabadı yeni variantları nəzərdən keçirməyə yönəldirdi [442]. Lakin Türkmənistan qazının Avropaya çatdırılması məsələsinin həlli trans-Xəzər boru kəmərinin çəkilməsində təşəbbüsün Avropa İttifaqı tərəfindən ələ alınmasını tələb edirdi. Belə ki, Türkmənistan əvvəlki mövqeyinə, yəni qazın öz sərhədlərində təhvil verilməsi prinsipinə sadiqliyini qoruyurdu.

Həmin dövrdə Azərbaycan hökuməti qaz hasilatı sahəsində xarici şirkətlərlə əməkdaşlığı genişləndirmək məqsədilə yeni addım atdı. Belə ki, 2010-cu ilin dekabrında SOCAR "Şahdəniz" layihəsindəki tərəfdaşları ilə müqavilə müddətinin 2036-cı ilədək uzadılması haqqında sənəd imzaladı [485]. Bu qərar "Şahdəniz" yatağının işlənməsinə əlavə sərmayə qoyuluşunu təşviq edir, qaz hasilatı və ixracının artırılması istiqamətində fəaliyyətin daha təminatlı hüquqi bazasını yaradırdı.

Eyni zamanda, Avropa İttifaqı da enerji təhlükəsizliyinin gücləndirilməsi sahəsində fəaliyyətini intensivləşdirirdi. Bu baxımdan Azərbaycanla enerji təchizatı ilə bağlı münasibətlərin inkişafı prioritet istiqamətlərdən birini təşkil edirdi. Məhz bu məqsədlə 13 yanvar 2011-ci il tarixində Bakıda Azərbaycanla Avropa İttifaqı arasında *"Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə"* imzalandı. Prezident İlham Əliyevin və Avropa Komissiyasının sədri X.Barrozunun imzaladıqları bu sənədlə enerji sahəsində əməkdaşlıq yeni dövrə qədəm qoyurdu. Təsadüfi deyil ki, X.Barrozu qeyd edirdi ki, *"bu dəhlizin yaradılması bizim müştərək strateji marağımızdan irəli gəlir"* [326]. Yəni Azərbaycan Avropa məkanını uzun müddət ərzində qazla təchiz etməyi, Avropa İttifaqı isə Azərbaycan qazının bu bazara çıxışına yol açmağı öz öhdəsinə götürürdü.

"Cənub Qaz Dəhlizi" çərçivəsində "Nabukko" layihəsi əsas variant kimi nəzərdən keçirilirdi. Bununla belə, alternativ marşrutların rəqabət qabiliyyəti getdikcə yüksəlirdi. "Nabukko"-nun taleyi Azərbaycanın bu layihə ilə bağlı qərarından asılı idi. Bakının boru kəmərinə dair mövqeyini 2011-ci ilin sonuna qədər bildirəcəyi gözlənilirdi [392]. Lakin "Nabukko" səhmdarları

ilə danışıqların uzanması və həlli çətin görünən çoxsaylı sualların cavabsız qalması bu layihənin şanslarını günbəgün azaldırdı.

Eyni zamanda, Avropa İttifaqının "Nabukko"ya dəstək ifadə etməsinə baxmayaraq, *"onun bir kommersiya layihəsi kimi həyata keçirilməsinin tam olaraq özəl şirkətlərin işi olduğunu önə çəkməsi"* bu ideyanın praktiki icrası ilə bağlı real planların irəli sürülməsinə stimul vermirdi [339, s.27].

Layihənin yerinə yetirilməsində Avropa ölkələrinin qətiyyət göstərməməsi Azərbaycanın da tərəddüdlərini artırırdı. Prezident İlham Əliyev 2011-ci ilin aprelində müsahibələrinin birində qeyd edirdi: *"Biz bu layihəni dəstəkləyirik, lakin qarşılıqlı maraqların nəzərə alınması şərtilə. İlk növbədə kommersiya maraqları təmin edilməlidir, qiymət ədalətli olmalıdır"* [41].

Azərbaycan Prezidenti xüsusilə vurğulayırdı ki, qazın satış qiyməti, boru kəmərinin inşasını maliyyələşdirəcək tərəflər, "Nabukko"nu doldurmaq üçün Mərkəzi Asiyadan qazın nəql edilməsi, Azərbaycanın tranzit rolu və s. məsələlərlə bağlı ortaq mövqe formalaşmayıb. Qeyd olunan problemlərin həlli məqsədilə kommersiya, texniki, siyasi razılaşmalarla kimin məşğul olacağına dair sualların hələ də açıq qalması layihənin tezliklə gerçəkləşməsinə əngəl törədirdi [41].

Eyni zamanda, Avropanın ayrı-ayrı ölkələri Azərbaycanla enerji sahəsində əməkdaşlığın gücləndirilməsinə böyük maraq göstərirdi. Belə ki, yalnız 2011-ci ilin aprel ayında üç ölkənin – Yunanıstan, Rumıniya və Ukraynanın prezidentləri bir-birinin ardınca Azərbaycana rəsmi səfərə gəlmişdilər. Əlbəttə ki, enerji məsələləri ilə bağlı müzakirələr danışıqların əsas mövzusunu təşkil edirdi.

Aprelin 5-də Azərbaycan və Yunanıstan prezidentlərinin iştirakı ilə "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) və Yunanıstan Respublikasının Dövlət Qaz Şirkəti (DEPA) arasında Anlaşma memorandumu" imzalandı. Danışıqların yekununu yüksək qiymətləndirən Yunanıstan Prezidenti K.Papulyas *"Azərbaycandan Türkiyə və Yunanıstan vasitəsilə*

*İtaliyaya qaz boru kəmərinin çəkilməsini əhatə edən müzakirələrdə aydın görünən irəliləyişi"* xüsusi vurğuladı [11].

Beləliklə, "Cənub Qaz Dəhlizi" çərçivəsində digər variantlar üzrə əməli müzakirələrin intensivliyi müşahidə olunurdu.

Aprelin 18-də Rumıniya Prezidenti T.Beseskunun Azərbaycana səfəri gedişində "AGRİ" layihəsi ilə bağlı danışıqlar aparıldı. Tərəflər layihənin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması üçün konkret tədbirlərin görüldüyünü qeyd etdilər [94]. Bir neçə ay əvvəl Macarıstanın "MVM" şirkətinin "AGRİ" layihəsinə qoşulması bu sazişin gerçəkləşməsinə diqqəti artırmışdı [393].

On gün sonra Bakıda Azərbaycan və Ukrayna prezidentləri arasında aparılan danışıqlarda da enerji məsələləri mühüm yer tuturdu. Prezident İlham Əliyev qeyd edirdi ki, ölkələr neft sahəsində əməkdaşlıqdan qaz sahəsində əməkdaşlığa keçməyi planlaşdırırlar [10].

Göründüyü kimi, "Nabukko" ilə yanaşı, digər variantların da qiymətləndirilməsi və həyata keçirilməsi sahəsində ardıcıl işlər aparılırdı. Azərbaycan öz maraqlarının təmin olunması üçün bütün siyasi-diplomatik vasitələrdən istifadə edirdi.

Mümkün variantların hamısını nəzərdən keçirən Azərbaycan hətta 2010-cu ildə Rusiya ilə bu ölkəyə satılan qazın illik həcminin 0,5 milyard kubmetrdən 2 milyard kubmetrədək çatdırılması haqqında saziş imzalamışdı [318].

"Cənubi Qaz Dəhlizi"nin reallaşması ilə bağlı işlərin ləngiməsi fonunda Rusiya tərəfindən irəli sürülən alternativ layihələrin həyata keçirilməsinin sürətləndiyi də müşahidə olunurdu. Belə ki, Rusiyadan Baltik dənizinin dibi ilə Almaniyaya çəkilən "Şimal axını" qaz boru kəmərinin dəniz sahəsinin tikintisinin 2011-ci ilin iyulunda başa çatacağı gözlənilirdi. Eyni zamanda, Rusiyadan Qara dənizin dibi ilə Türkiyə sahillərinə yaxın ərazidən keçərək Bolqarıstan üzərindən Cənubi və Mərkəzi Avropaya qədər uzanacaq "Cənub axını" qaz xəttinin texniki-iqtisadi əsas-

landırılması aparılırdı. Avropa ölkələri ilə hökumətlərarası sazişlər imzalanmışdı. Türkiyə ilə ilkin razılıq əldə olunsa da, danışıqlar davam edirdi. Qaz kəmərinin 2015-ci ilin sonunda işə düşəcəyi planlaşdırılırdı [486].

Həmin dövrdə "Nabukko" konsorsiumunun yaydığı məlumata görə, layihənin tikintisi ilə bağlı işlər ən azı 2013-cü ilə qədər təxirə salınırdı. Yəni boru kəmərinin istifadəyə verilməsi ən yaxşı halda 2017-ci ildə mümkün ola bilərdi. Bu isə tikintisi 8 mlrd dollar qiymətləndirilən layihənin dəyərinin 21 mlrd dolları ötəcəyinə dair fikirlərə yol açırdı [398].

Belə olan halda "Nabukko" layihəsinin səmərəliliyi şübhə altına düşürdü. Türkiyə ilə anlaşmağa çalışan Rusiyanın "Cənub axını" layihəsi üçün daha aydın perspektivlər meydana çıxırdı.

"Cənub Qaz Dəhlizi"nə aid layihələrin rəhbərləri alqı-satqı tarifləri və qazın nəqli üzrə şərtlər barədə təkliflərini 2011-ci il oktyabrın 1-dək "Şahdəniz" konsorsiumuna təqdim etməli idilər. Bu təkliflərin qiymətləndirilməsi və müvafiq marşrutların seçilməsi isə ilin sonuna qədər başa çatdırılmalı idi [494].

"Nabukko" layihəsinə əsas variant kimi dəstək göstərən Avropa İttifaqı (Aİ) Türkmənistandan qaz idxalı məsələsini gündəlikdə saxlayırdı. Aİ-nin rəsmi şəxsləri Xəzər dənizinin hüquqi statusunun həll olunmamasını trans-Xəzər boru kəmərinin çəkilişi üçün əngəl olmadığını bildirirdilər. "Şimal axını" və "Cənub axını" layihələrinə istinad edən Aİ-nin enerji məsələləri üzrə komissarı G.Ottingerin nümayəndəsi xüsusi olaraq vurğulayırdı ki, trans-Xəzər boru xəttinin tikintisi üçün Azərbaycan və Türkmənistan qonşu dövlətlərlə yalnız ekoloji təhlükəsizlik məsələləri barədə razılığa gəlməlidir [494].

Rusiya ilə qaz tranziti sahəsində problemlərlə üzləşən Türkmənistanın da mövqeyində artıq dəyişikliklər baş verirdi. Bu ölkənin Prezidenti Q.Berdıməhəmmədov daha əvvəl Azərbaycan və Aİ ilə Türkmənistan arasında qaz sahəsində əməkdaşlığa tərəfdar olduğunu bildirmişdi [492].

Bununla belə, "Trans-Xəzər nəqliyyat dəhlizi" çərçivəsində qaz boru kəmərinin çəkilməsinə dair müzakirələr vaxtaşırı və uzun müddət aparılmış, lakin Rusiyanın təzyiqləri və Türkmənistanın qeyri-ardıcıllığı nəticəsində səmərəsiz yekunlaşmışdır.

Layihələrlə bağlı təkliflərin Azərbaycana ("Şahdəniz" konsorsiumuna) təqdim olunma müddətinin başa çatmasına az vaxt qalması "Nabukko" iştirakçılarını daha intensiv fəaliyyətə sövq edirdi. 2011-ci il iyunun 8-də Türkiyədə "Nabukko" konsorsiumu ilə tranzit ölkələrin (Avstriya, Bolqarıstan, Macarıstan, Rumıniya və Türkiyə) müvafiq nazirlikləri arasında saziş imzalandı [422].

"Nabukko" layihəsinə dəstəyin ifadə olunduğu sazişlərin əsas müddəası Aİ və Türkiyə qanunvericiliyinə uyğun olaraq qaz tranziti üzrə əlverişli normativ bazanın yaradılmasını ehtiva edirdi. Sərmayədarlara zəruri təminat üçün şərait formalaşdıran sazişlər layihənin maliyyələşdirilməsinə yeni stimul verirdi.

Beləliklə, bu sənədlər "Nabukko" layihəsinin həyata keçirilməsi üçün hüquqi bazanın yaradılmasının başa çatdırılması kimi qiymətləndirilirdi. Bununla belə, Türkiyədə imzalanmış sazişlər "Nabukko" kəmərinin maliyyə-kommersiya problemlərinin tamamilə aradan qaldırıldığı demək deyildi. Çünki Azərbaycanın da daxil olduğu "Şahdəniz" konsorsiumu qaz idxalı üzrə daha əlverişli tariflər və tranzit şərtləri barədə təkliflər alacağı təqdirdə, bu marşruta üstünlük verə bilərdi.

"Cənub Qaz Dəhlizi"nin qızğın müzakirə edildiyi dövrdə – 2011-ci il sentyabrın 9-da Fransanın "Total" şirkəti Azərbaycan Prezidentinə "Abşeron" yatağında böyük qaz ehtiyatlarının kəşf olunduğu barədə məlumat verdi. Axtarışların uğurla başa çatması Azərbaycanın böyük qaz potensialını bir daha təsdiq etdi. SOCAR-ın ilkin hesablamalarına görə, bu yataqda 350 mlrd kubmetr qaz və 45 mln ton kondensat var idi [37; 204].

Bir müddət əvvəl kəşf olunmuş "Ümid" yatağı da nəzərə alınmaqla, Azərbaycanın ümumi qaz ehtiyatları artıq 2,5 trilyon

kubmetr həcmində qiymətləndirilirdi [377]. Bununla da beynəlxalq qaz bazarında Azərbaycanın mövqeləri güclənir, marşrut seçimində manevr imkanları artırdı.

Nəhayət, "Nabukko" konsorsiumu "Şahdəniz" qazının nəqlinə dair təkliflərini 2011-ci il oktyabrın 1-dək təqdim etdi. "Nabucco Gas Pipeline İnternational GmbH" şirkətinin icraçı direktoru R.Mitçekin fikrincə, bu konsorsium qaz təchizatçıları və nəqliyyat müştəriləri üçün daha sərfəli təkliflər verdiyinə görə, həmin şərtlər "Cənub qaz dəhlizi"ndə kommersiya baxımından real və rəqabətə davamlı hesab olunurdu [273].

"Cənub Qaz Dəhlizi" çərçivəsində "Nabukko" layihəsi Avropa ölkələri üçün prioritet variant sayılırdı. Buna görə də bahalığına və qaz təchizatı ilə bağlı çətinliklərə baxmayaraq, bu marşrutun seçilməsi üçün səylər davam etdirilirdi. 2011-ci il oktyabrın 12-də Avstriya Prezidenti H.Fişerin Azərbaycana rəsmi səfəri "Nabukko"ya lobbiçilik baxımından diqqəti cəlb edirdi. Bu, iki ölkənin münasibətləri tarixində Avstriya Prezidentinin Azərbaycana ilk səfəri idi [19].

Bakıda aparılmış danışıqlarda qaz sahəsində əməkdaşlıq məsələləri mühüm yer tuturdu. Təsadüfi deyil ki, Avstriya Prezidenti H.Fişer "Nabukko" layihəsi ilə bağlı müsbət mövqedə olduğunu açıq şəkildə bildirdi: *"Biz xüsusi maraq göstəririk ki, bu layihə reallaşsın"* [91].

Azərbaycan da qaz ixracı sahəsində öz maraqlarının təmin olunması üçün ardıcıl fəaliyyət göstərirdi. Türkiyə ilə uzun müddət davam edən danışıqların uğurla başa çatdırılması Azərbaycan qazının Avropa bazarına çıxarılmasında mühüm əhəmiyyət kəsb edirdi. Bu baxımdan Azərbaycan və Türkiyə arasında imzalanmış 25 oktyabr 2011-ci il tarixli sazişlər əməkdaşlıq yolunda yeni səhifə açırdı. Bu sənədlər paketinə *"Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında qaz alqı-satqısına dair Anlaşma Sazişi", "Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında qaz tranzitinə dair Anlaşma Sazişi", "Azərbaycan Respublikası hökuməti və Tür-*

*kiyə Respublikası hökuməti arasında çərçivə Anlaşma Sazişi"* və s. daxil idi [43].

Beləliklə, qeyd olunan sənədlər mavi yanacağın alqı-satqısı, bu ölkə ərazisi ilə tranziti barədə məsələləri nizamlayaraq, təbii qazın həm Türkiyəyə, həm də Avropa ölkələrinə ixrac edilməsi üçün münasib hüquqi çərçivəni müəyyənləşdirirdi.

*"Bölgədə mövcud balansı dəyişdirəcək anlaşma"* rolunu oynayan bu sazişlərin yerinə yetirilməsi ilə Türkiyə icrasına başlanılan "Şahdəniz-2" layihəsindən ildə 6 milyard kubmetr təbii qaz əldə edə bilərdi. O həm də alacağı mavi yanacağı üçüncü tərəflərə satmaq hüququna malik idi. Amma Azərbaycandan ötürülən təbii qazın 10 milyard kubmetrinin bütünlüklə Avropa ölkələrinə nəql olunması nəzərdə tutulurdu [363].

Göstərilən sazişin mühüm cəhətlərindən biri də ixrac məqsədilə yeni boru xəttinin tikilməsi haqqında müddəanın orada əksini tapmasıdır. Həmin qaz kəmərinin inşa olunmasını Azərbaycan ilə Türkiyə birgə həyata keçirməli idilər. Tikintinin 2017-ci ilin axırınadək başa çatdırılması nəzərdə tutulurdu [99; 363].

Göründüyü kimi, *"iki ölkə yeni qaz kəməri tikintisi təşəbbüsü ilə çıxış edərək, Trans-Anadolu Qaz Kəməri (TANAP) ideyasının əsasını qoydu. Bu isə həqiqətən də regionda yeni enerji xəritəsinin çəkilməsi kimi qiymətləndirilir"* [373, s.246].

Eyni zamanda, Türkiyə-Azərbaycan sazişləri "Şahdəniz-2" layihəsi çərçivəsində 2017-ci ildə qaz hasilatına başlamaq üçün qərarların qəbul edilməsinə və işlərin sürətləndirilməsinə təkan verirdi. Razılaşmaların əldə olunması həm də Azərbaycan qazının Avropaya nəqli üçün layihələrin qiymətləndirilməsi və məqbul variantın seçilməsi prosesinə daha əlverişli zəmin yaratdı.

2011-ci ilin dekabrında Azərbaycan və Türkiyə arasında TANAP üzrə imzalanmış memoranduma əsasən, SOCAR layihədə 80%, "Botaş" isə 20% payla iştirak edirdi. Azərbaycan öz

payının bir hissəsini xarici şirkətlərə satmağa hazır idi. Tərəfdaş kimi boru kəməri ilə nəql etməyə qazı olan şirkətlərə üstünlük veriləcəyi bildirildi. “BP” və “Statoyl” TANAP-a qoşulmaq üçün təkliflərini artıq təqdim etmişdi [469].

Bununla belə, SOCAR boru kəmərinin nəzarət paketini və idarəçiliyini öz əlində saxlamağı nəzərdə tuturdu. Həm nəzarət paketinə sahiblik, həm də “BP” və “Statoyl” kimi şirkətlərin layihəyə cəlb edilməsi kəmərin sabit fəaliyyətinin təmin olunmasına, risklərin mümkün qədər azaldılmasına və beləliklə, Azərbaycan qazının davamlı şəkildə Avropaya çatdırılmasına şərait yaradırdı.

Şübhəsiz, bu, vəziyyətdən çıxmaq üçün Azərbaycanın çox məsuliyyətli və qətiyyətli addımı kimi qiymətləndirilməlidir. Avropanın təkid etdiyi “Nabukko” kəmərinin səmərəli fəaliyyəti üçün hələ lazımi qədər mavi yanacaq mənbələrinin müəyyən edilməməsi onun tikintisinə sərmayə yatırılmasını çətinləşdirirdi. Bu isə, öz növbəsində, aparılan müzakirələrin effektivliyini azaldır, kəmərin inşasına dair qərarların verilməsini ləngidirdi. Belə ki, onun 2017-ci ildə gözlənilən işə düşmə vaxtı 2011-ci ilin oktyabr ayında yenidən bir il təxirə salınmışdı [495].

Azərbaycan artıq bu vəziyyətlə barışa bilməzdi. Ona görə də təşəbbüsə yiyələnərək, TANAP-ın tikintisində Türkiyə ilə birgə məsuliyyəti öz üzərinə götürmək qərarına gəldi. Əgər belə olmasaydı, “Şahdəniz”in ikinci mərhələsinə dair işlərin təkrar olaraq təxirə salınması qaçılmaz idi. *“Bu isə Azərbaycanın iqtisadi və siyasi mənafelərinə ciddi zərbə vururdu. Buna görə də vəziyyəti düzgün qiymətləndirərək operativ qərar qəbul etmək lazım idi. Azərbaycan və Türkiyə yeni qaz boru kəmərinin – TANAP-ın inşasını maliyyələşdirmək barədə razılığa gələrək strateji əhəmiyyətli qərar qəbul etdilər”* [373, s.246].

SOCAR-ın prezidenti R.Abdullayev TANAP-ın “Nabukko”nu gündəlikdən çıxarmayacağını bildirsə də [314], görünürdü ki, avropalıların uzun müddət müzakirə və müdafiə etdiyi bu layihədə dəyişiklik baş verəcəkdir.

Artıq 2012-ci ilin fevral ayında "The Wall Street Journal" yazırdı ki, "Nabukko" konsorsiumu boru kəmərinin gücünün və uzunluğunun azaldılması məsələsini nəzərdən keçirir [495].

Bir ay sonra xarici mətbuat xəbər verirdi ki, "Nabukko" layihəsi dəyişikliyə məruz qalıb. Bildirilirdi ki, konsorsium iştirakçılarının qərarı ilə "Nabukko Vest" ("Nabukko Qərb") adlandırılan boru kəməri Xəzər sahillərindən deyil, Türkiyə–Bolqarıstan sərhədlərindən Mərkəzi Avropaya qədər uzanacaq [275].

Həmin dövrdə Azərbaycan hələ ki, "Cənub Qaz Dəhlizi" çərçivəsində qazın Avropaya ixracı üçün dörd marşrutun öyrənilməsini davam etdirirdi. Bunlar Türkiyə üzərindən İtaliyaya yönəlmiş İTGİ və TAP, Mərkəzi Avropaya istiqamətlənmiş digər iki layihə – "Nabukko" və son dövrdə "BP" tərəfindən irəli sürülmüş "Cənub-Şərqi Avropa kəməri" ("SEEP") idi.

2012-ci ilin fevralında "Şahdəniz" konsorsiumu İtaliya istiqamətində nəzərdən keçirilən iki marşrutdan biri – TAP ilə danışıqların davam etdiriləcəyi ilə bağlı qərar verdi. Texniki və kommersiya şərtlərinə görə, bu layihəyə uduzan İTGİ ilə danışıqlar dayandırıldı [342].

Beləliklə, "Şahdəniz" konsorsiumu üç marşrut üzrə dəyərləndirməni davam etdirirdi. Növbəti mərhələdə eyni istiqamətdə olan "Nabukko" və "SEEP" layihələrindən biri seçilməli idi. Yalnız bundan sonra Mərkəzi Avropa marşrutu ilə Cənubi Avropa variantı (TAP) arasında seçim aparılacaqdı. Bununla bağlı son qərarın isə 2013-cü ildə veriləcəyi gözlənilirdi.

Göründüyü kimi, Avropaya qaz ixracı marşrutuna dair qərarın 2011-ci ilin sentyabrında məlum olacağı bildirilsə də, "Nabukko" ətrafında cərəyan edən proseslər bu məsələnin həllini iki il təxirə saldı.

Bununla belə, "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi üzrə fəaliyyət intensivləşmişdi. Belə ki, 2012-ci il aprelin 17-də konsorsium iştirakçıları "Şahdəniz-2" layihəsinin ilkin mühəndis-dəyərləndirmə işlərini başlamaq barədə qərar

qəbul etdilər [352]. İşlərin nəzərdə tutulan qrafiklə davam edəcəyi təqdirdə, qaz ixracına, əvvəl gözlənildiyi kimi, 2017-ci ilin sonlarında başlamaq planlaşdırılırdı.

Bu məqsədə vaxtında çatmaq üçün Azərbaycan və Türkiyə arasında imzalanmış 26 iyun 2012-ci il tarixli sənədlər böyük əhəmiyyətə malik idi. Məhz bunu nəzərə alan Baş nazir R.T.Ərdoğan razılaşmanı yüksək qiymətləndirərək, *"Türkiyə Respublikası və Azərbaycan Respublikası arasında Trans-Anadolu Qaz Boru Kəməri üzrə Hökumətlərarası Müqavilə"ni və "Türkiyə hökuməti və Trans-Anadolu Qaz Boru Kəməri Şirkəti arasında "Ev sahibi hökuməti Müqaviləsi"ni* layihənin icrası yolunda lazımi hüquqi bazanın yaradılmasında "*ən mühüm addım*" adlandırdı [308, s.2].

TANAP layihəsinin gerçəkləşdirilməsinin Azərbaycan və Türkiyə ilə yanaşı, həm də Avropanın bəzi ölkələrinin enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə öz töhfəsini verəcəyi qeyd olunurdu. Təhlillərdən də göründüyü kimi, bu layihə "Nabukko"nun təşəbbüskarlarının onun reallaşdırılması ilə bağlı uzun illər ərzində nəticəsiz qalan müzakirələrinə iki dövlətin – Azərbaycan və Türkiyənin əməli cavabı idi. Prezident İlham Əliyev də prosesləri məhz bu baxımdan qiymətləndirirdi: *"Biz görürdük ki, bu müzakirələr elə durmadan davam edir, amma ortada bir nəticə yoxdur. Həmişə olduğu kimi, ikitərəfli məsləhətləşmələr aparmaqla qərara gəldik ki, Türkiyə və Azərbaycan bu məsələdə liderliyi üzərinə götürməli və bu layihəni birlikdə icra etməlidirlər. Bu, sırf Türkiyə və Azərbaycanın layihəsidir"* [308, s.3].

Göründüyü kimi, qaz ixracı sahəsində mübahisəli məsələlərin həll olunması iki ölkə arasında əməkdaşlığı yeni səviyyəyə qaldırdı. Hətta beynəlxalq əhəmiyyətli enerji layihəsinin birlikdə icrasına başlamaq mümkün oldu.

Layihə üzrə qaz xəttinin ilkin ötürücülük qabiliyyəti ildə 16 mlrd kubmetr həcmində planlaşdırılırdı. Amma müəyyən müddətdən sonra bu göstəricinin 24 mlrd kubmetri aşacağı nə-

zərdə tutulurdu. Tikinti işlərinə 7-10 mlrd ABŞ dolları sərmayə yatırılması gözlənilirdi [401; 447].

Qarşılıqlı anlaşma görülən işlərin sürətlə aparılmasına təkan verdi. 2012-ci il noyabrın 20-də TANAP layihəsinə dair sazişlər Azərbaycan Respublikası Milli Məclisinin plenar iclasında təsdiq olundu [266]. Elə həmin gün də sənəd Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının Qanunu kimi imzalandı [84].

Bundan əvvəl isə Türkiyə parlamentinin eyni prosedurları həyata keçirdiyini nəzərə alaraq, TANAP-ın hüquqi statusunun tam formalaşdığını qeyd etmək olar.

Əlbəttə, aydın idi ki, *"Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TANAP Xəzər qazının Avropaya nəqlini təmin etməklə, Azərbaycanın beynəlxalq satış bazarlarına çıxışına və orada möhkəmlənməsinə şərait yaradırdı. Eyni zamanda, layihənin reallaşması Azərbaycan və Türkiyənin iqtisadi potensialının, enerji təhlükəsizliyinin və strateji rolunun artmasına xidmət edirdi"* [373, s.247].

Yuxarıda göstərilənlərlə yanaşı, layihə nəinki Avropanın təbii qaz təminatında, eləcə də ümumən enerji təhlükəsizliyinin güclənməsində getdikcə vacib faktor rolunu oynaya bilərdi. Çünki müasir dünyanın geosiyasi xəritəsinin müəyyən olunmasında enerji daşıyıcılarının nəqli marşrutlarının şaxələndirilməsi mühüm amil kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Prezidenti İlham Əliyev enerji təhlükəsizliyi məsələsindən bəhs edərkən vurğulayırdı ki, *"eyni mənbəli marşrutların şaxələndirilməsindən daha çox mənbələrin şaxələndirilməsindən danışmalıyıq... Azərbaycan avropalı istehlakçılar üçün yeni mənbədir, böyük mənbədir, yaxındır, dostdur"* [309].

Yəni enerji təhlükəsizliyini milli təhlükəsizlik məsələsinin ayrılmaz elementi kimi qiymətləndirən Prezident İlham Əliyev problemə yeni və prinsipial yanaşma ifadə edirdi. Azərbaycan isə bu sahədə etibarlı və konstruktiv rol oynayırdı.

Strateji xarakterli layihə olaraq TANAP-ın nəinki Türkiyə və Azərbaycanın, eləcə də Avropanın həyatında əhəmiyyətli rol oynayacağını qeyd edən Amerikanın "Forbes" jurnalı vurğulayırdı ki, *"əlverişli coğrafi vəziyyəti və etibarlı tərəfdaş adı Azərbaycana öz qaz ehtiyatlarından uğurla istifadə etməyə kömək göstərdi"* [502].

TANAP-ın reallaşdırılması üçün lazımi hüquqi bazanın formalaşdırılması tezliklə kəmərin tikinti mərhələsinə keçməyə yol açırdı.

İstanbulda imzalanma mərasimindən bir neçə gün sonra "Şahdəniz" konsorsiumu da qaz ixracı layihələri ilə bağlı daha bir mühüm qərarını açıqladı. Cənub-Şərqi və Mərkəzi Avropa istiqamətində ixrac marşrutlarının qiymətləndirilməsinə yekun vuran konsorsium "SEEP" layihəsi üzrə danışıqları dayandırdığını bildirdi [451]. Müəyyən olunmuş meyarlara əsasən, "Şahdəniz-2" çərçivəsində çıxarılan qazın ixracı üçün "Nabukko Vest" layihəsi ilə danışıqlar davam etdiriləcəkdi. Bu layihənin iştirakçıları "Şahdəniz-2" üzrə qaz hasil edilənədək ixrac boru kəmərinin inşa olunacağına təminat verirdilər.

Bununla da "Şahdəniz" konsorsiumu Xəzər qazının Avropaya ixracı sahəsində rəqabət aparan iki layihə – "Nabukko Vest" və TAP boru kəməri üzvləri ilə danışıqların davamına dair qərar qəbul etdi.

Eyni zamanda, Azərbaycan TANAP layihəsinin həyata keçirilməsi imkanlarını artırmaq və işləri sürətləndirmək üçün SOCAR-ın payının 29%-ni "Şahdəniz" konsorsiumunun üç əsas üzvünə – "BP", "Statoyl" və "Total" şirkətlərinə satmaqla bağlı danışıqlar aparırdı. Bununla belə, SOCAR boru kəmərinin idarə olunmasında mühüm əhəmiyyətə malik səhmlərin nəzarət paketinin, yəni 51%-nin öz əlində saxlanılmasına dair mövqeyini qətiyyətlə qoruyurdu [447].

"BP" 2012-ci ilin dekabr ayında SOCAR-la imzaladığı sazişə əsasən, TANAP-da 12% pay aldı. Onun layihəydə iştirakının konkret şərtləri isə 2015-ci ilin martında imzalanmış

sənəddə əksini tapdı [142; 489]. Bununla yanaşı, "Statoyl"un 12% və "Total"ın 5% səhm payı ilə TANAP layihəsində iştirakına dair müzakirələr hələ yekunlaşmamışdı [356].

Əlbəttə ki, "Şahdəniz" və CQBK-nın operatoru funksiyasını yerinə yetirən "BP"-nin, habelə sair investorların TANAP-a qoşulması layihəyə inamı daha da artırır, onun səmərəli işləməsi üçün kapital yatırılmasına təminatın təzahürü kimi qəbul olunurdu.

Həmin dövrdə Azərbaycan həm də TANAP-ın davamı olaraq təbii qazın Avropaya ötürülməsini təmin edəcək iki marşrut arasında seçim qərarı verməli idi. Məsələni mürəkkəbləşdirən əsas amil onun yalnız iqtisadi xarakter daşımamasına söykənirdi. Regiondakı durumu formalaşdıran geostrateji faktorlar və siyasi maraqlar belə mühüm qərarın qəbulunda öz rolunu mütləq oynamalıdır.

Təsadüfi deyil ki, məhz həmin günlərdə, yəni 2013-cü ilin iyun ayının ortalarında "Nabukko"da iştirak edən kompaniyaların yaydığı informasiyada vurğulanırdı ki, onlar bu layihəyə dəstək xarakteri daşıyan Avstriya, Macarıstan, Rumıniya və Bolqarıstan prezidentlərinin verdiyi bəyanatı təqdir edirlər. Məlumata əsasən, həmin dövlət başçıları Prezident İlham Əliyevə göndərdikləri məktubda Avropa üçün vacib sayılan "Nabukko" layihəsinə dəstək göstərdiklərini bildirmişdilər. Onların bu mövqeyini Türkiyə də müdafiə etmişdir [388].

Azərbaycanı sadalanan dövlətlərlə getdikcə inkişaf edən iqtisadi-siyasi münasibətlər bağlayırdı. Həmin ölkələrlə enerji siyasəti sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri son dövrdə xüsusilə intensiv müzakirə olunurdu. Amma göstərilən marşrutla bağlı qərarın verilməsində maliyyə-iqtisadi, texniki və s. faktorlarla yanaşı, Azərbaycanın milli maraqları əsas əhəmiyyət kəsb edirdi.

Bütün qeyd olunan amilləri nəzərə alan "Şahdəniz" konsorsiumu 28 iyun 2013-cü il tarixində TANAP-ın davamı kimi Trans-Adriatik boru kəmərinə (TAP) üstünlük verdiyini bəyan etdi [343].

Beləliklə, Azərbaycandan mavi yanacağın Avropaya çatdırılmasının TAP vasitəsilə həyata keçiriləcəyi barədə son qərar qəbul olundu. Bu marşrut üzərində yerləşən Türkiyə və Yunanıstandan keçərək, Albaniya ərazisindən cənubi İtaliyaya çatan TAP ümumi "Cənub Qaz Dəhlizi"ni mühüm seqment kimi tamamladı. Eyni zamanda, bu boru xəttinin gələcəkdə Bolqarıstanın da təbii qazla təminatına töhfə verəcəyi gözlənilirdi.

"Cənub Qaz Dəhlizi" Azərbaycana investisiya qoyuluşunun artmasını, yeni yataqlarda işlərin intensiv aparılmasını stimullaşdırmaqla yanaşı, TAP-ın birləşdirdiyi ölkələrin də iqtisadi həyatına və enerji təhlükəsizliyinə müsbət təsir göstərəcəkdi.

Xəzər qazının Avropaya nəqlində TAP layihəsinin seçilməsi Ağ ev, Aİ və Birləşmiş Krallıq tərəfindən də təqdir olundu [343]. Deməli, Azərbaycanın strateji əhəmiyyətli qərarı Qərbin ilkin proqnozlarına tam uyğun olmasa da, yekunda onların mənafelərinə cavab verirdi.

Uzunluğu 870 km, ilkin buraxılış gücü 10 mlrd kubmetr olacaq TAP-ın nəqletmə qabiliyyəti sonrakı mərhələdə 20 mlrd kubmetrə çatdırıla bilərdi. Boru kəmərinin ümumi dəyəri 2,2 mlrd dollar məbləğində qiymətləndirilirdi [223].

TAP layihəsinə üstünlük verilməsinin iqtisadi və siyasi səbəbləri var idi. Hər şeydən əvvəl, bu kəmərin 1300 kilometr uzunluğunda olan "Nabukko Vest"dən, demək olar ki, 442 kilometr qısa olmasına görə daha az sərmayə tələb olunacaqdı. Bununla bərabər, TAP-ın yönəldiyi Yunanıstan və İtaliyada təbii qaz digər ölkələrlə (xüsusilə Mərkəzi və Şərqi Avropada) müqayisədə baha satılırdı. Yəni bu bazarlar kommersiya cəhətindən daha sərfəli sayılırdı. Həm də həmin ölkələrdə təbii qaza tələbat yüksək idi [459].

Siyasi amillərə gəlincə, ekspertlərin fikrincə, Azərbaycan Rusiya faktorunu nəzərdən qaçıra bilməzdi. Buna görə də "Qazprom"un ənənəvi nüfuz üstünlüyünün olduğu "Nabukko Vest" məkanındakı dövlətləri yox, TAP marşrutu üzərindəki

ölkə bazarlarını seçməklə Azərbaycan Kreml ilə siyasi və iqtisadi maraqların toqquşmasına yol vermədi [299, s.154].

Sonrakı dövrdə proseslərin gedişindən bu qiymətləndirmənin reallığı daha obyektiv əks etdirdiyi məlum oldu. Belə ki, TAP vasitəsilə ötürüləcək 10 milyard kubmetrlik təbii qaz Kremlin maraqlarına, demək olar ki, ciddi təhlükə sayılmırdı. Məhz ona görə də Cənubi Avropaya istiqamətlənmiş TAP-a Moskva dözümlü münasibət göstərdi.

Mütəxəssislər eləcə də o faktı qeyd edirdilər ki, "Şahdəniz" konsorsiumunda mühüm rol oynayan "BP" və "Statoyl" kompaniyaları Moskvaya qarşı münasibətdə praqmatik davranış nümayiş etdirdilər. Belə ki, "BP" şirkəti "Rosneft"in 12,8%-lik, "Rosneftqaz"ın isə 6,95%-lik səhmlərinə, "Statoyl" şirkəti "Ştokman Development AG" konsorsiumunda 24%, "Xaryaq" yatağında 30% paya malik olmaqla Rusiyanın yanacaq-enerji məkanında ciddi mövqe qazanmışdı. Buna görə də həmin şirkətlər Avropa məkanında Kreml ilə toqquşaraq, Rusiyada əməkdaşlıq perspektivlərinin təhlükəyə atılmasına  yol verə bilməzdilər [297, s.187-188].

Yəni TAP marşrutu seçilərkən həm "Şahdəniz" layihəsi iştirakçılarının, həm də Azərbaycanın kommersiya və siyasi maraqları maksimum uzlaşdırıldı.

Əvvəlcədən razılaşdırıldığı kimi, TAP layihəsi ilə əməkdaşlığın davam etdirilməsinə dair qərar qəbul olunduqdan sonra "Şahdəniz" konsorsiumu ilə bu boru kəməri arasında daha sıx əlaqələrin qurulması üçün növbəti addım atıldı. Həmin il iyulun 30-da "Şahdəniz" müqaviləsinin iştirakçıları SOCAR, "BP", "Total" şirkətləri TAP konsorsiumuna qoşulmaq haqqında saziş imzaladılar. Əldə olunmuş razılığa əsasən, TAP-ın səhmləri üzvlər arasında aşağıdakı kimi bölünürdü: SOCAR–20%, "BP"–20%, "Statoyl"–20%, "Total"–10%, "Fluxys" (Belçika)–16%, "E.ON" (Almaniya)–9%, "Axpo" (İsveçrə)–5% [13].

Beləliklə, "Şahdəniz" yatağında qaz hasil edən şirkətlərin TAP boru kəməri səhmdarları sırasına qoşulması bu layihənin

həyata keçirilməsi imkanlarını artırır, vahid "Cənub Qaz Dəhlizi" sisteminin formalaşmasını başa çatdırır və daha səmərəli fəaliyyət göstərməsinə şərait yaradırdı.

Bunun ardınca 19 sentyabr 2013-cü il tarixində "Şahdəniz-2" layihəsinin icrasına imkan yaradan sənədlər imzalandı. "Şahdəniz" konsorsiumu və Avropanın doqquz kompaniyasının imzaladığı sazişə əsasən, qarşıdakı 25 ildə Azərbaycandan Avropa istehlakçılarına il ərzində 10 milyard kubmetrdən artıq mavi yanacaq satılmalı idi [128]. Göstərilən təbii qazın Türkiyə, Yunanıstan, Bolqarıstan və İtaliyaya ixrac edilməsi planlaşdırılırdı. Həmin yataqdan mavi yanacağın Avropa istehlakçılarına çatdırılması 2019-cu ildə nəzərdə tutulurdu.

SOCAR-ın məlumatına görə, Avropa şirkətləri ilə imzalanmış həmin müqavilələrdən əldə olunacaq gəlir 200 mlrd dollar təşkil edəcəkdir [384]. Gəlirin həcmi Avropada formalaşmış min kubmetr qaz üçün 450 dollarlıq qiymət çərçivəsində ildə 10 milyard kubmetr qaz ixracına görə hesablanmışdı. Amma 25 il ərzində ixrac olunacaq qaz həcminin və qiymətlərin artacağı labüd hesab edilirdi.

Beləliklə, Azərbaycan Avropa ilə uzunmüddətli iqtisadi əlaqələrin yeni müstəvidə qurulmasına nail olmaqla bərabər, əlavə maliyyə gəlirləri üçün təminat yaradır və qaz infrastrukturunun Avropa sisteminə inteqrasiyası əsasında siyasi əlaqələrinin də möhkəmlənməsi istiqamətində daha əlverişli imkanlar qazanırdı.

"Cənub Qaz Dəhlizi"nə daxil olan bütün seqmentlər müəyyən ediləndən sonra inşa işləri ilə bağlı konkret əməli addımlar atılmalı idi. Azərbaycan Prezidentinin 2013-cü il oktyabrın 29-da imzaladığı "Azərbaycan təbii qazının dünya bazarına "Cənub Qaz Dəhlizi" vasitəsilə nəqli ilə əlaqədar tədbirlər haqqında" Sərəncamı da göstərilən sahədə qaz ixrac infrastrukturunun fəaliyyətini təmin etmək məqsədi güdürdü. Sərəncamla "Şahdəniz" yatağının tammiqyaslı işlənməsi, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, TANAP və TAP layihə-

lərinin həyata keçirilməsi üzrə Baş nazirin birinci müavininin sədrliyi ilə Dövlət Komissiyası yaradılırdı [89].

Dövlət Komissiyası layihə iştirakçıları arasında işlərin əlaqələndirilməsini, meydana çıxan məsələlərin aidiyyəti qurumlar tərəfindən çevik şəkildə həllini təmin etməli idi. Eyni zamanda, komissiyanın qarşısına həmin layihələrdə Azərbaycan Respublikasının mənafeyini qorumaq, iştirakçılara dövlət tərəfindən hərtərəfli kömək göstərilməsi və əlverişli şərait yaradılması ilə bağlı vəzifələr qoyulmuşdu.

Qeyd etmək lazımdır ki, müvafiq hüquqi və texniki-təşkilati tədbirlərin görülməsi "Cənub Qaz Dəhlizi" layihəsinin gerçəkləşməsini ardıcıl dinamik prosesə çevirdi. İştirakçı dövlətlərin siyasi-iqtisadi mənafeləri ilə şirkətlərin kommersiya maraqlarının ahəngdar şəkildə uzlaşdırılması layihənin həyata keçirilməsi sahəsində həlledici qərarların qəbul olunmasına əlverişli imkanlar açırdı.

Məhz indiyədək görülmüş işlərin nəticəsi kimi, 17 dekabr 2013-cü il tarixində Azərbaycan paytaxtında "Şahdəniz-2" layihəsinin icrası üçün sərmayə yatırılmasına dair sənəd – yekun investisiya sazişi imzalandı [129].

Həmin gün eyni zamanda Azərbaycan, Macarıstan, Albaniya və Xorvatiyanın əməkdaşlıq, "Cənub Qaz Dəhlizi" və "Cənub-Şərqi Avropa dəhlizi Anlaşma Memorandumu"nu imzalaması Azərbaycanın uğurlu enerji siyasətinin təzahürü idi.

"Şahdəniz" müqaviləsi üzrə tammiqyaslı istismar işlərinin başlanmasını həm Azərbaycan, həm də digər ölkələr üçün çox əhəmiyyətli hesab edən Prezident İlham Əliyev onu haqlı olaraq *"XXI əsrin müqaviləsi"* kimi təqdim etmişdir [129, s.1]. Belə ki, özünün karbohidrogen resurslarına, müasir dünyanın geosiyasi proseslərinə təsir imkanlarına görə, "Şahdəniz" müqaviləsi "AÇG" üzrə böyük neft layihəsi ilə eyni sıraya qoyula bilər. Məhz bu baxımdan Azərbaycanın dövlət başçısı əminliklə bəyan edirdi: *"Bu layihə regionun və Avropanın enerji xəritəsini dəyişdirəcəkdir"* [129, s.1].

"Şahdəniz-2", CQBK-nın genişləndirilməsi, TANAP və TAP layihələrindən ibarət "Cənub Qaz Dəhlizi"nin reallaşdırılması bölgədə yerləşən ölkələrin həyatında siyasi, sosial-iqtisadi və strateji cəhətdən mühüm əhəmiyyət daşıyırdı.

Birincisi, öz miqyasına görə fərqlənən belə layihə iştirakçı ölkələrin iqtisadiyyatına böyükhəcmli kapital yatırılmasına şərait yaradırdı. Qoyuluşu nəzərdə tutulan sərmayə ümumən 45 mlrd ABŞ dolları məbləğində qiymətləndirilirdi. Bununla həm də tranzit ölkələrdə təxminən 30 mindən artıq yeni iş yerinin yaradılması gözlənilirdi. Onun da üçdən biri Azərbaycanda açılmalı idi [129, s.1-2].

Bundan başqa, beynəlxalq satış bazarlarına birbaşa daxil olan Azərbaycan Xəzər dənizindəki "Abşeron", "Babək", "Ümid" və digər yataqlarında istismar işlərini sürətləndirmək imkan əldə edirdi. Cəlb olunacaq investisiyaların qaz sənayesində işlərin genişlənməsinə və müasir infrastrukturun yaradılmasına əlavə stimul verəcəyi gözlənilirdi. "BP" şirkətinin baş icraçı direktoru R.Dadlinin mərasimdəki çıxışı bu baxımdan diqqətəlayiqdir. O, Azərbaycanın XXI əsrdə Avropanın enerji təhlükəsizliyini təmin edən ölkəyə çevrildiyini vurğulayaraq qeyd edirdi: *"Bu, misilsiz bir layihədir. Ona görə ki, bu, bizim sənayedə tətbiq edilən ən son texnologiyaların ilk dəfə istifadə edilməsi olacaqdır"* [129, s.3].

Məhz bu qabaqcıl texnologiyaların Azərbaycanda tətbiqi texniki təkmilləşmələrə, iqtisadi yüksəlişə, müasir tələblərə uyğun gələn kadr hazırlığına və sosial inkişafa təkan verirdi.

"Cənub Qaz Dəhlizi" kimi qlobal layihənin həyata keçirilməsi marşrut üzrə tranzit ölkələrin, o cümlədən Gürcüstanın həm gəlir əldə etməsinə, həm də mavi yanacaq tələbatını ödəməsinə və əlavə iş yerlərinin açılması sayəsində bəzi sosial məsələlərin həll olunmasına daha əlverişli imkan qazandırırdı.

Layihənin digər əsas iştirakçısı Türkiyə qarşısında da bu boru kəməri ilə daha sərfəli qiymətə təbii qaz idxal etmək, ölkənin sosial və iqtisadi həyatı üçün vacib infrastruktura yiyələnmək

perspektivi açılırdı. Rəsmi məlumatlara əsasən, yalnız TANAP-ın tikinti işlərinin yerinə yetirilməsindən Türkiyənin 4 milyard ABŞ dolları məbləğində iqtisadi səmərə əldə edəcəyi gözlənilirdi [493].

Eyni zamanda, irimiqyaslı bu layihənin reallaşması ilə Türkiyə, Azərbaycan və Gürcüstanın regiondakı geosiyasi rolunun daha da artacağı şübhə doğurmurdu.

"Cənub Qaz Dəhlizi"nin reallaşması Avropa ölkələrinin də həyatında olduqca vacib siyasi və iqtisadi əhəmiyyətə malik idi. *"Belə ki, onlar Azərbaycanın timsalında yeni qaz mənbəyinə çıxış əldə edirdilər. Xəzər dənizindəki yataqlardan idxal olunan qaz Avropanın enerji təhlükəsizliyinin artmasına öz töhfəsini verəcəkdir. Bu fikir Avropa ölkələri və ABŞ nümayəndələrinin Bakıdakı mərasimdə çıxışlarında xüsusi vurğulanırdı"* [373, s.252].

Avropa ölkələrindən Albaniya bu siyahıda diqqəti daha çox cəlb edirdi. Çünki Azərbaycandan çəkilmiş boru kəmərinin istifadəyə verilməsi ilə bu ölkənin ilk dəfə qazlaşdırılması işlərinə başlamaq fürsəti yaranırdı.

Ölkələrlə yanaşı, bu layihədə iştirak edən şirkətlər də böyük qazanc götürəcəkdilər. Şirkətlərin kommersiya gəlirləri həm kəmərin çəkilişi və idarə olunmasından, həm də "Şahdəniz" yatağının uzunmüddətli işlənməsi ilə bağlı əməkdaşlıqdan formalaşacaqdı. Belə ki, "Şahdəniz-2" layihəsinin icrasına dair sənədin imzalanması ərəfəsində aparılmış danışıqlarda konsorsium üzvləri ilə SOCAR çox prinsipial razılığa gəldilər. Qarşılıqlı razılaşmaya əsasən, 17 dekabr 2013-cü ildə "Şahdəniz" yatağı üzrə müqavilənin müddəti uzadılaraq 2036-cı ildən 2048-ci ilə qədər çatdırıldı [129, s.3].

Bu qərar şirkətlərin "Şahdəniz" yatağının tammiqyaslı işlənməsi çərçivəsində uzunmüddətli və irihəcmli sərmayələr yatırmasına, səmərəli əməkdaşlığa daha möhkəm təminat yaradırdı.

"Şahdəniz-2" layihəsinin maliyyələşdirilməsi ilə bağlı

zəruri qərarlar qəbul edildikdən sonra Azərbaycanın rəsmi qurumları "Cənub Qaz Dəhlizi" üzrə bütün işlərin gecikmədən yerinə yetirilməsi sahəsində lazımi tədbirlərin görülməsinə başladı. Prezident İlham Əliyevin 2014-cü il 25 fevral tarixli "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və "Cənub Qaz Dəhlizi"nin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" Sərəncamı səmərəli idarəetmə və maliyyələşmə mexanizminin formalaşdırılması baxımından vacib qərar idi [344].

Həmin sərəncamla "Cənub Qaz Dəhlizi" ilə bağlı bütün layihələrin effektiv şəkildə idarəçiliyinin təmin edilməsi üçün SOCAR tərəfindən qapalı səhmdar cəmiyyətinin təsis olunması tapşırılırdı. Qurumun nizamnamə kapitalı 100 milyon ABŞ dolları həcmində müəyyən edilirdi. Onun səhm paketi 51%:49% nisbətində dövlət və SOCAR arasında bölüşdürülürdü.

Dövlət mülkiyyətində olan səhmlərin maliyyələşdirilməsi Dövlət Neft Fonduna həvalə edilirdi. Azərbaycanın layihələrdəki payları qapalı səhmdar cəmiyyətinə keçir və həmin payların maliyyələşdirilməsi isə geri qaytarılmaq şərti ilə Dövlət Neft Fondunun uzunmüddətli investisiyası hesabına təmin olunmalı idi. Bu vəsait tam geri qaytarılanadək Cəmiyyətin bütün layihələrdən qazandığı gəlirin Dövlət Neft Fonduna köçürülməsi nəzərdə tutulurdu.

"Cənub Qaz Dəhlizi" layihəsi ilə bağlı işlərin intensivləşməsi iştirakçı şirkətlərin kommersiya maraqlarını yenidən nəzərdən keçirməsi və müvafiq qərarlar qəbul etməsi ilə müşayiət olunurdu. Belə ki, 2014-cü ilin may ayında Azərbaycanda neft-qaz layihələrinin ilk investorlarından olan "Statoyl" şirkəti "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəmərindəki 25,5%-lik payının 10%-ni 1,45 mlrd dollara satdı. Şirkətin satdığı aktivlərdən 6,7%-ni SOCAR, 3,3%-ni isə "BP" əldə etdi [336].

Bunun ardınca Türkiyə şirkətləri də "Cənub Qaz Dəhlizi" layihələrində iştirak paylarını artırdılar. Elə may ayının 30-da İstanbulda "Şahdəniz" və TANAP layihələrində pay bölgüsünün də-

yişdirilməsinə dair sənədlərin imzalanması mərasimi keçirildi. Razılaşmaya əsasən, SOCAR TANAP-dakı payının 10%-ni “Botaş” şirkətinə güzəştə getdi [222]. Bununla da TANAP konsorsiumunda SOCAR 58%, “Botaş” 30%, “BP” isə 12%-lik paya sahib oldu.

Beləliklə, Türkiyə şirkəti boru kəmərində öz payını artıraraq, maliyyə öhdəliyinin çərçivəsini genişləndirdi və eyni zamanda, idarəçilik mövqelərini möhkəmləndirdi. SOCAR isə maliyyə yükünü azaltmasına baxmayaraq, TANAP-ın nəzarət səhm paketini öz əlində saxlayırdı.

Onu da qeyd etmək lazımdır ki, “Statoyl” və “Total”ın TANAP-a qoşulması ilə bağlı gözləntilər özünü doğrultmadı. Hətta elə may ayında İstanbuldakı mərasimdə “Total” “Şahdəniz” layihəsindəki 10%-lik payını Türkiyənin TPAO şirkətinə satdı. Bu alqı-satqıdan sonra TPAO-nun “Şahdəniz”dəki iştirak payı 19%-ə çatdı [360].

“Total” isə öz imkanlarını böyük qaz ehtiyatları aşkar etdiyi “Abşeron” yatağına yönəltdi və dörd ay sonra TAP-dakı 10% payını sataraq konsorsiumdan çıxdı. Odövrdəki sövdələşmələrdən sonra TAP konsorsiumunun yeni tərkibi belə formalaşdı: SOCAR–20%, “BP”–20%, “Statoyl”–20%, “Fluxys”–19%, “Enagas”–16%, “Axpo”– 5% [444].

Baş verən dəyişikliklər şirkətlərin kommersiya maraqları və investisiya siyasətinin təzahürləri kimi qiymətləndirilə bilər. Bu yerdəyişmələr TAP layihəsinin gerçəkləşməsi məsələsində həlledici rol oynamırdı.

Elə həmin dövrdə “Statoyl” şirkəti “Şahdəniz” layihəsində və Cənubi Qafqaz Boru Kəmərində qalan 15,5%-lik iştirak payını da satdı. Bu paya 2,25 mlrd dollar ödəyən Malayziyanın “Petronas” şirkəti sahib oldu [501].

Görünür, beş ay əvvəl satdığı 10%-lik paya görə əldə etdiyi 1,45 mlrd dollarlıq qazanc da nəzərə alınmaqla, ümumiyyətlə, Şahdəniz” layihəsindəki səhmlərin satışından götürdüyü 3,7 mlrd dollar həcmində sanballı gəlir “Statoyl”un kommersiya maraqlarını ödəyirdi. (Qeyd edilməlidir ki, 2021-ci ilə

qədər "Şahdəniz" konsorsiumunda və Cənubi Qafqaz Boru Kəmərində fəaliyyətini davam etdirən "Petronas" da özünün kommersiya maraqlarına uyğun olaraq həmin ilin sonunda 15,5%-lik iştirak payını SOCAR-a (4,35%-ni), "LUKoyl"a (9,99%-ni) və "BP"-yə (1,16%-ni) satdı [331] ).

"Cənub Qaz Dəhlizi" layihəsinə qoşulmuş bütün kompaniyalar, bir qayda olaraq, öz kommersiya maraqlarını güdürdüsə, layihənin əhatə etdiyi ölkələr, ilk növbədə, enerji təhlükəsizliyinin daha etibarlı həyata keçirilməsinə çalışırdı. Məhz buna görə də layihənin tezliklə reallaşdırılmasında iştirakçıların maraqları üst-üstə düşürdü.

Nəhayət, 20 sentyabr 2014-cü il tarixində "Cənub Qaz Dəhlizi"nin əsası qoyldu. Bu hadisənin "Əsrin müqaviləsi"nin iyirmiillik yubileyi ilə eyni vaxta təsadüf etməsi və təməlqoyma mərasimində Azərbaycan Prezidenti ilə yanaşı, Avropa Komissiyasının sədri, bir sıra Avropa ölkələrinin dövlət və hökumət rəhbərləri, nazirləri və ABŞ nümayəndəsinin iştirakı onun qlobal əhəmiyyətini vurğulayırdı [125].

Tədbirdə müxtəlif ölkələrin yüksəksəviyyəli nümayəndələri çıxış edərək "Cənub Qaz Dəhlizi"nin ümumən Avropa dövlətlərinin enerji təhlükəsizliyinin güclənməsinə vacib töhfə verəcəyini göstərirdilər. Bu baxımdan Bolqarıstan Prezidenti R.Plevneliyevin çıxışı daha diqqətəlayiqdir. O, ölkəsinin 2009-cu ildə baş vermiş "qaz böhranı"ndan böyük ziyan gördüyünü bildirərək qeyd etdi: *"Bizim ölkə bir kəmərdən asılı idi və heç bir alternativimiz yox idi. Bolqarıstan iqtisadiyyatı ayda yüzlərlə milyon avro zərər çəkirdi. Alternativ mənbələrin təmin edilməsi bizim üçün milli maraq əhəmiyyətli məsələ və enerji marşrutunun şaxələndirilməsi başlıca prioritet idi... "Cənub Qaz Dəhlizi" bu illər ərzində yaşanmış asılılığın sonu olacaq. Bizim regionu və daha geniş məkanı – Avropanı asılılıqdan azad edəcək"* [125, s.2].

Çıxışında layihənin reallaşmasını Bolqarıstanın həyatında çox mühüm əhəmiyyət kəsb etdiyini göstərən R.Plevneliyev

ölkəsini Yunanıstanla bağlayan qaz boru xəttinin tikintisinin 2016-cı ilə qədər tamamlanacağını, Bolqarıstan və Türkiyə arasında qaz kəmərinin də yaxın zamanda inşa edilməsi üçün bütün tədbirləri görəcəklərini nəzərə çatdırdı.

Aİ-nin adından çıxış edən Avropa Komissiyasının sədri X.Barrozu dedi: *"Bu layihə yalnız kəmər deyil, XXI əsrin mühüm strateji enerji dəhlizidir. Bu, sözün əsl mənasında, geostrateji bir layihə olacaq"* [125, s.2].

Göründüyü kimi, layihənin qlobal əhəmiyyəti geniş məkanda etiraf olunurdu. *"Cənub Qaz Dəhlizi"nin təməlqoyma mərasiminin "Əsrin müqaviləsi"nin 20 illik yubileyinə təsadüf etməsi həm də rəmzi məna daşıyırdı. Bütün cəhətlərinə görə ilk neft müqaviləsi və BTC-nin regiondakı əhəmiyyətli rolu ilə müqayisə oluna biləcək "Cənub Qaz Dəhlizi"nin təməlinin qoyulması Azərbaycanda qaz erasının başlanğıcına yol açırdı"* [373, s.254].

Bununla belə, layihənin həyata keçirilməsi yolunda ardıcıl tədbirlər Avropanın bir sıra ölkələrində müəyyən qrupların əsassız etirazını doğururdu. Həmin dairələr işlərə maneə yaratmaq məqsədilə "orijinal" bəhanələrdən istifadə edirdilər. Vaxtilə BTC-nin inşası gedişində mühüm dəlil kimi ortalığa atılmış ekologiya və ətraf mühitin mühafizəsi, habelə tarixi abidələrin qorunması məsələləri yenə də süni şəkildə qabardılırdı. Bu dəfə oxşar üsullardan əsasən "Cənub Qaz Dəhlizi"ni tamamlayan TAP əleyhinə daha intensiv istifadə olunurdu.

Eyni zamanda, İtaliyada və bəzi hallarda isə Yunanıstanda əlavə dəlil kimi həm də kəmərin tikintisinə lazım olan torpaq sahələrinin mülkiyyətçilərdən satınalınma prosesində guya ciddi korrupsiya əməllərinə dair iddialar dövriyyəyə buraxılırdı [98].

Həmin süni kampaniyanın aparılmasında əsas rolu yenə də bəzi siyasi partiya və təsir altında olan QHT nümayəndələri oynayırdılar. Amma keçirilən yoxlamalar bu fikirlərin böhtan olduğunu göstərdi. Kəmərin inşası müəyyən qədər ləngisə də, layihənin icrasını dayandırmaq cəhdləri iflasa uğradı.

Bununla yanaşı, həmin dövrdə Aİ “Cənub Qaz Dəhlizi”-nə mane ola biləcək Rusiyanın “Cənub axını” layihəsini dayandırdı. 2014-cü ilin dekabr ayında Türkiyəyə səfər edən Prezident V.Putin Rusiyanın Qara dənizdən Bolqarıstana çəkilən qaz boru kəmərinin tikintisini həyata keçirməyəcəyini bəyan etdi [424].

Amma “Qazprom” həmin boru kəmərinin Qara dəniz suları ilə Türkiyəyə çatdırılması, daha sonra Yunanıstan sərhədindən təbii qazın Avropanın başqa ölkələrinə nəql olunması imkanlarını araşdırmağa başlamışdı. “Türk axını” adı ilə tanınmaqda olan bu kəmər eyni regionda “Cənub Qaz Dəhlizi”nin ciddi rəqibi kimi çıxış edə bilərdi.

Belə şəraitdə “Cənub Qaz Dəhlizi” ilə bağlı işlərin qrafik üzrə yerinə yetirilməsi Azərbaycanda yüksək səviyyədə diqqət mərkəzində saxlanırdı. Bu baxımdan Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə ölkə paytaxtında “Cənub Qaz Dəhlizi” Məşvərət Şurası formatında iştirakçı dövlətlərin nazirlərinin birinci iclasının təşkil olunmasını göstərmək olar. Əsasən energetika nazirlərinin, habelə Aİ, ABŞ və İngiltərənin, bir sıra beynəlxalq maliyyə təşkilatlarının təmsilçilərinin iştirakı ilə 2015-ci il fevralın 12-də keçirilmiş iclasda “Cənub Qaz Dəhlizi” ilə bağlı işlərin planlaşdırıldığı kimi aparılması üçün aktual məsələlər müzakirə olundu [304].

Prezident İlham Əliyev Məşvərət Şurasının iclasında bildirdi ki, *“layihənin vaxtında icrasına nail olmaq üçün əlaqələndirmə, qarşılıqlı etimad və bu prosesə qoşulmuş bütün ölkələr arasında sıx qarşılıqlı əlaqə lazımdır”* [305, s.1].

Azərbaycan Prezidentinin bütün səylərin birləşdirilməsi ilə bağlı çağırışı təsadüfi deyildi. Belə ki, həmin dövrdə Avropada layihənin icrası yolunda hələ də bürokratik əngəllər və digər süni maneələr yaradılırdı. Məsələn, İtaliyada bəzi dairələr boru kəmərinin çəkilməsi ilə zeytun bağlarının məhv olacağını iddia edərək, ətraf mühitin qorunması problemlərini qaldırır, siyasi və iqtisadi böhran nəticəsində Yunanıstanda hakimiyyətə gəlmiş solçu siyasi qüvvələr isə TAP layihəsindən daha çox

yararlanmaq məqsədilə əvvəlki hökumətin dövründə imzalanmış sazişlərə yenidən baxmaq təşəbbüsü ilə çıxış edirdilər. Yəni hökumət TAP layihəsi çərçivəsində Azərbaycandan qazın satış qiymətinin aşağı salınmasına və Yunanıstan ərazisindən tranzit haqqının artırılmasına dair tələblər irəli sürürdü. Amma SOCAR və onun tərəfdaşları imzalanmış sənədlərə yenidən baxılmasının qeyri-mümkün olduğunu və təsdiqlənmiş şərtlərin dəyişməyəcəyini bəyan etdi [333; 357].

"Cənub Qaz Dəhlizi"nin strateji əhəmiyyətini qiymətləndirən Azərbaycan ona yalnız kommersiya maraqları prizmasından baxmırdı. Nəzərə almaq lazımdır ki, 2015-ci ildə beynəlxalq neft bazarında bir barelin qiymətinin xeyli ucuzlaşaraq 50 ABŞ dollarından da aşağı düşməsi həyata keçirilən enerji layihələrini ciddi maliyyə sıxıntıları ilə üzləşdirirdi. Amma bundan əvvəl də BTC ƏİBK-nın inşası dövründə neftin həddən artıq ucuzlaşması layihəyə problemlər yaratsa da, ilk növbədə Azərbaycanın öz tərəfdaşları ilə birgə qətiyyət və möhkəm iradə nümayiş etdirməsi onu uğurla gerçəkləşdirməyə imkan verdi. Bunu nəzərə alan Azərbaycanın dövlət başçısı Münxen Təhlükəsizlik Konfransının kürsüsündən bildirirdi ki, qiymətin kəskin ucuzlaşması "Cənub Qaz Dəhlizi" kimi böyük layihəni kommersiya cəhətdən müəyyən riskə məruz qoysa da, ona bütün üzv dövlətlərin enerji təhlükəsizliyi, daha qlobal müstəvidə isə milli təhlükəsizliyi aspektindən baxmaq lazımdır [38]. Yəni Azərbaycan hər məsələdə olduğu kimi, "Cənub Qaz Dəhlizi" layihəsinin də həyata keçirilməsimdə tərəfləri prinsipial və qətiyyətli davranışa dəvət edirdi.

Avropa Komissiyasının nümayəndəsi M.Şevçoviç isə iclasdakı çıxışında bir neçə il əvvəl "Nabukko" layihəsinə lazımi siyasi dəstəyin verilmədiyini açıq bildirərək, həmin səhvlərin düzəldilməsinin vacibliyini qeyd etdi. O, bu layihənin mühüm rolunu nəzərə çatdırmaq üçün dedi: *"Bu gün Avropa İttifaqında apardığımız hesablamalara görə, istifadə etdiyimiz qazın 65 faizi, neftin isə 90 faizi idxal edilir. Gələcəkdə Avropa İttifaqına idxal edəcəyimiz qazın həcmi 84 faiz, neftin həcmi isə 94 faiz*

*olacaq"* [305, s.2]. Məhz məsələnin ciddi əhəmiyyətini xüsusi vurğulayan M.Şevçoviç işlərin dəqiq tərtib olunmuş plan əsasında icrasının zəruriliyini göstərdi.

Nazirlərin görüşündə "BP" kompaniyasının bölgə rəhbəri Q.Birrellin çıxışı da maraq doğurdu. Onun fikrincə, *"Bu layihə neft və qaz sənayesi sahəsində meqalayihədir. Hazırda bu, ola bilsin, dünyanın 3-cü və ya 4-cü ən iri enerji layihələrindən biridir. Bu, Avropa və Türkiyə üçün yeni enerji mənbəyidir"* [305, s.2].

Demək olar ki, çox məhsuldar keçən görüş və irəli sürülən təkliflər "Cənub Qaz Dəhlizi" ilə bağlı qarşıda duran vəzifələrin keyfiyyətli icrasına yeni təkan verdi.

Bakıda keçirilmiş iclasın ardınca mart ayının 17-də Türkiyə Cümhuriyyətinin Qars vilayətində TANAP-ın əsası qoyuldu [361].

Bu hadisə üç qonşu dövlət arasında əməkdaşlığın yeni səviyyəyə keçməsinin təzahürü idi. Nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafı enerji sahəsində birgə layihələrlə davam etdirilirdi. Əməkdaşlıq formatı yeni ölkələrin prosesə qoşulması ilə daha da genişlənirdi. Bu formata Avropanın başqa dövlətlərinin, xüsusilə İtaliya, Yunanıstan, Bolqarıstan və Albaniyanın cəlb olunması üçün zəmin yaranırdı.

Vaşinqtonun siyasi mövqeyi də TANAP və s. regional layihələrin reallaşmasına əhəmiyyətli təsir göstərirdi. ABŞ Dövlət Departamentinin təmsilçisi A.Hokştayn təməlqoyma mərasimində dedi: *"ABŞ hökuməti bu layihənin mühüm əhəmiyyətə malik olduğuna inanır və Avropada enerji təhlükəsizliyinə sadiqdir. Buna görə də ABŞ hökuməti "Cənub Qaz Dəhlizi" kimi layihənin TANAP və TAP vasitəsilə reallaşmasının öz milli təhlükəsizlik maraqlarına uyğun olduğunu düşünür. Bu gün ABŞ hökuməti adından sizə söz verirəm ki, indiyə qədər olduğu kimi, biz bu layihəni dəstəkləməyə davam etmək, onun reallaşmasını təmin etmək və qarşımıza çıxan maneələri birlikdə aradan qaldırmaq üçün əlimizdən gələni edəcəyik"* [362].

Bu fikir regionda həyata keçirilən enerji layihələrinə Ağ evdən göstərilən qətiyyətli siyasi dəstəyi bir daha təsdiq edirdi.

Bununla belə, TANAP-ın inşasına başlanılsa da, bu layihənin davamı sayılan TAP-ın yolundakı problemlər hələ öz həllini tapmamışdı. Əsas maneələrdən biri kəmərin tikintisi ilə bağlı qərarın Yunanıstan tərəfindən gecikdirilməsi idi. Qərarın ləngiməsi həmin boru kəmərilə təbii qazın Avropaya ixracını əvvəl gözlənilən 2019-cu ildən iki il sonraya – 2021-ci ilə qədər təxirə salırdı [17]. Bundan narahatlığını gizlətməyən İlham Əliyev 2015-ci il mayın sonlarında xəbərdarlıq edərək deyirdi: *"Əgər TAP layihəsində hər hansı bir problem yaranarsa, o zaman biz qazımızı daha çox Türkiyə bazarına ixrac edəcəyik... TAP iştirakçılarının hamısı gərək məsuliyyətli davransınlar və süni şəkildə problemlər yaratmasınlar"* [225].

O dövrdə ölkəni bürümüş maliyyə və iqtisadi problemlərin aradan qaldırılması üçün Yunanıstan TAP layihəsindən tərəfdaşlarına təzyiq göstərmək məqsədilə istifadə etməyə çalışırdı. Qərbdən gələn etirazlara məhəl qoymayan Afinanın rəsmi dairələri TAP-a qarşı barışmaz mövqe tutaraq, Rusiyanın "Türk axını" planlarına dəstək verir, maliyyə almaq ümidi ilə Kremllə bu mövzuda danışıqlar aparırdılar[24].

Danışıqları başa vuran tərəflər 2015-ci ilin iyun ayında həmin qaz boru xətti ilə bağlı Anlaşma memorandumunu da imzaladılar [311].

Avropaya gedən yolda qazbölüşdürücü məkan olaraq möhkəmlənməyə səy göstərən Türkiyə də Rusiyanın "Türk axını" kəmərinə dəstək ifadə edirdi. Moskva ilə danışıqlara gedən Ankara daha sərfəli qiymətə təbii qaz almaq məqsədi güdürdü. Məhz bu səbəbdən Türkiyə TANAP və "Türk axını" qaz kəməri layihələrinin guya öz aralarında rəqib olmadığını təkidlə bildirirdi [355].

Məsələyə dair münasibətini açıqlayan Azərbaycan da bu iki layihəni heç də rəqib kimi görmədiyini nəzərə çatdırırdı [156]. Amma belə mövqe, hər şeydən əvvəl, öz layihəsinin, yəni

TANAP-ın ciddi problemlə üzləşmədən irəliləməsi üçün daha ehtiyatlı davranış nümayiş etdirməsi ilə bağlı idi.

Çox keçmədən – 2015-ci ilin iyulunda aydın oldu ki, təbii qazın alınmasında Rusiyadan lazımi güzəşti qopara bilməyən Türkiyə "Türk axını" layihəsinin davam etdirilməsinə razılıq verməmişdir [473].

Lakin bir ildən sonra iki ölkə arasında siyasi münasibətlərdə böhranın dəf edilməsi enerji sahəsində əməkdaşlığın bərpa olunmasına şərait yaratdı. 2016-cı ilin oktyabrında İstanbulda Ümumdünya enerji konqresində iştirak edən Rusiya Prezidenti V.Putin "Türk axını" layihəsinin icrasına dair razılıq əldə olunduğunu bildirdi [483]. Bununla da qısa müddətdən sonra boru xəttinin tikintisinə başlanıldı.

Həmin dövrdə "Cənub Qaz Dəhlizi" ilə bağlı işlər ardıcıl yerinə yetirilirdi. Layihənin vaxtında başa çatdırılmasına çalışan Azərbaycan onun maliyyələşdirilməsi ilə üzrə öhdəliklərini icra etmək üçün zəruri addımlar atırdı. Bu məqsədlə 2015-ci ilin iyulunda qəbul olunan qərarla ARDNF-dən ayrılmış vəsaitlə "Cənub Qaz Dəhlizi" QSC-nin nizamnamə fondu 725 milyon ABŞ dollarınadək qaldırıldı [443]. Bununla layihədə planlaşdırılan tikinti işlərinin qrafik üzrə aparılmasına daha əlverişli imkan yarandı.

Qeyd edilməlidir ki, Avropa Komissiyası da öz növbəsində "Cənub Qaz Dəhlizi" layihəsini daim diqqət mərkəzində saxlayırdı. Belə ki, enerji təhlükəsizliyində mühüm rolu əsas götürülərək, 2015-ci ildə *"TAP boru kəməri Avropa Komissiyasının ortaq maraqlara xidmət edən 33 prioritet enerji təhlükəsizliyi siyahısına daxil edilmişdi"* [16].

TAP layihəsinə İtaliya şirkətləri də uzun müddət idi ki, maraq göstərirdi. Nəhayət, 2015-ci ilin dekabrında İtaliyanın "Snam" şirkəti "Statoyl"un TAP-dakı 20%-lik payını 208 mln avroya aldı. Bu məbləğin 130 mln avrosu "Statoyl"a ödənilmişdi, 78 mln avro isə layihənin maliyyələşməsinə sərf olunmalı idi [327].

Beləliklə, İtaliya şirkətinin onun ərazisindən keçən layihəyə qoşulmasının boru kəmərinin tikintisi işlərinə əlavə stimul verəcəyi gözlənilirdi. Eyni zamanda, həmin dövrdə neftin ucuzlaşması ilə əlaqədar polad boruların və kəmərin inşasına tələb olunan xidmətlərin qiymətinin aşağı düşməsi nəticəsində layihənin ümumi xərclərinin azalacağı bildirilirdi [358].

TAP ilə bağlı müəyyən problemlər qalsa da, TANAP-ın tikintisi qrafik üzrə aparılırdı. Türkiyənin Baş naziri Ə.Davudoğlunun 2015-ci ilin dekabrında Bakıya səfəri zamanı layihənin həyata keçirilməsinə dair məsələlər müzakirə olundu və onun nəzərdə tutulduğu 2018-ci ildən daha tez yerinə yetirilməsi haqqında razılığa gəlindi [307].

"Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının üzv ölkələrin nazirlərinin iştirakı ilə keçirilən iclasları qarşıya çıxan məsələlərin vaxtında həll olunmasında faydalı rol oynayırdı. Azərbaycanın təşəbbüsü əsasında meydana çıxmış bu format işgüzar şəraitdə aparılan müzakirələrlə effektiv koordinasiyanın təşkil olunmasına kömək edirdi.

Energetika nazirlərinin Məşvərət Şurası formatında 29 fevral 2016-cı il tarixində Bakıda keçirilmiş II görüşü də məhsuldar olmuşdur [124].

Qərb dövlətlərinin bu layihəyə olan marağı və meydana çıxan bütün problemləri operativ həll etmək əzmi nazirlərin çıxışında özünü aydın büruzə verirdi. Avropa Komissiyasının vitse-prezidenti F.Moqerinin çıxışı bu baxımdan açıq və səmimidir: *"Həm Maroş Şevçoviç* (Avropa Komissiyasının enerji məsələləri üzrə vitse-prezidenti – müəllif)*, həm də mən bu layihənin Avropa İttifaqının enerji təhlükəsizliyi strategiyasının zəruri elementi olduğunu və energetika diplomatiyasının bizim xarici işlər və təhlükəsizlik siyasətimizin əsas hissəsini təşkil etdiyini bildirmək üçün buradayıq"* [124, s.2].

F.Moqerini həm də "Cənub Qaz Dəhlizi"ni Aİ və Azərbaycan arasında münasibətlərin yeni mərhələsi kimi qiymətləndirərək, regionda sabitliyin, sülhün təmin edilməsinə nail olmaq

üçün uzunsürən Dağlıq Qarabağ konfliktinin aradan qaldırılmasının zəruriliyini vurğuladı.

Göründüyü kimi, Avropa ilə enerji sahəsində əməkdaşlıq Azərbaycanın iqtisadi mənafeləri ilə yanaşı, siyasi maraqlarına da xidmət edirdi.

Müşahidələrdən aydın olurdu ki, beynəlxalq maliyyə təşkilatları da "Cənub Qaz Dəhlizi"nin reallaşması prosesində yaxından iştirak etməyə can atırlar. Çünki onun səmərəli layihə olmasına əmin idilər. Azərbaycan da bu sahədə həmin qurumlarla əməkdaşlığa səy göstərirdi. Bunun təzahürü kimi, 2016-cı ildə "Cənub Qaz Dəhlizi" layihəsinin maliyyələşdirilməsi məqsədilə onlardan lazımi sərmayənin cəlb edilməsinə dair razılığın alınmasını qeyd etmək olar [446].

Bununla belə, Avropanın bəzi siyasi dairələri 2015–2016-cı illərdə neftin qiymətinin aşağı düşməsindən istifadə edərək, Azərbaycana təzyiqlər göstərməklə "Cənub Qaz Dəhlizi" layihəsinin maliyyələşdirilməsinə kredit ayrılması müqabilində müəyyən siyasi-iqtisadi maraqların təmin olunmasına çalışırdılar. Prezident İlham Əliyev 2017-ci ilin yanvarında bu layihələrin qarşılıqlı mənafelərə xidmət etdiyini bir daha vurğulayaraq, Azərbaycanın belə təzyiqlərə boyun əyməyəcəyini və öz mövqelərini qoruyaraq boru kəmərinin vaxtında çəkilməsinə nail olacağını bildirdi [22].

Azərbaycan layihələrin icrası sahəsində yalnız Avropa maliyyə qurumları ilə deyil, həm də Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur Bankı ilə sıx əməkdaşlıq edirdi. Qeyd olunmalıdır ki, neftin ucuzlaşması maliyyə böhranı doğursa da, digər tərəfdən qlobal sifarişlərin icrasına əlverişli şərait yaradırdı. Çünki qiymətin enməsi  layihənin maliyyə xərclərinin də azalmasına səbəb olmuşdu. Əgər 2013-cü ildə TANAP-ın tikintisinə 11,7 mlrd ABŞ dollarının sərf olunacağı gözlənilirdisə, artıq 2016-cı ildə bu rəqəm 9,2 mlrd ABŞ dollarına, bir il sonra – 2017-ci ilin əvvəlində isə 8,5 mlrd ABŞ dollarına düşmüşdü [100; 446].

Eyni mənzərəni bütün layihənin başqa seqmentlərində də müşahidə etmək olardı. Bütövlükdə "Cənub Qaz Dəhlizi" layihəsi 2017-ci ildə əvvəlki kimi 45 mlrd dollar yox, 40 mlrd dollar qiymətləndirilirdi [130].

Layihənin bütün sahələrində işlər ardıcıl yerinə yetirilirdi. Törədilən süni maneələrə baxmayaraq, 2016-cı ilin may ayının 17-də Yunanıstanın Saloniki şəhərində sonuncu hissənin – TAP-ın təməlqoyma mərasimi keçirildi [324].

Türkiyədən cənubi İtaliya ərazilərinədək 878 km məsafədə uzanan boru kəmərinin tikinti işlərinə başlanılması "Cənub Qaz Dəhlizi" layihəsinin yekun mərhələsinə qədəm qoyduğunu göstərən çox vacib addım idi. Yuxarıda qeyd olunanlardan göründüyü kimi, bu layihənin reallaşması sahəsində səhmdarların fəaliyyətinə Azərbaycan və Türkiyə hökumətləri hərtərəfli yardım göstərir, bütün məsələləri daim nəzarət altında saxlayırdı. Həyata keçirilən sıx əməkdaşlıq əsas işlərin 2018-ci ildə yerinə yetirilməsinə imkan verdi. Buna görə də 2018-ci il bu layihənin icrası gedişində həlledici dövr kimi tarixə düşdü. Həmin il mayın 29-da Xəzər sahilində Səngəçal terminalında təməli dörd il əvvəl qoyulmuş "Cənub Qaz Dəhlizi"nin rəsmi açılışı keçirildi [217]. Bu hadisə Azərbaycanın enerji siyasətinin uğurlu nəticəsinin növbəti əyani təzahürü idi.

Qısa müddətdən sonra – iyunun 12-də Türkiyədə layihənin daha bir mühüm hissəsini təşkil edən TANAP boru kəməri istifadəyə verildi [218]. Bununla da Xəzər dənizinin Azərbaycan sektorunda hasil olunan qazın Türkiyə və Avropa bazarlarına çıxarılması üçün strateji əhəmiyyətli layihənin başa çatdırılması istiqamətində çox vacib addım atıldı.

Bundan beş ay sonra isə – 2018-ci il noyabrın 19-da Rusiyanın "Türk axını" qaz boru kəmərinin Qara dənizdən keçən sualtı hissəsinin tikintisi yekunlaşdı [471]. Yəni bu zaman artıq "Cənub Qaz Dəhlizi" vasitəsilə Türkiyəyə nəql olunan "Şahdəniz" qazının həcmi tədricən artırılırdı. Bu layihənin sonuncu seqmenti olan TAP-ın inşası isə 2020-ci ildə başa çatdı.

Həmin il dekabr ayının 31-də bu kəmərlə Azərbaycan qazının İtaliyaya nəqlinə başlanıldı [329]. İstifadəyə verilmiş "Cənub Qaz Dəhlizi"nin yekun dəyəri isə nəzərdə tutulduğundan xeyli az – 33 milyard ABŞ dolları məbləgində qiymətləndirildi [149].

Müvafiq infrastruktur yaradıldıqdan sonra Azərbaycan qaz ixracını ilbəil artırır və onun coğrafiyasını genişləndirirdi. 2022-ci il oktyabrın 1-də TAP-ın Yunanıstandan ayrılan qolu ilə Azərbaycan təbii qazının Bolqarıstana birbaşa ötürülməsinə başlanıldı [339, s.16]. Bu proses yüksələn templə gedirdi. Azərbaycan 2023-cü ildə hasil etdiyi 48,2 milyard kubmetr mavi yanacağın yarısından çoxunu – 23,8 milyard kubmetrini xaricə nəql etmişdir. Həmin həcmin 11,8 milyard kubmetri Avropanın (Yunanıstan, İtaliya, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya), 9,5 milyard kubmetri Türkiyənin, 2,5 milyard kubmetri isə Gürcüstanın payına düşmüdür [213]. Eyni zamanda, 2023-cü ilin iyul ayında Azərbaycanın daha bir zəngin qaz yatağında – "Abşeron"da qaz hasilatına başlanılması [5] həm ölkənin mavi yanacaq ixracı potensialını gücləndirdi, həm də "Cənub Qaz Dəhlizi"nin uğurlu fəaliyyət perspektivlərini genişləndirdi.

Beləliklə, araşdırmadan görünür ki, *"Azərbaycanın "Şahdəniz" yatağından çıxarılan təbii qazın Avropa bazarlarına ixracı məsələsini uzun sürən mürəkkəb proses kimi səciyyələndirmək olar. Bu prosesin ilk mərhələsini "Şahdəniz" qazının 2006-cı ildən sonra "Nabukko" kəməri ilə nəql olunması imkanlarının nəzərdən keçirilməsi və Avropa ölkələrinin təşəbbüsü olaraq meydana çıxmış bu layihənin reallaşdırılması ilə bağlı cəhdlər təşkil edir. Lakin Qərb dövlətlərinin məsuliyyəti öz üzərlərinə götürməkdən çəkinərək, qətiyyətsiz davranması "Nabukko" layihəsini sonu görünməyən müzakirə obyektinə çevirdi"* [373, s.261]. Bunu nəzərdən qaçırmayan Azərbaycan, nəhayət, təşəbbüsü ələ alaraq, Türkiyə ilə apardığı səmərəli danışıqların nəticəsində TANAP layihəsinə dair bir neçə müqavilə (2011-ci ilin oktyabr və 2012-ci ilin iyun ayında) imzaladı. Bu isə "Nabukko" layihəsinin planlaşdırılan marşrut üzrə reallaşdırılması

ilə bağlı məsələnin gündəlikdən birdəfəlik çıxarılmasına səbəb oldu.

Azərbaycan müasir dünyanın geosiyasi gerçəkliklərinə uyğun milli maraqlarını əsas tutaraq, Qərb ilə əməkdaşlığın davam etdirilməsində yeni format irəli sürdü. Tərəflərin ortaq maraqları TANAP-ın davamı olaraq TAP kimi cəlbedici layihənin yaranmasını və reallaşdırılmasını şərtləndirdi.

Bu qərarın qəbul olunması ilə tərkibinə dörd seqmentin – "Şahdəniz-2", CQBK, TANAP və TAP-ın daxil olduğu "Cənub Qaz Dəhlizi" kimi dünyanın irimiqyaslı enerji layihələrindən birinin formalaşması başa çatdı. Türkiyədən keçməklə Xəzər sahillərindən cənubi İtaliyaya qədər 3500 km məsafədə uzanan qaz boru kəməri yalnız Azərbaycanın deyil, həm də tranzit ölkələrin, bir sıra Avropa dövlətlərinin *"enerji təhlükəsizliyinin təmin olunması, iqtisadi və geosiyasi maraqlarının qorunması baxımından strateji əhəmiyyətli layihədir"* [373, s.261].

Bununla yanaşı, "Cənub Qaz Dəhlizi" əhatə etdiyi ölkələrin iqtisadi və siyasi əlaqələrinin genişlənməsinə daha münbit zəmin yaradacaq, sosial inkişafına xidmət edəcək.

Yuxarıda göstərilənlərə yekun vuraraq qeyd etmək olar ki, "Şahdəniz" layihəsinin icrasına və qaz ixracı məsələlərinə dair toplanmış mənbələrin kompleks şəkildə dərindən araşdırılması həmin müqavilənin, o zaman səslənən müəyyən etirazlara və mübahisələrə baxmayaraq, vaxtında imzalandığını, Azərbaycanın iqtisadi və siyasi mənafelərinə uyğun doğru qərar olduğunu təsdiq edir. Belə ki, xarici şirkətlərlə səmərəli əməkdaşlıq layihənin uğurla həyata keçirilməsinə yol açaraq, ölkənin getdikcə artan təbii qaz ehtiyaclarını ödəməklə yanaşı, ilk dəfə olaraq qonşu dövlətlərə, çox keçmədən isə Avropaya neftdən başqa həm də mavi yanacaq ixrac etməyə şərait yaratdı. Əvvəl Gürcüstan və Türkiyənin qaz bazarında öz mövqelərini genişləndirən Azərbaycan tezliklə Qərbin diqqətini cəlb etməyə başladı. Ölkənin artan potensialı qaz ixracı sahəsində yeni layihələr reallaşdırmağa imkan verdi. Aparılmış təhlillər göstərdi ki,

böyük xarici təzyiqləri, geosiyasi oyunları bacarıqla dəf edən Azərbaycan hökumətinin təşəbbüsü və qətiyyətli siyasəti nəticəsində "Cənub Qaz Dəhlizi" kimi nəhəng layihənin başa çatdırılması mümkün oldu. Bu isə müasir dövrdə böyük çağırış-lar qarşısında duran gənc müstəqil dövlətin iqtisadi, siyasi və beynəlxalq maraqlarına tam cavab verir.

# IV FƏSİL
# DÖVLƏT NEFT FONDUNUN YARADILMASI VƏ FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

## 4.1. Suveren fondların fəaliyyəti ilə bağlı beynəlxalq təcrübə və Azərbaycan qanunvericiliyi

Neft strategiyasının ardıcıl həyata keçirilməsi Azərbaycan Respublikasının sosial-iqtisadi və siyasi həyatında prioritet vəzifələrdən biri hesab olunurdu. Ölkənin müxtəlif sahələrdə üzləşdiyi problemlərin həlli üçün neft müqavilələrinin gerçəkləşdirilməsindən qazanılan dividentlərə böyük ümid bəslənilirdi. Bu gözləntilər həm daxili, həm də xarici siyasət qarşısında duran vəzifələri ehtiva edirdi.

1999-cu ilin dekabrında Azərbaycan “Əsrin müqaviləsi” çərçivəsində ilk mənfəət neftini əldə etdi. Xarici şirkətlər ilə səmərəli əməkdaşlığın mühüm nəticəsi olan mənfəət neftinin ilk partiyasının ixracından Azərbaycan hökuməti 25 milyon dollar gəlir götürdü. Gələcəkdə neft hasilatının ardıcıl yüksəlməsi ilə karbohidrogen ehtiyatlarının satışından ölkəyə getdikcə böyük həcmdə xarici valyutanın daxil olacağı proqnozlaşdırılırdı. Buna görə də neft gəlirlərinin toplanması, idarə olunması və səmərəli istifadə edilməsi məsələlərinin araşdırılması aktual olaraq gündəliyə çıxırdı. Bu sahədə xarici təcrübənin öyrənilməsi böyük əhəmiyyət kəsb edirdi.

Dövlət Neft Fondunun yaradılmasından əvvəl dünya təcrübəsi ilə yaxından tanış olmaq, oxşar fondların qanunvericilik bazasını və iş prinsiplərini öyrənmək məqsədilə Norveçə nümayəndə heyəti ezam olunmuş və bu ölkədə Dövlət Pensiya Fondu adlandırılan eyni qurumun fəaliyyətinə dair geniş məlumat toplanmışdı.

Həmin dövrdə dünyanın 20-yə yaxın ölkəsində təbii ehtiyatların satışından gələn gəlirlər əsasında yaradılmış suveren və

ya milli rifah fondları kimi tanınan müxtəlif qurumlar fəaliyyət göstərirdi. Hazırda onların sayı 30-dan çoxdur. Tədqiqatçılar formalaşma mənbəyinə və təyinatına görə həmin fondları şərti olaraq üç qrupa bölürlər: sabitləşdirici, ehtiyat və yığım fondu [325; 434, s. 379; 435; 498].

Sabitləşdirici fondlar təbii resursların satış qiymətlərinin dəyişdiyi şəraitdə dövlət büdcəsinin gəlir və xərclərinin tarazlaşdırılması, ehtiyat fondları iqtisadi böhran dövründə büdcə xərclərinin tənzimlənməsi, yığım fondları isə əsasən təbii ehtiyatlar tükəndikdən sonra istifadə olunması məqsədilə yaradılır. Lakin qeyd etmək lazımdır ki, bu fondların çoxu bir yox, qarışıq funksiyanı yerinə yetirir, yəni dünya bazarında təbii sərvətlərin qiymətinin kəskin dəyişdiyi dövrlərdə büdcə gəlirləri və xərcləri arasında tarazlığın qorunması, habelə gələcək nəsillər üçün müəyyən vəsaitin toplanması ilə bağlı vəzifələri həyata keçirir.

Hər bir ölkənin iqtisadi sistemi və inkişaf strategiyasına uyğun olaraq fondların fəaliyyətinin qanunvericilik bazası və formalaşma mənbələri fərqlənir. Məsələn, bəzi ölkələrdə xammal ehtiyatlarının hasilatı və satışı ilə məşğul olan dövlət və özəl şirkətlərin gəlirlərinin çox, yaxud az olaraq bir hissəsi (Norveç, Çili, Qazaxıstan), digərlərində maliyyə ilinin yekunlarına görə büdcə qalıqları (Küveytin Ümumi Ehtiyatlar Fondu) və ya büdcə gəlirlərinin dəqiq müəyyən olunmuş qismi (Küveytin Gələcək Nəsillər Fondu, Rusiyanın Ehtiyat Fondu (2018-ci ildə ləğv edi-ib) və Milli Rifah Fondu) fondun hesabına daxil olur. Bununla yanaşı, ölkələrin əksəriyyətində fondların investisiya yatırımlarından qazanılan vəsait də onların öz ehtiyatlarını artırır [434, s. 380; 435; 467; 498].

Beləliklə, suveren fondların fəaliyyət prinsiplərinə dair geniş beynəlxalq təcrübənin mövcudluğunu qeyd etmək olar. Bu sahədə Norveç Neft Fondu kimi tanınan Dövlət Pensiya Fondu səmərəli idarəçiliyinə və uğurlu nəticələrinə görə adətən nümunəvi qurum olaraq daha çox göstərilir. Məlumdur ki, bir sıra ölkələrin, o cümlədən Azərbaycan və Qazaxıstanın oxşar fondları-

nın işinin təşkilində Norveç modeli əsas götürülüb.

1990-cı ildə yaradılmış Norveç Neft Fondu yüksək iş standartları ilə bütün dünyada seçilir. Maraqlıdır ki, idarəçiliyinin şəffaflığına görə fərqlənən bu fondun hüquqi şəxs statusu, ayrıca idarəetmə aparatı, bankda öz hesabı yoxdur. Fondu yalnız Maliyyə Nazirliyinin Norveçin əsas bankında açılmış xüsusi hesabı təmsil edir. Norveç Bankı hər kvartal Maliyyə Nazirliyinə, sonuncu isə parlamentə hesabat verir. Həm də hər il Maliyyə Nazirliyi ilə müqavilə əsasında müstəqil auditor tərəfindən fondun təsdiq olunmuş geniş illik hesabatı dərc edilir. Bununla yanaşı, fondun fəaliyyəti özünün elektron saytında da müntəzəm olaraq ətraflı işıqlandırılır [498, s. 33].

Qeyd etmək lazımdır ki, dövlətin bütün neft gəlirləri birbaşa Neft Fonduna daxil olur. Yalnız zərurət yarandığı təqdirdə, həmin vəsaitdən parlamentin qərarı ilə müəyyən olunmuş məbləğ büdcə kəsirinin bağlanmasına sərf edilir. Buna görə də neft gəlirlərinin çox hissəsi yığıma yönəldilməklə sonradan aktivlərin idarə olunması yolu ilə daha da artırılır.

Norveç Fondunun investisiya fəaliyyətinin səciyyəvi cəhəti ondan ibarətdir ki, onun bütün kapital yatırımları ölkə xaricində, ilk növbədə qiymətli dövlət kağızlarına yerləşdirilir. Fond haqqında qanuna görə, norveçlilər ehtiyatlarının 40-60 faizini Avropa ölkələrində – Almaniya, Avstriya, Belçika, Böyük Britaniya, Danimarka, Niderland, İtaliya, İrlandiya, İspaniya, İsveç, İsveçrə, Finlandiya və Portuqaliyada istifadə etməyə üstünlük verirlər. Vəsaitin 20-40 faizi Amerikaya – ABŞ və Kanadaya, daha 10-30 faizi isə Asiya-Sakit okean hövzəsi ölkələrinə – Avstraliya, Yeni Zelandiya, Sinqapur, Yaponiya və Honqkonqa (Çin) yönəldilir. Həm də toplanmış maliyyə vəsaitlərinin 50-70 faizi sabit gəlirli kağızlara, əsasən istiqrazlara yatırılır [498, s. 33-34].

Avropanın Norveç modeli ilə yanaşı, ərəb ölkələrindən Küveyt fondlarının təcrübəsi də dünyada böyük maraqla izlənilir. 1953-cü ildə yaradılmış Küveyt İnvestisiya İdarəsinə iki fond – Ümumi Ehtiyatlar Fondu və Gələcək Nəsillər Fondu daxildir.

Küveyt parlamentinin güclü nəzarəti altında olan fondlarda hər il neft gəlirlərinin 10 faizi avtomatik olaraq saxlanılır. Ümumi Ehtiyatlar Fondunun vəsaitləri dövlət və kommersiya qiymətli kağızlarına yatırılır. Gələcək Nəsillər Fondu isə səhm və istiqrazlarla yanaşı, özəl kompaniyalar və daşınmaz əmlak kimi alternativ investisiya alətlərindən istifadə edir. Sərmayə qoyuluşunun əsas coğrafiyasına Şimali Amerika, Avropa və Asiya ölkələri daxildir.

Fondun başlıca məqsədi, əlbəttə, yatırılmış kapitalın uzunmüddətli perspektivdə tarazlı və daha dayanıqlı artımına nail olmaqdan ibarətdir. Təsadüfi deyil ki, ötən əsrin 80-ci illərinin ortalarına Küveytin neft fondunun qiymətli kağızlardan əldə etdiyi gəlirlər ölkənin neft sənayesindən daxil olan qazancı üstələyirdi [498, s. 34-35]. Bu faktın özü fondun fəaliyyətinin necə səmərəli qurulduğunu və peşəkarlıqla idarə olunduğunu aydın göstərir.

Uğurlu təcrübəsi ilə diqqəti cəlb edən neft fondları sırasında ABŞ-da yaradılmış Alyaska Daimi Fondunun fəaliyyəti də ekspertlər tərəfindən xüsusi vurğulanır. 1976-cı ildə təsis olunmuş bu qurumun əsas vəzifəsi gələcək nəsillər üçün yığım funksiyasını həyata keçirməkdir. İdarəçiliyində yüksək şəffaflığa malik olan fond yalnız icra və qanunverici orqanların deyil, həm də ştatın əhalisinin ciddi nəzarəti altındadır.

Belə ki, öz vəsaitlərini daim sərmayə kimi yatıran fond onu başqa məqsədlər üçün istifadə edə bilməz. Toplanmış maliyyə ehtiyatlarının hər hansı başqa sahəyə yönəldilməsi yalnız ştat əhalisinin referendumda sadə səs çoxluğu ilə qərarından sonra mümkündür. Eyni zamanda, neft sektorundan fonda daxil olan gəlirlərdən artıq qalan hissə Maliyyə Nazirliyinə yox, yerli büdcəyə köçürülür. Bu maliyyə vəsaiti mədənlərin fəaliyyət göstərdiyi regionların ekoloji problemlərinin həllinə yönəldilir [498, s. 38].

Müstəqillik illərində, postsovet ölkəsi kimi, ictimai-siyasi və sosial-iqtisadi inkişaf xüsusiyyətlərinə görə Azərbaycanla müəyyən oxşar cəhətlərə malik olan Qazaxıstanda təxmi-

nən eyni dövrdə yaradılmış Neft Fondunun keçdiyi təkamül yolu və fəaliyyət prinsiplərinə daha geniş nəzər salmaq maraqlı olardı. Qazaxıstan Prezidentinin "Qazaxıstan Respublikası Milli Fondu haqqında" 23 avqust 2000-ci il və "Qazaxıstan Respublikası Milli Fondunun bəzi məsələləri haqqında" 29 yanvar 2001-ci il tarixli iki fərmanı ilə ölkədə neft gəlirlərinin toplandığı suveren fond təsis edilmişdir. İlk Fərmanla *"Ölkənin sabit sosial-iqtisadi inkişafının təmin edilməsi, maliyyə vəsaitlərinin gələcək nəsillər üçün toplanması (yığım funksiyası), iqtisadiyyatın mənfi xarici təsirlərdən asılılığının azaldılması (sabitləşdirici funksiya)"* Milli Fondun qarşısında əasas məqsəd kimi qoyulmuşdur [498, s. 6].

Eyni zamanda, həmin Fərmanda Milli Fondun formalaşması, idarə edilməsi və ehtiyatlarının istifadə olunması prinsipləri öz əksini tapmışdır. Yəni sənədə görə, Fondun maliyyə ehtiyatları ölkənin Milli Bankında Qazaxıstan Respublikası hökumətinin hesabında toplanmalı idi. Həmin ehtiyatların idarəçiliyi Milli Bank tərəfindən həyata keçirilir. Fondun vəsaitlərindən istifadənin həcmi və istiqamətləri isə respublika hökumətinin təklifi ilə Qazaxıstan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Hökumət, öz növbəsində, hər il təsdiq olunması üçün Qazaxıstan Respublikasının Prezidentinə Fondun formalaşması və ehtiyatların isifadəsi haqqında hesabat təqdim edir [435; 498, s. 7].

Göründüyü kimi, iki əsas (yığım və sabitləşdirici) funksiyanı yerinə yetirən Fond xüsusi "Qaydalar"la müəyyən olunmuş çərçivədə fəaliyyət göstərməli idi. Belə ki, vəsaitlərin 75 faizinin yığım, 25 faizinin isə sabitləşdirici hissənin payına düşəcəyi nəzərdə tutulurdu. Amma ilk dövrdə bu balansı təmin etmək mümkün olmamış və vəsait 60:40 faiz nisbətində bölünmüşdür. Fəaliyyətin sonrakı illərində bu qeyri-tarazlıq aradan qaldırılmışdır [498, s. 7].

Fondun sabitləşdirici portfeli dövlət və yerli büdcələrə vergi daxilolmalarının və digər ödəmələrin təsdiqlənmiş həc-

mindən artıq olan hissəsi hesabına formalaşır. Buraya müxtəlif vergilər, bonuslar və hasilatın pay bölgüsünə dair müqavilələrdə Qazaxıstan Respublikasının gəlirləri daxildir. Yığım bölməsində isə 3 mənbədən gələn vəsait toplanır: Əvvəla, respublika və yerli büdcələrdən rəsmi köçürmələr (transfertlər). Bu köçürmələr göstərilən büdcələrə planlaşdırılan vergi və digər ödəmələrin 10 faizi həcmində hesablanır. İkinci, Fondun idarə olunmasından qazanılan investisiya gəlirləri və nəhayət, ölkə qanunvericiliyi ilə qadağan edilməyən başqa daxilolmalar [498, s. 7-8].

Beləliklə, bütövlükdə Fondun vəsaitləri əsasən həm xammal sektorundakı müəssisələrin birbaşa vergi ödəmələri, həm də dövlət və yerli büdcələrdən transfertlər hesabına formalaşır.

"Qaydalar"a görə Fondun maliyyə vəsaitlərinin xərc istiqamətləri aşağıdakılardır:

1) Xammal sektoru müəssisələrindən büdcəyə vergi və başqa ödəmələrin təsdiq olunmuş və faktiki həcmi arasındakı fərqin bağlanması;
2) Dövlət və yerli büdcələrə Qazaxıstan Respublikasının Prezidenti tərəfindən müyyən edilmiş məqsədli transfertlər;
3) Fondun idarəçiliyi və illik xarici auditin aparılması ilə bağlı xərclərin ödənilməsi [498, s. 8].

Yuxarıda göstərilən istiqamətlərdən aydın olur ki, xərclərin əsas hissəsini təşkil edən ilk iki bənd üzrə məsrəflər, başlıca olaraq, Fondun sabitləşdirici (həm də sosial inkişaf) funksiyasının yerinə yetirilməsinə yönəlib.

Eyni zamanda, qanunvericiliklə Fondun ehtiyatlarından istifadəyə müəyyən qadağalar da qoyulmuşdur. Belə ki, Fondda toplanmış vəsaitlərin hansısa öhdəliklərin təmin olunması, habelə özəl və dövlət təşkilatlarına kreditlərin ayrılması məqsədilə istifadəsinə yol verilmir. Sərmayələrdən gəlir əldə etmək və vəsaitlərin yığımını həyata keçirmək üçün Fondun valyuta ehtiyatlarının daha etibarlı xarici maliyyə aktivlərinə yatırılması nəzərdə tutulur.

Fəaliyyətini tənzimləyən qanunvericilik bazasına görə, Qazaxıstan Respublikasının Milli Fondu hüquqi şəxs deyil. Amma respublika hökuməti ilə Milli Bank arasında bağlanmış idarəçiliyin etibar edilməsi haqqında müqaviləyə əsasən müstəqil subyekt kimi fəaliyyət göstərir. Bu səlahiyyətlərdən çıxış edərək Milli Bank vasitəsilə sərbəst olaraq sərmayə qoyuluşunu həyata keçirir, o cümlədən maliyyə aktivlərinin müəyyən hissəsini xarici menecerlərin idarəçiliyinə verir [435; 498, s. 8].

Milli Fondun yaradılması ölkənin sosial-iqtisadi həyatında pozitiv rol oynasa da, büdcəyə daxil olan neft gəlirlərinin qeyri-sabitliyi, Fonda vergi ödəmələrini həyata keçirən müəssisələrin dolğun olmayan sayının dəyişkənliyi qurumun fəaliyyətinin daha səmərəli təşkilini və qanunvericiliyin təkmilləşdirilməsini zəruri edirdi. Buna görə də Qazaxıstan Respublikası Prezidentinin 1 sentyabr 2005-ci il tarixli Fərmanı ilə "Ortamüddətli perspektivdə Qazaxıstan Respublikası Milli Fondunun vəsaitlərinin formalaşması və istifadə olunması Konsepsiyası" təsdiq edildi [497, s. 9].

Həmin Konsepsiyaya görə, Qazaxıstan Milli Fondunun əsas formalaşma mənbələri neft sektorunun birbaşa vergiləri (yerli büdcələrə ödənilən vergilər istisna olmaqla), dağ-mədən və emal sahələrində respublikamiqyaslı dövlət mülkiyyətində olan əmlakın özəlləşdirilməsindən və kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin satılmasından daxil olan, habelə qanunla qadağan olunmayan digər gəlirlərdən ibarətdir.

Bu Konsepsiyanı fərqləndirən mühüm cəhətlərdən biri kimi, Milli Fondun vergi ödəyicilərinin siyahısının genişləndirilməsini göstərmək olar. Əgər həmin vaxta qədər neft-qaz sektorunda fəaliyyət göstərən 6 şirkət büdcə və Milli Fonda vergi ödəyirdisə, 2006-cı ildən bu sahədə hasilat və xammal satışı ilə məşğul olan bütün hüquqi şəxslər vergi ödəyicisi siyahısına daxil edildi. Bununla da onların sayı xeyli artaraq 55-ə çatdırıldı [498, s. 10]. 2007-ci ildə qəbul olunmuş Büdcə kodeksinə görə isə həmin müəssisələrin sırasına 81kompaniya daxil idi [435].

Konsepsiya ilə tətbiq olunan yeniliklər yuxarıda göstərilənlə bitmirdi. Sənəd həm də Milli Fonddan dövlət büdcəsinə təminatlı transfertin həcmini məhdudlaşdırırdı. Eyni zamanda, yığım funksiyasının daha səmərəli yerinə yetirilməsi üçün Fondun ehtiyatlarının "azalmaz qalıq" həddi müəyyən edilirdi. Dövlət büdcəsinə transfertin məbləği Milli Fondun həmin dövrdəki maliyyə ehtiyatlarının həcmindən asılı idi. Həm də Fondun son maliyyə ilində gəlirlərinin çox və ya az olması dövlət büdcəsinə ayırmaların həcminə təsir etmirdi. Bununla belə, ehtiyatların tükənməsinə yol verməmək üçün dövlət büdcəsinə təminatlı transfertin məbləği Milli Fondun bütün maliyyə aktivlərinin üçdə bir hissəsindən çox ola bilməzdi. Yəni yeni ilin əvvəlinə toplanmış vəsaitin ən azı üçdə ikisi mütləq qaydada yığım kimi gələcək dövr üçün qorunmalı idi.

Əgər Fonddan təminatlı köçürmə illik dövlət büdcəsində nəzərdə tutulduğundan az olardısa, o halda dövlətin inkişaf proqramlarına ayırdığı xərclər ixtisar edilməli idi. Amma həmin proqramların reallaşdırılmasına əlavə maliyyə vəsaiti tələb edildiyi təqdirdə, bu, hökumətin digər mənbələr hesabına borclanması yolu ilə təmin oluna bilərdi [498, s. 10-11].

Konsepsiyada həm də Milli Fondun ehtiyatlarının maksimal həddinin məhdudlaşdırılmadığı qeyd edilirdi.

Beləliklə, Qazaxıstan Respublikası Milli Fondunun 5 illik inkişaf yolu mövcud qanunvericiliyin boşluqlarını və işin yenidən təşkili üçün potensial imkanları göstərdi. Aparılmış təhlillərdən sonra qəbul edilmiş yeni Konsepsiya qazanılmış təcrübəyə uyğun olaraq qanunvericiliyin və fəaliyyət mexanizminin təkmilləşdirilməsinə rəvac verdi. Bu dəyişikliklər Fonda daxil olan vəsaitin artması ilə yanaşı, yığım funksiyasının daha təminatlı yerinə yetirilməsinə şərait yaratdı.

Bununla belə, 10 illik fəaliyyətini başa vurduqdan sonra Milli Fondun formalaşması və idarə olunması ilə bağlı yeni tələblər meydana çıxır. Tədqiqatçıların fikrincə, müasir zamanın çağırışlarına uyğun yeni Konsepsiyanın təsdiq edilməsilə Fond

2010-cu ildən öz fəaliyyət dövrünün 3-cü mərhələsinə qədəm qoyur [498, s.11].

Yeni Konsepsiyada Milli Fonddan respublika büdcəsinə hər il təminatlı transfertin məbləği 2010-cu ildən başlayaraq sabit rəqəmlə – 8 milyard dollar həcmində müəyyən edilirdi. Bu köçürmələr büdcənin cari və inkişaf proqramlarının maliyyələşdirilməsinə yönəldilirdi. Sərmayənin yatırıldığı gələcək inkişaf proqramlarının nəticələrindən isə həm də yeni nəsillər istifadə edə biləcək [498, s.11].

Eyni zamanda, bu sənədə görə, Milli Fondun yığım funksiyasının yerinə yetirilməsi məqsədilə ehtiyatların "azalmaz qalığı" maliyyə ilinin sonuna proqnozlaşdırılan ÜDM-in 20 faizinə bərabər olmalı idi. Milli Fondun vəsaitlərinin həcmi bu limitin qorunmasına imkan vermədiyi təqdirdə, büdcəyə transfertin ümumi məbləğinin müvafiq ölçüdə azaldılması nəzərdə tutulurdu.

Ümumiyyətlə, yeni Konsepsiyanın tələblərinə görə, Milli Fondun vəsaitləri yalnız dövlət büdcəsinə sabit rəqəmlə ölçülən təminatlı transfert, idarəetmə və auditlə bağlı xərclərə yönəldilə bilərdi. Dövlət büdcəsinə 2010-cu ilə qədər respublika prezidentinin qərarı ilə ayrılan məqsədli transfertlər dayandırılırdı. Bununla yanaşı, Qazaxıstanın dövlət və özəl müəssisələrinin qiymətli kağızlarının alınması, hüquqi və fiziki şəxslərə kreditlərin verilməsi, vəsaitlərin hər hansı öhdəliklərin yerinə yetirilməsi məqsədilə istifadə olunması qadağan edilirdi [498, s.12].

Bu Konsepsiya mühüm sənədlərdən biri kimi, 2015-ci ilə qədər Qazaxıstanın iqtisadi inkişafında vacib rol oynadı. Lakin həmin il dünyada neftin qiymətinin kəskin aşağı düşməsi Milli Fondun illik gəlirlərinin, eləcə də ehtiyatlarının azalmasına səbəb oldu və ölkə iqtisadiyyatına neqativ təsir göstərdi. Belə ki, əgər 2010–2014-cü illərdə Qazaxıstan Respublikası Milli Fondunun valyuta aktivləri 2,3 dəfə artaraq 73,2 mlrd dollara çatmışdısa, neftin dünyada ucuzlaşması və Fondun sosial-iqtisadi proqramlara yönəldilmiş xərclərinin daha da çoxalması nəticə-

sində 2015-ci ilin sonunda ehtiyatların həcmi ilk dəfə olaraq azalmış və 63,4 mlrd dollar təşkil etmişdir [458].

Yəni cəmi bir il ərzində maliyyə resurslarının həcmi, demək olar, 10 mlrd dollar aşağı düşmüşdür. Əlbəttə, bu böhranın doğurduğu ağır fəsadlar digər neft ölkələri – Rusiya, Azərbaycan və başqaları ilə yanaşı, Qazaxıstandan da yan keçməmişdi. Buna görə də yeni şəraitdə Fondun valyuta ehtiyatlarının sabitləşdirilməsi, onun daha da azalmasının qarşısının alınması məqsədilə vəsaitlərin istifadəsi və idarə olunmasında zəruri təkmilləşdirmələrin həyata keçirilməsi aktuallaşdı.

2016-cı ilin dekabr ayında  Qazaxıstan Prezidentinin Fərmanı ilə yeni sənəd –  "Qazaxıstan Respublikası Milli Fondunun vəsaitlərinin formalaşması və istifadə olunması Konsepsiyası" təsdiq edildi [458].

Sənəddə Fondun yığım və sabitləşdirici funksiyaları yerinə yetirdiyi vurğulanır, ehtiyatların qorunması üçün vəsaitlərin "azalmaz qalığı" həcminin əvvəlkinə nisbətən artırılaraq, müvafiq ilin sonuna proqnozlaşdırılan ÜDM-in 30 faizinə çatdırılması müddəası əksini tapır.

Fondun vəsaitləri hər il dövlət büdcəsinə sabithəcmli təminatlı transfertin və respublika Prezidentinin qərarı ilə məqsədli transfertin ayrılmasına, qurumun öz idarəçiliyinə və illik auditin keçirilməsinə sərf oluna bilər. Təminatlı transfert 2023-cü ildən sonra müəyyən formula əsasında hesablanan konkret (Fondun illik gəlirlərindən çox olmayan) həcmlə məhdudlaşdırılır. Məqsədli transfert isə Prezidentin zəruri hesab etdiyi antiböhran proqramlarının, mühüm sosial və strateji xarakterli infrastruktur layihələrinin həyata keçirilməsinə yönəldilir [458].

Beləliklə, Qazaxıstan beynəlxalq standartlara və təcrübəyə əsaslanaraq ölkənin suveren fondunun fəaliyyəti üçün milli qanunvericiliyini formalaşdırmışdır. Respublikanın Milli Fondu zaman keçdikcə müəyyən dəyişikliyə məruz qalan bu qanunlar əsasında işini davam etdirir.

Ötən dövr ərzində valyuta ehtiyatlarını artıran Fond həm

də ona ayrılan sabitləşdirici funksiyanı fəal şəkildə həyata keçirmişdir. Bu sahədə əsas istiqamətlərdən biri hökumətin antiböhran proqramı üzrə tədbirlərin gerçəkləşməsi prosesində maliyyə sektorunun dəstəklənməsi olub. Qazaxıstanın Milli Bankı bu məqsədlə ölkənin bir sıra bankının kapitalının artırılması və onların potensialının möhkəmləndirilməsi üçün vəsait yönəltmişdir. Eyni zamanda, daşınmaz əmlak bazarında problemlərin aradan qaldırılması istiqamətində addımlar atılmışdır. Bunun üçün vəsaitin bir hissəsi ipoteka kreditlərinin təkrar maliyyələşdirilməsinə, habelə Astana və Almatı şəhərlərində daşınmaz əmlak obyektlərinin inşasının başa çatdırılmasına ayrılmışdır [498, s. 26-28].

Göstərilənlərlə yanaşı, müxtəlf banklar vasitəsilə kiçik və orta biznesin dəstəklənməsi, iqtisadiyyatın real sektorunun, aqrar-sənaye kompleksinin maliyyələşdirilməsi diqqət mərkəzində saxlanılmışdır. Həm də innovasiya, sənaye və infrastruktur layihələrinin həyata keçirilməsinə dəstək fəaliyyətin əsas istiqamətlərindən biri olub. Bu sahədə "Şımbulak" dağ-xizək kurortu, Taraz şəhərində Dəmirərintilər Zavodu, Atırau Neft Emalı Zavodu, Xorqos-Jetıqen və Uzen-Türkmənistan sərhədi dəmir yolu xətlərinin tikintisi kimi mühüm layihələr qeyd edilə bilər [498, s. 28-30].

Göründüyü kimi, Milli Fondun xərclərinin əsas istiqamətlərini ölkənin maliyyə sabitliyinin qorunması, mühüm infrastruktur layihələrinin reallaşdırılması, iqtisadi potensialın gücləndirilməsi, sosial xarakterli problemlərin həlli təşkil etmişdir. Bununla da Qazaxıstan beynəlxalq təcrübəyə əsaslanaraq, neft gəlirlərinin ölkənin cari ehtiyaclarının ödənilməsinə, inkişaf perspektivlərinin təmin olunmasına yönəldilməsilə yanaşı, həm də konkret müəyyən olunmuş hissəsinin gələcək nəsillər üçün yığılması xəttini həyata keçirir.

Ümumiyyətlə, dünya təcrübəsi göstərir ki, təbii sərvətlərin ixracından əldə olunan gəlirlərin toplandığı fondların yaradılmasını iqtisadiyyatın qanunauyğun şəkildə sağlam inkişaf

zərurəti şərtləndirir. Belə fondların təsis edilməsi və düzgün idarə olunması ölkə iqtisadiyyatını elmi ədəbiyyatda “Holland sindromu” adlandırılan fəsadlardan qorumağa, makroiqtisadi tarazlığı və hərtərəfli iqtisadi inkişafı təmin etməyə şərait yaradır.

İqtisadçılar tərəfindən geniş təhlil edilmiş “Holland sindromu”nun mahiyyətini qısa şəkildə belə ifadə etmək olar ki, dünya bazarında yüksək qiymətə satılan karbohidrogen ehtiyatlarının və ya digər xammalın ixracından ölkəyə gələn böyük miqdarda xarici valyutanın daxili bazarda məhdudiyyətsiz xərclənməsi milli pul vahidinin möhkəmlənməsinə, onun mübadilə məzənnəsinin yüksəlməsinə və qeyri-neft, eləcə də başqa qeyri-xammal sahələrinin rəqabətə davamlılığının və ixrac qabiliyyətinin zəifləməsinə ciddi təsir göstərir. Belə vəziyyətdə ucuz idxal stimullaşır, qeyri-xammal sahələri iflasa uğrayır, istehsal azalır və ölkə iqtisadiyyatı yanacaq, yaxud digər xammal sənayesindən asılı vəziyyətə düşür. Birtərəfli inkişaf edən ölkə dünya bazarında xammalın qiymətinin ucuzlaşması ilə böyük gəlirlərdən məhrum olur və sarsıdıcı kataklizmlərlə üzləşir [434, s. 379]. Beynəlxalq təcrübədə belə halları SSRİ-nin süquta uğramasında, Nigeriyanın acınacaqlı iqtisadi durumunda, Venesuelanın yaşadığı sarsıntılarda görmək olar.

Neft müqavilələrinin həyata keçirilməsilə daxil olan valyuta ehtiyatlarının getdikcə artması Azərbaycan iqtisadiyyatını da “Holland sindromu”ndan sığortalamağı və sağlam inkişaf məcrasına yönəltməyi aktual vəzifə kimi ön plana çıxarmışdı. Dünya təcrübəsini və beynəlxalq təşkilatların tövsiyələrini nəzərə alan Azərbaycan hökuməti karbohidrogen ehtiyatlarının satışından əldə olunan gəlirlərin birbaşa dövlət büdcəsinə daxil olmasının qarşısını almaq və müstəqil formada toplanmasını təmin etmək məqsədilə xüsusi Neft Fondunun yaradılmasını zəruri saydı. Beləliklə, Prezident Heydər Əliyevin 1999-cu il dekabrın 29-da imzaladığı Fərmanla Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) təsis edildi [77].

Fərmanın preambulasında qeyd olunur ki, Dövlət Neft Fondu *"ölkənin neft yataqlarının xarici şirkətlər ilə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan valyuta vəsaitlərinin və digər gəlirlərin toplanması və səmərəli idarə edilməsi, həmin vəsaitlərin öncül sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək məqsədilə"* yaradılır [77].

Prezidentin Fərmanı Dövlət Neft Fondunun formalaşdırılması mənbələrini də dəqiq müəyyən edir. Fərmana görə, həmin mənbələr Azərbaycan Respublikasının xarici sərmayəçilər ilə ölkə ərazisində enerji resurslarının (neft və qazın) axtarışı və işlənilməsi haqqında bağladığı sazişlərin, eləcə də karbohidrogen ehtiyatlarının hasilatı və nəqli üzrə digər sazişlərin (yəni qurudakı yataqların istismarı üçün birgə müəssisələrin yaradılmasını nəzərdə tutan müqavilələrin) həyata keçirilməsindən əldə olunan gəlirləri ehtiva edirdi. Buraya müqaviləyə əsasən, Azərbaycana çatmalı olan təbii resursların satılmasından qazanılan xalis gəlirlər (SOCAR-ın iştirak payına görə gəlirlər istisna olmaqla), xarici şirkətlər tərəfindən ödənilən bonuslar (mükafatlar), müqavilə sahəsindən istifadəyə görə sərmayəçilərin Azərbaycana akrhesabı ödənişləri, layihələrdən ölkə payına düşən dividentlər və mənfəətdən əldə olunan gəlirlər, karbohidrogen ehtiyatlarının Azərbaycan ərazisi ilə neft və qaz kəmərləri vasitəsilə nəqlindən və layihə üzrə sərmayə yatırmış tərəfdaşlar tərəfindən dövlət orqanlarına və ya SOCAR-a verilmiş aktivlərdən əldə edilən gəlirlər daxil idi.

Bundan başqa, Neft Fondunun öz vəsaitlərinin idarə olunmasından və sair formada istifadəsindən alınan gəlirlər, qrant və digər təmənnasız yardımlar onun aktivlərini artıra bilər.

Prezidentin Fərmanda verdiyi tapşırığa əsasən, ARDNF bilavasitə fəaliyyətə başlayana qədər qurumun vəsaitləri Milli Bankın xüsusi hesabında yığılmalı idi.

Beləliklə, Azərbaycan əzmlə həyata keçirdiyi neft strate-

giyasında növbəti prinsipial addımı atdı. Dünya təcrübəsinə uyğun olaraq yaradılan Dövlət Neft Fondunun ölkənin gələcək sosial-iqtisadi inkişafında mühüm rol oynayacağı nəzərdə tutulurdu. Bunun üçün onun fəaliyyətinin əsas prinsipləri müəyyən edilməli və qanunvericilik əsasları formalaşdırılmalı idi.

Neft Fondunun modeli üzərində iş xarici ekspertlərin iştirakı ilə davam etdirilirdi. 2000-ci ilin avqust ayında verilən məlumata görə, Böyük Britaniyadan olan mütəxəssislər (British Know How Fund) Fondun modeli ilə bağlı yekun təkliflərini Azərbaycan hökumətinə təqdim etmişdilər. Bu təklifin əsasını gəlir və xərclərin tarazlığına söykənən "*daimi gəlirlər*" ideyası təşkil edirdi [421].

İngilis ekspertlərinin hazırladığı modelə görə, ölkənin makroiqtisadi sabitliyini təmin etmək və "Holland sindromu"-nun qarşısını almaq məqsədilə neft gəlirlərinin ölkə daxilində istifadəsi nəzərdə tutulmurdu. Onlar neftin satışından əldə olunan vəsaitin xarici aktivlərə yerləşdirilməsini və alınan gəlirlərin istifadə edilməsini məqsədəuyğun sayırdılar.

Lakin yuxarıda göstərilən ölkələrdən fərqli olaraq, Azərbaycan müstəqilliyinin ilk illərindən Ermənistanın hərbi təcavüzünə məruz qalmışdı. Buna görə də üzləşdiyi dərin sosial-iqtisadi böhranın aradan qaldırılması, habelə Ermənistanın işğalçılıq siyasəti nəticəsində meydana çıxmış qaçqın və məcburi köçkün sakinlərin ağır sosial-məişət problemlərinin həlli, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və s. təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi üçün Azərbaycan hökuməti böyük maliyyə vəsaitinə ehtiyac duyurdu. Həmin vəsait isə hazırkı dövrdə yalnız karbohidrogen ehtiyatlarının satışından əldə oluna bilərdi. Buna görə də xarici təcrübəni geniş öyrənən və nəzərə alan ölkə rəhbərliyi gələcək və indiki nəsillərin mənafelərini uzlaşdıran öz modelini yaratmağı zəruri hesab edirdi. Məhz beynəlxalq təcrübə və yerli xüsusiyyətlər üzərində qurulmuş model əsasında fəaliyyət göstərən Neft Fondu cari problemlərin və perspektiv vəzifələrin həllinə xidmət etməli idi. Bu yanaşma Azərbaycan

Respublikası Prezidentinin 29 dekabr 2000-ci il tarixində imzaladığı Fərmanla təsdiq olunmuş *"Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə"*də öz əksini tapdı [50].

Əsasnamədə ARDNF-in statusu, əsas vəzifələri, formalaşması mənbələri, idarə edilməsi, vəsaitin istifadəsi, uçot və hesabat prinsipləri müəyyən olunur. Sənədə görə, büdcədənkənar dövlət təsisatı statusu alan Fond yalnız Azərbaycan Prezidentinə tabedir və onun qarşısında məsuliyyət daşıyaraq hesabat verir. O, Azərbaycan Respublikası Prezidentinin Fərmanları və öz Əsasnaməsi ilə müəyyən olunanlardan əlavə olaraq hökumət, digər dövlət hakimiyyəti orqanları, təşkilatları və s. qurumlar qarşısında heç bir hüquq və vəzifəyə malik olmadığı kimi, hər hansı öhdəlik də daşımır.

Fondun fəaliyyəti ölkə Prezidentinin ciddi nəzarəti altındadır. Belə ki, qurumun cari fəaliyyətinə rəhbərliyi Prezident tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad olunan icraçı direktor yerinə yetirir. Onunla yanaşı, ARDNF-in fəaliyyətinə, yəni vəsaitlərin toplanması və xərclənməsi ilə bağlı aparılan işlərə ümumi nəzarəti təmin etmək məqsədilə üzvləri Azərbaycan Prezidenti tərəfindən təsdiq olunan Müşahidə Şurası yaradılır. Onun tərkibinə müvafiq dövlət orqanlarının, ictimai təşkilatların nümayəndələri və digər şəxslər daxil olurlar. Müşahidə Şurası Fondun vəsaitlərinin istifadəsi üzrə proqramını, fəaliyyəti haqqında illik hesabatını, növbəti il üçün xərclər smetasının layihəsini nəzərdən keçirir və rəy verir. Bundan sonra həmin sənədlər ölkə Prezidentinin təsdiqinə təqdim olunur.

Beləliklə, Əsasnamənin 4-cü bəndinə müvafiq olaraq, Dövlət Neft Fondunun vəsaitlərinin hər il üçün istifadəsinin əsas istiqamətləri (proqramı) ölkə Prezidentinin sərəncamı ilə təsdiq edildikdən sonra həyata keçirilir [50].

Qeyd etmək lazımdır ki, ARDNF-in vəsaitlərinin formalaşması mənbələri konkret müəyyən olunduğu kimi, xərclərinin istiqamətləri də aydın göstərilir. Əsasnaməyə görə, bu vəsaitlər hər il ölkənin sosial-iqtisadi inkişafı sahəsində *"ən mühüm*

*ümummilli problemlərin həllinə və strateji əhəmiyyətli infrastruktur obyektlərinin inşa və rekonstruksiya edilməsinə istifadə oluna bilər”* [50].

Eyni zamanda, Fondun xərclərinin şəffaflığını təmin edən şərtlərin Əsasnamədə əksini tapması çox vacib rol oynayır. Belə ki, vəsaitin hər il üçün istifadə edilməsinin Prezident tərəfindən təsdiq olunmuş əsas istiqamətləri barədə məlumat və onun icrasına dair illik hesabat müstəqil auditorun rəyi ilə birlikdə internet səhifəsində və mətbuatda dərc edilir.

Nəhayət, xüsusi vurğulamaq lazımdır ki, Fondda toplanan vəsaitlərin heç bir dövlət hakimiyyəti orqanı, digər təşkilat və müəssisələrə kredit (borc) və yaxud girov qismində istifadə olunmasına yol verilmir.

Göründüyü kimi, ARDNF-in Azərbaycan dövlətinin bugünkü və uzunmüddətli strateji maraqlarına uyğun şəffaf fəaliyyətini tənzimləyən hüquqi baza yaradılıb. Onun əsas vəzifələrinin, ehtiyatların formalaşma mənbələrinin və fəaliyyət mexanizminin dəqiq müəyyən olunması işin səmərəli təşkilində mühüm rol oynayır.

Sonrakı dövrdə Fondun fəaliyyətinin qanunvericilik əsaslarının inkişafına yönəlmiş bir sıra yeni sənədlər qəbul olunmuşdur. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq olunmuş *“Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında qaydalar”ı* xüsusi qeyd etmək lazımdır [76].

2001-ci ildən sonra əlavə və dəyişikliklər edilmiş “Qaydalar”ın əsas məqsədi Neft Fondunun valyuta vəsaitlərinin daha etibarlı qorunması və idarə olunmasını təmin etməklə gəlirlərin ardıcıl artırılmasına nail olmaqdan ibarətdir. Sənədin müəyyən etdiyi prinsipə görə, Dövlət Neft Fondunun valyuta vəsaiti Azərbaycanda yalnız Mərkəzi Bankda, xaricdə isə yüksək beynəlxalq reytinqli (“AA” – Standart and Poor’s (Standart ənd Purz), Fitch (Fiç), “Aa3”- Moody’s (Mudiz) banklarda saxlanıla bilər. Bu-

nunla idarəetməyə yönəlmiş vəsaitlərin təhlükədən daha çox sığortalanmasına şərait yaradılır.

Eyni zamanda, risklərin azaldılması məqsədilə investisiya portfeli vəsaitlərinin dünyanın ən nüfuzlu və aparıcı ölkələrinin sabit valyutalarında ifadə olunmuş aktivlərə yerləşdirilməsi nəzərdə tutulur. Bu sıraya Böyük Yeddilərə daxil olan ölkələrin (ABŞ, AFR, Böyük Britaniya, Fransa, İtaliya, Kanada və Yaponiya), Avropa Valyuta Birliyi üzvlərinin, Rusiya və Türkiyənin, habelə yüksək beynəlxalq reytinqə malik ölkələrin valyutaları aid edilir.

ARDNF-in investisiya vəsaitinin ayrı-ayrı hissələri beynəlxalq aləmdə tanınmış və müəyyən tələblərə cavab verən yüksək ixtisaslı menecerlərə idarəetməyə verilə bilər. Əlbəttə, beynəlxalq təcrübəyə malik səriştəli menecerlərlə əməkdaşlıq Fondun vəsaitlərinin daha səmərəli idarə olunmasına xidmət edir.

Vəsaitlərin idarə edilməsində risklərin azaldılması və səmərəliliyin artırılmasında əsas amillərdən biri investisiya yatırımlarının istiqamətləri ilə bağlıdır. Buna görə də Fondun investisiya portfelinin çoxşaxəli tərkibə malik olması təqdirəlayiqdir. Buraya müxtəlif səviyyəli bankların və digər maliyyə təsisatlarının depozitləri, beynəlxalq nüfuza malik səhmlər, qızıl külçələr, daşınmaz əmlak və s. daxildir.

Dövlət Neft Fondunun fəaliyyətinin qanunvericilik bazasının formalaşmasında Azərbaycan Prezidentinin 2004-cü il sentyabrın 27-də imzaladığı Fərmanla təsdiq olunmuş *"Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya"* da öz rolunu oynamışdır. Bu strategiya sənəddə göstərilən dövrdə (2005–2025-ci illərdə) neft-qaz gəlirlərindən istifadə edilməsinin başlıca prinsiplərini, habelə orta müddət üçün xərclər siyasətinin mahiyyətini müəyyənləşdirirdi. Strategiya Qazaxıstan qanunvericiliyində olduğu kimi, Fondun xərclərinə müəyyən məhdudiyyətin tətbiq olunmasını nəzərdə tuturdu.

Belə ki, sənədə görə, Fondun aktivlərinin 25 faizdən az olmayan hissəsinin yığıma yönəldilməsi planlaşdırılırdı [434,

s.383]. Hazırda bu Fərmanın qüvvədən düşməsinə baxmayaraq, Neft Fondunun valyuta ehtiyatlarının həcmi göstərilən limit çərçivəsində saxlanılır.

Ümumiyyətlə, göründüyü kimi, suveren fondların yaradılması və fəaliyyəti ilə bağlı dünyada böyük təcrübə toplanmışdır. Onların qurulmasında əsas məqsəd ölkənin dayanıqlı iqtisadi inkişafının və sosial rifahın təmin edilməsi, gələcək nəsillərin mənafelərinin qorunmasından ibarətdir. Bu təcrübə dünyanın müxtəlif guşələrində – Avropada, Amerikada, Asiyada uğurla tətbiq olunmuş və bu gün də bir sıra ölkələrdə sosial-iqtisadi tərəqqiyə öz töhfələrini verir. Hüquqi tənzimləmədə və fəaliyyət mexanizmində fərqli xüsusiyyətləri olsa da, əsas prinsipləri və standartlarına riayət olunan, qanunun aliliyi rəhbər tutulan ölkələrdə fondlar onlara ayrılan funksiyanı daha nümunəvi formada yerinə yetirir.

Bu təcrübəni dərindən öyrənərək ondan bəhrələnməyə çalışan Azərbaycan təsis etdiyi müvafiq fondun zəruri qanunvericilik əsaslarını yaratmaq üçün lazımi addımlar atmışdır. Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və bir sıra hüquqi-normativ aktları ilə yanaşı, yuxarıda göstərilən sənədlər Dövlət Neft Fondunun fəaliyyətinin hüquqi bazasını təşkil edir. Zamanın tələblərinə uyğun olaraq qanunvericiliyin daha da təkmilləşdirilməsi təbii prosesdir. O dövrdə Fondun bu hüquqi müstəviyə söykənərək bilavasitə öz funksiyalarının icrasına başlaması ölkənin sosial-iqtisadi həyatında mühüm hadisə oldu.

## 4.2. ARDNF-in fəaliyyətinin əsas istiqamətləri

Fondun Əsasnaməsi təsdiq edildikdən bir neçə gün sonra onun praktiki surətdə fəaliyyətə başlaması üçün təşkilati-texniki tədbirlər həyata keçirildi. İlk növbədə Azərbaycan Prezidentinin 3 yanvar 2001-ci il tarixli Sərəncamı ilə S.Şərifov ARDNF-in icraçı direktoru təyin edildi [335]. Bununla da Fondun strukturunun formalaşdırılmasına başlandı.

2001-ci ilin sonunda Neft Fondunun Müşahidə Şurasının yaradılması onun idarəetmə strukturunun təşkilində böyük rol oynadı. Dekabrın 27-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Müşahidə Şurasının 10 nəfərlik tərkibi təsdiq olundu. Şuraya Baş nazir, Milli Məclis sədrinin birinci müavini, SOCAR-ın birinci vitse-prezidenti, Azərbaycan Respublikasının iqtisadi siyasət üzrə dövlət müşaviri, iqtisadi inkişaf naziri, Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri, Milli Bankın İdarə Heyətinin sədri, Milli Məclisin deputatı və Milli Elmlər Akademiyasının prezidenti daxil oldular [51, s.17].

2001-ci il yanvarın 3-də Dövlət Neft Şirkəti ARDNF-in yaradılması haqqında 1999-cu il 29 dekabr tarixli Fərmanın imzalandığı gündən onun üçün açılan xüsusi hesaba daxil olmuş vəsaitlər barədə rəsmi məlumat yaydı [74]. Həmin məlumata görə, bir il ərzində, yəni 2000-ci il dekabrın 29-dək Neft Fondunun hesabına 270 milyon 964 min 652 ABŞ dolları köçürülmüşdür. Qeyd olunan məbləğin 162,4 mln dolları "Azəri-Çıraq-Günəşli" yatağından Azərbaycanın payına düşən mənfəət neftinin satışından, 100 mln dolları xarici şirkətlərin bonus ödəmələrindən, 8,3 mln dolları "Əsrin müqaviləsi" çərçivəsində neftin Bakı–Supsa boru kəməri ilə nəqlinə görə və 360 min dolları isə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ-in) ofis icarəsindən əldə olunmuşdur.

Eyni zamanda, həmin gün Azərbaycan Respublikası Milli Bankı (indi – Mərkəzi Bankı) xarici şirkətlərin neft müqavilələri üzrə ölkəyə ödədikləri bonuslar haqqında məlumat verdi. Məlumatda bildirilirdi ki, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən neft yataqlarının istismarına dair beynəlxalq müqavilələr üzrə 1992–1999-cu illərdə Dövlət Neft Şirkətinə 537,7 mln dollar bonus ödənilmişdir [203].

Həmin vəsaitin 32 mln dolları 1992-ci ildə və 1993-cü ilin birinci yarısında istifadə olunmuşdur. Bundan başqa, 43,6 mln dollar 1998-ci ildə üç təyyarənin alınmasına sərf edilmiş,

qalan 462,1 mln dolları isə Dövlət Neft Şirkəti 1995–1999-cu illərdə Azərbaycan Respublikası Milli Bankının ehtiyatlarına köçürmüş və həmin məbləğ o vaxtadək bankda saxlanılmışdır.

Göründüyü kimi, neft müqavilələri üzrə 1999-cu ilədək əldə edilən gəlirlər Milli (Mərkəzi) Bankın ehtiyatlarına, Dövlət Neft Fondu yaradıldıqdan sonra isə bilavasitə onun öz hesabına daxil olmuşdur.

Beləliklə, 2001-ci il ARDNF-in idarəetmə sisteminin formalaşması və institusional fəaliyyətinin qurulması baxımından vacib qərarların qəbulu və həyata keçirilməsində əhəmiyyətli dövr oldu.

Düzdür, Fondun ilk birillik büdcəsinin hazırlanması və təsdiqi gecikmişdi. Belə ki, 2001-ci il üçün nəzərdə tutulan büdcə yalnız həmin ilin 22 oktyabrında təsdiq olunmuşdu [108, s.14]. Bununla belə, qurum öz fəaliyyətini mövcud qanunvericiliyə uyğun təşkil etmiş və qarşıda duran vəzifələrin uğurla yerinə yetirilməsi üçün lazımi tədbirləri görmüşdür.

İlk hesabat ilində Fondda toplanan vəsaitin həcmi ardıcıl olaraq artmışdır. Məlumdur ki, onun gəlirlərinin əsas mənbəyini neft müqavilələrinin həyata keçirilməsindən və mövcud maliyyə vəsaitlərinin idarə olunmasından qazanılan valyuta təşkil edir. 2001-ci ildə bu iki əsas mənbə hesabına Fonda 1 trilyon 110 milyard manat (221 milyon 399 min ABŞ dolları) daxil olmuşdur [51, s.22]. Həmin gəlirin böyük hissəsi, yəni 963,6 milyard manatı (207,2 milyon ABŞ dolları) neft müqavilələrinin həyata keçirilməsi sayəsində formalaşmışdır. Bu isə bütün gəlirin 87%-ni təşkil edir. İkinci mənbə hesabına isə daxilolmalar 146,4 milyard manat (14,3 milyon ABŞ dolları), yəni 13% həcmində olmuşdur.

Neft müqavilələrinin yerinə yetirilməsi ilə bağlı gəlirlərin tərkibinə nəzər saldıqda, "Əsrin müqaviləsi" üzrə mənfəət neftinin satışından daxilolmaların üstünlük təşkil etdiyi aydın görünür. Belə ki, 2001-ci ildə Azərbaycanın payına düşən mənfəət neftinin satılması ilə Neft Fondu 826,6 milyard manat və

yaxud 177,8 milyon dollar əldə etmişdir ki, bu da ümumi gəlirin 74,5%-i həcmində idi [51, s.23-24].

Fondun hesabatından göründüyü kimi, dünyada qlobal böhran şəraitində neftin qiyməti sabit olmamışdır. Bu isə Azərbaycanın neft gəlirlərinin azalmasına öz təsirini göstərmişdir. Əgər ilin birinci yarısında Brent markalı neftin bir bareli dünya bazarında 26-30 dollara satılırdısa, ilin ikinci yarısında, xüsusilə ABŞ-dakı 11 sentyabr terrorundan sonra qiymət 19-20 dollaradək düşmüşdür. Nəticədə Azərbaycan neftinin illik orta qiyməti 24,9 dollar səviyyəsində formalaşmışdır [51, s.23-24].

Fondun neftdən əldə edilən illik gəlirində tranzit haqqı üzrə daxilolmalar xüsusi çəkisinə görə mənfəət neftindən sonra mühüm yer tuturdu. Belə ki, 2001-ci ildə Bakı–Supsa ixrac boru kəməri ilə nəql olunan neftə görə ABƏŞ 54,8 milyard manat və ya 11,8 milyon dollar vəsait ödəmişdir ki, bu da Neft Fondunun ümumi gəlirlərinin 4,9%-nə bərabər olmuşdur [51, s.28].

İllik gəlirdə həcminə görə sonrakı yerləri 4,5%-lə (50,6 milyard manat və ya 10,7 milyon dollar) akrhesabı ödənişlər, 2,7%-lə (29,9 milyard manat və ya 6,4 milyon dollar) xarici şirkətlərin bonus ödəmələri, nəhayət, 0,2%-lə (2,2 milyard manat və ya 479 min dollar) ABƏŞ-in inzibati ofisinin icarə haqqı ilə bağlı Fonda daxil olan vəsaitlər tuturdu [51, s.26-27].

Beləliklə, 2001-ci ildə dünya iqtisadi və maliyyə böhranının dərinləşməsi ARDNF-in fəaliyyətinə mənfi təsir göstərsə də, qurum ili yüksək gəlirlə başa vurmuşdur. Bonus ödənişləri istisna olmaqla neft sazişləri ilə bağlı digər bəndlər üzrə gəlirlər əvvəlki ilə nisbətən artmışdır.

Fondun illik fəaliyyətini dolğun səciyyələndirmək üçün onun xərclərinin də nəzərdən keçirilməsi vacib rol oynayır. Qeyd etmək lazımdır ki, Neft Fondu iki əsas istiqamət üzrə – sosial-iqtisadi inkişafla bağlı dövlət əhəmiyyətli layihələrə və strateji xarakter daşıyan infrastrukturun tikintisi və bərpasına, habelə qurumun özünün idarə edilməsi xərclərinə vəsait yönəldə bilər.

Azərbaycanın Ermənistan tərəfindən hərbi təcavüzə mə-

ruz qalması ilə bu qonşu ölkədən qovulmuş azərbaycanlıların və işğal olunmuş Qarabağ torpaqlarından məcburi köçkün düşmüş sakinlərin məskunlaşdırılması və sosial-məişət problemlərinin həlli məsələsi aktual vəzifə kimi ön plana çıxmışdı. Buna görə də Neft Fondunun gəlirlərinin müəyyən hissəsi ilk növbədə məhz bu qəbildən olan insanların həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı layihələrin maliyyələşdirilməsinə yönəldilirdi. Bununla əlaqədar Ermənistandakı əzəli yurdlarından qaçqın düşmüş azərbaycanlıların, eləcə də Ağdam və Füzuli rayonlarından didərgin salınmış əhalinin bir qisminin məskunlaşdırılması məqsədilə qəsəbələrin tikintisinə 2001-ci ildə ilkin olaraq 16,7 milyard manatın ayrılması nəzərdə tutulsa da, ilin sonuna qədər sifarişçilər tərəfindən 3,6 milyard manat xərclənmişdir. Fondun idarə edilməsi ilə bağlı 476,6 milyon manat da nəzərə alınmaqla, 2001-ci ildə ümumi xərclər 4 milyard 60 milyon manat və ya 858,3 min ABŞ dolları təşkil etmişdir [51, s.34; 70].

Yuxarıda göstərilən faktlardan belə nəticəyə gəlmək olar ki, Neft Fondunun gəlir əldə etməyə başladığı ilk dövrdə toplanan ehtiyatlardan yalnız ölkənin ən kəskin humanitar problemlərinin həllinə vəsait ayrılırdı. Həmin maliyyə vəsaitinin həcmi hələ elə də çox olmayıb, illik gəlirin 0,4%-i həddində formalaşırdı.

Beləliklə, ARDNF-in illik maliyyə hesabatına əsasən, 31 dekabr 2001-ci ilədək toplanmış vəsaitlərin miqdarı 2 trilyon 347 milyard manat olmuşdur [51, s.50]. Yəni bu, eyni dövrün mübadilə kursu ilə 491,5 milyon dollara bərabər idi [75]. Göründüyü kimi, ilin əvvəli ilə müqayisədə valyuta ehtiyatları iki dəfəyə yaxın artmışdı.

2001-ci ilin yekunları Fondun gələcək fəaliyyətinin daha səmərəli qurulması baxımından mühüm əhəmiyyət kəsb edirdi. Toplanmış maliyyə vəsaiti, təşkilati-idarəetmə təcrübəsi, beynəlxalq əlaqələrin genişlənməsi növbəti dövr üçün daha çevik və uğurlu maliyyə-investisiya siyasətinin həyata keçirilməsinə, idarəçilik sisteminin təkmilləşməsinə təsir göstərirdi. Eyni zaman-

da, Azərbaycan hökumətinin neft strategiyasının reallaşdırılmasında ardıcıl siyasəti, xarici şirkətlərlə sıx əməkdaşlıq şəraitində neft sənayesinə yeni investisiyaların cəlb olunması hasilatın getdikcə yüksəlməsi ilə müşayiət olunurdu.

2002-ci ildə dünyada iqtisadi böhranın dərinləşməsi meyillərinin davam etməsinə baxmayaraq, bir sıra geosiyasi amillərin, xüsusilə Yaxın Şərqdə müharibə təhlükəsinin artması və bəzi neft ölkələrində (Venesuelada) siyasi təlatümlərin təsiri altında dünya bazarında neftin qiymətinin ardıcıl yüksəlməsi Dövlət Neft Fondunun daha çox gəlir əldə etməsinə şərait yaradırdı. Əgər 2002-ci ilin yanvarından Azərbaycan nefti 19,2 dollara satılırdısa, ilin sonunda bu qiymət 31,5 dollara qalxmışdı. Beləliklə, illik orta qiymət ötənilki səviyyədən cüzi də olsa, yuxarı idi – 24,96 dollar [52, s.9].

2002-ci ildə Neft Fonduna daha çox maliyyə vəsaiti – 1 trilyon 474,5 milyard manat (289,5 milyon dollar) daxil olmuşdur. Gəlirlərin əsas hissəsini yenə də neft müqavilələrinin icra olunması ilə bağlı daxilolmalar təşkil edirdi – 1 trilyon 350,2 milyard manat (277,0 milyon dollar). Qalan hissə isə – 124,3 milyard manat (12,5 milyon dollar) Fondun vəsaitlərinin idarə olunmasının payına düşürdü [52, s.7].

Hesabatdan göründüyü kimi, mənfəət neftinin ixracından əldə olunan vəsait ümumi gəlirdə əvvəlki mövqeyini qoruyub saxlayaraq mütləq üstünlüyə, yəni 69,3 %-lik paya (975,9 milyard manat və ya 200,6 milyon dollar) malik idi [52, s.9].

Gəlirlərin digər qismini isə başqa fəaliyyət istiqamətləri üzrə daxilolmalar – bonuslar, tranzit haqqı, akrhesabı ödənişlər və icarə haqqı təşkil edirdi.

2002-ci ildə dünya maliyyə böhranının dərinləşməsi şirkətlərin investisiya siyasətinə mənfi təsir göstərmişdir. Fondun vəsaitlərinin idarə olunmasından qazanılan gəlirlərin (8,4%) azalması da əsasən bununla izah olunur.

Hesabat ilində ARDNF-in vəsaitlərindən əsasnaməyə uyğun olaraq, ölkənin sosial-iqtisadi sahədə vacib problemlərinin

həlli və strateji əhəmiyyətli layihələrin həyata keçirilməsi məqsədilə istifadə olunub. Əgər ötən il Fond yalnız qaçqın və məcburi köçkünlərin məskunlaşdırılması, onların həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı vəsait ayırmışdısa, 2002-ci ildə həm də strateji xarakterli Bakı–Tbilisi–Ceyhan Əsas ixrac boru kəmərinin tikintisi üçün Azərbaycanın iştirak payını maliyyələşdirmişdir. Ümumilikdə illik xərclər 434 milyard 172 milyon manat və ya 88,8 milyon dollar təşkil etmişdir [52, s.21]. Bu məbləğin 431 milyard 138 milyon manatı (88,2 milyon dollar), yəni mütləq əksəriyyəti (99,3%-i) layihələrin maliyyələşdirilməsinə sərf olunmuşdur. Yerdə qalan kiçik hissə isə (3 milyard manat – 0,6 milyon dollar) Fondun idarə edilməsinə yönəldilmişdir. Qeyd etmək lazımdır ki, xərclərin 188,8 milyard manatı qaçqın və məcburi köçkünlərlə bağlı məsələlərin həllinə, 242,3 milyard manatı (49,5 mln dollar) BTC-nin inşasına ayrılmışdır [52, s.23-27].

2002-ci ili də Fond uğurla başa vurmuşdur. Hesabat ilinin yekununda ARDNF-də toplanan vəsaitin həcmi 387,3 milyard manata, yaxud 692,2 milyon dollara çatmışdı [52, s.6]. Yəni bir il ərzində Fondun cari ehtiyatları 40%-dən çox artmışdır.

Fəaliyyətə başladığı dövrdən Neft Fondunun illik gəlirləri, demək olar ki, dəyişən dinamika ilə olsa da, ardıcıl çoxalmışdır. Qurumun illik hesabatlarında verilmiş dəqiq rəqəmlər əsasında tərtib olunmuş aşağıdakı cədvəldən göründüyü kimi, 2002-ci ildə 300 mln dollara yaxınlaşan daxilolmaların həcmi qısa müddətdə 1 milyard dollar həddini keçərək, 2006-cı ildə 1 milyard 166 milyon dollar olmuşdur [51-73] (Cədvəl 4.2.1).

Sonrakı illərdə dinamik artım davam etmiş və 2008-ci ildə ümumi gəlirlər 10 milyard dollar səviyyəsini aşaraq 14,5 milyard dollara çatmışdır. Belə sürətli artım həm neft hasilatının çoxalması, həm də dünya bazarında orta illik qiymətlərin 2002-ci ilin əvvəlinə nisbətən beş dəfə yüksələrək 100 dolları ötməsi ilə bağlı idi [58, s.11].

**Cədvəl 4.2.1**

## ARDNF-in illik gəlirləri (2001–2023)

*(Qeyd: 2001–2004-cü illərin milli valyutadakı məbləği manatın həmin dövrdəki nominalı ilə göstərilib. 2005-ci ildə manatın 1:5000 nisbətində denominasiyası həyata keçirilmişdir.)*

| İllər | Fondun ümumi gəlirləri | Yığıma yönələn vəsait (USD) %-lə | Mənfəət nefti və qazın satışından gələn gəlirlər |
|---|---|---|---|
| 2001 | 1110 mlrd man<br>221,4 mln USD | 99,6 % | 826,6 mlrd man<br>177,8 mln USD |
| 2002 | 1475 mlrd man<br>289,5 mln USD | 69,3 % | 975,9 mlrd man<br>200,6 mln USD |
| 2003 | 1821 mlrd man<br>366,0 mln USD | 33,7 % | 869 mlrd man<br>176,9 mln USD |
| 2004 | 1582 mlrd man<br>323,1 mln USD | 45,9 % | 1295 mlrd man<br>263,8 mln USD |
| 2005 | 660,1 mln AZN<br>704,6 mln USD | 61,0 % | 542,6 mln AZN<br>579,9 mln USD |
| 2006 | 985,9 mln AZN<br>1165,6 mln USD | 5,4 % | 896,3 mln AZN<br>1005,4 mln USD |
| 2007 | 1886,2 mln A ZN<br>2260,8 mln USD | 46,7 % | 1675, 0 mln AZN<br>1954,6 mln USD |
| 2008 | 11864,7 mln AZN<br>14532,2 mln USD | 60,2 % | 11527,0 mln AZN<br>14116,0 mln USD |
| 2009 | 8274,3 mln AZN<br>10266,1 mln USD | 36,2 % | 7702,6 mln AZN<br>9584,6 mln USD |
| 2010 | 13088, 5 mlnAZN<br>16309,3 mln USD | 48,2 % | 12656,1 mln AZN<br>15769, 1 mln USD |
| 2011 | 15628,4 mln AZN<br>19799,9 mln USD | 35,5 % | 15257,5 mln AZN<br>19329,5 mln USD |
| 2012 | 13674,1 mln AZN<br>17405,4 mln USD | 24,9 % | 13117,4 mln AZN<br>16695,8 mln USD |

| | | | |
|---|---|---|---|
| 2013 | 13600,4 mln AZN<br>17329,2 mln USD | 9,5 % | 13108,0 mln AZN<br>16707,7 mln USD |
| 2014 | 12731,0 mln AZN<br>16231,3 mln USD | 7,6 % | 12319,8 mln AZN<br>15707,0 mln USD |
| 2015 | 7721,1 mln AZN<br>7670,2 mln USD | - 9,5 % | 7369,6 mln AZN<br>7229,1 mln USD |
| 2016 | 9410,2 mln AZN<br>5891,1 mln USD | -1,3 % | 8320,0 mln AZN<br>5189,1 mln USD |
| 2017 | 12137,5 mln AZN<br>7065,5 mln USD | 36,6 % | 11030,0 mln AZN<br>6409,6 mln USD |
| 2018 | 17614,1 mln AZN<br>10400,0 mln USD | 26,0% | 16645,6 mln AZN<br>9800,0 mln USD |
| 2019 | 19030,6 mln AZN<br>11194,5 mln USD | 42,9 % | 14614,7 mln AZN<br>8596,9 mln USD |
| 2020 | 9360,8 mln AZN<br>5506,4 mln USD | 5,5 % | 6587,3 mln AZN<br>3874,9 mln USD |
| 2021 | 15985,7 mln AZN<br>9403,3 mln USD | 15,6% | 11894,6 mln AZN<br>6996,8 mln USD |
| 2022 | 16866,5 mln AZN<br>9586,0 mln USD | 41,7% | 19698,9 mln AZN<br>11587,6 mln USD |
| 2023 | 21661,9 mln AZN<br>12742,3 mln USD | 55,7% | 14519,0 mln AZN<br>8540,6 mln USD |
| **Cəmi:**<br>31.12.<br>2023 | 223369,4 mln AZN<br>196632,6 mln USD | 28,5 %<br>56,1 mlrd USD | 200285,3 mln AZN<br>180468,4 mln USD |

Statistikanın göstərdiyi kimi, artım meyilləri hələ bir neçə il də müşahidə olunmuş və 2011-ci ildə ən yüksək səviyyəyə – 15,6 mlrd AZN və ya 19,8 mlrd dollara çatmışdır. Bundan sonra Fondun ümumi gəlirlərinin həcmi tədricən azalmağa başlamış, bu eniş 2015-ci ildə özünü daha kəskin şəkildə büruzə vermişdir. Bunun əsas səbəbi hasilatın ilbəil aşağı düşməsi ilə yanaşı, həm də neftin 2014-cü ilin ortalarında 115 dollar təşkil edən qiymətinin gözlənilmədən ilin ikinci yarısında sürətlə enməsi və 2015-ci ilin sonunda 36 dollara qədər azalaraq orta

illik qiymətin 54,3 dollar səviyyəsində formalaşması idi [64, s.29; 65, s.26; 78]. 2016-cı ildə isə neftin orta qiymətinin daha az – 41,9 dollar təşkil etməsi Fondun illik gəlirlərinin aşağı düşməsinə ciddi təsir göstərmişdir [271]. Lakin sonrakı dövrdə dünya bazarında Azərbaycan neftinin orta illik qiymətinin yüksələrək 2017-ci ildə 52,9 dollara çatması, 2018-ci ildə 55 dolları, 2019-cu ildə isə 65 dolları ötməsi ilə ARDNF-in gəlirləri, eləcə də maliyyə ehtiyatı artmağa başlamışdır [67, s.34; 68; 69].

Bununla belə, 2020-ci ildə dünyanı bürümüş koronovirus pandemiyasının iqtisadiyyata vurduğu zərbə neft sənayesindən də yan keçməmiş və nəticədə Fondun gəlirləri əvvəlki illə müqayisədə iki dəfədən çox azalmışdır. Amma belə vəziyyət çox davam etməmiş, böhranın aradan qalxması ilə durum tədricən dəyişmiş və Fondun illik gəlirləri artaraq 2023-cü ildə 13 mlrd dollara yaxınlaşmışdır.

ARDNF-ə daxil olan vəsaitlərin strukturuna nəzər saldıqda, mənfəət nefti və qazın satışından gələn gəlirlərin böyük paya malik olduğu aydın görünür. 2001-ci ildə 75% təşkil edən bu üstünlük gəlirlərin pik vaxtında – 2011-ci ildə 97,4%-ə çatmış və sonrakı illərdə də öz mövqeyini qorumuşdur.

Fondun ümumi gəlirlərinin formalaşmasında qurumun aktivlərinin idarə olunmasından qazanılan vəsaitlər müəyyən yer tutur. Əgər bu mənbədən gələn gəlirlər 2001-ci ildə bütün daxilolmaların 13%-ni təşkil edirdisə, sonrakı illərdə müxtəlif səbəblərdən asılı olaraq sabit qalmamış, məsələn, investisiya portfelinin şaxələndirilməsinə başlandığı 2012-ci ildə 4%-ə, 2015-ci ildə isə 5,6%-ə bərabər olmuşdur [49, s.28; 60, s.15; 63, s.72-73]. 2023-cü ildə bu göstərici daha yüksək həddə – 29,3%-ə çatmışdır [73, s.39]. Vəsaitlərin idarə olunmasından gələn gəlirlərin həcmi dünya maliyyə-investisiya bazarlarında hökm sürən vəziyyət, müxtəlif aparıcı ölkələrdə iqtisadi inkişaf meyilləri, inflyasiya və s. amillərlə şərtlənir.

Dövlət Neft Fondu vəsaitlərin idarə olunmasında riskləri azaltmaq və gəlirliliyi artırmaq məqsədilə investisiya portfelinin

diversifikasiyasını həyata keçirir. Beynəlxalq iqtisadi inkişaf proseslərini nəzərə alan Fond 2012-ci ildə investisiya portfelinə dəyişiklik edərək onun tərkibinə yeni maliyyə vasitələri, o cümlədən maliyyə-iqtisadi potensialı ilə seçilən ölkələrin valyutalarını daxil etdi. Həmin ildən etibarən qurumun vəsaitləri sabit gəlirli qiymətli kağızlarla yanaşı, səhmlərə, qızıl və müxtəlif ölkələrdə daşınmaz əmlaka investisiya olunmağa başladı [62, s.37].

2015-ci ilin sonuna olan məlumata görə, Fondun investisiya portfelinin əsas hissəsini, yəni 82,1%-ni sabit gəlirli qiymətli kağızlar (2017-ci ildə 60%, 2023-cü ildə 57,7%), 10,2%-ni səhmlər (2017-ci ildə 25%, 2023-cü ildə 24,3%), 4,6%-ni (2017-ci ildə 10%-ə qədər artırılıb, 2023-cü ildə 6,0%-dək azalıb) Moskva, London, Paris, Seul və Tokioda daşınmaz əmlak, 3,1%-ni isə (2017-ci ildə 5%-ə, 2023-cü ildə 12,0%-ə çatdırılıb) qızıl təşkil etmişdir. Eyni zamanda, vəsaitlərin 50,2%-i ABŞ dollarında, 38,2%-i avroda, 4,7%-i ingilis funt sterlinqində və qalan 6,9%-i isə digər valyutalarda – Rusiya rublu, Avstraliya dolları, Türkiyə lirəsi və Çin yuanında yerləşdirilmişdir (2023-cü ildə vəsaitin 63,3%-i ABŞ dolları və qızılda, 27,1%-i avroda, 7,2%-i ingilis funt sterlinqində, qalan 2,4%-i isə digər valyutalarda saxlanmışdır) [65, s.40; 67, s.52; 73, s.16; 271]. Belə bölgü seçilmiş investisiya siyasəti prinsiplərinin necə səmərəli həyata keçirildiyini aydın ifadə edir.

Neft Fonduna daxil olan gəlirlərin yığım və xərclər balansı da maraq doğuran məsələlərdən biridir. Cədvəl 4.2.1-dən göründüyü kimi, ilk illərdə ümumi gəlirlərin daha çox hissəsi yığıma yönəldilirdisə, 2003-cü ildən etibarən mühüm sosial proqramların, strateji infrastruktur layihələrinin həyata keçirilməsi və dövlət büdcəsinə köçürmələrin artması nəticəsində xərclərin səviyyəsi getdikcə yüksəlmişdir. İllik gəlirin yığıma yönəldilən hissəsinin payı sonuncu dəfə 2008-ci ildə maksimal həddə – 60,2%-ə çatmış, sonra isə tədricən azalaraq 2014-cü ildə 7,6%-ə enmişdir [63, s.30; 64, s.26]. Bu, bir tərəfdən Fondun xərclərinin 2008-ci ildə 5,8 mlrd dollardan 2014-cü ildə 12,9

mlrd dollara qədər artması, digər tərəfdən isə 2014-cü ilin ikinci yarısından neftin qiymətinin kəskin azalması ilə bağlı idi [58, s.9; 64, s.74]. Qiymət böhranının davam etməsi və neft hasilatının aşağı düşməsi 2015-ci ildə gəlir və xərclər balansına daha da mənfi təsir göstərmişdir. Belə ki, Neft Fondu 2015-ci ildə əldə etdiyi bütün gəlirlərdən əlavə (7,7 mlrd dollar), ölkənin makroiqtisadi sabitliyinin təmin olunması üçün öz ehtiyatlarından da müəyyən vəsait xərcləməli olmuşdur (cəmi 9,2 mlrd dollar) [65, s.75]. Buna görə də Cədvəl 4.2.1-dən göründüyü kimi, fəaliyyət dövrü ərzində ilk dəfə olaraq, onun valyuta ehtiyatları ilin sonuna 9,5% azalmışdır. 2016-cı ildə azalma meyli tədricən səngimiş və 1,3 % təşkil etmişdir. Həmin dövrdə bu sahədə böhran meyilləri yalnız Azərbaycanda müşahidə olunmurdu. Neft Fondunun maliyyə vəsaitlərinin azalması dünyanın başqa ölkələrində də – Norveç, Rusiya və s. özünü göstərirdi. Eyni tendensiya əvvəlki paraqrafda, neft ölkəsi kimi, Qazaxıstanın da timsalında nəzərdən keçirilmişdir.

Qeyd etmək lazımdır ki, ARDNF-in topladığı valyuta vəsaitinin azalmasında yuxarıda göstərilən iki amillə yanaşı, həm də qeyri-neft sektorunun hələ kifayət qədər inkişaf etməməsi və belə böhranlı şəraitdə dövlət büdcəsinin ehtiyaclarının əsas hissəsini ödəyə bilməməsi də müəyyən qədər rol oynamışdır. Bu isə yaranmış vəziyyətdə hökuməti sosial-iqtisadi problemlərin həlli üçün Fondun ehtiyatlarından nəzərdə tutulduğundan daha artıq istifadə etmək zərurəti ilə üzləşdirmişdir. Bununla belə, neftin qiymətinin nisbətən yüksəlməsi 2017-ci ildə yığımın 36,6%-ə çatdırılması ilə Fondun vəsaitlərinin 8% çoxalmasına, 2018-ci ildə isə gəlirin 26%-nin yığıma yönəldilməsinə və valyuta ehtiyatlarının 7,6% artmasına şərait yaratmışdır. (Bax: Cədvəl 4.2.2).

2019-cu ildə dünya neft bazarında vəziyyət daha da yaxşılaşmış, orta illik qiymət 64 dollara, Fondun yığım payı 42,9%-ə bərabər olmuşdur. Lakin 2020-ci ildə COVİD-19 pandemiyasının ağır təsiri ilə neftin qiyməti ciddi şəkildə endiyinə görə (41,2 ABŞ dolları) yığıma ayrılan vəsait də kəskin azalaraq 5,5% təşkil

etmişdir. (Hesablamalar Neft Fondu tərəfindən aparılmışdır) [69, s.17; 70, s.20].

Epidemiyanın başa çatması dünyada iqtisadi fəallığın artmasına və neft bazarında müsbət dinamikanın müşahidə olunmasına təsir göstərmişdir. Buna görə də sonrakı illərdə neft gəlirlərinin yığıma yönələn payı da tədricən yüksələrək 2023-cü ildə 55,7%-ə çatmışdır. (Bax: Cədvəl 4.2.1. Fondun 2017–2023-cü illər üzrə illik gəlirlərində büdcədənkənar daxilolmalar nəzərə alınmadığına görə yığıma ayrılan vəsaitin %-lə hesablanmasında kiçik yayınmalar mümkündür).

Dövlət Neft Fondu təsis edildikdən sonra dünya maliyyə bazarında bir neçə dəfə (2001–2003, 2008–2009-cu illərdə) böhran baş versə də, 2001–2014-cü illərdə onun ehtiyatları davamlı surətdə artmışdır. ARDNF-in illik hesabatlarında əksini tapmış rəqəmlər əsasında tərtib edilmiş Cədvəl 4.2.2-də bu dinamikanı aydın izləmək olar [51-73]:

**Cədvəl 4.2.2**

**2001–2023-cü illərdə ARDNF-də toplanmış vəsait**

| İllər | Hər ilin 31 dekabr tarixinə mlrd ABŞ dolları ilə |
|---|---|
| 2001 | 0,492 |
| 2002 | 0,692 |
| 2003 | 0,816 |
| 2004 | 0,964 |
| 2005 | 1,39 |
| 2006 | 1,45 |
| 2007 | 2,48 |
| 2008 | 11,22 |
| 2009 | 14,90 |
| 2010 | 22,77 |
| 2011 | 29,80 |
| 2012 | 34,13 |

| | |
|---|---|
| 2013 | 35,88 |
| 2014 | 37,10 |
| 2015 | 33,57 |
| 2016 | 33,15 |
| 2017 | 35,81 |
| 2018 | 38,52 |
| 2019 | 43,32 |
| 2020 | 43,56 |
| 2021 | 45,03 |
| 2022 | 49,03 |
| 2023 | 56,10 |

2001-ci ildə Fondda toplanmış vəsaitin həcmi 492 milyon dollar olduğu halda, 2005-ci ildə 1 milyard dolları ötmüş, növbəti üç il ərzində isə böyük sürətlə – səkkiz dəfə artaraq 2008-ci ildə 11,2 milyard dollara bərabər olmuşdur. Sonrakı dövrdə xərclərin ildən-ilə çoxalmasına baxmayaraq, gəlirlərin səviyyəsinin yüksək olması illik ehtiyatların 2014-cü ilədək ardıcıl artmasına imkan vermişdir. Yuxarıda qeyd edildiyi kimi, həmin ilin ortalarından neftin qiymətinin üç-dörd dəfə aşağı düşməsi və dövlət büdcəsinin formalaşmasında neft amilinin hələ böyük rol oynaması 2015-ci ildə ilk dəfə olaraq illik ehtiyatların 9,5% azalması ilə nəticələndi. Buna baxmayaraq, görülən tədbirlər bu neqativ meylin qarşısını alaraq valyuta ehtiyatlarını qorumağa şərait yaratdı. 2016-cı ildə toplanan ehtiyatların həcmi cüzi də olsa, azalaraq 33,15 mlrd dollar təşkil etmişdir. Amma 2017-ci ildə vəsaitin həcmi yenidən artaraq 35,8 mlrd dollara, 2023-cü ildə isə 56,1 mlrd dollara çatmışdır.

Qeyd etmək lazımdır ki, Neft Fondunun vəsaitləri əsasnamədə nəzərdə tutulduğu kimi, strateji əhəmiyyətli layihələrin və proqramların həyata keçirilməsi üçün istifadə olunaraq, ölkənin sosial-iqtisadi inkişafı sahəsində mühüm rol oynamışdır. 2003-cü ildən etibarən vəsaitlərin müəyyən hissəsi dövlət büdcəsinə köçürülmüşdür. Fondun özünün hesablamalarını əks

etdirən Cədvəl 4.2.3-dən göründüyü kimi, köçürülən vəsaitlərin həcmi ildən-ilə artmışdır [65, s.31-32; 67, s.40-41; 68, s.34-35; 70, s.18; 24; 71, s.36; 72, s.47; 73, s.40-41]:

**Cədvəl 4.2.3**

**2003–2023-cü illərdə dövlət büdcəsinə köçürülmüş vəsait**

| İllər | Vəsaitin məbləği mln AZN | Dövlət büdcəsinin gəlirlərində payı, %-lə |
|---|---|---|
| 2003 | 100 | 8,2 |
| 2004 | 130 | 8,6 |
| 2005 | 150 | 7,3 |
| 2006 | 585 | 15,1 |
| 2007 | 585 | 9,7 |
| 2008 | 3800 | 35,3 |
| 2009 | 4915 | 47,6 |
| 2010 | 5915 | 51,9 |
| 2011 | 9000 | 57,3 |
| 2012 | 9905 | 57,3 |
| 2013 | 11350 | 58,2 |
| 2014 | 9337 | 50,7 |
| 2015 | 8130 | 46,5 |
| 2016 | 7615 | 43,5 |
| 2017 | 6100 | 36,9 |
| 2018 | 10959 | 48,7 |
| 2019 | 11364 | 46,9 |
| 2020 | 12200 | 49,4 |
| 2021 | 11350 | 43,0 |
| 2022 | 7923 | 25,8 |
| 2023 | 11737,6 | 33,0 |
| **Cəmi:** | 143150,6 | |

2003-cü ildə dövlət büdcəsinə köçürülmüş 100 mln AZN onun gəlirlərinin 8,2%-ni təşkil edirdisə, 2013-cü ildə bu məbləğin həcmi əsaslı şəkildə artaraq 11350 mln AZN, dövlət büdcəsində payı isə 58,2% olmuşdur. Sonrakı illərdə köçürmələrin səviyyəsi aşağı düşsə də, 2020-ci ildə yenidən artaraq 12200 mln manata çatmış, büdcə gəlirlərinin təxminən yarısını təşkil etmişdir. 2023-cü ildə isə Fonddan köçürülmüş 11,7 mlrd AZN dövlət büdcəsi gəlirlərinin 33%-nə bərabər olmuşdur. Ümumilikdə 2003–2023-cü illərdə Neft Fondunun ehtiyatlarından dövlət büdcəsinə köçürülmüş 143 milyard 150,6 milyon AZN (125,1 mlrd ABŞ dolları və ya yarandığı vaxtdan Fondun büdcə xərclərinin 91,1%-i) [73, s.5] ölkənin sosial-iqtisadi inkişafı və müdafiə qabiliyyətinin gücləndirilməsi ilə bağlı məsələlərin həllinə ciddi töhfə vermişdir. Şübhəsiz, müasir tipli ordu quruculuğunda neft kapitalının payı əvəzolunmazdır. Məhz əsasən neft sərvətlərindən qazanılan vəsait hesabına yenidən qurulan qüdrətli Azərbaycan ordusu 2020-ci ildə Vətən müharibəsində qısa müddət ərzində erməni işğalçılarına sarsıdıcı zərbə vuraraq, ölkə ərazisini düşmən əsarətindən azad etdi. 2023-cü ildə isə birgünlük lokal antiterror əməliyyatı ilə Azərbaycanın bütün ərazisində dövlət suverenliyi bərpa olundu. Hazırda azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri aparılır. Bu prosesdə Neft Fondundan ayrılan vəsait mühüm rol oynayır.

Bununla yanaşı, ARDNF strateji əhəmiyyətli digər layihələrin də maliyyələşdirilməsini həyata keçirmişdir. Onun hər il çap olunmuş illik hesabatlarına hətta ötəri nəzər salınması bu sahədə ümumi mənzərəni aydınlaşdırmaq üçün kifayət edir. Belə ki, həmin materiallarda qeyd olunan məsələlərlə bağlı dəqiq rəqəmlər öz əksini geniş tapmışdır. Qurumun illik hesabatlarına daxil edilmiş son məlumatlardan istifadə olunaraq, tədqiqatın gedişində vahid formada hazırlanmış Cədvəl 4.2.4 onun 2001–2020-ci illərdə müxtəlif istiqamətlər üzrə yönəltdiyi vəsaitin istifadə dinamikasını ətraflı nəzərdən keçirməyə imkan yaradır (göstərilən proqram və layihələr 2020-ci ilədək yekunlaşmış,

sonrakı dövrdə Fond yeni layihələrin reallaşmasına dəstək vermişdir) [51-70].

**Cədvəl 4.2.4**

**Mühüm infrastruktur və sosial-iqtisadi layihələrin maliyyələşdirilməsi (mln AZN)**

| İllər | Qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması | BTC boru kəmərinin çəkilməsi | Oğuz-Qəbələ-Bakı su kəmərinin tikilməsi | Samur-Abşeron suvarma şəbəkəsinin yenidən qurulması | Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi | Gənclərin xaricdə təhsili proqramı |
|---|---|---|---|---|---|---|
| 2001 | 0,7 | - | - | - | - | - |
| 2002 | 37,8 | 48,5 | - | - | - | - |
| 2003 | 20,0 | 115,2 | - | - | - | - |
| 2004 | 15,0 | 17,8 | - | - | - | - |
| 2005 | 40,4 | 41,0 | - | - | - | - |
| 2006 | 110,0 | 75,4 | 82,8 | 37,0 | - | - |
| 2007 | 154,1 | - | 132,9 | 76,9 | 20,7 | - |
| 2008 | 145,0 | - | 211,8 | 120,5 | 5,3 | 2,3 |
| 2009 | 89,9 | - | 119,9 | 130,0 | 22,1 | 7,9 |
| 2010 | 104,9 | - | 199,6 | 131,0 | 12,4 | 9,6 |
| 2011 | 140,0 | - | 32,6 | 200,0 | 161,9 | 15,0 |
| 2012 | 300,0 | - | - | 200,0 | 119,0 | 20,0 |
| 2013 | 300,0 | - | - | 173,9 | 25,7 | 33,0 |
| 2014 | 300,0 | - | - | 80.2 | 57,1 | 33,5 |
| 2015 | 150,0 | - | - | 90,0 | 61,5 | 35,5 |
| 2016 | 90,0 | - | - | 70,0 | 66,2 | 31,6 |
| 2017 | 105,0 | - | - | 70,0 | 20,5 | 17,0 |
| 2018 | 200,0 | - | - | 90,0 | 176,1 | 7,2 |
| 2019 | 200,0 | - | - | - | - | - |
| 2020 | 200,0 | - | - | - | - | - |
| **Cəmi** | 2702,8 | 297,9 | 779,6 | 1469,5 | 748,5 | 212,6 |

Keçmiş Dağlıq Qarabağda (indiki Qarabağ iqtisadi rayonuna daxildir) baş qaldırmış radikal erməni separatizmi və Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın üzləşdiyi qaçqın və məcburi köçkün problemi ölkə üçün kəskin humanitar məsələyə çevrilmişdi. Ona görə də bu qəbildən olan sakinlərin ağır sosial-məişət vəziyyətinin yaxşılaşdırılması məqsədilə ciddi tədbirlərin görülməsi zəruri idi. Bu isə böyük maliyyə vəsaiti tələb edirdi. Neft gəlirlərinin artması ilə həmin problemlərin həllinə başlamaq imkanı yarandı. Fondun fəaliyyətə başladığı ilk ildə maliyyə vəsaiti ayırdığı yeganə layihə məhz qaçqın və məcburi köçkünlərin məskunlaşması üçün yeni qəsəbələrin tikilməsi ilə bağlı idi. Bu məqsədlə ayrılan vəsaitin həcmi ildən-ilə artırılmış, lakin son illərdə nisbətən aşağı düşərək 200 milyon manat həcmində sabitləşmişdir. Ümumiyyətlə, 2001–2020-ci illərdə göstərilən sahəyə 2 milyard 703 milyon AZN xərclənmişdir.

2002–2006-cı illərdə inşa olunmuş BTC əsas ixrac boru kəmərinin tikintisində Azərbaycanın iştirak payının maliyyələşdirilməsinə isə 297,9 mln AZN (312,6 mln dollar) yönəldilmişdir. İcrasına 2006-cı ildə başlanmış Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisinə daha çox – 779,6 mln AZN vəsait sərf olunmuşdur. Həmin ildən reallaşdırılan iri infrastruktur layihəsinin – Samur–Abşeron suvarma şəbəkəsinin yenidən qurulmasının maliyyələşdirilməsinə 2018-ci ilədək 1469,5 mln AZN maliyyə vəsaiti ayrılmışdır. Bu mühüm layihənin maliyyələşdirilməsi də başa çatmışdır.

Azərbaycanın təşəbbüsü ilə 2007-ci ildən tikintisi başlanmış strateji əhəmiyyətli Bakı–Tbilisi–Qars dəmir yolunun inşasına isə Neft Fondundan 2018-ci ilədək, yəni işlər yekunlaşanadək 748,5 mln AZN xərclənmişdir.

Cədvəl 4.2.4-dən göründüyü kimi, Fondun vəsaitlərinin istifadə istiqamətlərindən biri də "2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın xərclərinin ödənilməsindən ibarətdir. 2018-ci il də daxil olmaqla bu məqsədlə 212,6 mln AZN vəsait ayrılmışdır. Həmin

il bu layihənin də maliyyələşdirilməsi sona yetmişdir. 2020-ci ildə təhsil sahəsində yeni layihənin – “2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın həyata keçirilməsinə Fonddan 4,1 mln manat köçürülmüşdür [70, s.26]. Növbəti 3 ildə isə bu layihəyə daha 60,3 mln manat yönəldilmişdir [71, s.72; 72, s.48-49; 73, s.40].

2022-ci ildə təhsil sahəsində yeni layihənin – “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı”nın icrasına başlanıldı. İlk iki ildə Fonddan bu sahəyə 49,5 mln manat ayrılmışdır [72, s.48-49; 73, s.40].

Qeyd olunanlarla yanaşı, bir sıra digər layihələrin də icrası Neft Fondu vəsaitlərinin hesabına təmin olunmuşdur. Məsələn, “Cənub Qaz Dəhlizi” layihəsində Azərbaycanın iştirak payının maliyyələşdirilməsinə 2014–2017-ci illərdə 1530,3 mln AZN (1232,1 mln dollar) sərf edilmişdir [67, s.47].

Beləliklə, ARDNF-də toplanan maliyyə ehtiyatları sayəsində Azərbaycanın sosial-iqtisadi inkişafında mühüm yer tutan layihələrin gerçəkləşdirilməsi mümkün olmuşdur. Fondun gəlirləri ölkənin maliyyə müstəqilliyinə və sərbəst iqtisadi addımlarına əlverişli şərait yaratmışdır. Bununla da infrastrukturun sürətlə modernləşdirilməsi, yoxsulluğun azaldılması ilə bağlı zəruri tədbirlərin görülməsi, iqtisadiyyatın intellektual və texnologiya bazasının təkmilləşdirilməsinə dəstək verilməsi, xarici ölkə universitetlərinin imkanlarından da istifadə etməklə yüksəkixtisaslı kadrların hazırlanması sahəsində ciddi işlər görülmüşdür. Fondun vəsaitləri habelə ölkənin müdafiə qabiliyyətinin ardıcıl gücləndirilməsi, işğaldan azad edilmiş ərazilərin bərpası və məcburi köçkünlərin öz əzəli yurdlarında məskunlaşması üçün müvafiq proqramların icrasına yardım göstərilməsi, ümumiyyətlə, dövlətin iqtisadi potensialının artırılması istiqamətində məqsədyönlü siyasətin aparılmasında böyük rol oynamışdır.

Dövlət Neft Fondunun fəaliyyətini səciyyələndirən əsas

cəhətlərdən biri şəffaflıq və hesabatlılıq prinsiplərinə riayət olunmasına daim diqqət yetirilməsidir. Fondun illik hesabatını yoxlayan tanınmış müstəqil beynəlxalq auditor hər il müvafiq rəy verir. Əsasnaməyə uyğun olaraq, ARDNF-in gəlir və xərcləri, həyata keçirdiyi layihələr, fəaliyyətinin başqa istiqamətləri barədə məlumatlar, o cümlədən illik hesabatlar özünün internet səhifəsində və mətbuatda müntəzəm surətdə dərc olunur.

Bu prinsipləri rəhbər tutan Azərbaycan hökuməti 2003-cü ildə beynəlxalq xarakter daşıyan Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünə (MHŞT) qoşuldu. MHŞT hökumətlər, şirkətlər, sərmayəçilər və vətəndaş cəmiyyəti qurumlarının könüllülük əsasında birləşdiyi koalisiyadır. Azərbaycanın bu quruma üzvlüyünə dair qərarı 2003-cü ilin iyun ayında Londonda keçirilmiş MHŞT-nin beynəlxalq konfransında iştirak edən SOCAR-ın birinci vitse-prezidenti İlham Əliyev tərəfindən elan olunmuşdur. Məhz bunun ardınca Azərbaycan Respublikası Nazirlər Kabineti 2003-cü il noyabrın 13-də MHŞT üzrə Komissiya yaradılması haqqında Sərəncam verdi [53, s.43-44]. Bununla da hökumət şəffaflıq təşəbbüsünün həyata keçirilməsi istiqamətində mühüm addım atdı.

2004-cü ildə hökumətin MHŞT üzrə Komissiyası ilə ölkədə fəaliyyət göstərən yerli və xarici neft şirkətləri, vətəndaş cəmiyyəti təşkilatlarının təsis etdiyi Mədən Sənayesində Şəffaflığın Artırılması (MSŞA) Koalisiyası arasında Azərbaycanda MHŞT-nin tətbiq olunması haqqında Qarşılıqlı Anlaşma Memorandumu imzalandı [54, s.43]. Qısa müddət ərzində ölkənin hasilat sənayesindəki bütün şirkətlər bu təşəbbüsə qoşuldu.

Azərbaycan MHŞT üzrə götürdüyü öhdəlikləri ardıcıl yerinə yetirərək təşəbbüsün tətbiqi sahəsində qabaqcıl mövqe qazandı. Görülmüş işlərin nəticəsi olaraq, 2007-ci ildə ARDNF "Dövlət xidmətində şəffaflığın, cavabdehliyin və məsuliyyətin artırılması" üzrə BMT-nin Dövlət Qulluğu mükafatına layiq bilindi [57, s.50].

Bu sahədəki fəaliyyətini təkmilləşdirən Azərbaycan iki il sonra daha bir uğura nail oldu. Belə ki, MHŞT Beynəlxalq İdarə

Heyəti Azərbaycanın həyata keçirdiyi tədbirlərin şəffaflıq təşəbbüsünün prinsip və meyarlarına tam uyğun gəldiyini təsdiq edərək 2009-cu ildə ölkəyə MHŞT-nin tamhüquqlu üzvü statusu verdi. Qeyd etmək lazımdır ki, Azərbaycan 26 namizəd arasında bu statusu qazanmış ilk ölkə idi [59, s.42].

Öhdəliklərinə sadiq qalan Azərbaycan uzun müddət beynəlxalq təşəbbüs çərçivəsində aparıcı mövqeyini qoruyub saxladı. Lakin qeyri-hökumət təşkilatlarının fəaliyyətini tənzimləyən qanunvericiliyə edilmiş dəyişikliklərin qiymətləndirilməsində bəzi vətəndaş cəmiyyəti qurumlarının ziddiyyətli yanaşmaları ölkənin MHŞT-də qazandığı mövqeləri zəiflətdi. Buna görə də 2015-ci ildə Azərbaycan "tamhüquqlu üzv" statusundan "namizəd ölkə" statusuna keçirildi [65, s.16].

Buna baxmayaraq, status dəyişikliyi Dövlət Neft Fondunun beynəlxalq təşəbbüslə bağlı prinsiplərdən geri çəkilməsi demək deyildi. ARDNF yenə də eyni standart və meyarlar əsasında fəaliyyətini davam etdirirdi. Lakin bəzi siyasi dairələrin MHŞT platformasından Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etmək cəhdləri getdikcə güclənirdi. Bu, özünü MHŞT Beynəlxalq İdarə Heyətinin 2017-ci il martın 8-9-da Kolumbiyanın Boqota şəhərində keçirilmiş növbəti iclasında daha qabarıq göstərdi. Bir sıra xarici və yerli QHT-lərin səyi nəticəsində Tacikistan, Qırğızıstan, Solomon adaları ilə yanaşı, Azərbaycanın da MHŞT-dəki üzvlüyünün dayandırılması haqqında qərar qəbul edildi. Təşəbbüsün tətbiqi üçün daim zəruri addımlar atan Azərbaycan MHŞT-nin "*öz ilkin mandatından – hasilat sənayesində şəffaflığın və hesabatlılığın təmin edilməsi istiqamətindən xeyli uzaqlaşdığını*" əsas götürərək və bu qərara etiraz olaraq onun sıralarını dərhal rəsmi şəkildə tərk etdiyini bildirdi [280].

Azərbaycan MHŞT-dən çıxsa da, şəffaflıq prinsiplərinə bundan sonra da riayət edərək, hasilat sənayesindəki gəlirlərə dair bütün məlumatları yenə də davamlı surətdə açıqlayacağını bəyan etdi. Təsadüfi deyil ki, beynəlxalq şəffaflıq reytinqini tərtib edən Milli Rifah Fondları İnstitutunun Linaburq-Maduel

şəffaflıq indeksinə görə, ARDNF ən yüksək balla (10) Norveç, Alyaska və Çili fondları ilə birlikdə ilk qrupa daxil olmuşdur [434, s. 382, 386; 498, s.43-45].

Beləliklə, Dövlət Neft Fondunun təsis edilməsi ilə bağlı qərarın qəbulu neft strategiyasının həyata keçirilməsində obyektiv zərurətdən doğan, sosial-iqtisadi və siyasi amillərin tələblərinə uyğun strateji əhəmiyyətli addım kimi qiymətləndirilməlidir. Ermənistanın hərbi təcavüzü nəticəsində müharibə şəraitində yaşayan Azərbaycan Neft Fonduna iqtisadiyyatın gücləndirilməsi, sosial rifahın yaxşılaşdırılması, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi və yüksək döyüş bacarığına malik ordunun yaradılması kimi ciddi problemlərin həllinə yol açan vasitələrdən biri olaraq baxırdı.

Tədqiqatın nəticələrinə əsasən demək olar ki, vaxtında təsis olunmuş, müasir dövrün çağırışlarını və gələcək nəsillərin mənafelərini uzlaşdıran ARDNF qarşıya qoyulmuş vəzifələri yerinə yetirərək, səmərəli institut kimi formalaşıb inkişaf etdi. Fondda toplanmış maliyyə ehtiyatları, gəlirlərin beynəlxalq təcrübəyə əsaslanan idarəçilik mexanizmləri ölkənin makroiqtisadi sabitliyinin qorunması və sosial-iqtisadi inkişafı sahəsində mühüm vəzifələrin həllinə əvəzsiz töhfə verdi. Onun sayəsində dövlət büdcəsinin imkanları artdı, ölkədə strateji xarakterli infrastruktur layihələri, vacib sosial proqramlar həyata keçirildi, hərbi quruculuq sürətləndi və gələcək üçün zəruri olan valyuta ehtiyatı yığıldı [250].

Qeyd edilməlidir ki, ölkənin neft-qaz resurslarından, onlardan əldə olunan gəlirlərdən bu gün iqtisadiyyatın inkişafı və dövlətin möhkəmləndirilməsi naminə səmərəli istifadə edilməsi özünü doğruldan zəruri addımdır. Azərbaycanın müasir dövrdə üzləşdiyi siyasi, iqtisadi və hərbi problemlər hələ ki, neft gəlirlərinin çox hissəsinin sərf olunmasını şərtləndirmişdir. Çünki əks halda müstəqil dövlətçilik riskə məruz qalardı. Gələcək nəsillər üçün yalnız valyuta ehtiyatı deyil, daha vacib olaraq, güclü dövlət miras qalmalıdır. Ona görə də indiki mərhələdə

dayanıqlı iqtisadiyyatın və müstəqilliyin təmin olunması daha mühüm əhəmiyyət daşıyır. Neft Fondu məhz bu missiyanın yerinə yetirilməsinə xidmət edir.

Nəhayət, onu da vurğulamaq lazımdır ki, bu əsərdə Dövlət Neft Fondunun fəaliyyətinə öyrənilən problemin yalnız bir aspekti kimi ümumi şəkildə nəzər salınmışdır. Bu məsələ Azərbaycanın neft strategiyasının uğurlu nəticələrini göstərən ciddi arqumentlərdən biri olduğu üçün maraq kəsb etmişdir. Bununla belə, çoxşaxəli, geniş, olduqca vacib və aktual olan bu mövzu gələcəkdə müstəqil tədqiqat obyekti olaraq hərtərəfli araşdırılmalıdır.

# NƏTİCƏ

Neft hasilatı və emalı Azərbaycan iqtisadiyyatında tarixən mühüm yer tutmuşdur. XIX əsrin son rübündən etibarən dinamik yenilənməyə məruz qalan neft sənayesi ölkənin sosial-iqtisadi həyatının əsas inkişaf meyillərinin formalaşmasında böyük rol oynamış, hətta ictimai-siyasi və mədəni proseslərin gedişinə dolayısı ilə öz təsirini göstərmişdir. Müstəqillik əldə etdikdən sonra da Azərbaycanın yeni dövrünün inkişaf perspektivlərinin müəyyən olunmasında neft amili ön plana çıxmışdır.

Məlumdur ki, nəhəng Sovet İttifaqının süqutu ilə nəticələnən dərin sosial-iqtisadi və kəskin ictimai-siyasi böhran ölkə həyatının bütün sahələrinin, o cümlədən neft sənayesinin tənəzzülə uğramasına səbəb olmuşdu. Materialların tədqiqi göstərir ki, 1980-ci illərin sonu–90-cı illərin əvvəllərində planlı təsərrüfat sisteminin sürətlə dağılması, kəskin maliyyə çatışmazlığı və müasir dünya standartlarından texniki geriliyin durmadan artması Azərbaycanın da neft-qaz sənayesinə ciddi zərbə vurmuşdu. Müstəqilliyinə yenicə qovuşmuş dövlət ildən-ilə azalan hasilatın sabitləşdirilməsi və aparıcı sənaye sahəsinin dirçəldilməsi üçün lazımi maliyyə vəsaitinə malik deyildi. Bu isə sözügedən sahəyə yatırılması məqsədilə əlavə kapital mənbələrinin axtarışını şərtləndirirdi. O zaman nəzərlər yalnız xarici kompaniyalara dikilmişdi. Belə ki, uzun dövr ərzində strateji yanacaq-enerji mənbəyi kimi mühüm rol oynamış Abşeron və Xəzər hövzəsinin neft yataqları hələ Sovet İttifaqının böhranlı illərində dərhal Qərbin fövqəlmilli şirkətlərinin maraq dairəsinə düşmüşdü. Xəzər neftinə xüsusi diqqət yetirən “BP”, “Amoko”, “Statoyl”, “Yunokal” və s. şirkətlərlə əməkdaşlığa böyük səy göstərən Azərbaycan rəhbərliyi isə zəruri maliyyə vəsaiti və müasir texnologiyalar cəlb etməklə, bu sahənin yenidən qurulmasına və böhranın aradan qaldırılmasına ümid bəsləyirdi.

Araşdırmadan göründüyü kimi, Azərbaycanda vaxtaşırı baş verən siyasi hakimiyyət dəyişiklikləri və ölkənin milli maraqlarından doğan strateji vəzifələr xarici şirkətlərlə hələ 1990–91-ci ildən başlanmış danışıqlar prosesinin uzanmasına və bir neçə mərhələdən (1990/91–1992-ci il mart, 1992-ci il iyul–1993-cü il iyun, 1993-cü il iyun–noyabr, 1994-cü il fevral–iyul, 1994-cü il iyul–sentyabr) keçməsinə səbəb oldu. Danışıqların ilkin nəticələrinə görə, hələ 1991-ci ilin yanvar ayında Sovet İttifaqının Neft və Qaz Sənayesi Nazirliyi və Azərbaycan SSR Nazirlər Sovetinin birgə qərarı ilə tender elan edilsə də, həmin ilin sonlarından Azərbaycan Respublikası bu dialoqu müstəqil dövlət kimi aparırdı. Lakin 1992-ci ildə ölkədəki siyasi hakimiyyət dəyişikliyi işləri yekunlaşdırmağa imkan vermədi.

1992-ci ilin iyul ayından başlanmış ikinci mərhələ bir il davam etdi. Bununla belə, 1993-cü ilin iyununda xarici neft şirkətləri ilə müqavilənin imzalanmasına hazırlıq görüldüyü vaxt Azərbaycanda növbəti siyasi böhrandan sonra hakimiyyətə gələrək, ölkəni vətəndaş müharibəsi təhlükəsindən xilas edən Heydər Əliyev danışıqların dayandırılması və müqavilə şərtlərinin yenidən öyrənilməsinə dair qərar verdiyini bildirdi. Məqsəd Azərbaycanın həm iqtisadi, həm də siyasi maraqlarının daha dolğun təmin edilməsinə nail olmaq idi.

Nəhayət, danışıqlar tezliklə bərpa olundu. Amma Azərbaycanın mənafeləri ilə bağlı mövqeyini açıq ifadə edən Prezident Heydər Əliyev müstəqil beynəlxalq ekspertlər tərəfindən hazırlanmış yeni müqavilə layihəsinin 1993-cü il noyabr (London) variantını da məqbul saymadı. Beləliklə, danışıqların növbəti mərhələsi də müsbət nəticəyə nail olmadan başa çatdı.

Xarici neft şirkətləri ilə müzakirələr yenidən SOCAR mütəxəssislərinin təklifləri əsasında hazırlanmış prinsiplərin qəbul olunmasından sonra – 1994-cü ilin fevral ayında başladı. İyul ayına qədər davam edən İstanbul mərhələsi əsas prinsiplər üzrə razılığın əldə edilməsi ilə yekunlaşdı.

Mövzunun tədqiqi göstərir ki, İstanbulda razılaşdırılmış

kommersiya şərtləri bir sıra cəhətlərinə görə müqavilənin əvvəlki variantlarından fərqlənirdi. Əvvəla, tərəflərin real gəliri ilkin layihələrdəki kimi, maliyyə baxımından yox, iştirakçılara çatacaq faktiki neftin həcmi ilə ölçülürdü. Bu isə 30 illik dövrdə inflyasiyanın təsirini minimuma endirirdi. Digər tərəfdən, gəlir neftinin bölüşdürülmə qrafikində də Azərbaycanın maraqlarına uyğun dəyişikliklər edilmişdi. Səmt qazının ölkəmizə pulsuz verilməsi və bir sıra başqa yeniliklər də Azərbaycanın iqtisadi və siyasi mənafelərini nəzərə alırdı.

Müqavilənin hazırlanması ilə bağlı danışıqların axırıncı mərhələsi 1994-cü ilin iyul-sentyabr aylarında ABŞ-ın Hyuston şəhərində keçirildi. Burada müqavilənin yekun mətni hazırlandı. Müzakirələrin gedişində Azərbaycan Xəzərin hüquqi statusu ilə bağlı geosiyasi təzyiqlərin dəf edilməsinə nail oldu. Bu məsələdə ABŞ hökumətinin siyasi dəstəyi mühüm rol oynadı. Bununla da xarici şirkətlərlə Azərbaycanın ortaq maraqlarını ifadə edən işlək mexanizmə əsaslanan müqavilə layihəsinin hazırlanması başa çatdı. Qeyd edilməlidir ki, sonrakı dövrdə Xəzərin hüquqi statusu məsələsinin açıq qaldığı şəraitdə müqavilənin durmadan həyata keçirilməsində ABŞ və Böyük Britaniya kimi dövlətlərin qəti və aydın siyasi mövqe nümayiş etdirməsi ciddi amil oldu.

1994-cü ilin sentyabr ayının 20-də imzalanmış və beynəlxalq arenada "Əsrin müqaviləsi" kimi tanınmış saziş Azərbaycan iqtisadiyyatına irihəcmli investisiya və müasir texnologiyaların gətirilməsi, habelə iştirakçıların təmsil olunduğu geniş coğrafi məkan baxımından diqqəti cəlb edir. Altı xarici ölkəni – ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanını təmsil edən on nəhəng şirkətlə əməkdaşlıq Azərbaycanın strateji seçiminin təzahürü olub, onun beynəlxalq mövqelərinin də möhkəmlənməsinə xidmət etməli idi. Sonrakı illərdə bu sıraya başqa ölkələrin şirkətləri də qoşuldu. Hazırda müqavilədə həm Qərbin, həm də Şərqin aparıcı ölkələri təmsil olunur.

Tədqiqatdan bir daha aydın olur ki, Azərbaycan üçün taleyüklü sazişin hazırlanmasında, onun iqtisadi və geosiyasi maraqlarının təmin olunmasında o zaman ölkənin Prezidenti kimi Heydər Əliyevin ardıcıl siyasəti və qətiyyətli mövqeyi mühüm rol oynadı. "Əsrin müqaviləsi"nin imzalanmasına doğru *"dar cığırla addımlayan Heydər Əliyev.... həmin cığırla da Azərbaycanı böyük yola çıxardı"* [478, s.319].

Saziş həm də Azərbaycan Respublikasının müstəqil dövlət kimi siyasi xəttini həyata keçirmək qətiyyətini nümayiş etdirməklə yanaşı, dünya birliyi ilə sıx əlaqələr yaratmaq niyyətini də açıq göstərdi.

Tədqiqat təsdiq edir ki, "Əsrin müqaviləsi"nin imzalanması hərtərəfli ölçülüb-biçilmiş və vaxtında qəbul edilmiş tarixi qərar olmuşdur. Bu müqavilədən sonra xarici şirkətlərin Azərbaycanın Xəzər dənizi sektorundakı perspektivli neft-qaz strukturlarına marağı daha da artdı. Bununla da milli neft strategiyasının formalaşması və inkişafı prosesi vüsət aldı.

Araşdırmanın nəticələrinə əsasən demək olar ki, imzalanmış müqavilələrin kapitaltutumluluğu, nəhəng xarici şirkətlərin sayının getdikcə artması, təmsilçilərin coğrafi miqyasının genişlənməsi, SOCAR-ın müqavilələrdəki iştirak payının ardıcıl böyüməsi və s. neft strategiyasının əsas səciyyəvi cəhətlərini qabarıq büruzə verir. İlk növbədə qeyd edilməlidir ki, neft sazişləri coğrafi dairəsinə görə, Qərbin aparıcı ölkələrindən – ABŞ, Kanada, Böyük Britaniya, Fransa, Norveçdən başlamış Şərqin nüfuzlu dövlətlərinə – Səudiyyə Ərəbistanı, Çin, Yaponiya, Malayziyayadək geniş və mühüm geosiyasi çəkiyə malik bölgələri əhatə edirdi. Bununla yanaşı, Xəzər regionunda tarixən güclü strateji maraqları olan Rusiya, Türkiyə və İran kimi qonşu dövlətlərin neft-qaz müqavilələrində iştirakı bu sazişlərin həm iqtisadi, həm də geosiyasi xarakter daşıdığını, Azərbaycanın da məhz həmin maraqları tarazlaşdırmaq və öz mənafelərini qorumaq üçün ciddi səylər göstərdiyini təsdiqləyir.

Neft strategiyasını səciyyələndirən digər cəhət bundan

ibarət idi ki, müqavilələrin əsas iştirakçıları sırasında dünyanın tanınmış fövqəlmilli şirkətləri öncül mövqe tuturdu. Bu isə sazişlər üzrə böyük sərmayə qoyuluşuna və qabaqcıl texnologiyaların ölkənin yanacaq-enerji sektorunda tətbiqinə əlverişli yol açırdı.

Neft strategiyasının ardıcıl həyata keçirilməsi həm də Azərbaycanın beynəlxalq siyasi mövqelərinin güclənməsində mühüm rol oynadı. Dünyanın və regionun aparıcı dövlətlərinin, həmçinin böyük potensiala malik fövqəlmilli şirkətlərin Azərbaycanda karbohidrogen ehtiyatlarının birgə işlənməsində fəal iştirakı əməkdaşlıq yolunda əngələ çevrilmiş Xəzər dənizinin hüquqi statusu məsələsinin həlli sahəsində qarşılıqlı anlaşmanın əldə olunmasında ilk addımların atılmasına təkan verdi. Nəhayət, uzunsürən müzakirələrdən sonra Xəzəryanı dövlətlər Azərbaycanın ardıcıl müdafiə etdiyi prinsipə əsaslanan dəniz dibinin sektorlar bölgüsünə dair razılığa gəldilər. 2000–2003-cü illərdə Azərbaycan, Rusiya və Qazaxıstan öz aralarında müvafiq ikitərəfli sazişlər imzaladılar. Bundan sonra aparılan intensiv danışıqlara baxmayaraq, yalnız 2018-ci ildə Xəzər dənizinin hüquqi statusunu müəyyən edən Konvensiyanın imzalanması mümkün oldu. Bununla belə, Türkmənistan və İranla ölkələrə məxsus sektorların koordinatlarının müəyyənləşdirilməsi ilə bağlı danışıqlar hələ də davam etdirilir.

Eyni zamanda, Azərbaycan kimi, xarici ölkələr də neft-qaz müqavilələrinin iqtisadi əhəmiyyəti ilə yanaşı, siyasi əlaqələrin möhkəmlənməsindəki roluna mühüm əhəmiyyət verirdilər. Bir sıra ölkə prezidentlərinin və hökumət başçılarının (ABŞ, Rusiya, Fransa, Türkiyə və s.) müəyyən iri şirkətlərin neft-qaz sazişlərinə cəlb olunmasına xüsusi diqqət yetirməsi və sənədlərin imzalanması mərasimində iştirak etməsi Azərbaycanın həmin ölkələrlə siyasi-iqtisadi münasibətlərinin inkişafına daha əlverişli zəmin yaradırdı. Yəni bu sahədə həyata keçirilən kurs ölkənin siyasi, sosial-iqtisadi və geostrateji maraqlarının əks olunduğu sistemli yanaşmanın təzahürü kimi qiymətləndirilə

bilər. Məhz həm də bu müstəvidə yürüdülən siyasi xətt Azərbaycanın beynəlxalq nüfuzunun artmasına və xarici mövqelərinin möhkəmlənməsinə, Ermənistanın işğalçılıq siyasətinin ifşa olunmasına rəvac verdi. Bu isə nəticə etibarilə 44 günlük Vətən müharibəsi gedişində işğalçılara qarşı aparılan hərbi əməliyyatlara dünya dövlətlərinin əsasən anlaşıqlı yanaşaraq obyektiv mövqe tutmalarına və müharibə yekunlarını beynəlxalq hüquq normalarına uyğun hal kimi qəbul etmələrinə səbəb oldu [505].

"Əsrin müqaviləsi"nin uğurla yerinə yetirilməsi Azərbaycan hökumətinin prioritet vəzifələrindən biri olaraq müəyyənləşdirilmişdi. Konsorsium öz işini konkret plan əsasında həyata keçirməli idi. Məcburi işlərin minimum proqramı və ilkin neft layihəsi, "Faza-1", "Faza-2" və "Faza-3" layihələri çərçivəsində görüləcək tədbirlərin tərtib olunmuş qrafikə uyğun aparılması nəzərdə tutulurdu. Məsələnin öyrənilməsi göstərir ki, Azərbaycan Prezidenti Heydər Əliyev (1993–2003) müqavilənin vaxtında və ardıcıl reallaşdırılması məqsədilə prosesi xüsusi nəzarətdə saxlayır və mütəmadi olaraq görüşlər keçirir, hesabatlar alırdı. Ciddi Prezident nəzarəti konsorsiumun fəaliyyətinin düzgün qurulmasına, ləngimələrin qarşısının vaxtında alınması üçün səmərəli texniki-təşkilati tədbirlərin görülməsinə və operativ siyasi qərarların qəbul olunmasına imkan verirdi.

ABƏŞ ilə "Əsrin müqaviləsi" çərçivəsində qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinin qorunması 2003-cü ildən ölkəyə rəhbərlik etməyə başlayan Prezident İlham Əliyevin də siyasi xəttinin vacib istiqamətlərindən birini təşkil etmişdir. Məhz belə əsasda davam etdirilən əməkdaşlıq layihənin tammiqyaslı işlənməsi üzrə bütün mərhələlərin ardıcıl surətdə uğurlu icrasına əlverişli şərait yaratdı. Eyni zamanda, 2009-cu ildən etibarən müqavilə üzrə hasilatın azalması meyillərinin özünü göstərməsi ilə əlaqədar Prezident İlham Əliyevin kəskin tənqidi fikirləri konsorsiumun operatoru "BP" şirkətini neft hasilatını sabitləşdirmək üçün lazımi tədbirlərin görülməsinə sövq etdi.

"Əsrin müqaviləsi"nin proqnozlaşdırılan pik vaxtı artıq

geridə qalıb. Sonrakı illərdə hasilatın tədricən azalması labüddür. Bununla belə, həyata keçirilən səmərəli əməkdaşlıq həm Azərbaycanın, həm də tərəfdaş şirkətlərin mənafeyinə cavab verir. Təsadüfi deyil ki, ötən illər ərzində qarşılıqlı anlaşma və ortaq maraqların təmin olunması şəraitində davam edən işbirliyi 2017-ci il sentyabrın 14-də "Əsrin müqaviləsi"nin müddətinin 2050-ci ilədək uzadılmasını şərtləndirdi. 2018-ci ildə isə "BP" və "Equinor" ("Statoyl") şirkətləri ilə daha üç müqavilə imzalandı. Bu isə Azərbaycanın hələ zəngin karbohidrogen ehtiyatlarına malik olduğunu və dünyanın aparıcı neft şirkətlərinin SOCAR-la uzunmüddətli əməkdaşlığı davam etdirməyə böyük maraq göstərdiyini təsdiqləyir. "Şahdəniz", "Abşeron" və başqa yataqların istismarı üzrə aparılan işlər də genişlənir. Bəzi müqavilələrin gözlənilən nəticələri vermədiyinə görə qüvvədən düşməsinə baxmayaraq, ümumən, imzalanmış bütün sazişlər neft-qaz sənayesinin inkişafında dərin iz qoymuşdur. Belə ki, layihələrin həyata keçirildiyi dövrdə bu sahəyə xarici sərmayə qoyuluşu dinamik şəkildə artmışdır. 1995-ci ildən etibarən neft-qaz sənayesinə yönəldilmiş xarici investisiyaların həm mütləq həcmi, həm də iqtisadiyyata yatırılmış xarici kapitalda xüsusi çəkisi ildən-ilə yüksəlmişdir [231, s.96-99].

Müqavilələr çərçivəsində 60 milyard dollara yaxın kapital yatırımının gözlənilməsi yalnız neft-qaz sənayesinin deyil, habelə iqtisadiyyatın digər sahələrinin inkişafını stimullaşdıracağı və sosial problemlərin həllinə təsir göstərəcəyi hələ o zaman ekspertlər tərəfindən xüsusi vurğulanırdı. Tədqiqatın yekunları bu proqnozların özünü artıqlaması ilə doğrultduğunu əminliklə qeyd etməyə əsas verir. Statistik məlumatlar göstərir ki, "BP" öz tərəfdaşları ilə Azərbaycanda həyata keçirdiyi layihələrə 2018-ci ilədək 72 milyard dollardan artıq sərmayə yönəltmişdir [144]. Bir ildən sonra isə həmin rəqəm, yuxarıda vurğulandığı kimi, 85 milyard dollara çatmışdır. Bu isə ilkin gözləntiləri ciddi şəkildə üstələyir və 2020-ci ilədək ölkənin neft-qaz sənayesinə yatırılmış ümumi kapitalın (106 milyard

dollar) 80,2 faizini təşkil edir. Beləliklə, xarici kapitalın mütləq həcmini və xüsusi çəkisini göstərən həmin rəqəmlər onun Azərbaycan neft-qaz sektorunun inkişafında nə qədər böyük rol oynadığını əyani şəkildə nümayiş etdirir.

Aparılmış tədqiqat belə qənaəti möhkəmləndirir ki, irihəcmli investisiyanın cəlb olunması müasir qazma qurğularının tikilməsinə, yeni texnologiyalara əsaslanan neft infrastrukturunun, o cümlədən şaxələndirilmiş ixrac boru kəmərləri sisteminin qurulmasına imkan yaratdı. Eləcə də qeyd edilməlidir ki, ixrac marşrutlarının seçilməsi və boru kəmərlərinin inşası regionda geosiyasi maraqları toqquşan müxtəlif dövlətlərin gərgin siyasi mübarizəsi şəraitində gerçəkləşdirilmişdir. Belə vəziyyətdə xarici şirkətlərlə birgə iqtisadi amilləri əsas götürən Azərbaycan özünün siyasi mənafelərini də nəzərə almalı və Cənubi Qafqazda kəsişən geosiyasi maraqlarla uzlaşdırmalı idi. Buna görə də ilkin neftin nəqli üçün Rusiya və Gürcüstan əraziləri ilə Qara dənizə çıxan Şimal və Qərb marşrutları seçildi. Yüksək tranzit tarifinə və neftin aşağı keyfiyyətinə görə Şimal marşrutu iqtisadi cəhətdən uduzsa da, Rusiya ilə iqtisadi-siyasi münasibətlərin inkişafı və geosiyasi tarazlığın qorunması naminə Azərbaycan hər iki marşrutdan istifadə olunmasına üstünlük verdi. Zaman göstərdi ki, bu, ölkənin mənafelərinə cavab verən doğru seçim idi.

Bakı–Supsa boru kəmərinin istismara verilməsi keyfiyyətli Azərbaycan neftinin təmiz şəkildə “Azeri Light” markası ilə bilavasitə beynəlxalq bazarlara çıxarılmasına zəmin yaratdı. Qərb kəməri həm də Gürcüstanla əlaqələrin möhkəmlənməsinə, regional əməkdaşlığın güclənməsinə, Şərq-Qərb nəqliyyat-tranzit dəhlizinin inkişafına əsaslı təkan verdi. Belə nəticəyə gəlmək olar ki, Bakı–Supsa boru kəməri iqtisadi, texniki, ekoloji, təhlükəsizlik və s. cəhətdən sınaqdan keçməklə, yaxın perspektivdə daha böyükhəcmli neftin Xəzər regionundan nəqli məqsədilə tikilən BTC Əsas ixrac boru kəmərinin layihələndirilməsi və istismar olunması ilə bağlı məsələlərin həllində nümunəvi model rolunu oynadı.

Araşdırma həm də əyani şəkildə göstərir ki, ixrac boru kəməri sisteminin şaxələndirilməsində və Azərbaycan neftinin beynəlxalq bazarlara daha etibarlı şəkildə çatdırılmasında böyük əhəmiyyətə malik BTC marşrutu layihəsinin reallaşdırılması ciddi iqtisadi, geosiyasi, texniki və maliyyə problemlərinin aradan qaldırılması ilə müşayiət olundu. Region dövlətləri arasında boru kəmərinə sahib olmaq uğrunda gedən gərgin mübarizənin dünyada neftin qiymətinin aşağı düşməsi ilə çulğalaşması Azərbaycanı bu ideyanın həyata keçirilməsində böyük çətinliklərlə üz-üzə qoyurdu. Çünki belə şəraitdə boru kəmərinin iqtisadi səmərəliliyini şübhə altına alan xarici şirkətlər layihənin yerinə yetirilməsinə maraq göstərmirdi. Lakin "Əsrin müqaviləsi"ndə əsas ixrac boru kəmərinə dair əksini tapmış bəndin həyata keçirilməsi sahəsində qətiyyətli mövqeyi və məqsədyönlü fəaliyyəti ilə Prezident Heydər Əliyev maliyyə problemlərini qabardan xarici şirkət rəhbərlərinin və geosiyasi mübarizə aktorlarının müqavimətini qırmağa,ləngiməyə baxmayaraq, boru kəmərinin məhz Türkiyənin Ceyhan limanına çəkilməsi ilə bağlı qərarın qəbul edilməsinə və əməli işlərin başlanmasına nail oldu.

Sonrakı dövrdə bu xətti ardıcıl davam etdirən Prezident İlham Əliyevin səyləri sayəsində BTC Azərbaycanın iqtisadi-siyasi mənafeləri ilə xarici tərəfdaşlarının maliyyə maraqlarının uzlaşdırılmasının təzahürü kimi gerçəkləşdi. Mərkəzi Asiya ölkələrinin karbohidrogen ehtiyatlarının daşınmasında əlverişli tranzit imkanına malik BTC bütün regionun enerji-nəqliyyat sisteminin yeni nizamının formalaşmasında həlledici rol oynadı. Boru kəmərinin səmərəli fəaliyyəti Azərbaycanın sosial-iqtisadi inkişafında, siyasi sabitliyin və strateji təhlükəsizliyin təmin olunmasında mühüm yer tutur. Bu baxımdan layihənin gerçəkləşməsi Azərbaycanın geoiqtisadi və geosiyasi maraqlarının möhkəmlənməsi üçün böyük əhəmiyyət kəsb edir.

Göründüyü kimi, məhz "Əsrin müqaviləsi"ndən başlanan yol Xəzər dənizindəki zəngin karbohidrogen ehtiyatlarının istismarı sahəsində Azərbaycan ilə xarici şirkətlər arasında qarşılıqlı

faydalı və sistemli əməkdaşlığın təməl daşını qoydu. Ondan sonra bağlanmış müqavilələr əsasında inkişaf etdirilən bu uğurlu tərəfdaşlıq isə yeni konseptual ideyaların, o cümlədən böyük potensiala malik "Şahdəniz-2", TANAP və TAP layihələrinin yaranmasına gətirib çıxardı. Belə ki, "Şahdəniz" qaz yatağında hasilatın başlanması, habelə Bakı–Tbilisi–Ərzurum marşrutu üzrə boru kəmərinin istismara verilməsi ilə Azərbaycan Respublikası həm də təbii qaz ixrac edən ölkələr sırasına qoşuldu. Bununla Azərbaycan nəinki özünün, həm də Gürcüstan və Türkiyənin enerji təhlükəsizliyinin möhkəmlənməsinə, regional əməkdaşlığın dərinləşməsinə sanballı töhfə verdi.

O zamandan Azərbaycan artıq regionda yalnız neft ixracında deyil, eləcə də qaz təchizatında alternativ mənbə kimi nəzərdən keçirilirdi. Bunun nəticəsi olaraq Avropa ölkələrinin təşəbbüsü ilə meydana çıxmış "Nabukko" layihəsinin əsas tərəfdaşları sırasında ona da mühüm yer ayrılırdı. Layihəni dəstəkləyən Azərbaycan öz mənafelərini qorumaq şərtilə qarşılıqlı maraqlar əsasında bu təşəbbüsdə iştirak etməyin tərəfdarı idi. Lakin tədqiqatdan aydın olur ki, Qərb dövlətlərinin qeyri-ardıcıllığı, layihənin maliyyə və lazımi yanacaq mənbələri ilə təmin olunmasında uğursuz cəhdləri, Türkiyənin tranzit ölkə kimi ağır şərtlər irəli sürməsi "Nabukko"nun gerçəkləşməsinə imkan vermədi.

Mövzunun dərindən öyrənilməsi həmin şəraitdə yeni reallıqların yaranmasında Azərbaycanın fəal və səmərəli rol oynadığını göstərir. Belə ki, Azərbaycan özünün iqtisadi və geosiyasi maraqlarını qətiyyətlə qoruyaraq, 2011–2012-ci illərdə Türkiyə ilə əməkdaşlıq çərçivəsində yeni təşəbbüslə çıxış etdi. TANAP layihəsi ilə bağlı razılığa gələn iki ölkə üç ildən sonra – 2015-ci ildə onun tikintisinə başladı. Bu marşrutla nəql olunan "Şahdəniz" qazının Cənubi Avropaya çatdırılmasının TAP boru kəməri vasitəsilə həyata keçirilməsi qərara alındı.

Beləliklə, Rusiya ilə Qərb ölkələri arasında davam edən gərgin geosiyasi mübarizədə Avropa İttifaqı və ABŞ-ın ardıcıl

şəkildə dəstəklədiyi yeni layihə – “Cənub Qaz Dəhlizi” formalaşmağa başladı. “Nabukko” layihəsi birdəfəlik gündəlikdən çıxdı. “Şahdəniz-2”, CQBK, TANAP və TAP kimi dörd mühüm elementdən ibarət olan və iştirakçıların, xüsusilə Azərbaycanın məqsədyönlü fəaliyyəti sayəsində 2018-ci ildə istifadəyə verilmiş “Cənub Qaz Dəhlizi” Azərbaycan, Gürcüstan, Türkiyə, İtaliya, Macarıstan, Yunanıstan, Albaniya və b. Balkan ölkələrinin iqtisadi əməkdaşlığının və enerji təhlükəsizliyinin güclənməsinə xidmət edir. Bu, həm iştirakçı ölkələrin enerji-nəqliyyat sisteminin şaxələndirilməsinə, həm də Azərbaycanın Avropa enerji bazarlarında mövqelərinin möhkəmlənməsinə şərait yaradır.

Neft müqavilələrinin həyata keçirilməsi nəticəsində Azərbaycanın gəlir əldə etməyə başlaması və daxil olan vəsaitin sürətlə artacağının proqnozlaşdırılması valyuta ehtiyatlarının toplanması, idarə edilməsi və istifadə olunması məsələlərini aktuallaşdırırdı. Çünki dünya təcrübəsinə görə, təbii sərvətlərdən əldə olunan böyükhəcmli gəlirlərin xərclənməsinin xüsusi şəkildə tənzimlənməməsi iqtisadiyyatı “Holland sindromu”na məruz qoyaraq, makroiqtisadi tarazlığı pozur və birtərəfli inkişafa sürükləyərək ciddi fəsadlar yaradır. Bununla bağlı başqa ölkələrin təcrübəsinin öyrənilməsi və səmərəli şəkildə tətbiqi vacib hesab olunurdu. Bu məqsədlə Azərbaycan nümayəndə heyəti Norveçdə eyni funksiyanı yerinə yetirən Dövlət Pensiya Fondunun fəaliyyəti ilə yaxından tanış olaraq, onun iş prinsiplərindən yararlanmaq imkanlarını araşdırmışdır.

Sənədlərin təhlilinə əsasən demək olar ki, xarici ölkələrin sınaqdan çıxmış təcrübəsini və özünün real problemlərinin həlli zərurətini nəzərə alan Azərbaycan bugünkü və gələcək nəsillərin ortaq maraqlarına xidmət prinsiplərinə söykənən Dövlət Neft Fondunu təsis etmişdir. Qurumun idarəçiliyini, gəlir mənbələrini və vəsaitin istifadə olunması mexanizmlərini tənzimləyən zəruri qanunvericilik bazasının formalaşdırılması onun şəffaf və səmərəli fəaliyyətini şərtləndirir.

ARDNF-in illik hesabatlarının dərindən tədqiqi göstərir

ki, vəsaitlərin yığımı funksiyasını diqqət mərkəzində saxlayan təşkilat həm də ölkənin əlahiddə cari problemlərinin, xüsusilə qaçqın və məcburi köçkünlərin sosial-məişət məsələlərinin həllində fəal iştirak etmişdir. Neft Fondunun ilk xərcləri də məhz dövlətin ən kəskin sosial qayğılarının tədricən aradan qaldırılmasına yönəldilmişdi. Bununla yanaşı, BTC, Bakı–Tbilisi–Qars dəmir yolu, Oğuz–Qəbələ–Bakı su kəməri, "Cənub Qaz Dəhlizi", gənclərin xarici ölkələrdə təhsili və s. strateji infrastruktur layihələrinin və sosial proqramların maliyyələşdirilməsi sahəsində davamlı və məqsədyönlü fəaliyyət, habelə dövlət büdcəsinə kifayət qədər böyükhəcmli illik maliyyə köçürmələri Azərbaycanın siyasi, sosial-iqtisadi, mədəni inkişafında əvəzsiz rol oynadı. Əminliklə demək olar ki, müəyyən illərdə hətta büdcə gəlirlərinin yarıdan çox hissəsini təşkil edən bu köçürmələr ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsində, Vətən müharibəsində təcavüzkar Ermənistana sarsıdıcı zərbə vuraraq, işğaldakı əraziləri düşmən tapdağından azad edən müasir ordunun yaradılmasında vacib amil kimi çıxış etmişdir.

Araşdırmadan aydın olur ki, gəlirlərin bir hissəsinin gələcək nəsillər üçün toplanması, eləcə də dünyanı silkələyən böhranların təsirinin azaldılması və makroiqtisadi sabitliyin qorunması, ölkənin dayanıqlı inkişafı və rifah halının təmin olunması, hərbi qüdrətinin artırılması ilə bağlı aktual vəzifələrin yerinə yetirilməsinə mühüm töhfəsi Fondun yaradılmasının və fəaliyyətinin özünü doğrultduğunu tam təsdiq edir [436]. İnkişafın indiyəqədərki mərhələsində neft gəlirlərinin çox hissəsinin məhz iqtisadi və hərbi baxımdan güclü dövlətin qurulmasına, müstəqilliyin möhkəmləndirilməsinə yönəldilməsi məqsədəuyğun hesab olunmalıdır. Çünki bunun bəhrələrindən həm indiki, həm də gələcək nəsillər istifadə edəcək. Fondun yığım funksiyasının prioritetliyi tədricən önə çıxa bilər.

Xarici neft kompaniyaları ilə səmərəli əməkdaşlığın qurulması Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin maliyyə-texniki potensialının artmasına, qabaqcıl təcrübəyə yiyə-

lənmiş yeni kadrlar bazasının formalaşmasına və beynəlxalq aləmə qədəm qoymasına şərait yaratdı. Xarici bazarlarda tədricən mövqelərini genişləndirən SOCAR-ın Türkiyədə "Petkim Petrokimya Holdinq" kimi nəhəng neft-kimya kompleksinin nəzarət səhm paketini əldə etməsi, STAR Neft Emalı Zavodunun tikintisinə, Gürcüstanda Kulevi terminalına və enerji infrastrukturuna, Ukraynanın yanacaq-enerji sektoruna, İsveçrənin, bir sıra Şərqi Avropa ölkələrinin və Qırğızıstanın iqtisadiyyatına investisiya qoyuluşunu həyata keçirməsi artıq Azərbaycanın yüksələn maliyyə-iqtisadi potensialının və xarici ölkələrə sərmayə yatıran dövlətə çevrilməsinin əyani təzahürüdür. Həmin layihələrin davamlı icrası, şübhəsiz, Avropanın, habelə başqa ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolunun artmasına və iqtisadi-siyasi əlaqələrinin güclənməsinə xidmət edəcək.

Beləliklə, milli neft strategiyasının təməlində duran "Əsrin müqaviləsi", habelə "Şahdəniz" layihəsi və əcnəbi neft kompaniyaları ilə səmərəli əməkdaşlıq çərçivəsində həyata keçirilən digər sazişlər nəinki neft-qaz sənayesinin dirçəlməsi və inkişafına, eləcə də Azərbaycanın sosial-iqtisadi yüksəlişinə və siyasi müstəqilliyinin möhkəmlənməsinə əlverişli zəmin yaratdı. Məqsədyönlü şəkildə, qətiyyətlə, çevik və ardıcıl olaraq gerçəkləşdirilən neft strategiyası ölkənin dünya birliyində tamhüquqlu üzv kimi öz yerini tutmasına, regional əməkdaşlıq və təhlükəsizliyin dərinləşməsinə ciddi təkan verdi və nəhayət, Ermənistanın 30 ilə yaxın hökm sürən işğalına Vətən müharibəsində son qoymaqla ərazi bütövlüyünü bərpa etməsinə geniş perspektivlər açdı. 2023-cü il sentyabrın 19-20-də keçirilmiş lokal antiterror əməliyyatı ilə Azərbaycanda erməni separatizminə son qoyuldu və dövlətin suverenliyi tam bərqərar edildi.

Bununla belə, Azərbaycan Respublikasında neft strategiyasının həyata keçirilməsində ciddi geosiyasi və geoiqtisadi maneələrin, ölkədəki kəskin siyasi və iqtisadi problemlərin aradan qaldırılaraq qazanılmış uğurlar, zəngin təcrübə dərindən

təhlil edilməli, nəticələrdən bu və digər sahələrdə fəaliyyətin daha səmərəli şəkildə qurulması üçün istifadə olunmalıdır.

Əvvəla, ölkənin mənafeləri və zamanın yeni çağırışları nəzərə alınmaqla xarici neft-qaz şirkətləri ilə qarşılıqlı faydalı əməkdaşlığın davam etdirilməsi zəruri sayılmalıdır. Xüsusilə 2022-ci ildə Rusiya-Ukrayna müharibəsinin başlanması ilə Qərb dövlətlərinin Azərbaycanın yanacaq-enerji resurslarına daha böyük maraq göstərməsi bu sahədə birgə fəaliyyətin aktuallığını artırır.

İkinci, xarici şirkətlərin maliyyə-iqtisadi maraqlarının tam təmin olunmasına yaradılan şəraitə adekvat olaraq, həmin sərmayəçilərin təmsil etdiyi ölkələrdə və beynəlxalq aləmdə Azərbaycanın iqtisadi-siyasi mənafelərinin layiqincə qorunması üçün tərəfdaş şirkətlərlə birgə səylərin artırılmasına çalışmaq lazımdır. Belə ki, fövqəlmilli və digər nüfuzlu kompaniyaların maliyyə-iqtisadi potensialı və müxtəlif ölkələrdə siyasi qərarların qəbuluna təsir imkanları Azərbaycanın maraqlarının beynəlxalq hüquqa uyğun şəkildə obyektiv ifadə olunması sahəsində təsirli vasitə ola bilər.

Üçüncü, Azərbaycanda fəaliyyət göstərən xarici neft-qaz şirkətlərində çalışan yerli vətəndaşların əmək və sosial hüquqlarının daha etibarlı şəkildə qorunması diqqət mərkəzində saxlanmalıdır. Bu məqsədlə həmin kompaniyalarda həmkarlar təşkilatının yaradılması və onların fəaliyyəti üçün lazımi şəraitin təmin olunması sahəsində tədbirlər görülməlidir.

Dördüncü, uğurla həyata keçirilən neft strategiyası sayəsində ölkəyə daxil olan valyuta gəlirlərinin toplandığı Dövlət Neft Fondunun strateji yığım funksiyasının tədricən prioritet olaraq daha səmərəli şəkildə yerinə yetirilməsinə diqqətin artırılması lazımdır. Belə ki, ötən dövrdə baş vermiş qlobal maliyyə-iqtisadi böhranlar və onların fəsadlarının aradan qaldırılması sahəsində qazanılan təcrübə valyuta ehtiyatlarının toplanması, idarə və istifadə olunması siyasətinin daim təkmilləşdirilməsinin aktuallığını göstərir. Həm də müasir dövrdə qlobal iqlim

dəyişmələri və ona qarşı görülən kompleks tədbirlər neft-qaz resurslarından istifadənin getdikcə məhdudlaşdırılmasını zərurətə çevirir, bəşəriyyəti qazıntı yanacağının bərpa olunan enerji mənbələri ilə daha geniş əvəz edilməsinə yönəldir. 2024-cü ilin noyabr ayında Bakıda keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının COP29 sessiyası da bu məsələnin gündəlikdə çox kəskin şəkildə durduğunu nümayiş etdirdi.

Beşinci, yuxarıdakı tezisin davamı olaraq qeyd edilməlidir ki, ölkənin perspektiv maraqları qeyri-neft sektorunun üstün inkişaf xəttinin gücləndirilməsi vacibliyini bir daha ön plana çıxarır. Xüsusən ölkədə dünyanın yüksək texnologiyaya malik şirkətlərinin müəssisələrinin açılmasını stimullaşdırmaq xaricdə təhsil alan gənclərin potensialından daha səmərəli istifadə edilməsinə, müasir tələblərə cavab verən ixtisaslı kadrların formalaşmasına, ümumiyyətlə, iqtisadi dayanıqlığa təkan verər. Yalnız bu sahədə davamlı irəliləyişə nail olmaqla iqtisadiyyatın neft gəlirlərindən asılılığını maksimum azaltmaq və daha sabit inkişaf yoluna keçmək, karbohidrogen resurslarından toplanmış valyuta ehtiyatlarının lazımi hissəsinin gələcək nəsillərə təminatlı saxlanması mümkündür.

Altıncı, həm neft-qaz sənayesinin yenidən qurulması və inkişafında xarici sərmayəçilərlə səmərəli əməkdaşlığı, həm də ölkənin sosial-iqtisadi problemlərinin həllinə, ərazi bütövlüyünün bərpası naminə müdafiə qabiliyyətinin və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə mühüm töhfə verən məqsədyönlü neft siyasəti ilə Azərbaycan nəinki özünün tərəqqisi, habelə regionda təhlükəsizliyin və sabitliyin təmin olunmasına, qarşılıqlı faydalı əlaqələrin təşviqinə yönəlmiş nümunəvi tərəfdaşlıq və fəaliyyət modeli nümayiş etdirdi. Bütün iştirakçıların bəhrələndiyi konstruktiv enerji siyasətinə söykənən bu təcrübənin öyrənilməsi və daha geniş miqyasda təqdimatı beynəlxalq aləmdə əməkdaşlıq münasibətlərinin formalaşmasına pozitiv təsir göstərə bilər.

Nəhayət, yeddinci, Bakının neft sənayesi mərkəzi kimi, XIX əsrin sonlarından indiyədək Azərbaycanın və regionun sosial-iqtisadi inkişafında, siyasi və strateji əhəmiyyətinin artmasında, beynəlxalq aləmdə tanınmasında mühüm rol oynadığını, dünya iqtisadiyyatına töhfəsini nəzərə alaraq, həm ölkənin, həm də onun paytaxt şəhəri taleyində dönüş nöqtəsi təşkil edən 15 sentyabr tarixinin (şəhərin eser, menşevik və erməni-daşnak silahlı qüvvələrinin əsarətindən azad edildiyi gün) rəsmi şəkildə "Bakı şəhəri günü" elan olunması məqsədəuyğun olardı. Bu qərar şəhərin ictimai-siyasi və mədəni həyatının daha da zənginləşməsinə, dünyada daha geniş təbliğinə və tanıdılmasına yeni imkanlar açardı.

# Резюме

Монография доктора исторических наук Арастуна Мехтиева "Нефтяная стратегия Азербайджанской Республики: формирование и реализация (1991-2023)" посвящена исследованию одной из актуальных проблем современной истории Азербайджана. Подготовка и успешная реализация "Контракта века", заключенного с ведущими иностранными нефтяными компаниями 20 сентября 1994 года, и последующие соглашения заложив основу новой нефтяной стратегии, сыграли важную роль в развитии страны в годы независимости. Благодаря последовательному сотрудничеству с иностранным капиталом удалось модернизировать нефтегазовую промышленность, создать современную энергетическо-коммуникационную инфраструктуру. Нефтяная стратегия внесла огромную лепту в установление либеральной экономики, обеспечение социального благополучия, укрепление политической независимости и международных связей страны.

Во введении книги отмечается стратегическая роль нефти в современном мире, ее важное значение в истории Азербайджана, а также актуальность проблемы и анализируется степень ее изученности.

В первой главе освещается положение нефтегазовой промышленности Азербайджана накануне и в первые годы после обретения государственной независимости, определяются факторы, обусловившие подписание "Контракта века", рассматриваются ход переговорного процесса и отдельные его этапы, возникшие проблемы в согласовании позиций участников, раскрывается суть основных пунктов соглашения. Исследуются также главные аспекты подписания новых нефтяных контрактов, способствовавших формированию национальной нефтяной стратегии, выявляются ее эконо-

мические, политические и геостратегические особенности.

Во второй главе анализируются вопросы реализации первого нефтяного проекта и основные его этапы, преодоления геополитических препятствий, совершенствования технической базы, строительства современной инфраструктуры и развития нефтяной промышленности. Рассматривается также проблема создания экспортной сети трубопроводов. Отмечается, что диверсификация маршрутов экспорта нефти являлась приоритетной задачей правительства Азербайджана, которая была осуществлена путем строительства экспортных трубопроводов Баку-Новороссийск (Россия), Баку-Супса (Грузия) и Баку-Тбилиси-Джейхан (Турция). Последовательно прослеживается продолжавщаяся до конца упорная геополитическая борьба за экспортные маршруты и вывеpенный политический курс Азербайджана в этом вопросе.

В третьей главе изучаются проблемы осуществления контракта “Шахдениз”, который превратил Азербайджан в экспортера природного газа, а также совместные усилия правительства и иностранных нефтяных компаний в сфере строительства южнокавказского газопровода (Баку-Тбилиси-Эрзурум) и реализации проекта “Южный газовый коридор”.

В четвертой главе вкратце рассматриваются вопросы международной практики функционирования суверенных фондов, создание, основные принципы и направления деятельности Государственного нефтяного фонда Азербайджана.

В заключении подведены итоги исследования, отмечено значение мероприятий, осуществленных в рамках реализации нефтяной стратегии не только в развитии нефтегазовой промышленности, а также в социально- экономическом прогрессе страны, в укреплении государственной независимости, восстановлении территориальной целостности и суверенитета, усилении международных связей Азербайджана.

## Abstract

"Oil Strategy of Azerbaijan Republic: Formation and Implementation (1991–2023)", a monograph by Dr. Arastun Mehdiyev, is devoted to examining the issues of collaboration with leading international companies and the formation and implementation of a new oil strategy in Azerbaijan during the years of independence. The formulation and successful implementation of the “Contract of the Century,” signed with leading foreign oil companies on September 20, 1994, along with subsequent agreements, laid the foundation of a new oil strategy and played a significant role in the country's development during the years of independence. Consistent collaboration with foreign capital facilitated the modernization of the oil and gas industry and the creation of a modern energy and communications infrastructure. The oil strategy made a substantial contribution to the establishment of a liberal economy, the provision of social welfare, the strengthening of political independence, and the country's international relations.

The introduction of the book highlights the strategic role of oil in the modern world, its significant importance in the history of Azerbaijan, and addresses the relevance of the issue while analyzing the extent of its study.

The first chapter examines the state of Azerbaijan's oil and gas industry on the eve of and in the early years following the attainment of state independence, identifies the factors that led to the signing of the "Contract of the Century," discusses the negotiation process and its stages, considers the issues that arose in aligning the positions of the participants, and reveals the essence of the main provisions of the agreement. Furthermore, this part also covers the key aspects of signing new oil contracts that contributed to the formation of the national oil strategy, highlighting its economic, political, and geostrategic features.

The second chapter analyses the realization process of the first project, its main phases, as well as overcoming geopolitical barriers, improvement of the technical base, creation of modern infrastructure, and development of the oil industry. Questions regarding the establishment of an export pipeline network are examined in this chapter. It is mentioned that the diversification of oil export routes had been the priority for the government of Azerbaijan, and it was subsequently achieved through the construction of export pipelines Baku-Novorossiysk (Russia), Baku–Supsa (Georgia) and Baku–Tbilisi–Ceyhan (Türkiye). Moreover, a persistent geopolitical struggle for export routes and political stance of Azerbaijan on this issue is also observed in this section.

The third chapter addresses the challenges surrounding the implementation of the Shah Deniz Contract, which transformed Azerbaijan into a natural gas exporter. It also discusses the efforts of the government and oil companies in constructing the South Caucasus Gas Pipeline (Baku–Tbilisi–Erzurum) and the realization of the "Southern Gas Corridor" project.

The fourth chapter briefly examines international practices related to the functioning of sovereign funds, as well as the establishment, main principles, and directions of the activities of the State Oil Fund of Azerbaijan.

The conclusion recapitulates the outcomes of the research, emphasizing the significance of the measures undertaken within the framework of the implementation of the oil strategy, not only in the development of the oil and gas industry but also in the socio-economic progress of the country, the strengthening of state independence, the restoration of territorial integrity and sovereignty, and the advancement of Azerbaijan's global affairs and international partnerships.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. Abdullayev, R. Neft-qaz sənayesi Azərbaycanın tərəqqisinə xidmət edir // Xalq qəzeti. – 2012, 20 sentyabr. – s. 3.
2. ABƏŞ Qərb boru kəmərinin inşası və bərpası üçün tenderin yekunlarını elan etmişdir // Xalq qəzeti. – 1997, 17 aprel. – s. 3.
3. ABƏŞ-in mətbuat üçün ilk brifinqi // Azərbaycan. – 1995, 20 may. – s. 2.
4. ABŞ Dövlət Departamenti Azərbaycan neftinin nəqli barədə qərardan razıdır // Azərbaycan. – 1995, 14 oktyabr. – s. 3.
5. "Abşeron" qaz-kondensat yatağının işlənməsinin İlkin Hasilat Sxemi mərhələsi üzrə hasilata başlanılıb: [Elektron resurs] / Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). – İyul 10, 2023. URL: https://azertag.az/xeber/Abseron_qaz_kondensat_yataginin_islenmesinin_Ilkin_Hasilat_Sxemi_merhelesi_uzre_hasilata_baslanilib-2688301
6. "Abşeron" qaz-kondensat yatağına yeni səhmdar daxil olur: [Elektron resurs] / Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). – Avqust 04, 2023. URL: https://azertag.az/xeber/Abseron_qaz_kondensat_yatagina_yeni_sehmdar_daxil_olur-2718676
7. "AGRİ" layihəsi regionumuzda və Avropada enerji əməkdaşlığı sahəsində yeni səhifə açacaqdır // Azərbaycan. – 2010, 15 sentyabr. – s. 1-4.
8. Axundova, E. "Biz sübut etdik ki, layiqli tərəfdaş ola bilərik!" // Panorama. – 1997, 18 yanvar. – s. 2.
9. Aktauda Xəzəryanı dövlətlərin başçıları Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanı imzaladılar // Azərbaycan. – 2018, 14 avqust. – s. 2.
10. Ali qonağın şərəfinə. Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // Azərbaycan. – 2011, 29 aprel. – s. 3.
11. Ali qonağın şərəfinə. Yunanıstan Prezidenti K. Papulyasın çıxışı // Azərbaycan. – 2011, 6 aprel. – s. 3.
12. "ANŞAD Petrol" şirkəti ləğv edilib // 525-ci qəzet. – 2009, 20 noyabr. – s. 6.

13. ARDNŞ , BP və Total şirkətləri TAP konsorsiumuna qoşulub // Azərbaycan. – 2013, 2 avqust . – s. 1.
14. ARDNŞ Rəsul Quliyevə cavab verdi // Azadlıq. – 1999, 21 iyul. – s. 8.
15. Atakişiyev, M. Azərbaycanın yeni neft siyasəti və iqtisadi yüksəliş / M. Atakişiyev. – Bakı: Azərbaycan, – 2004. – 264 s.
16. Avropa Komissiyası TAP-ı ortaq maraqlara xidmət edən 33 prioritet enerji təhlükəsizliyi layihəsi siyahısına daxil edib // Xalq qəzeti. – 2015, 15 avqust. – s. 2.
17. Avropa Rusiyanı Azərbaycan qazı ilə şantaj edir // Bizim yol. – 2015, 2 iyun.– s.9.
18. Avropada neft böhranı // Mülkiyyət. – 2000, 14 sentyabr. – s. 14.
19. Avstriya Respublikasının Federal Prezidenti H. Fişerin Azərbaycana rəsmi səfəri // Azərbaycan. – 2011, 13 oktyabr. – s. 1-2.
20. Azərbaycan – ABŞ: əməkdaşlıq genişlənir. "Gülüstan" sarayında sənədlərin imzalanması mərasimi // Azərbaycan. -1995, 20 aprel.- s. 1.
21. Azərbaycan Amerika kompaniyası ilə ilk neft müqaviləsini imzalamışdır // Azərbaycan. – 1994, 17 avqust . – s. 2.
22. Azərbaycan böhranlı vəziyyətdən uğurla çıxdı və iqtisadi sabitliyi qoruya bildi. Prezident İlham Əliyevin yekun nitqi // Azərbaycan. – 2017, 11 yanvar. – s. 5.
23.Azərbaycan – Gürcüstan sənədləri imzalandı // Azərbaycan. – 2001, 30 sentyabr. – s. 1.
24. Azərbaycan qazının Avropaya çatdırılması reallıqdır // Kaspi. – 2015, 3 iyun. – s.6.
25. Azərbaycan neft strategiyasının və neft sənayesinin yeni erası başlanmışdır // Respublika. – 2001, 31 avqust. – s. 1.
26. Azərbaycan neft strategiyasının və neft sənayesinin yeni erası başlanmışdır. ABƏŞ-in prezidenti D.Vudvordun çıxışı // Respublika. – 2001, 31 avqust. – s. 1.
27. Azərbaycan nefti / Layihə rəhb. R.Abdullayev, baş elmi red. Y.Mahmudov. – Bakı: [ n.y.], – 2010. – 352 s.
28. Azərbaycan neftinin şimal marşrutu ilə nəqlinə başlanmışdır // Azərbaycan. – 1997, 26 oktyabr. – s. 2.
29. Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ-ın energetika nazirinin müavini U. Uaytı qəbul etmişdir // Azərbaycan. – 1993, 19 noyabr . – s. 1.

30. Azərbaycan Prezidenti Heydər Əliyev Ankarada keçirilən yubiley mərasimlərində və görüşlərində iştirak edir // Xalq qəzeti. – 1998, 30 oktyabr . – s. 1.
31. Azərbaycan Prezidenti Heydər Əliyev BTC Əsas ixrac boru kəməri layihəsi barədə sazişlərin imzalanması mərasimində iştirak etmişdir // Xalq qəzeti. – 2000, 18 oktyabr. – s. 1-2.
32. Azərbaycan Prezidenti Heydər Əliyevin Moskvaya səfəri. Azərbaycan-Rusiya sazişləri imzalanmışdır // Xalq qəzeti. – 1996, 19 yanvar. – s. 1.
33. Azərbaycan Prezidenti Heydər Əliyevin "Bleyer Haus" iqamətgahında politoloqlar, siyasi xadimlər və mətbuat işçiləri ilə görüşü // Xalq qəzeti. – 1997, 14 avqust. – s. 1.
34. Azərbaycan Prezidenti Heydər Əliyevin İstanbul görüşləri // Xalq qəzeti. – 1999, 19 noyabr. – s. 2.
35. Azərbaycan Prezidenti Heydər Əliyevin sədrliyi ilə respublika Nazirlər Kabinetinin geniş iclası // Respublika. – 1998, 10 noyabr. – s. 4.
36. Azərbaycan Prezidenti Heydər Əliyevin yanında BP şirkətinin layihələrinin təqdimatı // Xalq qəzeti. – 2001, 8 may. – s. 1-2.
37. Azərbaycan Prezidenti İlham Əliyevin "Abşeron" blokunda yeni böyük qaz yatağının kəşfi münasibətilə mətbuata açıqlaması // Azərbaycan. – 2011, 10 sentyabr. – s. 1.
38. Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya işgüzar səfəri // Xalq qəzeti. – 2015, 7 fevral. – s. 1.
39. Azərbaycan Prezidenti İlham Əliyevin və Bolqarıstan Prezidenti G.Pırvanovun təkbətək görüşü //Xalq qəzeti. – 2009, 23 yanvar. – s. 1.
40. Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri. Budapeştdə Nabukko layihəsinə dair enerji sammiti keçirilmişdir // Azərbaycan. – 2009, 28 yanvar. – s. 1.
41. Azərbaycan Prezidenti İlham Əliyevin "Rossiya-24" Rusiya informasiya telekanalına müsahibəsi // Azərbaycan.–2011, 12 aprel. – s. 3.
42. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. Prezident İlham Əliyevin giriş nitqi // Azərbaycan. – 2012, 11 oktyabr. – s. 1.
43. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə səfəri. Azərbaycan-Türkiyə sənədləri imzalanmışdır // Azərbaycan. – 2011, 26

oktyabr. – s. 4.
44. Azərbaycan Prezidenti İlham Əliyevin "Uoll strit cornel" qəzetinə müsahibəsi // Azərbaycan. – 2009, 3 fevral. – s. 1.
45. Azərbaycan Prezidenti İlham Əliyevin Yunanıstana dövlət səfəri // Respublika. – 2009, 18 fevral. – s. 1.
46. Azərbaycan Prezidenti neft şirkətləri konsorsiumunun rəhbər komitəsinin üzvlərini qəbul etmişdir // Azərbaycan. – 1995, 9 iyun . – s. 1.
47. Azərbaycan Prezidenti zamanı qabaqlayıb // Yeni Azərbaycan. – 2000, 25 mart. – s. 5.
48.Azərbaycan Prezidentinin siyasi iradəsi həlledici rol oynadı // Xalq qəzeti. – 1999, 23 aprel. – s.1.
49. Azərbaycan Respublikası 1991-2001 / R.Mehdiyevin üm. red. altında. – Bakı: XXI – Yeni Nəşrlər Evi, – 2001. – 360 s.
50. Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə: [Elektron resurs] / Azərbaycan Respublikası Dövlət Neft Fondu. URL: https://www.oilfund.az/storage/images/8mm3o1rrnt.pdf
51. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2001 / – Bakı: [n.y.], – 2002. – 62 s.
52. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2002 / – Bakı: [n.y.], – 2003. – 64 s.
53. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2003 / – Bakı: [n.y.], – 2004. – 68 s.
54. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2004 / – Bakı: [n.y.], – 2005. – 68 s.
55. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2005 / – Bakı: [n.y.], – 2006. – 72 s.
56. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2006 / – Bakı: [n.y.], – 2007. – 72 s.
57. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2007 / – Bakı: [n.y.], – 2008. – 76 s.
58. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2008 / – Bakı: [n.y.], – 2009. – 76 s.
59. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2009 / – Bakı: [n.y.], – 2010. – 72 s.
60. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2010 / – Bakı: [n.y.], – 2011. – 118 s.

61. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2011 / – Bakı: [n.y.], – 2012. – 140 s.
62. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2012 / – Bakı: [n.y.], – 2013. – 148 s.
63. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2013 / – Bakı: [n.y.], – 2014. – 156 s.
64. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2014 / – Bakı: [n.y.], – 2015. – 150 s.
65. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2015 / – Bakı: [n.y.], – 2016. – 168 s.
66. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2016 / – Bakı: [n.y.], – 2017. – 160 s.
67. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2017 / – Bakı: [n.y.], – 2018. – 151 s.
68. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2018 / – Bakı: [n.y.], – 2019. – 138 s.
69. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2019 / – Bakı: [n.y.], – 2020. – 133 s.
70. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2020 / – Bakı: [n.y.], – 2021. – 127 s.
71. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2021 / – Bakı: [n.y.], – 2022. – 139 s.
72. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2022 / – Bakı: [n.y.], – 2023. – 115 s.
73. Azərbaycan Respublikası Dövlət Neft Fondu. İllik hesabat 2023 / – Bakı: [n.y.], – 2024. – 112 s.
74. Azərbaycan Respublikası Dövlət Neft Fonduna daxil olmuş vəsaitlər haqqında məlumat // Respublika. – 2001, 4 yanvar. – s. 1.
75. Azərbaycan Respublikası Dövlət Neft Fondunun məlumatı // Respublika. – 2002, 23 yanvar. – s. 1.
76. Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar: [Elektron resurs] / Azərbaycan Respublikası Dövlət Neft Fondu. URL:
https://www.oilfund.az/storage/images/ghjvsicoz4.pdf
77. Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı: [Elektron

resurs] / Azərbaycan Respublikası Dövlət Neft Fondu. URL: https://www.oilfund.az/storage/images/qqh59kviix.pdf
78. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin bəyanatı // Xalq qəzeti. – 1997, 20 avqust. – s. 4.
79. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin bəyanatı // Xalq qəzeti. – 1997, 12 sentyabr. – s. 3.
80. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin bəyanatı // Xalq qəzeti. – 1999, 10 iyul. – s. 2.
81. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin məlumatı // Xalq qəzeti. – 1999, 10 fevral. – s. 3.
82. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin məlumatı // Respublika. – 2013, 16 may. – s. 1.
83. Azərbaycan Respublikasında Kürovdağ yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Qlobal Enerci Azərbaycan Limited və ARDNŞ-in Ortaq Neft Şirkəri arasında sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu; Azərbaycan Respublikasında Neftçala, Xıllı, Durovdağ – Babazanan neft yataqlarının və Muğan Monoklinalın cənub- qərb qanadının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Neftçala İnvestments Limited və ARDNŞ-in Ortaq Neft Şirkəri arasında sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu // Respublika. – 2009, 30 may. – s. 2- 4.
84. "Azərbaycan Respublikasının hökuməti və Türkiyə Respublikasının hökuməti arasında təbii qazın Türkiyə Respublikasına satışı və Azərbaycan Respublikasından gələn təbii qazın Türkiyə Respublikasının ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə Respublikası ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair" Sazişin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu // Azərbaycan. – 2012, 27 noyabr. – s. 1.
85. Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy Böyük Britaniyanın "Britiş Petroleum" şirkətinin prezidenti Con Braunu qəbul etmişdir // Həyat. – 1992, 18 iyul. – s. 1.
86. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfəri // Xalq qəzeti. – 1997, 14 avqust. – s. 1.

87. Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə ( ABŞ Prezidenti Corc Buşun məktubu) // Xalq qəzeti. – 2005, 26 may. – s. 1.
88.Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə // Azərbaycan. – 2008, 4 iyun. – s. 1.
89. Azərbaycan təbii qazının dünya bazarına Cənub Qaz Dəhlizi vasitəsilə nəqli ilə əlaqədar tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan. – 2013, 30 oktyabr. – s. 2.
90. Azərbaycan Türkiyəyə təbii qaz ixracını artırıb: [Elektron resurs] / Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). – Yanvar 19, 2019. URL: https://azertag.az/xeber/1235360
91. Azərbaycan və Avstriya prezidentləri birgə mətbuat konfransı keçirmişlər // Azərbaycan. – 2011, 13 oktyabr. – s. 3.
92. Azərbaycan və Çin arasında əməkdaşlığın yeni səhifəsi // Respublika. – 2003, 5 iyun. – s. 1.
93. Azərbaycan və Qazaxıstan prezidentlərinin birgə mətbuat konfansı // Xalq qəzeti. – 2005, 25 may. – s. 2.
94. Azərbaycan və Rumıniya prezidentləri mətbuata bəyanatlarla çıxış etmişlər // Xalq qəzeti. – 2011, 19 aprel. – s. 2-3.
95. Azərbaycan-Yaponiya əlaqələri bütün sahələrdə inkişaf edir: Azərbaycan Prezidenti Heydər Əliyev Yaponiyanın ölkəmizdəki səfirini qəbul etmişdir // Respublika. – 2002, 24 dekabr. – s. 1.
96. Azərbaycanın enerji siyasəti Qərb mətbuatında / red. B. Abbasov, A. Eyvazov. –Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 2015. – 288 s.
97. Azərbaycanın karbohidrogen ehtiyatları 9,5 milyard tondur // Azərbaycan. – 2018, 5 yanvar. – s. 4.
98. Azərbaycanın qaz layihəsinə qarşı yeni əngəllər meydana çıxıb // Azadlıq. – 2014, 25 noyabr. – s. 4.
99. Azərbaycanın qaz sənayesində yeni era açılır // Kaspi. – 2011, 28 oktyabr. – s. 3.
100. Azərbaycanın maliyyə imkanları regionda istənilən layihənin həyata keçirilməsinə imkan verir // Azərbaycan. – 2017, 24 fevral. – s. 2.
101. Azərbaycanın neft strategiyası // Mülkiyyət. – 1998, 27 oktyabr – 3 noyabr. – s. 2.
102. Azərbaycanın statistik göstəriciləri 1999 / – Bakı: Səda, – 1999. – 440 s.

103. Azərbaycanın statistik göstəriciləri 2000 / – Bakı:Səda, – 2000. – 564 s.
104. Azərbaycanın statistik göstəriciləri 2008 / – Bakı: Səda, – 2008. – 774 s.
105. Azərbaycanın statistik göstəriciləri 2009 / – Bakı: Səda, – 2009. – 772 s.
106. Azərbaycanın statistik göstəriciləri 2011 / – Bakı: [ n.y.], – 2011. – 848 s.
107. Azərbaycanın statistik göstəriciləri 2013 / – Bakı: [ n.y.], – 2013. – 804 s.
108. Azərbaycanın təbii sərvətləri. Azərbaycan Respublikası Dövlət Neft Fondu 10 il / – Bakı: [ n.y.], – 2009. – 56 s.
109.Azərbaycanın yeni neft strategiyasının təntənəsi – üç dənizin əfsanəsi reallığa çevrilmişdir // Xalq qəzeti. – 2005, 26 may. – s. 1.
110. Azərbaycanın yeni neft strategiyasının təntənəsi – üç dənizin əfsanəsi reallığa çevrilmişdir. ARDNŞ-in prezidenti N. Əliyevin çıxışı // Xalq qəzeti. – 2005, 26 may. – s. 3.
111. Azərbaycanın yeni neft strategiyasının təntənəsi – üç dənizin əfsanəsi reallığa çevrilmişdir. Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin nitqi // Xalq qəzeti. – 2005, 26 may. – s. 3.
112. "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadılır // Azərbaycan. – 2017, 15 sentyabr. – s. 1-3.
113. "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" üzrə gəlirlər – 1 yanvar 2022-ci il tarixinə: [Elektron resurs] / Azərbaycan Respublikası Dövlət Neft Fondu. – Yanvar 06, 2022. URL: https:// www.oilfund.az/fund/ press-room/news-archive/1513
114.Bakı-Ceyhan neft kəməri üzrə əsaslı xərclər bu il 60 faiz artacaq // Xalq qəzeti. – 2014, 14 fevral. – s. 6.
115. Bakı-Ceyhanla bağlı bəzi qeyri-müəyyənliklər hələ qalmaqdadır // Azadlıq. – 2000, 20 sentyabr. – s. 10.
116. Bakı-Supsa ilkin neft xəttinin rəsmi açılışının iştirakçılarına. ABŞ Prezidenti Bill Klintonun məktubu // Xalq qəzeti. – 1999, 18 aprel. – s. 1.
117. Bakı-Supsa neft kəməri və Supsa terminalı işə başladı // Xalq qəzeti. – 1999, 20 aprel. – s. 2.
118.Bakı-Tbilisi-Ceyhan 500 milyon ton neft ixracını qeyd edir: [Elektron resurs] / Azərbaycan Dövlət İnformasiya Agentliyi

(AZƏRTAC). – Dekabr 13, 2021. URL:https://azertag.az/xeber/Baki_Tbilisi_Ceyhan_500_milyon_ton_neft_ixracini_qeyd_edir-1950306
119.Bakı-Tbilisi-Ceyhan Əsas ixrac boru kəməri layihəsində ARDNŞ-nin iştirak payının maliyyələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Xalq qəzeti. – 2002, 31 iyul. – s. 1.
120. Bakı-Tbilisi-Ceyhan Əsas ixrac boru kəmərinin inşasına dair qısa arayış // Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin cari arxivi. Sərmayələr İdarəsi. İş – "İxrac boru kəmərləri haqqında sorğu məlumatları", vərəq – 6-7.
121.Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin imzalanması mərasimi // Azərbaycan.–2004,4 fevral. – s. 1.
122. Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin imzalanması mərasimi. Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti N.Əliyevin çıxışı // Azərbaycan. – 2004, 4 fevral. – s. 4-5.
123. Bakıda Azərbaycan, Gürcüstan və Rumıniya arasında "AGRİ" layihəsinin dəstəklənməsi üzrə nazirlərin görüşü keçirilmişdir // Respublika. – 2010, 14 sentyabr. – s. 2.
124. Bakıda "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısı keçirilib // Azərbaycan. – 2016, 1 mart. – s. 1- 2.
125. Bakıda "Əsrin müqaviləsi"nin 20 illiyinə və Cənub qaz dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasim keçirilib // Azərbaycan. – 2014, 21 sentyabr. – s. 1-4.
126. Bakıda "Xəzər neft-qaz, neftayırma və neft kimyası-2006" XIII beynəlxalq sərgi və konfransının açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // Azərbaycan. – 2006, 7 iyun. – s. 2.
127. Bakıda "Xəzər Neft, Qaz, Neftayırma və Neft Kimyası-2007" XIV Beynəlxalq sərgisi və konfransının açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // Respublika. – 2007, 6 iyun. – s. 1.
128. Bakıda "Şahdəniz" qazının Avropaya satışına dair sazişlərin imzalanması mərasimi keçirilmişdir // Xalq qəzeti. – 2013, 20 sentyabr . – s. 1.
129. Bakıda "Şahdəniz-2" üzrə yekun investisiya qərarının imzalanması mərasimi olmuşdur // Azərbaycan – 2013, 18 dekabr. – s. 1-3.
130. V Qlobal Bakı Forumu. Azərbaycan Prezidenti İlham Əliyevin

nitqi // Azərbaycan. – 2017, 17 mart. – s. 2.
131. Beynəlxalq maliyyə korporasiyası BTC- yə vəsait ayırır // Respublika. – 2003, 6 noyabr. – s. 1.
132.Beynəlxalq maliyyə qurumları BTC layihəsinə diqqəti artırır // Xalq qəzeti. – 2003, 15 noyabr. – s. 1.
133. Bəşirli, A. Tbilisi 2000. Gerçəkliyin gerçək giyməti // Yeni Azərbaycan. – 2000, 25 mart. – s. 2.
134. Bəzi iddialara görə, neftimiz 30-40 ilə qurtaracaq // Hürriyyət. - 1996, 8 oktyabr. - s. 6.
135. "Bi-Pi - AMOKO" alyansının yaranması nə vəd edir? // Xalq qəzeti. – 1998, 15 avqust. – s. 2.
136. "1+10 müqaviləsi" imzalanmışdır! Bəs sonra? (ARDNŞ-in prezidenti N.Əliyevlə müsahibə) // Azərbaycan. – 1994, 22 oktyabr. – s. 2.
137. BMB Oil İnc. də fəaliyyətini dondurmaq istəyir // Avrasiya. – 1999, 30 mart. – s. 7.
138. Böyük Britaniyanın keçmiş Baş Naziri M.Tetçer "Çıraq" yatağının və perspektivli "Şahdəniz" sahəsinin işlənməsi imkanlarını müəyyənləşdirmək barədə sazişin imzalanması mərasimində iştirak etmişdir // Xalq qəzeti. – 1992, 9 sentyabr. – s. 1.
139. BP Azərbaycanda. Davamlı inkişaf haqqında hesabat 2012 / – Bakı: Max Offset, – 2013. – 53 s.
140. BP Azərbaycanda. Davamlı inkişaf haqqında hesabat 2015 / – Bakı: Max Offset, – 2016. – 35 s.
141. BP Dayazsulu Abşeron layihəsindəki payının 25%-ni "Lukoil"a satır: [Elektron resurs] / APA. – Sentyabr 29, 2021. URL: https://apa.az/az/senaye-ve-energetika/bp-dayazsulu-abseron-layihesindeki-payinin-25-ni-lukoila-satir-663560
142. BP TANAP-ın səhmdarlarından oldu//Şərq.–2015,14 mart.–s. 2.
143. "BP" və ARDNŞ görüləcək işləri müzakirə edirlər // Xalq qəzeti. – 2012, 25 oktyabr . – s. 8.
144. BP və tərəfdaşları Azərbaycandakı layihələrə 72 milyard dollardan çox sərmayə yatırıb // Kaspi. – 2018, 14 dekabr. – s. 3.
145.BTC ilə təxminən 2,4 milyon ton Azərbaycan nefti nəql olunub // İki sahil. – 2017, 10 yanvar. – s. 5.
146. BTC ilə tranzit neftin nəqli 10%-dək artıb: [Elektron resurs] / APA. – İyul 15, 2024. URL: https://apa.az/senaye-ve-energetika/btc-ile-tranzit-neftin-neqli-10-dek-artib-854882

147. BTC istismara veriləndən 560 mln tondan çox neft nəql edilib: [Elektron resurs] / APA. – Fevral 12, 2024. URL: https://apa.az/senaye-ve-energetika/btc-istismara-verilenden-560-mln-tondan-cox-neft-neql-edilib-819787
148.BTC-nin sahibkarlar qrupuna sayca onuncu şirkət qoşuldu // Azərbaycan. – 2002, 25 sentyabr. – s. 2.
149.“Cənub qaz dəhlizi”nin tamamlanmasından sonra Azərbaycan beynəlxalq bazarlara ixracı artırıb. Prezident İlham Əliyevin çıxışı // Azərbaycan. – 2022, 5 fevral. – s. 2.
150. Çeçenistanı əldən buraxmamağın yeganə vasitəsi neft kəməridir // Günay. – 1997, 7 oktyabr. – s. 4.
151. “Çıraq” yatağından ilk neft Novorossiyskə yola salındı // Xalq qəzeti. – 1998, 3 mart. – s. 3.
152. “Çıraq”da bu il 5 milyon ton neft çıxarılacaq // Xalq qəzeti. – 1999, 2 fevral. – s. 3.
153.4085 tanker neft // Azərbaycan. – 2019, 28 fevral. – s. 11.
154. Dövlət və hökumət başçılarının birgə mətbuat konfransı // Azərbaycan. – 2010, 16 sentyabr. – s. 5.
155. “Ekson” “Əsrin müqaviləsi”nə qoşulur // Azərbaycan. – 1995, 4 aprel. – s. 1.
156. Elşad Nəsirov: “Türk axını” “Cənub qaz dəhlizi” ilə rəqabət aparmır // Xalq qəzeti. – 2015, 23 iyun. – s. 10.
157. E.Şevardnadze: “Mənim ən böyük məsləhətçim Heydər Əliyev idi” // 525-ci qəzet. – 2005, 16 mart. – s. 2.
158. Əliyev, H. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, –c. 1. – 1997. – 612 s.; c. 14. – 2005. – 520 s.; c. 18. – 2006. – 552 s.; c. 20. – 2007. – 536 s.; c. 26. – 2008. – 512 s.; c. 28. – 2009. – 480 s.; c. 30. – 2010. – 512 s.; c. 31. – 2010. – 512 s.; c. 35. – 2011. – 520 s.
159.Əliyev, İ.H. İnkişaf – məqsədimizdir: [114 cilddə] / İ.Əliyev. – Bakı: Azərnəşr, – c. 1. – 2008. – 424 s.; c. 2. – 2009. – 416 s.; c. 3. – 2009. – 416 s.; c. 4. –2009. – 400 s.; c. 8. – 2011. – 408 s.; c. 10. – 2012. – 408 s.; c. 17. – 2014. – 392 s. ; c. 18. – 2014. – 424 s.; c. 34. – 2016. – 404 s.
160. Əliyev, Q.M. Azərbaycan nefti dünya siyasətində: / siyasi elmlər namizədi dis. avtoreferatı. / – Bakı, 2003. – 28 s.
161. Əliyev, N. Azərbaycan neftinin ixracatının gələcəyi necə

olacaq? // Azərbaycan. – 1993, 2 dekabr. – s. 3.
162. Əliyev, N. Azərbaycan neft və qaz sənayesi XXI əsrin astanasında / N.Əliyev, X.Yusifzadə, E.Şahbazov – Bakı: [ n.y.], – 2000. – 71 s.
163. Əliyev, N. Azərbaycanda qlobal enerji layihələri həyata keçirilir // Respublika. – 2007, 30 dekabr. – s. 4.
164. Əliyev, N. Azərbaycanın energetika sektoru mühüm yeniliklərlə zəngin oldu // Azərbaycan. – 2014, 5 fevral . – s. 4.
165. Əliyev, N. Bakı-Tbilisi-Ceyhan "üç dəniz əfsanəsi"ni reallığa çevirəcək // Respublika. – 2002, 26 sentyabr. – s. 3.
166. Əliyev, N. Heydər Əliyev və Azərbaycan neftinin inkişafı / N.Əliyev, E.Şahbazov – Bakı: Azerbaijan International,–1997. – 17 s.
167. Əliyev, N. Xalqının tarixində parlaq səhifə açan nadir şəxsiyyət // Respublika. – 2008, 26 aprel. – s. 6.
168.Əsas ixrac neft kəməri marşrutunun seçilməsi ilə əlaqədar işçi qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Xalq qəzeti – 1997, 6 sentyabr. – s. 1.
169. Əsrin müqaviləsi / tərt. ed. H.Orucov. – Bakı: Azərnəşr, – 1996. – 112 s.
170. Əsrin müqaviləsi. 1994-1999 / – Bakı: [ n.y.], – 1999. – 18 s.
171. "Əsrin müqaviləsi" – XXI əsrə açılan qapı // Xalq qəzeti. – 1997, 20 sentyabr. – s. 4.
172. "Əsrin müqaviləsi"nin daha bir uğuru // Azərbaycan. – 2014, 31 yanvar. – s. 1.
173.Federiko Penya neft kəmərinin çəkilməsi üçün dəstək almışdır // Xalq qəzeti. – 1997, 25 noyabr. – s. 2.
174. Geoloji-texniki tədbirlər səmərəsiz qalmır // Xalq qəzeti. – 1997, 6 aprel. – s. 4.
175. "Gülüstan" şadlıq sarayında neft sahəsində əməkdaşlığa dair sazişin imzalanması mərasimi. Azərbaycan – Türkiyə əməkdaşlığının yeni mərhələsi // Azərbaycan. – 1995, 13 aprel. – s. 1.
176. Hacızadə, E.M. Neft-qaz sənayesində yeni bazar mexanizmlərinin formalaşdırılması istiqamətləri / E.M.Hacızadə, T.Ə.Paşayev – Bakı: Elm, – 2000. – 200 s.
177. Hacızadə, E.M. Neftqazçıxarma kompleksinin iqtisadi inkişaf modeli / E.M.Hacızadə. – Bakı: Elm, – 2002. – 472 s.
178. Hacızadə, E. Milli neft strategiyasının imperativləri // – Bakı:

Strateji təhlil, – 2011. № 3, – s. 163-175.
179. Hesabatlar. SOCAR rəqəmlərdə: [Elektron resurs] / SOCAR. URL: http://www.socar.az/az/page/hasilat-hesabat
180. Heydər Əliyev: [2 cilddə] / Baş red. Y.Mahmudov. – Bakı : “Turxan” NPB, – c. 2. – 2013. – 704 s.
181. Heydər Əliyev. Azərbaycan nefti dünya siyasətində: [5 cilddə] / tərt. ed. İ.Əliyev, A.Muradverdiyev. – Bakı: Azərbaycan, – c. 4. – 1997. – 480 s.; c. 5. – 1997. – 330 s.
182.Heydər Əliyev adına BTC Əsas ixrac boru kəmərinin istifadəyə verilməsinə həsr olunmuş təntənəli mərasim // Xalq qəzeti. – 2006, 14 iyul. – s. 2.
183. Heydər Əliyev adına Sarayda “Əsrin müqaviləsi”nin 10-cu ildönümünə həsr olunmuş təntənəli mərasim // Azərbaycan. – 2004, 21 sentyabr. – s. 3.
184. Heydər Əliyev: “Biz hələ Xəzərdə çox dünya rekordları qazanacağıq” // Xalq qəzeti. – 1997, 5 sentyabr. – s. 3.
185. Heydər Əliyev: "Hər bir dövlətin bağladığı müqavilələrə yenidən baxmaq haqqı var // Azərbaycan. – 1993, 23 iyul. – s.1.
186. Heydər Əliyev milli neft strategiyasının banisidir // Xalq qəzeti. – 2014, 20 sentyabr. – s. 6.
187. Heydər Əliyev: “Neft müqaviləsinin həyata keçirilməsi çox vacibdir” // Azərbaycan. – 1994, 30 dekabr . – s. 1.
188. Həsənov, Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996) / Ə.Həsənov. – Bakı: Elm, – 2000. – 391 s.
189. Həsənov, Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik / Ə.Həsənov. – Bakı: Azərbaycan, – 2005. – 752 s.
190. Həsənov, Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları / Ə.Həsənov. – Bakı: Zərdabi LTD, – 2016. – 700 s.
191. Həsənov, Ə. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti / Ə.Həsənov. – Bakı: Zərdabi LTD, – 2016. – 296 s.
192.Həziyev, B. Tarif kolliziyası // Azadlıq.–2000, 25-27 mart. – s. 3.
193. Hillari Klinton: “Müttəfiqlərimizin “Nabucco” ilə bağlı siyasi razılaşma əldə etməsinə çalışacağıq” // 525-ci qəzet. – 2009, 16 yanvar. – s. 1.
194. Hüseynova, İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu /

İ.Hüseynova. – Bakı: Təhsil, – 2004. – 416 s.
195.“Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə BTC Əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında sazişin” və həmin sazişə əlavə edilmiş sənədlərin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu // Respublika. – 2000, 28 may. – s. 1.
196. Xam neftin ixracı (dekabr 2016-cı il): [Elektron resurs] / SOCAR. – Yanvar 05, 2017. URL: http://www.socar.az/socar/az/news- and- media/news-archives/news-archives/id/10501
197. Xarici mətbuat Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-a rəsmi səfəri haqqında // Azərbaycan. – 1997, 6 sentyabr. – s. 4.
198. Xarici şirkətlərlə ortaqlıqda başlıca şərt dövlətimizin və xalqımızın mənafeyidir (ARDNŞ-in müşaviri Xoşbəxt Yusifzadə suallara cavab verir) // Azərbaycan. – 1993, 9 yanvar. – s. 2.
199. Xəzər dənizində “Dostluq” yatağı ilə bağlı sənədin imzalanması mühüm beynəlxalq və regional önəm daşıyır // Xalq qəzeti. – 2021, 21 yanvar. – s. 1-2.
200. “Xəzər dənizinin Azərbaycan sektorunda “Qarabağ” neft yatağının işlənməsi ilə əlaqədar “Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə “Statoyl Azərbaycan Qarabağ BV və SOCAR Qarabağ LLSi arasında Risk xidmət Sazişinin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə” Azərbaycan Respublikasının Qanunu; “Xəzər dənizinin Azəbaycan sektorunda Əşrəfi-Dan ulduzu-Aypara sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbaycan Əşrəfi-Dan Ulduzu-Aypara BV və SOCAR-ın Ortaq neft şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu // Respublika. – 2018, 6 iyul. – s. 2.
201. “Xəzər dənizinin Azərbaycan sektorunda D 230 perspektivli kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə BP Eksploreyşn (Azərbaycan) Limited şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu // Respublika. – 2018, 14 noyabr. – s. 2.

202. Xəzər dənizinin Azərbaycan sektorunda “Abşeron Dəniz Bloku-nun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Total Eksploreyşn Abşeron Bİ.Vİ və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu // Respublika. – 2009, 30 may. – s. 3.
203. Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının xarici şirkətlərlə birgə kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü barəsində müqavilələr üzrə Azərbaycan Respublikasına xarici şirkətlər tərəfindən köçürülmüş bonus ehtiyatlarının vəziyyəti haqqında Azərbaycan Respublikası Milli Bankının məlumatı // Respublika. – 2001, 4 yanvar. – s. 1.
204. Xəzər dənizinin Azərbaycana aid hissəsində “Abşeron” yatağının açılması ilə əlaqədar mətbuat konfransı keçirilmişdir // Azərbaycan. – 2011, 13 sentyabr. – s. 5.
205.Xəzər düyünü açılmağa başlayır // Mülkiyyət. – 1998, 31 mart – 7 aprel. – s. 1.
206.Xəzər nefti bölgənin tərəqqisinin təmin edilməsinin açarıdır // Xalq qəzeti. – 1997, 26 noyabr. – s. 2.
207. Xəzər neftinə maraq yenidən arta bilər // Avrasiya. – 1999, 21 aprel. – s. 7.
208. Xəzər neftinin yeni tarixi//Xalq qəzeti.– 1998, 12 noyabr. – s. 1.
209. Xəzərin ən nəhəng, dünyanın müasir neft infrastrukturu. Prezident İlham Əliyevin çıxışı // Azərbaycan. – 2017, 19 may. – s. 2.
210. Xəzərdə “İstiqlal”iyyət//Mülkiyyət.–1998, 9-22 sentyabr. – s. 1.
211. Xoşbəxt Yusifzadə BTC ilə nəql olunan neftin həcmini açıqlayıb // Xalq qəzeti. – 2016, 26 aprel. – s. 10.
212. İki dəniz arasında. Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsi / – Bakı: [ n.y.], –2002. – 27 s.
213. 2023-cü il üzrə neft-qaz göstəriciləri açıqlanıb. Azərbaycan Energetika Nazirliyi: [Elektron resurs] / Azərbaycan Energetika Nazirliyi. URL: minenergi.gov.az/az/xeberler-arxivi/00146_7892#
214. 2018-ci il Azərbaycanın neft-qaz sektorunda mühüm hadisələrlə zəngin oldu // Azərbaycan. – 2019,7 mart. – s. 10.
215. 2018-ci ildə Bakı-Supsa kəməri ilə 3,7 milyon ton neft ötürülüb: [Elektron resurs] / Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). – Yanvar 19, 2019. URL: https://azertag.az/

xeber/1235377
216. İlham Əliyev "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə iştirak edib: [Elektron resurs] / Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev. – Sentyabr 20, 2019. URL: https:/president.az/az/articles/view/34252
217. İlham Əliyev növbəti qlobal layihəsi ilə Avropanın yeni enerji xəritəsini və təhlükəsizliyini tərtib edir // Azərbaycan. – 2018, 30 may. – s. 1.
218. İlham Əliyevin yeni qlobal layihəsinin – TANAP-ın açılışı Qurtuluş missiyasının növbəti möhtəşəm zəfəri oldu // Azərbaycan. – 2018, 13 iyun. – s. 1.
219. İlkin Azərbaycan nefti Supsaya çatdı // Respublika. – 1999, 12 mart. – s. 1.
220. İlkin neft iki istiqamətdə ixrac ediləcək // Azərbaycan. – 1995, 11 oktyabr. – s.3.
221. İsmayılov, M.Ə. Azərbaycan neft sənayesinin inqilabaqədərki tarixi / M.Ə.İsmayılov, M.C.İbrahimov – Bakı: Elm, – 1991. – 284 s.
222. İstanbulda "Şahdəniz" qaz-kondensat yatağının işlənilməsi və TANAP layihəsindəki pay bölgülərində dəyişikliklər edilməsi ilə bağlı sənədlər imzalanmışdır // Respublika. – 2014, 31 may. – s. 4.
223. İtaliya xarici işlər naziri: "TAP layihəsi Azərbaycanla ikitərəfli münasibətlərin genişləndirilməsi yolunda da mühüm addımdır // Xalq qəzeti. – 2013, 30 iyun. – s. 3.
224. "İtoçu" Əsrin müqaviləsində iştirak etməyə böyük maraq göstərir // Xalq qəzeti. – 1996, 12 mart. – s. 1.
225. 28 May – Respublika günü münasibətilə rəsmi qəbul keçirilib. Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // Azərbaycan. – 2015, 28 may. – s. 3.
226. 20-ci əsrin ən böyük sənaye "evliliyi" // Panorama. – 1998, 13 avqust. – s. 1.
227.XXI əsrin əzəmətli layihələri naminə quruculuq işləri başlayır // Xalq qəzeti. – 2000, 27 oktyabr. – s. 2.
228.XXI əsrin əzəmətli layihələri naminə quruculuq işləri başlayır // Xalq qəzeti. – 2000, 28 oktyabr. – s. 5.
229. Kapitolidə ARDNŞ ilə ABŞ-ın "Monkrif oyl" və Türkiyənin "Petoyl" şirkətləri arasında sazişin imzalanması mərasimi // Respublika. – 2000, 23 sentyabr. – s. 1.

230. Kərimov, V. Neft sənayesində müştərək müəssisələrin fəaliyyətinin mövcud vəziyyəti // Xalq qəzeti. – 2007, 27 may. – s. 7.
231. Kərimova, T.İ. İqtisadiyyatın investisiya potensialı: formalaşması və istifadə mexanizmləri / T.İ.Kərimova. – Bakı: İqtisad Universiteti, – 2008. – 225 s.
232. Konsorsium gündə 100000 dollar itirir // Avrasiya. – 1999, 19 fevral. – s. 7.
233. Qazaxıstan Azərbaycanla Bakı-Supsa kəməri vasitəsilə neftin nəqli barəsində danışıqlar aparır: [Elektron resurs] / APA. – Yanvar 16, 2024. URL: https://apa.az/senaye-ve-energetika/qazaxistan-baki-supsa-kemeri-ile-3-mln-tonadek-nefti-neql-etmek-maragindadir-812311
234. Qazaxıstanın BTC-yə qoşulması haqqında müqavlənin imzalanması // Xalq qəzeti. – 2006, 17 iyun. – s. 2.
235. Qərb boru kəmərinin çəkilişi üçün müsabiqə // Panorama. – 1996, 6 dekabr. – s.2.
236. Qərb ixrac boru kəməri: faktlar, rəqəmlər // Xalq qəzeti. – 1998, 17 dekabr. – s.4.
237. Qərb neft kəməri işə düşdü // Xalq qəzeti. – 1998, 11 dekabr. – s. 4.
238. Qərb neft kəməri və Supsa terminalı işə başladı // Xalq qəzeti. – 1999, 18 aprel. – s. 1.
239. Qərb neft şirkətləri konsorsiumu ilə danışıqlarda razlıq əldə olunmamışdır // Azərbaycan. – 1994, 28 iyun. – s. 2.
240. Qonaqov, R. Xəzər hövzəsi və enerji təhlükəsizliyi / R.Qonaqov. – Bakı: Elm, – 2018. – 200 s.
241. Quliyev, S.F. Azərbaycan Respublikasının neft strategiyası və Qafqazda təhlükəsizlik problemləri (1991-2008-ci illər): / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2015. – 28 s.
242. Quluzadə, K. Növbəti neft müqaviləsi imzalandı // Ayna. – 1996, 21 dekabr. – s.7.
243. Quluzadə, K. ARDNŞ oyun qaydalarını müəyyən edir // Ayna. – 1996, 16 noyabr. – s. 12.
244. "Qurtuluş" qazma qurğusu istismara buraxıldı // Xalq qəzeti. – 2000, 31 avqust. – s. 1.
245. Quru yataqlarının ikinci həyatı başlanır // Xalq qəzeti. – 1997, 25 aprel. – s. 3.

246. “Lider” yarımdalma üzən qazma qurğusu istifadəyə verilmişdir // Respublika. – 2003, 25 iyul. – s. 1.
247. “Lukoil”un “Şahdəniz”də alacaq payı azalıb: [Elektron resurs] / APA. – Dekabr 10, 2021. URL: https://apa.az/az/senaye-ve-energetika/lukoilun-sahdenizde-alacaq-payi-azalib-675313)
248. Mahmudov, Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti / Y.Mahmudov. – Bakı: Təhsil, – 2002. – 328 s.
249.MDB məkanında siyasi hadisə və ya Əsas ixrac kəməri Ceyhana gedəcək // Mülkiyyət. – 1998, 12-19 may. – s. 1.
250. Mehdiyev, Ə. Azərbaycan Dövlət Neft Fondunun sosial və infrastruktur layihələrində iştirakı // UMTEB International Kongress on Vocational and Technical Sciences-X, Full Text Book, – Nakhchivan: Nakhchivan University, – October 16-18, – 2020, – p. 471-476.
251. Mehdiyev, Ə. Azərbaycan neft sənayesi XIX yüzilin son rübündə / Ə.Mehdiyev. – Bakı: Altay, – 2000. – 128 s.
252. Mehdiyev, Ə. Azərbaycan neft sənayesində xarici kapital: tarixi təcrübə və perspektivlər // – Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, – 2003. №1, – s. 101-109.
253. Mehdiyev, Ə. Azərbaycan neftinin şimal ixrac boru kəməri // – Bakı: Geostrategiya, – 2012. №06 (12), – s. 12-17.
254. Mehdiyev, Ə. Azərbaycan Respublikasının neft siyasəti: əsas vəzifələr, ilkin nəticələr // – Bakı: Geostrategiya, – 2016. №04 (34), – s. 13-18.
255. Mehdiyev, Ə. Azərbaycanda neft erasının başlanması // – Bakı: Tarix və onun problemləri, – 1998. №2, – s. 147-154.
256. Mehdiyev, Ə. Azərbaycanın neft ixrac boru kəməri marşrutlarının şaxələndirilməsi məsələsinə dair // ATLAS International Congress on Social Sciences 7, Proceeding book, – Budapest: – September 23-25, – 2020, – p.632-644.
257. Mehdiyev, Ə. Azərbaycanın neft strategiyası: inkişafı və əsas xüsusiyyətləri // – Bakı: Geostrategiya, – 2012. №01 (07), – s. 5-14.
258. Mehdiyev, Ə. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri // – Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – 2013. №4 (44), – s. 135-146.
259. Mehdiyev, Ə. “Əsrin müqaviləsi”: imzalanmanın ilkin şərtləri və Azərbaycanın sosial-iqtisadi inkişafında rolu // 1st International

Hazar Scientific Research Conference, Proceeding book, – Baku: Khazar University, – September 18-20, – 2020, – p. 810-820.
260. Mehdiyev, Ə. “Əsrin müqaviləsi”: uğurlar və perspektivlər // – Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – 2017. №4 (60), – s. 159-168.
261. Mehdiyev, Ə. “Əsrin müqaviləsi”ndən gəlirin 80 faizi Azərbaycana çatacaq // Kaspi. – 1999, 30 sentyabr – 2 oktyabr. – s. 7.
262. Mehdiyev, Ə. Geosiyasi mübarizənin qalibi: “Əsrin müqaviləsi” // – Bakı: Geostrategiya, – 2011. №02 (02), – s. 34-42.
263. Mehdiyev, Ə. İxrac marşrutlarının şaxələndirilməsi: Bakı-Supsa neft boru kəməri//– Bakı: Geostrategiya, – 2013. №01 (13), – s. 25-30.
264. Mehdiyev, Ə. Müstəqil Azərbaycanın neft strategiyası // – Bakı: Tarix və onun problemləri, – 2003. №1, – s. 219-234.
265. Mehdiyev, Ə. Regionun enerji təhlükəsizliyində Azərbaycanın rolunun güclənməsi: Cənubi Qafqaz Boru Kəməri // – Bakı: Geostrategiya, – 2015. №03 (27), – s. 3-7.
266. Milli Məclis TANAP layihəsinə müsbət münasibət bildirdi // Azərbaycan. – 2012, 21 noyabr . – s. 1.
267. Milli Məclisin iclasında //Azərbaycan–2000, 26 oktyabr. – s. 3.
268. 1999-cu il ABƏŞ üçün uğurlu olmuşdur // Xalq qəzeti. – 1999, 25 dekabr. – s. 3.
269. Mirzəbəyli, İ. İclas gərgin keçdi, çünki söhbət Azərbaycan neftinin sabahından gedir // Xalq qəzeti. – 1996, 10 fevral. – s. 1.
270. Möhkəm təməl üzərində //Respublika.– 2017, 18 yanvar . – s. 7.
271. Mövsümov, Ş. “Mərkəzi Bankın valyuta rejimi investisiya istiqamətlərimizə təsir etmir” – APA, (08.02.2017): [Elektron resurs] / Azərbaycan Respublikası Dövlət Neft Fondu. URL: https://www. oilfund. az/fund/press-room/press-mirror/100
272. Müstəqil Azərbaycan 10 il / – Bakı: Səda, – 2001. – 702 s.
273. “Nabukko” konsorsiumu “Şahdəniz” qazının nəqli üçün təklif-lərini təqdim etmişdir // Xalq qəzeti. – 2011, 2 oktyabr. – s. 1.
274. Nabukko layihəsinə dair hökumətlərarası saziş bu ilin birinci y-arısında İstanbulda imzalana bilər // Azərbaycan. – 2009, 29 yanvar. – s. 4.
275. “Nabukko”nun Azərbaycan qolunu kəsdilər // Yeni Müsavat. – 2012, 18 mart. – s. 5.
276. Nadirov, A. İqtisadiyyatımızın Heydər Əliyev mərhələsi //

Azərbaycan. – 1998, 11 mart. – s. 4.
277. Nazir: Gürcüstanın daxili bazarında qazın 97%-ni Azərbaycan təmin edir: [Elektron resurs] / Report İnformasiya Agentliyi. – İyun 13, 2019. URL: report.az/energetika/nazir-gurcustanin-daxili-bazarin-da-qazin-97-ni-azerbaycan-temin-edir
278. Nazir: 1995-2019-cu illərdə Azərbaycanın neft sektoruna 106 milyard dollardan çox investisiya yatırılıb: [Elektron resurs] / Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). – İyul 24, 2020. URL: https://azertag.az/xeber/Nazir_1995_2019_cu_illerde_ Azerbay canin_neft_sektoruna_106_milyard_dollardan_cox_investisiya_yatiril ib_1545597
279. Neft – bizim xoşbəxtliyimiz və başağrımız. İlham Əliyev ölkənin inkişafının perspektivləri haqqında danışır // Mülkiyyət. – 2001, 25 mart. – s. 4; 7-8.
280. Neft Fondunun icraçı direktoru MHŞT-nin Beynəlxalq İdarə Heyətinin 36-cı iclasında iştirak etmişdir: [Elektron resurs] / Azərbaycan Respublikası Dövlət Neft Fondu. – Mart 10, 2017. URL: https://www.oilfund.az/fund/press-room/news-archive/1266
281. Neft hərracı (Birinci yazı) // Azadlıq. – 1996, 23 oktyabr. – s. 6.
282. Neft hərracı (İkinci yazı) // Azadlıq. – 1996, 25 oktyabr. – s. 6.
283. Neft kəməri regionun geosiyasi vəziyyətini dəyişə bilər // Panorama. – 1996, 24 dekabr. – s. 3.
284. Neft müqaviləsinin yeni layihəsi imzalanmaq üçün hazırdır // Azərbaycan. – 1993, 2 noyabr. – s. 2.
285. Neft nəhənglərinin növbəti izdivacı // Panorama. – 1998, 3 dekabr. – s.1.
286. Neft sənayesinin inkişafında mühüm mərhələ. Prezidentin sərəncamı dəniz neftçilərinin əməyinə verilən yüksək qiymətdir // Azərbaycan. – 1997, 21 dekabr. – s.2.
287.Neft strategiyası Azərbaycanın ixrac potensialını artırır // Xalq qəzeti. – 2015, 1 mart. – s. 1.
288. Neft və sabiq kommunistə Amerika alqışları // Xalq qəzeti. – 1997, 6 sentyabr. – s. 4.
289.Neftin qiyməti 35 dollara çatıb // 525-ci qəzet. – 2000, 8 sentyabr. – s. 3.
290.Neftin qiymətləri artıb // Mülkiyyət. – 2001, 25 mart. – s. 13.
291. Nəsirov, E.X. Azərbaycan nefti və beynəlxalq müqavilələr

(1991-1999) / E.X.Nəsirov. – Bakı: Respublika Xatirə Kitabı, – 1999. – 104 s.
292. Nəsirov, E.M. Azərbaycan neft və qaz sənayesi: nailiyyətlər və perspektivlər // – Bakı: Azerbaijan Focus, – 2010. №2 (2), – s. 75-84.
293. Okumuş, O. Avropa İttifaqı "Nabukko"nu uduzanda Türkiyə nə itirdi? // Azərbaycanın enerji siyasəti Qərb mətbuatında, – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 2015. – s. 142-146.
294. 18 ildə 138 milyard dollarlıq qazanc // Azərbaycan. – 2019, 11 yanvar. – s. 1.
295. Orxan, V. ABŞ Azərbaycan və Türkmənistanı Transxəzər kəməri barədə razılığa gəlməyə çağırır // 525-ci qəzet. – 2008, 18 iyun. – s. 1.
296. Orxan, V. "Nabucco" layihəsinə yaşıl işıq // 525-ci qəzet. – 2009, 27 yanvar. – s. 1- 4.
297. Ögütçü, M. Azərbaycanın "Şahdəniz-2" layihəsi və "Cənub axını": potensial təhlükə // Azərbaycanın enerji siyasəti Qərb mətbuatında, – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 2015. – s. 181-190.
298. Ötən il Bakı-Novorossiysk kəməri ilə 1,3 milyon tonadək neft nəql olunub: [Elektron resurs] / Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). – Yanvar 20, 2019. URL: https://azertag.az/xeber/1235684
299. Panfilova, V. Azərbaycanın enerji sahəsində təsir rıçaqları // Azərbaycanın enerji siyasəti Qərb mətbuatında, – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 2015. – s. 150-154.
300. Parlament neft sazişlərini təsdiq etdi // Azərbaycan. – 2011, 7 may. – s. 6.
301. Parlament yeni neft sazişlərini təsdiq etdi // Azərbaycan. – 2009, 23 may. – s. 3.
302. Prezident Corc Buş ABŞ hökumətinin milli enerji siyasətinə dair doktrinasını açıqlamışdır // Azərbaycan. – 2001, 20 may. – s. 1.
303. Prezident xalqın sərvətini müftə paylayır // Azadlıq. – 1999, 17-19 iyul. – s. 6.
304. Prezident İlham Əliyev Bakıda Cənub qaz dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşündə iştirak edib // Azərbaycan. – 2015, 13 fevral. – s. 1.
305. Prezident İlham Əliyev Bakıda Cənub qaz dəhlizi Məşvərət

Şurası çərçivəsində nazirlərin görüşündə iştirak edib. Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // Azərbaycan. – 2015, 14 fevral. – s. 1-2.
306. Prezident İlham Əliyev "Çıraq" neft layihəsinin bir hissəsi olan "Qərbi Çıraq" platformasının tamamlanmış üst modullarında aparılan işlərlə tanış olmuşdur // Azərbaycan. – 2013, 24 iyul. – s. 1.
307. Prezident İlham Əliyev və Baş Nazir Ə. Davudoğlu mətbuata bəyanatlarla çıxış ediblər // Azərbaycan. – 2015, 4 dekabr. – s. 2.
308. Prezident İlham Əliyev və Baş Nazir R.T.Ərdoğan mətbuata birgə bəyanatla çıxış etmişlər // Xalq qəzeti. – 2012, 28 iyun. – s. 2-3.
309. Prezident İlham Əliyevin Münxen təhlükəsizlik konfransının "Enerji, ehtiyatlar və ətraf mühit: yeni təhlükəsizlik parametrləri" mövzusunda müzakirələrdə çıxışı // Azərbaycan.–2012, 5 fevral.– s. 1.
310. Prezident Sarayında respublika ictimaiyyəti nümayəndələrinin ATƏT-in İstanbul zirvə görüşünün yekunlarına həsr olunmuş toplantısında ARDNŞ-in prezidenti N.Əliyevin məruzəsi // Xalq qəzeti. – 1999, 27 noyabr. – s. 3.
311. Putin Yunanıstan hökumətini yola gətirdi // Bizim yol. – 2015, 20 iyun. – s. 6.
312. Rakeş, K.S. "Nabukko": Boru kəməri boru xülyasına necə çevrildi // Azərbaycanın enerji siyasəti Qərb mətbuatında, – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 2015. – s.135-142.
313. "RAMCO" "Əsrin müqaviləsi"ndəki payını satdı // 525-ci qəzet. – 2000, 26 dekabr. – s. 10.
314. Respublika Sarayında "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr olunmuş təntənəli mərasim. ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyevin məruzəsi // Xalq qəzeti. – 1999, 21 sentyabr. – s. 2-3.
315. Rəhbər Komitənin 10 may 2001-ci il tarixli Qərarına müvafiq olaraq Qərb İxrac Marşrutu üzrə Neft-qaz əməliyyatları ilə bağlı xərclərin razılaşdırılmış hesablanma qaydası haqqında Protokol // Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin cari arxivi. Sərmayələr İdarəsi. İş – "İxrac boru kəmərləri haqqında sorğu məlumatları", vərəq – 1-2.
316. Rövnəq Abdullayev: "Azəri-Çıraq-Günəşli" yataqları üzrə yeni Saziş bu ildən qüvvəyə minəcək // Respublika. – 2017, 20 sentyabr. – s. 2.
317. Rövnəq Abdullayev: "Trans-Anadolu qaz kəməri "Nabucco"nu gündəlikdən çıxarmayacaq" // Xalq qəzeti. – 2012, 14 fevral. – s. 6.

318. Rusiya Federasiyasının Prezidenti D. Medvedevin Azərbaycana rəsmi səfəri // Azərbaycan. – 2010, 4 sentyabr. – s. 2-3.
319. Rusiya oyundankənar vəziyyətdə qala bilər // Avrasiya. – 1999, 11 fevral. – s. 7.
320. Rusiya və Çeçenistan Azərbaycan neftinin nəql edilməsi barədə müqavilə imzaladılar // Panorama. – 1997, 10 sentyabr. – s. 3.
321. Rusiyanın "Lukoyl" şirkəti qərb neft konsorsiumuna daxil olmuşdur // Azərbaycan. – 1994, 24 mart. – s. 2.
322. Rusiyanın "Lukoyl" şirkəti BTC boru kəməri ilə sınaq neft nəqlini həyata keçirmişdir // Xalq qəzeti. – 2014, 25 may. – s. 6.
323. Rzayeva, G. Azərbaycan dövlətinin enerji siyasəti müstəqilliyin iyirminci ildönümündə: nailiyyətlər, məqsədlər və perspektivlər // – Bakı: Strateji təhlil, – 2011. № 3, – s. 199-214.
324. Salonikidə Trans-Adriatik qaz boru kəmərinin təməli qoyulub // Azərbaycan. – 2016, 18 may. – s. 3.
325. Səfərov, S. İham Əliyev və yeni neft strategiyasının reallaşması // Azərbaycan. – 2002, 13 oktyabr. – s. 3.
326. Sənədlərin imzalanması mərasimi // Azərbaycan. – 2011, 14 yanvar. – s. 1.
327. "Snam" "Statoil"ın TAP-dakı payını alıb: [Elektron resurs] / APA. – Dekabr 18, 2015. URL: https://apa.az/az/senaye-ve-energetika/ xeber__snam___statoil_in_tap-daki_payini_alib_-408919
328. SOCAR: [Elektron resurs] / SOCAR. URL: http://www.socar .az/socar/az/home
329. SOCAR: Cənub Qaz Dəhlizi ilə Avropaya ilk qaz çatdırılıb: [Elektron resurs] / Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). – Dekabr 31, 2020. URL: https://azertag.az/xeber/ SOCAR_Cenub_Qaz_Dehlizi_ile_Avropaya_ilk_qaz_chatdirilib-1679107
330. SOCAR Norveç şirkətinin AÇG, "Qarabağ" yataqları və BTC layihəsindəki paylarını alıb: [Elektron resurs] / Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). – Dekabr 22, 2023. URL: https://azertag.az/xeber/socar_norvech_sirketinin_achg_qarabag_yataqlari_ve_btc_layihesindeki_paylarini_alib-2860993
331. SOCAR "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri layihələrində iştirak payını artırır: [Elektron resurs] / SOCAR. – Dekabr 10, 2021. URL: https:// www.socar.az/socar/az/news-and-

media/news-archives/news-archives/2021/12
332. SOCAR və BP "Azəri-Çıraq-Günəşli" yatağının 2050-ci ilədək işlənməsinə dair razılaşmanın prinsiplərini imzalayıblar // Respublika. – 2016, 24 dekabr. – s. 11.
333. SOCAR Yunanıstana rədd cavabı verdi // Bizim yol. – 2015, 17 fevral. – s. 8.
334. Sokor, V. Azərbaycanın qaz ixracı üçün bir çox variantları // – Bakı: Azerbaijan Focus, – 2010. №2 (2), – s.149-155.
335. S.R.Şərifovun Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan. – 2001, 4 yanvar. – s. 1.
336. "Statoyl" "Şahdəniz" və Cənubi Qafqaz qaz kəməri layihəsində iştirak payının 10 faizini satmışdır // Xalq qəzeti.– 2014, 7 may. – s. 5.
337. Supsa terminalının quraşdırılması başa çatmışdır // Xalq qəzeti. – 1999, 21 fevral. – s. 1.
338. Supsadan 500.000 ton Azərbaycan nefti yola salınıb // Xalq qəzeti. – 1999, 4 iyun. – s. 2.
339. Şaban, İ. Cənub Qaz Dəhlizi. Azərbaycanın XXI əsrdəki meqa layihəsi, 2007-2022. Faktlar, sənədlər və rəqəmlər toplusu / İ.Şaban. – Bakı: TEAS-Press Nəşriyyat evi, – 2023. – 244 s.
340. Şahbazov, E. Heydər Əliyevin neft strategiyası // – Bakı: Dirçəliş – XXI əsr, – 2003. № 67-68, – s.162-165.
341. Şahbazov, E. Neft strategiyası: zamanın yeni təqvimi // – Bakı: Dirçəliş – XXI əsr, – 2007. № 108-109, – s.187-191.
342. "Şahdəniz" konsorsiumu Azərbaycan qazının Avropaya nəqli ilə bağlı yeni qərar qəbul etmişdir // Xalq qəzeti. – 2012, 22 fevral. – s. 5.
343. "Şahdəniz" konsorsiumu Azərbaycan qazının Avropaya nəqli üçün TAP boru kəməri layihəsini seçmişdir // Respublika. – 2013, 29 iyun. – s. 5.
344. "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub qaz dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan. – 2014, 26 fevral. – s. 3.
345. "Şahdəniz" qazını özümüz də ala bilərik // Azadlıq. – 2001, 6-8 oktyabr. – s. 9.
346. "Şahdəniz" layihəsi tikinti mərhələsinə qədəm qoyur // Xalq

qəzeti. – 2003, 28 fevral. – s. 1.
347. “Şahdəniz” nələr vəd edir? // Xalq qəzeti. – 1996, 5 oktyabr. – s. 3.
348. “Şahdəniz” ümidləri doğruldur // Xalq qəzeti. – 2000, 22 aprel. – s. 2.
349. “Şahdəniz” yatağına dair layihənin təqdimatı // Azərbaycan. – 1996, 16 noyabr. – s. 2.
350. “Şahdəniz” yatağında əldə edilmiş nəticələrin Azərbaycan Prezidenti Heydər Əliyevə təqdimat mərasimi // Xalq qəzeti. – 1999, 13 iyul. – s. 1-2.
351. “Şahdəniz” yatağından çıxarılan ilk qaz Səngəçal terminalına çatmışdır // Azərbaycan. – 2006, 12 noyabr. – s. 1.
352. “Şahdəniz” yatağının ikinci işlənmə mərhələsinə start verildi // Xalq qəzeti. – 2012, 18 aprel. – s. 2.
353. “Şahdəniz”in yeddi tərəfdaşından biri – “NİCO” // Azərbaycan. – 2012, 10 mart. – s. 6.
354.Şirkətlər Bakı-Ceyhan layihəsinin arxasında duran siyasi reallıqları artıq duymağa, dərk etməyə başlayırlar // Xalq qəzeti. – 1998, 17 dekabr. – s. 1.
355. TANAP ilə “Türk axını” və hər hansı bir digər layihənin rəqabət aparmasından söhbət belə gedə bilməz // Respublika. – 2015, 6 iyun. – s. 9.
356. TANAP layihəsində iştirak paylarının ilkin bölgüsü açıqlanmışdır // Azərbaycan. – 2012, 9 noyabr. – s. 8.
357. TAP: Köhnə ssenarilərin doğurduğu yeni çətinliklər // Xalq qəzeti. – 2016, 28 yanvar. – s. 5.
358. TAP layihəsinin ümumi xərcləri azalıb // 525-ci qəzet. – 2016, 6 yanvar. – s. 6.
359. “Total” şirkəti “Abşeron” strukturunun işlənməsində iştirak edəcək // Xalq qəzeti. – 1997, 6 sentyabr. – s. 5.
360. “Total”ın “Şahdəniz” layihəsindəki payının satışı haqqında müqavilə imzalandı // Xalq qəzeti. – 2014, 31 may. – s. 3.
361. Trans-Anadolu qaz boru kəmərinin təməli qoyulub // Azərbaycan. – 2015, 18 mart. – s. 2.
362. Trans-Anadolu qaz boru kəmərinin təməli qoyulub // Azərbaycan. – 2015, 19 mart. – s. 4.
363. Türkiyənin enerji naziri: “Azərbaycanla bölgədəki mövcud

balansı dəyişdirəcək anlaşma imzaladıq // Xalq qəzeti. – 2011, 30 oktyabr. – s. 4.
364. Türkiyənin qaz bazarında Azərbaycanın payı artır: [Elektron resurs] / Vergilər. – Yanvar 21, 2020. URL: vergiler.az/news/ economy/6734.html
365. Uğurlu nəticələr, geniş perspektivlər. ARDNŞ-in birinci vitse-prezidenti akademik X.Yusifzadə ilə müsahibə // Respublika. – 2012, 2 fevral. – s. 3.
366. Ümummilli liderimiz Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsinin yeni mərhələsi – Azərbaycanın "Böyük neft" erası başlandı // Respublika. – 2005, 19 fevral. – s. 1.
367. Valeh Ələsgərov: "Şimal marşrutu bağlanmayacaq" // Avrasiya. – 1999, 7 may. – s. 5.
368. Yeni neft müqaviləsi imzalanıb // 525-ci qəzet. – 2004, 19 iyun. – s.1.
369. Yusifzadə, X. Ömrümün illəri və izləri / X.Yusifzadə. – Bakı: OSKAR, – 2004. – 284 s.
370. Zeynalov, İ. Azərbaycanın milli dövlətçilik tarixində Heydər Əliyev zirvəsi: dahi şəxsiyyətin şərəfli ömür yolu / İ.Zeynalov. – Bakı: "Füyuzat", – 2024. – 656 s.
371. "Wikileaks" Azərbaycana dair şok neft gizlinlərini açdı // Yeni Müsavat. – 2010, 17 dekabr. – s. 7.

**Türk dilində**

372. Aras, O.N. Azerbaycan ekonomisi ve yatırım imkanları / O.N.Aras. – Bakü: Qismet, – 2005. – 396 s.
373. Mehdiyev, A. Enerji Kaynaklarının Naklinde Azerbaycan-Türkiye İşbirliği: "Nabucco"dan "Güney Gaz Koridoru"na // – Ankara: Atatürk Araştırma Merkezi Dergisi, – 2018. № 34/97, – s. 241-264.
374. Mehdiyev, A. Küresel enerji projelerinde Azerbaycan-Türkiye işbirliği // BİLTEK-IV, 4. International Sympozium on Current Developments in Science, Technology and Social Sciences, The book of full texts, – Gaziantep: – April 12-13, – 2021, – p. 329-342.

## Rus dilində

375. Агакишиев, И.А. Бакинская нефть и начало каспийского нефтяного бума (1991-2005) / И.А.Агакишиев. – Санкт-Петербург: Алетейя, – 2018. – 452 с.
376. Агакишиев, И.А. История Бакинской нефтяной промышленности и второй нефтяной бум (вторая половина XIX – начало XXI вв.) / И.А.Агакишиев. – Москва: Вердана, – 2011. – 244 с.
377. Азербайджан превращается в одну из основных газодобывающих стран в мире // Бакинский рабочий. – 2011, 22 сентября. – с. 4.
378. Азербайджанская нефть, год 1997 // Mülkiyyət. – 1998, 10-25 fevral. – с. 6.
379. Азербайджанская нефть – 1998 год // Mülkiyyət. – 1999, 27 yanvar – 4 fevral. – с. 4-5.
380. “Azerbaijan blend” уже в Супсе // Mülkiyyət. – 1999, 16-25 mart. – с. 3.
381. Алиев, И. Каспийская нефть Азербайджана / И.Алиев. – Москва: Известия, – 2003. – 712 с.
382. Алиев, Н.А. ОЭТ Баку-Тбилиси-Джейхан: от видения к реальности / Н.А.Алиев, М.А.Мирзоев, Э.К.Шахбазов – Баку: Azərbaycan, – 2001. – 168 с.
383. Ализаде, Ф. Казахстан готов заполнить азербайджанские трубопроводы // Зеркало. – 2012, 28 декабря. – с. 4.
384. Ализаде, Ф. Консорциум «Шахдениз» подписал соглашения с европейскими покупателями газа // Зеркало. – 2013, 20 сентября. – с. 1.
385. Ализаде, Ф. Нефтяное процветание // Зеркало. – 2014, 3 мая. – с. 9.
386. Ализаде, Ф. По итогам года АМОК даст Азербайджану около 3 млрд. долларов нефтяной прибыли // Зеркало. – 2006, 22 июля. – с. 14.
387. Ализаде, Ф. Россия хочет больше газа // Зеркало. – 2010, 4 сентября. – с.17.
388. Ализаде, Ф. Российский газ ставит на колени Армению // Зеркало. – 2013, 21 июня. – с. 3.
389.АМОК лучше забыть о возмещении // Mülkiyyət. – 1999, 6-13 aprel. – с. 3.

390. АМОК меняет структуру // Mülkiyyət. – 1999, 25 mart – 1 aprel. – с. 3.
391.АМОК переносит все сроки // Mülkiyyət. – 1998, 1-8 dekabr. – с. 3.
392. Асим, Ф. Nabucco все еще под сомнением… // Зеркало. – 2011, 2 апреля. – с. 18.
393. Асим, Ф. «Набукко» по-прежнему ждет Россию // Зеркало. – 2011, 12 марта. – с. 16.
394.Асим, Ф. Туркменистан наращивает прокачку по BTC // Зеркало. – 2012, 21 ноября. – с. 4.
395. Баку-Джейхан способен дешеветь // Mülkiyyət. – 1998, 24 noyabr – 1 dekabr. – с. 4.
396. Балиев, А. Коалиция против Азербайджана // Российская газета. – 1997, 16 августа. – с. 3.
397. Букин, Д.В. Значение Каспийского региона в мировом энергетическом балансе и национальные интересы России: / Автореф. дис. канд. экон. наук. / – Москва, 2000. – 21 с.
398. Бхадракумар, М.К. Россия перекраивает энергетическую карту Европы: [Электронный ресурс] / Иносми.ру.Россия сегодня. – Май 12, 2011. URL: https://inosmi.ru/world/20110512/169320905.html
399. Велиев, Э. Энергетическая экспансия России в состоянии агонии // Зеркало. – 2009, 27 января. – с. 1.
400. Велизаде, И. Голубая мечта Европы // Азербайджанские известия. – 2009, 27 января. – с. 1-2.
401. В первом квартале 2018 г. азербайджанский газ начнет поставляться на европейский рынок // Бакинский рабочий. – 2013, 1 января. – с. 1.
402. В поисках срединной линии // Mülkiyyət. – 1998, 5-22 dekabr. – с. 3.
403. Газовый Happy – end отложен // Mülkiyyət. – 1999, 20-27 iyul. – с. 3.
404. Гасанов, А. Современные международные отношения и внешняя политика Азербайджана. Учебник, 2-ое изд., доп. / А. Гасанов. – Баку: Zərdabi LTD, – 2013. – 1008 с.
405. Глухов, Ю. Уроки для простаков // Правда. – 1997, 8-14 августа. – с. 1; 7.

406. ГНКАР опять в «трубе» // Mülkiyyət, – 1998, 9-22 sentyabr. – с. 4.
407. ГНКАР отгрузила в Супсе первую прибыльную нефть // Mülkiyyət. – 1999, 22-29 dekabr. – с. 4.
408. ГНКАР форсирует месторождения на суше // Mülkiyyət. – 1997, 4-11 noyabr. – с. 4.
409. Грузия снижает транзитно-нефтяной тариф // Mülkiyyət. – 1998, 17-24 noyabr. – с. 3
410. Гулузаде, К. И вновь о трубопроводах, или о сорвавшейся попытке экспорта азербайджанской нефти // Зеркало. – 1997, 8 февраля. – с. 15.
411. Гулузаде, К. Терри Адамс: «Я очень доволен» // Зеркало. – 1996, 28 декабря. – с. 20.
412. Гусейналиев, Ф. Началось строительство трубопровода Баку-Тбилиси-Джейхан. Амбиции Азербайджана находят свое реальное воплощение // Деловой Азербайджан. – 2002, 24 сентября – 1 октября. – с. 2.
413. Гусейнов, Р. АМОК подсчитала бюджет // Mülkiyyət. – 1998, 8-15 dekabr. – с. 5.
414. Гусейнов, Р. Затраты XX века растут, какова будет прибыль? // Неделя. – 1998 , 8 мая. – с. 9.
415. Гусейнов, Р. Отношения между АМОК и ГНКАР обостряются // Неделя. – 1998 , 12 июня. – с. 6.
416.Гусейнов, Р., Кесамански, П. Баку-Джейхана не будет, вообще или пока? // Mülkiyyət. – 1998, 27 oktyabr – 3 noyabr. – с. 4.
417. Гусейнов, Э. Алиев привез в Вашингтон нефть, а намерен увезти мир и инвестиции // Известия. – 1997, 31 июля. – с. 3.
418. Дойдет ли дело до арбитража? // Mülkiyyət. – 1998, 17-23 iyun. – с. 3.
419. Ергин, Д. Добыча. Всемирная история борьбы за нефть, деньги и власть / Д.Ергин. – Москва: ДеНово, – 1999. – 968 с.
420. Жильцов, С.С. Геополитика Каспийского региона / С.С.Жильцов, И.С.Зонн, А.М.Ушков – Москва: Международные отношения, – 2003. – 280 с.
421. Завершена работа над моделью Нефтяного фонда Азербайджана // Зеркало. – 2000, 4 августа. – с. 3.

422. Завершено создание правовой базы для реализации Nabucco // Бакинский рабочий. – 2011, 9 июня. – с. 3.
423. Заславский, И. Дело труба. Баку-Тбилиси-Джейхан и казахстанский выбор на Каспии / И.Заславский. – Москва: Европа, – 2005. – 192 с.
424. Зубков, И. Россия отказалась от «Южного потока», наши убытки будут минимальны. Отрубили // Российская газета. – 2014 , 3 декабря. – с. 1.
425. Из порта Джейхан отправлено свыше 20 млн. тонн азербайджанской нефти // Эхо. – 2013, 8 января. – с. 4.
426. Каждому своя рубашка ближе к телу // Эхо. – 2011, 8 февраля. – с. 4.
427.Каспий остается морем неразрешенных проблем // Вышка. – 1998, 17 апреля. – с. 3.
428.«Кашаган» еще больше сблизит Азербайджан и Казахстан // Азербайджанские известия. – 2013, 1 октября. – с. 2.
429.Кесамански, П., Гусейнов, Р. Психологическая атака // Mülkiyyət. – 1999, 25 may – 1 iyun. – с. 3.
430. Коновалов, В., Иванов-Смоленский, Г. Алиев против Алиева // Известия.- 1993, 4 августа. – с. 5.
431.Кришталев, Е. Претензии обсуждаются // Азербайджанские известия. – 2006, 15 апреля. – с. 1.
432. Курбанова, И. Единогласно ратифицирован нефтяной контракт на разработку нефтяных месторождений "Дан улдузу" и "Ашрафи" // Бакинский рабочий. – 1997, 27 февраля. – с. 1.
433. «Лукойл» - одиночка // Mülkiyyət. – 1999, 18-24 avqust. – с. 4.
434. Лютый, И., Кулиев, Р. Государственный нефтяной фонд – как одна из эффективных моделей накопительных фондов в мире // – Bakı: Dirçəliş – XXI əsr, – 2013. №176-177, – с. 378-387.
435. Махмутова, М. Национальный Нефтяной Фонд: опыт Казахстана: [Электронный ресурс] / Public Policy Research Center. URL: http://budget.az/upload/files/409_Oil_Fund_Makhmutova__Conference_in_Moscow.pdf
436. Мехтиев, А. Азербайджанская модель накопительных фондов // – Москва: Современная наука: актуальные проблемы

теории и практики, Серия Экономика и право, – 2018. №11, – с. 78-82.
437. Мехтиев, А. К вопросу сотрудничества Азербайджана и России в международных энергетических проектах на Каспии // International Black Sea Coastline Countries Symposium – IV, Full texts book, – Giresun: – April 28-30, – 2021, – p. 811-817.
438. Мехтиев, А. Нефтяной фактор в истории Азербайджана // – Москва: Вопросы истории, – 2018. №10, – с. 138-144.
439. Мехтиев, А. Основные этапы становления нефтяной стратегии Азербайджана в период независимости // – Bakı: Geostrategiya, – 2017. №01 (37), – с. 12-17.
440. Мехтиев, А. Формирование и реализация нефтяной политики Азербайджанской Республики // – Москва: Современная научная мысль, – 2016. №4, – с. 33-42.
441. Мирзоев, М. Меняя всю энергетическую конфигурацию // Азербайджанские известия. – 2008, 25 апреля. – с. 1.
442. Мустафаева, К. Ашгабад склоняется к «Набукко»? // Азербайджанские известия. – 2010, 26 октября. – с. 1.
443. Мустафаева, К. Выстраивается коридор для газа // Азербайджанские известия. – 2015, 31 июля. – с. 2.
444. Мустафаева, К. Расчет на перспективу // Азербайджанские известия. – 2014, 2 октября. – с. 2.
445. Мустафаева, К. Северный маршрут остается в строю // Азербайджанские известия. – 2014, 20 февраля. – с. 1.
446. Мустафаева, К. TANAP в режиме экономии // Азербайджанские известия. – 2016, 15 марта. – с. 2.
447. Мустафаева, К. TANAP обрел юридический статус // Азербайджанские известия. – 2012, 21 ноября. – с. 2.
448. Мурадалиева, Э.Б. Кровь земная – нефть Азербайджана и история. Книга 1. / Э.Б.Мурадалиева. – Баку: Мутарджим, – 2005. – 256 с.
449. Мощный альянс станет штурмовать недра Каспия // Бакинский рабочий. – 2000, 16 сентября. – с. 1.
450. На суше празднуют победу // Mülkiyyət. – 1999, 3-10 mart. – с. 3.
451. На экспорт газа с «Шахдениз-2» претендуют два газопровода // Бакинский рабочий. – 2012, 29 июня. – с. 6.

452. Насиров, Р. Азербайджан играет важную роль в обеспечении будущего энергетической безопасности Европы // Бакинский рабочий. – 2011, 13 августа. – с. 2.
453.Нефть оправдывает доверия // Зеркало.– 2013, 17 июля. – с. 3.
454.Нефтяной апокалипсис продолжится // Mülkiyyət. – 1998, 24 noyabr – 1 dekabr. – с. 4.
455. Нефтяной саммит в Супсе // Mülkiyyət. – 1999, 20-27 aprel. – с. 3.
456. Новая газовая карта мира // Известия.– 2009, 29 января. – с. 7.
457. Обе стороны подтвердили гарантии // Бакинский рабочий. – 1997, 29 марта. – с. 3.
458. О концепции формирования и использования средств Национального фонда Республики Казахыстан: [Электронный ресурс] / ИПС “Adilet”. URL: https://adilet.zan.kz/rus/docs/U1600000385
459. Османов, Ф., Багиров, Э. Король умер, да здравствует король! // Зеркало. – 2013, 20 июля. – с. 5.
460.ОЭТ подпишут без гарантии? // Mülkiyyət. – 1999, 16-25 noyabr. – с. 3.
461. Первая прибыльная нефть //Вышка.–1999, 31 декабря.– с. 3.
462. Петров, С.П. Каспийская нефть как фактор мировой и региональной политики (конец XX – начало XXI вв.): / Автореф. дис. канд. ист. наук. / – Москва, 2005. – 25 с.
463. Полухов, Э. «Контракт века» (Проблема в исторической ретроспективе) // Azərbaycan neftinin dünəni, bu günü və sabahı, – Bakı: [ n.y.], – 1997. – с. 190-231.
464. Приступило к работе СП «Ширван ойл» // Бакинский рабочий. – 1997, 10 сентября. – с.4.
465. Прокачка азербайджанской нефти по Баку-Новороссийск возобновлена // Вышка. – 2015, 24 июля. – с. 4.
466. Рагимов, М. Нефтяные контракты-важный показатель активной внешнеэкономической политики Азербайджана // Великий шёлковый путь и Азербайджан: вчера, сегодня, завтра. Сб. ст. – Баку: Университет Азербайджан, – 1998. – с. 83-94.
467. Резервный Фонд: [Электронный ресурс] / Минфин России. URL: http://minfin.ru/ru/perfomance/reservefund/mission
468. Ровнаг Абдуллаев: «Азербайджан будет играть все большую

роль в обеспечении энергобезопасности Европы» // Бакинский рабочий. – 2011, 16 июля. – с. 1.
469. Ровнаг Абдуллаев: «В настоящее время мы работаем с турецкой стороной над разработкой межправительственного соглашения по проекту TANAP» // Бакинский рабочий. – 2012, 5 апреля. – с. 5.
470. России не следует заниматься имитацией деятельности // Mülkiyyət. – 1999, 20-27 iyul. – с. 3.
471. Россия завершила строительство морской части «Турецкого потока» // Бакинский рабочий. – 2018, 23 ноября. – с. 10.
472.Россия подала заявку на ОЭТ // Mülkiyyət. – 1998, 14-20 oktyabr. – с. 4.
473. Рустамова, Э. «Газпрому» не удалось вытиснуть TANAP // Эхо. – 2015, 10 июля. – с. 4.
474. Санько, В. Собственник недр – государство // Независимая газета. – 1999, 30 декабря. – с. 5.
475. Сафаров, Б. «Контракт века» продлен // Эхо. – 2017, 15 сентября. – с. 1; 3.
476. Сменен региональный президент «bp-Азербайджан» // Зеркало. – 2012, 3 ноября. – с. 3.
477. Совет директоров ГНК принял решение о юнитизации месторождений «Гюнешли», «Чыраг» и «Азери» // Бакинский рабочий. – 1993, 8 июня . – с.1.
478. Султанов, Ч.А. Прерванный полёт. Вторая попытка / Ч.А.Султанов. – Баку: Сабах, – 1997. – 452 с.
479. “Total” обнаружила крупное газовое месторождение на Каспии // Бакинский рабочий. – 2011, 10 сентября. – с. 2.
480. «Тотал» получила 20% в контракте «Абшерон» // Mülkiyyət. – 1997, 9-16 sentyabr. – с. 3.
481. «Транснефть» готова уступить // Mülkiyyət. – 1999, 27 aprel – 4 may. – с. 4.
482. «Транснефть» и SOCAR договорились прокачать в 2021 г. более 1 млн т азербайджанской нефти по трубопроводу Баку-Новороссийск: [Электронный ресурс] / Trend news agency. – Январь 21, 2021. URL: https://www.trend.az/business/energy/3367746.html
483. Турецкий поток» газует // Российская газета. – 2016, 11

октября. – с. 1-2.
484. Усейнов, А. Финансовая блокада оказалась несостоятельной // Деловой Азербайджан. – 2003, 29 июля – 5 августа. – с.9-11.
485. Фатулла, А. Контракт на разработку «Шахдениз» продлен до 2036 года // Зеркало. – 2011 , 3 марта. – с. 4.
486. Фатулла, А. Россия предпочитает конкретные дела // Зеркало. – 2011, 22 апреля. – с. 4.
487. Фатулла, А. Успех BP в Азербайджане на фоне провала в России // Зеркало. – 2011, 11 мая. – с. 4.
488. Философия «второго фронта» // Mülkiyyət. – 1999, 25 may – 1 iyun. – с. 3.
489. Фуад, А. Азербайджан пошел навстречу партнерам по «Шахдениз» // Зеркало. – 2013, 29 января. – с. 4.
490. Фуад, А. Азербайджан практически лишился северного маршрута // Зеркало. – 2013, 15 мая. – с. 4.
491. Фуад, А. Азербайджан увеличил долю в проекте АЧГ // Зеркало. – 2011, 16 июля. – с. 16.
492. Фуад, А. Европа не потеряла шанса на альтернативу // Зеркало. – 2011, 14 мая. – с. 18.
493. Фуад, А. Европа не сможет обойтись без российского газа // Зеркало. – 2013, 5 октября. – с. 15.
494. Фуад, А. Каспийский газ в обход России // Зеркало. – 2011, 22 сентября. – с. 4.
495. Фуад, А. «Nabucco» может стать короче // Зеркало. – 2012, 21 февраля. – с.4.
496. Фуад, А. Средства ГНФАР для нефтегазового сектора // Зеркало. – 2013, 3 декабря. – с. 4.
497. Чернявский, С.И. Десять лет истории Азербайджана: 2003-2013 годы / С.И.Чернявский.– Москва: ФЛИНТА, – 2013. – 400 с.
498. Шапагатова, Б. Национальный фонд Республики Казахстан: инвестиции в устойчивое развитие / Б.Шапагатова. – Алматы: Фонд Сорос-Казахстан, – 2011. – 52 с.
499. Шорохов, В. Нефть и политика Азербайджана / В.Шорохов. – Москва: МГИМО (У) МИД РФ, – 1997. – 65 с.
500. SOCAR увеличит прокачку нефти через Россию в 2017 году: [Электронный ресурс] / Trend news agency. – Январь 09, 2017. URL: https://www.trend.az/business/energy/2706658.html;

501. “Statoil” продала свою долю в «Шахдениз» // Эхо. – 2014, 14 октября . – с.1.
502. Forbes: “TANAP освободит Европу от российской газовой зависимости” // Бакинский рабочий. – 2012 , 21 ноября. – с. 5.

**İngilis dilində**

503. Azeri-Chirag-Deepwater Gunashli: [Electronic resource] / BPAzerbaijan. URL:https://www.bp.com/en_az/azerbaijan/home/who-we-are/operationsprojects/acg2.html
504. Brzezinski Z. The grand chessboard. American Primacy and Its Geostrategic Imperatives. – New-York: Basic Books, – 1997. – 223 p.
505. Caspian Energy Politics: Azerbaijan, Kazakhstan and Turkmenistan. / Edited by Indra Overland, Heidi Kjaernet and Andrea Kendall-Taylor – London, – New-York: Routledge, – 2010. – 184 p.
506. Mehdiyev, A. The impact of the oil strategy on the geopolitical position of Azerbaijan // 4th International New York Conference on Evolving Trends in Interdisciplinary Research and Practices, Full texts book, – Manhattan, New-York City: – May 2-4, – 2021, – p.72-82.
507. The contract of the century – a national strategy for success: [Electronic resource] / BPAzerbaijan.URL:https://www.bp. com /en_az/ azerbaijan/home/who-we-are/operationsprojects/acg2/the-contract-of-the-century---a-national-strategy-for-success.html

# İXTİSARLAR

| | |
|---|---|
| ABƏŞ | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti |
| "AÇG" | "Azəri", "Çıraq" və "Günəşli" |
| "AGRİ" | "Azerbaijan-Georgia-Romania İnterconnector" |
| Aİ | Avropa İttifaqı |
| APA İA | Azəri-Press Agentliyi |
| ARDNF | Azərbaycan Respublikası Dövlət Neft Fondu |
| ARDNŞ (SOCAR) | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti |
| AZƏRTAC | Azərbaycan Dövlət Teleqraf Agentliyi |
| BTC ƏİBK | Bakı-Tbilisi-Ceyhan Əsas ixrac boru kəməri |
| CQBK | Cənubi Qafqaz Boru Kəməri |
| HPBHS | Hasilatın pay bölgüsü haqqında saziş |
| QHT | Qeyri-hökumət təşkilatları |
| MHŞT | Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü |
| MSŞA | Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası |
| OPEC | Organization of the Petroleum Exporting Countries<br>(Neft İxrac Edən Ölkələr Birliyi) |
| TANAP | Trans-Anadolu Boru Kəməri |
| TAP | Trans-Adriatik Boru Kəməri |
| ÜDM | Ümumi Daxili Məhsul |

**QEYD:**

**ƏRƏSTUN MEHDİYEV**

# AZƏRBAYCAN RESPUBLİKASININ NEFT STRATEGİYASI: FORMALAŞMASI VƏ HƏYATA KEÇİRİLMƏSİ (1991-2023)

Format 60x84 $^{1}/_{16}$. F.ç.v. 21,5
Tiraj: 500

"Ocaq" Nəşriyyat-poliqrafuya MMC